İMAM ƏLİNİN (Ə) HƏYATI

SEYİD HAŞİM RƏSULİ MƏHƏLLATİ

BAKI-2010

Müəllif: **Rəsuli Məhəllati**

Tərcümə edənlər: **Mais Ağaverdiyev**

Rüstəm Lazımov

Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin
10 avqust 2010-cu il DK-512/A saylı məktubu əsasında çap olunmuşdur.

===== Kitabın adı: ..... İmam Əlinin (ə) həyatı
===== Müəllif: ..... Rəsuli Məhəllati
===== Mütərcim: ..... Mais Ağaverdiyev, Rüstəm Lazımov
===== Redaktor: ..... Mail Yaqub
===== Nəşriyyat: ..... "NURLAR" NPM
===== Çap tarixi: 2010
===== Tiraj: 2000 1z-500

I FƏSİL

ƏMİRƏL-MÖMİNİN ƏLİ İBN ƏBUTALİBİN (Ə) ƏSİL-NƏSƏBİ

Əmirəl-möminin Əli ibn Əbutalibin (ə) valideynləri

"Peyğəmbərlərin tarixi" kitabının üçüncü cildində İslam peyğəmbərinin həyatından bəhs edərkən qeyd etdik ki, onun nəsli ərəb qəbilələri arasında ən nəcib və ən şərafətli nəsil olmuşdur.[1] Məlum olduğu kimi İmam Əli (ə) Həzrət Peyğəmbərin (s) əmisi oğlu idi və bu baxımdan o da Peyğəmbərlə (s) eyni nəslə mənsub olmuşdur. Atası Əbutalib Peyğəmbərin (s) əmisi olmaqla yanaşı öz dövründə Bəni-Haşimin başçısı, Peyğəmbərin (s) himayədarı olmaq şərəfinə nail olmuşdur.[2] Mötəbər hədislərə əsasən Əbdülmüttəlibdən sonra məhz o, Peyğəmbəri (s) öz himayəsinə götürmüşdür.[3]

Hədislərin birində İmam Əlinin (ə) belə buyurduğu qeyd edilir: "Allaha and olsun ki, atam, əcdadım Əbdülmüttəlib, Haşim və Əbdmənaf heç vaxt bütə sitayiş etməmişlər." Ondan "Bəs onlar nəyə sitayiş ediblər?" – deyə soruşduqda belə cavab vermişdir: "Onlar Kəbəyə doğru namaz qılmış və İbrahim (ə) peyğəmbərin dininə pərəstiş etmişlər."[4]

Şeyx Mufid, Şeyx Tusi, Şeyx Təbərsi və digər böyük şiə alimlərinin dediyinə görə Əbutalibin Həzrət Peyğəmbərə (s) iman gətirməsi danılmaz bir faktdır və inkar edilə bilməz. Çünki bu barədə Əbutalibin öz dilindən söylənilmiş bir çox şeirləri ilə yanaşı,[5] onun fədakarlıqla Peyğəmbəri (s) müdafiə etməsi buna sübutdur. Belə ki, Həzrət Peyğəmbərin (s) və müsəlmanların Məkkə müşrikləri tərəfindən hərcəhətli blokadaya salındığı dövrlərdə Əbutalib Qüreyş müşriklərinin qəzəbinə tuş gəlmiş, onunla əlaqələrini kəsmişdilər. Lakin o, bütün bu çətinliklərə mətanətlə sinə gərmiş, yolundan dönməmişdir. Blokada qaldırıldıqdan sonra onunla Qüreyş arasında münasibət yenidən düzəlməyə başlamışdır.

Əbutalib bir neçə dəfə Peyğəmbərə görə hətta öz canını da təhlükəyə atmış, Qüreyş müşriklərinə qarşı qılınca əl atmaq məcburiyyətində qalmışdır.

Amma rəvayətlərə istinadən, bunu da qeyd etmək lazımdır ki, Əbutalib, öz missiyasını, yəni, İslam dinini və Həzrət Peyğəmbəri (s) qorumaq vəzifəsini həyata keçirə bilməkdən ötrü öz imanını Qüreyş müşriklərindən gizli saxlamışdır. Qüreyş müşrikləri-

---

[1] Həzrət Məhəmmədin (s) həyatı, s-1-34.
[2] Həzrət Məhəmmədin (s) həyatı, s-76-214.
[3] Biharul-ənvar, c-9, s-19.
[4] Kəmalud-din (Şeyx Səduq), s-104; "Əl-Burhan" təfsiri, c-3, s-795.
[5] Həzrət Məhəmmədin (s) həyatı, s-331.

nə sözünün keçərli olması və nüfuzundan istifadə edib İslam dini və Peyğəmbərin xeyrinə addım atmaq imkanı əldə etmək üçün o, imanını büruzə veməmişdir. Təbii ki, belə böyük bir hədəfə çatmaqdan ötrü icazə verilən bu üsuldan istifadə edənlərə Mütəal Allah ikiqat savab verəcəkdir. İmam Sadiq buyurmuşdur: "Əbutalibin durumu imanını gizli saxlayan Əshabi-kəhfin durumuna bənzəyir. Onlar üzdə kafir kimi görünsələr də, qəlblərində iman gətirdiklərinə görə Allah onlara ikiqat savab bəxş etdi."[1]

Görkəmli sünni alimi İbn Əbilhədid də İmam Zeynül-Abidindən Əbutalibin yeganə Allaha imanı barədə çox maraqlı bir hədis qeyd etmişdir. Hədisdə deyilir: "Necə ola bilər ki, Peyğəmbər (s) müsəlman qadınlara müşrik kişilərin kəbinində qalmağı qadağan etsin, lakin Fatimə bint Əsəd imanlı bir qadin olduğu halda Əbutalibin nikahında qalsın?!"[2]

Yazarlardan birinin qeyd etdiyi kimi, tarixin haqsızlığına məruz qalan Əbutalib və onun kimi bəzilərinin tək bir günahı Əmirəl-möminin Əli (ə) ilə olan bağlılıqlarıdır. Məhz buna görə də Bəni-Üməyyə, ardınca da Bəni-Abbas onların fəzilətlərini tarixdən silməyə çalışmışlar. Cəfər Təyyar, Əqil, onların övladları, ümumiyyətlə, İmam Əli (ə) ilə hər hansı bir bağlılığı olan istənilən şəxs belə haqsızlıqlara məruz qalmışdır. Məsələn, bəziləri öz əsərlərində Həbəşistana hicrət edən müsəlmanlara rəhbərlik etmiş Cəfər ibn Əbutalibin oranın kralı Nəcaşinin hüzurundakı şücaətli çıxışını əsassız cilvələndirməyə çalışmış və ya mötəbər hədislərə əsasən Mutə döyüşündə Peyğəmbər (s) tərəfindən birinci sərkərdə təyin edilən Cəfərin fəzilətini kiçiltməyə çalışaraq guya Zeyd ibn Harisənin birinci sərkərdə təyin edildiyini göstərmişlər. Beləliklə İmam Əli (ə) və onunla bağlılığı olan şəxslərə mənsub bu və digər fəzilətləri ya inkar etməyə, ya əsassız qələmə verməyə, ya da ki, həmin fəzilətləri Müaviyə, Abbas və Bəni-Abbas üçün qondarmağa səy göstərmişlər.

Əmirəl-möminin Əlinin (ə) anası Fatimə bint Əsədə gəlincə isə qeyd etməliyik ki, o da Qüreyş və Bəni-Haşim xanədanına mənsub bir xanım olmuşdur. Fatimənin atası Əsəd, Haşim ibn Əbdmənafın oğlu və Əbutaliblə əmioğlu olmuş, Peyğəmbərlə eyni nəsildəndirlər.

Fatimə bint Əsəd İslamı ilk qəbul edən şəxslərdən biri idi. Uşaq yaşlarında Fatimədən hədsiz qayğı görən Peyğəmbər (s) onu çox sevirdi. Onun üçün həmişə xeyir-dua edir, onu daim xoş duyğularla xatırlayırdı. Fatimə bint Əsəd həqiqətən Peyğəmbərə (s) əsl ana qayğısı göstərmiş, onu öz balası kimi böyütmüşdür.

İbn Əbilhədid "Nəhcül-bəlağənin şərhi" əsərində yazır: "Fatimə bint Əsəd Peyğəmbərə (s) ilk iman gətirən qadınlardan biri, ümumilikdə isə on birinci müsəlman olmuşdur. Etdiyi vəsiyyətə əsasən Peyğəmbər (s) özü ona cənazə namazı qılmışdır."[3] İslamı qəbul etməkdə öncüllərdən olmaq hər bir müsəlman kişi və qadın

[1] Üsuli-Kafi, c. 1, s. 448.
[2] Biharul-ənvar, c-35, s-68-183; əl-Qədir, c-7, s-49-330
[3] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-1, s-6

üçün böyük şərəf, məziyyətdir və bu baxımdan Fatimə bint Əsəd yüksək məqama malikdir. Bundan əlavə o, Məkkədən Mədinəyə mühacirət edənlər sırasındadır və təbii ki, bu da onun üçün böyük bir fəzilət sayılır. Allah-Təala bu haqda buyurur: **"(İslamı) ilk əvvəl qəbul edib (bu işdə başqalarından) irəli düşən mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar. (Allah) onlar üçün əbədi qalacaqları, (ağacları) altından çaylar axan cənnətlər hazırlamışdır. Bu, böyük qurtuluşdur (uğurdur)!"**[1] Bu böyük fəzilətə nail olan Fatimə bint Əsəd, Həzrət Peyğəmbər (s) hicrət etdikdən cəmi üç gün sonra oğlu Əli, Peyğəmbərin qızı Fatimə-Zəhra (s.ə) və Fatimə bint Zübeyrlə birlikdə Mədinəyə hicrət etmişdi.

Fatimə bint Əsədin imanı

Bu möhtərəm xanımın hələ besətdən (həzrət Məhəmmədin (s) peyğəmbərliyə seçilməsindən) öncə Uca Allaha və Onun peyğəmbərlərinə olan imanını sübuta yetirmək üçün həm şiə, həm də sünni mənbələrində qeyd edilmiş aşağıdakı əhvalat kifayət edər:

Fatimə bint Əsədin doğuş sancısı başladıqda o, Kəbə evinin divarlarına yaxınlaşaraq Allaha belə xitab edir: "İlahi, mən Sənə, göndərdiyin bütün peyğəmbərlərə və kitablara inanır, cəddim İbrahimin söylədiklərini təsdiq edir və bu evin (Kəbənin) onun tərəfindən tikildiyini etiraf edirəm. Ey Allahım, Səni and verirəm bu evi inşa etmiş şəxsə və bətnimdəki körpəyə, onun doğuşunu mənim üçün asan et!" Bu sözlərdən dərhal sonra Kəbənin divarı aralanır və Fatimə oraya daxil olub Əli ibn Əbutalibi dünyaya gətirir.

Əbutaliblə Fatimə bint Əsədin izdivacı

İbn Şəhraşub "Mənaqib" adlı əsərində qeyd etmişdir ki, Əbutalib Fatimə bint Əsədlə izdivacı ərəfəsində bu sözləri söyləmişdir: "Həmd olsun aləmlərin Rəbbinə, Ərşin, böyük məqamın, Məşərül-həramın, Hətimin (Kəbə evinin) sahibi olan Allaha! O, bizi Kəbə evinin xidmətçiliyinə seçdi, bizi Kəbənin imanlı qulluqçuları etdi, bizi eyib və nöqsandan, çirkinliklərdən uzaqlaşdırdı. Bizim üçün müəyyən ayinlər təyin etməklə bizi digər qəbilələrdən üstün etdi. Bizi İbrahimin nəslindən və İsmailin övladlarından seçdi.

Mən Fatimə bint Əsədlə ailə qururam. Bunun üçün mehriyyəmi də özümlə gətirmiş və lazım olan hər şeyi tədarük görmüşəm. İstəyirsinizsə, özündən (Əsəddən) də soruşun və doğru dediyimi öyrənin!" Əsəd də öz növbəsində deyir: "Biz onu (Fatiməni) sənə ərə verdik və bu evliliyə razıyıq."

Bunun ardınca Əbutalib camaata toy qonaqlığı verir. Bu izdivacla əlaqədar Üməyyə ibn Əbusəlt bir neçə beyt şeir söyləyir.

[1] Tövbə-100

Fatimə bint Əsədin Həzrət Peyğəmbərin (s) barəsində söylədikləri

Mərhum Ravəndi "Xəraic" adlı əsərində Fatimə bint Əsədin belə söylədiyini qeyd edir: "Əbdülmüttəlib ömrünün son anlarında övladlarını yanına çağırıb onlardan soruşdu ki, hansı biriniz Məhəmmədi öz himayəsinə götürər? Oğlanları cavabında dedilər: Məhəmmədin özündən soruş gör, hansımızı seçmək istəyir. Əbdülmüttəlib onların dediyi kimi etdi. Balaca Məhəmmədi yanına çağırıb ona dedi: "Məhəmməd, baban artıq axirət yurduna tələsir, sən əmi və ya bibilərindən hansı ilə qalmaq istəyirsən?" Məhəmməd bir-bir hamının üzünə baxaraq Əbutalibə işarə etdi. Bunu görən Əbdülmüttəlib üzünü Əbutalibə tutub dedi: "Əbutalib, mən sənin necə əmanətdar bir insan olduğuna yaxşı bələdəm, Məhəmmədi mən necə qoruyurdumsa, bundan sonra sən də elə qorumalısan!"

Əbdülmüttəlibin vəfatından dərhal sonra Əbutalib Məhəmmədi evinə gətirdi. Mən ona qulluq edir, o da məni: "Ana"- deyə çağırırdı. Bir gün Əbutalib mənə dedi ki, bu uşaq böyüyüb peyğəmbər olacaq, sən də onun üçün bir canişin dünyaya gətirəcəksən."

"Üsuli-Kafi" kitabında İmam Sadiqdən (ə) belə nəql edilmişdir: "Peyğəmbər anadan olduqda Fatimə bint Əsəd ərinin yanına gəlib ona müjdə verir. Əbutalib ona deyir ki, "səbt" qədər səbr et, mən də sənə onun kimi bir övladla müjdələyərəm." İmam Sadiq (ə) "səbt" sözünün mənasını açıqlayaraq onun "otuz il" olduğunu bildirir. Həzrət Peyğəmbərlə (s) İmam Əli (ə) arasındakı yaş fərqi də otuz il olmuşdur.

"Rovzətul-Kafi" kitabında deyilir: "Peyğəmbər dünyaya gələrkən Fatimə bint Əsəd kömək etməkdən ötrü Aminənin (Peyğəmbərin anasının) yanına gəlir. O (Peyğəmbər) anadan olarkən şərqdən qərbədək hər tərəfi əhatə edən bir nur peyda olur və bu, onların hər ikisinin təəccübünə səbəb olur.

Fatimə bint Əsədin təəccübbünü görən Əbutalib bunun səbəbini soruşduqda o, baş verən hadisəni danışır. Əbutalib ona deyir: "Sənə bir müjdə verimmi?" Fatimə "Bəli" deyə cavab verir. Əbutalib deyir: "Gələcəkdə sən də belə bir uşaq dünyaya gətirəcəksən və o, bunun canişini olacaq."

Fatimə bint Əsədin vəfatı

Tarixi faktlara əsasən Fatimə bint Əsəd Mədinədə vəfat etmiş və orada dəfn edilmişdir. Lakin vəfat tarixi dəqiq məlum deyil. "Usdul-qabə" əsərinin müəllifinin yazdığına görə o, Əli (ə) ilə Fatimənin (s.ə) izdivacından sonra vəfat etmişdir. Buna istinadən deyə bilərik ki, Fatimə bint Əsəd hicrətin üç və ya dördüncü ilində vəfat etmişdir. Onun dəfn mərasiminə gəldikdə isə qeyd etməliyik ki, həm şiə, həm də sünni məzhəblərinin hədis qaynaqlarında[1] Fatimə bint Əsədin dəfn mərasimində Peyğəmbərin (s) bilavasitə iştirak etdiyi, onun tabutunu çiyninə aldığı, qəbrinin qa-

[1] Biharul-ənvar, c-25, s-70; 81; 179-180

zılmasında yaxından köməklik etdiyi bildirilir. Hədislərdə o da göstərilir ki, qəbir qazılması başa çatdıqdan sonra Peyğəmbər (s) özü qəbrə uzanmış, daha sonra isə öz köynəyini çıxarıb Fatimə bint Əsədin ona bükülməsini tapşırmışdı. Bütün bunlar təbii ki, Peyğəmbərin (s) ona necə rəğbət göstərməsindən xəbər verir. Mərhum Kuleyni İmam Sadiqdən (ə) belə bir hədis nəql edir: "Əmirəl-möminin anası Fatimə bint Əsəd Məkkədən Mədinəyə piyada hicrət etmiş ilk qadındır. O, başqalarından daha tez Peyğəmbərə yaxşılıq etmişdir. Fatimə Peyğəmbərin: "İnsanlar Qiyamət günü anadan olduqları şəkildə (paltarsız) toplaşacaq."- deyə buyurduğunu eşitdikdə deyir ki, vay halımıza, rüsvay olacağıq. Peyğəmbər (s) ona buyurur: "Mən Allaha dua edəcəyəm ki, səni örtülü şəkildə məhşur etsin." Peyğəmbərdən qəbir əzabı barədə eşitdikdə isə deyir ki, vay halımıza! Bu zaman Peyğəmbər (s) ona buyurur: " Allahdan istəyəcəyəm ki, səni qəbir əzabından azad etsin."

Bir gün Fatimə bint Əsəd Peyğəmbərə deyir ki, mən kənizimi azad etmək istəyirəm. Bunu eşitdikdə həzrət buyurur: "Onda Allah o kənizin hər bir bədən üzvü qədər sənin bədən üzvünü Cəhənnəm oduna haram buyurar."

Fatimə bint Əsəd ölüm yatağına düşdükdə Peyğəmbərə vəsiyyət edir ki, onun kənizini azad etsin. Artıq danışmaq iqtidarında olmadığından bunu işarə ilə başa salır. Peyğəmbər (s) də onun vəsiyyətinə əməl edir.

Bir gün Peyğəmbər (s) Əlinin (ə) ağlaya-ağlaya onun yanına gəldiyini görür. Ağlamasının səbəbini soruşduqda Əli (ə) "anam vəfat etdi" deyə cavab verir. Bunu eşitcək Peyğəmbər (s) buyurur: "Allaha and olsun ki, o, mənim də anam idi." Sonra isə dərhal yerindən qalxıb Fatimə bint Əsədin nəşinin yanına gələrək ağlamağa başlayır. Qadınlara Fatiməyə qüsl verələrini, qüsldən sonra heç nə etməyib ona xəbər etmələrini tapşırır. Qadınlar Fatiməyə qüsl verən kimi Peyğəmbərə (s) xəbər verirlər. Peyğəmbər (s) geydiyi köynəklərdən birini onlara verib Fatiməni məhz onunla kəfənləmələrini əmr edir. Səhabələrə də buyurur ki, məndə ilk dəfə müşahidə etdiyiniz hər bir hərəkətin səbəbini soruşun. Fatimənin kəfənlənməsi başa çatdıqdan sonra Peyğəmbər (s) özü də onun cənazəsini çiyninə alaraq qəbir evinədək aparır. Fatiməni qəbrə qoymazdan öncə özü qəbrə düşüb uzanır, sonra isə qəbirdən çıxıb onu qəbrə qoyurlar. Bunun ardınca Peyğəmbər (s) qəbrə sarı əyilib Fatiməyə nəsə pıçıldayır, axırda da üç dəfə: "Oğlun"– deyə söyləyir. Qəbirdən qalxıb Fatimənin üstünü torpaqla örtür, sonra da özünü qəbrin üstünə atıb: "Allahdan başqa tanrı yoxdur. İlahi, onu Sənə tapşırıram!"– deyə buyurur.

Bütün bunları müşahidə edən səhabələr Peyğəmbərə (s) yaxınlaşaraq deyirlər ki, ya Rəsuləllah, səndən bu günədək görmədiyimiz bəzi şeyləri müşahidə etdik, bunun səbəbi nədir? Həzrət onların cavabında buyurur: "Mən bu gün bir daha Əbutalibin yaxşılıqlarını əldən verdim. Fatimə elə bir qadın idi ki, əlində olanı övladlarından və özündən qabaq mənə verərdi. Mən bir gün qiyamət günü barədə danışarkən: "İnsanlar Qiyamət günü anadan olduqları şəkildə (paltarsız) toplaşa-

caq”- dedikdə Fatimə dedi ki, vay halımıza, rüsvay olacağıq. Mən də ona söz verdim ki, Allaha sənin örtülü şəkildə məhşur ediləcəyin üçün dua edəcəyəm. Mən qəbir əzabı barədə danışdıqda o dedi ki, vay halımıza! Mən də ona söz verdim ki, Allaha sənin qəbir əzabından azad edilmən üçün dua edəcəyəm.

Qəbrə sarı əyilib ona pıçıldayarkən ondan soruşulan sualların cavabını deyirdim. Ondan: “Rəbbin kimdir?”- deyə sual edildikdə cavab verdi, “Peyğəmbərin kimdir?”– deyə sual edildikdə ona da cavb verdi. Lakin: “İmamın kimdir?”- deyə sual edildikdə cavab verə bilmədi, bunun üçün də mən ona üç dəfə: “Oğlun” - deyə səsləndim.”

Şeyx Səduq “Əmali” əsərində nəql edir ki, dəfn mərasimi başa çatdıqdan sonra Peyğəmbər (s) Əmmar Yasirə buyurur: “And olsun Allaha, Fatimənin qəbrindən çıxarkən mələklər nurdan hazırlanmış iki çırağı onun başı üstündə, iki çırağı əllərinin yanında, ikisini də ayaqlarının altında qoydular. İki mələk də onun qəbrində saxlanıldı ki, Qiyamətədək onun bağışlanması üçün dua etsinlər.”

“İləluş-şərayi” kitabında bildirilir ki, Peyğəmbər (s) Fatiməni Rəvhada-Əbu Qüteyfənin hamamının qarşısında dəfn etdi.

Şeyx Mufid “əl-İrşad” kitabında imam Həsənin şəhadəti və dəfni haqqında yazır: “ O həzrəti nənəsi Fatimə bint Əsədin qəbri kənarında dəfn etdilər.

Bu sətirlərin müəllifinin fikrincə Bəqi qəbristanlığında dörd məsum imamın qəbrinin yanında yerləşən və Fatimeyi-Zəhranın qəbri olduğu iddia edilən qəbir məhz Fatimə bint Əsədin qəbridir. Şeyx Mufidin irəli sürdüyü fikir də bu mülahizəni təsdiqləyir.

Fatimə bint Əsədin altmış və ya altmış beş il ömür sürdüyü qeyd edilir. Lakin belə görünür ki, hər iki mülahizə yanlışdır və çox güman ki, o, səksən beş il, ya bir qədər də artıq yaşamışdır.

Əbutaliblə Fatimə bint Əsədin övladları

Bəni-Haşim qəbiləsinin qadınları arasında Bəni-Haşimdən olan bir kişiyə ərə gedib övlad dünyaya gətirən ilk xanım məhz Fatimə bint Əsəd olmuşdur. Buna görə də onların övladları hər iki tərəfdən (həm ata, həm də ana tərəfdən) Bəni-Haşimə mənsub olub “Haşimi” sayılırlar.

Tarixçilərin yazdığına görə Əbutalibin Fatimədən dörd oğlu, iki qızı olmuşdur.Oğlanları Talib, Əqil, Cəfər və Əli müvafiq olaraq hər biri özündən sonrakı qardaşından düz on yaş böyuk olmuşdur. Bu hesablamaya əsasən Əli (ə) anadan olarkən Cəfərin on, Əqilin iyirmi, Talibin isə otuz yaşı olmuşdur.

Əbutalibin Fatimədən olan qızlarına gəldikdə isə bunlar Ümmi-Hani ləqəbi ilə tanınmış Faxinə və Cəmanə olmuşdur. Bu kitab Əmirəl-möminin Əlinin (ə) həyatına həsr edildiyindən Əbutaliblə Fatimənin digər övladları haqqında ətraflı məlumat üçün başqa tarixi mənbələrə müraciət edə bilərsiniz.

II FƏSİL

ƏMİRƏL-MÖMİNİN ƏLİ İBN ƏBUTALİBİN(Ə) DÜNYAYA GƏLMƏSİ

Doğum tarixi

Tarixçilər arasında geniş yayılmış fikrə əsasən Əli (ə) Yəmən hökmdarı Əbrəhənin Kəbəyə doğru Fil yürüşündən otuz il sonra Rəcəb ayının 13-də dünyaya gəlmişdir. Şeyx Mufid "ət-Təhzib" əsərində yazır: "O həzrət Yəmən hökmdarı Əbrəhənin Kəbəyə doğru Fil yürüşündən otuz il sonra Rəcəb ayının 13-də Məkkə şəhərində, Kəbə evində anadan olmuşdur."

"Əl-Misbah" kitabında Əli (ə) anadan olarkən Peyğəmbərin (s) iyirmi səkkiz yaşında olduğu və bu hadisənin besətdən on iki il əvvəl baş verdiyi göstərilir. "Bəşairul-Mustəfa" kitabında isə həmin vaxt Peyğəmbərin (s) otuz yaşı olduğu söylənilir. "Dürus" əsərinin müəllifi də məhz bu fikrə üstünlük vermişdir. Bu sətirlərin müəllifi də belə hesab edir ki, sonuncu fikir digər tarixçilərin Peyğəmbərin (s) dünyaya gəlməsi və Əlinin (ə) o həzrətə iman gətirməsi tarixi ilə daha uyğun gəlir. Çünki Peyğəmbərin (s) həyatından bəhs edərkən qeyd etdik ki, tarixçilərin fikrincə həzrət Məhəmməd (s) Fil əhvalatı ilində anadan olmuş və peyğəmbər seçildikdən dərhal sonra Əli (ə) on yaşında ikən ona iman gətirmişdir.

Əmirəl-möminin Əlinin (ə) anadan olduğu ay və gün barədə də müxtəlif fikirlər səsləndirilmişdir. Belə ki, bəzi tarixçilər onun Şəban ayının yeddisi, bəziləri on yeddisi, digər bir dəstə isə iyirmi üçündə anadan olduğunu bildirmişdir. Mötəbər mənbələrə istinadən isə o həzrət Rəcəb ayının 13-də anadan olmuşdur.[1]

Əbutalibin Əlinin (ə) dünyaya gələcəyi barədə xəbər verməsi

Şeyx Kuleyni və digər böyük hədis alimləri həzrət Məhəmmədin (s) dünyaya gəlməsi barədə xəbərləri qeyd edərkən bildirmişlər ki, Peyğəmbər (s) anadan olduqda Fatimə bint Əsəd Əbutalibin yanına gəlib ona müjdə verdikdə Əbutalib Fatimənin də gələcəkdə dünyaya belə bir uşaq gətirəcəyini ona bildirir.

Şeyx Səduq "Məanil-əxbar" kitabında İmam Sadiqdən (ə) belə nəql edir: " Fatimə bint Əsəd Əbutalibin yanına gəlib Peyğəmbərin (s) anadan olmasını ona müjdə verdikdə Əbutalib deyir: "Səbt qədər döz, mən də sənə belə bir uşağın doğulacağı barədə müjdə verərəm. Təkcə fərq o olacaq ki, həmin körpə peyğəmbər

[1] Biharul-ənvar, c- 35, s-7

olmayacaq.” Daha sonra Şeyx Mufid səbt sözünün leksik mənasının otuz il anlamına gəldiyini bildirir. Doğurdan da Peyğəmbərlə (s) Əli (ə) arasındakı yaş fərqi məhz otuz il olmuşdur. Buna bənzər digər bir hədisi Şeyx Kuleyni də “Üsuli-Kafi” kitabında qeyd etmişdir. O “Rovzətul-Kafi” əsərində bu məzmunda İmam Sadiqdən (ə) daha geniş bir hədisi nəql etmişdir ki, birinci fəslin əvvəllərində diqqətinizə çatdırıldı.

Əlinin (ə) Kəbədə anadan olması

Əmirəl-möminin Əli ibn Əbutalibin (ə) Kəbə evində anadan olmasını şiə alimləri ilə yanaşı bir çox sünni alimləri də qeyd etmişdir. Görkəmli sünni alimi Hakim Neyşaburi “Mustədrək” əsərində təvatür həddinə çatdığını bildirən belə bir hədis nəql etmişdir: “Fatimə bint Əsədin Əmirəl-möminin Əli ibn Əbutalibi Kəbə evində dünyaya gətirməsi barədə olan xəbərlər (hədislər) təvatür həddindədir.”[1]

Hafiz Gənci Şafei “Kifayətut-talib” əsərində Hakim Neyşaburiyə istinadən belə qeyd edir: “Əmirəl-möminin Əli ibn Əbutalib Fil əhvalatından otuz il qabaq, Rəcəb ayının 13-də, cümə axşamı Kəbə evində dünyaya gəlmişdir. Ondan başqa, nə ondan əvvəl, nə də sonra heç kim orada dünyaya gəlməmişdir, O, bu şərəfə nail olmuş yeganə insandır.”[2]

Mərhum Əllamə Əmini “əl-Qədir” kitabının 6-cı cildində (21-ci səhifədən başlayaraq) Əmirəl-möminin Əli ibn Əbutalibin (ə) anadan olmasına dair məlumatları iyirmidən artıq sünni və əllidən çox şiə mənbələrindən nəql etmişdir. Həmçinin bu mövzu ilə bağlı bir çox şairlərin şeir və qəsidələri, o cümlədən seyyid Əli Nəqi Hindinin qəsidəsi oxuculara təqdim edilmişdir.

İstənilən halda Əlinin (ə) Kəbədə dünyaya gəlməsi məsələsi danılmaz bir faktdır. Sadəcə olaraq hadisənin necə və hansı şəraitdə baş verməsi mübahisəlidir. Sünni mənbələrində belə göstərilir ki, Fatimə bint Əsədin doğum sancısı gəldikdə Əbutalib onun əlindən tutub Kəbəyə gətirərək deyir ki, Allahın adı ilə burada əyləş. Sonra Fatimə dünyaya gözəl bir oğlan uşağı gətirir. Əbutalib onun adını Əli qoyur.

Bu əhvalatı Məğazili “Mənaqib”, İbn Səbbağ isə “əl-Fusulul-muhimmə” əsərlərində də qeyd etmişlər.[3] Bu məzmunlu hədisə bəzi şiə mənbələrində də rast gəlmək olar, lakin şiə mənbələrində hadisə əsasən aşağıdakı kimi göstərilmişdir. Fatimə bint Əsədin doğuş sancısı yaxınlaşdıqda Kəbənin kənarına gəlib Allahdan dünyaya gələcək yeni körpənin doğuşunun asan olmasını diləyir. Məhz bundan sonra Kəbənin divarı yarılır, Fatimə içəri daxil olur və Əli (ə) dünyaya gəlir.

Şeyx Səduq Əmali “İləluş-şərayi” və “Məanil-əxbar” əsərlərində əhvalatı Yəzid ibn Qənəbdən belə nəql etmişdir: “Mən, Abbas ibn Əbdülmüttəlib və Bəni

[1] Mustədrək, c-3, s-483
[2] Kifayətut-talib, s-260
[3] İhqaqul-həqq, s-486

Əbdülüzza qəbiləsindən bir neçə nəfər Kəbənin kənarında əyləşmişdik. Birdən Fatimə bint Əsədin Kəbəyə doğru yaxınlaşdığını gördük. Doğuş sancısından əziyyət çəkdiyi bəlli idi. Kəbənin divarına çatdıqda Allaha belə dua etməyə başlayır: "İlahi, mən Sənə və Sənin göndərdiyin bütün peyğəmbər və kitablara inanır, cəddim İbrahimin dediklərini qəbul edirəm. Bu evi məhz o inşa etmişdir. İlahi, Səni and verirəm bu evi inşa etmiş şəxslə bətnimdəki körpəyə, onun dünyaya gəlişini mənim üçün asan et!" Bir də gördüm ki, Kəbənin arxa divarı yarıldı, Fatimə içəri daxil olub gözümüzdən itdi. Sonra da Kəbənin divarı əvvəlki vəziyyətinə qayıtdı. Belə olduğunu görcək biz tez ayağa qalxıb Kəbə qapısını açmağa çalışsaq da qapının qıfılı açılmadı. Başa düşdük ki, bu işdə Allahın hikməti vardır.

Qısa müddət ərzində bu hadisə bütün şəhərə yayıldı. Hər yerdə hamı, hətta evdən eşiyə çıxmayan qadınlar da bu barədə danışırdılar. Əhvalatdan üç gün keçdikdən sonra Kəbənin divarı yenidən aralandı və Fatimə bint Əsəd içəri daxil olduğu yerdən qucağındakı körpə ilə birlikdə eşiyə çıxaraq camaata dedi: "Allah-təala məni özümdən qabaqkı qadınlardan üstün etdi. Asiya bint Müzahim Allaha yalnız gizli şəkildə ibadət edə bilirdi. Məryəm bint İmran qurumuş xurma ağacını silkələyərək tökülən xurmaları yedi. Mən isə Allahın evinə daxil olub orada Cənnət nemətlərindən yedim. Kəbədən çıxmaq istərkən qeybdən belə bir səs gəldi ki, ey Fatimə, bu uşağın adını Əli qoy! Əzəmətli Allah buyurur ki, Mən onun adını Öz adımdan seçdim, ona Öz ədəbimdən öyrətdim, Öz elmimi ona təlim etdim. Mənim evimdəki bütləri məhz o sındıracaq, evimin damına çıxaraq məhz o azan deyib Məni zikr edəcək. Vay olsun ona düşmən kəsilib əmrindən çıxan şəxsin halına!"

Bu sətirlərin müəllifi belə hesab edir ki, bu hədisə diqqət yetirdikdən sonra sünni təfsirçilərindən olan Alusinin Əlinin Kəbə evində dünyaya gəlməsi haqda dediklərinin nə qədər əhəmiyyət kəsb etdiyi məlum olur. O yazır: "Allah-təalanın imamların öndərini möminlərin qibləsində dünyaya gətirməsi necə də gözəldir! Hər şeyi öz yerində qərar verən Allah necə də pakdır! O, ən doğru seçim edən hakimdir... Bəziləri belə qeyd etmişdir ki, Kəbədə dünyaya gəlmək şərəfinə nail olduğuna görə Əli də Kəbəyə bir xidmət etmək istədi və oradakı bütləri məhz bu səbəbdən sındırdı. Bəzi hədislərdə göstərilir ki, Kəbə Allah-təalaya şikayət edir ki, İlahi, nə vaxtadək mənim ətrafımdakı bu bütlərə sitayiş ediləcək? Allah da Kəbəyə söz verir ki, bütləri sənin ətrafından təmizləyəcəyəm."[1]

Əliyə (ə) ad qoyulması

Az öncə qeyd etdiyimiz kimi Fatimə bint Əsəd Kəbə evindən eşiyə çıxarkən ona qeybdən belə bir səs gəlmişdi: "Ey Fatimə, bu uşağın adını Əli qoy! Əzəmətli Allah buyurur ki, Mən onun adını Öz adımdan seçdim, ona Öz ədəbimdən öyrətdim, Öz elmimi ona təlim etdim..."

[1] Əl-Qədir, c-6, s-22

İbn Şəhraşub "Mənaqib" əsərində Əbu Əli ibn Həmmamdan belə nəql edir: "Fatimə bint Əsəd körpəni dünyaya gətirdikdən sonra Əbutalib onun əlindən tutub Əbtəh vadisinə sarı gedərək deyir: "Ey zülmət gecənin və parlaq ayın Rəbbi! Öz qəti hökmünlə bu körpənin adını bizə bəyan et!" Bu vaxt yerdən buluda bənzər bir qaraltı qalxıb Əbutalibin sinəsinə yapışır. Əbutalib görür ki, bu, yaşıl rəngli bir lövhədir və üzərində yazılıb: "Sizə gözəl, pak, seçilmiş bir uşaq verilib. Onun adı Əlidir və bu ad Əliyyul-Əlanın (Allahın) adından götürülmüşdür."

Bu lövhə Hişam ibn Əbdülməlikin xəlifəlik dövrünədək Kəbə divarından asılıb qalmışdı. Əhli-beytdən nəql edilmiş hədislərə əsasən həmin lövhə Kəbənin sağ küncündən asılıbmış."

Buna bənzər başqa bir hədisi müxtəsər fərqlə Əllamə Gənci Şafei "Kifayətuttalib" əsərində (260-cı səhifədə) Peyğəmbərdən (s) nəql etmişdir.

Görkəmli sünni alimi Əllamə Qunduzi "Yənabiul-məvəddət" kitabında (səhifə 255) Abbas ibn Əbdülmüttəlibdən belə nəql edir: "Fatimə bint Əsəd körpəni dünyaya gətirdikdən sonra ona atası Əsədin adını qoyur. Lakin Əbutalib onunla razılaşmayaraq deyir ki, gəl axşam Əbu Qübeys dağına qalxıb yerin-göyün Allahından istəyək ki, ona ad seşməkda bizə bir yol göstərsin. Axşam olan kimi hər ikisi Əbu Qübeys dağına qalxır. Allaha dua etdikdən sonra Əbutalib aşağıdakı beyti deyir: " Ey zülmət gecənin və parlaq ayın Rəbbi! Öz qəti hökmünlə bu körpənin adını bizə bəyan et!" Bu vaxt Zəbərcəddən hazırlanmış yaşıl bir lövhə peyda olur. Lövhədə yazılmışdı: "Sizə gözəl, pak, seçilmiş bir uşaq verilib. Onun adı Əlidir və bu ad Əliyyul-Əlanın (Allahın) adından götürülmüşdür."

Əbutalibin sevincinin həddi-hüdudu yox idi. Allaha şükr səcdəsi edib Əlinin şəninə on dəvə qurban kəsdi. Yaşıl lövhəni də Kəbə divarından asdı. Bəni-Haşim bu lövhə ilə qürur duyurdu. Həccac ibn Yusif, Abdullah ibn Zübeyrlə döyüşərkən həmin lövhə qeybə çəkildi."

"Umdətul-mətalib" və "əl-Fusulul-muhimmə"[1] əsərlərində İmam Zeynul-Abidindən (ə) belə nəql edilmişdir: "Bir gün atamla birlikdə cəddimiz Rəsuləllahın (s) qəbrini ziyarət etməyə getmişdik. Orada çoxlu qadın var idi. Qadınlardan biri irəli gəldikdə ondan adını soruşdum. Adının Zibeydə, özünün də Bəni-Saidə qəbiləsindən olduğunu bildirdi. Dedim ki, bizim üçün danışası bır əhvalatın varmı? Cavab verdi ki, bəli, var. And olsun Allaha, anam Ümmi Umarə mənə danışıb ki, bir gün ərəb qadınları ilə birlikdə oturmuşduq. Birdən Əbutalibin olduqca kədərli halda gəldiyini gördük. Kədərli olmasının səbəbini soruşduqda Fatimə bint Əsədin doğuş sancısından bərk əziyyət çəkdiyini deyib əli ilə üzünü tutdu. Elə bu vaxt Məhəmməd (s) də gəlib çıxdı. Əbutalibin narahat olduğunu gördükdə soruşdu ki, əmi can, niyə narahatsan? Əbutalib Fatimə bint Əsədin doğuş sancısından bərk

[1] Biharul-ənvar, c-35, s-30

əziyyət çəkdiyini ona da dedi. Məhəmməd (s) Əbutalibin əlindən tutub Fatimənin yanına apardı, biz də onların ardınca getdik. Bir qədər sonra Əbutalib Fatimə bint Əsədin əlindən tutub onu Kəbəyə apardı. Kəbənin içərisinə girib ona dedi ki, Allahın adı ilə burada əyləş!

Fatimənin doğuş sancısı daha da artdı və gözəl bir oğlan uşağı dünyaya gətirdi. O vaxtadək gözəllikdə elə gözəl uşaq görməmişdim. Əbutalib uşağın adını Əli qoydu. Məhəmməd (s) isə körpəni götürüb evə apardı. Bununla əlaqədar olaraq Əbutalib belə bir beyt deyir: Onu Əli adlandırdım ki, qoy həmişə əzəmətli, vüqarlı olsun!"

Bu hədisi İbn Məğazili Vasiti və digər sünni alimləri də nəql etmişlər.[1]

İbn Əbilhədid "Şərhi Nəhcül-bəlağədə" yazır: "Anası Fatimə bint Əsəd ona əvvəlcə atası Əsədin adının mənasını verən Heydər adını qoyur. Bunun mənası şir deməkdir. Lakin sonradan atası Əbutalib onun adını dəyişib Əli qoyur. Bəziləri belə hesab edirlər ki, Heydər adını ona Qüreyş qəbiləsi qoymuşdu, ancaq bu, elə də inandırıcı görünmür. Çünki Əli (ə) özü Xeybər döyüşündə Mərhəbin: "Mən anamın Mərhəb adlandırdığı şəxsəm" cümləsinə: "Mən də anamın Heydər adlandırdığı şəxsəm"– deyə cavab vermişdir."[2]

Şeyx Səduq "Məanil-əxbar" və "İləluş-şərayi" kitablarında Əmirəl-möminin Əlinin (ə) özündən belə bir hədis nəql etmişdir: "Mənim adım İncildə İlya, Tövratda Bəriyy, Zəburda Əriyy, hindlilərin yanında Kibkər, bizanslıların yanında Bitrisa, farsların yanında Hibtər, türklərin yanında Büseyr, kahinlərin yanında Bəvi, həbəşlərin yanında Büsreyk, anamın yanında Heydər, dayəmin yanında Məymun, ərəblərin yanında Əli, atamın yanında isə Züheyrdir."[3]

Mərhum Şeyx Səduq daha sonra bu adların mənası barədə Cabir ibn Abdullah Ənsaridən də bir hədis nəql etmişdir. İbn Şəhraşub isə "Mənaqib" əsərində o həzrət üçün bundan da artıq adların olduğunu bildirmişdir.[4]

Bu sətirlərin müəllifi belə hesab edir ki, o həzrətin adları sırasına hədislərdə qeyd edilmiş digər ad və künyələri də əlavə etmək olar. Bunlara Əmirəl-möminin (möminlərin əmiri), əl-Ənzəul-bətin (ənzə sözünün lüğəvi mənası başının ön hissəsində tük olmayan, bətin sözünün mənası isə qarnı önə çıxmış, lakin Əli (ə) barəsində bu adların mənası şirkdən uzaq və elmi çox olan şəxs deməkdir), Əmirun-nəhl, Əbu Turab, Yəsubul-muminin, Qaidul-ğurril-muhəccilin, Vəsiyy, Qəzim adlarını misal göstərmək olar. Bu haqda daha ətraflı məlumatı "İhqaqul-həqq" kitabından (dördüncü cild) əldə etmək olar. Ümumilikdə isə istər şiə, istərsə də sünni kitablarında o həzrət üçün Peyğəmbərin (s) dilindən iki yüz əlliyədək ad və ləqəb qeyd edilmişdir.

---

[1] İhqaqul-həqq, c-7, s-486

[2] Şərhi Nəhcül-bəlağə, c-1, s-5

[3] Məanil-əxbar, s-58-62; İləluş-şərayi, s-56-57

[4] Mənaqib, c-2, s-56-58

Peyğəmbərlə(s) Əli(ə) eyni nurdan yaradılmışdır

Bu fəslin sonunda sünni alimlərinin Əlinin (ə) yaradılması ilə bağlı nəql etdikləri aşağıdakı hədisləri qeyd etməyimiz də yerinə düşər.

1. Əllamə Şeyx Süleyman Qunduzi "Yənabiul-məvəddət" kitabında Peyğəmbərdən (s) belə nəql etmişdir: "Mənimlə Əli Adəm peyğəmbərin yaradılmasından dörd min il qabaq eyni nurdan yaradılmışıq. Adəm peyğəmbər xəlq edildikdən sonra Allah-təala həmin nuru onun belində yerləşdirdi. Yalnız Əbdülmüttəlibin belində biz bir-birimizdən ayrıldıq və mən peyğəmbərliyə, Əli isə imamlığa təyin edildi."[1]

2. Əllamə Şeyx Abdullah Hənəfi Əbu Hüreyrədən belə nəql edir: "Bir gün Peyğəmbərin (s) yanında oturduğumuz vaxt Əli gəlib çıxdı. Peyğəmbər buyurdu ki, qardaşım və əmim oğlu xoş gəlib. Mənimlə o eyni nurdan yaradılmışıq."[2]

3. Əllamə Gənci Şafei "Kifayətut-talib" əsərində İbn Abbasdan Peyğəmbərin (s) belə buyurduğunu nəql etmişdir: "Allah-təala dünyanı yaratmazdan qırx min il qabaq nurdan bir dirək xəlq edərək onu Öz ərşinin qarşısında saxladı. Mən peyğəmbər seçilməzdən öncə Allah o dirəyi iki hissəyə ayırıb bir hissəsindən məni, digər hissəsindən isə Əlini xəlq etdi."[3]

"İhqaqul-həqq" kitabının beşinci cildində (242-255-ci səhifələrdə) bu məzmunda olan qırxadək müxtəlif hədislər nəql edilmişdir. Biz isə bunların yalnız üçünü qeyd etməklə kifayətlənirik.

Peyğəmbərlə (s) Əli (ə) eyni şəcərəyə mənsubdur

Bir sıra hədislərdə Peyğəmbərin (s): "Camaat müxtəlif şəcərələrə mənsub olduğu halda mənimlə Əli eyni şəcərəyə mənsubuq."– deyə buyurduğu bildirilir. Aşağıdakı hədisləri buna misal göstərmək olar.

1. Əllamə Əxtəb Xarəzmi "Mənaqib" əsərində Cabir ibn Abdullah Ənsariyə istinadən Peyğəmbərdən (s) belə nəql etmişdir: "Mənimlə Əli eyni şəcərəyə mənsubuq, camaat isə ayrı-ayrı şəcərələrə mənsubdur."

2. Əllamə ibn Hüsnveyh "Bəhrul-mənaqib" əsərində Səmameyi Bahiliyə istinadən Peyğəmbərdən (s) belə nəql etmişdir: "Allah-təala mənimlə Əlini eyni şəcərədən (ağacdan) xəlq etmişdir. Mən həmin ağacın kökü, Əli budaqları, Həsənlə Hüseyn meyvələri, ardıcıllarımız (şiələrimiz) isə onun yarpaqlarıdır. Bu ağacdan yapışan hər bir şəxs Cənnətə daxil olub Cəhənnəm əzabından qurtular."[4]

---

[1] Yənabiul-məvəddət, (İstanbul çapı), s-256
[2] İhqaqul-həqq, c-5, s-253
[3] Kifayətut-talib, s-176
[4] Bəhrul-mənaqib, s-262

3. Əllamə Gənci Şafei "Kifayətut-talib" əsərində Əbdürrəhman ibn Ovfa istinadən Peyğəmbərin (s) belə buyurduğunu qeyd etmişdir: "Yaradıldığımız şəcərə mənəm, Fatimə onun kökü, Əli onun calağı, Həsənlə Hüseyn meyvələri, ardıcıllarımız (şiələrimiz) isə yarpaqlarıdır. O ağac özü Ədn cənnətində, kökü, calağı, meyvələri və yarpaqları isə Cənnətdədir.

"İhqaqul-həqq" kitabının müəllifi (c-5, s-255-266) bu qəbildən olan otuzadək hədis qeyd etmişdir. Təbii ki, belə hədislərə mötəbər şiə mənbələrində də rast gəlirik. Nümunə olaraq onlardan birini diqqətinizə çatdırırıq.

Şeyx Səduq "əl-Xisal"(c-2, s-172), mərhum İrbili isə "Kəşful-qummə"(s-86-87) əsərlərində Məhəmməd ibn Abdullahdan, sonuncu da öz növbəsində atasından Peyğəmbərin (s) belə buyurduğunu nəql etmişlər: "Adəm peyğəmbərdən dörd min il qabaq mənimlə Əli Allah dərgahında vahid nur idik. Allah-təala Adəmi yaratdıqdan sonra o nuru onun belində yerləşdirdi. Həmin nur nəsildən-nəsilə ötürülərək Əbdülmüttəlibin belinə gəlib çıxdı. Əbdülmüttəlibin belindən ayrıldıqda isə Allah onu iki hissəyə böldü. Mənim hissəmi Abdullahın, Əlinin hissəsini isə Əbutalibin belində yerləşdirdi. Məhz bu səbəbdən Əli məndən, mən də Əlidənəm. Onun əti də, qanı da mənim ətimdən, mənim qanımdandır. Əlini sevən şəxs məni sevdiyi üçün onu sevir, ona düşmən çıxan şəxs isə mənimlə düşmən olduğuna görə onunla düşmənçilik edir."

III FƏSİL

DÜNYAYA GƏLİŞİNDƏN HİCRƏTƏDƏK

Əli (ə) Peyğəmbər qucağında

Əmirəl-möminin Əlinin (ə) özəlliklərindən biri də onun Peyğəmbərin (s) qucağında böyüməsi və uşaqlığından o həzrətlə bir yerdə olmasıdır. Bu da onunla əlaqədar olmuşdur ki, tarixçilərin yazdığına görə Qüreyş qəbiləsinə qəhətlik üz verdiyindən, Əbutalibin ailəsi böyük olduğu üçün ailənin dolanışığını təmin etmək çox çətinləşmişdi. Qardaşı Abbasın maddi vəziyyəti isə tamam fərqli idi. Peyğəmbər(s) də Xədicə(s.ə) ilə ailə qurduqdan sonra onun sərvətinə sahib çıxdığı üçün maddi durumu yaxşılaşmışdı. Buna görə də o həzrət əmisi Abbasın yanına gedərək ona deyir: "Qardaşın Əbutalibin vəziyyətinin ağır olduğundan xəbərdarsan, buna görə də təklif edirəm ki, ona bir qədər kömək edək. Gedək onun uşaqlarından birini sən, digərini də mən götürüb saxlayaq." Bu təkliflə razılaşan Abbas Peyğəmbərlə (s) birlikdə Əbutalibin yanına gedib onu öz niyyətlərindən xəbərdar edərək deyirlər ki, biz sənə kömək etmək məqsədilə bura gəlmişik. İstəyirik ki, hərəmiz uşaqlarından birini aparıb saxlayaq, belə olan halda sənin də vəziyyətin bir qədər düzələr. Əbutalib uşaqları arasında Əqili hamıdan çox istədiyi üçün Abbasla Peyğəmbərə (s) deyir ki, Əqili məndən ayırmayın, başqa nə istəyirsinizsə, edin. Əbutalibin razılığını aldıqdan sonra Peyğəmbər (s) Əlini, Abbas isə Cəfəri saxlamaq üçün öz evlərinə aparırlar. Həmin vaxt çox güman ki, Əlinin(ə) altı yaşı olmuşdur.

Məlum məsələdir ki, həzrət Məhəmmədlə (s) bir yerdə qalmaq Əli (ə) üçün böyük şərəf olmaqla yanaşı, eyni zamanda Əlidə (ə) Peyğəmbərə (s), Peyğəmbərdə (s) də Əliyə (ə) qarşı böyük rəğbət yaratmışdır.

Əlidə olan böyük fitri istedadı nəzərə aldıqda onun Peyğəmbərin (s) əmr və göstərişlərinə necə tabe olduğuna qətiyyən şübhə yeri qalmır. Təbii ki, Peyğəmbər (s) də onun bu cür gözəl əxlaqını gördükdə onu öz doğma balasını sevən valideyndən də qat-qat artıq sevir. Buna Əlinin (ə) Peyğəmbərin (s) yeganə doğma əmisi, ona əsl ata qayğısı göstərmiş Əbutalibin oğlu olduğunu əlavə etdikdə bu bağlılığın necə böyük əhəmiyyət kəsb etdiyi aydın olur. Peyğəmbər (s) Əlini öz yanında böyüdüb boya-başa çatdırmaqla sanki Əbutalibin ona etdiyi yaxşılıqlarının əvəzini çıxmağa çalışırdı. Bütün bunları nəzərə aldıqda o iki böyük şəxsiyyət arasındakı münasibətlərin, bir-birinə olan sevgisinin hansı səviyyədə olduğu bizim üçün qismən məlum olur. "Qismən məlum olur" ifadəsini əbəs yerə işlətmədik. Belə ki, kamil insanlar, Allah övliyaları nə qədər Allaha yaxın olarlarsa, onlarda gözəl

əxlaq daha da kamilləşir ki, bunun da bir nümunəsi məhəbbət və sevgidir. Bu da onların ruhunun daha həssas olması nəticəsində mümkün olur. İnsanlar arasında Peyğəmbərdən (s), sonra da Əlidən (ə) kamil insan olmadığı üçün onların bir-birinə olan sevgisi bizim üçün qismən məlum ola bilər.

Peyğəmbərin (s) Əliyə (ə) olan münasibəti

İndi qeyd edəcəyimiz hədislər yuxarıda deyilənlərin şahididir. Görkəmli sünni alimlərindən İbn Əbilhədid "Şərhi Nəhcül-bəlağə" əsərində Fəzl ibn Abbasdan belə nəql edir: "Atam Abbas ibn Əbdülmüttəlibdən soruşdum ki, Peyğəmbər (s) uşaqlarından ən çox hansını sevirdi? Cavab verdi ki, Əlini. Dedim ki, mən Peyğəmbərin öz uşaqlarını deyirəm. Atam dedi: Peyğəmbər Əlini öz oğlanlarının hamısından çox istəyirdi. O, səfərdə olduğu vaxtlar istisna olmaqla Əlini uşaqlıqda heç vaxt özündən kənar qoymazdı. Biz heç bir atanı Peyğəmbərin Əlini sevdiyi qədər sevdiyini və heç bir uşağı Əli qədər Peyğəmbərə itaət edən görməmişik."[1]

Zeyd ibn Əli ibn Hüseyn(ə) atası İmam Zeynül-Abidindən(ə) belə nəql etmişdir: " Əli (ə) uşaqlıqda Peyğəmbərin (s) yanında qalarkən Peyğəmbər (s) xurma ilə əti çeynəyib əzdikdən sonra Əliyə (ə) yedizdirərdi."

İbn Əbilhədid Cübeyr ibn Mütimdən belə nəql edir: "Uşaq olduğumuz vaxt Məkkədə atam bizə deyərdi ki, görürsünüz bu uşaq (Əli) Məhəmmədi necə çox sevib ona atasından da artıq itaət edir? And olsun Lat və Üzzaya, istərdim o, mənim oğlum olsun, əvəzində Bəni Nofəlin bütün gənclərini verim."[2]

Yuxarıda deyilənləri nəzərə aldıqda Peyğəmbərlə (s) Əlinin (ə) bir-birinə olan sevgisi haqda nəql edilmiş hədislərin mənası daha aydın olur. Məsələn, həm şiə, həm də sünni mənbələrində Peyğəmbərin (s) Xeybər döyüşündə buyurduğu hədisdə deyilir: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allahı və Peyğəmbərini sevir, Allah və Peyğəmbər də onu sevir."[3]

Məhz bu qarşılıqlı sevginin nəticəsi idi ki, Əli (ə) Xəndək döyüşündə Əmr ibn Əbdüvədlə döyüşə çıxarkən Peyğəmbər (s) Allah dərgahına üz tutub belə buyurur: "İlahi, Bədr döyüşündə Übeydə ibn Harisi, Ühüd döyüşündə isə Həmzə ibn Əbdülmüttəlibi məndən aldın. İndi də Əli döyüşə gedir, İlahi, məni tək qoyma, Sən varislərin ən gözəlisən."[4]

Həzrət Peyğəmbərin (s): "Əli məndən, mən də Əlidənəm"[5], "Əlini sevən məni sevmiş, Əliyə düşmən olan mənə düşmən kəsilmişdir..."[6], "Əli ibn Əbutalibin əti

[1] Şərhi Nəhcül-bəlağə, c-3, s-370
[2] Yenə orada
[3] İhqaqul-həqq, c-5, s-449-468
[4] Kəşful-qummə, c-1, s-295
[5] İhqaqul-həqq, c-5, s-228,317
[6] İhqaqul-həqq, c-6, s-400,448,556

ətimdən, qanı qanımdandır...”[1], “Ya Əli, mən özümə arzuladığım hər bir şeyi sənə də arzulayır, özümə arzulamadığım heç bir şeyi sənə də arzulamıram”[2], “Əli ibn Əbutalib mənim üçün ruhumun canıma olan nisbəti kimidir”, “Əli ibn Əbutalib mənim üçün başımın bədənimə olan nisbəti kimidir” məzmunlu hədisləri də Əliyə (ə) olan sevgisinin nəticəsində söylənilmiş hədislərdir.

“Kəşful-qummə” əsərində Abdullah ibn Abbasdan belə nəql edilmişdir: “Bir gün atam Abbas ibn Əbdülmüttəliblə birlikdə Peyğəmbərin (s) yanında oturmuşduq. Bu zaman Əli ibn Əbutalib yanımıza gəlib salam verdi. Peyğəmbər (s) onu gördükdə sevincək oldu, salamına cavab verib yerindən qalxaraq onunla qucaqlaşdı, iki gözünün arasından öpdükdən sonra sağ tərəfində əyləşdirdi. Peyğəmbərin (s) Əliyə qarşı bu cür səmimi olduğunu görən atam dedi ki, ya Rəsuləllah, onu çoxmu sevirsən? Həzrət cavab verdi ki, əmi can, and olsun Allaha, Allah onu məndən də çox istəyir. Allah hər bir peyğəmbərin nəslini onun öz sülbündə qərar verdiyi halda mənim nəslimi bu kişinin sülbündə qərar vermişdir.”[3]

Mərhum Təbərsi “Əlamul-vəra” əsərində Əbu Rafedən nəql edir ki, Peyğəmbər (s) nə vaxt oturduğu yerdən ayağa qalmaq istərdisə, Əli ibn Əbutalib o həzrətin əlindən tutardı. Səhabələr bunu bildikləri üçün Əlidən başqa heç kəs Peyğəmbərin (s) əlindən tutmazdı.[4]

İbn Şəhraşub və qeyrilərinin qeyd etdiyinə görə Əli ibn Əbutalib (ə) hər gecə bir neçə saat Peyğəmbərlə (s) tək oturub söhbət edərdi. Bu vəziyyət Peyğəmbərin (s) vəfatınadək davam etmişdir.[5]

Ənəs ibn Malikdən nəql edilmişdir ki, Peyğəmbər (s) Əlini bir qədər görmədikdə deyərdi ki, Allahın və Rəsulunun dostu haradadır?

Peyğəmbərin (s) Əli ibn Əbutalib (ə) haqqında buyurduqlarını qeyd etməkdən ötrü ayrıca kitablar yazılmalıdır və xoşbəxtlikdən belə kitablar yazılmışdır da. Maraqlananlar həmin əsərlərə müraciət edə bilərlər.

Təbii ki, Peyğəmbərin (s) Əliyə (ə) olan sevgisi qarşılıqlı olmuşdur. Peyğəmbər (s) Əlini (ə) sevdiyi kimi Əli (ə) də o həzrəti sevmiş, onun uğrunda canından da keçməyə hazır olmuşdur. Təsadüfi deyil ki, hicrət gecəsində o həzrət Peyğəmbərin (s) yatağında yatmaqla özünü sözün əsl mənasında ölümə atır. Və yaxud Ühüd döyüşündə Peyğəmbər (s) hər tərəfdən düşmən mühasirəsində qalıb Əli (ə) onu görmədikdə son nəfəsinə qədər döyüşəcəyinə and içib qılıncının qınını sındırır. Nəhayət, Peyğəmbəri (s) gördükdə rahatlaşıb əlini saxlayır. Peyğəmbərin (s) verdiyi tapşırıqları canla-başla yerinə yetirir.

[1] İhqaqul-həqq, c-4, s-244,248
[2] İhqaqul-həqq, c-5, s-235,242
[3] Kəşful-qummə, c-1, s-94
[4] Əlamul-vəra, s-189; Mənaqib, c-2, s-219
[5] Mənaqib, c-2, s-226

Peyğəmbərin (s) vəfatı Əli (s) üçün ağır bir zərbə idi. İbn Şəhraşubun nəql etdiyinə görə Əli (ə) Peyğəmbərin (s) vəfatı ilə əlaqədar belə bir mərsiyə demişdir: "Canım bu dərin nəfəslərdə ilişib qalıb, bundansa kaş canım bədənimdən çıxaydı. Səndən sonra həyatın heç bir ləzzəti yoxdur, bircə ondan qorxuram ki, səndən sonra ömrüm çox uzun olar."[1]

Əli ibn Əbutalib (ə) Peyğəmbərin (s) vəfatından sonra o həzrətin vəsiyyətinə əsasən öz haqqından əl çəkib düz iyirmi beş il evdə oturur. Bu müddət ərzində o, bircə kəlmə də olsun Allahı və Peyğəmbərini narazı salacaq sözü dilinə gətirmir, hətta xəlifə olduqdan sonra da ömrünün sonunadək Peyğəmbərin vəsiyyətindən kənara çıxmır.

Bir daha əvvəlki mövzumuza qayıdıb qeyd edirik ki, Əli (ə) uşaqlıq illərini həzrət Məhəmmədin (s) yanında keçirir. Təbərsi, İbn Kəsir, Sələbi və digər görkəmli sünni və eləcə də şiə alimlərinin fikrincə Məhəmməd (s) peyğəmbər seçildikdən dərhal sonra Əli (ə) ona iman gətirib.[2]

Əli Peyğəmbərə (s) ilk iman gətirən kişi olmuşdur

Qüreyş tayfasında baş vermiş qəhətliklə əlaqədar olaraq Peyğəmbər (s) Əlini (ə) evinə aparıb onu öz yanında saxlayır. Əli (ə) on, ya on iki yaşına çatdıqda həzrət Məhəmməd (s) peyğəmbər seçilir. Sünni alimləri Əlinin Peyğəmbərə (s) ilk iman gətirmiş kişi olması barədə yetmişdən artıq hədis nəql etmişlər.[3] Bu haqda bir çox şairlər də müxtəlif şeirlər yazmışlar. Hətta bu barədə bircə hədis olmasaydı belə, yenə də Əlinin (ə) Peyğəmbərə iman gətirən ilk kişi olduğunu təxmin etmək olardı. Belə ki, Peyğəmbər (s) öz dəvətini həyat yoldaşı Xədicəyə (s.ə) açıqlayıb onu İslama çağırdığı kimi, uşaqlıq dövrünü onun yanında keçirib. O həzrətin tərbiyəsini almış, dediklərini canla-başla yerinə yetirən, aralarında ata-oğul münasibətindən də artıq münasibət olan və Peyğəmbərin (s) hər bir sirrindən xəbərdar olan Əli ibn Əbutalibə(ə) də öz dəvətini açıqlayıb onu da İslama dəvət etmişdir. Lakin buna baxmayaraq deyilənləri bir daha sübut etməkdən ötrü bu barədə bütün məzhəblərdə qəbul edilmiş bir neçə hədisi diqqətinizə çatdırırıq.

1. Molla Əli Hindi "Kənzul-ümmal" əsərində İbn Abbasdan, sonuncu da öz növbəsində Ömər ibn Xəttabdan belə nəql etmişdir: "Peyğəmbərin (s) Əli barəsində buyurduğu üç xislətdən biri məndə olsaydı, özümü dünyanın ən xoşbəxt adamı sayardım. Bir gün Əbubəkr, Əbu Übeydə Cərrah, mən və bir neçə digər səhabə bir yerdə oturmuşduq. Peyğəmbər (s) Əliyə söykənmişdi. Sonra isə əlini onun çiyninə vuraraq buyurdu ki, ya Əli, sən iman gətirənlərin birincisisən. Sənin mənə olan

[1] Mənaqib, c-1, s-240
[2] Biharul-ənvar, c-35, s-24; İhqaqul-həqq, c-6, s-579
[3] Əl-Qədir, c-3, s-220-241; İhqaqul-həqq, c-4, s-241; c-7, s-492

münasibətin eynilə Harunun Musaya olan münasibəti kimidir. Sənə düşmən olub məni sevdiyini iddia edən şəxs yalan deyir."[1]

"İhqaqul-həqq" əsərinin müəllifi buna bənzər hədisləri nəql edərkən "Zəxairul-üqba", "Mənaqib", "Əxtəbi Xarəzm", "Hilyətul-övliya" və s. kitablara istinad etmişdir.

2. İbn Əbilhədid "Şərhi Nəhcül-bəlağə" əsərində Əbu Rafenin dilindən belə nəql edir: "Mən Əbuzərlə görüşmək üçün Rəbəzəyə getmişdim. Yanımda bir neçə başqa adamlar da var idi. Əbuzərdən ayrılıb qayıtmaq istədikdə bizə dedi: Bu yaxınlarda böyük bir fitnə baş qaldıracaq. Onda çalışın təqvalı olun və Əli ibn Əbutalibdən uzaqlaşmayın, onun ardınca gedin. Öz qulaqlarımla eşitdim ki, Peyğəmbər (s) Əliyə buyururdu: "Sən mənə iman gətirmiş ilk şəxssən, Qiyamət günü mənimlə görüşəcək ilk şəxs də sən olacaqsan. Ən doğru danışan, haqla nahaqqı bir-birindən ayıran sənsən. Kafirlərin arxa-dayağı mal-dövlət olduğu halda möminlərin arxa-dayağı sənsən. Sən mənim qardaşım, canişinim və özümdən sonra yerimdə qoyub gedəcəyim ən gözəl insansan. Sən mənə verdiyin vədəyə ən gözəl şəkildə əməl edəcəksən."[2]

Bu qəbildən olan hədislərə "Məvaqif" və "Nuzhətul-məcalis" əsərlərində də rast gəlirik.

3. "Tarixi Təbəridə" Əfif Kindidən belə nəql edilmişdir: "Cahiliyyət dövründə ailəm üçün geyim və ətir almaq məqsədilə Məkkəyə getmişdim. Abbas ibn Əbdülmüttəlib tacir olduğundan ona baş çəkdim. Onunla günorta vaxtı oturub Kəbəyə baxdığımız zaman gənc bir kişi gəlib göyə baxdı, sonra da üzü Kəbəyə doğru dayandı. Bir qədər sonra kiçik bir oğlan uşağı gəlib onun sağ tərəfində durdu. Onun ardınca da bir qadın gəlib onların arxasında dayandı. İrəlidəki kişi rükuya getdikdə onunla olan digər iki nəfər də rükuya getdi. O, rükudan qalxdıqda yoldaşları da rükudan qalxdılar. Səcdəyə getdikdə onunla birlikdə səcdəyə getdilər. Abbasdan bu işin nə olduğunu soruşduqda cavab verdi ki, qabaqda dayanan kişinin kim olduğunu bilirsənmi? Məndən "yox" cavabı aldıqda dedi ki, o, qardaşım oğlu Məhəmməd ibn Abdullahdır. Yanındakı uşaq da digər qardaşım oğlu Əli ibn Əbutalibdir. O qadın isə Məhəmmədin həyat yoldaşı Xədicə bint Xüveyliddir. Qardaşım oğlu deyir ki, yerin-göyün Allahı ona bu dini nazil etmişdir. And olsun Allaha, indi yer üzərində gördüyün bu üç nəfərdən başqa heç kim bu dinə sitayiş etmir."[3]

Bu hədisi Nisai, İbn Həcər Əsqəlani, İbn Əsir, Zeyni Dəhəlan və başqaları müvafiq olaraq "əl-Xəsais", "əl-İstiab", "əl-Kamilu fit-tarix və Usdul-qabə", "Sireyi Hələbi" əsərlərində də qeyd etmişlər.

Mərhum Əllamə Əmini mötəbər sünni mənbələrinə istinadən Ənəs ibn Malik, Büreydə Əsləmi, Zeyd ibn Ərqəm, Abdullah ibn Abbas, Salman Farsi, Əbuzər Qifa-

[1] Kənzul-ümmal, c-6, s-395; İhqaqul-həqq, c-4, s-164
[2] Şərhi Nəhcül-bəlağə, c-3, s-257
[3] Tarixi Təbəri, c-2, s-212

ri, Miqdad, Xəbbab ibn İrt, Əbu Rafe, Həbbab, Hüzeyfə, Əbu Səid Xidri, Ömər ibn Xəttab və digər səhabələrdən nəql etmişdir ki, Əli ibn Əbutalib Peyğəmbərə (s) iman gətirən ilk şəxs olmuşdur.[1] Məsələn, Ənəs ibn Malikdən nəql edilmiş hədisdə deyilir: "Peyğəmbər (s) həftənin bazar ertəsi peyğəmbər seçilmiş, Əli isə çərşənbə axşamı ona iman gətirmişdir."[2] Bu, o deməkdir ki, həzrət Məhəmmədin (s) peyğəmbər seçilməsi ilə Əlinin (ə) ona iman gətirməsi arasında cəmi bircə gün fasilə olmuşdur.

Büreydə Əsləmidən nəql edilmiş hədisdə deyilir: "Həftənin bazar ertəsi Peyğəmbərə (s) ilk vəhy gəlmiş, çərşənbə axşamı isə Əli onunla birlikdə namaz qılmışdır."[3]

Zeyd ibn Ərqəmdən nəql edilmiş hədisdə isə belə deyilir: "Peyğəmbərə (s) iman gətirən ilk şəxs Əli ibn Əbutalib olmuşdur."[4]

İbn Əbilhədid əl-İstiab kitabına istinadən bir çox sünni alimlərinin bu məsələ ilə bağlı fikirlərini qeyd etdikdən sonra yazır: "Bütün sxolastiklərimizin fikrincə Peyğəmbərə ilk iman gətirən şəxs Əli ibn Əbutalib olmuşdur. Bu məsələdə yalnız bəzi Bəsrə alimləri fərqli mövqe tutmuşlar. İndi isə hamı yekdilliklə bildirir ki, Əli ibn Əbutalib Peyğəmbərə (s) hamıdan qabaq iman gətirmişdir. Bununla razılaşmayan bircə alim də tapılmaz."[5] O, daha sonra bu haqda Əli ibn Əbutalibin (ə) özündən bir neçə beyt və hədis nəql etmişdir.

Şiə alimlərinə gəldikdə isə onlar bu məsələdə yekdil fikir irəli sürmüşlər. Məsələn, Şeyx Mufid "əl-Fusulul-muxtarə" əsərində deyir: "İslam ümmətinin hamısı bu fikirdədir ki, Peyğəmbərə (ə) ilk iman gətirmiş kişi Əli ibn Əbutalib olmuşdur. Elm adamlarından heç kimin bunda şübhəsi yoxdur. Yalnız osmanilər Əlinin (ə) o vaxt yaşının az olduğunu irad tutaraq bildirmişlər ki, Əli o vaxt həddibüluğa çatmadığı üçün onun iman gətirməsi şüurlu şəkildə olmamışdır və buna görə də onu ilk iman gətirmiş kişi olaraq qəbul etmək doğru deyil.[6]

Şeyx Mufid daha sonra bu haqda əks mövqedən çıxış etmiş şəxslərin fikirini bildirib onlara tutarlı cavab verərək Əlinin (ə) ilk iman gətirən şəxs olmasına dəlalət edən çoxlu sayda hədis qeyd edir.

Buradək dediklərimizdən məlum oldu ki, səhabələrdən və sünni alimlərindən nəql edilmiş hədislərə əsasən Əli ibn Əbutalib (ə) iman gətirən ilk kişi olmuşdur. İndi isə bu barədə Əli ibn Əbutalibin (ə) öz dilindən bir neçə hədisə diqqət yetirək.

1. Təbəri, Nisai, İbn Macə, Hakim Neyşaburi və digər görkəmli sünni alimləri Əlidən (ə) belə nəql etmişlər: "Mən Allahın bəndəsi, Peyğəmbərin qardaşı, ən

[1] Əl-Qədir, c-3, s-224-235
[2] Əl-Qədir, c-3, s-224
[3] Əl-Qədir, c-3, s-225
[4] Yenə orada
[5] Şərhi Nəhcül-bəlağə, c-1, s-492-496
[6] Biharul-ənvar, c-38, s-262

doğru danışan şəxsəm. Bu sözləri məndən başqa kim deyərsə, yalançıdır. Mən camaatdan yeddi il qabaq Peyğəmbərlə birlikdə namaz qılmışam.Onunla namaz qılan ilk şəxs mən olmuşam."[1]

2. Nisai "əl-Xəsais" əsərində Əli ibn Əbutalibdən (ə) belə nəql edir: "Peyğəmbərdən sonra bu ümmət arasında özümdən başqa ibadət edən bir şəxs tanımıram. Mən camaatdan düz doqquz il öncə Allaha ibadət etmişəm.[2]

3. Əhməd, Bəzzaz, Təbərani, Heysəmi və başqaları Əli ibn Əbutalibdən belə nəql etmişlər: "İlahi, Peyğəmbərindən başqa bu ümmət arasında özümdən əvvəl Sənə ibadət etmiş bir şəxs tanımıram. (Bu cümləni üç dəfə təkrar etdi.) Camaat namaz qılmayanda mən namaz qılırdım."[3]

Əmirəl-möminin Əli (ə) qasiə xütbəsində buyurur: "O vaxt Peyğəmbərlə Xədicədən savayı kimsə namaz qılmırdı. Mən isə namaz qılan üçüncü adam idim."[4]

Əli ibn Əbutalibin (ə) iman gətirmiş ilk kişi olması məsələsi şairlərin də əsas müzakirə obyektinə çevrilmiş, şeirlərdə dillər əzbəri olmuşdur. Şeyx Mufid, Kəracəki, Neyşaburi, Təbərsi, Yaqut Həməvi, Beyhəqi, Məhəmməd ibn Təlhə Şafei, İbn Couzi, Əbulfida, İbn Kəsir və başqalarının nəql etdiyinə görə Əli (ə) özü də bu məsələni bəzi şeirlərində vurğulamışdır. Maraqlananlar "əl-Qədir" kitabına müraciət edə bilərlər. İndi həmin şeirlərdən bir parçasının məzmununu oxuculara təqdim edirik: "Məhəmməd Allahın peyğəmbəri, mənim qardaşımdır. Seyyidüş-şühəda Həmzə mənim əmimdir. Gecə-gündüz Cənnətdə mələklərlə pərvaz edən Cəfər mənim qardaşımdır. Məhəmmədin qızı mənim həyat yoldaşımdır. Onun əti də, qanı da mənim ətimə, qanıma qarışmışdır. Əhmədin iki ciyərparası (Peyğəmbərin iki balası Həsənlə Hüseyn) mənim uşaqlarımdır. Hansı birinizin mənim kimi belə üstünlükləri var? Mən sizin hamınızdan qabaq iman gətirmişəm və bu, şüurlu, düşünülmüş şəkildə olub. Allahın rəsulu Qədir-xum günündə məni öz canişini təyin etməklə mənə itaət etməyin vacib olduğunu bildirdi. Sabah Qiyamət günü mənim haqqımda zülm edərək Allahın görüşünə gedən şəxsin vay halına, vay halına, vay halına!"[5]

Əmirəl-möminin Əli (ə) bu şeiri Müaviyəyə göndərdiyi məktubda yazmışdı. Müaviyə məktubu alıb oxuyan kimi əmr edir ki, dərhal məktubu gizlətsinlər, məbada Şam əhalisi onun məzmunundan xəbərdar olub Əlini dəstəkləyə.

Bir çox ərəb və qeyri-ərəb şairləri də Əlinin (ə) ilk iman gətirmiş kişi olduğu məsələsini öz şeirlərində **qabarıq** şəkildə önə çəkmişlər. Poeziya həvəskarları bu haqda "Biharul-ənvar" və "əl-Qədir" kitablarına müraciət edə bilərlər.[6]

---

[1] Əl-Qədir, c-3, s-221
[2] Əl-Qədir, c-3, s-222
[3] Yenə orada
[4] Nəhcül-bəlağə, 190-cı xütbə
[5] Əl-Qədir, c-2, s-26-33
[6] Biharul-ənvar, c-38, s-274-277; əl-Qədir, c-3, s-224-231

Əli ibn Əbutalib (ə) iman gətirərkən neçə yaşında olmuşdur?

Bir qədər əvvəl qeyd etdik ki, osmanilər Əlinin (ə) iman gətirərkən yaşının az olmasını irad tutaraq bildirməşlər ki, onda Əli həddi-büluğa çatmadığından onu ilk iman gətirən kişi kimi qəbul etmək doğru deyil. O həzrətin fəzilətini şübhə altına alanlara mərhum Şeyx Mufid tutarlı cavab vermişdir və indi onu oxucuların diqqətinə təqdim edirik. Şeyx ilk öncə Əlinin (ə) şəhid olarkən neçə yaşında olduğunu göstərən hədisləri önə çəkib qeyd etmişdir ki, tarixdə həzrətin şəhid olan zaman altmış beş ya da altmış üç yaşında olduğu bildirilir. Onun iyirmi üç il Peyğəmbərlə (s) birlikdə, otuz il də Peyğəmbərin (s) vəfatından sonra yaşadığını nəzərə alsaq, deməli, həzrət Məhəmməd (s) peyğəmbər seçilərkən Əlinin (ə) on iki, ya da on yaşında olduğu bəlli olur. Bu da o deməkdir ki, bəzilərinin həzrət Məhəmməd (s) peyğəmbər seçilərkən Əlinin (ə) yeddi yaşında olması fikri əsassızdır. Digər tərəfdən yaş etibarı əqli məsələlərdə deyil, şəri məsələlərdə əsas götürülür. Necə ki, Allah-təala həzrət Yəhya (ə) haqqında buyurur: "Biz ona uşaq ikən hikmət (peyğəmbərlik) verdik."[1] Həmçinin İsa (ə) haqqında buyurur: "(Məryəm onun özü ilə danışın, deyə) ona (uşağa) işarə etdi. Onlar: "Beşikdə olan uşaqla necə danışaq?"-dedilər. (Allahdan bir möcüzə olaraq dilə gəlib) dedi: "Mən, həqiqətən Allahın quluyam. O mənə kitab ("İncil") verdi, özümü də peyğəmbər etdi. O harada oluramsa olum, məni mübarək (hamıya xeyir verən, dini hökmləri öyrədən) etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu."[2]

Ayələrdən də göründüyü kimi, nə Yəhya (ə) peyğəmbərin, nə də İsa (ə) peyğəmbərin yaşının azlığı onların peyğəmbər seçilib hikmət sahibi olmalarına mane olmamışdır.

Əksər təfsirçilərin fikrincə "Yusif" surəsindəki: "Bir şahid (Züleyxanın beşikdə olan körpə əmisi oğlu) belə şəhadət verdi..."[3] ayəsində şahidlik etməsi göstərilən şəxs beşikdəki bir körpə olmuşdur. Nəyə görə onun uşaq olması şahidlik etməsini qüvvədən salmır? Digər tərəfdən Əlinin (ə) kiçik yaşlarında iman gətirməsinə baxmayaraq Peyğəmbər (s) onun bu addımını alqışlamış və bunu o həzrət üçün bir fəzilət kimi qələmə vermişdir. Belə ki, qızı Fatiməni (s.ə) Əliyə (ə) ərə verərkən buyurur: "Səni hamıdan qabaq İslamı qəbul etmiş şəxsə ərə verdiyimə görə sevinmirsənmi?"[4]

Salman Farsi deyir: "Axirətdə bu ümmətdən Kövsər hovuzunun başında Peyğəmbərə ilk qoşulacaq şəxs İslamı ilk qəbul edən şəxs olacaq. O da Əli ibn Əbutalibdir."[5]

---

[1] Məryəm-12
[2] Məryəm-29-31
[3] Yusif-26
[4] İhqaqul-həqq, c-4, s-153
[5] Əl-Qədir, c-3, s-227

Deyilənlərdən belə nəticə çıxır ki, Əli ibn Əbutalib (ə) İslamı qəbul edərkən on, ya da on iki yaşında olmuş və yaşının azlığı onun bu fəzilətinin üstünə kölgə sala bilməzdi.

İbn Şəhraşub "Mənaqib" əsərində yazır: "İbn əl-Bəyyinin "Usulul-hədis" kitabında dediyinə görə tarixçilər arasında Əlinin İslamı ilk qəbul etmiş şəxs olduğu barədə heç kimin şübhəsi yoxdur. Sadəcə olaraq həmin vaxt onun həddi-büluğ yaşına çatıb-çatmadığı mübahisəlidir. "İbn Şəhraşub daha sonra əlavə edərək deyir: "Bunu Əliyə irad tutanlar əslində Peyğəmbərə (s) irad tutmuş olurlar. Çünki Əlini İslama məhz Peyğəmbər (s) dəvət etmiş, o da müsbət cavab verib iman gətirmişdir. Uşaq olmasına rəğmən ilk iman gətirməsi onun üçün böyük bir fəzilət hesab edilir. Necə ki, anadan olmasından cəmi bir neçə saat sonra dilə gəlib peyğəmbər olduğunu bildirən İsa (ə) və uşaq ikən peyğəmbər seçilən Yəhya (ə) üçün bu cəhətləri böyük bir fəzilət idi. Maraqlıdır ki, Əlini (ə) kiçik yaşlarında İslamı qəbul etməsini onun üçün fəzilət hesab etmək istəməyənlər İslamı qəbul edərkən azyaşlı uşaqlar olub Peyğəmbərdən (s) hədis nəql etmiş Abdullah ibn Ömər kimi səhabələrin hədislərini məmnuniyyətlə qəbul edirlər. Onu da etiraf edirlər ki, Peyğəmbərin (s) yanına gəlib: "Camaat namazında hansımız öndə durub pişnamazlıq etsin?" sual edənlərin cavabında həzrət: "Qiraəti daha yaxşı olanınız qabaqda dursun"– deyə cavab vermiş və gələnlər də səkkiz yaşlı Əmr ibn Sələməni özlərinə pişnamaz təyin etmişlər.

Kəlbinin dediyinə görə Əli (ə) İslamı qəbul edərkən doqquz, Mücahid, Məhəmməd ibn İshaq, Zeyd ibn Əsləm və Cabirin dediyinə görə isə on yaşında olmuşdur. Bəziləri o həzrətin həmin vaxt on bir yaşında olduğunu bildirmişdir. Əbutalib Haruni Əlinin (ə) on iki yaşında İslamı qəbul etdiyini qeyd etmişdir. Əbu Təyyib Təbəri deyir: "Əhməd ibn Hənbəlin "Fəzailus-səhabə" kitabında oxumuşam ki, Əlinin İslamı qəbul edən zaman on beş yaşı olmuşdur. Bu versiyanı Nəsəvi və Həsən Bəsri də qeyd etmişdir."[1]

Şafei deyir: "Biz Əlinin İslamı az yaşlarında qəbul etməsi ilə razılaşırıq. Çünki həddi-büluğa çatmanın ən aşağı həddi doqquz yaşdır."

Əli (ə) Peyğəmbərlə (s) çiyin-çiyinə

Az öncə qeyd etdiyimiz kimi, Əli (ə) uşaq olarkən Peyğəmbər (s) onu öz evinə aparıb yanında saxlamışdır. İbn Şəhraşubun "Tarixi Təbəri", "Tarixi Bəlazəri", "Təfsiri Sələbi" və digər kitablara istinadən yazdığına görə həmin vaxt Əli (ə) altı yaşında olmuşdur. Vaxtilə Əbutalib də Peyğəmbəri məhz altı yaşında öz evinə aparıb saxlamışdır. O vaxtdan etibarən Əli (ə) Peyğəmbərlə (s) Xədicənin (s.ə) tərbiyəsini almağa başlamışdır.[2]

[1] Mənaqibi Ali Əbutalib, c-2, s-11-12

[2] Mənaqib, c-2, s-180

İbn Şəhraşub daha sonra Əbu Rafedən nəql edərək göstərir ki, Peyğəmbər (s) Xədicə ilə evləndikdən sonra əmisi Əbutalibə deyir ki, icazə ver uşaqlarından birini götürüb öz yanımda saxlayım, qoy mənə kömək etsin, həm də mənə etdiyin yaxşılıqların bir qədər əvəzini çıxım. Əbutalib də istədiyi uşağını götürüb aparmasına razılıq verir. Əmisi Əbutalibin razılığını alan Peyğəmbər (s) Əlini götürüb evinə aparır.

Bu sətirlərin müəllifinin fikrincə İslam dini meydana gələrkən Əlinin (ə) yaşı ondan artıq olmuşdur. Çünki tarixi mənbələrə əsasən Peyğəmbər (s) Xədicə (s.ə) ilə evlənərkən iyirmi beş, peyğəmbər seçilərkən isə qırx yaşında olmuşdur.

Həzrət Məhəmməd (s) peyğəmbər seçildikdən ömrünün sonunadək Əli ibn Əbutalib (ə) onun ən sevimli səhabələrindən olaraq qalmışdır. Təsadüfi deyil ki, Peyğəmbər (s) onu öz canı, qardaşı, canişini,[1] onun əti və qanını öz əti və qanı, onunla dostluq və düşmənliyi özü ilə dostluq və düşmənlik hesab etmişdir. Bəlkə də bu haqda ən dolğun fikri Əmirəl-möminin Əli (ə) özü buyurmuşdur: "Mən uşaqlıqda ərəblərin kürəklərini yerə vurub Rəbiə və Muzirrin yeni çıxan buynuzlarını qırmışam. Mənim Peyğəmbərə (s) olan münasibətimi, onunla yaxın əlaqəmi çox yaxşı bilirsiniz. Mən uşaq olarkən o, məni öz qucağında saxlayır, bağrına basıb öz yatağında yatızdırır, yeməyi çeynəyib ağzıma qoyurdu. Mən onun xoş ətrini alırdım. O, məndə nə bir yalan, nə də səhv bir hərəkət gördü.

Peyğəmbər süddən ayrıldığı gündən etibarən insanları gözəl əxlaqa, yaxşı işlərə dəvət etməkdən ötrü Allahın mələklərindən biri onu həmişə müşayiət etmişdir. Dəvə balası öz anasının ardınca düşdüyü kimi, mən də gecə-gündüz o həzrətin ardınca düşürdüm. O, hər gün mənə gözəl əxlaqından birini öyrədib ona əməl etməyimi tapşırırdı.

Peyğəmbər hər il bir müddət Həra mağarasına çəkilir, onunla yalnız mən əlaqə saxlayırdım. Məndən başqa heç kim onu görməzdi. İslam meydana gələrkən Peyğəmbərlə Xədicədən savayı heç kim o dini qəbul etməmişdi. Mən İslamı qəbul etmiş üçüncü şəxs idim. Vəhy nurunu müşahidə edib peyğəmbərlik ətrini qoxulayırdım.

Peyğəmbərə vəhy nazil olarkən şeytanın fəryadını eşidirdim. Peyğəmbərdən bu səsin nə olduğunu soruşduqda buyururdu ki, bu, şeytanın fəryadıdır. Ona pərəstiş ediləcəyindən ümidi kəsildiyi üçün belə fəryad edir. Sən mənim bütün eşitdiklərimi eşidir, gördüklərimi görürsən. Bircə fərqimiz odur ki, sən peyğəmbər deyilsən. Sən mənim canişinimsən və xeyir-bərəkət üzərindəsən."[2]

Əmirəl-möminin Əli ibn Əbutalib (ə) digər bir xütbədə buyurur: "Həzrət Məhəmmədin (s) səhabələri çox yaxşı bilirlər ki, mən bir an da olsun Allahın və Peyğəmbərin (s) əmrindən boyun qaçırmamışam. Döyüş meydanlarında

[1] İhqaqul-həqq, c-6, s-449-460; 486; Biharul-ənvar, c-38, s-294; 329

[2] Nəhcül-bəlağə, 190-cı xütbə

cəngavərlər qorxub qaçdığı zaman mən var qüvvəmlə Peyğəmbəri (s) qoruyurdum. Bu, Allahın mənə bəxş etdiyi şücaətin nəticəsi idi.

Peyğəmbərin (s) başı mənim qucağımda ikən canını tapşırdı. Həzrətin gözlərini mən qapadım, qüslünü mən verdim. Bu işdə mələklər də mənə yardım edirdi. Onda evin ətrafını şivən səsləri bürümüşdü. Mələklərin bir dəstəsi yerə enir, bir dəstəsi isə göyə qalxırdı. Peyğəmbəri (mübarək) qəbrinə qoyanadək mələklərin o həzrəti salamlamalarının səsi qulağımdan getmədi. O həzrətə istər sağlığında, istərsə də vəfatından sonra məndən yaxın olan bir şəxs varmı?"[1]

Bütün bunlardan sonra bir daha məlum olur ki, Peyğəmbər (s) tərəfindən Əliyə (ə) tapşırılmış və layiqincə icra edilərək o həzrət üçün fəzilət hesab edilən tapşırıqlar təbii xarakter daşımışdır. Bunlar həqiqətdir və sübuta ehtiyacı yoxdur. Məlum məsələdir ki, Peyğəmbər (s) öz şəxsi və ictimai işlərini onun özü tərəfindən tərbiyə görmüş, hər bir əmrini canla-başla yerinə yetirməyə hazır olan və bunu özünə şərəf bilən bir şəxsdən başqasına tapşıra bilməzdi. Belə bir şəxs də yalnız və yalnız Əli ibn Əbutalib (ə) idi.

Əmirəl-möminin Əli (ə) də öz növbəsində Peyğəmbərin (s) onun boynunda olan haqqını nəzərə alaraq, o həzrəti layiqincəsinə tanıyıb onun ədalətli, əmanətə sədaqətli, etibarlı, cəmiyyətin islahına çalışan, haqsızlıqla barışmayan, məzlumların qayğısına qalan bir şəxs olduğunu görür, əmrlərini icra etməyi özünə borc və şərəf hesab edir, İslama dəvətini məmnuniyyətlə qəbul edir, hər bir işində əlindən gələni əsirgəmir, bütün tapşırıqlarını tərəddüd etmədən həyata keçirirdi.

İndi hörmətli oxucuların diqqətini aşağıdakı hədisə cəlb etmək yerinə düşər.

Yəvmud-dar hədisi

Fərat ibn İbrahim "Və ən yaxın qohumlarını (Allahın əzabından) çəkindir"[2] ayəsinin təfsirində Əmirəl-möminin Əlidən (ə) aşağıdakı məzmunda bir hədis nəql etmişdir: "Və ən yaxın qohumlarını (Allahın əzabından) çəkindir" ayəsi nazil olduqdan sonra Peyğəmbər (s) məni çağırıb bir qədər yemək hazırlamağı və Əbdülmüttəlib övladlarından təxminən qırx nəfəri evə qonaq çağırmağımı tapşırdı. Mən bir sa[3] buğda, bir qoyun budu, bir qab da süddən ibarət yemək tədarükü gördüm. Qonaqlar yeməyə başlamazdan qabaq Peyğəmbər (s) ətdən bir tikə götürüb onu dişi ilə iki hissəyə böldükdən sonra yenidən qazana atdı. Onun bu hərəkəti yeməyin bərəkətinin artmasına səbəb oldu. Sonra da həzrət qonaqlara buyurdu ki, Allahın adı ilə yeməyə başlayın. Qonaqların hamısı xörəkdən yedi, ancaq ondan heç nə azalmadı. Halbuki o qədər xörəyin qırxadək insana çatması mümkün deyildi. Daha sonra Peyğəmbər (s) göstəriş verdi ki, qonaqlara həmin qabla süd də

[1] Nəhcül-bəlağə, 195-ci xütbə

[2] Şuəra-2

[3] Sa ölçü vahidi olub təxminən üç kiloqrama bərabərdir.

verim. Əvvəlki vəziyyət yenə də təkrarlandı, hamı süddən içib doysa da ondan heç nə azalmadı. Bu zaman Əbu Ləhəb ayağa qalxıb dedi ki, gördünüzmü Məhəmməd sizə necə cadu etdi? Onun bu sözü Peyğəmbərin (s) söhbətinə mane oldu və o həzrət bir söz demədən qonaqlar çıxıb getdilər. Səhərisi gün Peyğəmbər (s) yenə də yemək hazırlayıb qohumları dəvət etməyimi tapşırdı. Qonaqlar dünənki kimi yeyib doyduqdan sonra Peyğəmbər (s) dərhal sözə başlayaraq buyurdu: "Ey Əbdülmüttəlib övladları! Mən ərəblər arasında öz qövmü üçün mənim sizin üçün gətirdiyimdən daha yaxşısını gətirən bir adam görməmişəm. Mən sizlərə dünya və axirət xeyrini gətirmişəm. Allah-təala sizi ona (dünya və axirət xeyrinə) dəvət etməyimi tapşırıb. Sizlərdən hansı biriniz bu işdə mənə kömək etməklə gələcəkdə qardaşım və canişinim olmaq istəyir?"

Oturanlardan heç kim dinmədi. Aralarında ən kiçikləri olsam da, ayağa qalxıb dedim ki, ey Allahın peyğəmbəri, bu işdə mən sənə yardım edərəm. Bunu eşidən Peyğəmbər (s) başımın arxasından tutub buyurdu: "Bu, mənim sizin aranızdakı qardaşım və canişinimdir. Onun sözünü dinləyib dediklərinə tabe olun." Bu zaman hamı gülə-gülə ayağa qalxıb Əbutalibə dedi ki, bundan sonra Əlinin sözlərini dinləyib onun əmrlərinə tabe olmalısan."[1]

Bəzi mənbələrdə göstərilir ki, Əli (ə) öz razılığını bildirdikə Peyğəmbər (s) onu yanına çağırıb deyir ki, ağzını aç. Əli (ə) ağzını açdıqda Peyğəmbər (s) ağzının mübarək suyundan bir qədər onun ağzına atır, daha sonra onun kürəyi və çiyninə da sürtür. Bunu görən Əbu Ləhəb istehzalı şəkildə deyir ki, əmin oğlunun mükafatını nə pis verdin! O, sənə kömək etməyə hazır olduğunu bildirdiyi halda sən onun ağzına tüpürdün. Peyğəmbər (s) onun cavabında buyurur ki, bu, heç də sənin düşündüyün kimi deyil. Mən onun sinəsini elm, helm və biliklə doldurdum.

Doğurdan da Əli ibn Əbutalib (ə) Peyğəmbəri (s) sanki kölgə kimi izləmiş, bir an da olsun ondan uzaqlaşmamışdır. Əli (ə) əbəs yerə "Mən başqalarından üç il (bəzi hədislərdə beş, bəzilərində isə yeddi il də qeyd edilib) qabaq Allaha ibadət etmişəm" deməmişdir. Axı Peyğəmbər (s) peyğəmbərliyinin ilk bir neçə ilini gizli şəkildə keçirmiş, camaatı gizlicə dinə dəvət etmiş, gizlində namaz qılmışdır. Üstəlik, o vaxt hələ namaz indiki formasında vacib edilməmişdi. Namaz qılmaq üçün Həra mağarasına və ya Məkkə dərələrinə gedən Peyğəmbəri (s) təkcə Əli (ə) müşayiət edirdi. Başqaları isə o vaxt ya ümumiyyətlə heç müsəlman olmamış, ya da onda hələ namaz vacib edilməmişdi.[2] Əli (ə) xütbələrindən birində: "Camaat, nə qədər ki mən aranızdayam, istədiyinizi məndən soruşun. And olsun toxumu cücərdib insanı xəlq etmiş Allaha, əgər Quranın hər hansı bir ayəsinin gecə, yoxsa gündüz, Məkkədə, yoxsa Mədinədə, səfərdə, yoxsa qeyri-səfərdə nazil olması,

[1] Təfsiri Fərat, s-112

[2] Mənaqibi İbn Şəhraşub, c-2, s-19

nasix, yoxsa mənsux[1], möhkəm, yoxsa mütəşabih[2] olduğu haqda soruşsanız, sizə cavab verərdim"[3] deyirsə, bu, ondan irəli gəlir ki, o həzrət həmişə Peyğəmbərin (s) yanında olmuş, onun buyurduqlarını olduğu kimi yadda saxlamışdır. Peyğəmbər (s) də öz növbəsində çalışırdı ki, ona nazil olan bütün ayələri Əliyə (ə) öyrədib onu birinci dərəcəli şagirdi kimi yetişdirsin. Təsadüfi deyil ki, bu məsələyə hədislərdən birində də toxunulmuşdur: "Peyğəmbərə gecə ayə nazil olduqda səhər açılmamış, gündüz ayə nazil olduqda isə axşam olmamış onu Əliyə öyrədirdi."[4]

Bütün bunları nəzərə aldıqda istər şiə, istərsə də sünni mənbələrində Peyğəmbərin (s) Əli ibn Əbutalibin (ə) elmi ilə bağlı buyurduğu hədislərin mənası aydın olur. Məsələn, aşağıdakı hədislərə diqqət yetirək:

"Mən elmin şəhəri, Əli isə onun qapısıdır."

"Sizin ən bilikliniz Əlidir."

"Sizin ən doğru mühakimə yürüdəniniz Əlidir."

Mövzunu görkəmli sünni alimlərindan olan İbn Əbilhədidin Əmirəl-möminin Əlinin (ə) öz dilindən nəql etdiyi iki hədislə başa vururuq: "Mənim Peyğəmbərə (s) olan bağlılığım çiyinlə bazunun, bazu ilə dirsəyin və dirsəklə əlin bir-birinə bağlılığı kimidir. O, məni uşaqlıqda tərbiyələndirmiş, böyüdükdə isə özünə qardaş seçmişdir. Özünüz çox yaxşı bilirsiniz ki, mən bəzən Peyğəmbərlə (s) təklikdə oturub söhbətləşər və heç kim o məclisə daxil olmazdı. O həzrət vəfat edən zaman ailə üzvləri və səhabələr arasında məndən başqa heç kimə vəsiyyət etmədi."[5]

İbn Əbilhədid digər bir yerdə yazır: "Peyğəmbərin (s) səhabələri arasında yalnız Əmirəl-möminin o həzrətlə xəlvətə çəkilib söhbətləşərdi. Onların nə danışdığını heç kəs bilməzdi. Əli özü də Peyğəmbərə (s) Quran ayələri və o həzrətin öz sözləri barədə çox sual verərdi. Hətta sual verməddikdə də Peyğəmbər (s) özü söhbətə başlayıb ona elm öyrədərdi. Digər səhabələrdən heç biri belə olmamışdır..."[6]

Leylətul-məbit
(Hicrət gecəsi Əlinin (ə) Peyğəmbərin (s) yatağında yatması)

Həzrət Məhəmmədin (s) peyğəmbər seçildikdən sonra Məkkədə keçirdiyi on üç ilin hər günü o həzrət və vəfalı tərəfdarları üçün acı xatirələrlə yadda qalır. Bu xatirələr İslam tarixindən bəhs edən kitablarda ən xırda detallarına qədər əks

[1] Nasix özündən qabaqkı ayədəki hökmü qüvvədən salan, mənsux isə hökmü digər ayə ilə qüvvədən düşən ayəyə deyilir.

[2] Möhkəm zahiri mənası aydın başa düşülən və ikinci bir məna nəzərdə tutulmayan ayəyə, mütəşabih isə əsl mənası ilk baxışdan anlaşılmayan və hədislərə müraciət etməklə həqiqi mənası aydın olan ayəyə deyilir.

[3] Mənaqibi Ali Əbutalib, c-2, s-38

[4] Mənaqibi Ali Əbutalib, c-2, s-35

[5] Şərhi Nəhcül-bəlağə, c-4, s-558

[6] Şərhi Nəhcül-bəlağə, c-3, s-17

etdirilmişdir. Peyğəmbər (s) Məkkədə qaldığı son illərdə iki böyük himayədarını, Əbutaliblə Xədicəni (s.ə) itirir. Bundan sonra Məkkədə qalıb öz işini davam etdirmək o həzrət üçün olduqca çətin və təhlükəli idi. Çünki Əbutalibin vəfatından sonra Qüreyş müşrikləri o həzrətə qarşı əmisinin sağlığında edə bilmədikləri istədiyi pisliyi edir, hətta onu öldürməkdən belə çəkinmirdilər. Nəhayət, keçirdiyi yığıncaqlardan birində o həzrəti qətlə yetirmək qərarına gəlirlər. Lakin bu mənfur niyyətlərini həyata keçirmək istədikləri gecə Peyğəmbər (s) Allahın əmri ilə Məkkəni tərk edib Yəsribə (Mədinəyə) hicrət edir.

Olduqca qarışıq bir gecə idi. Allah-təala Peyğəmbərə (s) heç kimə xəbər vermədən Məkkəni tərk etməyi tapşırmışdı. Buna görə də o həzrət bu dəfə Əliyə (ə) çox önəmli və təhlükəli bir iş tapşırır. Belə ki, Əli ibn Əbutalib (ə) onun yatağında yatmaqla o həzrətin pusqusunda olan müşriklər Peyğəmbərin (s) öz yatağında olduğunu zənn edib şübhəyə düşməməli idilər. Əli (ə) heç bir tərəddüd etmədən Peyğəmbərin (s) yatağına uzanıb həzrətin yatarkən üstünə atdığı yaşıl parçanı da üstünə çəkir. Peyğəmbər (s) isə gecənin bir yarısı evdən çıxıb Sur dağındakı mağaraya doğru hərəkət edir.

Bu məsuliyyətin təhlükəli olması onunla əlaqədardır ki, Peyğəmbərin (s) evini on - on beş əlisilahlı müşrik mühasirəyə almış və yataqda yatan şəxsin üstünə hücum çəkib onu qətlə yetirməyə hazırlaşmışdı. Təbii ki, Əli (ə) özü də bundan xəbərdar idi və o, Peyğəmbərin (s) canını qorumaqdan ötrü elə hərəkət etməli idi ki, evi mühasirəyə alanlar onun Əli deyil, Peyğəmbər olduğuna əmin olmalı idilər. Bu cəhətləri nəzərə aldıqda Əlinin (ə) Allahın bəyəndiyi bu işinin nə qədər önəm və əhəmiyyət kəsb etdiyi məlum olur. İbn Səbbaq Maliki "əl-Fusulul-muhimmə" əsərində yazır: "Artıq gecədən bir qədər keçmiş və Əli Peyğəmbərin (s) yatağında yatmışdı. Müşriklər onu daşqalaq edir, o isə qətiyyən narahat olmayıb buna dözür, heç bir şübhə yaratmırdı."[1]

Mərhum Şeyx Mufid də demək olar ki, eyni hədisi nəql etmişdir: "Gecə olub zülmət qaranlıq hər tərəfi bürüdükdə müşriklər yataqda olan Əlinin üstünə hücum çəkib onu daşqalaq edir, onun Peyğəmbər (s) olduğunu güman edirdilər. Yalnız səhər açıldıqda anladılar ki, yataqdakı şəxs Məhəmməd (s) yox, Əli ibn Əbutalibdir."[2]

Diqqəti cəlb edən ən maraqlı məqam odur ki, tarixçilərdən heç biri Əli ibn Əbutalibin (ə) bu böyük fədakarlığını diqqətdən kənarda qoymamış, Peyğəmbərin (s) canını qorumaq naminə öz canından keçməyə hazır olduğundan ağız dolusu danışmışlar. Əlinin (ə) bu hərəkətinə mələklər belə təəccüblənmiş, Allah-təala isə fəxr etmişdir. Gəlin bu haqda daha ətraflı məlumatı görkəmli sünni alimlərinin

[1] Əl-Fusulul-muhimmə, s-29
[2] Əmali İbn Şeyx, s-298

dilindən eşidək. Sələbi öz təfsirində, Səfəvi "Nuzhətul-məcalis", Qəzali "İhyaul-ülum", Cəzəri "Usdul-qabə", Həməvi "Səməratul-əvraq", İbn Səbbaq Maliki "əl-Fusulul-muhimmə" və qeyriləri öz əsərlərində[1] belə qeyd etmişlər: "Peyğəmbər (s) Mədinəyə hicrət etmək istədikdə Əli ibn Əbutalibə Məkkədə qalıb onun borclarını qaytarmağı, ona verilmiş əmanətləri sahiblərinə təhvil verməyi tapşırır. Evinin müşriklər tərəfindən mühasirəyə alındığı hicrət gecəsində isə Əliyə buyurur ki, bu gecə mənim yatağımda yatıb üstümə çəkdiyim yaşıl Yəmən parçasını da üstünə atmalısan. İnşallah müşriklərin sənə heç bir zərəri dəyməz. Əli Peyğəmbərin tapşırığını canla-başla yerinə yetirir. Bu zaman Allah-təala Cəbraillə Mikailə vəhy edərək buyurur ki, Mən sizi bir-birinizə qardaş etdim və birinizin ömrünü digərininkindən çox qərar verdim. İndi hansı biriniz artıq olan ömrünü qardaşına verərək güzəştə gedər? Mələklərin hər ikisi çox ömrü götürmək istədiklərini bildirir. Belə olan halda Allah-təala buyurur: "Nəyə görə siz Əli ibn Əbutalib kimi olmadınız? Mən onu Öz Rəsulum Məhəmmədlə qardaş etmişəm, indi isə o, Məhəmmədin yatağında yatmaqla öz canını qardaşına qurban verir. İndi ikiniz də dərhal yerə enib onu düşmənin şərrindən qoruyun! Cəbraillə Mikail Allahın əmrinə itaət edərək yerə enir. Cəbrail Əlinin başının üstündə, Mikail isə ayağının altında durur. Əlinin başı üstündə duran Cəbrail deyirdi: "Bəh-bəh! Ya Əli, kim sənə çata bilər? Allah-təala sənինlə Öz mələkləri qarşısında fəxr edir." Peyğəmbər (s) Mədinəyə hicrət etdikdən sonra bu hadisə ilə əlaqədar olaraq aşağıdakı ayə nazil olur: "İnsanların elə də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah Öz bəndələrinə qarşı çox mehribandır!"[2]

Bu hədisi otuzdan artıq sünni təfsirçi, tarixçi və alimləri nəql etmişdir.

İstənilən an Əbu Cəhl, Üqbə ibn Əbu Muit, Übeyy ibn Xələf, Tömə ibn Ədiyy və qeyrilərinin də aralarında olduğu on beş nəfər əliqılınclı müşrikin evə hücum edərək yataqdakı şəxsi tiki-tikə doğrama ehtimalının olmasına baxmayaraq Əmirəl-möminin Əli (ə) gecəni səhərədək Peyğəmbərin (s) yatağında keçirir. Hətta bir qədər əvvəl qeyd etdiyimiz kimi, müşriklərin durmadan yatağı daşlamalarına da dözür ki, qoy onlar yataqda yatmış şəxsin başqa adam olduğunu zənn etməsinlər. Yoxsa Peyğəmbərin (s) bütün səyləri puç olardı.

Dan yeri sökülən zaman evi mühasirəyə almış müşriklər içəri soxulduqda artıq Peyğəmbərin (s) gedişindən arxayın olan Əli (ə) yerindən qalxır. Bunu görən müşriklər heyrətdən donub yerlərində qalırlar. Deməli, onların bütün gecə atdıqları daşlara dözüb qımıldanmayan şəxs Əli imiş, öldürmək məqsədilə pusqusunda durduqları adam isə onların əlindən qaçıb qurtara bilmişdir. Vəziyyəti belə görən Əli (ə) onların üstünə fəryad edərək deyir ki, nə xəbərdir? Hələ də heyrət içində

[1] Digər mənbələrlə bağlı bax: İhqaqul-həqq, c-3, s-26-34; c-6, s-479-481

[2] Bəqərə-207

donub qalan müşriklər: "Məhəmməd haradadır?"– deyə ondan soruşduqda Əli (ə) buyurur: "Məgər onu mənə tapşırmışdınız ki, indi də məndən soruşursunuz? Onu şəhərdən qovmaqla hədələyən siz deyildinizmi? O da sizin şəhərdən çıxıb getdi."

Daha bir maraqlı fakt ondan ibarətdir ki, Əlinin (ə) Peyğəmbərə (s) olan hədsiz sevgisi ona özünü tamamilə unutdurmuş, o həzrət yalnız Peyğəmbəri (s) düşünürdü. Bunu mərhum Şeyx Tusinin "Əmali" və İbn Şəhraşubun "Mənaqib" əsərlərində nəql etdikləri hədis də təsdiqləyir. Hədisdə deyilir: "Peyğəmbər (s) Əliyə (ə) müşriklərin planı və özünün Mədinəyə hicrət etmək niyyəti barədə məlumat verib ona öz yatağında yatmağı təklif etdikdə Əlinin (ə) bu məsələyə münasibətini öyrənmək məqsədilə soruşur ki, sənin fikrin nədir, nə deyirsən? Əlinin (ə) verdiyi cavab olduqca maraqlıdır. Özünün sağ qalıb-qalmayacağı onu qətiyyən narahat etmir. Dərhal soruşur ki, ya Rəsuləllah, yatağınızda yatmağımla siz salamat qalacaqsınızmı? Peyğəmbərdən (s) müsbət cavab aldıqda gülümsəyərək şükr səcdəsi etdikdən sonra buyurur: "Nə əmr olunubsa, onu da edin. Mənim canım da, gözüm də, qulağım da sizə fəda olsun. İstədiyinizi əmr edə bilərsiniz. Mən ancaq Allaha arxalanıram."[1]

Hələbi Şafei "Sireyi Hələbiyyə" əsərində yazır: "Həmin gün Peyğəmbər (s) səhabələrinə buyurur: "Bu gecə hansı biriniz mənim yatağımda yatar? Əvəzində mən də onun Cənnətə gedəcəyinə zəmanət verərəm. "Əli cavab verir ki, mən yerinizdə yataraq canımı sizə fəda edərəm."[2]

İbn Şəhraşub "Mənaqib" əsərində göstərir ki, Peyğəmbər (s) Məkkədən çıxarkən Əliyə buyurur: "Ya Əli, sənə deyim ki, Allah-təala Öz sevdiyi bəndələrini imanları və dindəki mövqelərinə görə sınağa çəkir. Ən çox çətinlik çəkənlər peyğəmbərlər, daha sonra isə onlara yaxın şəxslər olmuşlar. Anam oğlu (Əlinin (ə) anası Fatimə bint Əsəd Peyğəmbərə (s) öz uşağı kimi baxdığından, həzrət də onu ana kimi qəbul etmişdir), Allah-təala İbrahim Xəlili oğlu İsmaili qurban kəsməklə sınadığı kimi, səni də sınağa çəkmiş, məni də səninlə sınamışdır. Dözümlü ol, səbr elə, Allahın mərhəməti yaxşı iş görənlərə çox yaxındır." Bunu deyib Əlini bağrına basır.[3]

Əli (ə) Fatimeyi-Zəhra (s.ə), Fatimə bint Əsəd və Fatimə bint Zübeyr ibn Əvamla birlikdə Mədinə yolunda

Peyğəmbər (s) Mədinəyə hicrət etdikdən sonra Əli (ə) o həzrətin göstərişinə əsasən onun borclarını ödəmək və onda olan əmanətləri sahiblərinə qaytarmaq üçün bir neçə gün Məkkədə qalır. (Tarixçilərin yazdığına görə Əli (ə) Peyğəmbərdən (s) sonra Məkkədə üç gündən artıq qalmır.[4] Sonra isə Fatimeyi-Zəhra (s.ə), Fatimə

[1] Biharul-ənvar, c-19, s-60; Mənaqib (İbn Şəhraşub), c-1, s-183
[2] Sireyi Hələbiyyə, c-2, s-26; İhqaqul-həqq, c-8, s-347
[3].Mənaqib(İbn Şəhraşub), c-1, s-183
[4] Murucuz-zəhəb, c-1, s-401; Sireyi İbn Hişam, c-1, s-493; Mənaqib(İbn Şəhraşub), c-1, s-185

bint Əsəd və Fatimə bint Zübeyr ibn Əvamla birlikdə Məkkədən çıxıb Mədinəyə doğru hərəkət edir. Bəzi tarixçilərin dediyinə görə bir neçə başqa kişi və qadın da onlara qoşulmuş, beləliklə, kiçik bir karvan formalaşmışdı.

Hədislərdən belə nəticəyə gəlmək olar ki, Əli (ə) bu səfərdə çox çətinlik çəkmiş, hətta müşriklərlə vuruşmaq məcburiyyətində belə qalmışdır. Çünki müşriklər müsəlmanların Məkkədən çıxıb Mədinəyə getməsinə izn vermirdilər. Buna görə də hicrət etmək istəyənlər adətən, gecə, özü də gizli şəkildə və ara yollarla hərəkət etmək məcburiyyətində idilər. Əli (ə) də məhz bu səbəbdən hicrət edəcək şəxslərə gecə yarısı qabaqcadan razılaşdırılmış yerə gəlmələrini tapşırmışdı. Özü də Fatimeyi-Zəhra (s.ə), Fatimə bint Əsəd və Fatimə bint Zübeyr ibn Əvamla birlikdə təyin edilmiş yerə gəlib Zi-Tuva istiqamətinə doğru irəliləyirlər.

Əlinin (ə) daha bir şücaəti

İbn Şəhraşub "Mənaqib" və Şeyx Tus "Əmali" əsərlərində qeyd etmişlər ki, müsəlmanlardan bir neçəsi, o cümlədən Əymən ibn Ümmi Əymən və Əbu Vaqid özlərini Əliyə (ə) çatdırıb yola düşürlər. Əbu Vaqid qadınların mindiyi minikləri bir qədər sürətlə idarə edirdi. Bunu görən Əli (ə) ona deyir ki, Əbu Vaqid, qadınlarla incə rəftar et, onlar zərif məxluqlardır. Əbu Vaqid cavab verir ki, düşmənin bizi yaxalayacağından ehtiyat edib bu cür hərəkət edirəm. Əli (ə) ona buyurur: "Narahat olma, Peyğəmbər (s) mənə buyurub ki, bundan sonra onlar (müşriklər) sənə bir zərər verə bilməyəcəklər." Bunu deyib: "Artıq heç nədən narahat olma, Allah-təala bütün işlərdə yardımçı olar" rəcəzini oxuya-oxuya minikləri özü idarə etməyə başlayır. Məkkə kənarındakı Zəcnan dağına yetişdikdə üzlərini örtmüş yeddi müşrik süvarisi onlara yetişir. Əli (ə) dərhal qadınları yerə endirir, özü isə qılıncını çıxarıb düşmənə sarı gedir. Süvarilər: "Ey qəddar, bu qadınların canını qurtaracağınımı sanırsan? Geri dönün!"– deyə əmr etdikdə Əli (ə) buyurur ki, qayıtmasaq neyləyəcəksiniz? Süvarilər deyirlər ki, onda sizi zorla geri qaytararıq. Bunu deyib qadınlara tərəf yaxınlaşırlar ki, onları miniklərə mindirib geri qaytarsınlar. Bu vaxt Əli (ə) onların üstünə şığıyır. Süvarilərdən Haris ibn Üməyyənin qohumlarından olan Cənah adlı biri Əlinin (ə) qarşısına çıxdıqda həzrət qılıncı ilə onu iki parça edib digərlərinə hücum edir. Əlinin (ə) qarşısında dayana bilməyəcəklərini görən müşriklər qaçmaq məcburiyyətində qalırlar. O günü Zəcnanda gecələyən Əli (ə) və yoldaşları səhər tezdən Mədinə istiqamətində yollarına davam edirlər. Onların şənində Allah-təala Peyğəmbərə (s) aşağıdakı ayələri nazil edir: "Həqiqətən, göylərin və yerin yaradılması, gecə ilə gündüzün bir-birini əvəz etməsi ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən) qəti dəlillərdir. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər(və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru! Ey

Rəbbimiz! Sən cəhənnəm oduna atdığın şəxsi, əlbəttə, rüsvay edərsən və zalımlara kömək edən olmaz! Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə inanın!"– deyə imana tərəf çağıran bir kimsənin çağırışını eşidib Sənə iman gətirdik. Ey Rəbbimiz! İndi günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı yaxşı əməl sahibləri ilə bir yerdə al! Ey Rəbbimiz! Öz peyğəmbərlərin vasitəsilə bizə vəd etdiklərini ver və qiyamət günündə bizi rüsvay etmə! Əlbəttə, Sən Öz vədinə xilaf çıxmazsan!"[1]

Peyğəmbərin (s) Mədinə yaxınlığındakı
Qoba məntəqəsində Əlini (ə) gözləməsi

Görkəmli sünnə alimlərindən Cəmaləddin Suyutinin "əd-Durrul-mənsur" əsərində İbn Mərdveyhdən nəql etdiyinə görə Peyğəmbər (s) Sur dağındakı mağarada qaldığı üç gün ərzində Əli (ə) o həzrətlə Əbubəkr üçün gizli şəkildə azuqə aparır və Məkkədəki vəziyyətlə bağlı onları xəbərdar edirdi. Sonra da həzrətin göstərişinə əsasən onlar üçün bir yol bələdçisi tutur və üç də dəvə alıb mağaraya gətirir. Beləliklə də Peyğəmbərlə (s) Əbubəkr yol bələdçisi ilə birlikdə Mədinəyə hicrət edirlər.

Bəzi mənbələrdə yol bələdçisi tutulub dəvə alınmasının Əbubəkrin göstərişinə əsasən onun nökəri Amir ibn Füheyr tərəfindən həyata keçirildiyi göstərilir. Əli (ə) Peyğəmbərin (s) tapşırıqlarını yerinə yetirmək məqsədilə daha üç gün Məkkədə qalır.

Mötəbər mənbələrin yazdığına görə Peyğəmbər (s) Rəbiül-əvvəl ayının biri hicrət etmiş, həmin ayın on ikisində isə Mədinənin ilk məntəqəsi sayılan Qoba ərazisinə çatmışdır. Deməli, Peyğəmbər (s) Məkkə ilə Mədinə arasındakı məsafəni on iki günə qət etmişdir. Həzrət Qobaya çatdıqda müvəqqəti olaraq orada qalmaq qərarına gəlir.

Əlinin (ə) daha bir fəziləti

Sünni alimlərindən İbn Əsir Cəzəri "Usdul-qabə", şiə alimlərindən isə Şeyx Təbərsi "Əlamul-vəra" əsərlərində Əbu Rafedən belə nəql etmişlər ki, Əli (ə) Məkkə ilə Mədinə arasındakı məsafəni piyada qət etmiş, bunun da nəticəsində ayaqları şişib yara bağlamışdı. Peyğəmbər (s) onun Qobaya yetişdiyini eşitdikdə buyurur ki, Əlini mənim yanıma gətirin. Həzərtə bildirdilər ki, Əli gələ bilmir. Peyğəmbər (s) dərhal yerindən qalxıb özü Əlinin yanına gedərək onu bağrına basır. Əlinin ayaqlarının şişdiyini, yaralarından qan axdığını gördükdə özünü saxlaya bilməyib ağlamağa başlayır. Daha sonra isə mübarək ağzının suyundan bir qədər əllərinə alıb onun ayaqlarına sürtərək Əlinin sağalması üçün dua edir. O gündən etibarən Əli (ə) ömrünün sonunadək heç, vaxt ayaq ağrısından şikayət etmir.[2]

[1] Ali-İmran-190-194

[2] Usdul-qabə, c-4, s-19; Əlamul-vəra, s-192

IV FƏSİL

HİCRƏTDƏN PEYĞƏMBƏRİN (S) VƏFATINADƏK

Üçüncü fəslin sonunda qeyd etdiyimiz kimi Əmirəl-möminin Əli (ə) sonradan Mədinə kimi tanınan Yəsrib şəhərinə hicrət edərək digər mühacirlər kimi orada yaşamağa başlayır. Məkkədən Mədinəyə hicrət edənlərin əvvəlcə orada qalmaq üçün heç bir yerləri olmamışdır və onlar müvəqqəti olaraq ənsarın[1] evlərində yaşayırdılar. Mədinə məscidi tikildikdən sonra isə mühacirlərin çoxu məscidin ətrafında özləri üçün kiçik otaqlar tikib yaşamağa başlayır. Bəziləri də Mədinənin digər yerlərində özlərinə ev tikir. Lakin buna baxmayaraq Bəni-Nəzir döyüşünədək xeyli sayda mühacir hələ də ənsarın evlərində yaşayırdı. Bəni-Nəzir döyüşündən sonra isə ev-eşiklərini tərk edib başqa yerlərə gedən Bəni-Nəzir yəhudilərinin evləri evi olmayan mühacirlər arasında bölüşdürülür. Peyğəmbərə (s) gəlincə, o həzrət Mədinəyə gəldiyi gündən etibarən Əbu Əyyub Ənsarinin evində məskunlaşmışdır. Digər mühacirlərdən isə konkret olaraq kimin ənsardan hansının evində qalması barədə tarixdə dəqiq məlumat yoxdur. Bu səbəbdən Əlinin (ə) özü üçün Mədinə məscidinin kənarında otaq tikənə qədər harada qaldığı məlum deyil. Kim bilir, bəlkə Peyğəmbərlə (s) birlikdə Əbu Əyyub Ənsarinin evində qalmışdır.

Mədinə məscidinin inşa edilməsi və Əlinin (ə) daha bir fəziləti

Həzrət Peyğəmbərin (s) Mədinəyə hicrət etdikdən sonra gördüyü ilk iş məscid tikilməsi haqda göstəriş verməsi olmuşdur. Peyğəmbərin (s) tapşırığı ilə məscidin tikiləcəyi ərazi sahibindən satın alınaraq dərhal məscidin inşasına başlanılmışdır. Tikinti işləri gedərkən Peyğəmbər (s) özü də digər müsəlmanlar kimi böyük həvəslə işləyir, daş, palçıq daşıyırdı.

Müsəlmanlar məscidin tikintisində çalışarkən əmək nəğmələrini xatırladan rəcəzlər oxumaqla bir-birini daha da həvəsləndirirdilər. Əli (ə) də öz növbəsində aşağıdakı rəcəzi oxuyurdu: "Ciddi-cəhdlə məscidin tikintisində çalışan şəxslə əlini heç bir işə vurmayıb üstünün toz-torpağını çırpan adam eyni ola bilərmi?"

Məscid tikilib başa çatdıqdan sonra Peyğəmbər (s) də daxil olmaqla bəzi mühacirlər özləri üçün məscidin kənarda kiçik otaqlar tikib içəridən məscidə açılan qapılar qoyurlar. Namaz vaxtı və ya məsciddəki digər toplantılara həmin qapılardan daxil olurdular. Bir neçə vaxtdan sonra Peyğəmbər (s) Əlinin (ə) qapısı

[1] Peyğəmbərin(s) Mədinədən olan silahdaşlarına ənsar deyilir.

istisna olmaqla məscidə açılan bütün qapıların bağlanmasını tapşırır.[1] Səhabələr Əlinin (ə) qapısının açıq qaldığı halda onların qapısının bağlanmasına etiraz etdikdə Peyğəmbər (s) buyurur: "Sizin qapılarınızın bağlanıb Əlinin qapısının açıq qalmasına əmr edən mən deyiləm, Allahdır sizin qapıları bağlayıb Əlinin qapısını açıq saxlayan!"[2]

Sünni mənbələrində bu məzmunda yüzdən çox hədis nəql edilmiş və "İhqaqul-həqq" əsərinin müəllifi o hədislərin hamısını bir yerə toplamışdır. Ətraflı məlumat əldə etmək istəyənlər həmin kitabın beşinci cildinə (səhifə 540-586) müraciət edə bilərlər.

Peyğəmbərlə (s) Əlinin (ə) qardaş olması

Peyğəmbərin (s) Mədinəyə hicrətindən bir neçə ay sonra o həzrət böyük bir mərasimdə biri ənsardan, digəri isə mühacirlərdən olmaqla bütün müsəlmanları bir-biri ilə iki-iki qardaş edir. Özü isə Əli ibn Əbutaliblə (ə) qardaş olaraq ona buyurur: "Sən mənim, mən də sənin qardaşınam. "Sünni mənbələrinin bir çoxunda da bu hədis Səid ibn Müseyyibin vasitəsilə nəql edilmişdir.[3]

Zeyd ibn Əbu Əvfadan nəql edilmiş bir neçə hədisdə göstərilir ki, Peyğəmbər (s) bütün müsəlmanları bir-biri ilə qardaş təyin edib Əli üçün heç kimi qardaş olaraq seçmədikdə Əli narahat olaraq həzrətə deyir: "Ey Allahın rəsulu, səhabələrinin hamısını bir-birinə qardaş elan etdin, ancaq məni heç kimlə qardaş etmədin. "Peyğəmbər (s) onun cavabında buyurur: "And olsun məni haqq olaraq peyğəmbər seçmiş Allaha, səni özümlə qardaş etməkdən ötrü axıra saxladım. Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir. Təkcə fərq odur ki, məndən sonra peyğəmbər yoxdur, lakin sən mənim qardaşım və varisimsən. Sən Cənnətdə mən və qızım Fatimə ilə birlikdə mənim qəsrimdə olacaqsan. Sən mənim qardaşım və köməkçimsən. (Bu vaxt Peyğəmbər (s): "Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər"[4] ayəsini oxuyur.)"[5]

Qeyd etmək lazımdır ki, Peyğəmbər (s) müsəlmanlar arasında iki dəfə qardaşlıq əhd-peymanı bağlamışdır. Bunlardan biri Məkkədə, digəri isə Mədinədə baş tutmuşdur.Məkkədəki mərasimdə Peyğəmbərlə (s) Əli ibn Əbutalib (ə), Həmzə ibn Əbdülmüttəliblə Zeyd ibn Harisə, Əbubəkrlə Ömər ibn Xəttab, Osman ibn Əffanla Əbdürrəhman ibn Ovf, Zübeyr ibn Əvamla Abdullah ibn Məsud, Übeydə ibn Haris ibn Əbdülmüttəliblə Bilal Həbəşi, Müsəb ibn Ümeyrlə Səd ibn Əbu Vəqqas arasında qardaşlıq əhd-peymanı bağlanmışdır. Mədinədəki qardaşlıq əhd-

[1] İhqaqul-həqq, c-5, s-563
[2] İhqaqul-həqq, c-5, s-557
[3] Yənabiul-məvəddət, s-57; Tarixul-Mədinə, c-1, s-191; Kəvakibud-durriyyə, c-1, s-39
[4] Hicr-47
[5] Yənabiul-məvəddət, s-56; Lisanul-mizan, c-3, s-9; əl-İsabə, c-2, s-234

peymanına gəldikdə isə bəzi tarixçilərin fikrincə orada ümumi sayı yüz nəfər olmaqla əlli mühacirlə əlli ənsar arasında əhd-peyman bağlanmışdır. Bəzi tarixçilər isə bu rəqəmin yüz əllisi mühacirdən, yüz əllisi də ənsardan olmaqla üç yüz olduğunu iddia etmişdir.

İbn Couzi deyir: "Mədinədə aralarında qardaşlıq əhd-peymanı bağlanmış bütün müsəlmanların sayı və adını bilirəm. Onlar yüz səksən altı nəfər olmuşlar."

İbn Hişam "Sirə" əsərində İbn İshaq və qeyrilərinə istinadən belə yazır: "Peyğəmbərlə (s) Əli ibn Əbutalib, Həmzə ibn Əbdülmüttəliblə Zeyd ibn Harisə, (Həbəşədə hicrətdə olan) Cəfər ibn Əbutaliblə Məaz ibn Cəbəl, Əbubəkrlə Xaricə ibn Zeyd, Ömər ibn Xəttabla Ütban ibn Malik, Osman ibn Əffanla Ovs ibn Sabit, Əbu Übeydə Cərrahla Səd ibn Məaz, Salman Farsi ilə Əbu Dərda, Əmmar ibn Yasirlə Hüzeyfə ibnYəman və Əbuzərlə Münzir ibn Əmr arasında qardaşlıq əhd-peymanı bağlanır. Bu əhd-peymana əsasən adı çəkilən şəxslər bir-birindən irs də aparacaqdılar. Lakin onlardan hələ bircə nəfəri də vəfat etməmiş Bədr döyüşündə "Qohumlar Allahın kitabında (irs, varislik baxımından) bir-birinə daha yaxındırlar"[1] ayəsi nazil olaraq aralarında qardaşlıq əhd-peymanı bağlanmış şəxslərin bir-birindən irs aparma hökmünü qüvvədən salır. Beləliklə də irs aparma yalnız həqiqi qohumluq münasibətləri əsasında tənzimlənir.

Əli ibn Əbutalib (ə) Bədr döyüşündə

Həzrət Peyğəmbərin (s) həyatından bəhs edərkən qeyd etdiyimiz kimi hicrətin ikinci ilində Məkkə müşrikləri öncə ticarət mallarını daşıyan karvanı təhlükədən qurtarmaq, ardınca da müsəlmanlara qarşı döyüşmək məqsədilə Bədr quyuları yaxınlığına gəlirlər. Həzrət Peyğəmbər (s) də öz növbəsində müsəlmanları toplayıb kafirlərin gəlişindən qabaq Bədr ərazisinə gəlib çıxmışdı.

Mötəbər mənbələrin yazdığına əsasən iki ordu arasındakı döyüş mübarək ramazan ayının on yeddisində baş vermişdir. Bu döyüşdə müsəlmanların sayı üç yüz on üç, müşriklərin sayı isə minə yaxın, təxminən doqquz yüz əlli nəfər olmuşdur.[2] Bu baxımdan müşriklər müsəlmanların üç bərabəri qədər olmuşlar. Minik və silah-sursat baxımından da iki ordu bir-birindən müqayisəedilməz dərəcədə fərqlənirdi. Çünki müşriklər tam silahlanmış bir ordu ilə hərəkətə keçmişdilər. Lazım olduğundan da artıq at və dəvəyə malik idilər[3], kifayət qədər yeməkləri var idi. Hətta əyləncə məqsədilə özləri ilə mahnılar oxumaqdan ötrü qadınlar, musiqi alətləri gətirmişdilər.

[1] Ənfal-75

[2] Mərhum Təbərsi Məcməül-bəyan təfsirində Əli(ə) və ibn Məsuddan nəql etdiyi hədisdə müşriklərin sayının min, Qətadə və qeyrilərindən nəql etmiş hədisdə isə doqquz yüzlə min nəfər arasında olduğunu qeyd etmişdir.

[3] Təbərsi müşriklərin döyüşə dörd yüz atla gəldiyini, nahar zamanı hər gün doqquz-on dəvə kəsdiklərini bildirir.

Müsəlmanların isə cəmi iki atı, yetmiş də dəvəsi var idi. Hər üç və ya dörd nəfərə bir dəvə düşürdü. Döyüşə gələrkən hamı növbə ilə dəvəyə minirdi. O cümlədən Peyğəmbər (s) Əli ibn Əbutalib (ə) və Mərsəd ibn Əbu Mərsəd növbə ilə bir dəvəyə minirdilər. Atlardan biri Miqdadın, digəri isə Zübeyrin idi. Yemək və silah-sursat, döyüş ləvazimatı sarıdan da kasadlıq idi. Mərhum Təbərsinin "Məcməül-bəyan" təfsirində yazdığına görə müsəlmanların cəmi altı zirehi, səkkiz qılıncı var idi.

Döyüş başlayır və ilk olaraq Qüreyş böyüklərindən Ütbə, Şeybə və Vəlid ibn Ütbə meydana çıxıb özlərinə rəqib tələb edirlər. Qeyd edək ki, Qüreyş ordusuna rəhbərliyi də məhz Ütbə həyata keçirirdi. Bunu görən müsəlmanlardan Ovf, Müəvvəz və Abdullah ibn Rəvahə adlı üç mədinəli onların qarşısına çıxır. Onlar özlərini təqdim etdikdə Ütbə qürurlu və bir qədər də istehzalı şəkildə deyir ki, bizim sizinlə işimiz yoxdur, bizimlə döyüşə özümüzə layiq adamlar gəlsin. Bu zaman Peyğəmbər (s) Übeydə ibn Haris, Həmzə ibn Əbdülmüttəlib və Əli ibn Əbutalibə irəli çıxmalarına işarə edir. Ütbə onları gördükdə bu dəfə də qürurla deyir ki, hə, siz bizimlə döyüşməyə layiq adamlarsınız. Bunu deyib döyüşə başlayırlar.

Übeydə ibn Harislə Ütbə, Həmzə ibn Əbdülmüttəliblə Şeybə, Əli ibn Əbutaliblə də Vəlid ibn Ütbə vuruşmağa başlayır. Həmzə ilə Əli (ə) öz rəqiblərini qətlə yetirib Übeydənin köməyinə gedərək Ütbəni də Cəhənnəmə vasil edirlər.

Əli ibn İbrahimin nəql etdiyi hədisdə göstərilir ki, ilk öncə Əli (ə) öz rəqibini qətlə yetirir, sonra əmisi Həmzənin köməyinə gedib Şeybənin qətlə yetirilməsində ona yardım edir. Daha sonra isə ikisi də Übeydənin yardımına tələsib Ütbənin öldürülməsində iştirak edirlər. Beləliklə də öldürülənlərin hər üçünün qətlində Əlinin (ə) rolu olur.

Ütbə, Şeybə və Vəlid qətlə yetirldikdən sonra ümumi hücum başlayır və hər iki ordu bir-birinə qarışır. Allahın köməyi sayəsində müşriklər bütün sahələrdə müsəlmanlardan üstün olmalarına rəğmən ağır məğlubiyyətə uğrayıb yetmiş ölü, yetmiş nəfər də əsir qoyaraq Məkkəyə doğru qaçmağa başlayırlar. Beləliklə də müsəlmanlar inamlı qələbəyə nail olurlar.

Bu qələbədə Əli ibn Əbutalibin (ə) xüsusı rolu olmuşdur. Belə ki, bütün şiə və sünni tarixçilərinin yazdığına görə bir çoxlarının qarşısına çıxmağa cəsarət etmədiyi Vəlid ibn Ütbə, As ibn Səid, İslama qarşı inadkarlığı ilə tanınan Tüeymə ibn Ədiyy, Peyğəmbərin (s) qatı düşmənlərindən sayılan və Qüreyşin hörmətini qazanmış Nofəl ibn Xüveylid məhz Əli ibn Əbutalib (ə) tərəfindən qətlə yetirilmişlər. Peyğəmbər (s) Nofəlin döyüşə gəldiyini eşitdikdə onun haqqında pis dua edərək buyurur ki, İlahi, Nofəlin şərrini məndən uzaq et! Döyüşün sonunda Əlinin (ə) Nofəli qətlə yetirdiyini eşitdikdə təkbir deyərək Allaha şükr səcdəsi yerinə yetirdikdən sonra buyurur: "Şükr olsun onun haqqında etdiyim duanı qəbul etmiş Allaha!"

Əli (ə) tərəfindən Bədr döyüşündə qətlə yetirilənlər bunlarla bitmir. Qüreyş qəbiləsində hər biri qəhrəmanlığı və İslama olan düşmən mövqeyi ilə fərqlənən

As ibn Münbih, Hacib ibn Saib və Əbu Qeys ibn Fakihə də o həzrətin qılıncı ilə qətlə yetirilmişlər.

İbn Şəhraşub "Mənaqib", İbn Əbilhədid isə "Şərhi Nəhcül-bəlağə" əsərlərində qeyd etmişlər ki, Bədr döyüşündə öldürülənlərin tən yarısını, yəni otuz beşini məhz Əli ibn Əbutalib (ə), qalanlarını isə mələklərlə digər müsəlmanlar qətlə yetirmişlər.[1] Mərhum Şeyx Mufid isə Əli (ə) tərəfindən qətlə yetirilənlərin otuz altı nəfər, yəni ümumi ölənləri yarısından da artıq olduğunu və onların hər birinin adını qeyd etmişdir.[2] İndi mərhum Şeyx Mufidin Bədr döyüşü haqqında yazdıqlarını qısaca olaraq diqqətinizə çatdırırıq: "Cihad baxımından özəlliklərinə gəlincə, Əmirəl-möminin Əli ibn Əbutalibin (ə) elə üstünlükləri vardır ki, hamının dillər əzbərinə çevrilmiş, bunu tarixdən xəbərsiz olan və o həzərətə qarşı qərəzli mövqe tutanlardan başqa heç kəs inkar etmir. Əslində bunlar danılmaz faktlardır. O cümlədən Əlinin (ə) Bədr döyüşündəki qəhrəmanlıqlarını göstərmək olar. Bədr döyüşü müsəlmanların ilk sınaq meydanı idi və Allah-təala buna Quran-i Kərimdə də toxunaraq buyurur: "Möminlərdən bir dəstənin (Bədr vuruşuna getmək) xoşuna gəlmədiyi halda Rəbbinin səni haqq (cihad) uğrunda öz evindən çıxartmasına bənzər! (Bəzi möminlər müsəlmanların sayca az, qüvvətcə zəif olduqları üçün Bədr müharibəsinə getməyi Peyğəmbərə məsləhət görməmiş, özləri də orada iştirak etmək istəməmişdilər. Lakin Peyğəmbər onların sözlərinə baxmayıb yaxın səhabələri ilə vuruşa yollanmış və düşməni məğlub edərək xeyli qənimət əldə etmişdi)..."[3] Demək olar ki, Ənfal surəsi bütünlüklə Bədr döyüşünə həsr edilmişdir. Döyüşü qısaca olaraq belə xarakterizə etmək olar ki, müşrklər Məkkə ilə Mədinə arasında yerləşən Bədr ərazisinə gəlib çatırlar. Onlar müsəlmanlarla vuruşmaqda israrlı idilər. Döyüşə böyük bir ordu, xeyli sayda silah-sursat, döyüş avadanlıqları və əyləncə vasitələri gətirmişdilər. Onlarla müqayisədə isə müsəlmanların sayı olduqca az idi. Döyüşə gələnlərin bir dəstəsi də istəmədikləri halda məcbur qalıb gəlmişdi. İki ordu bir-birinin qarşısında dayandıqda müşriklərdən Vəlid, Ütbə və Şeybə adlı üç nəfər irəli çıxıb özləri üçün rəqib tələb edirlər. Peyğəmbərin (s) Mədinədən olan səhabələri irəli çıxıb döyüşə hazır olduqlarını bildirərək bir neçə nəfəri meydana göndərdilər. Lakin Peyğəmbər (s) onların qarşısını kəsərək buyurur ki, onlar özlərinə tay adamlar istəyirlər. (Siz isə mədinəli olduğunuza görə onlara tay deyilsiniz.) Buna görə də o həzrət (hər üçü Bəni-Haşimdən olan) Əli ibn Əbutalib (ə), Həmzə ibn Əbdülmüttəlib və Übeydə ibn Haris ibn Əbdülmüttəlibə buyurur ki, onlarla siz gedin vuruşun. Adı çəkilənlərin başında dəbilqə olduğundan müşriklər onları tanımayıb kim olduqlarını soruşurlar. Özlərini təqdim etdikdən sonra müşriklər deyirlər ki, siz çox layiqli rəqiblərsiniz. Beləliklə, müsəlmanlarla müşriklər arasında döyüş başlayır. Əli (ə)

[1] Şərhi Nəhcüləbəlağə, c-1, s-8
[2] Əl-İrşad, c-1, s-62-63
[3] Ənfal-5

Vəlidlə döyüşüb ona heç bir imkan vermədən qətlə yetirir. Həmzə də Ütbəyə eyni aqibəti yaşadır. Übeydə isə Şeybə ilə vuruşurdu. Onlar bir-birinə qarşılıqlı zərbələr endirirdilər. Bu zərbələrdən biri Übeydənin buduna dəyib onu möhkəm yaralayır. Lakin özünü yetirən Əli (ə) və Həmzə Şeybəni də Cəhənnəmə vasil edərək Übeydəni onun əlindən qurtarırlar. Bu üç cəngavərin qətlə yetirilməsi müşriklərin ilk və rüsvayedici məğlubiyyəti idi. Onlarda müsəlmanlara qarşı böyük qorxu və vəhşət hissi yaranmışdı. Get-gedə müsəlmanların qələbə qazanacağı fikri özünü doğrultmağa başlayırdı. Artıq çoxları Əlinin (ə) qarşısından qaçmağa başlamışdı. Bu zaman Səid ibn As irəli çıxıb onunla döyüşməyə başlayır. Lakin çox çəkmir ki, o da öldürülənlərin sırasına qoşulur. Onun ardınca Hənzələ ibn Əbu Süfyan irəli çıxır. Əli (ə) onu da qətlə yetirir. Ardınca Tüeymə ibn Ədiyy və Peyğəmbərin (s) qəddar düşməni Nofəl ibn Xüveylid ardıcıl olaraq döyüşə atılırlar, ancaq onlar da bir şey edə bilməyib yerə sərilirlər. Beləliklə, qətlə yetirilmiş yetmiş müşrikin tən yarısı Əli (ə), qalan yarısı isə digər müsəlmanlar və onların köməyinə gəlmiş üç min mələk tərəfindən qətlə yetirilir. Axırda da Peyğəmbər (s) yerdən bir ovuc xırda daş götürüb müşriklərə tərəf ataraq buyurur ki, üzünüz qara olsun! Bundan sonra müşriklər qaçmaq məcburiyyətində qalırlar. Beləliklə də Allah-təala Əmirəl-möminin Əlinin (ə) vasitəsilə müsəlmanlara böyük bir zəfər nəsib edir və müsəlmanlar bu döyüşdən alnıaçıq, başıuca geri dönürlər. Necə ki, Allah-təala Özü buyurur: "...Döyüşdə (zəfər çalmağa) Allah möminlərə kifayət etdi. Allah qüvvət, qüdrət sahibidir!"[1]"[2]

Əli (ə) olmasaydı, Fatimə (s.ə) üçün layiqli ər tapılmazdı

Bir çox hədislərdə, o cümlədən həzrət Peyğəmbərdən (s) nəql edilmiş aşağıdakı hədisdə Əlinin (ə) olmayacağı təqdirdə Fatimə (s.ə) üçün ər tapılmayacağı göstərilir: "Əli yaradılmasaydı, Fatiməyə layiq ər tapılmazdı."[3] İmam Sadiqdən (s) nəql edilmiş hədisdə isə belə deyilir: "Əgər Allah-təala Əlini xəlq etməsəydi, Adəmdən (ə) tutmuş qeyrilərinədək Fatimə üçün layiqli bir ər tapılmazdı."[4]

Böyük bir məqama sahib olan Fatimənin (s.ə) təbii ki, Əli (ə) kimi də əri olmalı idi. Dünya xanımlarının xanımı, Peyğəmbərin (s) ciyərparası, Cənnətə daxil olacaq ilk şəxs, duası nəticəsində Allahın göydən süfrə endirdiyi, paklığı və ismətinə Təthir ayəsinin (Əhzab surəsi, 33-cü ayə) şahidlik etdiyi, şənində Dəhr surəsinin nazil olduğu, mələklərin xidmət etməkdən ötrü evinə endiyi, qadınlar arasında Peyğəmbər (s) üçün ən sevimli şəxs, Peyğəmbərdən (s) sonra ən doğru danışan insan, qiyamət gününün şəfaətçisi olan Fatimeyi-Zəhra (s.ə) adi qadınlar kimi ərə gedə bilməzdi. Peyğəmbər (s) onun ərə verilməsi məsələsini Allahın

[1] Əhzab-25
[2] Əl-İrşad, c-1, s-59-63
[3] Biharul-ənvar, c-3, s-97, 107, 141, 145; Kənzul-həqaiq, s-124
[4] Usuli-Kafi, c-3, s-360

öhdəsinə buraxmış, elçiliyə gələnlərə: "Fatimənin ərə verilməsində Allahın əmrini gözləyirəm"[1]- deyə buyurardı.

Əli (ə) ilə Fatimənin (s.ə) evlənməsi haqqında "Fatimeyi-Zəhranın (s.ə) həyatı" əsərində oxuculara ətraflı şəkildə məlumat vermişik. Maraqlananlar həmin əsərə müraciət edə bilərlər. "Həzrət Məhəmmədin (s) həyatı" əsərində də qısaca olaraq bu mövzuya toxunmuşuq və indi orada qeyd etdiklərimizi olduğu kimi oxuculara təqdim edirik.

Həm şiə, həm də sünni mənbələrinin əksəriyyətində nəql edilmiş hədislərdə göstərilir ki, Fatimə (s.ə) yetkinlik yaşına çatdıqda Peyğəmbərin (s) həm Məkkədən, həm də Mədinədən olan əksər səhabələri ona elçilik edir, lakin Peyğəmbər (s) onların hamısına eyni cavabı verərək Fatimənin (s.ə) ərə verilməsində Allahın əmrini gözlədiyini bildirirdi. O günədək Fatiməyə (s.ə) elçilik etməyən yeganə şəxs Əli ibn Əbutalib (ə) idi. Bir gün Fatiməyə (s.ə) elçilik edərək yox cavabı almış Ömər ibn Xəttabla Əbubəkr bir-birinə deyirlər ki, deyəsən Peyğəmbər (s.ə) Fatiməni Əliyə ərə vermək üçün saxlayıb. Yaxşı olar ki, Əlinin yanına gedib bu məsələdən onu xəbərdar edək və Fatiməyə elçilik etməkdən ötrü onu Peyğəmbərin (s.ə) hüzuruna göndərək. Digər tərəfdən Cəbrail (ə) də Peyğəmbərə (s) nazil olaraq o həzrətə Allahın Fatiməni (s.ə) Əliyə (ə) ərə verməsi əmrini çatdırır. Ömərlə Əbubəkr Əlinin ardınca gedib onu xurma ağaclarını suvararkən yaxalayır, Fatimənin (s.ə) elçiliyinə getməsini ona təklif edirlər. Özünün də buna istəyi olan Əli (ə) onların təklifi ilə işdən əl çəkib dəstəmaz alaraq iki rükət namaz qıldıqdan sonra Peyğəmbərin (s) evinə gedir. Ancaq həya ona öz istəyini bildirməyə imkan vermir. Əlinin (ə) üzündən gəlişinin səbəbini anlayan Peyğəmbər (s) ondan soruşur ki, Fatiməyə elçilik etmək üçünmü gəlmisən? Əlidən müsbət cavab aldıqda soruşur: "Bu iş üçün dünya malından nəyin var?" Əli (ə) həzrətin cavabında buyurur ki, bir qılınc, bir at, bir zireh, bir də su daşıyan dəvəm var. Peyğəmbər (s) buyurur: "Qılınc, at və dəvəni bu işə xərcləmək olmaz, onların hamısına ehtiyacın var, amma zirehi satıb bu işdən ötrü xərcləyə bilərsən." Əli (ə) Peyğəmbərin (s) yanından çıxıb bazara gələrək zirehini 480 dirhəmə satdıqdan sonra yenidən həzrətin yanına qayıdıb pulun hamısını ona verir. Peyğəmbər (s) də pulun bir miqdarını bazara gedib Fatimə (s.ə) üçün cehiz almaqdan ötrü Miqdad ibn Əsvədə verir. Bazara gedən Miqdad bir ədəd əl dəyirman daşı, bir ədəd su qabı, bir ədəd də göndən hazırlanmış döşək alıb Peyğəmbərin (s) yanına gətirir. Peyğəmbər (s) xanımlarından birinin köməyilə toy mərasimi üçün lazım olan hər bir şeyı hazırlayıb Bədr döyüşündən sonra qızını Əliyə (ə) ərə verir.

[1] Yenə orada

Hicrətin üçüncü ili və Əlinin (ə) Ühüd döyüşündəki qəhrəmanlığı

Müsəlmanlar üçün acınacaqlı sonuc və Peyğəmbərin (s) əmrindən çıxdıqları üçün yetmiş səhabənin şəhid olması ilə başa çatan Ühüd döyüşü müsəlmanlar üçün böyük bir imtahan idi. Bu döyüşdə həqiqi möminlərlə özünü üzdə mömin kimi qələmə verən münafiqlər bir-birindən seçilirlər. Ali-İmran surəsində Ühüd döyüşündəki məğlubiyyətin səbəblərinə toxunan ayələrdən birində Allah-təala buyurur: "...Biz bu günləri (bu hadisələri) növbə ilə dəyişdiririk ki, Allah iman gətirən şəxsləri (başqalarından) ayırd etsin və içərinizdən şəhidlər (şahidlər) seçsin. Allah zülmkarları sevməz! (Bu həm də) Allahın iman gətirənləri (günahlardan) təmizləməsi və kafirləri məhv etmək üçündür. Yoxsa Allah içərinizdən cihad edənləri və (əziyyətə) səbr edənləri bilib (bir-birindən) ayırd etməmişdən qabaq Cənnətə girəcəyinizimi güman edirsiniz?"[1] Bir neçə ayədən sonra bu məsələyə yenidən toxunaraq buyurur: " ...Allah (bununla) sizin ürəklərinizdə olanları (səmimiyyət və ikiüzlülüyü) yoxlayıb aşkara çıxartsın və qəlblərinizdə olanları (niyyətlərinizi) təmizləsin. Allah ürəklərdə olanları biləndir!"[2] Nəhayət, üçüncü dəfə elə həmin surədə Allah-təala baş verənlərin səbəbini bir daha diqqət mərkəzində saxlayır: "(Ühüd müharibəsində) iki ordunun qarşılaşdığı gündə başınıza gələn fəlakət də Allahın iznilə oldu ki, möminləri ayırd etsin. Və münafiqləri onlardan fərqləndirsin..."[3]

Bütün tarixçilərin yazdığına görə Əmirəl-möminin Əli (ə) bu böyük sınaqdan hamıdan başıuca çıxır. Meydanda qalanlar arasında isə heç kim Əli (ə) kimi qəhrəmanlıq göstərməmişdir. Hətta bəzi hədislərdə döyüş meydanında Əlidən (ə) başqa heç kəsin qalmadığı göstərilir. Bədr döyüşündə olduğu kimi, Ühüd döyüşündə də Əlinin (ə) təkbaşına öldürdüklərinin sayı digər müsəlmanlar tərəfindən ümumi qətlə yetirilənlərin sayından artıq idi.[4]Görkəmli sünni tarixçilərindən İbn İshaq yazır: "Ühüd döyüşündəki nailiyyət Əlinin səbr və dözümü sayəsində əldə olundu."[5]

Yeri gəlmişkən onu da qeyd edək ki, bu döyüşdə düşmən ordusunun sayı üç min nəfər olmuşdur. Bədr döyüşündə olduğu kimi bu dəfə də onlar tam təchiz edilmiş bir ordu ilə hücuma keçmiş, özləri ilə bir çox çalıb-oxuyan qadınlar, o cümlədən Əbu Süfyanın arvadı Hindi də gətirmişdilər. Müsəlman ordusunun sayı isə yeddi yüz nəfər olmuşdur. İki ordu arasındakı döyüş Mədinədən bir fərsəx kənarda, Ühüd dağının ətəyində baş vermişdir. Ühüd döyüşünün şəhidlərinin qəbri də hal-hazırda məhz həmin ərazidə yerləşir.

[1] Ali-İmran-139-141
[2] Ali-İmran-154
[3] Ali-İmran-166-167
[4] İhqaqul-həqq, c-8, s-359
[5] İhqaqul-həqq, c-8, s-374

Bu döyüşdə müsəlmanlardan yetmiş nəfər şəhid olur. Döyüşün əvvəlində müsəlmanların, xüsusilə də Əmirəl-möminin Əlinin (ə) yüksək əzmkarlığı sayəsində müşriklərdən iyirmi iki, ya da iyirmi səkkiz nəfər qətlə yetirilir ki, İbn Əbilhədidin yazdığına görə onların on ikisini məhz Əli (ə) təkbaşına öldürmüşdür.[1]

Bədr döyüşündə olduğu kimi, Ühüd döyüşü də müsəlmanların qələbəsi ilə başlayır. Belə ki, Qüreyş ordusunun doqquz bayraqdarı, o cümlədən Təlhə ibn Əbu Təlhə və Bəni Əbdüddar qəbiləsindən olan digər bayraqdarlar Əlinin (ə) qılınc zərbələri və Asim ibn Sabitin atdığı sərrast oxlarla qətlə yetirilir. Onların qətlə yetirilməsi ilə müşriklər təşvişə düşürlər. Daha sonra isə müsəlmanların ümumi kütləvi şəkildə hücuma keçməsi ilə müşriklər geri çəkilmək məcburiyyətində qalırlar. Lakin döyüşün bu vaxtı bəzi müsəlmanların Peyğəmbərin (s) əmrindən çıxması nəticəsində vəziyyət tamamilə dəyişir və bundan istifadə edən müşriklər arxadan hücuma keçirlər ki, bu da arzuolunmaz sonluqla nəticələnir. Bu haqda "Həzrət Məhəmmədin (s) həyatı" kitabında ətraflı şəkildə məlumat verdiyimiz üçün bir daha həmin mövzuya toxunmuruq. Lakin mərhum Şeyx Mufidin nəql etdiyi və sünni mənbələrində də verilmiş üç hədisi oxuculara təqdim etməyimiz yerinə düşər.

1. Müfəzzəl ibn Abdullah İbn Abbasdan nəql edərək deyir: "Əli ibn Əbutalibin heç kimə nəsib olmayan dörd fəziləti vardır: Birincisi odur ki, o, Peyğəmbərlə (s) ilk namaz qılan şəxs olmuşdur. İkincisi odur ki, Peyğəmbər (s) bütün döyüşlərdə bayrağı ona vermişdir. Üçüncüsü odur ki, Əli ibn Əbutalib döyüşün sonunadək o həzrətin yanından ayrılmadı. Dördüncüsü də odur ki, Peyğəmbərin (s) qəbrinə düşərək onu qəbrə qoyan şəxs məhz Əli (ə) olmuşdur."

2. Zeyd ibn Vəhəb Cəhəni belə nəql edir: "Bir gün Abdullah ibn Məsudla bir yerdə oturmuşduq. Nədənsə o, narahat idi və kefi yox idi. Belə qərara gəldik ki, ondan keçmiş hadisələr haqqında soruşaq. Bu məqsədlə ondan Ühüd döyüşündə baş verənlər barədə danışmasını istədik. Abdullah sözə başlayaraq bir qədər danışdıqdan sonra döyüş məqamına gəlib çataraq dedi: "Peyğəmbər (s) bizə buyurdu ki, Allahın adı ilə müşriklərə doğru hərəkət edin. Mədinədən çıxıb döyüş meydanına gəldik və düşmən qarşısında sıralarımızı düzəltdik. Peyğəmbər (s) Ühüd dağındakı keçidə nəzarət etməkdən ötrü əlli nəfər mədinəlini orada saxlayıb aralarından Abdullah ibn Ömər ibn Həzəmi də onlara başçı təyin edərək tapşırır ki, buranı qətiyyən tərk etməyin, hətta görsəniz ki, bizim hamımızı qırıblar, yenə də buranı boş qoymayın. Düşmən bu keçiddən istifadə edib bizə hücum etməyə çalışacaq. "Digər tərəfdən də Əbu Süfyan Xalid ibn Vəlidin başçılığı ilə kiçik bir dəstəni dağın keçidini nəzarətdə saxlamış əlli nəfərin pusqusunda qoyur. Müşrik ordusunun bayraqlarını Təlhə ibn Əbu Təlhə və Bəni Əbdüddar qəbiləsinin nümayəndələri götürmüşdülər. Təlhəni Kəbşul-kətibə, yəni, ordunun öndəri adlandırırdılar. Peyğəmbər (s) də mühacirlərin

[1] Şərhi Nəhcül-bəlağə, c-3, s-401

bayrağını Əli ibn Əbutalibə tapşırmışdı. Əli də bayrağı götürüb düz ənsarın bayrağının yanında saxlayır. Əbu Süfyan Qüreyş bayraqdarlarının yanına gələrək onlara deyir: "Bilirsiniz ki, başımıza nə gəlibsə, hamısı bayraqdarlarımızın ucbatından gəlib. Bədr döyüşündəki məğlubiyyətimizin səbəbi də bayrağımızın yerə düşməsi oldu. İndi baxın görün əgər bayrağı saxlaya bilməyəcəksinizsə, mən onu bir başqasına tapşırım. "Təlhə ibn Əbu Təlhə Əbu Süfyanın bu sözlərindən narahat olub deyir: "Bu sözləri bizəmi deyirsən? And olsun ki, bu bayraqları son damla qanıma qədər qoruyacağam. "Bu zaman Əli ibn Əbutalib irəli çıxıb soruşur ki, sən kimsən? Təlhə cavab verir ki, mən ordunun öndəri Təlhə ibn Əbu Təlhəyəm. Bəs sən kimsən? Əli: "Mən də Əli ibn Əbutalib ibn Əbdülmüttəlibəm"-dedikdən sonra bir-birinə hücum edirlər. Bir-iki qarşılıqlı zərbədən sonra Əli onun başına elə bir zərbə endirir ki, gözləri hədəqəsindən çıxıb yerə düşür. Təlhə elə fəryad edirdi ki, o vaxtadək o cür qışqırıq eşitməmişdim. Müşriklərin bayrağı yerə düşdükdə Təlhənin qardaşı Müsəb tez bayrağı əlinə alır. Müsəlmanların arasından sərrast ox atması ilə tanınan Asim ibn Sabit bir oxla onu yerə sərir. Təlhənin digər qardaşı Osman irəli çıxıb bayrağı götürür. Asim bir oxla onu da qətlə yetirir. Bu dəfə onların Səvab adlı yekəpər bir nökəri bayrağı əlinə alır. Əli onun hər iki əlini biləkdən kəsir. Səvab bayrağı sinəsinə yapışdırıb onu iki kəsik biləkləri ilə tutur. Əli onun başına ağır bir zərbə endirdikdən sonra Səvab yerə sərilir. Vəziyyətin belə davam etdiyini görən müşriklər qaçmaq məcburiyyətində qalırlar. Müsəlmanlar isə onların qoyub qaçdıqlarını qənimət olaraq toplamağa başlayırlar. Peyğəmbərin (s) dağın keçidini qorumaq üçün təyin etdiyi nəzarətçilər bu vəziyyəti görüb bir-birinə deyirlər ki, indi nə qədər qənimət varsa, hamısını onlar toplayacaq, bizə isə heç nə qalmayacaq. Buna görə də başçıları Abdullah ibn Ömər ibn Həzəmə deyirlər ki, biz də qənimət yığmağa gedirik. Abdullah onlara Peyğəmbərin (s) buranı tərk etməmələrini tapşırdığını bildirsə də onlar onun sözünə məhəl qoymur və deyirlər ki, Peyğəmbər o sözü deyəndə vəziyyətin bu cür olacağını bilmirdi. Bunu deyib qənimət yığmağa gedirlər və Abdullahı dağın keçidində tək qoyurlar.

Dağdakı nəzarətçilərin çıxıb getdiyini və Abdullahın tək qaldığını görən Xalid sərəncamında olan atlılarla onun üstünə şığıyıb Abdullahı qətlə yetirir, ardınca da arxadan Peyğəmbərə (s) hücum etməyə hazırlaşırlar. Peyğəmbərin (s) ətrafında çox az adam olduğunu gördükdə yanındakılara deyir ki, baxın, axtardığınız adam budur, hamılıqla üstünə axışıb işini birdəfəlik edin. Onlar da Xalidin dediyi kimi edib hücuma keçirlər. Bunu görən müsəlmanlar Peyğəmbəri (s) qorumağa çalışır, bu yolda canlarından keçirdilər. Yetmiş nəfər müsəlman şəhid olur. Həzrətin ətrafında yalnız Əli ibn Əbutalib, Əbu Dəcanə Ənsari və Səhl ibn Hüneyf qalır.

Həzrət buyurur ki, elə isə sən məni hədəfə almış bu düşməndən qoru! Düşmənin üstünə hücum edən Əli onları Peyğəmbərin ətrafından uzaqlaşdırıb yenidən həzrətin yanına qayıdır. Düşmən bu dəfə başqa istiqamətdən hücuma ke-

çir, lakin Əli yenə də onları pərən-pərən salır. Bu anda Əbu Dəcanə Ənsari ilə Səhl ibn Hüneyf də əllərində qılınc Peyğəmbərin (s) başının üstündə durub o həzrəti qoruyurdular. Nəhayət, qaçıb getmiş müsəlmanlardan on dördü, o cümlədən Təlhə və Asim ibn Sabit geri dönür, qalanları isə dağa qaçırlar.

Digər tərəfdən Mədinədə kimsə Peyğəmbərin (s) qətlə yetirildiyi şayiəsini yayır. Kim tərəfindən yayıldığı məlum olmayan bu şayiə hamını sarsıdır, qaçıb aradan çıxanlar hərə bir tərəfə dağılışır.

Ütbənin qızı (Əbu Süfyanın arvadı, Müaviyənin də anası) Hind Vəhşi adlı zənci bir nökərə Məhəmməd (s), Əli və Həmzədən birini öldürəcəyi təqdirdə ona böyük mükafat verib azadlığa buraxacağına söz vermişdi. Vəhşi isə ona bildirmişdi ki, Məhəmməd və ya Əlini öldürə biləcəyimə inanmıram. Çünki Məhəmmədin səhabələri pərvanə kimi onun başına dolanıb onu hər tərəfdən qoruyurlar. Əli də döyüş zamanı olduqca diqqətlidir. Həmzəyə gəldikdə isə onu bəlkə öldürə bildim. Çünki o, döyüş zamanı elə qəzəblənir ki, sağ-solunu da unudur.

Həmzəni həmin gün yaxasına vurduğu dəvəquşu lələyindən uzaqdan tanımaq mümkün idi. Vəhşi döyüş meydanındakı azsaylı ağaclardan birinin arxasında gizlənir. Həmzə onu görüb yaxınına gedir. Vurduğu zərbə Vəhşidən yan keçir. Vəhşi deyir: "Əlimdəki nizəmi bir qədər oynadıb Həmzəyə tərəf atdım. Nizə Həmzənin böyrünə sancıldı. Əldən düşməsi üçün bir qədər gözlədim. Sonra yaxınlaşıb nizəmi çıxartdım. Qaçmaqda olan müsəlmanlar Həmzənin başına gələnlərdən xəbərsiz idilər. Bu vaxt Hind gəlib çıxır və əmr edir ki, Həmzənin sinəsini yarıb ciyərini çıxartsınlar, burun-qulağını kəssinlər. Peyğəmbərin başı döyüşə qarışdığına görə baş verənlərdən xəbərsiz idi."

Abdullah ibn Məsuddan bəs bu danışdıqlarını kimdən eşitmisən? Cavab verdi ki, Asim ibn Sabitlə Səhl ibn Hüneyfdən. Dedim ki, Əlinin o vəziyyətdə meydanda tək qalıb Peyğəmbəri (s) qoruması doğurdan da təəccübləndiricidir. Abdullah dedi ki, bəli, mələklər də buna təəccüblənmişdilər. Bəs eşitməmisən ki, həmin gün Cəbrail (ə) göydə pərvaz edərək: "Əlidən başqa igid, Zülfüqardan başqa qılınc yoxdur" – deyə fəryad edirdi.

Soruşdum ki, onun Cəbrail olduğunu haradan bildiniz? Abdullah ibn Məsud cavab verdi ki, camaat bu səsi eşitmiş, sonradan onu deyənin kim olduğunu Peyğəmbərdən(s) soruşduqda buyurmuşdu ki, o, Cəbrail olmuşdur."

3. İmran ibn Hüseyn deyir: "Ühüd döyüşündə hamı Peyğəmbərin (s) ətrafından dağılışdı. Qılıncını boynundan asmış Əli Peyğəmbərin (s) yanına gəlib qarşısında dayanır. Peyğəmbər dağdan aşağı enib ona tərəf gələn düşmənlərə işarə etcək, Əli onların üstünə şığıyıb uzaqlaşdırır. Bu dəfə Peyğəmbər (s) başqa bir düşmən dəstəsinə işarə edir. Əli onları da uzaqlaşdırır. Peyğəmbər (s) üçüncü dəstəyə işarə edir, Əli onların da üstünə gedib pərakəndə salır. Bu zaman Cəbrail (ə) Peyğəmbərin (s) yanına gəlib deyir ki, ya Rəsuləllah, Əlinin sizi bu cür müdafiə etməsinə bütün

mələklər heyran qalıb. Peyğəmbər (s) buyurur ki, elə bu cür də olmalı idi. Axı mən ondan, o da məndəndir. Cəbrail (ə) də deyir ki, mən də sizdənəm.

İndi isə sünni mənbələrində nəql edilmiş aşağıdakı üç hədisi diqqətinizə çatdırırıq:

1. İbn Əsir Cəzəri Səid ibn Müsəyyibdən belə nəql edir: "Ühüd döyüşündə Əli ibn Əbutalibə on altı möhkəm zərbə dəyir. Bu zərbələrin hər birinin təsirindən Əli yerə yıxılırdı. Hər dəfə də onu yerdən Cəbrail (ə) qaldırırdı."[1]

2. Əxtəb Xarəzm Məhəmməd ibn İshaq ibn Yəsardan belə rəvayət edir ki, Ühüd döyüşü başa çatdıqdan sonra Əli ibn Əbutalib evə gəlib qılıncı belindən açaraq Fatiməyə verərkən aşağıdakı məzmunda bir şeir deyir: "Ey Fatimə, eybdən uzaq olan bu qılıncımı al! Mən qorxaq və özünü danlayan kişi deyiləm. Canıma and olsun ki, Peyğəmbəri qorumaq və bəndələrin hər işindən xəbərdar olan Allahın əmrlərini icra etmək üçün var qüvvəmi sərf etmişəm."[2]

3. Əllamə Couzi Əhməddən nəql edərək yazır: " O gün bir nəfər göydən fəryad edərək deyirdi ki, Əlidən başqa igid, Zülfüqardan başqa qılınc yoxdur. Həssan ibn Sabit bu haqda bir şeir deməkdən ötrü Peyğəmbərdən (s) icazə istəyir. Peyğəmbər (s) icazə verdikdə Həssan deyir:

Toz-torpaq hələ dağılmamış Cəbrail fəryad edirdi.
Müsəlmanlar Peyğəmbəri (s) əhatəyə almışdılar.
Cəbrail deyirdi ki, Əlidən başqa igid,
Zülfüqardan başqa qılınc yoxdur.[3]

Məcməül-bəyan təfsirində Ənəs ibn Malikdən nəql edilmişdir ki, Ühüd döyüşündə Əli ibn Əbutalib altmışdan çox qılınc, nizə və ox yarası almışdı. Onu Peyğəmbərin (s) yanına gətirdikdə həzrət əlini onun yaralarına sürtdükcə Allahın iznilə yaralar sağalırdı.

"Sireyi Hələbiyyə" əsərində Carullah Zəməxşəri Əlidən (ə) belə nəql etmişdir: "Ühüd döyüşündə mənə on altı ağır zərbə dəydi. Dörd dəfə yerə yıxıldım və hər dəfə gözəl simalı bir şəxs əlimdən tutub ayağa qaldıraraq deyirdi ki, qalx, sən Allahın və Rəsulunun itaətindəsən, onların hər ikisi səndən razıdır. Sonralar bu əhvalatı Peyğəmbərə (s) danışdıqda soruşdu ki, onun kim olduğunu tanıdınmı? Cavab verdim ki, xeyr, ancaq Dehyətul-Kəlbiyə bənzəyirdi. Həzrət buyurdu ki, o, Cəbrail olmuşdur."

Əli ibn Əbutalib (ə) Bəni-Nəzir döyüşündə

Bəni-Nəzir yəhudiləri Mədinənin Cənub-Şərqində yaşayırdılar. Onların böyük qalası, çoxlu əkin sahələri və xurma bağları var idi. Onlar Peyğəmbərlə (s)

[1] Usdul-qabə, c-4, s-20
[2] Mənaqibi Xarəzmi, s- 104
[3] Təzkirətul-xəvass, s-30

sülh müqaviləsi bağlamışdılar. Bu müqaviləyə əsasən Bəni-Nəzir yəhudiləri müsəlmanlara qarşı hər hansı bir hərəkətə yol verməmək şərtilə Mədinədə asudə yaşayıb öz dinlərinə itaət edə bilərdilər. Lakin yəhudilər öz əhd-peymanlarına sadiq qalmadıqlarına görə bu müqaviləni də pozaraq Peyğəmbərə (s) qarşı plan hazırlayırlar. Belə ki, bir gün Peyğəmbər (s) onların yanına gəlib qala divarlarının kənarında əyləşdiyi vaxt yəhudilər qalanın başından o həzrətin üstünə böyük bir daş ataraq onu qətlə yetirmək istəyirlər. Lakin Allah-təala vəhy mələyinin vasitəsilə Peyğəmbəri (s) yəhudilərin qurduğu hiylədən xəbərdar edir və Həzrət dərhal oranı tərk edərək Mədinəyə qayıdır. Mədinəyə qayıtdıqdan sonra Bəni-Nəzir yəhudiləri üçün xəbər göndərir ki, öz əhdinizi pozub mənə qarşı hiylə işlətdiyinizə görə sizə on gün möhlət verirəm. On gün ərzində bütün əmlakınızı da götürüb Mədinəni tərk etməlisiniz. Əks təqdirdə qətlə yetiriləcəksiniz. Müsəlmanların qarşısında tab gətirə bilməyəcəklərini yaxşı anlayan Bəni-Nəzir yəhudiləri Mədinəni tərk etməyə hazırlaşdıqları bir vaxtda Mədinə münafiqlərinin başçısı Abdullah ibn Übeyy onlara xəbər göndərir ki, heç yerə getməyin, biz iki min nəfərlik bir ordu ilə sizin köməyinizə gələck, digər tərəfdən Bəni-Qüreyzə yəhudiləri də sizə öz yardımını göstərəcək. Biz heç vaxt sizin Məhəmmədə təslim olmağınıza razı olmarıq. Bəni-Nəzir yəhudiləri Abdullah ibn Übeyyin vədələrinə arxalanaraq Mədinəni tərk etmək fikrindən daşınırlar.

Peyğəmbərin (s) onlara verdiyi möhlət başa çatan kimi o Həzrət döyüş təbili çalıb müsəlmanları bir yerə toplayır. Ordunun bayrağını Əli ibn Əbutalibə (ə) verərək Bəni-Nəzir qalasına doğru irəliləyib qalanı mühasirə edirlər. Qalanın mühasirəsi iyirmi gündən çox çəkir. Axırda yəhudilər təslim olub Mədinəni tərk edirlər. Peyğəmbər (s) səhabələrlə məsləhətləşdikdən sonra onların qoyub getdiyi daşınar və daşınmaz əmlakı o günədək mədinəlilərin evində qonaq qismində qalan Məkkədən gəlmiş mühacirlər arasında bölüşdürür. Beləliklə də mühacirlər müstəqil ev-eşiyə sahib olurlar.

Bəni-Nəzir yəhudilərinin mühasirədə qaldığı müddət ərzində bir sıra hadisələr baş vermişdir. İndi İbn Şəhraşub və Şeyx Mufidin də nəql etdiyi belə hadisələrdən birini diqqətinizə çatdırırıq.

Peyğəmbər (s) Bəni-Nəzir yəhudilərini mühasirəyə almağa gəldikdə göstəriş verir ki, onun çadırını Bəni-Hütəmə ərazisi adlanan çökək ərazinin axır hissəsində qursunlar. Gecə olduqda Bəni-Nəzir yəhudilərindən biri Peyğəmbərin (s) çadırına bir ox atır. Bunu görən Peyğəmbər (s) göstəriş verir ki, çadırını aparıb təpənin başında qursunlar. Müsəlmanlar da öz çadırlarını həzrətin çadırının ətrafında qurarlar. Artıq zülmət qaranlıq hər tərəfi bürüdükdən sonra müsəlmanlar Əli ibn Əbutalibin (ə) aralarında olmadığını görüb bu barədə Peyğəmbərə (s) məlumat verirlər. Peyğəmbər (s) buyurur ki, zənnimcə o, sizin səhvinizi düzəltməyə gedib. Çox çəkmir ki, Əli (ə) Peyğəmbərin (s) çadırına ox atan yəhudinin kəsik başını əlində tutduğu halda gəlib çıxır. Peyğəmbər (s) ondan nə baş verdiyini soruşduqda

cavab verir ki, ya Rəsuləllah, bu, çox cəsur bir adam idi. Gecənin qaranlığında onun nəsə bir fitnə törədəcəyini anlayıb güdməyə başladım. Bir də gördüm ki, qılıncını əlinə alıb üç yəhudi ilə bizə sarı gəlir. Bunu görcək onun üstünə hücum edib qətlə yetirdim, yanındakı üç nəfər isə qaçıb getdi. Hələ çox uzaqlaşa bilməzlər. Bir neçə nəfər mənimlə getsə, onları yaxalaya bilərik.

Peyğəmbər (s) on nəfəri, o cümlədən Əbu Dəcanə Ənsari və Səhl ibn Hüneyfi Əliyə (ə) qoşub yəhudilərin ardınca göndərir. Yəhudilər qalaya çatmamış Əli (ə) və yoldaşları onları yaxalayıb qətlə yetirirlər. Bu hadisədən sonra Bəni-Nəzir yəhudiləri vəhşətə düşərək Mədinəni tərk etmək məcburiyyətində qalırlar.

Xəndək döyüşü və Əli ibn Əbutalibin (ə) insanların və cinlərin ibadətindən üstün zərbəsi

Hicrətin beşinci ili idi. Məkkə müşrikləri Mədinədə qalmış yəhudilərlə müttəfiq olub Hicazın Qətəfan, Mərrə və Qəzarə kimi digər qəbilələri ilə də birləşərək Peyğəmbər (s) və müsəlmanların birdəfəlik axırına çıxmaq məqsədilə on min nəfərlik bir ordu hazırlayırlar. Düz bir il ordunun hazırlanması ilə məşğul olduqdan sonra hicrətin beşinci ili şəvval ayında Mədinəyə doğru hərəkət edirlər. Müşriklərin ordusunda Əbu Süfyan kimi tanınmış sərkərdələr, şücaətdə ad çıxarmış Əkrəmə ibn Əbu Cəhl, Nofəl ibn Abdullah, Hübeyrə ibn Əbu Vəhəb, Əmr ibn Əbdəvüdd kimi pəhləvanlar var idi. Muqrizinin "Əmtaul-əsma" əsərində (səhifə 232) yazdığına görə Əmr ibn Əbdəvüdün həmin vaxt doxsan yaşı var idi. İbn Əbilhədid isə onun Xəndək döyüşündə yaşı səksəndən yuxarı olduğunu, Bədr döyüşündə yaralandığını, Peyğəmbər (s) və müsəlmanlardan intiqamını almayınca eyş-işrətlə məşğul olmayacağına and içdiyini bildirmişdir.[1]

Müşriklər Mədinə kənarına çatan gün Hüyeyy ibn Əxtəbin təşəbbüsü ilə Peyğəmbərlə (s) sülh müqaviləsi bağlamış Bəni-Qüreyzə yəhudiləri öz əhd-peymanlarını pozaraq müsəlmanlara qarşı döyüşə hazır olduqlarını bildirirlər. Bu xəbər müsəlmanların narahatlığını daha da artırır. Beləliklə, Mədinə şəhəri həm daxildən, həm də xaricdən təhlükə ilə üz-üzə qalır. Salman Farsinin təklifi əsasında düşməndən qorunmaq məqsədilə Mədinənin ətrafında xəndək qazılması səbəbilə şəhərin bütün giriş-çıxış yolları bağlı olduğundan müsəlmanlar azuqə sarıdan da korluq çəkirdilər. Vəziyyət elə bir dözülməz həddə gəlib çatmışdı ki, Peyğəmbər (s) xəndək qazıntısında iştirak edərkən aclıqdan qarnına daş bağlayıb işləyirdi.

Allaha və Peyğəmbərə (s) imanı olmayan Mədinə münafiqləri isə öz növbəsində müsəlmanları dindən uzaqlaşdırmaqdan ötrü kiçik bir bəhanə üçün gəzirdilər. Belə bir şəraitdə onlar hətta Peyğəmbərin (s) də sözlərinə istehza ilə yanaşır və tezliklə İslamın məhv olacağını düşünürdülər. Vəziyyətin belə gedişatı müsəlmanları çox

[1] Şərhi Nəhcül-bəlağə, c-4, s-345

naraht edir və get-gedə ruhiyyələri zəifləyirdi. Allah-təala buna işarə edərək buyurur: "...(Qorxudan) gözünüz hədəqəsindən çıxıb ürəyiniz ağzınıza gəlmişdi. Allah barəsində də müxtəlif fikirlərə düşmüşdünüz. Məhz onda (Xəndək vuruşunda) möminlər imtahana çəkilmiş (kimin həqiqi mömin, kimin münafiq olduğu bəlli olmuş) və möhkəm sarsılmışdılar."[1]

Mühasirə davam edib çətinliklər artdıqca müsəlmanların da narahatlığı artır, münafiqlər isə döyüş meydanından qaçmağa başlayırdılar. Əmr ibn Əbdəvüdd və bir neçə digər cəngavər xəndəyin ensiz hissəsindən sıçrayıb əks tərəfə keçməyə müvəffəq olduqda isə bu nigaranlıq son həddə çatır.

Xəndəkdən keçməyi bacaran və ərəblərin min nəfərə bərabər hesab etdikləri Əmr ibn Əbdəvüdd müsəlmanların qarşısına çıxıb atını meydanda cövlan etdirərək rəqib tələb edirdi. Müsəlmanlardan kiminsə onun qarşısına çıxmağa cürət etmədiyini gördükdə rişxənd edərək istehzalı sözlər deməyə başlayır. Onun hər rişxəndi qarşısında ayağa qalxan Əli ibn Əbutalibi (ə) isə Peyğəmbər (s) yerinə otuzdururdu. Əlidən (ə) başqa heç kəs yerindən tərpənmirdi.

Qeys ibn Rəbi Əbu Harun Əbdidən, sonuncu da Rəbiə ibn Malik Sədidən belə nəql edir: "Bir gün Hüzeyfə ibn Yəmanın yanına gedib dedim ki, camaat Əlinin fəzilətləri haqda çox danışır, bəziləri də onlara irad tutaraq deyirlər ki, siz onun (Əli ibn Əbutalibin) barəsində ifrata varırsınız. İndi sən Əli haqqında mənə elə bir hədis danış ki, mən də camaat çatdırım. Hüzeyfə cavab verdi ki, axı mən Əli haqqında sənə nə deyim! Onun haqqında sənə nə danışım! Sonra sözünə davam edərək deyir: "And olsun Hüzeyfənin canı əlində olan Allaha, bütün Məhəmməd (s) ümmətinin əməllərini tərəzinin bir gözünə, Əlinin bir əməlini isə tərəzinin digər gözünə qoysalar, Əlinin bir əməli bütün ümmətin əməllərindən üstün gələr." Mən dedim ki, bu sözündə ifrata varırsan və onu heç kim qəbul etməz. Hüzeyfə dedi: "Necə yəni qəbul etməzlər? Xəndək döyüşündə Əmr ibn Əbdəvüdlə yoldaşları xəndəkdən keçib rəqib tələb etdikdə, hamını narahatlıq bürüdüyü və Əlidən başqa heç kimin onunla döyüşməyə cürəti çatmadığı bir vaxtda başqa müsəlmanlar harada idilər? Əli onunla döyüşüb onu Cəhənnəmə vasil edir. And olsun Hüzeyfənin canı əlində olan Allaha, o gün Əlinin o hərəkəti Məhəmməd ümmətinin qiyamətədək görəcəyi əməllərdən üstündür."

Əli ibn Əbutalib Əmr ibn Əbdəvüdlə qarşı-qarşıya dayandıqda Peyğəmbər (s) buyurur ki: "Bütün iman bütün küfrə qarşı durmuşdur".

Əbu Bəkr ibn Əyyaş deyir: "İslam dünyasında Əli ibn Əbutalibin Əmr ibn Əbdəvüdə vurduğu zərbədən üstün, Əbdürrəhman ibn Mülcəmin də Əli ibn Əbutalibə vurduğu zərbədən alçaq zərbə tarix boyu olmamışdır."

Hədislərdən birində göstərilir ki, Əli (ə) Əmr ibn Əbdəvüdlə döyüşə getdiyi vaxt Peyğəmbər (s) əlini mütəmadi olaraq göyə qaldırıb belə dua edirdi: İlahi,

[1] Əhzab-10-11

Bədr günü Übeydəni, Ühüd günü isə Həmzəni məndən aldın. Bu gün Əlini mənim üçün Özün qoru! İlahi, məni tənha qoyma, Sən varislərin ən gözəlisən!

Cabir ibn Abdullah Ənsari deyir: "Əli ibn Əbutalibin Əmr ibn Əbdəvüdü öldürməsi və müşriklərin ordusunun dağılması eynilə Quranda Allahın qeyd etdiyi Davudun (ə) Calutu öldürməsi əhvalatına bənzəyir."

Əmr ibn Əzhər Əmr ibn Übeyddən, o da öz növbəsində Həsəndən nəql edir ki, Əli (ə) Əmr ibn Əbdəvüdü qətlə yetirdikdən sonra başını kəsərək gətirib Peyğəmbərin (s) qarşısında yerə atır. Bu vaxt Əbubəkrlə Ömər qalxıb Əlinin başından öpürlər. Peyğəmbər (s) isə gülümsəyərək buyurur ki, bu, qələbənin başlanğıcıdır.

Digər bir hədisdə göstərilir ki, Əmr ibn Əbdəvüd öldürüldükdə Peyğəmbər (s) buyurur ki, müşriklərin bütün əzəməti getdi. Bundan sonra onlar bir daha bizə hücum edə bilməyəcəklər. Biz isə inşallah gələcəkdə onlara hücum edəcəyik."[1]

İbn Əbilhədid daha sonra Məğazi Vaqidi və Məğazi İbn İshaq kitablarına istinadən Xəndək döyüşünü qısaca olaraq nəql etmişdir. Bu barədə "Həzrət Məhəmmədin (s) həyatı" əsərində ətraflı şəkildə məlumat verdiyimiz üçün bir daha orada yazdıqlarımızı təkrar etmirik. Maraqlananlar həmin əsərə müraciət edə bilərlər. Sonda onu qeyd etmək istərdik ki, həm şiə, həm də sünni mənbələrində mütavatir şəkildə nəql edilmişdir ki, Xəndək döyüşündə Əli ibn Əbutalibin (ə) Əmr ibn Əbdəvüdə vurduğu zərbə haqqında Peyğəmbər (s) belə buyurmuşdur: "Əlinin Xəndək günü vurduğu zərbə bütün insanlar və cinlərin ibadətindən üstündür."[2] Başqa bir hədisdə isə belə deyilir: "Əli ibn Əbutalibin Xəndək günündə Əmr ibn Əbdəvüdlə mübarizəsi qiyamət gününədək bütün ümmətimin əməllərindən üstündür."[3]

"...Döyüşdə (zəfər çalmağa) Allah möminlərə kifayət etdi"[4] ayəsinin təfsirində əksər sünni təfsirçiləri, eləcə də şiə alimləri bildirmişlər ki, bu ayə Əlinin Xəndək döyüşündə vurduğu zərbə ilə əlaqədar olaraq nazil olmuşdur. Bu fikrə iyirmidən artıq sünni mənbəsində rast gəlirik.[5]

Hüdeybiyyə sülhü və Əlinin (ə) daha bir neçə fəziləti

Hicrətin altıncı ili Zilqədə ayında Peyğəmbər (s) ümrə ziyarəti məqsədilə yeddi yüz, bəzi mənbələrin yazdığına görə isə min dörd yüz nəfərin müşayiəti ilə Mədinədən çıxıb Məkkəyə doğru hərəkət edir. Müsəlmanlar özləri ilə yetmiş baş qurbanlıq dəvə də götürmüşdülər. Peyğəmbərin (s) Məkkəyə doğru gəlişindən xəbər tutan müşriklər aralarındakı ədavətə görə (onlar həm də bu gəlişi öz

[1] Şərhi Nəhcül-bəlağə, c-4, s-344
[2] İhaqqul-həqq, c-6, s-5
[3] Müstədrəki Hakim Neyşaburi, c3, s-32; Tarixi Bağdad, c-13, s-19
[4] Əhzab-25
[5] İhqaqul-həqq, c-6, s-376-380

məğlubiyyətləri kimi qəbul edir, eyni zamanda Peyğəmbərin (s) döyüş məqsədilə gəldiyini düşünürdülər) nəyin bahasına olursa olsun, müsəlmanları Məkkəyə buraxmamaq qərarına gəlirlər. Bu məqsədlə onlar böyük bir ordu təşkil edib Məkkədən çıxırlar. Şəcərə məscidində ehram bağlayıb Mədinədən bir qədər aralıda yerləşən Hüdeybiyyə adlı yerdə müsəlmanlar müşriklərin göndərdiyi nümayəndələrlə rastlaşırlar. Nümayəndələr Peyğəmbərdən (s) nə məqsədlə Məkkəyə getməsinin səbəbini soruşduqda Həzrət buyurur: "Bizim vuruşmaq fikrimiz yoxdur. Biz Allah evinə gedərək ümrə ziyarəti qəsdilə evdən çıxmışıq. Gördüyünüz bu dəvələri də qurban kəsib Məkkə əhalisinə paylayacağıq. Nümayəndələr müsəlmanların ehram paltarında olduğunu, özləri ilə qurbanlıq dəvələr də gətirdiyini gördükdən sonra əsəbi halda müşriklərin yanına geri dönüb Peyğəmbəri nəyə görə Məkkəyə buraxmadıqlarına görə öz etirazlarını bildirir və deyirlər ki, instənilən şəxs ziyarət məqsədilə Məkkəyə gələ bildiyi halda nəyə görə vaxtilə Məkkənin ağası olmuş Əbdülmüttəlib övladlarının ziyarətə gəlməsinə mane olursunuz? Müsəlmanlarla müşriklər arasında daha bir neçə nümayəndə heyətinin get-gəli baş tutdu. Axırda müşriklər arasında mübahisə yaranır. Bəziləri müsəlmanların Məkkəyə gəlişinə razı olduğu halda bəziləri də buna qarşı çıxır. Hətta nümayəndələrin get-gəli zamanı tərəflərdən əsir götürülənlər də olur və artıq hamı yeni bir döyüşün baş verəcəyini düşünürdü. Lakin bu il Məkkəyə girməyəcəkləri şərtilə müsəlmanlarla sülh bağlamaq və əsirlərin geri qaytarılması haqqında razılıq əldə etməkdən ötrü natiqliyi ilə ad çıxarmış Süheyl ibn Əmr müşriklər tərəfindən Peyğəmbərin (s) hüzuruna göndərilir.

İstənilən halda bu sülh müqaviləsi müsəlmanların xeyrinə idi. Ən azı ona görə ki, indi artıq müsəlmanların birinci dərəcəli düşmənləri, yəni, Məkkə müşrikləri onları qəbul edir, onlarla hesablaşmaq məcburiyyətində idilər. Buna görə də Peyğəmbər (s) sülh şərtini qəbul edir. Lakin bəzi dardüşüncəli səhabələr bununla razılaşmaq istəmir, sanki Peyğəmbərdən (s) daha çox bilir, özlərini ondan daha imanlı göstərirdilər. Məhz bu səbəbdən o həzrətlə mübahisə də edirlər. İbn Hişamın yazdığına görə Ömər Əbubəkrin yanına gəlib ondan soruşur ki, məgər bu kişi Allahın peyğəmbəri deyil?

Əbubəkr: Əlbəttə, Allahın peyğəmbəridir.

Ömər: Məgər biz müsəlman deyilik?

Əbubəkr: Əlbəttə ki, müsəlmanıq.

Ömər: Onlar müşrik deyillərmi?

Əbubəkr: Bəli, müşrikdirlər.

Ömər: Bəs onda nəyə görə biz onların dediyini qəbul edib bu rüsvayçılığa boyun əyməliyik?

Əbubəkr: O (Peyğəmbər) nə deyirsə, qulaq as.

Əbubəkrin cavabından qane olmayan Ömər durub birbaşa Peyğəmbərin (s) yanına gedərək həmin sualları ona da ünvanlayır. "Bəs onda nəyə görə biz onların

dediyini qəbul edib bu rüsvayçılığa boyun əyməliyik?"-dedikdə Peyğəmbər (s) buyurur: "Mən Allahın bəndəsi və Onun Peyğəmbəriyəm. Onun dediyindən çıxa bilmərəm, O da məni öz başıma buraxmaz."

Sülh müqaviləsinin tərtib edilməsinə növbə çatdıqda Peyğəmbər (s) Əli ibn Əbutalibə (ə) buyurur ki, yaz "bismillahir-rəhmanir-rəhim". Bu vaxt müşriklərin nümayəndəsi Süheyl ibn Əmr deyir ki, mən bu ifadəni qəbul etmirəm. Bizim qəbul etdiyimiz ifadə yazılmalıdır. O da "Bismikəllahummə" ifadəsidir. Peyğəmbərin (s) göstərişinə əsasən, Əli (ə) də məhz Süheylin dediyi kimi yazmaq məcburiyyətində qalır. Daha sonra Peyğəmbər (s) buyurur ki, yaz: "Bu müqaviləyə əsasən Allahın Peyğəmbəri Məhəmmədlə Süheyl ibn Əmr aşağıda göstərilənlər barədə razılığa gəlmişlər. "Süheyl yenə də etiraz edərək deyir: "Biz səni peyğəmbər kimi qəbul etsəydik, daha sənինlə vuruşmazdıq ki. Bu ifadəni də silib onun əvəzinə belə yazmaq lazımdır: Bu müqaviləyə əsasən Məhəmməd ibn Abdullahla Süheyl ibn Əmr aşağıda göstərilənlər barədə razılığa gəlmişlər. "Peyğəmbər (s) Süheylin bu tələbini də qəbul edir, ancaq hiss etdi ki, Əli onun adının qarşısında "Allahın peyğəmbəri" ifadəsini silməyə ürəyi gəlmir. Buna görə də həzrət barmağını irəli uzadaraq buyurur ki, Əli, barmağımı həmin ifadənin üstünə qoy, mən özüm silim. Adının qarşısından "Allahın peyğəmbəri" ifadəsini sildikdən sonra yenidən Əliyə (ə) buyurur ki, yaz, sənin də başına belə bir iş gələcək və sən də məcbur qalacaqsan. Beləliklə, Peyğəmbər (s) gələcəkdə Əli ibn Əbutaliblə (ə) Müaviyə ibn Əbu Süfyan arasında bağlanacaq müqaviləyə işarə edir.

Başmaqyamayan

Həm şiə, həm də sünni mənbələrində bildirilir ki, sülh müqaviləsi imzalandıqdan sonra Süheyl ibn Əmr yenidən Peyğəmbərin (s) hüzuruna gəlib deyir: "Bizdən bəziləri gəlib sizinkilərə qoşulmuşdur, onları bizə qaytarmalısınız." Peyğəmbər (s) bunu eşitdikdə bərk qəzəblənir. Qəzəbləndiyi sifət cizgilərindən də bəlli olurdu. Süheyl ibn Əmrin cavabında isə buyurur: "Ey Qüreyş əhli, bu inadkarlığınızdan əl çəkin, yoxsa Allah, qəlbini iman nuru ilə doldurmuş bir şəxsi sizin üstünüzə göndərəcək ki, dinin inkişafı üçün boynunuzu vursun. "Orada olan səhabələr soruşurlar ki, ya Rəsuləllah, o adam kimdir? Həzrət buyurur ki, o adam indi çadırda oturub başmaq yamayır." Səhabələr həmin şəxsin kim olduğunu öyrənməkdən ötrü tez çadıra doğru tələsir və gəlib görürlər ki, Əli ibn Əbutalib (ə) çadırda oturub Peyğəmbərin (s) başmaqlarını yamayır.[1]

[1] Əl-İrşad, c-1, s-9; Əlamul-vəra (Təbərsi), s-191; Səhihi Tirmizi, c-13, s-166; Xəsaisi Nisai, s-10; Mustədrəki Hakim Neyşaburi, c-2, s-137

Əli ibn Əbutalibin (ə) Xeybər döyüşündəki fəzilətləri

Hicrətin yeddinci ilində Peyğəmbər (s) Xeybərdə məskunlaşmış yəhudilərə qarşı ciddi tədbir görmək qərarına gəlir. Çünki Mədinə ətrafında yaşayan bütün yəhudilər köçüb getdikdən sonra Xeybər qalaları başqa yəhudilər üçün də, həmçinin müsəlmanların digər düşmənləri üçün böyük bir mərkəzə çevrilmişdi. Xeybər Mədinənin Şimal-Qərbində, təxminən iki yüz kilometr aralıda yerləşən yeddi qaladan ibarət bir şəhərcik idi.

Peyğəmbər (s) Xeybərə doğru yürüş məqsədilə min dörd yüz piyada, iki yüz süvari ilə hərəkətə keçir. Digər döyüşlərdə olduğu kimi, bu dəfə də bayrağı Əli ibn Əbutalibə (ə) həvalə edir.

Müsəlmanlar Xeybərə çatdıqda axşam olmuş, hava qaralmışdı. Gec-tez müsəlmanlar tərəfindən belə bir hücumu gözləyən yəhudilər qabaqcadan döyüş üçün kifayət qədər silah-sursat və azuqə tədarük görüb qalalara yığılmışdılar. Müsəlmanların Xeybərə çatdığını eşitdikdə Səllam ibn Muşkəmin tövsiyəsinə əsasən mal-dövlət və arvad-uşağı Vətih və Sələlim qalalarına toplayırlar. Döyüş üçün topladıqları avadanlığı Naim qalasına köçürürlər. Əli silah tuta bilən bütün kişilər isə Nətat qalasında yerləşirlər.

İlk günlərdə müsəlmanların əzmkarlığı sayəsində yeddi qaladan bir neçəsi fəth edilir. Lakin Naim, ya da Qəmus qalasının fəth edilməsi çox vaxt aparır. Bunun üçün müsəlmanlar oranı neçə gün mühasirədə saxlayır, hər gün böyük bir dəstə qalanı almaq məqsədilə hücuma keçir, lakin axşama doğru heç bir nəticə əldə etmədən geri dönürdü.

İndi hadisəni sünni mənbələrində nəql edilmiş onlarla hədisə istinadən diqqətinizə çatdırırıq. İhqaqul-həqq əsərinin müəllifi (c-5, s-421) Əllamə Abdullah Şafeinin Mənaqib kitabına istinadən yazır ki, Peyğəmbər (s) Xeybərə çatıb uzun müddət orada qalır. Bir gün qalanı fəth etmək üçün Əbubəkrin başçılığı ilə bir dəstə göndərir. Axşam olduqda Əbubəkr hər hansı bir nəticə əldə etmədən geri qayıdır. Növbəti gün Ömərin başçılığı ilə bir dəstə göndərir, lakin o da eyni aqibətlə üzləşir[1].

Bu hal Peyğəmbəri (s) çox narahat edir. Bütün gecəni narahat halda keçirən Peyğəmbər (s) səhər açıldıqda çadırından çıxıb səhabələrə buyurur: "Bu gün bayrağı elə bir şəxsə verəcəyəm ki, Allahı və Onun Rəsulunu sevir, Allah və Rəsulu da onu sevirlər. O, dayanmadan hücuma keçər və qorxub geri dönməz." Bunu eşidən bütün səhabələr bayrağı almaq üçün irəli gəlirlər. Göz gəzdirib Əlinin (ə) səhabələr arasında olmadığını görən Peyğəmbər (s) onun harada olduğunu soruşur. Səhabələr cavab verirlər ki, Əlinin gözü ağrıyır. Peyğəmbər (s) Əbuzərlə Salmana

[1] Mustədrəkus-səhiheyn, c-3, s-37-38; Kənzul-ummal, c-5, s-283-284

tapşırır ki, gedin Əlini bura gətirin. Peyğəmbər (s) Əlinin (ə) ağrıdan gözlərini açа bilmədiyini gördükdə belə dua edir: "İlahi, gözağrısı, soyuğu və istini ondan uzaq et, düşmənə qarşı ona kömək ol, düşmənlə mübarizədə qələbəni ona nəsib et! O, Sənin bəndəndir, Səni və Rəsulunu çox sevir, döyüşdən də heç vaxt qaçmaz." Dua etdukdən sonra bayrağı Əli ibn Əbutalibə (ə) verir.

Bəzi hədislərdə hətta belə nəql edilmişdir ki, Peyğəmbər (s) Əlinin (ə) gözağrısına tutulduğunu gördükdə mübarək ağız suyundan bir qədər onun gözlərinə sürtüb sağalması üçün dua edir.

Qeyd etdiyimiz kimi, bu əhvalatla bağlı sünni mənbələrində onlarla hədis nəql edilmişdir. Qədir-xum əhvalatından sonra barəsində bu çoxluqda hədis söylənilmiş ikinci əhvalat məhz bu hadisə olmuşdur.[1]

Maraqlı bir məqam ondan ibarətdir ki, Peyğəmbərin (s) Əli ibn Əbutalib (ə) barəsində etdiyi bu duadan sonra Əliyə(ə) isti və soyuq heç vaxt təsir etməzdi. Camaat bəzi vaxtlar o həzrəti qışda yay, yayda isə qış paltarında görər və ona soyuq və ya isti olmadığını soruşduqda Əli (ə) cavab verərdi ki, bu, Peyğəmbərin (s) Xeybər döyüşündəki duasının nəticəsidir.

Peyğəmbər (s) bayrağı Əli ibn Əbutalibə (ə) verdikdən sonra Həssan ibn Sabit onun şənində bir neçə beyt şeir söyləyir.[2]

Mənbələrdə daha sonra bildirilir ki, Əli ibn Əbutalib (ə) bayrağı götürüb düz müsəlmanların bir neçə gün ardıcıl hücum etsə də ala bilmədiyi qalanın qarşısına gəlir. Yəhudilər əvvəlki günlərdə müsəlmanların qaçdığına arxayınlaşaraq bu dəfə də qaladan çölə axışırlar. Onların adlı-sanlı pəhləvanı Mərhəb də döyüşə hazır vəziyyətdə qalanın qarşısına gəlib rəcəz oxumağa, özünə rəqib tələb etməyə başlayaraq deyir:

Xeybərdəkilər mənim Mərhəb olduğumu yaxşı bilirlər.
Döyüş vaxtı silahım çox iti, özüm isə sınaqdan çıxmış bir pəhləvanam.

Əmirəl-möminin Əli (ə) Mərhəbin qarşısına gəlib aşağıdakı rəcəzlə ona cavab verir:

Mən anamın Heydər adlandırdığı şəxsəm.
Qəzəbli meşə aslanına bənzəyirəm.
İndi sizin hamınızı qırıb çatacağam.

Bunu dedikdən sonra Əli (ə) ilə Mərhəb döyüşməyə başlayır. Bir-iki qarşılıqlı zərbədən sonra Əli (ə) onu yerə sərir. Bunu görən digər yəhudilər dərhal qalaya çəkilib qapıları da bərk-möhkəm bağlayırlar ki, müsəlmanlar içəri keçə bilməsinlər. Əli (ə) qapıya yaxınlaşıb qapıdan tutur və elə bir təkan verir ki, qapı

[1] Mənbələrlə bağlı ətraflı məlumat əldə etmək istəyənlər İhqaqul-həqq kitabına (c-5, s-368-468) müraciət edə bilərlər.

[2] Əl-İrşad, c-1, s-114

çərçivəsindən çıxır. Sonra əlində qalxan kimi saxladığı qapını bir kənara tullayır. Bunun ardınca müsəlmanlar qalaya daxil olub onu fəth edirlər.

İbn Hişam nəql edir ki, Peyğəmbər (s) bayrağı Əliyə (ə) verdikdə buyurur:

”Bayrağı götür hücuma keç. Allah qalanı sənin üçün fəth edəcək.”

İbn Hişam daha sonra Sələmə ibn Əmr ibn Əkvədən belə nəql edir: “Əli bayrağı alıb sürətlə qalaya doğru irəliləyir. Mən də onun ardınca gedirdim. O, iti addımlarla irəliləyib qalaya çatan kimi bayrağı qalanın qarşısındakı daşların arasında yerə sancır. Qalanın üstündəki yəhudilərdən biri soruşur ki, sən kimsən? Əli də cavab verir ki, Əli ibn Əbutalibəm. Həmin yəhudi bu cavabı eşitcək uca səslə deyir ki, and olsun Musaya nazil olana, məğlub olduq.”

İbn Hişamın Əbu Rafedən nəql etdiyi hədisdə isə belə deyilir: “Mən də həmin vaxt Əlinin yanında idim. O, qalaya çatcaq yəhudilər qaladan çıxıb onunla vuruşmağa başladılar. Yəhudilərdən biri Əlinin əlinə bir zərbə endirir və bu zərbə nəticəsində onun qalxanı əlindən düşür. Bir də gördüm ki, Əli əlini qalanın qapısına atıb onu yerindən çıxarır, əlinə götürüb qalxan kimi istifadə edir. Bu vəziyyət döyüşün sonunadək davam etdi. Qala alındıqdan sonra qapını bir kənara tullayır. Mən yeddi nəfərlə birlikdə nə qədər qapıya güc versək də, onu yerindən tərpədə bilmədik.”

İbn Həcər Əsqəlani əl-İsabə, Zeyni Dəhəlan isə “Sirətun-nəbəviyyə” əsərində qeyd etmişlər ki, döyüşdən sonra qırx nəfərin köməyi ilə həmin qapını yerinə qaytarmaq mümkün olur.

Qazi Əzduddin İyici və qeyrilərinin yazdığına görə döyüşdən sonra Əli (ə) belə buyurmuşdur: “And olsun Allaha, mən Xeybərin qapısına maddi gücümlə deyil, İlahi bir güclə yerindən çıxartdım.”[1]

Zatus-səlasil döyüşü

Müsəlmanlarla kafirlər arasında baş vermiş döyüşlərdən biri də Zatus-səlasil döyüşü olmuşdur ki, bu döyüş də Əli ibn Əbutalibin (ə) fəzilətlərindən xali olmamışdır. Mənbələrdə bu döyüş barədə müxtəlif fikirlər söylənilmiş, hətta onun tarixi də mübahisəli olmuşdur. Mərhum Şeyx Mufid bu barədə nəql etdiyi iki hədisdən birində Zatus-səlasil döyüşünün Xeybər döyüşündən, digərində isə Təbuk döyüşündən sonra baş verdiyini bildirmişdir. Əksər tarixçilərin yazdığına uyğun olaraq biz də həmin əhvalatı hicrətin səkkizinci ilində, Xeybər döyüşündən sonra baş vermiş hadisələr sırasında qeyd edirik.

Şeyx Mufid “əl-İrşad” əsərində Təbuk döyüşündən sonra belə bir əhvalatın baş verdiyini yazır: “Bir ərəb Peyğəmbərin (s) hüzuruna gəlib qarşısında əyləşərək deyir ki, sənə xəbər verməyə gəlmişəm. Həzrət: “Nə xəbərdir?”– deyə soruşduqda ərəb deyir: “Rəml vadisində bir qrup adam yığışıb sizə hücum etməyə hazırlaşır.”

[1] İhqaqul-həqq, c-8, s-383

Daha sonra onların barəsində bildiyi bütün məlumatı Peyğəmbərə (s) söyləyir. Bu xəbəri eşidən Peyğəmbər (s) camaatın məscidə toplaşmasını əmr edir. Özü də minbərə qalxıb ərəbin dediklərini camaata çatdıraraq buyurur ki, kim gedib onları dağıdar? Siffə əhli[1] ayağa qalxıb deyir ki, biz onların üstünə gedərik, yetər ki, bir nəfəri bizə başçı təyin edəsən. Peyğəmbər (s) püşk vasitəsilə onlardan səksən nəfər seçib Əbubəkri də onlara başçı təyin edərək tapşırır ki, Bəni-Səlim qəbiləsinə doğru get!

Əbubəkr ixtiyarında olan səksən nəfərlə birlikdə deyilən yerə gedir. Düşmən ətrafə iri qaya parçaları və ağaclarla örtülmüş bir dərədə toplanmışdı. Əbubəkr onlara hücum etmək məqsədilə dərədən üzüaşağı enməyə başladıqda düşmən dərənin ətrafından onların üstünə gəlib bir neçə nəfəri qətlə yetirir. Vəziyyətin belə olduğunu görən Əbubəkr geri çəkilmək məcburiyyətində qalır. Əbubəkr Mədinəyə qayıtdıqdan sonra Peyğəmbər (s) bu dəfə Ömərin başçılığı ilə bir dəstəni onların üstünə göndərir. Qaya və ağacların arxasında gizlənmiş düşmən Ömərə də eyni aqibəti yaşadır.

Peyğəmbər (s) baş verənlərdən olduqca kədərlənir. Əmr ibn As Həzrətə deyir ki, döyüşün taleyini hiylə həll edir. İzn versən mən gedib bir hiylə ilə onları məğlub edərəm. Peyğəmbər (s) razılaşıb bir dəstəni onunla birlikdə göndərir. Lakin o da bir nəticə əldə etmədən, əksinə bir neçə nəfər itirdikdən sonra geri qayıdır. Peyğəmbər (s) bir neçə gün səbr etdikdən sonra Əli ibn Əbutalibi (ə) yanına çağırır. Döyüş bayrağını ona verib haqqında dua edərək düşmənin üstünə yolayır. Əbubəkr, Ömər və Əmr ibn As da onu müşayiət edirlər.

Əli ibn Əbutalib (ə) ixtiyarında olan adamları da götürüb İraq səmtinə üz alaraq ordunu çətin yollarla aparır. Düşmən onların gəlişindən xəbər tutmasın deyə, gecələr yol gedib gündüzlər gizlənib istirahət edirdi. Düşmənin yerləşdiyi dərəyə çatdıqda öz adamlarına tapşırır ki, atların ağzını bağlayıb bir kənarda saxlasınlar.

Səhər açılar-açılmaz Əli (ə) hücum əmri verir. Müsəlmanlar hər tərəfdən düşmənin üstünə hücuma keçirlər. Bəni-Səlim qəbiləsindən olan ərəblər toparlanıb özlərini qoruyanadək müsəlmanlar onları məğlubiyyətə uğradırlar. Adiyat surəsi bütünlüklə bu əhvalatla bağlı nazil olmuşdur.

Əli ibn Əbutalibin(ə) başçılıq etdiyi dəstə Mədinəyə qayıtdıqda Peyğəmbər (s) digər müsəlmanlarla birlikdə onların pişvazına çıxır. Əli (ə) Peyğəmbərə (s) çatdıqda hörmət əlaməti olaraq dərhal atdan yerə enir. Peyğəmbər (s) isə ona buyurur ki, atına min, Allah və Rəsulu səndən razıdırlar. Əlinin (ə) sevincdən ağladığını görən Peyğəmbər (s) buyurur: " Ya Əli, xaçpərəstlərin İsa haqqında dediklərini ümmətimin də sənin haqqında deyəcəyindən qorxmasaydım, sənin barəndə elə bir

[1] Siffə əhli Məkkədən Mədinəyə hicrət edib heç bir ev-eşiyi olmayan şəxslər idi. Peyğəmbər(s) məscidin bir küncündə onların qalması üçün yer ayırmış və dolanışıqlarını təmin etmək üçün beytül-maldan onlara pul ödəyirdi. Onların dörd yüz nəfər olduğu bildirilir.

söz deyərdim ki, ondan sonra keçəcəyin hər bir yerdə camaat ayağının altındakı torpağı təbərrük götürərdi.”

Məkkənin fəthi

Əli ibn Əbutalibin (ə) bir neçə fəziləti

Əli ibn Əbutalibin (ə) Əbu Süfyan üçün tökdüyü tədbir

Hüdeybiyyədə imzalanmış sülh müqaviləsinin maddələrindən biri də o idi ki, hər hansı bir qəbilə Qüreyş və ya Peyğəmbərlə (s) müttəfiq olmaqda azaddır. Bu baxımdan aralarında uzun müddət mübahisə davam edən Xüzaə və Bəni-Bəkr qəbilələrinin hər biri müvafiq olaraq Peyğəmbər (s) və Qüreyşlə ittifaq bağlayır. Bu ittifaqdan sonra iki il ərzində iki qəbilə arasında hər hansı insident baş vermir. Lakin iki ildən sonra vəziyyət tamamilə dəyişir. Belə ki, Bəni-Bəkr qəbiləsi Xüzaə qəbiləsinə hücum etmək fikrinə düşür. Bu məqsədlə qəbilə nümayəndələri Məkkəyə gedib Əkrəmə ibn Əbu Cəhl və Səfvan ibn Üməyyə kimi Qüreyş başçıları ilə görüşür, öz fikirlərini onlara açıqlayıb onların da razılığını və bu işdə onlara kömək edəcəklərinə dair Qüreyşdən vəd alırlar.

Bəzi tarixçilərin fikrincə müsəlmanların Mutə döyüşündə geri çəkilməsi Bəni-Bəkr qəbiləsini cürətləndirir. Çünki onlar elə güman edirdilər ki, müsəlmanlar Mutə döyüşündə geri çəkilməklə Ərəbistan yarımadasındakı nüfuzunu itirmiş və indi onlara asanlıqla hücum etmək olar.

Xüzaə qəbiləsi hər şeydən xəbərsiz olduğu bir gecə Bəni-Bəkr qəbiləsinin və Qüreyşdən olan müttəfiqlərinin hücumuna məruz qalır. Xüzaə qəbiləsinin üzvləri qaçıb toxunulmaz və əmin-amanlıq yurdu olan Məkkə ərazisinə daxil olsalar da, düşmən buna məhəl qoymayıb onlardan iyirmiyədək adamı qətlə yetirir.

Həzrət Peyğəmbər (s) Mədinə məscidində oturduğu bir vaxtda Xüzaə qəbiləsindən Əmr ibn Salim bir qrup şəxslə təşviş içərisində məscidə daxil olub Bəni-Bəkrlə Qüreyşin anlaşmanı pozduğunu, onlara qəfil hücum etdiyini həzrətə çatdıraraq imdad diləyir. Bu xəbərdən narahat olan Peyğəmbər (s) onlara mütləq kömək edəcəyini bildirib Qüreyşə qarşı səfərbərlik elan edir.

Əbu Süfyanın Mədinəyə gəlişi

Etdiyi hərəkətdən peşman olan Qüreyş qəbiləsi indi Peyğəmbərin (s) mütləq onlara hücum edəcəyindən narahat idi. Onlar belə qərara gəlirlər ki, Əbu Süfyanı nümayəndə olaraq Mədinəyə göndərib nəyin bahasına olursa olsun, Peyğəmbərlə sülh müqaviləsinə yenidən baxılsın və bu yolla müsəlmanların Məkkəyə gözlənilən hücumunun qarşısı alınsın. Bu məqsədlə Əbu Süfyan Mədinəyə gəlib qabaqcadan planlaşdırdığı kimi birbaşa Peyğəmbərin (s) xanımlarından olan qızı Ümmi Həbibənin evinə gedir. O, elə güman edirdi ki, qızının evinə getməklə Peyğəmbərlə (s) baş-başa görüşüb onun razılığını cəlb edə bilər. Ancaq qızının evinə daxil olduq-

da onun etinasızlığı ilə üzləşir. Xalçanın üstündə oturmaq istədikdə Ümmi Həbibə tez xalçanı atasının altından çəkib yığışdırır. Qızının hərəkətindən narahat olan Əbu Süfyan soruşur ki, qızım, məni xalçaya layiq görmədin, yoxsa xalçanı mənə? Ümmi Həbibə cavab verir ki, sənin fikirləşdiyin kimi deyil. Bu xalça Peyğəmbərə (s) məxsusdur, sən isə müşrik və murdar bir şəxssən. Ona görə də onun üzərində oturmağına razı olmadım. Əbu Süfyan əsəbi halda: "Ay qız, deyəsən, məndən ayrılandan sonra sənə nəsə olub."– deyərək evi tərk edir. Peyğəmbərin(s) hüzuruna gəlib deyir: "Ey Məhəmməd, qövmünün qanını tökmə, onları qoru və sülh müqaviləsini təzələ!" Peyğəmbər (s) soruşur ki, məgər əhd-peymanı pozmusunuz? Əbu Süfyan deyir ki, xeyr. Peyğəmbər buyurur: "Elə isə biz öz əhd-peymanımızda durmuşuq." Əbu Süfyan daha heç nə deyə bilməyib Əbu Bəkrin yanına gəlir ki, Peyğəmbərlə (s) onun arasında vasitəçilik etsin. Əbu Bəkrin bu işə razı olmadığını gördükdə ondan ayrılıb Ömərin yanına gəlir, lakin Ömər də onu qəbul etmir. Məcbur qalıb Əlinin (ə) yanına gələn Əbu Süfyan deyir ki, ya Əli, sənin mənə olan qohumluq münasibətin başqalarından daha artıqdır. Mən buraya bir iş ardınca gəlmişəm. Mənə kömək et buradan əliboş geri dönməyim. Mənim bu işimdən ötrü Peyğəmbərin (s) yanında vasitəçilik et! Əli (ə) buyurur ki, məgər bilmirsən ki, Peyğəmbərin (s) hansısa qərarı barədə kimsə ona bir söz deyə bilməz? Əbu Süfyan üzünü otağın bir küncündə Həsən (ə) və Hüseynlə (ə) birlikdə əyləşmiş Fatiməyə (s.ə) tutub deyir: "Ey Məhəmmədin qızı, bu uşaqlarına bir nəfərə pənah verərək həmişə ərəblərin ağası olmalarını tapşırarsanmı? Həzrət Fatimə (s.ə) buyurur ki, mənim uşaqlarım Peyğəmbərdən (s) icazəsiz kiməsə pənah verməzlər.

Əbu Süfyan vəziyyətin çıxılmaz olduğunu və nə edəcəyini bilmədiyini görüb bir daha Əliyə (ə) müraciət edərək deyir ki, Əli, sən mənə bir çıxış yolu göstər, de görüm nə etməliyəm. Əli (ə) baxıb görür ki, Əbu Süfyana sərt cavab verib onu qovsa, bu iki arzuolunmaz nəticədən birini verə bilər: O, ya Mədinədə qalıb başqa bir vasitə axtarmaqla Peyğəmbəri (s) razı sala, bunun da nəticəsində həzrətin Məkkənin fəthi ilə bağlı planlarını alt-üst edər, ya da istədiyinə nail olmadığına görə məyus halda Məkkəyə qayıdıb Qüreyş və müttəfiqlərini müsəlmanlara qarşı yeni döyüşə hazırlaya, ən azından isə İslamın yayılmasının qarşısını almağa cəhd göstərə bilər. Buna görə də o həzrət bir qədər düşündükdən sonra Əbu Süfyana deyir: "Sən Bəni-Kənanənin başçısısan. İndi sənin üçün ən əlverişli yol odur ki, qalx get camaatın arasına, onların hamısına aman verdiyini bildir və Məkkəyə qayıt!" Əbu Süfyan soruşur ki, bunun nəsə bir xeyri olarmı? Əli (ə) cavab verir ki, hər hansı bir xeyri olacağına inanmıram, ancaq indi bundan başqa bir yol da görmürəm. Əbu Süfyan durub məscidə gəlir, Əlinin (ə) buyurduğu kimi, camaatın arasında dayanaraq deyir ki, hamınıza aman verirəm. Bunu deyib dəvəsinə minərək Mədinəni tərk edir.

Əbu Süfyanın Məkkəyə qayıtdığını eşidən Qüreyş böyükləri tez onun yanına gəlib hansı xəbərlə qayıtdığını soruşduqda cavab verir ki, Məhəmmədin yanına

gedib danışsam da bir nəticə vermədi. Əbu Bəkrin yanına getdim, bir xeyri olmadı. Sonra Ömərin yanına getdim, onun da bir nəticəsi olmadı. Sonra Əlinin yanına getdim, o, digərlərindən daha mülayim idi. O, mənə bir çıxış yolu göstərdi, ancaq hələ də bilmirəm ki, bunun bir xeyri olacaq, yoxsa yox. Ondan çıxış yolunun nədən ibarət olduğunu soruşduqda cavab verir ki, Əli mənə dedi gedim camaata aman verim.

Müşriklər: Məhəmməd də bunu qəbul etdimi?

Əbu Süfyan: Xeyr.

Müşriklər: Onda Əli səni məsxərəyə qoyub. Axı bu işin nə mənası var ki!

Əbu Süfyan: Onsuz da başqa çıxış yolum yox idi.

Mərhum Şeyx Mufid də öz əsərində bu əhvalatı qeyd etmiş və sonda belə bir nəticəyə gəlmişdir ki, Əli ibn Əbutalibin (ə) Əbu Süfyana etdiyi tövsiyə müsəlmanların gələcək işlərinin həyata keçməsi baxımından ən doğru variant olmuşdur. Əli (ə) bu hərəkəti ilə Peyğəmbərin (s) Məkkənin fəthi ilə bağlı planlarının da gerçəkləşməsinə şərait yaradır. Belə ki, Əli (ə) ilk öncə Əbu Süfyanı çox mülayim şəkildə qəbul edir, sonra isə onu yenə də xoşluqla Mədinədən qovur. Əbu Süfyan Məkkəyə qayıdarkən hansısa nailiyyət əldə etdiyini düşünürdü. Onun bu şəkildə yola salınması gələcəkdə baş verə biləcək hər hansı təhlükənin qarşısını alır. Hansı ki, həmin təhlükələr vəziyyəti xeyli gərginləşdirə və Peyğəmbərin (s) bütün planlarını alt-üst edə bilərdi. Belə ki, Əbu Süfyan Əbu Bəkr və Ömərin yanından əliboş döndüyü kimi, Əlinin (ə) yanından əliboş dönsəydi, onda Məkkə müşrikləri müsəlmanlarla döyüşmək məsələsinə yenidən baxacaqdılar. Və ya ən azı Əbu Süfyan bu məsələni həll edənə qədər Mədinədə qalacaqdı ki, bu da Məkkənin fəthi və İslamın daha geniş çərçivədə yayılması planlarını yubadacaqdı. Lakin Allahın köməyi ilə Əli (ə) Əbu Süfyana elə bir yol göstərdi ki, həm özü qane oldu, həm də müsəlmanların əsas məqsədinin reallaşmasına öz töhfəsini verdi. Beləliklə, Əbu Süfyanın Mədinəyə gəlişinin hansısa ziyanı olmadı.

2. Hatib ibn Əbu Bəltəənin göndərdiyi məktubun aşkar edilməsi

Əbu Süfyanın Məkkəyə dönüşündən sonra Peyğəmbər (s) hamını səfərə hazırlaşmağa səsləyir və öz ailəsinə də tapşırır ki, səfər tədarükü görsünlər. Lakin o Həzrət səfərin hara olacağını qabaqcadan heç kimə bildirmir. Ətraf qəbilələrə də bu səfərə qatılmalar tapşırılır. Müsəlmanlar səfərə hazır olduqdan sonra Peyğəmbər (s) bu səfərin bir yürüş xarakteri daşıdığını, Məkkənin fəth edilməsinin nəzərdə tutulduğunu açıqlayır. Həzrət müsəlmanları daha əzmkar olmağa səsləyir və müşriklərin bu səfərdən xəbərləri olmasın deyə, yolu daha tez qət etməyə səy göstərirdi. Hətta bu məqsədlə Peyğəmbər (s) Allaha dua edib müşriklərin bu səfərdən xəbərsiz qalmasını diləmişdi.

Mədinədə o vaxtadək misli görünməmiş bir ordu toplanmışdı. On min nəfərdən ibarət ordunun yola düşməsi üçün hər bir şey hazır idi. Lakin Peyğəmbərin (s) müşriklərin bu yürüşdən xəbərdar olmamasını istədiyi bir vaxtda arvad-uşağı Məkkədə, özü isə Mədinədə yaşayan Hatib ibn Əbu Bəltəə Qüreyş müşriklərinə aşağıdakı məzmunda bir məktub yazır: "Allahın Rəsulu böyük bir ordu ilə üstünüzə gəlir." Məktubu yazıb Sara adlı qadına verir ki, onu Məkkəyə çatdırsın. Sara əvvəllər Məkkədə məclislərdə mahnı oxumaqla pul qazanırdı, ancaq Bədr döyüşündə müşriklərin ağır məğlubiyyəti səbəbindən orada bütün əyləncə məclislərinə son qoyur. Buna görə də daha Sara heç bir yerdən qazanc əldə edə bilmədiyi üçün Mədinəyə köçməli olur. Hatib ibn Əbu Bəltəə ona on dinar verərək məktubu gizlicə və qısa müddət ərzində Məkkəyə çatdırmasını tapşırır. Sara məktubu hörüklərinin arasında gizlədib Məkkəyə doğru yola düşür. Digər tərəfdən Cəbrail(ə) nazil olub Hatib ibn Əbu Bəltəənin göndərdiyi məktub haqqında Peyğəmbərə(s) məlumat verir. Peyğəmbər (s) də öz növbəsində dərhal Əli ibn Əbutaliblə (ə) Zübeyr ibn Əvamı yanına çağırıb onları əhvalatdan xəbərdar etdikdən sonra Saranın ardınca göndərir. Onlara tapşırır ki, məktubu Saradan alıb özünü də Mədinəyə qaytarın. Əli ibn Əbutaliblə(ə) Zübeyr ibn Əvam vaxt itirmədən yola düşüb Mədinədən bir fərsəx aralıda yerləşən Zül-hüleyfə adlı yerdə Saranı yaxalayırlar. Onun bütün əşyalarını axtarsalar da, məktubdan əsər-əlamət tapmırlar. Belə olduqda Əli (ə) qadını hədələmək məqsədilə deyir: "And olsun Allaha, nə Peyğəmbərə (s) yalan məlumat verilib, nə də o bizə yalan deyib. İndi ya özün məktubu xoşluqla bizə ver, ya da bütün paltarlarını əynindən çıxarıb məktubu axtarmaq məcburiyyətində qalacağıq." Əlinin (ə) öz fikrində ciddi olduğunu görən Sara deyir ki, kənara çəkilin. Sonra da hörüklərinin arasından məktubu çıxarıb Əliyə (ə) verir. Əli ibn Əbutalib(ə) məktubu təhvil alıb Saranın özünü də Mədinəyə qaytarır.

Peyğəmbər (s) Hatib ibn Əbu Bəltəəni çağırtdırıb soruşur ki, müşriklərə belə bir məktub göndərməyinin səbəbi nədir? Hatib cavab verərək deyir: "Ya Rəsuləllah, and olsun Allaha ki, mənim Allaha da, Peyğəmbərinə də imanım var və bu əqidəmdən də dönməmişəm. Lakin özünüz də yaxşı bilirsiniz ki, mənim bu şəhərdə heç kəsim yoxdur. Ailəm, arvad-uşağım Məkkədədir. Müşriklərə məktub göndərməklə əslində ailəmə bir xidmət etməyi düşünürdüm. Dedim birdən bizimlə müşriklər arasında döyüş baş verərsə və biz məğlub olarıqsa, heç olmasa müşriklərdən ailəmi salamat buraxmalarını istəyərəm.

Şeyx Mufidin nəql etdiyi hədisdə göstərilir ki, Əli (ə) məktubu Mədinəyə gətirdikdə Peyğəmbər (s) hamının məscidə toplaşmasını bildirir. Minbərə qalxıb camaata buyurur: "Mən dua edərək Allahdan istəmişdim ki, Qüreyş müşriklərinin bu hərəkətimizdən xəbəri olmasın. Lakin aranızdan bir nəfər onlara məktub yazaraq gəlişimiz barədə xəbər verib. İndi məktubu yazan şəxs ayağa qalxıb özünü təqdim etsin. Yoxsa vəhy mələyi nazil olub onun kim olduğunu açıqlamaqla

həmin adamı rüsvay edəcək." Heç kim ayağa qalxmır. Buna görə də Peyğəmbər (s) sözlərini bir daha təkrar edir. Bu vaxt Hatib ibn Əbu Bəltəə yarpaq kimi əsə-əsə ayağa qalxıb deyir: "Məktubu mən yazmışam. Ancaq Allaha and olsun ki, bunu sizin peyğəmbərliyinizə şəkk etməyim və ya İslamda nifaq yaratmağa görə etməmişəm. Özünüz də yaxşı bilirsiniz ki, mənim bu şəhərdə heç kəsim yoxdur. Ailəm, arvad-uşağım Məkkədədir. Müşriklərə məktub göndərməklə əslində ailəmə bir xidmət etməyi düşünürdüm. Dedim birdən bizimlə müşriklər arasında döyüş baş verərsə və biz məğlub olarıqsa, heç olmasa müşriklərdən ailəmi salamat buraxmalarını istəyərəm." Ömər ibn Xəttab bunu eşitcək deyir ki, ya Rəsuləllah, bu adam münafiq olub, icazə verin onu öldürüm. Peyğəmbər (s) onu sakitləşdirərək Hatib ibn Əbu Bəltəənin məsciddən çıxarılmasına göstəriş verir. Camaat ayağa qalxıb onu məsciddən kənarlaşdırır. Hatib ibn Əbu Bəltəə isə peşmançılıq dolu baxışlarla Peyğəmbərə (s) baxırdı. Bunu görən Peyğəmbər (s) onu məscidə qaytarılmasını əmr edir. Hatib məscidə qayıtdıqda həzrət ona buyurur: "Mən sənin təqsirindən keçdim, Allahdan dilə ki, O da səni əfv etsin. Bir daha belə işə yol vermə!"

Təfsirçilərin yazdığına görə Mumtəhənə surəsinin ilk beş ayəsi məhz bu hadisə ilə əlaqədar olaraq nazil edilmişdir.

3. Bütlərin sındırılması

Əmirəl-möminin Əli ibn Əbutalibin (ə) Kəbədəki bütləri sındırması əhvalatını sünni alimləri öz əsərlərində nəql etmiş və həmin mənbələrlə bağlı maraqlanmaq istəyənlər İhqaqul-həqq kitabına (c-8, s-680-691) müraciət edə bilərlər. Bu haqda nəql edilmiş hədislərdən belə nəticə əldə edilir ki, bütlərin Əli (ə) tərəfindən sındırılması əhvalatı iki dəfə baş vermişdir. Bunlardan biri hicrətdən qabaq, özü də gizli şəkildə, digəri isə Məkkənin fəthindən sonra aşkar şəkildə gerçəkləşmişdir. Hicrətdən qabaq Əlinin (ə) bütləri sındırması haqqında Əhməd ibn Hənbəl, Nisai və iyirmidən artıq digər görkəmli sünni alimləri hədislər söyləmişlər.[1] "Xəsais" kitabından Nisainin nəql etdiyi hədis diqqətinizə çatdırırıq.

Nisai Əbu Məryəmdən, sonuncu da öz növbəsində Əli ibn Əbutalibin (ə) dilindən belə nəql edir: "Peyğəmbərlə (s) birlikdə Məscidül-hərama getdik. Peyğəmbər (s) mənim çiynimə çıxdı. Lakin mənim çətinlik çəkdiyimi gördükdə buyurdu ki, aşağı əyil. Peyğəmbər (s) çiynimdən enib özü yerə əyilərək mənə buyurdu ki, qalx çiynimə. Həzrətin çiyninə qalxdım, o da ayağa qalxdı. Onda elə zənn etdim ki, istəsəm əlimi ucsuz-bucaqsız səmaya da vura bilərəm. Kəbənin damına qalxdıqda orada düyüdən hazırlanmış bir büt gördüm. Onu o tərəf-bu tərəfə tərpədərək yerindən qopartdım. Peyğəmbər (s) onu yerə atmağımı söylədi. Bütü

[1] İhqaqul-həqq, c-8, s-680-689

Kəbənin damından yerə atdıqda şüşə kimi sınıb dağıldı. Sonra da damdan aşağı enib tez Məscidül-həramdan çıxaraq evlərin arasında gözdən itdik."[1]

Məkkənin fəthi zamanı Əlinin (ə) bütləri sındırmasına gəldikdə isə İbn Məğazili Şafei "Mənaqib" əsərində Əbu Hüreyrədən belə nəql edir: "Məkkənin fəth edildiyi gün Peyğəmbər (s) Əli ibn Əbutalibdən soruşdu ki, Kəbənin üstündəki o bütü görürsənmi? Əli: "Bəli, görürəm"– deyə cavab verdikdə həzrət buyurur ki, gəl səni qaldırım, onu oradan götür. Əli deyir ki, ya Rəsuləllah, icazə verin mən sizi qaldırım. Peyğəmbər (s) ona buyurur: "Ya Əli, Rəbiə və Müzirr qəbilələrinin bütün üzvləri çalışsalar belə, mən sağ olduğum müddətdə mənim bir hissəmi də yerdən qaldıra bilməzlər. Sən dayan, mən səni qaldırım." Bunu dedikdən sonra Əlinin ayaqlarından tutub elə qaldırdı ki, qoltuğunun altı göründü. Əlidən soruşdu ki, orada nə görürsən? Əli belə cavab verir: "Görürəm Allah sizin sayənizdə mənə elə bir məqam bəxş edib ki, istəsəm əlimi səmaya da vura bilərəm." Peyğəmbər (s) Əliyə buyurur ki, o bütü oradan götür. Əli bütü götürüb yerə çırpır. Bu vaxt Peyğəmbər (s) kənara çəkilir, Əli də Kəbənin damı üstündən yerə yıxılaraq gülür. Peyğəmbər (s) ondan gülməsinin səbəbini soruşduqda Əli cavab verir ki, Kəbənin damının üstündən yıxılsam da heç bir yerimin əzilməməsinə gülürəm. Peyğəmbər (s) buyurur ki, səni Məhəmməd qaldırıb Cəbrail endirdiyi halda niyə yıxılmalısan?[2]

Əli ibn Əbutalibin Kəbədəki bütləri yerə ataraq sındırması ilə bağlı Həssan ibn Sabit bir neçə beyt şeir də deyir.

Əli ibn Əbutalib (ə) Hüneyn döyüşündə

Peyğəmbər (s) Məkkənin fəthindən sonra on beş gün orada qalıb İslam maarifinin təbliği və uzun illərdən bəri oraya hakim kəsilərək tövhid yurdunu şirk mərkəzinə çevirmiş bütpərəstliyin köklərini kəsməklə məşğul olur. Eyni zamanda fürsətdən istifadə edib qohumları ilə əhd-peymanını təzələyir. Beləliklə də, İslam sayəsində bütün ədavətlərə son qoyulur. İndi Kəbə ətrafında tam səmimiyyət hökm sürürdü. Lakin qarşı tərəfdə şeytan da sakit durmur, bu asanlıqla İslama təslim olmaq istəmirdi. Buna görə də indi şeytan Məkkədən kənarda yaşayıb hələ İslamı qəbul etməmiş və həzrət Məhəmmədi (s) bütün qəbilələri öz hakimiyyəti altında birləşdirməyə çalışan bir sərkərdə kimi tanıyan qəbilələri vəsvəsə edərək İslama qarşı birləşməyə səsləyir. Vahid cəbhədə birləşən bu qəbilələr müsəlmanlar onlara hücum etməzdən qabaq özləri müsəlmanlara qarşı hücuma keçməyi qərara alırlar. Bu qruplaşmada Malik ibn Ovf adlı bir şəxs xüsusi fəallığı ilə diqqət çəkirdi. O, çox get-gəllərdən sonra Məkkənin kənarında yaşayan Həvazən qəbiləsi ilə

[1] İhqaqul-həqq, c-8, s-682
[2] İhqaqul-həqq, c-8, s-687-688

Taifdəki Səqif qəbiləsini müsəlmanlara qarşı əlbir etməyə nail olur. Tarixçilərin yazdığına görə Əvtas adlı yerdə təxminən otuz min nəfərlik bir ordu təşkil edilir. Ordu başçılığını öz öhdəsinə götürən Malik ibn Ovf qoşunu Taif yaxınlığındakı Hüneyn vadisinə çəkir.

Bu barədə məlumat əldə edən Peyğəmbər (s) Səfvan ibn Üməyyənin vasitəsilə bir xeyli zireh və silah-sursat tədarük görüb on iki minlik bir ordu ilə (Şeyx Mufid orduda on min nəfərin olduğunu bildirmişdir) Məkkədən Hüneyn vadisinə doğru irəliləyir.

Əli ibn Əbutalibin (ə) Hüneyn döyüşündəki fəzilətləri

Hüneyn döyüşü ilə bağlı "Həzrət Məhəmmədin (s) həyatı" əsərində kifayət qədər ətraflı məlumat qeyd etdiyimizə görə burada yalnız Şeyx Mufidin nəql etdiklərini qısaca olaraq diqqətinizə çatdırmağa çalışacağıq.

Mərhum Şeyx Mufid "əl-İrşad" əsərində (1-ci cild, 38-ci fəsil) yazır: "Hüneyn döyüşündə İslam ordusunun sayının çox olmasına görə müsəlmanların qələbə qazanacağı təxmin edilirdi. Peyğəmbər (s) on min nəfərlik ordu ilə düşmənə doğru hərəkət edir. Müsəlmanların əksəriyyəti məğlub olmayacaqlarına inanırdılar. Lakin hadisələr düşünülənlərin tam əksinə cərəyan edir. Belə ki, müsəlmanlar müşriklərlə qarşılaşdıqdan az sonra demək olar tamamilə geri çəkilib qaçmağa başlayırlar. Peyğəmbərin (s) ətrafında cəmi on nəfər qalır ki, onlarin da doqquzu Bəni-Haşım tayfasından idi. Bəni-Haşimdən olmayan yeganə şəxs isə Əymən ibn Ümmi Əymən idi. O, döyüşün gedişatında şəhid olur. Yerdə qalan doqquz nəfər isə düşmənə qarşı cəsarətlə müqavimət göstərir. Meydandan qaçmış müsəlmanlar da dəstə-dəstə geri dönüb müşriklərə hücum edirlər. Düşmən pərən-pərən düşüb məğlubiyyətə uğrayır.

Allah-təala Quranda belə buyurmuşdur: "Allah sizə bir çox yerlərdə, həmçinin Hüneyn (vuruşu) günündə kömək etdi. O gün çox olmağınız xoşunuza gəlsə də, bir faydası olmadı, gen dünya sizə dar oldu, sonra dönüb qaçdınız. Sonra da Allah Öz Peyğəmbərinə və möminlərə arxayınlıq nazil etdi..."[1]

Təfsirçilərin yazdığına görə ayədəki "möminlər" ifadəsi Əymən ibn Ümmi Əymən şəhid olduqdan sonra Peyğəmbərin (s) yanında qalıb vuruşan və hamısı Bəni-Haşımdən olan doqquz nəfərin barəsində nazil olmuşdur. Bu doqquz nəfərdən Abbas ibn Əbdülmüttəlib Peyğəmbərin (s) sağında, Fəzl ibn Abbas solunda durmuş, Əbu Süfyan ibn Haris həzrətin qatırının arxa tərəfində, Əmirəlmöminin Əli (ə) isə həzrətin önündə dayanıb vuruşurdular. Nofəl ibn Haris, Rəbiə ibn Haris, Ütbə ibn Əbuləhəb və Mötəb ibn Əbuləhəb isə Peyğəmbərin (s) yaxınlığında dayanıb düşmənə müqavimət göstərirdi. Adı çəkilənlərdən başqa hamı qa-

[1] Tövbə-25-26

çıb getmişdi. Bu barədə Malik ibn Übadə Ğafiqi yazdığı bir neçə beyt şeirdə Bəni-Haşimdən olan doqquz nəfərin rəşadətinə, qalanlarının isə döyüş meydanından qaçıb getməsinə toxunmuşdur. Abbas ibn Əbdülmüttəlib də baş verənləri nəzmə çəkərək öz tayfalarından olan doqquz nəfərlə birlikdə Əymən ibn Ümmi Əymənin də onlarla olduğunu, lakin sonda şəhadətə qovuşduğunu qeyd etmişdir.

Peyğəmbər (s) müsəlmanların qaçıb getdiyini gördükdə ucasəsli Abbas ibn Əbdülmüttəlibə(Abbas yüksək səslə danışdıqda səsi hər tərəfə yayılırdı) buyurur ki, camaata mənimlə bağladıqları əhd-peymanlarını xatırlat və onları geri səslə! Abbas da dərhal uca səslə deyir: " Ey (Hüdeybiyyədə) ağac altında Peyğəmbərlə (s) əhd-peyman bağlayanlar, ey Bəqərə surəsini öyrənənlər, hara qaçırsınız? Geri qayıdın, Peyğəmbərlə (s) bağladığınız əhd-peymanınızı yada salın!"

Hava zülmət qaranlıq idi. Peyğəmbər (s) dərənin düz ortasında qalmışdı. Müsəlmanların gəlişindən qabaq dərə və təpələrdə gizlənmiş düşmən əskərləri hər tərəfdən o həzrətə hücum çəkirdilər. Zülmət qaranlıqda Peyğəmbərin(s) mübarək camalı on dörd gecəlik ay kimi parıldayırdı. Abbas ibn Əbdülmüttəlibin səsi bütün müsəlmanların qulağına çatdı. O səsi eşitməyən adam qalmadı. Qaçmaqda olan müsəlmanlar Abbasın çağırışından qeyrətə gəlib yenidən döyüş meydanına doğru qayıdaraq düşmənlə döyüşməyə başladılar.

Tarixi mənbələrdə göstərilir ki, Həvazən qəbiləsindən olan bir kişi qırmızıtüklü dəvəyə minib düşmən ordusunun önündə hərəkət edirdi. Əlindəki qara bayrağı nizənin başına sancmışdı. Müsəlmanlar nisbi üstünlük əldə edib düşmən geriləyən kimi dərhal əlindəki bayrağı havada fırladaraq öz adamlarını yenidən döyüşə həvəsləndirirdi. O, bayrağı o tərəf-bu tərəfə fırladaraq belə bir rəcəz də oxuyurdu:

Mən Əbu Cərvələm, bu camaatı(müsəlmanları) qırmayınca, ya da özümüz qırılmayınca heç yerə gedən deyilik.

Əli (ə) irəli çıxıb arxadan onun dəvəsinə elə bir zərbə endirir ki, dəvə yerə yıxılır. Sonra da Əbu Cərvəlin üstünə hücum edib bircə zərbə ilə onu qətlə yetirir. Ardınca da bu rəcəzi oxuyur:

Camaat yaxşı bilir ki, mən döyüş meydanında düşmənin qanına susayıb onları sirab edirəm.

Əbu Cərvəlin öldürülməsi düşmənin məğlubiyyətinin başlanğıcı oldu. Ardınca isə geridə qalmış müsəlmanlar da gəlib çıxırlar. Bu vaxt Peyğəmbər(s) buyurur ki, İlahi, sən Qüreyşə əvvəlcə çətinlik yaşatdın, indi isə onlara rahatlıq yaşat!

Müsəlmanlarla müşriklər yenidən vuruşmağa başlayırlar. Amansız döyüş gedirdi. Peyğəmbər (s) müsəlmanların onu görə biləcək bir yerdə durub aşağıdakı rəcəzi oxuyurdu:

Mən danılmaz bir peyğəmbərəm
Mən Əbdülmüttəlib övladıyam.

Başda Əbu Cərvəl olmaqla düşməndən qırx nəfəri Əmirəl-möminin Əli ibn Əbutalib(ə) təkbaşına qətlə yetirir. Əbu Cərvəlin ölümündən sonra demək olar ki, düşmən məğlubiyyətlə barışmaq məcburiyyətində qalır. Düşmənin qaçaraq geri çəkilməsi ilə onların məğlubiyyəti tam rəsmiləşir. Müsəlmanlar onlardan xeyli sayda əsir tutur, kifayət qədər qənimət əldə edirlər.

Peyğəmbər (s) bu döyüşdə əldə edilən qənimətləri yalnız İslamı yenicə qəbul etmiş şəxslərin arasında bölüşdürür. Məkkədə sayılıb seçilən Əbu Süfyan, Əkrəmə ibn Əbu Cəhl, Səfvan ibn Üməyyə, Haris ibn Hişam, Süheyl ibn Əmr, Züheyr ibn Əbu Üməyyə, Abdullah ibn Əbu Üməyyə, Müaviyə ibn Əbu Süfyan, Hişam ibn Müğeyrə, Əqrə ibn Habis, Üyeynə ibn Həsən kimilərə isə qəlblərini ələ almaq məqsədilə başqalarından daha artıq pay verir. Mədinəlilərə isə çox cüzi hissə ayırır. Bu bölgüdən məmnun qalmayan mədinəlilər narazılıq etməyə başlayırlar. Onların dedi-qodusu Peyğəmbərin (s) qulağına çatdıqda mədinəlilərin bir yerə toplaşmasını, məkkəlilərdən heç kəsin bu toplantıda iştirak etməməsini tapşırır. Mədinəlilər toplandıqda Peyğəmbər (s) Əli ibn Əbutaliblə (ə) birlikdə onların yanına gələrək buyurur: "Sizə bir sualım var, mənə deyin görüm siz yolunuzu azmamışdınızmı? Allah-təala mənim vasitəmlə sizi doğru yola yönəltmədimi?"

Mədinəlilər: Bəli, elədir ki, var. Bu, Allahın və Peyğəmbərinin bizə böyük bir minnətidir.

Peyğəmbər (s): Bir-birinizi qırmaq ərəfəsində deyildinizmi? Allah-təala mənm vasitəmlə sizi bu uçurumdan qurtarmadımı?

Mədinəlilər: Bəli, elədir ki, var. Bu, Allahın və Peyğəmbərinin bizə böyük bir minnətidir.

Peyğəmbər (s): Siz bir-birinizə qarşı düşmən kəsilməmişdinizmi? Allah-təala mənim vasitəmlə aranızda səmimiyyət yaratmadımı?

Mədinəlilər: Bəli, elədir ki, var. Bu, Allahın və Peyğəmbərinin bizə böyük bir minnətidir.

Peyğəmbər (s) bir qədər susduqdan sonra buyurur: Siz də deyin, nəyə görə demirsiniz? Mədinəlilər soruşurlar ki, ya Rəsuləllah, nəyi deyək? Həzrət buyurur: Siz də mənə deyə bilərsiniz ki, səni Məkkədən qovdular, ancaq biz sənə sığınacaq verdik. Öz yurd-yuvandan təşviş içində gəlmişdin, biz sənə rahatlıq verdik. Məkkəlilər səni qəbul etmədiyi halda biz səni qəbul etdik. Bunu eşidən mədinəlilər ağlamağa başlayıb Peyğəmbərin (s) əl-ayağını öpərək deyirlər ki, ata-anamız sənə fəda olsun, biz Allahdan da, Peyğəmbərindən də razıyıq. İxtiyarımızdakı bütün mal-dövlətimiz sənə qurbandır. İstəyirsənsə, hamısını məkkəlilər, qüreyşlilər, qohum-əqrəban arasında payla! Qənimətlərin bölgüsü ilə bağlı qulağınıza çatan söz-söhbət ona görə olmayıb ki, sizi bölgüdə ədalətsiz hesab etmişik. Bu söz-söhbəti yaradanlar elə düşünüblər ki, siz onların əlindən qəzəbləndiyiniz üçün onlara az pay vermisiniz. Onlar indi öz etdiklərindən peşmandırlar və Allahdan bağışlanmalarını diləyirlər.

Sən də Allah-təaladan onların bağışlanmasını istə! Bu sözlərdən sonra Peyğəmbər (s) buyurur: "İlahi, ənsarı (mədinəliləri), ənsarın övladlarını, övladlarının övladlarını bağışla! Ey mədinəlilər, razı deyilsinizmi ki, başqaları mal-qara, qoyun-quzu ilə evlərinə getsinlər, siz isə Peyğəmbərinizlə?" Mədinəlilər cavab verirlər ki, buna çox sevinərik ya Rəsuləllah. Daha sonra Peyğəmbər (s) buyurur: " Mədinəlilər mənim sirlərimin məhrəmidirlər. Əgər camaat bir tərəfə, ənsar(mədinəlilər) isə başqa tərəfə getsələr, mən ənsarın getdiyi yolla gedərəm. İlahi, ənsarı bağışla!"

Peyğəmbərin (s) qənimət bölgüsündən narazı qalanlardan biri də o dövrün şairlərindən olan Abbas ibn Mərdas olmuşdur. O, öz narazılığını şeirlə bildirmişdir. Dediyi şeirlər Peyğəmbərin (s) qulağına çatdıqda Abbası yanına çağırtdırıb buyurur: Bu şeiri sənmi demisən? Sonra Əliyə buyurur ki, ya Əli, qalx bunun ağzını yum.

Abbas ibn Mərdas deyir: "Mən elə zənn etdim ki, Əli ibn Əbutalib mənim dilimi kəsəcək. O an məni onun əlindən qurtara biləcək bir şəxs olsaydı, ondan imdad diləyərdim. Əli ayağa qalxım məni də özü ilə birlikdə aparır. Gedərkən ondan soruşdum ki, sən mənim dilimimi kəsəcəksən? Cavab verdi ki, mən deyiləni icra edirəm. Gəlib dəvələrin saxlanıldığı tövləyə çatdıq. Əli qapını açaraq mənə dedi ki, dörddən yüzədək neçə dəvə istəyirsənsə götür. Dedim ki, ya Əli, siz necə də böyük və alicənab bir ailədənsiniz! Cavab verdi ki, Peyğəmbər (s) də həmin ailənin üzvüdür. O, sənə dörd dəvə verməklə səni mühacirlər sırasına aid etmişdir. İndi sənə düşən paya qane olub mühacirlər sırasında qalmaq istəyirsənsə, qal. Yox əgər yüz dəvə alanların arasında olmaq istəyirsənsə, onda yüz dəvəni götür keç onların tərəfinə. Soruşdum ki, ya Əli, sən mənə hansını məsləhət görürsən? Cavab verdi ki, mənim məsləhətimi istəyirsənsə, mən payına düşən dörd dəvəyə qane olub mühacirlər arasında qalmağını məsləhət görürəm. Dedim ki, elə isə mən də elə bunu edəcəyəm."

Peyğəmbərin (s) gələcəkdən xəbər verməsi və Əlinin (ə) daha bir fəziləti

Əksər tarixçilərin yazdığına görə Hüneyn döyüşündə əldə edilmiş qənimətlərin bölgüsü zamanı Hərqus Zül-Xüveysirə adlı şəxs Peyğəmbərə (s) deyir ki, qənimətlərin bölgüsündə ədalətə riayət etdinmi? Peyğəmbər (s) onun cavabında buyurur: " Vay sənin halına, mən də ədalətə riayət etməsəm, bəs onda kim riayət edəcək?" Bu vaxt bir çox səhabələr onu Peyğəmbərə (s) hörmətsizlik etdiyinə görə öldürmək istəsə də, Həzrət icazə verməyib buyurur: "Onunla işiniz olmasın, tezliklə o, ətrafına bir dəstə adam toplayacaq və ox kamandan çıxdığı kimi o da dindən çıxacaq."[1]

Bəzi mənbələrdə Peyğəmbərin (s) daha sonra belə buyurduğu göstərilir: "Onlar müsəlmanlara qarşı vuruşub bütpərəstlərə tərəf çıxacaqlar. Mən o vaxta qalsam, onları Ad və Səmud qövmü kimi qətlə yetirərəm."[2]

[1] İhqaqul-həqq, c-8, s-475; 522

[2] Yenə orada, s-481

Başqa bir hədisdə Peyğəmbər (s) belə buyurmuşdur: "Onlar Allahın bəndələri və məxluqatı arasında ən pisləridir."[1]

Digər bir hədisdə göstərilir ki, Peyğəmbər (s) belə buyurmuşdur: "Onları görən kimi öldürün, onları görən kimi öldürün!"[2]

Bir neçə hədisdə isə Peyğəmbərin (s) belə buyurduğu göstərilir: "Allah onları məndən sonra ən sevimli bəndəsinin vasitəsilə qətlə yetirəcək."[3]

Günlər ötüb keçir, Peyğəmbərin (s) buyurduğu kimi, Zül-Xüveysirə Siffeyn döyüşündən sonra xəvaric (xaricilər) firqəsini başına toplayıb Əmirəl-möminin Əliyə (ə) qarşı çıxır. Nəhrəvan döyüşündə öz layiqli cəzasına çataraq Əli(ə) tərəfindən qətlə yetirilməklə Cəhənnəmə vasil olur.

Bəni-Səqif və Həvazən qəbilələri Hüneyn döyüşündəki ağır məğlubiyyətə uğrayaraq xeyli sayda qənimət qoyub[4] qaçmaq məcburiyyətində qalırlar. Peyğəmbər (s) onların təqib edilməsinə göstəriş verir. Özü isə böyük bir ordu ilə Taifə qaçmış, döyüşün səbəbkarı Malik ibn Ovfu təqib edir. Malik ibn Ovf Taif qalalarına sığındığı və müsəlmanların gəlişinə qədər qalalara kifayət qədər ərzaq yığıldığına görə həmin qalaların mühasirəsi bir qədər uzun çəkir. Mühasirə müddətində müsəlmanlardan bir neçəsi şəhid də oldu. Qarşıdan vuruşmağın haram olduğu ayların gəlib çatması səbəbilə Peyğəmbər (s) qalaların mühasirəsindən əl çəkib ümrə ziyarəti məqsədilə Məkkəyə gedir. Beləliklə, Taif döyüşü haram aylar bitənə qədər təxirə salınır. Sonradan Malik ibn Ovfun İslamı qəbul etməsi, Taif başçılarının könüllü təslim olması səbəbilə ümumiyyətlə döyüşməyə lüzum qalmır və Taif şəhəri qan tökülmədən müsəlmanlara təslim olur.

Mərhum Şeyx Təbərsi "Əlamul-vəra" əsərində yazır ki, Taifin mühasirədə olduğu günlərdən birində Peyğəmbər (s) Əli ibn Əbutalibi(ə) bir dəstə ilə ətraf ərazidəki bütxanaları dağıtmağa göndərir. Əli (ə) ona tapşırılmış işi icra etməkdən ötrü gedərkən yolda Xəsəm qəbiləsindən olan böyük bir dəstə ilə rastlaşır. Aralarından bir nəfər[5] irəli çıxıb onunla vuruşa biləcək rəqib tələb edir. Bu zaman Əli(ə) onunla vuruşmaqdan ötrü irəli gəlir. Bunu gördükdə Peyğəmbərin(s) kürəkəni Əbülas ibn Rəbi Əliyə (ə) deyir ki, sən bizim başçımızsan, qoy onunla başqası vuruşsun. Əli (ə) isə buyurur ki, yox, mən özüm onunla vuruşacağam. Əgər ölsəm, dəstəyə sən başçılıq edərsən. Bunu deyərək qarşısındakı şəxsin önünə keçib belə bir rəcəz oxuyur:

---

[1] Yenə orada, s-493

[2] Yenə orada, s-509-510

[3] Əl-İrşad, c-1, s-135; Əlamul-vəra, s-127

[4] Tarixçilər müsəlmanların Hüneyn döyüşündə əldə etdikləri qənimətin digər döyüşlərlə müqayisədə daha artıq olduğunu qeyd etmişlər. Deyilənlərə görə həmin döyüşdə 6000 nəfər əsir götürülmüş, 24000 baş dəvə, 4000 baş qoyun, 4000 vüqiyyə (1 vüqiyyə 214 qrama bərabərdir) gümüşü qənimət olaraq əldə etmişlər.

[5] Şeyx Mufid "əl-İrşad" əsərində həmin şəxsin adının Şəhab olduğunu göstərmişdir.

Hər bir dəstənin başçısının borcudur ki, öz nizəsini düşmən qanı ilə sirab etsin, ya da bu yolda nizəsi sınsın.

Rəcəzi bitirən kimi hücuma keçib qarşısındakı şəxsi qətlə yetirir. Sonra da Peyğəmbərin(s) tapşırdığı yerə gedərək bütləri sındırıb geri qayıdır. Peyğəmbər(s) Əlinin(ə) qayıtdığını görcək "Allahu əkbər" deyərək əlindən tutub bir kənara aparır, onunla xəlvətdə nəsə danışır.

Təbuk döyüşü və Mənzilət hədisi

Müsəlmanlar üçün ən böyük sınaqlardan biri məhz hicrətin doqquzuncu ilində baş vermişdir. Bu, Təbuk döyüşü olmuşdur. Hadisə belə baş vermişdi ki, Peyğəmbərə (s) bizanslıların müsəlmanlara hücuma hazırlaşması və bu məqsədlə böyük bir ordu toplamaları haqqında məlumat çatmışdı. Peyğəmbər (s) bu xəbəri eşitcək İslam dövlətinin gücünü düşmənə nümayiş etdirmək məqsədilə ümumi səfərbərlik elan edib Təbuka doğru hərəkət edir. Tarixçilərin yazdığına görə bu vaxt İslam ordusunun tərkibində on min süvari, iyirmi min piyada var idi.

Ordu yola düşərkən yay fəslinin ən qızmar vaxtı idi. Digər tərəfdən məhsul yığımının vaxtı çatdığı, həm də Mədinədə dəhşətli bir quraqlıq keçdiyindən, habelə Mədinə ilə Təbuk arasındakı on min fərsəxlik məsafə susuz səhra olduğundan bu səfər müsəlmanlara olduqca çətin anlar yaşadır. Məhz bu səbəbdən Təbuka gedən ordu "çətinliklər ordusu" kimi tanınır. Bəzi münafiqlər bu çətinlikləri bəhanə gətirərək döyüşə getməkdən yayınıb Mədinədə qalırlar. Qeyd etdiyimiz kimi bunlar sadəcə bəhanə idi. Əslində isə onlar Peyğəmbərin (s) Mədinədə olmamasından istifadə edib İslama qarşı mənfur niyyətlərini həyata keçirmək və bu yolla müsəlmanlara ağır zərbə endirmək fikrində idilər. Lakin sonradan Peyğəmbərin (s) onların mərkəzi qərargahının sökülüb yerlə-yeksan edilməsinə göstəriş verməsi ilə onların bütün planları alt-üst olur.

Bütün çətinliklərə və bir çoxlarının əsassız bəhanələrinə rəğmən Peyğəmbər (s) ordunu yığıb Təbuka doğru hərəkət edir. Digər döyüşlərdən fərqli olaraq Peyğəmbər (s) Əlini (ə) bu döyüşə aparmır. Əliyə (ə) tapşırır ki, Mədinədə qalıb şəhəri və Həzrətin ailəsini qorusun. Bu vaxta qədər Əlinin (ə) heç bir döyüşdən kənar qalmaması münafiqlərə müxtəlif şayiələr yaymaq imkanı yaradır. Əli ibn Əbutalibin (ə) Təbuk döyüşünə getməməsini hərə bir cür yozmağa başlayır. Özləri havanın isti olması səbəbindən məhsul yığımını bəhanə gətirib orduya qatılmayanlar Əlinin (ə) də havanın isti olması və yolun uzaqlığına görə döyüşə getməkdən yayındığını bildirirlər. Bəziləri isə belə hesab etmişlər ki, Əlini(ə) bu döyüşə aparmaq Peyğəmbər (s) üçün çətinlik yaratdığına görə Mədinədə qalıb ailəsini qorumağı bəhanə gətirmişdir. Lakin sonradan Peyğəmbərin (s) Əliyə (ə) nəyə görə onu döyüşə aparmamasının səbəbini açıqladıqda münafiqlərin bütün dedi-qodularının

və məkrli planlarının üstü açılır. Bu cavabı ilə Peyğəmbər (s) Əlinin (ə) ondan sonra canişin olacağına da haradasa toxunmuş olur.

İbn Hişam, Təbəri, İbn Əsir kimi görkəmli tarixçilər, habelə Buxari, Tirmizi və Nisai kimi tanınmış hədis nümayəndələri qeyd etmişlər ki, Əli ibn Əbutalib (ə) münafiqlərin dedi-qodularını eşitdikdə silahını götürüb Səniyyətül-vida (və ya Cərf) adlı yerdə özünü Peyğəmbərə (s) çatdırır. Peyğəmbər (s) ondan nə üçün gəldiyini soruşduqda Əli (ə) münafiqlərin yaydığı dedi-qodu haqqında həzrətə məlumat verir. Bəzi mənbələrdə hətta göstərilir ki, Əli (ə) özü Peyğəmbərə (s) buyurur ki, məni Mədinədə əmrinizdən çıxanlarlamı qoyub gedirsiniz? Peyğəmbər (s) isə onun cavabında belə buyurur: "Mədinə mən, ya da sən olmadan salamat qala bilməz." Bütün tarixçilər və eləcə də hədis nümayəndələri qeyd etmişlər ki, Peyğəmbər(s) bu cümlənin ardınca belə buyurur: "İstəmirsənmi mənə olan münasibətin Harunun Musaya olan münasibəti kimi olsun? Bircə bu fərqlə ki, məndən sonra peyğəmbər olmayacaq."

Göründüyü kimi, Peyğəmbər (s) bu cümlə ilə Əlinin (ə) ondan sonra müsəlmanların başçısı, rəhbəri, xəlifəsi olacağını qətiyyətlə elan edir. Harun Musadan sonra hansı məqamlara sahib olmuşdusa, peyğəmbərlik istisna olmaqla Əlinin də bütün o məqamlara sahib olduğunu bəyan edir. Peyğəmbər (s) "Mədinə mən, ya da sən olmadan salamat qala bilməz" cümləsini buyurmaqla dolayısı yolla olsa da münafiqlərin həzrətin Mədinədə olmayacağı uzun müddət ərzində şəhərdə təxribat törədəcəyinə, bunun qarşısını isə onun Mədinədə olmayacağı bir vaxtda yalnız Əlinin (ə) ala biləcəyinə işarə edir. Deməli, o anda Peyğəmbərlə (s) Əlinin (ə) hər ikisinin şəhərdən çıxması heç bir vəchlə düzgün olmazdı. Onların ikisindən biri mütləq Mədinədə qalmalı idi ki, münafiqlərin hazırladığı planın qarşısını alsın. Əli ibn Əbutalib(ə) bu sözləri eşitdikdən sonra Mədinəyə qayıdıb öz vəzifəsini icra edir.

Mübahilə əhvalatı və Əlinin (ə) daha bir fəziləti

Məkkə müsəlmanlar tərəfindən fəth edildikdən sonra İslam dini Ərəbistan yarımadasında böyük sürətlə yayılmağa başlayır. Demək olar Mədinəyə hər gün müxtəlif qəbilə və dinlərin nümayəndələri gəlir, müsəlmanlarla müttəfiq olduqlarını bildirirdilər. Mədinəyə gələn nümayəndə heyətlərinin sayı o qədər çox olmuşdur ki, həmin ili "nümayəndələr ili" adlandırırlar. Mədinəyə gəlmiş nümayəndə heyətlərinin arasında Nəcrandan gəlmiş, xaçpərəstlərdən ibarət bir dəstə də olmuşdur. Bununla bağlı hadisələrin növbəti gedişatını bu sətirlərin müəllifinin qələmə aldığı "Həzrət Məhəmmədin (s) həyatı" əsərində olduğu kimi diqqətinizə çatdırırıq.

Şiə və sünni mənbələrində qeyd edilmişdir ki, Nəcrandan gələn on nəfərlik nümayəndə heyətinə üç nəfər başçılıq edirdi. Onlardan birinin adı Aqib, ikincisininki Seyyid (bəzi mənbələrdə onun əsl adının Eyhəm, bəzilərində isə Məlcə olduğu və nəcranlıların ictimai-siyasi işlərdə məsləhtləşdiyi şəxs olduğu göstərilir), üçün-

cüsünün adı isə Əbu Harisə olmuşdur. Sonuncu Nəcranın böyük yepiskopu idi və bütün Bizans imperatorları onun şərəfinə kilsələr tikdirmişdilər. Onlar Mədinəyə gələrkən Əbu Harisənin qardaşı Kərzuyabişr də onun kəcavəsində əyləşmişdi. Birdən onların qatırı yıxılır və kəcavə yerə düşür. Bütün bu çətinliklərə Peyğəmbəri görmək üçün dözdüklərinə görə Kərzuyabişr deyir ki, görüm o(Peyğəmbər) məhv olsun! Bu sözü eşidən Əbu Harisə narahat olaraq deyir ki, özün məhv olasan! Kərzuyabişr soruşur ki, qardaş, mənə niyə qarğış edirsən? Əbu Harisə deyir: Çünki and olsun Allaha, o, çoxdandır yolunu gözlədiyimiz peyğəmbərdir. Kərzuyabişr bu sözdən təəccüblənərək soruşur ki, bəs onda nəyə görə ona iman gətirmirsiniz? Əbu Harisə qardaşının cavabında deyir: Qazandığımız bu şan-şöhrət ona iman gətirməyimizə imkan vermir. Mən ona iman gətirsəm də, camaat onu qəbul etməyəcək.(Xoşbəxtlikdən o Mədinəyə gəlib Peyğəmbərlə (s) görüşdükdən sonra İslam dinini qəbul edir.)

Nümayəndə heyəti əsr vaxtı Mədinəyə daxil olur. Şəhərə girdikdə əyinlərində zərli-zibalı paltarlar, barmaqlarında qızıl üzüklər var idi. O vaxtadək Mədinəyə belə bir nümayəndə heyəti gəlməmişdi. Onlar elə o vəziyyətdəcə birbaşa məscidə gəlib Peyğəmbərə (s) salam verirlər. Ancaq Peyğəmbər (s) onlardan üz çevirib heç salamlarına da cavab vermir.

Nəcranlılar dava əvvəl tanıdıqları Osman ibn Əffanla Əbdürrəhman ibn Ovfun yanına gedib deyirlər ki, Peyğəmbəriniz bizə məktub göndərmişdi. Məktubuna cavab olaraq biz də onun görüşünə gəldik, ancaq o bizi qəbul etmədi, heç salamımızı da almadı. Bəs indi biz nə etməliyik? Osman ibn Əffanla Əbdürrəhman ibn Ovf dərhal Əli ibn Əbutalibin (ə) yanına gəlib onu vəziyyətdən xəbərdar edir və ondan yardım istəyirlər. Əli (ə) onlara buyurur ki, əgər onlar geydikləri zərzibalı paltarları dəyişib barmaqlarındakı qızıl üzükləri çıxartsalar, Peyğəmbər (s) onları mütləq qəbul edər. Osman ibn Əffanla Əbdürrəhman ibn Ovf Əlinin (ə) tövsiyəsini nəcranlılara çatdırırlar. Onlar Əlinin(ə) tövsiyəsinə əsasən, geydikləri zər-zibalı paltarları dəyişib barmaqlarındakı qızıl üzükləri çıxardır, sonra da yenidən Peyğəmbərin (s) yanına gedirlər. Peyğəmbər (s) onları qəbul edib salamlarına cavab verərək buyurur: "And olsun Allaha, ilk dəfə gəldiyinizdə şeytan da sizinlə birlikdə idi."

Nəcrandan gəlmiş nümayəndə heyəti Peyğəmbəri (s) (onun haqq olub-olmadığını) yoxlamaqdan ötrü ona bir neçə sual verir ki, verilmiş suallardan bəzisi aşağıdakılar olmuşdur. Seyyid soruşur: Ey Məhəmməd, Məsih (İsa peyğəmbər) barədə nə deyə bilərsən? Peyğəmbər (s) onun cavabında buyurur: O, Allahın bəndəsi və peyğəmbəri olmuşdur. Seyyid həzrətin sözünü kəsərək onunla razılaşmadığını bildirir və fikir mübadiləsi başlayır. Bununla əlaqədar olaraq Ali-İmran surəsinin ilk yetmiş ayəsi nazil olur. Aşağıdakı ayə Seyyidin iradına ən tutarlı cavab idi: "Allah yanında İsa da (İsanın atasız dünyaya gəlişi də) Adəm

kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona: "(Bəşər) ol!"-dedi, o da oldu."[1] Nazil edilmiş ayələrdə Allah-təala Nəcran yəhudilərini mübahiləyə dəvət etməsini tapşırır. (Yəni, hər iki tərəf bir yerə toplaşıb Allahdan öz dediklərində yalan danışana əzab nazil olmasını diləsin.) Həmin ayədə deyilir: "(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) sənə göndərilən elmdən(məlumatdan) sonra buna(İsanın əhvalatına) dair səninlə mübahisə edənlərə de: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) dua edib yalançılara Allahın lənət etməsini diləyək!"[2] Beləliklə, Peyğəmbər (s) Allahın əmri ilə Nəcran xaçpərəstlərini mübahiləyə dəvət edir. Onlar da bu təkliflə razılaşıb səhərisi gün mübahiləyə gələcəklərini bildirirlər.

Peyğəmbərin (s) yanından ayrıldıqdan sonra Əbu Harisə öz yoldaşlarına deyir ki, əgər sabah Məhəmməd öz ailəsi ilə mübahiləyə gəlsə, onunla qətiyyən mübahilə etməyin, yox əgər öz səhabələri ilə gələrsə, onda onunla mübahilə edin!

Ertəsi gün Peyğəmbər (s) Həsənlə (ə) Hüseynin (ə) əlindən tutduğu halda, Fatimə (s.ə) Həzrətin arxasında, Əli ibn Əbutalib (ə) isə önündə gələrək mübahilə üçün nəzərdə tutulmuş yerdə hazır olur. Peyğəmbərin (s) gəlişini hələ uzaqdan görmüş Əbu Harisə yanındakı Aqib və Seyyiddən soruşur ki, Məhəmmədin yanındakılar kimlərdir? Ona cavab verirlər ki, yanındakı kişi əmisi oğlu və kürəkənidi, o iki uşaq qızının oğlanları, qadın isə dünyada ən çox sevdiyi qızıdır.

Peyğəmbər (s) gəlib mübahilə üçün təyin edilmiş yerdə əyləşir.[3] Həzrətin yalnız Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseynlə (ə) mübahiləyə gəldiyini görən Əbu Harisə deyir: "And olsun Allaha, Məhəmməd digər peyğəmbərlərin mübahilə zamanı yerdə əyləşdikləri kimi əyləşib. Onunla mübahiləyə girişməyin! Mən qarşımda tam ciddiliklə mübahiləyə hazır olan bir şəxs görürəm. Qorxuram ki, o, öz iddiasında haqq olsun və bunun nəticəsi olaraq bir il keçməmiş dünyada bircə nəfər də olsun xaçpərəst qalmaya." Sonra da Peyğəmbərin (s) yanına gələrək deyir: Ey Əbülqasim, biz səninlə mübahilə etmək fikrindən daşındıq, sənə cizyə verməyə hazırıq. (Cizyə qeyri-müsəlmanların İslam ölkəsində öz dinlərində qalmaq şərtilə ödədiyi can vergisinə deyilir.) Peyğəmbər (s) onlarla bir müqavilə imzalayır. Müqaviləyə əsasən nəcranlılar hər birinin qiyməti 40 dirhəm olmaqla müsəlmanlara ildə iki min paltar verməli idilər.

Mərhum Təbərsi "Əlamul-vəra" əsərində yazır ki, Əbu Harisə Mədinədə qaldığı son günlərdə İslam dinini qəbul edir.

---

[1] Ali-İmran-59

[2] Ali-İmran-61

[3] Əksər tarixi mənbələrdə bildirilir ki, Peyğəmbər(s) mübahilə üçün şəhərdən kənar bir yeri seçir və bu hadisəni izləməkdən ötrü oraya xeyli sayda səhabə yığılmışdı.

Tarixi Yəqubi, əl-İrşad və bir neçə digər tarixi mənbələrdə Peyğəmbərin(s) Nəcran xaçpərəstləri ilə imzaladığı müqavilənin mətni bütün detalları ilə qeyd edilmişdir. Müqavilədəki bəndlərdən birində göstərilmişdir ki, nə vaxtsa Yəmən ərazisində müsəlmanlar oranın əhalisi ilə vuruşarsa, nəcranlılar müsəlman ordusuna müvəqqəti olaraq (döyüş başa çatanadək) otuz ədəd zireh, otuz baş at və otuz baş dəvə verəcəklər. Həmçinin o da qeyd olunmuşdu ki, bundan sonra Nəcran xaçpərəstləri bir daha sələmçiliklə məşğul olmayacaq. Əks təqdirdə tərəflər arasında imzalanmış müqavilə birtərəfli olaraq pozulacaqdır.

Mübahilə əhvalatı ilə bağlı deyilənləri İbn Əsir, Zəməxşəri, Fəxr Razi, Cəlaləddin Suyuti, İbn Bitriq kimi görkəmli sünni alimləri də öz əsərlərində qeyd etmişlər. Əhvalatla əlaqədar nazil olmuş ayədən də məlum olur ki, ayədə işlədilmiş "oğlanlarımız", "qadınlarımız" və "özümüz" ifadələrindən məqsəd müvafiq olaraq Həsənlə (ə) Hüseyn (ə), Fatimə (s.ə) və Əli ibn Əbutalibdir(ə). Bunu yuxarıda adı çəkilən sünni alimləri də təsdiqləyərək Əhli-beytin, xüsusilə də Əli ibn Əbutalib(ə) və xanımı Fatimeyi-Zəhranın(s.ə) ən böyük fəzilətlərindən birinə etiraf etmişlər. Bu isə Əli ibn Əbutalibin (ə) Peyğəmbərdən (s) sonra o həzrətin canişinliyinə hamıdan layiqli olduğunu təsdiqləmək deməkdir.

İndi isə Zəməxşərinin əl-Kəşşaf, Müslimin Səhih və Hakim Neyşaburinin əl-Mustədrək əsərlərində Mübahilə əhvalatı ilə bağlı nəql etdikləri bir hədislə mövzunu başa vururuq. Adı çəkilənlər Aişədən belə rəvayət etmişlər: "Mübahilə günü Peyğəmbər(s) yanındakı dörd nəfəri (Əli ibn Əbutalib, Fatimeyi-Zəhra, Həsən və Hüseyni) qara rəngli tüklü əbasının altına yığıb: "Siz ey (Peyğəmbərin) ev əhli, həqiqətən, Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tər-təmiz (pak) etmək istər!"[1] ayəsini oxuyurdu."

Bəraət ayələrini müşriklərə çatdırmaq Əlinin (ə) fəzilətlərindən biri kimi

Hicrətin doqquzuncu ilinin sonlarında, Zilhəccə ayında Bəraət (Tövbə) surəsinin ilk ayələri nazil olur. Allah-təala Peyğəmbərə (s) əmr edir ki, surənin ilk on ayəsi mütləq Məkkə müşriklərinə çatdırılmalıdır. Bütün təfsirçilərin fikrincə Peyğəmbər (s) öncə Əbubəkri yanına çağırıb Məkkəyə gedərək nazil olmuş ayələri müşriklərə çatdırmasını tapşırır. Əbubəkr yola düşəndən bir az sonra Peyğəmbər (s) Əli ibn Əbutalibə (ə) buyurur ki, Əbubəkrin ardınca gedib ayələri ondan alsın, sonra da özü Məkkəyə gedib onları müşriklərə oxusun. Bu, hadisənin ümumi məzmunudur və heç bir mənbədə bu haqda mübahisəli məqam yoxdur. Lakin hadisənin xırdalıqlarına gəlincə mənbələrdə bu barədə müxtəlif fikirlər söylənilmişdir.

Görkəmli tarixçi, sünni məzhəbinin böyük təfsirçilərindən olan Təbəri öz təfsirində sözügedən əhvalatı Zeyd ibn Yəsidən belə nəql etmişdir: "Bəraət (tövbə)

[1] Əhzab-33

surəsi nazil olduqda Peyğəmbər (s) onun ilk ayələrini müşriklərə çatdırmaqdan ötrü Əbubəkri Məkkəyə göndərir. Lakin Əbubəkrin gedişindən sonra Əli ibn Əbutalibi onun ardınca göndərir. Əli gəlib Əbubəkrə çatır, ayələri ondan alıb özü Məkkəyə gedir. Əbubəkr isə Peyğəmbərin(s) yanına qayıdıb soruşur ki, mənim barəmdə nəsə nazilmi oldu ki, ayələri məndən geri aldın? Peyğəmbər (s) cavab verir ki, xeyr, sənin barəndə nəsə nazil olmayıb, sadəcə olaraq Allah-təala əmr edib ki, o ayələri ya mən özüm, ya da ailəmdən olan birisi müşriklərə çatdırmalıdır.

Əli ibn Əbutalib Məkkəyə gəlib müşriklərin arasında ayələrdə deyilən dörd mühüm məsələni onların diqqətinə çatdırır:

1. Növbəti ildən etibarən Məkkəyə bircə nəfər də olsun, müşrik daxil ola bilməz.
2. Bundan sonra heç kəs Kəbəni paltarsız təvaf edə bilməz. (Xatırladaq ki, müşriklər bəzən Kəbə ətrafında paltarsız da təvaf edirdilər.)
3. Müsəlman olmayan şəxs Cənnətə getməyəcək.
4. Peyğəmbərlə (s) əhd-peymanı olan şəxsin əhd-peymanı vaxtı bitənə qədər qüvvədə qalır.

Sünni mənbələrində bu məzmunda otuz beşdən artıq hədis nəql edilmişdir.[1]

Şeyx Mufid "əl-İrşad" əsərində Xeybər döyüşündən sonra yuxarıda qeyd etdiyimiz hadisəni belə nəql etmişdir:

Bəraət surəsi nazil olduqdan sonra Peyğəmbər(s) ayələri Əbubəkrə verir ki, gedib onu Məkkə müşriklərinə oxusun və Peyğəmbərlə(s) olan əhd-peymanlarının artıq başa çatdığını onlara elan etsin. Əbubəkr ayələri götürüb Məkkəyə yola düşdükdən sonra Cəbrail(ə) nazil olub Peyğəmbərə(s) deyir: "Allah-təala sənə salam çatdıraraq bildirir ki, bu cür xəbərləri ancaq ya sən özün, ya da səndən olan (sənin özün kimi) birisi çatdırmalıdır." Peyğəmbər (s) dərhal Əli ibn Əbutalibi(ə) yanına çağırtdırıb buyurur ki, Əzbaya (Peyğəmbərin (s) dəvəsinin adıdır) min və tez özünü Əbubəkrə çatdır. Bəraət surəsinin ayələrini ondan al, get Məkkə müşriklərini oxu və onlara bildir ki, aramızdakı əhd-peyman artıq ləğv edilir. Əbubəkrə də de ki, istərsə sənlə Məkkəyə getsin, istərsə də mənim yanıma qayıtsın. Əli(ə) Əzbaya minib özünü Əbubəkrə çatdırır. Əbubəkr Əlini(ə) görcək onu qarşılayaraq soruşur ki, ey Əbülhəsən, nədən ötrü gəlmisən? Mənimlə birlikdə Məkkəyə getməyəmi, yoxsa başqa işə görə? Əli ibn Əbutalib(ə) onun cavabında buyurur: "Peyğəmbər (s) mənə tapşırdı ki, gəlib ayələri səndən alım və özüm gedim onları Məkkə müşriklərinə oxuyum. Sən də ixtiyar sahibisən, istəsən mənimlə Məkkəyə gedə və ya Peyğəmbərin yanına qayıda bilərsən." Əbubəkr deyir ki, mən Mədinəyə, Peyğəmbərin yanına qayıdıram. Peyğəmbərin (s) yanına qayıdan Əbubəkr soruşur: "Ya Rəsuləllah, siz məni elə bir iş ardınca göndərdiniz ki, hamı mənə həsəd aparırdı, bu böyük şərəf

[1] Təfsiri Təbəri, c-10, s-40

mənə nəsib oldu. Ancaq yarı yolda ikən nə etdim ki, məni geri çağırdınız? Yoxsa mənim barəmdə Allah-təala hansısa bir ayəmi nazil etdi?" Peyğəmbər(s) cavab verir ki, xeyr, sənin barəndə heç bir ayə nazil olmayıb, lakin sən getdikdən sonra Cəbrail(ə) nazil olub bildirdi ki, bu ayələri mütləq ya mən özüm, ya da məndən olan (mənim özüm kimi) birisi müşriklərə çatdırmalıdır.[1]

Bu haqda "Həzrət Məhəmmədin(s) həyatı" əsərində həm şiə, həm də sünni mənbələrinə istinadən daha ətraflı məlumat vermişik. Maraqlananlar həmin kitaba müraciət edə bilərlər.[2]

Bu əhvalatı təvatür həddində nəql eilmiş hədislər sırasına daxil edilmişdir. Mərhum Əllamə Əmini "əl-Qədir" əsərində (c-6, s-338) bu hədisi yetmiş üç sünni ravisinin nəql etdiyini göstərmişdir. Qeyd etdiyimiz kimi bütün təfsirçilər də bu hadisə ilə bağlı yekdil fikir irəli sürmüşlər. Bəzi sünni alimləri bu məsələyə bir qədər obyektiv yanaşmayaraq bildirmişlər ki, bu hadisə nə Əbubəkr üçün bir nöqsan sayıla bilməz, nə də Əli ibn Əbutalib üçün bir fəzilət. Biz məsələyə sırf tarix nöqteyi-nəzərdən münasibət bildirdiyimiz üçün bu kimi fikirlərin təhlili ilə bağlı əl-Mizan (c-9, s-165) və İhqaqul-həqq (c-7, s-419-425) kitablarına müraciət etməyi tövsiyə edirik.

Peyğəmbərin (s) Əlini (ə) öz qurbanlığına şərik etməsi

Hicrətin onuncu ili də gəlib çatır. Peyğəmbər(s) Nəcran xaçpərəstləri ilə imzaladığı müqaviləyə əsasən Əli ibn Əbutalibi(ə) Nəcranda yaşayan xaçpərəstlərdən cizyə vergisini toplamaq və oralarda yaşayan müsəlmanlara dini maarifi təlim etmək, aralarında şəri mühakimələr yürütməkdən ötrü adı çəkilən məntəqəyə göndərir. Əli(ə) yola düşməzdən qabaq Peyğəmbərə(s) deyir ki, ya Rəsuləllah, məni elə bir camaata doğru göndərirsən ki, məndən suallar soruşacaq, mən isə camaat arasında mühakimə yürütməkdən xəbərsizəm. Peyğəmbər(s) mübarək əlini Əli ibn Əbutalibin(ə) sinəsinə çəkərək buyurur: "Allah-təala sənin qəlbini haqqa yönəldib dilini (sözünü) möhkəm edəcək."

Əli ibn Əbutalib(ə) buyurmuşdur ki, o gündən etibarən mən heç vaxt mühakimə işlərində şübhə etmədim.[3]

Əli ibn Əbutalib(ə) Nəcran xristianlarından cizyə vergisini toplamaq, oralarda yaşayan müsəlmanlara dini maarifi təlim etmək, aralarında şəri mühakimələr yürütməkdən ötrü Yəmənə doğru hərəkət edir. Peyğəmbər(s) də həcc ziyarətinə yola düşür. O həzrət həccə gedərkən Yəməndə olan Əli ibn Əbutalibə(ə) məktub göndərir ki, işini başa çatdırdıqdan sonra həcc ziyarəti niyyəti ilə Məkkəyə gəl. Əli(ə) Nəcran xaçpərəstlərindən cizyə olaraq topladığı paltarları dəvələrə

[1] Əl-İrşad, c-1, s-57-58

[2] Həzrət Məhəmmədin(s) həyatı, s-636-640

[3] Ət-Təbəqatul-kubra, c-2, s-337; İhqaqul-həqq, c-8, s-34-47

yükləyib sərəncamında olan kiçik dəstə ilə Məkkə istiqamətinə hərəkət edir. Ehram geyməkdən ötrü təyin edilmiş miqata çatdıqda ehram bağlamaq istəyir. Lakin hansı ziyarət (ümrə ziyarətimi, yoxsa təməttö ziyarəti) niyyəti ilə ehram bağlamalı olduğunu bilmədiyi üçün belə niyyət edir ki, İlahi, Peyğəmbər(s) hansı niyyətlə ehram bağlayıbsa, mən də həmin niyyətlə ehram bağlayıram. Ehram bağladıqdan sonra Peyğəmbərin(s) artıq Məkkəyə yetişdiyini öyrənir. İxtiyarında olan dəstəyə başçılıq etməkdən ötrü bir nəfəri öz yerinə təyin edib özü dərhal Məkkəyə-Peyğəmbərin(s) görüşünə gedir. Peyğəmbər(s) Əli ibn Əbutalibin(ə) Məkkəyə çatdığını eşitcək onun pişvazına çıxır. Onu görən kimi sevinib soruşur ki, hansı niyyətlə ehram bağladın Əli? Əli(ə) belə cavab verir: "Ya Rəsuləllah, sən göndərdiyin məktubda hansı niyyətlə ehram bağlayacağını mənə yazmadığına görə mən ehram bağlayarkən sənin niyyətinlə ehram bağladım. Dedim ki, İlahi, Peyğəmbərin hansı niyyətlə ehram bağlayıbsa, mən də o niyyətlə ehram bağlayıram." Bunu eşidən Peyğəmbər(s) təkbir (Allahu əkbər) deyərək Əliyə buyurur: "Elə isə indi təvaf et, ancaq mənim kimi sən də ehramda qal! Sən qurbanlıqda mənim şərikimsən. Mən sənin də əvəzinə qurban kəsəcəyəm." Əli(ə) də təvaf etdikdən sonra Peyğəmbər(s) kimi ehramda qalır, o həzrətlə birlikdə həccin digər əməllərini yerinə yetirir. Qurbanlığa gəlincə isə Peyğəmbər(s) həm özü, həm də Əli(ə) üçün qurban kəsir.[1]

Əli ibn Əbutalib(ə) ümrə həccini başa vurub Yəməndən qayıtmaş və Məkkədən kənarda saxladığı dəstənin yanına qayıdır ki, onları da Peyğəmbərin(s) hüzuruna qaytarsın. Qayıtdıqda görür ki, onunla Yəmənə gedənlər dəvələrin yükünü açıb Nəcran xaçpərəstlərindən cizyə olaraq toplanılmış paltarları geyiblər. Əli(ə) öz yerinə dəstəyə başçı təyin etdiyi şəxsə qəzəblənib deyir ki, nə üçün buna icazə vermisən? Paltarları Peyğəmbərə(s) çatdırmazdan qabaq nəyə görə açıb camaata paylamısan? Həmin adam cavab verir ki, istədim Məkkəyə daxil olan zaman hamı təzə paltarda olsun. Bəzi mənbələrdə isə göstərilmişdir ki, həmin şəxs Əlinin(ə) cavabında belə deyir: " Onlar özləri məndən xahiş etdilər, mən də qəbul etdim." Əli(ə) göstəriş verir ki, dərhal paltarları çıxarıb yerinə qoysunlar. Öz paltarlarını geyib Məkkəyə gəlsinlər. Məkkəyə çatdıqda Əlinin(ə) bu hərəkətindən Peyğəmbərə(s) şikayət edənlərə həzrətin cavabı belə olur: "Əlidən şikayətlənməyin! O, Allahın əmrini icra etməkdə güzəştə gedən deyil."[2]

Peyğəmbərin(s) vida həccindən qayıtması və Qədir-xum əhvalatı

Bu əhvalat o qədər geniş yayılmış, bu haqda o qədər əsərlər yazılmışdır ki, hadisəni uzun-uzadı qeyd etməyə, bunu araşdırmaqdan ötrü hər hansı bir sübu-

[1] Bu hədisi ondan çox çiə, iyirmi beşdən artıq sünni ravisi nəql etmişdir. Ətraflı məlumat üçün Biharul-ənvar (c-21, s-378-404) və İhqaqul-həqq (c-6, s-569-577) kitablarına müraciət edə bilərsiniz.

[2] Əl-İrşad, c-1, s-161; Əlamul-vəra, s-76; İhqaqul-həqq, c-4, s-240-244

ta ehtiyac yoxdur. Təkcə onu qeyd etmək kifayətdir ki, Əllamə Əmini əl-Qədir kitabının birinci cildində bu əhvalatı üç yüz altmış sünni ravisindən, özü də bütün xırdalılqları ilə nəql etmişdir.[1] Həm şiə, həm də sünni alimlərindən iyirmi beş nəfər bu mövzuya ayrıca kitab həsr etmiş, yüzlərlə ərəb və qeyri-ərəb mənşəli şair və ədiblər bu əhvalatı nəzmə çəkmişdir. İndi hadisəni əks etdirən hədisi əl-Qədir kitabına istinadən diqqətinizə çatdırırıq.

Hicrətin onuncu ilində Peyğəmbər(s) həcc ziyarətinə getmək qərarına gəlir. Camaatı da öz niyyətindən xəbərdar edir. Müsəlmanlar da bu ziyarətdə o həzrəti müşayiət etmək qərarına gəlirlər. Bu ziyarət Peyğəmbərin(s) ömründə sonuncu həcc ziyarəti olduğundan tarixə həccətül-vida (vida həcci), həccətül-islam, həccətül-bəlağ, həccətül-kəmal və həccətüt-təmam adları ilə düşmüşdür. Mühacir və ənsarın da böyük hissəsi bu ziyarət səfərinə hazırlaşmağa başlayır.

Peyğəmbər(s) Zilqədə ayının sonuna beş, ya altı gün qalmış qüsl edib onun müşayiət edən böyük bir dəstə ilə piyada Məkkəyə doğru hərəkət edir. O həzrət bu səfərdə bütün xanımlarını özü ilə aparır. Bu ziyarət ərəfəsində Mədinədə qızılca xəstəliyi yayıldığından bir çoxları ziyarətə gedə bilmir. Ancaq buna baxmayaraq tarixçilər bu səfərdə doxsan mindən yüz iyirmi dörd min nəfərədək adamın Peyğəmbəri(s) müşayiət etdiyini bildirirlər. Bu rəqəm təkcə Mədinədən o həzrətə qoşulanlara aiddir. Məkkənin özündən, eləcə də Yəməndən ziyarətə gəlib həzrətə qoşulanları da buna əlavə etsək, qeyd edilən rəqəmdən daha böyük rəqəm ortaya çıxar. (Əllamə Əmini Həzrətin yol marşrutunu, yolboyu oturaq etdiyi mənzilləri sadaladıqdan sonra yazır:) Peyğəmbər(s) çərşənbə axşamı günorta Məkkəyə çatır. Həcc əməllərini başa vurduqdan sonra Mədinəyə dönür. Səfər boyu Peyğəmbəri(s) müşayət edənlər də onunla birlikdə idilər. Cöhfə məntəqəsindəki Qədir-xum adlı yerdə Mədinə, Misir və İraqdan gəlmiş hacıların yolu ayrılırdı. Məhz o nöqtədə Peyğəmbər(s) dayanır. Həmin gün Zilhəccə ayının on səkkizi, həftənin cümə axşamı günü idi. Elə bu vaxt Cəbrail(ə) nazil olub aşağıdakı ayəni həzrətə çatdırır:

"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə etdiyi peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!"[2] Beləliklə də Peyğəmbərə(s) Əli ibn Əbutalibi(ə) camaata təqdim edərək özündən sonra ümmətin rəhbəri olacağını elan etsin. Bu məqsədlə o həzrət öndə gedənlərin geri çağırılmasını, geridə qalanları isə bir qədər tələsərək qabaqdakılara çatmasını tapşırır. Yaxınlıqdakı beş ağacın altının təmizlənməsini, heç kəsin orada oturmamasını əmr edir. Zöhr azanı olduqda azan verilir. Peyğəmbər(s) ağacların altında namaza başlayır, camaat da ona qo-

[1] Əl-Qədir, c-1, s-14-151

[2] Maidə-67

şulub camaat namazı qılır. Hava və torpaq həddən artıq isti olduğundan, çoxları əbasının bir ucunu ayağının altına sərmiş, digər ucunu da başının üstünə atmışdı. Peyğəmbər(s) də üzərinə parça çəkilərək ağaclardan düzəlmiş kölgəliyin altına çəkilmişdi. Namazı qurtardıqdan sonra həzrət camaatın əhatəsində kəcavələrdən hazırlanmış minbərə qalxaraq hamının eşidə biləcəyi səslə buyurdu: "Həmd-səna Allaha məxsusdur, Yalnız Ondan kömək diləyir, Ona iman gətirir, təvəkkül edib şeytanın və nəfsimizin hiylələrindən Ona pənah aparırıq. O, kimisə yolundan azdırsa, həmin şəxsi heç kim haqq yola yönəldə bilməz, kimisə haqq yola yönəltsə, heç kim onu haqq yoldan döndərə bilməz. Şəhadət verirəm ki, Ondan başqa tanrı yoxdur, Məhəmməd də Onun bəndəsi və peyğəmbəridir.

Camaat, Mehriban və hər şeyi görən Allah mənə xəbər vermişdir ki, hər peyğəmbərin ömrü özündən qabaqkı peyğəmbərin ömrü qədərdir. Mən tezliklə Allahın dəvətini qəbul edib aranızdan gedəcəyəm. Mən də, siz də Allah dərgahında sorğu-sual ediləcəyik. Bu barədə nə deyirsiniz?"

Camaat: Biz şahidik və etiraf edirik ki, sən öhdənə düşən vəzifəni layiqincəsinə yerinə yetirdin, yalnız xeyirxahlıq edib bu yolda çalışdın. Allah Özü sənin mükafatını versin!

Peyğəmbər(s): Allahdan başqa tanrı olmadığına, Məhəmmədin də Onun bəndəsi və peyğəmbəri olmasına, həmçinin Cənnət və Cəhənnəmin, ölüm və qiyamətin, Allah-təalanın ölüləri dirildəcəyini haqq olmasına şəhadət verirsinizmi?

Camaat: Bəli, şəhadət veririk.

Peyğəmbər(s): İlahi, Özün şahid ol! Camaat, məni eşidə bilirsinizmi?

Camaat: Bəli, eşidirik.

Peyğəmbər(s): Məlumunuz olsun ki, (qiyamət günü) mən (Kövsər) hovuzunun başında olacağam, siz də orada mənim yanıma gələcəksiniz. O hovuzun eni Səna və Busra şəhərləri arasındakı məsafə qədərdir. Orada göydəki ulduzların sayı qədər gümüş qədəhlər vardır. Görüm məndən sonra iki böyük əmanətlə necə rəftar edəcəksiniz.

Yerdən bir nəfər dillənərək soruşur ki, o iki əmanət hansıdır, ya Rəsuləllah?

Peyğəmbər(s): Onlardan biri Allahın kitabıdır. Onun bir ucu sizdə, digər ucu isə Allah-təaladadır. Yolunuzu azmaq istəmirsinizsə, ondan möhkəm yapışın! Digəri isə mənim əhli-beytimdir. Mehriban və hər şeyi bilən Allah mənə xəbər verib ki, bu iki əmanət qiyamətdə Kövsər hovuzunun kənarında mənə qovuşmayınca bir-birində ayrılmaz. Bunu mən istəmişəm. Bu iki əmanətdən qabağa keçməyin, yoxsa həlak olarsınız. Ondan geri də qalmayın, yenə həlak olarsınız.

Peyğəmbər(s) bunu dedikdən sonra Əli ibn Əbutalibin(ə) əlindən tutub o qədər qaldırır ki, hər ikisinin qoltuğunun altı görünür. Bu mənzərəni hamı görür. Sonra Həzrət buyurur: Camaat, möminlərə onların özlərindən də daha yaxın kimdir?

Camaat: Allah və Peyğəmbəri daha yaxşı bilər.

Peyğəmbər(s): Allah mənim, mən də sizin mövlanızam. Mən möminlərə onların özündən də daha yaxınam. Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. (Peyğəmbər(s) son cümləni üç, imam Əhmədin nəql etdiyi hədisə əsasən isə dörd dəfə təkrar edir.) İlahi, onunla dost olanla Sən də dost ol, ona düşmən kəsilənə sən də düşmən kəsil! Onu sevəni sev, onu nifrət edənə nifrət et! Ona kömək edənə kömək, onu rüsvay edəni rüsvay et! Harada olursa olsun, haqqı onunla birgə qərar ver! Burada olanlar dediklərimi burada olmayanlara da çatdırsın!

Peyğəmbər(s) bunları deyib qurtaran kimi Cəbrail(ə) nazil olub aşağıdakı ayəni gətirir:

"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim."[1]

Bu ayə nazil olduqda Peyğəmbər(s) buyurur: Allahu əkbər, dinimiz kamilləşdi, Allah bizə olan nemətlərini tamamladı, mənim (risalət) vəzifəmi icra etməyimdən razı qaldı və Əlinin rəhbərliyinə razı qaldı.

Camaat Əli ibn Əbutalibin(ə) yanına gələrək onu təbrik etməyə başlayır. İlk təbrikə gələnlər arasında Əbubəkrlə Ömər də var idi. Onlar Əliyə(ə) yaxınlaşıb deyirlər: "Bəh-bəh, ey Əbutalibin oğlu, təbrik edirik. Bu gündən mənim, eləcə də bütün mömin kişi və qadınların mövlası oldun."

İbn Abbas da Əlini(ə) təbrik edərək deyir: "Allah sənin rəhbərliyini camaata vacib etdi."

Daha sonra Həssan ibn Sabit bununla əlaqədar olaraq bir neçə beyt şeir demək üçün Peyğəmbərdən icazə istəyir. Peyğəmbər(s) ona icazə verdikdə Həssan qalxıb bir neçə beyt şeir deyir.[2]

Qeyd etdiyimiz bu əhvalatı mərhum Əllamə Əmini "əl-Qədir" kitabında böyük sayda sünni mənbələrinə istinadən nəql etmişdir.

Peyğəmbərin (s) son günləri və Əli ibn Əbutalibin (ə) məqamı

Hicrətin on birinci ili gəlib çatır. Vida həccindən sonra daxili düşmənlərdən nisbətən arxayın olan Peyğəmbər(s) İslam məmləkətinin şimalını təhdid edən bizanslılara qarşı tədbir görmək qərarına gəlir. Bu məqsədlə on birinci ilin səfər ayının ortalarında böyük bir ordu təşkil verib on səkkiz yaşlı Üsamə ibn Zeydi də orduya başçı təyin edir. Üsamənin ordusuna qoşulmayanları o Həzrət şəxsən lənətləyir. Peyğəmbər(s) özü isə xəstələndiyi üçün orduda iştirak etmir. Xəstə yatdığı günlərdən birində məscidə gələrək Quran və Əhli-beyt haqqında dəfələrlə öz tövsiyələrini verməsinə baxmayaraq[3] bir daha həmin məsələyə qayıdıb buyurur: "Qiyamət günü mən sizin önünüzdə olacağam, siz isə arxamca Kövsər hovuzunun

[1] Maidə-3

[2] Əl-Qədir, c-1, s-9

[3] Əs-Səvaiqul-muhriqə, s-147; Mənaqibi İbn Şəhraşub, c-1, s-235

başında yanıma gələcəksiniz. Onda aranızda qoyub getdiyim iki əmanət haqqında sizdən sorğu-sual edəcəyəm. Məndən sonra bu iki əmanətlə rəftarınızda ehtiyatlı olun! Allah-təala mənə xəbər verib ki, bu iki əmanət qiyamət günü Kövsər hovuzunun kənarında mənə qovuşmayınca bir-birindən ayrılan deyil. Bunu mən Allahımdan istəmişdim, O da istəyimi qəbul etdi. Yadınızda saxlayın ki, mən aranızda iki böyük əmanət qoyub gedirəm. Biri Allahın kitabı, digəri isə Əhli-beytim. Onlardan önə keçməyin, yoxsa həlak olarsınız, qabağa da keçməyin, yenə həlak olarsınız. Onlara nəsə öyrətmək fikrinə düşməyin, onsuz da onlar sizdən çox bilirlər.

Camaat, məbada mən aranızdan getdikdən sonra yenidən küfrə doğru üz tutub bir-birinizin qanını tökəsiniz. Yoxsa qarşınızda coşub-daşan sel kimi məni görərsiniz. Məlumunuz olsun ki, Əli ibn Əbutalib mənim qardaşım, canişinimdir. Mən Quran uğrunda döyüşdüyüm kimi, o da Quran yolunda döyüşəcək."

Bu sözləri Peyğəmbər(s) ilk dəfə demirdi. Müxtəlif vaxtlarda bu və digər münasibətlərlə əlaqədar olaraq bu məzmunda sözləri səhabələrin diqqətinə çatdırmışdır.[1]

Peyğəmbər(s) mübarək ömrünün son anlarının yaxınlaşdığını gördükdə bir sıra vəsiyyətlər edir, o cümlədən ona məhz Əli ibn Əbutalibin(ə) qüsl verib kəfənə tutmasını, dəfn etməsini tapşıraraq Əliyə(ə) buyurur: "Mənə sən özün qüsl ver!"[2] Digər bir hədisdə Peyğəmbərin(s) belə buyurduğu göstərilir: "Məni paltarsız görmək Əlidən başqa heç bir kişiyə halal deyil."[3] Əli(ə): "Ya Rəsuləllah, qorxuram birdən buna (sənə qüsl verib kəfənləməyə) taqətim çatmaya"-dedikdə həzrət buyurur: "Sənə bu işdə kömək edəcəklər."[4] Digər bir hədisdə isə göstərilir ki, Peyğəmbər(s) Əli ibn Əbutalibə(ə) belə vəsiyyət edir: "Mənə özün qüsl verərsən. İbn Abbas su tökər. Cəbrail də yanınızda olacaq."[5]

Peyğəmbərin(s) son günlərində Əliyə(ə) buyurduğu sözlərdən biri də bu olmuşdur: "Məndən sonra camaat sənlə olan əhd-peymanını pozacaq."[6]

Şiə ravilərindən İbn Şəhraşub, Təbərsi, Darqutni, Səmani və qeyriləri, sünni ravilərindən isə İbn Abbas, Əbu Səid Xidri kimi şəxslər Aişədən belə nəql etmişlər: "Peyğəmbər(s) ən son anlarında buyurdu ki, dostumu çağırın! Mən durub (atam) Əbubəkri Həzrətin yanına çağırdım. Peyğəmbər onu gördükdə başını aşağı salıb yenə də əvvəlki cümləni təkrar etdi. Bu dəfə Öməri onun yanına gətirdilər. Ancaq Peyğəmbər(s) yenə də başını aşağı salıb: "Dostumu çağırın!"-deyir. Belə olduqda mən otaqdakılara dedim ki, Əli ibn Əbutalibi çağırın. Həzrətin istədiyi şəxs odur.

[1] Əl-İrşad, c-1, s-169
[2] İhqaqul-həqq, c-7, s-29-36
[3] Yenə orada
[4] Yenə orada
[5] Yenə orada
[6] İhqaqul-həqq, c-7, s-326

Əli gəldikdə Peyğəmbər(s) dərhal üstündəki parçanı kənara çəkib onu yanına çağırır, sonra isə parçanı onun da üstünə örtür. Həzrət vəfat edənə qədər Əli onun yatağında qalır. Vəfat edərkən həzrətin mübarək əli Əlinin bədənində idi."

Həfsə də atasını çağırdıqda Həzrət ondan üz çevirir. Ümmi-Sələmə durub Əli ibn Əbutalibi(ə) çağırır. Peyğəmbər(s) onunla xeyli söhbət etdikdən sonra özündən gedir.[1] Bu vaxt Həsənlə(ə) Hüseyn(ə) gəlib özlərini Peyğəmbərin(s) üstünə ataraq ağlamağa başlayırlar. Əli(ə) onları uzaqlaşdırmaq istərkən Peyğəmbər(s) özünə gəlib buyurur: "Əli, onlarla işin olmasın, qoy onların ətrini alım, onlar da mənim ətrimi alsınlar. Onlar məndən, mən də onlardan faydalanıram." Bunu dedikdən sonra Əlini yanına çağırıb üstünə örtdüyü parçanı onun da üstünə çəkir. Mübarək ağzını onun lap qulağına yaxınlaşdırıb nəsə danışır. Ömrünün ən son anında isə buyurur: "Əli, başımı qucağına al! Allahın əmri gəlib çatmışdır. Son nəfəsim çıxarkən onu əlinlə götür üzünə çək! Sonra üzümü qibləyə çevir və işlərimlə(dəfn işlərimlə) məşğul ol! Hamıdan qabaq özün mənə namaz qıl, dəfn etməyincə yanımda ayrılma! İşlərində Allahdan kömək istə!"

Hədislərdə göstərilir ki, Əli ibn Əbutalib(ə) Peyğəmbərin(s) yanından qalxaraq deyir ki, Allah rəhmət eləsin! Orada olanlar Əlidən(ə) soruşurlar ki, Peyğəmbər(s) yatağında sənlə nə danışırdı? Həzrət cavab verir ki, mənə elmin min qapısını öyrətdi ki, hər qapıdan da min qapı açılır. Ardınca da mənə son vəsiyyətlərini etdi, inşallah onları icra edəcəyəm.[2]

Üçüncü fəsildə qeyd etmişdik ki, Əli ibn Əbutalib(ə) Peyğəmbərin(s) həyatının son anları ilə bağlı bunları söyləmişdi: "Peyğəmbər(s) vəfat edən zaman başı mənim qucağımda idi. Son nəfəsi bədənindən çıxarkən onu əllərimlə üzümə çəkmişdim. Ona mən qüsl verdim, mələklər də yardım etdilər..."[3]

"Həzrət Məhəmmədin(s) həyatı" əsərində qeyd etdiyimiz kimi, Peyğəmbərin(s) vəsiyyətinə əsasən ona məhz Əli ibn Əbutalib(ə) qüsl verib kəfənə tutur, daha sonra o Həzrəti dəfn edir.

[1] Mərhum Şeyx Mufidin nəql etdiyi hədisdə deyilir ki, Peyğəmbər(s) özündən getdikdə Əli ibn Əbutalib(ə) həzrətin yanından durur. Çölə çıxdıqda camaat soruşur ki, Peyğəmbər(s) sənlə nə danışırdı? Əli(ə) cavab verdi ki, həzrət mənə elmin min qapısını öyrətdi ki, hər qapıdan da min qapı açılır.

[2] Mənaqibi Ali Əbutalib, c-1, s-236-237

[3] Nəhcül-bəlağə, 195-ci xütbə

V FƏSİL

ƏLİ İBN ƏBUTALİB (Ə) İMAMƏT DÖVRÜNDƏ

Dini sahədə rəhbərlik İslam dininin ən önəmli məsələlərindən biri, bəlkə də ən əhəmiyyətlisidir. Çünki bütün dini proqramların, prinsiplərin başında məhz rəhbərlik məsələsi durur. Digər məsələlərin hamısı ona bağlıdır. Təsadüfi deyil ki, hədislərdə İslam dininin beş təməl üzərində qurulduğu bildirilir: "İslam beş təməl üzərində qurulmuşdur, namaz, zəkat, oruc, həcc və vilayət(rəhbərlik)."

Hər hansı bir tikilinin bünövrəsi əyri qoyularsa, o, son daşına qədər əyri qalxacaq. Və yaxud hər hansı bir çoban və ya sürücü əyri yolla gedərsə, bütün sürünü və ya sərnişinləri bədbəxt edəcək. Bu baxımdan cəmiyyətə rəhbərlik edə bilmək üçün dini rəhbər onlarla, hətta yüzlərlə xüsusiyyətə malik olmalıdır. Zaman və məkan nöqteyi-nəzərdən rəhbərlik hüdudları nə qədər geniş olarsa, onun şərtləri də bir o qədər çox və çətin olacaq. Elə deyil ki, rəhbərlik iddiası edən istənilən şəxs və yaxud təəssübkeşlik üzündən camaatın dini rəhbər kimi görmək istədiyi şəxs rəhbərlik səlahiyyətlərinə malik olsun. Belələri cəmiyyətə rəhbərlik edə bilməzlər.

Həzrət Məhəmməd (s) peyğəmbərlərin sonuncusu, onun gətirdiyi Quran səmavi kitabların ən mükəmməli, şəriəti də bütün şəriətlərdən kamil və üstün olduğuna görə onun canişini də özü kimi kamil bir insan olmalı, bütün sahələrdə, xüsusilə də elm sahəsində cəmiyyətin bütün tələbatına cavab verməlidir. O, hər bir çirkinlikdən uzaq, başqaları üçün sözün əsl mənasında nümunə olmalıdır. Həyatında hər hansı bir qaranlıq səhifə olmamalıdır. Döyüş meydanında hamıdan şücaətli, söz demək bacarığı hamıdan üstün olmalı, elmi diskussiyalarda kimsə onu üstələyə bilməməlidir. Təqva baxımından insanlar arasında Allahın ən bəyənilmiş bəndəsi olmalıdır. Bir sözlə, müxtəlif yaxşı insanların ayrı-ayrılıqda sahib olduğu müsbət cəhətlərin hamısını özündə cəmləməlidir. Belə xüsusiyyətlərə malik bir rəhbəri seçmək insanlar üçün mümkün olmadığından, təbii ki, peyğəmbərlər Allah tərəfindən seçildiyi kimi həmin şəxs də Allah tərəfindən təyin edilməlidir. Bu da Peyğəmbərin(s) vasitəsilə həyata keçirilməlidir. Təsadüfi deyil ki, böyük din alimləri cəmiyyətə rəhbərlik edəcək şəxsin bir çox şərtlərə malik olmasını vacib bilmişlər. Mərhum İbn Şəhraşub "Mənaqib" əsərində yazır: "Hədislərdə imamın (rəhbərin) əlli şərti qeyd edilmişdir..." İbn Şəhraşub daha sonra bir-bir həmin şərtləri sadalamışdır. O cümlədən, ismət (məsum olmaq), imam seçilməsinə

dəlalət edəcək ayə və hədis, elmi, natiqlik, helm, mühakimə yürütmək, şücaət, şərəf, zöhd, səxavət, ibadət və s. baxımdan başqalarından üstün olmalıdır. İlk üç şərt digərlərindən daha önəmlidir. Belə ki, imam olacaq şəxs mütləq Allah və Peyğəmbər (s) tərəfindən təyin edilməli, məsum və başqalarından daha elmli olmalıdır. Bu üç şərt digərlərindən önəmli olsa da, qalan şərtlər də imam və rəhbərdə mövcud olmalıdır.

Qeyd edilənlərin sübutu kimi "Üsuli-Kafi" əsərində İmam Rzadan(ə) nəql edilmiş bir hədisə əsaslanaraq qeyd etmək istəyirik ki, Allah-təala Qurani-Kərimdə: "Biz Kitabda (Quranda) heç bir şeyi nəzərdən qaçırmadıq."[1]– deyə buyurur. Digər tərəfdən də Vida həccində Peyğəmbərə (s): "Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim."[2] ayəsini nazil edir. Quranın bu iki ayəsinə əsaslanaraq belə bu sualla üzləşirik ki, imamət məsələsi dinin kamilləşməsinə aid olmuşdur, ya yox? Cavabın müsbət olacağı təqdirdə (həqiqətən də məhz belə olmuşdur) deməli, Peyğəmbər(s) sağlığında ikən Allah-təalanın göstərişi ilə özündən sonra cəmiyyətə rəhbərlik edəcəyi şəxsi-imamı mütləq təyin edərək cəmiyyətə təqdim etmişdir. Əks təqdirdə bu, din üçün böyük bir nöqsandır. Dində belə bir bir nöqsan olduğu halda bəs Allah-təala nəyə görə buyurur ki, Biz kitabda heç nəyi nəzərdən qaçırmadıq və dininizi kamil etdik? Axı din hələ kamilləşməyib. Başqa sözlə desək, imamət məsələsi dinin ən önəmli məsələlərindən, şəriətin ən vacib hökmlərindəndir. Bu, adi bir ictimai məsələ deyil ki, imamı seçmək camaatın öhdəsinə buraxılsın. İmamət məsələsi dinin sütunlarından biridir və imamın seçilməsini camaatın ixtiyarına buraxmaq olmaz.

Nə üçün imamı seçmək hüququ insanların ixtiyarına buraxılmamışdır?

İmamı seçmək hüququnun insanların ixtiyarına verilməməsinin səbəbi çox aydındır. Belə ki, insan və fərdlərdən təşkil olmuş cəmiyyət özünü lazımi şəkildə tanıya bilməz. Bir çoxları adi vaxtda özünün mömin, şücaətli, yaxşı insan olduğunu düşündüyü halda hansısa vəzifəyə yüksəldikdə heç də mömin olmadığı, ən zülmkar adam olduğu üzə çıxır. Camaat əvvəlcə onun riyakar əməllərinə aldanıb vəzifəyə gətirsə də, sonradan pis əməllərini görüb həmin vəzifəyə layiq olmadığını anlayırlar. Lakin artıq heç bir qüvvə ilə fəzifəsindən uzaqlaşdıra bilmirlər. Məsələn, Əbdülməlik ibn Mərvan xəlifə seçilənə qədər məsciddən kənara çıxmazdı. Bütün günü ibadətlə məşğul olub Quran oxuyardı. Bütün gününü məsciddə keçirdiyi üçün camaat onu "Məscid göyərçini" adlandırmışdılar. Elə ki xəlifə seçilməsi xəbəri ona çatır, əlində oxuduğu Quranı bükərək deyir ki, mənimlə səninki bura qədər idi. Bu gündən biz bir-birimizdən ayrıldıq.

[1] Ənamə-38
[2] Maidə-3

Rağib İsfahanı "əl-Muhazərat" əsərində bu əhvalatı qeyd etdikdən sonra yazır: "Əbdülməlik xəlifə seçildikdən sonra deyirdi: "Mən vaxtilə bircə qarışqanı da öldürməzdim, ancaq indi Kufədəki valim Həccac ibn Yusif mənə on minlərlə insanı qətlə yetirdiyini yazır, bu məni qətiyyən narahat etmir."

Camaat bu və digər şəxsi nə qədər yaxından tanısa da, onların əsl simasını olduğu kimi tanıya bilməz. Məhz bu səbəbdən imam və rəhbər seçmək hüququ camaatın öhdəsinə buraxılmamışdır. Buna Həzrət Musanın(ə) Tur dağına aparmaqdan ötrü seçdiyi yetmiş nəfəri misal göstərmək olar. O həzrət, peyğəmbər olmasına, ətrafındakı şəxsləri yaxşı tanımasına baxmayaraq, seçib apardığı şəxslər onun dediklərini təsdiqləmək əvəzinə ondan yersiz və mənasız bir istəklə çıxış edirlər. Deyirlər ki, əgər istəyirsən dediklərini təsdiq edək, onda Allahı bizə göstərməlisən. Bununla da onlar hələ seçilmiş insanlar olmalarına rəğmən iç üzlərini və batini əqidələrini açıb ortaya qoyurlar.

İndi isə gəlin bu məsələ ilə bağlı Şeyx Səduqun Həzrət Məhdidən(ə) nəql etdiyi hədisə diqqət yetirək. Mərhum Şeyx Səduq yazır: "İmam Zamandan(ə): "Nəyə görə camaat özləri üçün imam seçə bilməz?"– deyə sual edildikdə həzrət soruşur ki, (islahedici) haqq imam, yoxsa nahaq? Sual verən şəxs deyir ki, haqq imam. Həzrət buyurur:Heç kəsin daxilini olduğu kimi tanımaq mümkün olmadığı bir halda ola bilər ki, camaat imamətə layiq olmayan şəxsi səhvən imam seçsin. Buna görə də imamı seçmək hüququ insanlara verilməyib. Bununla bağlı sənin də qəbul edəcəyin bir sübut gətirim. Allah-təala peyğəmbərlərə kitab, vəhy nazil etmişdir. Onlar məsum və Allahın seçilmiş bəndələri olsalar da, bəzən öz seçimlərində yanılıblar. Məsələn, Musa(ə) peyğəmbər Tur dağına aparmaqdan ötrü öz tayfasından yetmiş (mötəbər) adam seçir. Musa(ə) onların imanına, səmimiyyətinə qətiyyən şübhə etmirdi. Lakin o həzrətin seçdiyi adamlar münafiq çıxdılar. Allah-təala bu barədə buyurur: "Musa təyin etdiyimiz vaxt üçün öz tayfasından yetmiş (mötəbər) adam seçmişdi..."[1] Lakin o həzrətin mömin kimi qəbul etdiyi şəxslər əslində münafiq olduqları üçün Allahın əzabına tuş gəldilər, onları ildırım vurdu. Başqa bir ayədə onların bu əzaba düçar olmalarının səbəbi açıqlanılır: "(Və yadınıza salın ki) siz: "Ya Musa, Allahı aşkar surətdə görməyincə, heç vaxt sənə inanmayacağıq."-dediyiniz zaman gözünüz görə-görə sizi ildırım vurmuşdu."[2] Allahın seçilmiş bəndələri olan peyğəmbərlər öz seçimində yanılırsa, deməli, insanlar özləri üçün haqq imam seçə bilməzlər. Bunu yalnız insanların batinindən xəbərdar olan Allah seçə bilər. Musa(ə) peyğəmbər kimi şəxs seçimində yanılırsa, onda mühacir və ənsarın özlərinə imam seçməyə haqqı çatmaz."[3]

[1] Əraf-155
[2] Bəqərə-55
[3] Kifayətül-muvəhhidin, c-2, s-29-30

Bu hədisi nəzərə almasaq belə, yenə də insanlar özləri üçün onlara imam olacaq şəxsi seçə bilməzlər. Çünki Quran və hədislərdə də cəmiyyətə dini sahədə rəhbərlik(imamət) edəcək şəxsin təyin edilməsi məsələsinin sırf Allahın ixtiyarında olduğunu göstərilir. Hətta Allahın icazəsi olmadan heç Peyğəmbər(s) də özündən sonra kimisə imam təyin edə bilməz. İbrahim(ə) peyğəmbərlə əlaqədar olaraq Quran buyurur: "(Ya Rəsulum!) Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə (bəzi əmrləri ilə) imtahana çəkdiyi zaman o, (Allahın əmrlərini) tamamilə yerinə yetirdi. (Belə olduqda Allah ona:) "Səni insanlara imam(dini rəhbər, başçı) təyin edəcəyəm"-dedi. (İbrahim isə:)"Nəslimdən necə?"– deyə soruşdu. (Allah onun cavabında:) "(Sənin nəslindən olan) zalimlər mənim əhdimə (imamlığa) nail olmazlar"-buyurdu."[1]

Həzrət Peyğəmbər (s) də öz növbəsində bu məsələyə aşkar şəkildə toxunmuşdur. Bəni-Amir ibn Səsəə qəbiləsini İslama dəvət edərkən qəbilə başçıları həzrətə belə bir sual verirlər ki, biz İslamı qəbul etsək və sən də düşmənə qalib gəlsən, özündən sonra rəhbərliyi bizə həvalə edərsənmi? Peyğəmbər(s) onların cavabında buyurur: "Bu məsələ Allahın ixtiyarındadır. Kimi istəsə, onu da rəhbər təyin edəcək."[2]

Qeyd edilənlərdən həm də imamət üçün lazım olan ikinci şərtin-imamın məsum olmasının da labüdlüyü məlum olur. Belə ki, məsum olmayan şəxsin səhvə yol verməsi, həvayi-nəfsinə uyub haqdan uzaqlaşması mümkündür. Belə bir şəxs isə təbii ki, hamının itaət etməsi vacib olan imam ola bilməz. Gəlin bu haqda görkəmli sünni alimi Fəxr Razinin "Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin!"[3] ayəsinin təfsiri ilə bağlı dediklərinə diqqət yetirək. O deyir: "Allah-təala bu ayədə qətiyyətlə ixtiyar sahiblərinə itaət edilməyin vacib olduğunu bildirir. Əgər ixtiyar sahiblərinə itaət etmək birmənalı olaraq vacibdirsə, onda o, mütləq məsum olmalıdır. Çünki məsum olmazsa və hər hansı bir səhvə yol verərsə, onda gərək onun səhv işinə də itaət edilsin. Halbuki bu, mümkün olan iş deyil. Allah-təala heç vaxt səvh işə itaət edilməyin vacib olduğuna əmr etməz. Buradan belə nəticəyə gəlirik ki, Allah-təala kimməsə qətiyyətlə itaət etməyin vacibliyini bildirirsə, həmin şəxs mütləq məsum olmalıdır. Deməli, ayədəki ixtiyar sahiblərinin məsum olduğu sübuta yetir."[4]

Cəmiyyətə rəhbərlik edəcək imamın hamıdan bilikli olması şərtinə gəlincə, bunu sübut etməyə ehtiyac yoxdur. Bu, bir aksiomadır. Allah-təala Quranın bir çox ayələrində bilənlərlə bilməyənlərin eyni dərəcədə olmadığını bildirir. Ayələrdən birində deyilir: "...De: "Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni

[1] Bəqərə-124
[2] Sireyi İbn Hişam, c-2, s-32; Sireyi Hələbiyyə, c-2, s-3; ərəRəvzul-ənf, c-1, s-264
[3] Nisa-59
[4] Təfsiri Fəxr Razi, c-10, s-144

ola bilərmi?!”[1] Başqa bir ayədə deyilir: “ De: “Heç korla görən və ya zülmətlə nur eyni ola bilərmi?”[2] Bilikli insan qala-qala biliyi olmayan (və ya biliyi ondan az olan) şəxsin cəmiyyətə rəhbərlik etməsi doğrudurmu? Allah-təala buyurur: “... Belə olduqda doğru yola yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?”[3]

İmamın digərlərindən daha bilikli olması şərti ilə bağlı aşağıda qeyd edəcəyimiz hədis bir çox qaranlıq məqamlara aydınlıq gətirir. Şeyx Mufid Əbu Bəsirdən belə nəql edir: “İmam Museyi-Kazimdən (ə) soruşdum ki, başına dönüm, imamı hansı yolla tanımaq olar? Buyurdu: “Bunun bir neçə yolu var. Biri odur ki, atası (özündən qabaqkı imam) onun imamətinə dair nəsə demiş olsun. İkincisi odur ki, ondan sual edilə, o da cavab verə. Əgər sual verilməsə, özü sözə başlayıb məsələlərə aydınlıq gətirsin. Üçüncüsü də odur ki, gələcəkdən xəbər vermək və camaatla istənilən dildə danışmaq imkanına malik olsun. Əbu Bəsir, sən qalxmamış indi bu əlamətlərdən birini müşahidə edəcəksən.” Çox çəkmir ki, Xorasandan gəlmiş bir kişi içəri daxil olub həzrətlə ərəbcə danışmağa başlayır. İmam isə ona fars dilində cavab verir. Xorasanlı kişi dedi ki, and olsun Allaha, mən sizin fars dilini yaxşı bilmədiyinizi güman etdiyim üçün ərəbcə danışdım. İmam buyurdu: “Subhanəllah, əgər mən sənin cavabını fars dilində (sənin öz dilində) verə bilməsəm, onda imam olmaq üçün mənim səndən nəyim üstündür?” Sonra üzünü mənə tutaraq buyurdu: “Əbu Məhəmməd, imam o şəxsdir ki, hamı ilə öz dilində danışa bilsin, hətta quşların və bütün canlıların da dilini bilsin.”[4]

Bu hədis imam olacaq şəxsin bütün dilləri bilməsinin vacibliyinə dəlalət etsə də, əslində imamın başqalarında daha bilikli olduğunu da sübuta yetirir. Biz belə hesab edirik ki, Allah tərəfindən təyin edilmiş istənilən peyğəmbər və imam bütün elmləri və dilləri bilməklə yanaşı, həm də öz dövrünün ən bilikli şəxsi olmalıdır. Hədislərdə məsum imamların bu və digər sahələrdə hamıdan üstün olduğunu göstərən bir çox əhvalatlar nəql edilmişdir. Maraqlananlar əlaqədar mənbələrə müraciət edə bilərlər.[5]

---

[1] Zumər-9

[2] Rəd-16

[3] Yunis-35

[4] Əl-İrşad, c-2, s-217

[5] Mərhum Şeyx Abbas Qummi “Muntəhil-amal” əsərində İmam Baqirin(ə) həyatından bəhs edərkən yazır: “Hişam ibn Əbdülməlik İmam Baqirə(ə) hörmətsizlik edib nüfuzdan salmaq məqsədilə onu Şama çağırtdırır. İmam saraya gəldikdə Hişam xidmətçilərə bir neçə ox və kaman gətirmələrini əmr edir. Oxlarla kaman gətirildikdə Bəni-Üməyyə böyüklərinin hüzurunda kamanı İmama verərək deyir ki, buyur bir neçə ox at! İmam razılaşmayıb buyurur ki, məni üzürlü sayın, artıq qocalmışam, yaşım ötüb. İmamın etirazlarına baxmayaraq Hişam israr edir. Axırda İmam məcbur qalıb kamanı əlinə götürür. Yayı çəkib oxu atır, ox düz hədəfə sancılır. İkinci oxu da götürüb atır və o birinci oxun ortasına sancılır.

Səqifə əhvalatı

Mövzuya başlamazdan öncə hörmətli oxucunun diqqətinə çatdırırıq ki, bu mövzu özündən əvvəlki və sonrakı mövzularla bilavasitə bağlı olduğu üçün, təbii ki, həm bundan qabaqkı, həm də sonrakı mövzuları nəzərdən keçirmək lazımdır.

Bir çox tarixi həqiqətlərdə olduğu kimi Səqifə əhvalatı da bəzi mənbələrdə təhrifə məruz qalmışdır. Həmin mənbələrə diqqət yetirdikdə orada hadisə ilə bağlı məqamlardan bəzisinin çıxarıldığını, bəzi məqamların isə əlavə edildiyinin şahidi oluruq. İndi qeyd edəcəklərimizə şübhə ilə yanaşılmasın deyə, əhvalatı görkəmli sünni alimi İbn Əbilhədidə istinadən nəql edirik. Bəri başdan bildirək ki, İbn Əbilhədid Səqifə əhvalatını Nəhcül-bəlağəyə yazdığı şərhdə iki yerdə nəql etmişdir. Bunlardan biri iyirmi altıncı xütbədədir. Həmin xütbədə Əmirəl-möminin Əli ibn Əbutalib (ə) xəlifəlik haqqını əlindən alanlara qarşı qiyam etməməsinin səbəbini açıqlayaraq buyurur: "Baxıb gördüm ki, bu işdə ailəmdən başqa heç bir yardımçım yoxdur. Onların (ailə üzvlərimin) öldürülməsini istəmədim. Boğazında sümük, gözündə çöp olan adam kimi səbr etmək qərarına gəldim. Bu böyük haqsızlığa dözməkdən başqa yol görmədim."[1]

Digər bir yerdə isə Əli ibn Əbutalibin(ə) Səqifə əhvalatını eşitdikdə ona öz münasibətini bildirdiyi kəlamının şərhində yazır: "Əgər imam (başçı, xəlifə) ənsardan seçiləsi olsaydı, bunun üçün vəsiyyətə ehtiyac yox idi. Qüreyş (qüreyşdən olanlar)isə Peyğəmbərlə(s) eyni qəbilədən olmasını əsas gətirdi. Onlar ağaca əsaslanır, ancaq ağacın meyvəsini kənara qoyurlar. (Qüreyşə mənsub olmalarını, bununla da Peyğəmbərə(s) yaxın olduqlarını əsas gətirirlərsə, mən ki Peyğəmbərə(s) onlardan da daha yaxın idim."[2]

İbn Əbilhədid yazır: "Əhməd ibn Əbdüləziz Cövhəri "Səqifə" kitabında Sid ibn Kəsir ibn Üfeyr Ənsaridən belə nəql edir ki, Peyğəmbər(s) vəfat etdikdə camaat Bəni-Saidə səqifəsində toplaşıb həzrətin vəfatı barədə danışırdı. Ənsarın başçısı Səd ibn Übadə oğlu Qeysə, ya başqa bir oğluna deyir ki, mən xəstə olduğuma görə ucadan danışa bilmirəm. Sən dediklərimə qulaq as, sonra da camaata de. Beləliklə, Səd ibn Übadə demək istədiklərini cümlə-cümlə oğluna deyir, oğlu da camaata çatdırır. O, Allaha həmd-səna etdikdən sonra belə deyir: "Ay Mədinə camaatı, İslamı qəbul etməkdə başqalarını üstələdiyiniz üçün heç bir qəbilə sizə çata bilməz.

Beləcə İmam on dənə ox atır və hər atılan ox əvvəlki oxun ortasına sancılaraq onu sındırır. Məclisdə iştirak edənlərin hamı heyran qalır. İstəyinə çatmayan Hişam ibn Əbdülməlik özünü sındırmayaraq deyir ki, sən insanlar arasında gördüyüm ən mahir oxatansan. Belə ox atmağı kimdən öyrənmisən? İmam buyurur:Biz Əhli-beyt elm, kamal, mərifət məədəniyik. Din bizimlə kamilləşmiş, nemətlər bizimlə tamamlanmışdır. Biz elm, kamal, mərifəti bir-birimizdən irs aparırıq." Bu əhvalat da ötən səhifələrdə dediklərimizə bariz bir nümunədir.

[1] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-1, s-122

[2] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-2, s-2

Peyğəmbər(s) öz qəbiləsində (Məkkədə) on ildən artıq peyğəmbərlik edib camaatı haqqa dəvət etdi, ancaq çox az insan onun sözünü qəbul etdi. İman gətirənlər də onu qorumaq və dini gücləndirmək iqtidarında deyildilər. Allah-təala sizə böyük bir şərəf nəsib edərək onu (Peyğəmbəri(s)) sizə tərəf göndərdi. Ona iman gətirib din uğrunda çalışmaqla sizi daha da şərəfləndirdi. Siz din düşmənlərinə qarşı olduqca amansız idiniz. Axırda hamı onun gətirdiyi din qarşısında təslim oldu. Allah-təala Öz Peyğəmbərinə(s) verdiyi vədəni sizin vasitənizlə gerçəkləşdirdi və ərəblərin hamısı sizə boyun əymək məcburiyyətində qaldılar. İndi isə Peyğəmbər(s) sizdən razı qaldığı halda aranızdan getmişdir. Onun canişinlik haqqı sizə məxsusdur. Bu işdə səhlənkarlıq etməyin, işləri ələ alın! Buna hamıdan layiq sizsiniz." Səd ibn Übadənin sözləri qurtarcaq mədinəlilər onun fikrini təsdiqləyərək deyirlər: "Çox doğru deyirsən, biz sənin sözündən çıxmarıq. Peyğəmbərin(s) canişini də elə sən özün olmalısan. Sənin imanlı bir şəxs olduğunu hamı bilir. Biz sənin arxandayıq." Bunu deyib öz aralrında məsləhətləşməyə başlayırlar ki, birdən mühacirlər: "Biz İslamı sizdən də qabaq qəbul etmişik, Peyğəmbərlə(s) eyni qəbilədənik və buna görə də onun canişini bizdən olmalıdır."-desələr onlara nə cavab verək? Bəziləri deyirlər: "Onlara cavab verərik ki, onda bir başçı sizdən seçilsin, biri də bizdən. Siz öz başçınıza tabe olun, biz də öz başçımıza. Bundan başqa çıxış yolu yoxdur. Quranda sizin fəzilətiniz barədə deyilənlər bizim barəmizdə də deyilib. Siz hicrət etmək şərəfinə nail olmusunuzsa, biz də Peyğəmbərə(s) və sizə yer vermək şərəfinə nail olmuşuq." Onlar hansı fəzilətləri ilə öyünsələr, biz də ona bənzər fəzilətimizi qeyd edərik. Biz öz haqqımızı onlara verən deyilik. Axır yolu budur ki, onlar bir başçı seçsinlər, biz də bir başçı.

Səd ibn Übadə ənsarın bu sözlərini eşitdikdə deyir ki, bu artıq ilk səhlənkarlığınızdır. (Yəni, onlara qətiyyən güzəştə getməməlisiniz və Peyğəmbərin(s) canişini mütləq bizdən seçilməlidir.)

Mədinəlilərin səqifədə toplandığından, Səd ibn Übadənin dediklərindən və camaatın ona verdiyi cavabdan xəbər tutan Ömər ibn Xəttab dərhal Peyğəmbərin(s) evinə gəlib Əbubəkrin orada olduğunu, Əli ibn Əbutalibin(ə) də Peyğəmbərin(s) qüsl-kəfəni ilə məşğul olduğunu görür.

Səqifədə baş verənləri Ömərə Mən ibn Ədiyy çatdırır. O, Ömərin yanına gəlib əlindən tutaraq deyir ki, qalx. Ömər cavabında deyir ki, indi başqa işim var. Lakin Mən ibn Ədiyy israr edərək onu qaldırıb deyir ki, xeyli mədinəli Bəni-Saidə səqifəsində toplaşmışdır. Səd ibn Übadə də onların arasındadır. Hamı onun ətrafına yığışıb deyir ki, ümidimiz ancaq sənə və övladlarınadır. Xəzrəc qəbiləsinin böyükləri də oradadırlar. Mən fitnə-fəsad yaranacağından qorxuram. Gör bir nə fikirləşirsən. Tez mühacir qardaşlarını da baş verənlərdən xəbərdar et və başınıza bir çarə qılın! Mən bildiyimə görə artıq fitnənin təməli qoyulub, yalnız Allah onun qarşısını kəsə bilər.

Ömər ibn Xəttab bu xəbəri eşitcək çox narahat olub dərhal özünü Əbubəkrə çatdırır. Onun əlindən tutaraq deyir ki, qalx gedək. Əbubəkr Ömərin cavında bildirir ki, Peyğəmbəri(s) dəfn etməmiş hara gedə bilərik? Burax məni, heç yerə gedən deyiləm. Ömər isə israr edərək deyir ki, başqa çarəmiz yoxdur, mütləq getməliyik, gedib yenə qayıdacağıq. Əbubəkr razılaşıb onunla birlikdə Peyğəmbərin(s) evini tərk edir. Ömər baş verənləri ona danışdıqda Əbubəkr narahat olub tez özünü səqifəyə çatdırır. Görür ki, Mədinə böyüklərinin əksəriyyəti oradadır. Xəstə olmasına rəğmən Səd ibn Übadənin də onların arasında olduğunu görür. Ömər ağzını açıb danışmaq istədikdə Əbubəkr onu deyir ki, qoy əvvəlcə mən danışım, sonra sən də istədiyini deyərsən.

Allaha həmd-səna etdikdən sonra sözə başlayan Əbubəkr deyir: "Allah-təala camaatı haqqa hidayət etməkdən ötrü Məhəmmədi(s) peyğəmbər seçdi. O, camaatı İslama dəvət etdi, biz də qəbul etdik. Bizdən sonra başqaları da müsəlman oldular. Biz Peyğəmbərlə(s) eyni qəbilədənik, onun qohumlarıyıq. Əsl-nəsəb baxımından ən üstün qəbilə bizimkidir. Qüreyş qəbilələrin ən üstünüdür.

Siz mədinəlilər də Peyğəmbərin(s) köməkçilərisiniz. Həmişə onun arxasında olmusunuz. Bizim din qardaşlarımız və Quranda deyilən bütün fəzilətlərdə şərikimizsiniz. Bizim üçün hamıdan əzizsiniz. Allahın yazdığına tabe olmaq lazımdır. Sizə Allahın mühacir qardaşlarınıza verdiyi üstünlüyü qəbul etmək yaraşar. Buna hamıdan çox siz layiqsiniz. Hamı bizə həsəd apardığı bir halda siz belə etməzsiniz. Siz bizim çətin anlarımızda hər şeyinizdən keçib bizi özünüzdən üstün tütan insanlarsınız. İndi də dinimizin parçalanmasının qarşısını almaq sizə yaraşar. Bu, Səd ibn Übadə, bu da Ömər ibn Xəttab, hansını istəyirsinizsə, onu da xəlifə seçin! Mən onların hər ikisini xəlifəliyə layiq bilirəm."

Əbubəkrin sözlərinin təsiri altına düşən mədinəlilər deyirlər: "And olsun Allaha, sizə nəsib olmuş şərəfə biz qətiyyən həsəd aparmırıq. Bizim üçün heç kim sizin qədər hörmətli, qiymətli ola bilməz. Ancaq qorxuruq ki, gələcəkdə nə bizdən, nə də sizdən olmayan birisi xilafət başına keçər. Buna görə də sizdən birinə beyət etməyə hazırıq. Bu şərtlə ki, onun vəfatından sonra bizdən biri xəlifə olsun. Onun ardınca yenə sizdən biri xəlifə seçilsin və bu ardıcıllıqla bir dəfə sizdən, bir dəfə də bizdən xəlifə seçilsin. Belə olarsa, ədalət prinsiplərini də qorumuş olarıq."

Əbubəkr yenidən söhbətə başlayaraq deyir: "Allah-təala həzrət Məhəmmədi(s) peyğəmbər göndərərkən ərəblər üçün öz əcdadlarının dinindən əl çəkmək olduqca çətin idi. Buna görə də ona qarşı çıxıb əziyyət verməyə başlayırlar. Belə bir vəziyyətdə ilk mühacirlər Peyğəmbərə(s) iman gətirib onu dəstəkləyirlər. Ona arxa-dayaq olub düşmənləri qarşısında müqavimət göstərirlər. Yer üzərində İslamı qəbul edib Allaha pərəstiş edən ilk insanlar onlar idi. Onlar Peyğəmbərin(s) qohum-əqrəbası olub ondan sonra xəlifəliyə hamıdan layiq insanlardırlar. Onlara qarşı çıxanlar zülmkardır.

Sizə gəldikdə isə mühacirləri çıxmaq şərtilə heç kəs sizin fəzilətinizə çata bilməz. Mühacirlərdən sonra İslamı ilk qəbul edənlər sizsiniz. Elə isə rəhbərlik bizim olsun, müşavirlik sizin. Belə ki, bir iş görmək istədikdə mütləq sizinlə məsləhətləşək. Sizinlə məsləhətləşmədən heç bir iş görmərik."

Bu zaman Həbbab ibn Münzir ibn Cəmuh ayağa qalxaraq deyir: "Ey Mədinə camaatı, öz işinizi başqalarının ixtiyarına buraxmayın! Bilin ki, camaat hamı sizin arxanızdadır, heç kimin sizə qarşı çıxmağa cürəti çatmaz. Peyğəmbər(s) başqa yerə deyil, məhz sizin yanınıza hicrət etdi. Mühacirlərə sığınacaq verən sizlər olmusunuz. "Onlardan (mühacirlərdən) əvvəl (Mədinədə) yurd salmış və (Rəsuluma qəlbən) iman gətirmiş kimsələr..."[1] ayəsi məhz sizin şəninizdə nazil olmuşdur. And olsun Allaha, sizin şəhərinizdən başqa Allaha heç yerdə aşkarcasına itaət edilmədi, sizin məscidlərinizdən başqa heç yerdə camaat namazı qılınmadı, iman sizin qılınclarınızın sayəsində qələbə çaldı. Öz haqqınızı başqasına verməyin! Əgər bunlar (məkkəlilər) sizinlə razılaşmasalar, onda onlar öz başçısı olsun, bizim də öz başçımız."

Söhbətin bu anında Ömər ibn Xəttab sözə başlayaraq deyir: "Əsla, iki qılınc bir qına sığmaz (iki qoçun başı bir qazanda qaynamaz). Peyğəmbər(s) sizdən olmadığına görə ərəblər sizin rəhbərliyinizlə heç vaxt razılaşmazlar. Lakin Peyğəmbərin(s) öz yaxınlarının hakimiyyətini qəbul edərlər. Bu, bizim əleyhimizə çıxanlara qarşı ən önəmli sübutdur. Biz Məhəmmədin(s) qohum-əqrəbası olduğumuz halda kimin nə haqqı var bizimlə onun mirası və hakimiyyət uğrunda mübarizə aparsın? Belə bir adam tapılarsa, deməli, haqdan uzaq düşüb, ya da canını təhlükəyə atıb."

Həbbab ibn Münzir ayağa qalxıb deyir: "Ey Mədinə camaatı, bunun və tərəfdarlarının sözünə qulaq asmayın! Onlar sizin öz haqqınız olan hakimiyyəti əlinizdən almağa çalışırlar. Əgər bununla razılaşmasalar, onları öz şəhərinizdən qovub çıxarın! Hakimiyyət sizin halalca haqqınızdır. İslamı sizin qılıncınızla qəbul edənlərdənsə siz hakimiyyətə daha layiqsiniz! Bundan başqa söz deyənin burnunu öz qılıncımla əzərəm."

Bəşir ibn Səd Xəzrəc qəbiləsindən olub mədinəlilər arasında sayılıb-seçilən şəxslərdən idi. Səd ibn Übadəyə olan həsəd hissinə görə istəmirdi ki, o xəlifə seçilsin. Buna görə də görəndə ki, camaat Səd ibn Übadəyə beyət etmək istəyir, ayağa qalxaraq uca səslə deyir: "Ey mədinəlilər, İslamı qəbul etməkdə başqalarını üstələsək də, cihada başqalarından qabaq getsək də, bunu yalnız və yalnız Allaha və Peyğəmbərinə görə etmişik. Bundan ötrü biz bu dünyada nəsə ummamalı, hakimiyyətə göz dikməməliyik. Məhəmməd(s) Qüreyşdən idi, indi də hakimiyyətə gəlməyə onun qüreyşli əqrəbası daha layiqdir. Mən bu işdə onlara qətiyyən etiraz etmərəm, sizdən Allahdan qorxun və bu işdə onlara qarşı çıxmayın!"

[1] Həşr-9

Elə bu vaxt Əbubəkr yerindən qalxaraq deyir: "Bu Ömər, bu da Əbu Übeydə, hansını istəyirsinizsə, beyət edin!" Lakin həm Ömər, həm də Əbu Übeydə deyir ki, biz səndən qabağa keçən deyilik. Sən mühacirlərin ən yaxşısı, Peyğəmbərin(s) mağara yoldaşı olub onun yerində namaz qılmısan, namaz da dinin sütunudur. Elə isə əlini uzat, sənə beyət edək! Əbubəkr əlini irəli uzadır. Ömərlə Əbu Übeydə ona beyət etməmiş Bəşir ibn Səd irəli yeriyib tez Əbubəkrə beyət edir. Bunu görən Həbbab ibn Münzir deyir ki, Allah sənə lənət eləsin, Bəşir! Sən həmqəbilən Səd ibn Übadəyə olan paxıllığın ucbatından belə etdin.

Xəzrəc qəbiləsinin sayılıb seçilən şəxslərindən Bəşir ibn Sədin Əbubəkrə beyət etdiyini görən Ovs qəbiləsinin başçısı Üseyd ibn Hüzeyr də Səd ibn Übadəyə olan paxıllığı ucbatından tez irəli çıxıb Əbubəkrə beyət edir. O, Səd ibn Übadənin xəlifə seçiləcəyi ilə heç cür barışa bilməzdi. Bunu görən ovsluların hamısı bir-bir gəlib Əbubəkrə beyət edirlər.

Qurani-Kərimin bir yerə toplanılması

Xəlifə seçkisi məsələsi başa çatdıqdan sonra Əli ibn Əbutalib(ə) evdə oturub Qurani-Kərimi bir yerə toplamaqla məşğul olur. Həmin ərəfədə həzrətdən nəql edilmiş bir hədisdə belə deyilir: "And içmişəm ki, Quranı yığıb bir yerə toplamayınca əbamı çiynimə atıb evdən çıxan deyiləm."[1]

Peyğəmbərin(s) vəfatından sonra Quranı bir yerə kimin yığıb toplaması barədə sünni və şiə mənbələrində müxtəlif fikirlər söylənilmişdir. Bu işdə əsasən dörd nəfərin adı hallanır ki, bunlar da Əli ibn Əbutalib, Əbubəkr, Ömər və Salim olmuşlar. Həm şiə, həm də sünni mənbələrində o dəqiq məlumdur ki, bu işə, yəni, Quranın bir yerə toplanılmasına ilk olaraq Əli ibn Əbutalib(ə) başlamışdır. Özü də bunu ona Peyğəmbər(s) vəsiyyət etmişdi. Hər halda sünni mənbələrində də bu işdə Əlinin adı birinci sırada gəlir. Bunu sünni mənbələrində nəql edilmiş hədislər də təsdiqləyir. Suyuti yazır: "İbn Sirinin nəql etdiyinə görə Peyğəmbərin(s) vəfatından sonra Əli buyurub: And içmişəm ki, Quranı yığıb bir yerə toplamayınca, cümə namazından başqa əbamı çiynimə atıb evdən çıxan deyiləm, axır Quranı topladım."[2]

Suyuti bu hədisi nəql etdikdən sonra yazır: "Camaat Əbubəkrə beyət etdikdən sonra Əli evdə oturub eşiyə çıxmırdı. Əbubəkrə dedilər ki, Əli sənə beyət etmək istəmir. Əbubəkr bir nəfəri onun yanına göndərir. Qasid Əlinin yanına gəlib deyir ki, yoxsa Əbubəkrə beyət etmək istəmirsən? Əli onun cavabında buyurdu: Gördüm ki, Allahın kitabında nəsə əlavələr edilir. Ona görə də belə qərara gəldim ki,

[1] Səfinətül-bihar, c-2, s-414
[2] Əl-İtqan, c-1, s-99

namazdan başqa evdən eşiyə çıxmayacaq, oturub Quranı bir yerə toplayacağam. Qasid həzrətin bu cavabını Əbubəkrə çatdırdıqda deyir ki, çox yaxşı iş görür."[1]

İbn Nədim Peyğəmbərin(s) vəfatından sonra neçə gün evdə oturduğunu, Quranı neçə günə yığıb bir yerə topladığını konkret olaraq qeyd etmişdir: "Peyğəmbərin (s) vəfatından sonra Əli ibn Əbutalib(ə) evdə oturub and içir ki, Quranı bir yerə toplamayınca evdən eşiyə çıxan deyil. O, üç gün evdən eşiyə çıxmadı və bu müddət ərzində Quranı bir yerə toplamağı bacardı. O, ilk mükəmməl Quran olmuşdur və indi o kitab Cəfər ailəsinin yanındadır."[2] "Əl-Məsahif" kitabında da buna bənzər bir hədis nəql edilmişdir. Əksər sünni mənbələrində də bu həqiqət öz əksini tapmışdır.

Quranın Əli ibn Əbutalib(ə) tərəfindən bir yerə toplanılmasına dəlalət edən hədislər şiə mənbələrində kifayət qədərdir. İndi maraqlananlar üçün həmin hədislərdən bir neçəsini diqqətinizə çatdırırıq.

"Şərhu-Kafi" əsərində Mövla Saleh Qəzvini nəql edir ki, Əli ibn Əbutalib(ə) Peyğəmbərin(s) vəfatından sonra evdən çölə çıxmayıb Quranı bir yerə toplamaqla məşğul olub ayələri nazil olduğu ardıcıllıqla sıralayır.[3]

Mühəddis Nuri Quranı ilk toplayan şəxsin Əli ibn Əbutalib(ə) olması haqqında xeyli sayda hədis qeyd etmişdir. Həmin hədislərdən birində deyilir: " Peyğəmbərin(s) vəfatından sonra Əli ibn Əbutalib(ə) evdən çölə çıxmayıb Quranı bir yerə toplamaqla məşğul olur və bunu bacarır. Quranı toplayıb başa vurduqdan sonra onu hakim dairələrə təqdim edərək buyurur ki, bu, Allahın kitabıdır. Peyğəmbərə(s) nazil olduğu ardıcıllıqla yığmışam onu, nə bir hərfi azalıb, nə də bir hərf artırılıb.

Mühəddis Qummi yazır ki, Peyğəmbərin(s) vəfatından sonra Əli ibn Əbutalib(ə) belə buyurmuşdur: "And içmişəm ki, Quranı yığıb bir yerə toplamayınca, əbamı çiynimə atıb evdən çıxan deyiləm."

Əmirəl-möminin Əli ibn Əbutalib(ə) Peyğəmbərin(s) vəsiyyətinə əsasən Quranı bir yerə toplayır. Əbubəkr Həzrəmi İmam Sadiqdən(ə) belə nəql etmişdir: "Peyğəmbər (s) Əliyə (ə) buyurur ki, Quran müxtəlif ipək parçalarda, dərilərdə başımın altındadır. Məndən sonra onu bir yerə toplayın, yəhudilər Tövratı itirib batırdıqları kimi, siz Quranı itib batmağa qoymayın!" Əli onları (müxtəlif parçalarda, dərilərdə olan Quran ayələrini) sarı parçaya büküb möhürləyərək öz evinə aparır. Sonra da buyurur ki, bu Quranı bir yerə yığıb toplamayınca çiynimə əba atıb evdən eşiyə çıxan deyiləm.[4]

---

[1] Əl-İtqan, c-1, s-99-100

[2] Bəlkə də İbn Nədim Cəfər ailəsi dedikdə İmam Cəfər Sadiqi(ə) nəzərdə tutur. (Əl-Fihrist, s-41-42)

[3] Tarixul-Quran, s-58-59

[4] Təfsiri Safi, c-1, s-24; Tarixul-Quran, s-54

Əli ibn Əbutalib (ə) camaatı doğru yola yönəldir

Əli ibn Əbutalib (ə) Peyğəmbərdən sonra camaatı düz yola yönəltməkdə, qarşılarına çıxan suallara cavab verməkdə, onlara dini maarifi öyrətməkdə əlindən gələni edir, bunu özünə bir borc hesab edirdi. Tez-tez xəlifələr özləri də ona müraciət edərək məsləhətlər alır, bilmədiklərini öyrənirdilər. Əli(ə) də məmnuniyyətlə onlara cavab verib tövsiyələrini bildirirdi. İndi nümunə üçün xəlifələrin Əliyə(ə) etdiyi bəzi müraciətləri xronoloji ardıcıllıqla diqqətinizə çatdırırıq.

1. Əbubəkrin xəlifəliyi dövründə

Bütün sünnü alimləri elə hesab edirlər ki, Əbubəkr mühüm işlərdə həmişə Əli ibn Əbutaliblə (ə) məsləhətləşmiş, onun tövsiyələrinə əməl etmişdir. O, yürüşlərdə Əlinin (ə) mücahidlərə qoşulub Mədinədən çıxmasına razı olmurdu, çünki istənilən an ona ehtiyac duyurdu.[1]

1) "İhqaqul-həqq" kitabında Ənəs ibn Malik belə nəql etmişdir ki, Əbubəkrin xəlifəliyi dövründə bir yəhudi kişi gəlib deyir ki, mən Peyğəmbərin(s) canişini ilə görüşmək istəyirəm. Onu Əbubəkrin yanına gətirdikdə yəhudi soruşur ki, Peyğəmbərin(s) canişini sənmisən?

Əbubəkr: Bəli, mənəm Peyğəmbərin (s) canişini. Görmürsən ki, onun minbərində oturmuşam?

Yəhudi kişi: Elə isə sənə bir neçə sual verəcəyəm.

Əbubəkr: Nə istəyirsən, soruş.

Yəhudi: O nədir ki, Allahda yoxdur? O nədir ki, Allahın yanında deyil? O nədir ki, Allah onu bilmir?

Əbubəkr: Ey yəhudi, bu, zındıq və dinsizlərin sualıdır.

Lakin İbn Abbas irəli çıxıb camaatın qarşısını kəsir, üzünü Əbubəkrə tutaraq deyir ki, bununla insafla rəftar edin!

Əbubəkr: Onun nə dediyini eşitmədin?

İbn Abbas: Verəcək bir cavabın varsa, de, yoxdursa, burax onu, qoy hara istəyir çıxıb getsin.

Yəhudi kişi gedə-gedə deyirdi: Haradadır Peyğəmbər? Haradadır onun canişini?

İbn Abbas onun ardınca gəlib soruşur ki, nə istəyirsən? Dərdin nədir? Gəl səni elm mədəninə aparım, gəl gedək Əli ibn Əbutalibin evinə!

Ənəs ibn Malik deyir ki, Əbubəkrlə digər müsəlmanlar da yəhudinin ardınca gəlib yolda ona çatırlar. Onu Əlinin (ə) yanına aparırlar. Evə çatdıqda icazə alıb içəri daxil olurlar. Evdə böyük izdiham var idi. Bəziləri gülür, bəziləri isə ağla-

[1] Ət-Təbəqatul-Malikiyyə, c-2, s-41

yırdı. Əbubəkr sözə başlayıb deyir: Ey Əbutalibin oğlu, bu yəhudi məndən zındıq və dinsizlərin verdiyi sualı soruşur. Əli(ə) üzünü yəhudiyə tutaraq soruşur ki, nə deyirsən, ey yəhudi? Yəhudi Əbubəkr və digər müsəlmanları göstərərək deyir: Sualımı verdikdən sonra sən də mənimlə bunlar kimi rəftar edəcəksən?

Əli(ə): Məgər bunlar səninlə necə rəftar ediblər ki?

Yəhudi: Az qalmışdı məni öldürsünlər.

Əli(ə): Əsas məsələyə keç, sualın nədir?

Yəhudi: Mənim sualıma Peyğəmbərdən (s), ya da onun canişinindən başqa heç kim cavab verə bilməz.

Əli(ə): Sən sualını ver, istədiyini soruş.

Yəhudi: Onda de görüm o nədir ki, Allahda yoxdur? O nədir ki, Allahın yanında deyil? O nədir ki, Allah onu bilmir?

Əli(ə): Yəhudi qardaş, sualına bir şərtlə cavab verərəm.

Yəhudi: Şərtin nədir?

Əli(ə): Şərtim odur ki, cavab versəm İslamı qəbul edib müsəlman olasan.

Yəhudi: Yaxşı, mən razıyam.

Əli(ə): O ki, qaldı sualına, Allahda olmayan şey zülm və haqsızlıqdır.

Yəhudi: Bəli, düz deyirsən.

Əli(ə): Allahın yanında olmayan şey Onun arvadı, uşağı və şərikidir. Çünki Onda belə şeylər yoxdur.

Yəhudi: Bəli, düz deyirsən.

Əli (ə): Allahın bilmədiyi şey də Onun arvadı, uşağı və şərikidir. Çünki belə şeylər yoxdur ki, Allah da bilsin. Allah istədiyi hər şeyə qadirdir.

Bu vaxt yəhudi kişi Əliyə(ə) deyir ki, uzat əlini sənə beyət edim. Mən şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur. Məhəmməd Onun elçisi və Peyğəmbəridir. Sən də Məhəmmədin haqq canişini, elminin varisisən.

Orada olanlar yəhudinin dediklərini eşidib ah-nalə etməyə, ağlamağa başlayırlar. Əbubəkr isə deyir ki, Əli, sən bütün çətinlikləri həll edir, problemləri aradan qaldırırsan. Bunu deyib məscidə gəlir, minbərə qalxıb camaata deyir ki, Əli aranızda ola-ola məndən əl çəkin!

2) Şeyx Mufid "əl-İrşad" əsərində yazır: "Yəhudi başçılarından biri Əbubəkrin yanına gəlib soruşur ki, bu ümmətin peyğəmbərinin canişini sənmisən? Əbubəkr: "Bəli"– deyə cavab verir. Bunu eşidən yəhudi başçısı deyir ki, Tövratda yazıldığına görə peyğəmbərlərin canişinləri ümmətin ən bilikli adamları olurlar. Elə isə onda mənə de görüm Allah-təala haradadır? Göydədir, yoxsa yerdə?

Əbubəkr: Əlbəttə ki, Allah-təala göydə və ərşdədir.

Yəhudi başçısı: Deməli, belə çıxır ki, yerdə Allah yoxdur. Sənin sözündən belə başa düşmək olar ki, bəzi yerlərdə Allah var, bəzi yerlərdə isə yoxdur.

Əbubəkr: Bu, zındıq və dinsizlərin sözüdür. Mənim yanımdan uzaqlaş, yoxsa bu saat öldürərəm səni.

Yəhudi başçısı Əbubəkrin təhdidindən təəccüblənərək onun yanından uzaqlaşır. Gedərkən İslam dinini məsxərə də edir. Yolda Əmirəl-möminin Əli ibn Əbutaliblə(ə) rastlaşır. Əli(ə) baş verənlər haqqında ona danışdıqdan sonra buyurur: Bizim əqidəmizə görə məkanın özünü də Allah yaratmışdır. Deməli, Onun əslində heç məkana ehtiyacı yoxdur. O, hər yerdədir və konkret bir yer Onu əhatə edə bilməz. Heç bir şey Onun əhatə dairəsindən kənar deyil. İndi mən dediklərimin sübutu olaraq sənə öz kitablarınızdan birindən dəlil gətirəcəyəm. Belə olan halda sən iman gətirərsənmi?

Yəhudi: Bəli, iman gətirərəm.

Əli(ə): Sizin kitablardan birində deyilir ki, bir gün Musa peyğəmbər haradasa əyləşmişdi. Bu vaxt onun yanına məşriqdən bir mələk gəlir. Musa(ə) onun haradan gəldiyini soruşduqda mələk cavab verir ki, Allahın yanından gəlirəm. Sonra məğribdən bir mələk gəlir. Musa(ə) ondan da haradan gəldiyini soruşur və həmin mələk də birinci mələyin cavabını verir. Daha sonra başqa bir [1]mələk Musanın(ə) yanına gəlib yeddinci səmadan gəldiyini bildirdikdə Musa(ə) buyurur: Hər yerdə olan Allah pak və müqəddəsdir!

Yəhudi: Şəhadət verirəm ki, dediklərin haqdır və ona da şəhadət verirəm ki, sən Peyğəmbərin(s) canişini olmağa indi onun yerində oturandan daha layiqsən.

4) İbn Şəhraşub "Mənaqib" əsərində yazır ki, iki xaçpərəst kişi Əbubəkrin yanına gəlib soruşurlar ki, sevgi ilə nifrət və yalan yuxu ilə doğru yuxu arasında nə fərq var? Əbubəkr Öməri onlara göstərərək bu suala onun cavab verəcəyini bildirir. Lakin Ömər də onları Əli ibn Əbutalibin(ə) yanına yollayır. Xaçpərəstlər Əlinin(ə) yanına gəlib sualı təkrar edirlər. Əli(ə) onların cavabında buyurur: "Allah-təala insanların ruhunu bədənlərindən iki imin il qabaq xəlq etmişdir. O vaxtdan etibarən ruhlar havada qərar tutmuşlar. Orada ruhlar bir-biri ilə tanış olub dostlaşırlar. Orada tanış olmayan ruhlar burada da tanış deyillər. Tanış olan ruhlar bir-birini sevir, tanış olmayanlar isə bir-birinə nifrət edirlər.

Sonra xaçpərəstlər yaddaş və unutma haqqında soruşurlar. Əli(ə) onların cavabında buyurur ki, Allah-təala insanı xəlq etdikdən sonra onun qəlbində bir oyuq qoyur. Həmin oyuq açıq olarkən insanın qəlbindən keçənlərin hamısı onun yadında qalır, oyuq bağlı olduqda isə onun qəlbindən keçənlər yadında qalmır.

Daha sonra xaçpərəstlər həzrətdən yalan və doğru yuxular haqqında soruşurlar. Həzrət buyurur: "Allah-təala insanın ruhunu yaratdıqdan sonra nəfsi onun üçün hakim təyin edir. İnsan yatdıqda ruh bədənindən çıxır, nəfs isə bədənində

[1] Əl-İrşad, c-1, s-192

qalır. Yuxuda olarkən ona bəzi mələklər və cinlər görünür. Doğru olan yuxular mələklərdən, yalan olanlar isə cinlərdəndir.

Bu cavabları eşidən iki xaçpərəst kişi İslam dinini qəbul edirlər. Onlar Əlinin(ə) hakimiyyəti dövründə Siffeyn döyüşündə şəhid olurlar.[1]

2. Ömərin xəlifəliyi dövründə

Çətin məsələlərin həlli üçün Ömərin Əli ibn Əbutalibə(ə) müraciət etdiyi məqamlar həddindən artıq çox olmuşdur. Deyilənlərə görə o, Əli(ə) ilə məsləhətləşmədən heç bir iş görməzmiş. Çünki Əlinin(ə) çox tədbirli olmasına inanırdı. Təsadüfi deyil ki, Ömər: "Əli olmasaydı, Ömər həlak olardı"-ifadəsini yetmiş dəfədən çox təkrar etmişdir.[2] Və yaxud həmişə deyərdi: "Əlinin həll etmədiyi müşküldən Allaha pənah aparıram."[3]

Əli ibn Əbutaliblə(ə) məsləhtləşdikdə o, heç vaxt öz tövsiyələrini əsirgəməz, lazımi məsləhətlərini verərdi. O Həzrətin Ömərə verdiyi məsləhətləri, onun xəlifəliyi dövründəki mühakimələrini qeyd etmək üçün ayrıca kitab yazılmalıdır. Biz burada sadəcə olaraq belə məqamlardan onunu diqqətinizə çatdırırıq.

1) İndi qeyd edəcəyimiz əhvalat ondan çox sünni mənbələrində, o cümlədən Sunəni kubra, Zəxairul-uqba, Təfsiri Neyşaburi, Təfsir Fəxr Razi, Mənaqibi Xarəzmi əsərlərində nəql edilmişdir. Əhvalat belə olmuşdur. Əbu Əsvəd Duəli nəql edir ki, qarnındakı uşağı altı aya dünyaya gətirmiş bir qadını Ömərin yanına gətirirlər. Ömər qadının zına etdiynə qərar verərək onun daşqalaq edilməsi barədə hökm çıxarır. Qadının bacısı narahat halda özünü Əli ibn Əbutalibin(ə) yanına çatdıraraq əhvalatı ona danışır. Əli(ə) Ömərin yanına gələrək bildirir ki, qadın haqqında daşqalaq hökmü çıxarılmamalıdır. Ömər bunun səbəbini soruşduqda Həzrət buyurur ki, Allah-təala Quranda bir yerdə buyurur: "Analar uşaqlarını əmizdirmə müddətini tamamlatmaq istəyən (atalar üçün) tam iki il əmizdirsinlər."[4] Başqa bir ayədə isə buyurur: "...Onun (insanın ana bətnində) daşınma və (süddən) kəsilmə müddəti otuz aydır..."[5] Bu iki ayəyə istinad edib deyə bilərik ki, uşağın ana bətnində olması və südəmərlik dövrü ümumilikdə otuz ayadək davam edirsə və yalnız südəmərlik müddətinin iki il olduğu göstərilirsə, deməli, hamiləlik müddəti altı ay da ola bilər. Bunu eşidən Ömər qadını azad edir, sonra da deyir ki, Əli olmasaydı, Ömər həlak olardı. İbn Couzi isə belə nəql edir ki, Ömər bu vaxt belə deyir: "İlahi, məni Əbutalibin olmayacağı müşkül işlə üzləşdirmə!"[6]

---

[1] Mənaqibi İbn Şəhraşub, c-2, s-357
[2] İhqaqul-həqq, c-8, s-182
[3] İhqaqul-həqq, c-8, s-193
[4] Bəqərə-233
[5] Əhqaf-15
[6] Əl-Qədir, c-6, s-93-94; İhqaqul-həqq, c-8, s-185-186

2) Əli Müttəqi "Kənzül-ümmal" əsərində(c-1, s-154) Müsnədi Əhməd kitabına istinadən Əbu Zübyandan belə nəql edir: "Bir qadın zina etmişdi. Onu Ömərin yanına gətirirlər. Ömər qadının daşqalaq edilməsinə hökm çıxarır. Qadını daşqalaq etməkdən ötrü apararkən yolda Əli ibn Əbutaliblə(ə) rastlaşırlar. Əli(ə) onlardan əhvalatı maraqlanıb qadını hara apardıqlarını öyrəndikdə dərhal qadını buraxmalarını əmr edib özü isə birbaşa Ömərin yanına gəlir. Ömər ondan nəyə görə qadını buraxdığını soruşduqda Həzrət buyurur: "Bu qadın ruhi xəstə olduğuna görə ona şəriət hökmlərini tətbiq etmək olmaz. Peyğəmbər(s) buyurub ki, üç nəfərə şəriət hökmlərini aid etmək olmaz. Biri yatmış insan, digəri həddi-büluğa çatmayan uşaq, üçüncüsü də ruhi xəstə." Bunu eşidən Ömər dərhal deyir ki, Əli olmasaydı, Ömər həlak olardı.[1]

3) Şeyx Mufid "əl-İrşad" əsərində yazır: "Bir gün hamilə bir qadın zina edir. Onu Ömərin yanına gətirdikdə Ömər qadının daşqalaq edilməsi haqqında hökm çıxarır. Əli(ə) bunu eşidən kimi Ömərin yanına gəlib buyurur: Tutaq ki, bu qadın həqiqətən də zina edib və buna görə də daşqalaq edilməlidir. Bəs onun qarnındakı körpənin nə günahı var? Məgər Allah-təala buyurmayıb ki, heç bir günahkar başqasının günahını daşımaz?[2] Bunu eşidən Ömər deyir ki, Allah məni, həllində Əbutalibin oğlunun iştirak etməyəcəyi bir müşküllə üzləşdirməsin!

Ömər daha sonra üzünü Əli ibn Əbutalibə(ə) tutaraq soruşur ki, bəs bu qadını neyləyək? Əli(ə) cavabında buyurur ki, onu doğuşa qədər gözlə, doğub uşaq üçün bir dayə tutduqdan sonra onu öz cəzasına çatdır! Beləliklə də Ömər həmin qadının taleyindən arxayın olub Əlinin(ə) buyurduğu kimi əməl edir.[3]

4) İbn Şəhraşub "Mənaqib" əsərində İmam Rzadan(ə) belə nəql etmişdir: "Bir nəfər Ömərin yanına gəlib ənsardan birinin oğlunu öldürdüyünü etiraf edir. Ömər də qətlə yetirilən şəxsin atasını çağırtdırıb qatili ona təhvil verir ki, oğlunun qisasını alsın. Öldürülən şəxsin atası qatili evinə gətirib ona iki qılınc zərbəsi vurur. Öldüyünü zənn edərək onu bir kənara atır. Qatilin qohumları onun ölmədiyini, yaralı olduğunu görüb tez evlərinə apararaq müalicə edirlər. Altı aydan sonra o sağalıb ayağa qalxır.

Öldürülən şəxsin atası onu görən kimi tutub Ömərin yanına gətirir. Ömər də onu yenidən həmin şəxsə təhvil verir ki, aparıb yenidən oğlunun qisasını alsın. Qatil tez özünü Əli ibn Əbutalibə(ə) çatdırıb onu əhvalatdan xəbərdar edir. Əli(ə) Ömərin yanına gələrək buyurur:Bu nə hökmdür çıxarmısan?

Ömər: Mən onun barəsində qisas hökmü çıxarmışam.

Əli(ə): Məgər o, qətlə yetirdiyi şəxsi bir dəfə öldürməyib?

Ömər: Bəli.

---

[1] Əl-Qədir, c-8, s-97

[2] Fatir-18

[3] Əl-İrşad, s-194

Əli (ə): Ondan qisas alınıbmı?

Ömər: Bəli, ancaq o ölməyib.

Əli (ə): Nə olsun? Axı ondan ikinci dəfə qisas almaq olmaz.

Ömər: Onda bu məsələdə sən hökm çıxart!

Əli (ə) qətlə yetirilən şəxsin atasına buyurur: Sən ondan bir dəfə qisas almalı deyildinmi?

- Bəli, elədir, ancaq mənim oğlumun qanı da yerdə qalası deyil axı!

- Məgər o sənin oğlunu bir dəfə öldürməyib?

- Elədir, amma axı o ölməyib.

- Bunun bircə yolu var. O da budur ki, əvvəlcə gərək o səndən öz qisasını alsın, buna görə də sənə iki qılınc zərbəsi endirməlidir. Yalnız bundan sonra sən ondan yenidən öz oğlunun qisasını ala bilərsən.

- Axı bu, mənim ölümümlə nəticələnə bilər! Bunun başqa bir yolu yoxdurmu?

- Xeyr, başqa yol yoxdur. Mütləq o da səndən öz qisasını almalıdır.

- Mən öz oğlumun qanından keçib onu bağışlayıram, bu şərtlə ki, o da öz haqqından keçsin.

Əli (ə) onların arasındakı razılaşma barədə yazılı bir sənəd hazırlayıb hər iki tərəfə verir. Beləliklə, bu problemli məsələ də öz həllini tapır. Bunu görən Ömər əllərini Allahın dərgahına qaldıraraq deyir: "Həmd olsun Allaha, siz mərhəmət mədənisiniz, ey Əbülhəsən! Əgər Əli olmasaydı, Ömər həlak olardı."[1]

5) "İhqaqul-həqq" kitabında Ənəs ibn Malikdən belə nəql edilmişdir: "Nəcran keşişinin başçılığı ilə Mədinəyə bir xaçpərəst nümayəndə heyəti gəlir. Nümayəndə heyəti gətirdiyi cizyə vergisini xəlifəyə verməkdən ötrü Ömərin yanına gedir. Ömər onları İslama dəvət edir. Nəcran keşişi deyir: "Siz deyirsiniz ki, Cənnətin eni göylərin və yerin eni bərabərindədir. Əgər belədirsə, bəs onda Cəhənnəm haradadır? "Ömər ona cavab verə bilməyib susur. Orada olanlar Ömərə deyirlər ki, ey Əmirəl-möminin, ona elə bir cavab ver ki, İslamı və müsəlmanları qınamasın. Ömər utandığından başını aşağı salır bir müddət bu vəziyyətdə qalır. Elə bu vaxt Əli(ə) məscidə daxil olur. Onun gəlişini görən kimi hörmət əlaməti olaraq hamı ayağa qalxır. Ömər də ayağa qalxaraq deyir ki, gör bir bu keşiş öz sualı ilə bizi necə aciz qoyub?! Tez onun cavabını ver, siz əsl iman və elm mədənisiniz. Əli(ə) əyləşərək keşişə sualını təkrar etməsini bildirir. Keşiş deyir: Siz deyirsiniz ki, Cənnətin eni göylərin və yerin eni bərabərindədir. Əgər belədirsə, bəs onda Cəhənnəm haradadır?

Əli (ə): Elə isə onda sən mənə de görüm gecə olarkən gündüz necə olur?

Keşiş: (Öməri göstərərək) Ey cavan, qoy bu sərt və qaba adamdan soruşum. De görüm o hansı yerdir ki, oraya cəmi bircə dəfə günəş işığı düşüb?

[1] Mənaqibi İbn Şəhraşub, c-2, s-365-366

Ömər: Məni bir kənara qoy, suallarını bu cavana ver! Ey Əbülhəsən, ver onun cavabını!

Əli (ə): O yer Allah-təalanın Musa peyğəmbər və tərəfdarlarının keçməsi üçün yardığı Nil çayının arasıdır. O vaxta qədər oraya bircə dəfə də olsun günəş işığı dəyməmişdi, heç ondan sonra da dəymir.

Keşiş: Düz deyirsən. Onda de görüm o nədir ki, camaat ondan nə qədər götürsə də, yenə azalmır, əksinə, daha da artır?

Əli (ə): O, Quran və elmdir.

Keşiş: Düz deyirsən. İndi de görüm Allahın göndərdiyi, özü də nə insanlardan, nə də cinlərdən olmayan ilk elçi kim olub?

Əli(ə): Allahın göndərdiyi ilk elçi bir qarğa olub. Qabil Habili öldürdükdən sonra onun nəşini nə edəcəyini bilmədiyi üçün Allah-təala iki mələyi qarğa cildində onun yanına göndərir. Qarğalardan biri digərini öldürür, sonra da torpağı qazıb onu basdırır. Bu yolla o, Qabilə başa salır ki, qardaşının nəşini nə etməlidir.

Keşiş: Düz deyirsən. Daha bir sualım qalıb. (Ömərə işarə edərək:) İcazə ver bunu ondan soruşum. De görüm indi Allah haradadır?

Ömər onun bu sualından qəzəblənir. Əli(ə) onun qəzəbləndiyini görcək buyurur ki, özünü ələ al, qoy elə fikirləşməsin ki, cavabını bilmirsən. Buna görə də Ömər deyir ki, onda cavabını sən ver, ey Əbülhəsən.

Əli (ə): Bir gün Peyğəmbərin (s) yanında oturmuşdum. Birdən bir mələk o Həzrətin yanına gəlib salam verir. Həzrət salamın cavabını verib mələkdən haradan gəldiyini soruşur. Mələk cavab verir ki, Allahın yanından gəlirəm-yeddinci səmadan. Bir qədər sonra başqa bir mələk gəlib salam verir. Həzrət salamın cavabını verib ondan da haradan gəldiyini soruşur. Mələk cavab verir ki, Allahın yanından gəlirəm-yerin yeddinci qatından. Bir qədər keçdikdə üçüncü mələk gəlib salam verir. Peyğəmbər (s) onun da cavabını verib haradan gəldiyini soruşur. O da cavab verir ki, Allahın yanından gəlirəm-günbatandan. Deməli, Allah-təala hər yerdədir, Onun əhatə dairəsi hər yeri ehtiva edir.

Bu sözləri eşidən keşiş Əliyə(ə) deyir ki, əlinin uzat sənə beyət edim! Şəhadət verirəm ki, Allahdan başqa tanrı yoxdur, Məhəmməd Onun bəndəsi və peyğəmbəri, sən isə onun haqq canişinisən. Bu sərt kişi onun canişini olmağa layiq deyil, sən bu məqama daha layiqsən! Əli(ə) bu sözləri eşidib gülümsəyir.[1]

6) Hafiz Kənci "Kifayə" əsərində (s-96), İbn Səbbaq da "əl-Fusulul-muhimmə" əsərində (s-18) Hüzeyfə ibn Yəmanın dilindən belə nəql etmişlər: "Bir gün Ömər ibn Xəttab küçədə mənimlə rastlaşıb halımı xəbər aldı. Cavab verdim ki, necə olmalıyam?! And olsun Allaha, haqqı sevmir, fitnəni sevir, görmədiyim şeyə şəhadət verir və dəstəmazsız namaz qılıram. Yerdə mənim elə şeylərim var ki, göydə

[1] İhqaqul-həqq, c-8, s-234-235

Allahın elə şeyləri yoxdur. Ömər bu sözləri eşidib bərk qəzəblənir, dərhal məndən aralanıb çıxıb gedir. Yolda Əli ibn Əbutaliblə rastlaşır. Əli onun qəzəbli olduğunu görüb soruşur ki, səni belə narahat edən nədir?

Ömər: Hüzeyfə ibn Yəmanı görüb halını soruşdum, cavab verdi ki, halım necə olmalıdır, mən haqqı sevmirəm.

Əli(ə): Doğru deyib, o, ölümü sevmir, ölüm də haqdır.

Ömər: Dedi ki, fitnəni sevirəm.

Əli(ə): Doğru deyib, o, mal-dövləti, arvad-uşağı çox istəyir. Allah-təala da mal-dövləti, arvad-uşağı dünya həyatının fitnəsi adlandırmışdır.

Ömər: Dedi ki, görmədiyi şeyə şəhadət verir.

Əli(ə): Doğru deyib, o, Allahın təkliyinə, ölümə, qiyamətə, Cənnətlə-Cəhənnəmə, ölülərin diriləcəyinə şəhadət verir. Halbuki bunların heç birini öz gözü ilə görməyib.

Ömər: Dedi ki, dəstəmazsız namaz qılır.

Əli(ə): Doğru deyib, Peyğəmbərə salam və salavat göndərmək namaz qılmaq kimi bir şeydir və bunu dəstəmazsız da etmək olar.

Ömər: Ey Əbülhəsən, dedikləri təkcə bunlarla bitmir.

Əli: Daha nə deyir?

Ömər: Deyir yerdə onun elə şeyləri var ki, göydə Allahın elə şeyləri yoxdur.

Əli(ə): Doğru deyib, yerdə onun arvad-uşağı var, ancaq Allah belə şeylərdən uzaq və pakdır.

Ömər bunları eşitdikdən sonra deyir ki, Əbutalibin oğlu Əli olmasaydı, az qalmışdı həlak olam.[1]

7) Şeyx Mufid "əl-İrşad" əsərində yazır: " Ömər ibn Xəttaba xəbər çatır ki, iranlılar müsəlmanlara qarşı hücuma hazırlaşırlar. Tez məscidə gəlib camaatı da ətrafına toplayır. Minbərə qalxıb deyir ki, camaat, İslam hökuməti təhlükə qarşısındadır, iranlılar bizə hücum etməyə hazırlaşırlar. Nə deyirsiniz? Məsləhətlərinizi verin! Təlhə ayağa qalxaraq deyir: "Ey Əmirəl-möminin, sən çox çətinliklər görmüsən, çətin sınaqlardan başıuca çıxmısan. Öz işində sənə nəsə deməyə ehtiyac yoxdur, necə məsləhət görürsənsə, elə də et!" Təlhənin sözü başa çatan kimi Ömər yenə də üzünü müsəlmanlara tutaraq deyir ki, məsləhətlərinizi verin, deyin görək nə edək! Bu vaxt Osman ibn Əffan ayağa qalxıb Allaha həmd-səna etdikdən sonra deyir: "Ey Əmirəl-möminin, mən belə hesab edirəm ki, Şam və Yəmən camaatını buraya çağırtdırıb özün də Məkkə və Mədinə əhalisi ilə birlikdə hərəkətə keçəsən. Sonra Bəsrə və Kufə camaatını da özünüzə qatıb iranlılara qarşı vuruşasan. Mənim fikrimcə özün də bu döyüşdə iştirak etməlisən. Çünki əgər ərəblər bu döyüşdə məğlub olub qırılsa, daha sən kimə xəlifəlik edəcəksən? Ona görə də gərək özün

[1] Əl-Qədir, c-6, s-105-106; İhqaqul-həqq, c-8, s-188

bu döyüşdə şəxsən iştirak edəsən.” Bunu deyib Osman da sözünü başa çatdırır. Lakin Ömər ibn Xəttab yenə də müsəlmanlara müraciət edərək məsləhət vermələrini istəyir. Əli ibn Əbutalib(ə) sözə Allaha həmd-səna edib Peyğəmbərə(s) salam-salavat göndərdikdən sonra sözə başlayır: “Əgər Şam əhalisini döyüşə səsləsən, onlarla həmsərhəd olan bizanslılar fürsətdən istifadə edib onların ailələrini əsir götürəcək, mal-dövlətlərini də qarət edəcək. Əgər Yəmən camaatını döyüşə çağırsan, onda həbəşlər də onların ailələrinə hücuma keçəcək. Bütün Məkkə və Mədinə əhalisini döyüşə aparsan, ətraf qəbilələr də sənə qarşı çıxacaqlar. Özün də Mədinədə olmadığına görə fikrin onların yanında qalacaq. Bu da sənə döyüşə istədiyin kimi nəzarət etməyə imkan verməyəcək.

Düşmənin çoxluğuna görə də narahat olmağa dəyməz. Biz Peyğəmbər (s) vaxtında ordunun say çoxluğuna arxalanıb döyüşmürdük, həmişə Allahın köməyinə arxalanırdıq. Onu da bil ki, Allah-təala Öz dinini mütləq düşməndən qoruyacaq, bundan ötrü sən narahat olma! O ki qaldı sənin özünün bu döyüşdə iştirak etməyinə, mən bunu qətiyyən məsləhət görmürəm. Çünki düşmən səni gördükdə deyəcək ki, bu kişi ərəblərin bir nömrəli adamıdır, buna görə də səni öldürməyə və bununla da ordumuzu məğlub etməyə daha çox səy göstərəcəklər. Mən belə məsləhət görürəm ki, Şam, Yəmən, Məkkə və Mədinə camaatının hamısını döyüşə aparma! Bəsrə camaatına da xəbər göndər ki, üç hissəyə bölünsünlər. Bir dəstəsi arvad-uşağı qorumaqdan ötrü Bəsrənin özündə qalsın, bir dəstəsi zimmi kafirlərdən göz-qulaq olsun ki, məbada bizə qarşı hərəkətə keçələr, bir hissəsi də buradan gedəcək orduya qoşulub düşmənlə vuruşsun.” Ömər ibn Xəttab bu fikri bəyənərək deyir ki, bəli, ən doğru qərar elə budur! Mən sənin məsləhətinə qulaq asacağam.[1]

8) İbn Şəhraşub “Mənaqib” əsərində Təmam ibn Həzam Əsədiyə istinadən belə nəql edir: “Ömərin xəlifəliyi dövründə biri oğlan, digəri isə qız doğmuş iki qadın oğlan uşağına görə mübahisə edirlər. Hər ikisi oğlan uşağının onunku olduğunu iddia edir. Vəziyyətin çıxılmaz olduğunu görən Ömər deyir ki, müşkülləri həll edən Əbülhəsən haradadır? Bir nəfər göndərib Əli ibn Əbutalibi(ə) çağırtdırırlar. Əli(ə) gəlib vəziyyətin nə yerdə olduğunu öyrəndikdə eyni ölçüdə iki şüşə qab gətirilməsini tələb edir. Qabların hər birini qadınlara verib tapşırır ki, hər ikisi qaba südlərindən eyni ölçüdə töküb gətirsinlər. Sonra isə içərisində süd olan hər iki qabı ölçüb görür ki, qablardan biri nisbətən ağırdır. Əli(ə) buyurur ki, oğlan uşağı südü ağır gələn qadınındır. Ömər təəccüblənərək soruşur ki, ya Əli, bunu nədən bildin? Həzrət cavab verir ki, Allah-təala buyurub kişinin payı qadınınkının iki bərabəri qədərdir.[2]

[1] Əl-İrşad, c-1, s-198-201

[2] Mənaqibi İbn Şəhraşub, c-2, s-367

Çağdaş dövrümüzdə tibb elminin nümayəndələri həqiqətən də belə qənaətə gəlmişlər ki, oğlan uşağı doğmuş qadının südü qız uşağı doğmuş qadının südündən ağır olur.

9) Əllamə Əmini "əl-Qədir" kitabında Səhihi Buxari, Sunəni Əbu Davud, Sunəni İbn Macə və digər kitablara istinadən yazır ki, Ömər ibn Xəttabın yanında Kəbədəki zinət əşyalarından söz düşür. Ona deyirlər ki, yaxşı olar həmin zinət əşyalarını oradan götürüb İslam ordusuna sərf edəsən. Belə etsən, həm ordu güclənər, həm də savab olar. Onsuz da onların Kəbədə qalmasının nə əhəmiyyəti var! Kəbənin də o zinət əşyalarına ehtiyac yoxdur. Ömər ona verilən bu təkliflə razılaşıb zinət əşyalarını Kəbədən götürmək qərarına gəlir. Bu barədə Əmirəl-möminin Əli ibn Əbutalibə(ə) də xəbər verdikdə Həzrət buyurur: "Quran Peyğəmbərə(s) nazil olarkən dörd növ əmlak mövcud idi:

1. Müsəlmanların şəxsi əmlakı.

2. Sahibsiz qalmış torpaqlar və əmlak (fey). Peyğəmbər (s) onları ehtiyacı olanlar arasında bölüşdürdü.

3. Xums. Peyğəmbər (s) onu da Allahın buyurduğu kimi müsəlmanlar arasında bölüşdürdü.

4. Sədəqə. Allah-t\əala onun üçün də müəyyən yer təyin etdi.

Kəbədəki zinət əşyaları Quran nazil olan vaxt da mövcud idi, ancaq Allah-təala onun barəsində heç nə buyurmadı. Ona görə yox ki, yaddan çıxartmışdı, sadəcə olaraq onu öz yerində saxladı. İndi həmin zinət əşyaları ilə bağlı Allah və Peyğəmbər(s) necə hərəkət edibsə, sən də elə hərəkət et və onları yerindən tərpətmə!" Ömər bunu eşitdikdə deyir ki, sən olmasaydın, rüsvay olmuşduq. Zinət əşyalarını da olduğu kimi yerində saxlayır.

10) Şeyx Mufid "əl-İrşad" əsərində yazır: "Ömərin xəlifəliyi dövründə bir uşaqdan ötrü iki qadın arasında mübahisə yaranır. Qadınlardan hər biri uşağın onunku olduğunu iddia edir, ancaq heç birinin iddiasını sübut edəcək şahidi yox idi. Məsələni həll etməkdən ötrü Ömərə müraciət edirlər. Ömər mübahisəni həll edə bilməyəcəyini görüb Əli ibn Əbutalibə(ə) müraciət etmək məcburiyyətində qalır. Əli(ə) qadınların hər ikisini də çağırtdırıb onlara nəsihət edir, Allahın əzabından çəkindirir. Lakin bunun bir faydası olmur və hər iki qadın öz iddiasında israr edir. Vəziyyətin belə olduğunu görən Əli(ə) buyurur ki, onda bir mişar gətirin. Qadınlar soruşurlar ki, mişarla neyləyəcəksən? Həzrət cavab verir ki, uşağı iki hissəyə bölüb hər hissəsini birinizə verəcəyəm. Bunu eşidən qadınlardan biri dərhal deyir ki, ya Əli, mən öz payımdan imtina etdim, uşağı kəsmə, yazıqdır. Əli(ə) vəziyyətin nə yerdə olduğunu anlayıb həmin qadına buyurur ki, götür uşağı, o, həqiqətən də sənin uşağındır. Əgər uşaq o biri qadının olsaydı, o sakit dayanmaz, uşağın halına acıyar və onun kəsilməsinə razı olmazdı.

3. Osmanın xəlifəliyi dövründə

Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) xəlifə Osmanın dövründəki tövsiyələrini, əsasən xəlifənin qanunsuz hərəkətlərinə etiraz kimi qiymətləndirmək lazımdır. Aşağıda qeyd edəcəyimiz hallar buna bariz nümunədir.

1) Osman xəlifə seçildikdən sonra Vəlid ibn Üqbəni Kufə valisi təyin edir. Bu, Əməvilər sülaləsinin çoxdankı arzusu idi. Onlar uzun müddət idi ki, bu xam xəyalın yuxusunu görürdülər. Onlar fikirləşirdilər ki, vəzifə başına gəldikdən sonra Cahiliyyət dövründə olduğu kimi, yenə də nəsil təəssübkeşliyini əldə rəhbər tutub istədikləri kimi hərəkət edəcək, başqalarına istədiyi zülmü verəcəklər.

Osmanın mühüm strateji əhəmiyyətə malik Kufə şəhərinə vali təyin etdiyi Vəlid ibn Üqbəni Qurani-Kərim vaxtilə fasiq bir şəxs kimi tanıtdırmış, onun barəsində: "Ey iman gətirənlər! Əgər bir fasiq sizə (pis) bir xəbər gətirsə, dərhal (onun doğruluğunu) yoxlayın..."[1] Vəlid həm də zinakarlıq və şərabxorluqda ad çıxarmışdı.[2] Osman Vəlidi sırf Bəni-Üməyyə sülaləsinə mənsub olduğuna görə Kufə valisi təyin etmişdi. Yoxsa onun hansısa vəzifəyə seçilməyə əsla ləyaqəti olmamışdır. O, Kufə valisi seçildikdən sonra istədiyi işi görür, heç bir haramdan çəkinmir, müsəlmanları təhqir edirdi. Tarixçilərin yazdığına görə bir gün o qədər şərab içir ki, sübh namazına gəlib iki rükət əvəzinə dörd rükət namaz qılır. Özü də rüku və səcdələrdə zikrin əvəzinə: "Özün şərab iç, mənə də ver"-deyirmiş. Namazı bitirdikdən sonra isə Cahiliyyət dövrünün məşhur müğənnilərindən birinin mahnılarından oxuyur, sonra da üzünü camaata tutaraq deyir ki, istəyirsinizsə, dörd rükətə bir az da əlavə edim. Məsciddə olan Abdullah ibn Məsud cavab verir ki, lazım deyil, Allah sənə və səni bizə vali təyin edənə xeyir verməsin! Bunu deyib ayağındakı başmaqları Vəlidin başına çırpır. Onun ardınca camaat da xırda-xırda daşları onun başına çırpırlar. Vəlid güclə camaatın əhatəsindən çıxıb özünü saraya çatdırır.[3] Bəzi mənbələrin yazdığına görə o, mehrabda ikən bir qədər qaytarıb mehrabı və minbəri bulaşdırır da.

Vəlidin bu rüsvayçılığından xəbər tutan Təlhə ilə Zübeyr Osmanın yanına gəlib deyirlər: "Biz sənə dedik ki, Vəlidi vali təyin etmə, ancaq sən bizə qulaq asmadın. İndi camaat onun şərab içdiyinə şahid olmuşdur. Buna görə də onu vəzifədən kənarlaşdır!" Əli(ə) də Osmanın yanına gələrək buyurur ki, Vəlidi vəzifəsindən uzaqlaşdır və şahidlərin onun şərab içməsinə şahidlik etdiyinə görə onu şəriət qaydası əsasında cəzalandır! Osman məcbur olub Vəlidi Kufə valiliyindən kənarlaşdırıb Səid ibnAsı oranın yeni valisi təyin edir. Ona tapşırır ki, Kufəyə çatan kimi Vəlidi onun yanına göndərsin. Səid ibn As Kufəyə gələn kimi məscidin minbərini, habelə

[1] Hucurat-6

[2] Əl-Əğani(Əbülfərəc İsfahani), c-4, s-178

[3] Tarixul-xüləfa, s-104; Sireyi Hələbiyyə, c-2, s-314

Kufə sarayını yuyub paklayır, Vəlidi də xəlifənin yanına-Mədinəyə yola salır. Vəlidin şərab içdiyinə şahidlik edənlərin şahidliyi əsasında ona şərab içənlərin cəzasını tətbiq etmək lazım idi. Buna görə də ona mütləq şallaq vurulmalı idi. Ona yun bir paltar geydirib otaqlardan birində otuzdurmuşdular. Kim ona şallaq vurmağa gəlirdisə, Vəlid yalvar-yaxar edir, xəlifə Osmanla olan qohumluğuna and verib onu fikrindən döndərirdi. Nəhayət, Əli(ə) şallağı götürüb Vəlid olan otağa gəlir. Həzrət hələ onun yanına gəlməzdən qabaq Osman onu fikrindən döndərməyə çalışaraq deyirdi ki, sən gəl bu işi başqa birisinin öhdəsinə burax! Lakin Əli(ə) qəbul etməyib Vəlidin qaldığı otağa gəlir. Vəlid o Həzrəti görən kimi əl-ayağına düşərək onu qohumluqlarına and verir. Əli(ə) buyurur ki, sakit ol, Bəni-İsrail də Allahın təyin etdiyi qanunlara əməl etmədiyinə görə bəlaya düçar oldu.

Əbülfərəc İsfahani "əl-Əğani" əsərində yazır ki, Əli(ə) Vəlidə şallaq vurur, Vəlid isə o Həzrəti söyürdü.

Beləliklə, Əli(ə) xəlifənin qohumu olmasına baxmayaraq Vəlid ibn Üqbəyə layiq olduğu cəzanı verməklə qoymur ki, cəmiyyət Allahın qanununa qarşı çıxsın. O Həzrət Vəlidə şallaq vurduqdan sonra buyurur ki, bundan sonra Qüreyş məni öz cəlladı hesab edəcək. Ancaq Əli(ə) elə bir şəxs deyildi ki, belə danlaqlardan qorxub Allahın hökmünü icra etməkdən çəkinsin.

Vəlid ibn Üqbənin bu özbaşınalığı və Əli ibn Əbutalibin(ə) ona şallaq vurması haqqında o dövrün şairlərindən Hətiə bir neçə beyt şeir də demişdir.

2) Əhməd ibn Hənbəl "Musnəd" əsərində Abdullah ibn Haris ibn Nofəldən belə nəql etmişdir: "Osman Məkkəyə həcc ziyarətinə gedir. Ehramda ikən bir evdə qonaq qalır. Ev sahibi onun üçün ovlanmış bir heyvan qızardıb qarşısına qoyur. Osmanın yanındakılar deyirlər ki, biz ehramda olduğumuza görə bunu yeyə bilmərik. Osman isə deyir: düzdür, biz ehramdayıq, ancaq heyvanı biz ovlamamışıq, onu ovlayanlar ehramda olmayıblar, ona görə də bunu yeməyimizin eybi yoxdur. Bunu heç kəs bizə qadağan edə bilməz. Yanındakılar bildirdilər ki, Əli ibn Əbutalib bunu qadağan edir. Osman adam göndərib Əli ibn Əbutalibi çağırtdırır. Əli(ə) onun yanına gəlib məsələdən xəbərdar olduqda Osman üçün: "Ehramda olduğunuz müddətdə isə quruda ov etmək sizə haram buyuruldu"[1] ayəsini oxuyur. Sonra da buyurdu ki, Peyğəmbərin(s) sağlığında bir dəfə o həzrət də ehramda olarkən onu belə bir süfrəyə dəvət edirlər. Dəvət edənlərin ehramda olmamasına baxmayaraq, Peyğəmbər(s) özü ehramda olduğuna görə onların ovladığı heyvanın ətindən yemədi. Əlinin(ə) bu sözlərinə on iki nəfər şahidlik edərək həqiqətən də belə bir əhvalatın şahidi olduqlarını bildirdilər. Yalnız bundan sonra Osman Əli ibn Əbutalibin(ə) dedikləri qarşısında susub, ovlanmış heyvan ətini yeməkdən imtina edir.[2]

[1] Maidə-96

[2] Əl-Qədir, c-8, s-186

3) Görkəmli sünni alimi Asimi "Zeynül-fəta fi şərhi surəti həl əta" kitabında yazır: "Osmanın xəlifəliyi dövründə bir kişi bir meyyit kəlləsini götürüb Osmanın yanına gələrək deyir: Siz iddia edirsiniz ki, bu kəllənin sahibi qəbirdə əzab çəkir, Cəhənnəm odunda yanır, ancaq mən əlimi ona nə qədər sürtsəm də onda heç bir istilik hiss etmirəm." Osman ona nə cavab verəcəyini bilməyib Əli ibn Əbutalibi(ə) çağırtdırır. Əli(ə) gəldikdən sonra Osman üzünü sual verən kişiyə tutub deyir ki, sualını bir daha təkrar et! Kişi verdiyi sualı yenidən təkrar edir. Osman bu dəfə üzünü Əliyə tutaraq deyir ki, ver cavabını, ya Əli! Əli(ə) əmr edir ki, iki ədəd çaxmaq daşı gətirsinlər. Çaxmaq daşları hazır olduqda Əli(ə) onları bir-birinə sürtərək alışdırır. Sonra da kişiyə deyir ki, əlini çaxmaq daşlarına sürt gör istidirmi? Kişi əlini daşlara sürtüb buz kimi olduğunu gördükdə təəccüblənib deməyə söz tapmır. Osman isə özündən asılı olmayaraq deyir ki, Əli olmasaydı, Osman həlak olardı.

Qeyd etdiyimiz kimi, Peyğəmbərin(s) vəfatından sonra Əbubəkr qısa müddət ərzində xəlifə seçilir və iki ilə yaxın xilafəti idarə edir. Əbu Bəkr vəfat edərkən Ömərin özündən sonra xəlifə olmasını vəsiyyət edir. Ömər on il müddətində müsəlmanların xəlifəsi olur. Həmin müddətdə İmam Əli (ə) ilə Ömər arasında müxtəlif məsləhətləşmələr müşahidə olunur ki, bunların bəzisini nəzərinizə çatdırdıq.

Osman ibn Əffanın xəlifə seçilməsi

Üçüncü xəlifənin seçilməsinə də hər şeydən öncə Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) münasibətini bilmək maraqlı olar. Ömər ibn Xəttab vəfat etdikdən sonra Əli(ə) buyurur: " Ömər də öz yolunun sonuna yetişdi. Və xəlifəlik məsələsini, məni də onlardan biri güman etdiyi bir neçə adamın arasında ortaya qoydu. Pərvərdigara, təşkil olunmuş şuradan və etdikləri məşvərətdən Sənə pənah gətirirəm. Camaat məni necə Əbubəkrə bərabər tutub, mənə şəkk-şübhə ilə yanaşdı! İş o yerə çatdı ki, bu gün belə şəxslərlə (şura üzvü olan digər beş nəfərlə) bir sırada dayandım. Bununla belə (yenə də səbr edib şurada iştirak etdim) eniş-yoxuşlarda onların ardınca getdim (məsləhətə görə hər yerdə onlarla razılaşdım)."

İbn Əbilhədid Şərhi Nəhcül-bəlağədə yazır: "Əbu Lölö Ömәri ağır yaralayır. O, öləcəyini anlayıb özündən sonra xəlifə təyin edilməsi barədə məsləhətləşir. Ona deyirlər ki, yaxşısı budur xəlifə öz oğlun Abdullah olsun. Ömər deyir: "Yox, and olsun Allaha, Xəttab nəslindən xəlifəlik üçün ikinci adamın seçilməsinə gərək yoxdur. Ömərin xəlifəlikdən çəkdiyi bəsdir! Bu işdə boynuma yığdığım günahlar yetər! Mən oğlumun xəlifə seçilməsinə heç vaxt razı olmaram.

Peyğəmbər(s) vəfat edən zaman Qüreyşdən olan altı nəfərdən razı idi. Əli, Osman, Təlhə, Zübeyr, Səd ibn Əbu Vəqqas, bir də Əbdürrəhman ibn Ovfdan. Mən belə hesab edirəm ki, xəlifə seçimini bu altı nəfərin öhdəsinə qoyaq, kimi məsləhət bilsələr, xəlifə o olsun. Xəlifəni mən təyin etsəm, bu işdə özümdən daha

yaxşı olan bir adamın-Əbubəkrin yolu ilə getmiş olaram. Yox əgər canişin təyin etmədən ölüb getsəm, yenə də özümdən daha yaxşı olan şəxsin-Peyğəmbərin(s) yolu ilə getmiş olaram. O altı nəfəri yanıma çağırın." Adı çəkilən şəxslər gələndə Ömər ölüm yatağında can verirdi. Gələnləri gördükdə üzünü onlara tutub deyir: "Yəqin ki, hamınız xəlifəliyə göz dikmisiniz." Hamı narahat olub susur. Ömər bir an əvvəl dediyi sözü bir daha təkrarlayır. Bu vaxt Zübeyr dillənir: "Sən özün xəlifə olduğun halda biz niyə xəlifə ola bilmərik? Halbuki İslamdakı sabiqəmiz, Peyğəmbərə(s) olan qohumluğumuz səndən də artıqdır." Cahiz deyir ki, əgər Zübeyr Ömərin öləcəyinə əmin olmasaydı, heç vaxt bu sözləri dilinə gətirməzdi.

Sonra Ömər onlara deyir ki, istəyirsinizsə, hər birinizin hansı vəziyyətdə olduğunu da deyim. Cavab verirlər ki, de. Ömər onların hər birinin hansı vəziyyətdə olduğunu, ürəklərindən nələr keçdiyini bir-bir deyir. Daha sonra Əbu Təlhə Ənsarini çağırtdırıb deyir: "Əbu Təlhə, məni dəfn edib qayıdan kimi ənsardan əlli nəfər əlisilahlı adamla birlikdə bu altı nəfəri çağırıb bir evdə saxlayın. Aralarından birini xəlifə seçənə qədər əlli nəfər əlisilahlı şəxs də onları gözləsin. Görsən ki beş nəfər eyni fikirdə, bir nəfər isə başqa fikirdədir, o bir nəfərin boynunu vur! Görsən ki dörd nəfər eyni fikirdə, iki nəfər isə başqa fikirdədir, o iki nəfərin boynunu vur! Görsən ki üç nəfər bir fikirdə, digər üç nəfər də başqa fikirdədir, onda bax gör Əbdürrəhman ibn Ovf hansı tərəfdədirsə, onun olduğu tərəfin fikrini qəbul et! Digər üç nəfər isə etiraz edib etirazlarında israrlı olsalar, üçünün də boynunu vur! Ancaq üç gün keçdikdən sonra bu altı nəfər bir qərara gələ bilməyib aralarından kimisə xəlifə seçə bilməsələr, onda altısının da boynunu vur! Qoy müsəlmanlar özləri üçün bir xəlifə seçsinlər!"

Ömərin vəsiyyətinə əsasən onu dəfn edib qayıdan kimi Əbu Təlhə adı çəkilən altı nəfəri bir evə yığıb özü də əlli nəfər əlisilahlı şəxslə onların nəzarətində dayanır. İçəridəki altı nəfər artıq müzakirəyə başlamışdılar."

İbn Əbilhədid əhvalatını ardını belə nəql edir: "İlk olaraq Təlhə sözə başlayıb orada olanları şahid tutur ki, Osmanın lehinə olaraq özünü kənara çəkir. O, çox yaxşı başa düşürdü ki, Əli ilə Osman olan yerdə camaat onu xəlifə kimi qəbul etməz. Buna görə də Osmanın lehinə kənara çəkilməklə əslində Əlinin mövqeyini və xəlifə seçilə biləcəyi ehtimalını azaldırdı. Buna qarşılıq olaraq Zübeyr də Əlinin lehinə olaraq özünü kənara çəkir. Zübeyr Əli ibn Əbutaliblə qohum olduğu üçün özünü kənara çəkir. O, Əlinin bibisi oğlu idi. Anası Səfiyyə ilə Əbutalib bacı-qardaş olmuşlar. Təlhənin isə Osmanla elə də qohumluq əlaqəsi yox idi. Sadəcə olaraq o, Əbubəkrin əmisi oğlu və Bəni-Teym qəbiləsindən idi. Bəni-Teym və Bəni-Haşim qəbilələri arasında isə xəlifəlik məsələsi üstündə mübahisə yaranmışdı. Əli ibn Əbutalib də Bəni-Haşimdən olduğu üçün təbii ki, Təlhə onun əleyhinə qərar qəbul etməli idi.

Səd ibn Əbu Vəqqas bilirdi ki, şura üzvləri onun xəlifə seçilməsinə razı olmayacaq. Buna görə də deyir ki, mən öz haqqımı əmim oğlu Əbdürrəhman ibn Ovfa verirəm. Səd ibn Əbu Vəqqasla Əbdürrəhman ibn Ovf hər ikisi Bəni-Zöhrə qəbiləsindən olduğuna görə onları həqiqətən də əmi oğlu kimi qəbul etmək olardı. Vəziyyətin belə olduğunu görən Əbdürrəhman ibn Ovf Əli ilə Osmana müraciət edərək deyir ki, hansı biriniz digərinin lehinə olaraq kənara çəkilməyə hazırdır? Heç birindən cavab gəlmədiyini görən Əbdürrəhman deyir: İkinizi də şahid tuturam ki, mən özümü kənara çəkir və sizdən birinizi xəlifə seçəcəyəm. Bunu deyib üzünü Əli ibn Əbutalibə tutaraq: "Allahın kitabı, Peyğəmbərin(s) sünnəsi əsasında və ilk iki xəlifənin(Əbubəkrlə Ömərin) getdiyi yolla gedəcəyin təqdirdə sənə beyət edirəm. Bununla razısanmı?"-soruşur. Əli ibn Əbutalib cavab verir ki, razıyam, bu şərtlə ki, Allahın kitabı, Peyğəmbərin(s) sünnəsi əsasında və özüm bildiyim kimi xəlifəlik edəcəyəm, nəinki ilk iki xəlifənin getdiyi yolla gedəcəyəm. Əbdürrəhman bu dəfə üzünü Osman ibn Əffana tutub eyni sualla müraciət edir: " Allahın kitabı, Peyğəmbərin(s) sünnəsi əsasında və ilk iki xəlifənin(Əbubəkrlə Ömərin) getdiyi yolla gedəcəyin təqdirdə sənə beyət edirəm. Bununla razısanmı?" Osman: "Bəli, razıyam"– deyə cavab verir. Əbdürrəhman ikinci və üçüncü dəfə də həmin sualı Əli ibn Əbutalibə verir, lakin Əlinin cavabı dəyişmir. Osmana isə ikinci və üçüncü dəfə də həmin sualı verdikdə o, hər üç halda öz razılığını bildirib Əbdürrəhmanın şərtini qəbul etdiyini bildirir. Bu vaxt Əbdürrəhman ibn Ovf əlini Osman ibn Əffanın əlinə uzadaraq: "Salam olsun sənə, ey Əmirəl-möminin"-deməklə onu xəlifə elan edir."[1]

Bir çox şiə alimləri, o cümlədən Şeyx Tusi "əl-Əmali"(c-1, s-159; s-166; s-342), Şeyx Səduq "əl-Xisal"(s-553), Deyləmi "İrşadul-qulub"(c-2, s-50) əsərlərində, sünni alimlərindən isə İbn Məğazili Şafei "Mənaqib"(s-112), Xətib Xarəzmi də "Mənaqib"(s-246) və Zəhəbi "Mizanul-etidal"(c-1, s-205) əsərlərində qeyd etmişlər ki, Əmirəl-möminin Əli ibn Əbutalib həmin gün, ya da ondan bir neçə gün sonra şura əhlinə müraciət edərək öz fəzilətlərindən bəzisini dilə gətirmiş, onları bu fəzilətlərə etiraf etmələrinə Allaha and vermişdir. Bu hədis Münaşidə hədisi(və ya Münaşidə xütbəsi) kimi tanınmış və bir çox mənbələrdə, o cümlədən Nəhcül-bəlağənin özündə də öz əksini tapmışdır.

Münaşidə xütbəsi

Münaşidə hədisi Amir ibn Vasilənin dilindən nəql edilmişdir. O deyir: "Mən həmin gün Əli ibn Əbutaliblə birlikdə şuranın yığıncağında idim. Əli şura üzvlərini Allaha and verərək öz fəzilətlərini bir-bir sadalamağa başlayır." Mərhum Şeyx Səduq "əl-Xisal" əsərində Əlinin(ə) qırx fəzilətini sadaladığını qeyd edir. İbn

[1] Şərhi Nəhcül-bəlağə(İbn Əbilhədid), c-1, s-62-63

Məğazili Şafei isə "Mənaqib" əsərində Həzrətin otuz fəzilətini sadaladığını bildirir. İndi də həmin hədisi sünni mənbələrindən sayılan Mənaqibi İbn Məğazili əsərinə istinadən olduğu kimi diqqətinizə çatdırırıq.

İbn Məğazili Amir ibn Vasilənin dilindən belə nəql edir: "Mən Əli ibn Əbutaliblə birlikdə şuranın yığıncağında idim. Əli şura üzvlərinə xitabən belə buyurdu: İndi mən sizinlə elə bir tərzdə danışacağam ki, heç kim-nə bir ərəb, nə də qeyri-ərəb sözlərimi dəyişə bilməyəcək. Sonra buyurdu: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən qabaq Allahın təkliyinə şəhadət verən kimsə olubmu?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa Cənnətdə mələklərlə birlikdə pərvaz edən Cəfər Təyyar kimi qardaşı olan varmı?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa Allahın və Peyğəmbərin şiri kimi tanınmış, şəhidlər ağası Həmzə kimi əmisi olan varmı?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa elə bir adam varmı ki, Peyğəmbərin(s) qızı, cənnət qadınlarının xanımı Fatimə kimi zövcəsi olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa elə bir adam varmı ki, cənnət cavanlarının ağası olan Həsən və Hüseyn kimi oğlanları olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Peyğəmbərlə(s) həmsöhbət olmaqdan ötrü on dəfə sədəqə vermiş olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Peyğəmbər (s) onun barəsində:Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, onu sevəni sən də sev, ona düşmən olana sən də düşmən ol! Bunu burada olanlar burada olmayanlara da çatdırsın!"– deyə buyurmuş olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Peyğəmbər(s) onun barəsində: "İlahi, Sənin və mənim ən çox sevdiyim, onun da Səni və məni hamıdan çox sevdiyi bir şəxsi yetir, qoy o da bu toyuqdan mənimlə yesin!"– deyə buyurmuş olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, digər sərkərdələr döyüşdən qaçdıqda Peyğəmbər(s) onun barəsində: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allahı və Peyğəmbərini sevir, Allah və Peyğəmbəri də onu sevir"– deyə buyurmuş olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Peyğəmbər(s) onun barəsində Bəni-Vəliəyə: "Bu işinizdən əl çəkin, yoxsa üstünüzə özüm kimi bir adamı göndərərəm. Ona itaət mənə itaətdir, onun itaətində çıxmaq mənim itaətimdən çıxmaqdır. O, qılıncını çəkib üstünüzə gələr"– deyə buyurmuş olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Peyğəmbər(s) onun barəsində: "Məni sevdiyini iddia edib bu kişiyə düşmən olan şəxs yalan deyir"– deyə buyurmuş olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, quyudan Peyğəmbər(s) üçün su gətirməyə getdiyi vaxt bir saat ərzində Cəbrail, Mikail və İsrafilin də aralarında olduğu üç min mələk ona salam vermiş olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Peyğəmbər(s) onun barəsində: "O, məndən, mən də ondanam"-demiş, Cəbrail(ə) də: "Mən də sizin ikinizdənəm"– deyə əlavə etmiş olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, onun barəsində Cəbrail(ə): "Zülfüqardan başqa qılınc, Əlidən başqa igid yoxdur"-demiş olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Peyğəmbər(s) ona: "Mən Quranın nazil olması uğrunda döyüşdüm, sən isə onun qorunması uğrunda döyüşəcəksən"– deyə buyurmuş olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, əsr namazını vaxtında qılsın deyə, Allah-təala günəşi onun üçün geri qaytarsın?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Peyğəmbər(s) Tövbə surəsinin ayələrini Əbubəkrdən geri alıb ona versin və buyursun ki, bunu yalnız mən özüm, ya da məndən olan bir şəxs müşriklərə oxumalıdır?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Peyğəmbər(s) onun barəsində: "Sənin mənə olan münasibətin Harunun

Musaya olan münasibəti kimidir. Təkcə fərq odur ki, məndən sonra peyğəmbər olmayacaq"– deyə buyurmuş olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Peyğəmbər(s) onun barəsində: "Səni yalnız mömin sevər, sənə yalnız kafir düşmən çıxar"– deyə buyurmuş olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm yadınızdadırmı Peyğəmbər(s) hamınızın məscidə açılan qapınızın bağlanılmasını, yalnız mənim qapımın açıq qalmasını əmr etdi? Siz buna etiraz etdikdə Həzrət buyurmadımı ki, sizin qapılarınızın bağlanılıb Əlinin qapısının açıq qalmasını mən əmr etməmişəm, bunu Allah əmr edib?

Şura əhli: Allaha and olsun ki, doğrudur.

Əli: Sizi and verirəm Allaha, deyin görüm yadınızdadırmı Taif döyüşündə Peyğəmbər (s) məni bir kənara çəkib söhbət edirdi? Siz buna etiraz etdikdə Həzrət buyurmadımı ki, onunla danışan mən deyiləm, mənim vasitəmlə Allah Öz sözünü ona çatdırdı?

Şura əhli: Allaha and olsun ki, doğrudur.

Əli: Sizi and verirəm Allaha, deyin görüm Peyğəmbər(s) buyurmayıbmı ki, Əli haqq ilə, haqq da Əli ilədir, Əli getdikdə haqq da gedəcək?

Şura əhli: Allaha and olsun ki, doğrudur.

Əli: Sizi and verirəm Allaha, deyin görüm Peyğəmbər(s) buyurmayıbmı ki, sizin aranızda iki dəyərli əmanət qoyub gedirəm, biri Allahın kitabı, digəri isə Əhli-beytim, onlardan yapışdığınız müddətdə yolunuzu azmazsınız, onlar qiyamət günü bulağının başında mənə qovuşmayınca bir-birindən ayrılmazlar?

Şura əhli: Allaha and olsun ki, doğrudur.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, müşriklərin qarşısında özünü Peyğmbərə fəda edib onun yatağında yatmış olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Əmr ibn Əbdəvüd rəqib tələb edəndə onunla döyüşə çıxmış olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Allah-təala onun paklığına şəhadət verərək barəsində: "Həqiqətən Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tər-təmiz (pak) etmək istər!"[1] – deyə buyurmuş olsun?

[1] Əhzab-33

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Peyğəmbər(s) onun barəsində: "Sən ərəblərin ağasısan"– deyə buyurmuş olsun?

Şura əhli: Allaha and olsun ki, yox.

Əli: Sizi and verirəm Allaha, deyin görüm aranızda məndən başqa bir adam varmı ki, Peyğəmbər(s) onun barəsində: "Allahdan özüm üçün nə istəmişəmsə, həmin şeyi sənin üçün də istəmişəm"– deyə buyurmuş olsun?

Şura əhli: Allaha and olsun ki, yox."[1]

Nəhayət, Osman ibn Əffan xəlifə seçilir. İndi xilafətin başında elə bir adam oturmuşdu ki, tarixdə yazılanlara görə şəriət məsələlərində də düzgün qərar çıxarmaqda aciz qalır, səhvlərə yol verirdi. Onun şəhərlərdə Bəni-Üməyyədən olan qohumlarını vali təyin etməsilə bu mənfur qəbilə müsəlmanların qəniminə çevrilir. Sırf Osmanla qohum olduqlarına görə Vəlid ibn Üqbə, Mərvan ibn Həkəm, Həkəm ibn Əbu As, Müaviyə ibn Əbu Süfyan kimi cinayətkarlar müsəlmanlara hakim kəsilir, beytül-malın xəzinəsi onların ixtiyarına buraxılır. Bunu görən imanı zəif səhabələrə isə bəxşiş adı altında külli miqdarda rüşvət verməklə susdurulurdular. Tarixçilərin yazdığına görə Osman Səid ibn Asa yüz min dirhəm pul verir. Osman bunun camaat arasında etirazla qarşılandığını gördükdə bildirir ki, Səid onun qohumu olduğuna görə bu məbləği ona bağışlamışdır.[2] Vəlid ibn Üqbənin beytül-maldan götürdüyü borc məbləği ona bağışlayır.[3] Əbu Süfyana yüz min dirhəm pulu pay verir.[4] Afrikadakı fəthlərdən əldə edilmiş qənimətin yüz min dinar dəyərindəki xumsunun hamısını süd qardaşı Abdullah ibn Əbu Sərhə bağışlayır.[5] Əmirəl-möminin Əli ibn Əbutalib (ə) Osmanın bu yersiz bəxşişlərinə və beytülmalı talan etməsinə qısaca olaraq toxunub buyurur: "Atalarının övladları da (onun qohumu olan Əməvilər) onunla əlbir idilər. Onun dolaşıq ipi çözülənə qədər iştahlı dəvə bahar otlarının hamısını yediyi kimi Allahın malını (müsəlmanların beytülmalını) yeyirdilər. Rəftarı qətlinin tezləşməsinə, qarnının doluluğu devrilməsinə səbəb oldu."

Osmana qarşı etiraz dalğası

Əbuzər Qifari, Əmmar ibn Yasir, Zeyd, Səsəə ibn Suhan, Malik Əştər, Ədiyy ibn Hatəm kimi Peyğəmbər(s) səhabələrinin və əməlisaleh kişilərin Osmana qarşı

[1] Mənaqibi İbn Məğazili Şafei, s-112-118
[2] Ənsabul-Bəlazəri, c-5, s-28
[3] İqdul-fərid, c-2, s-272
[4] Şərhi Nəhcül-bəlağə(İbn Əbilhədid), c-1, s-67
[5] Şərhi Nəhcül-bəlağə(İbn Əbilhədid), c-1, s-67

etirazları get-gedə artırdı. Əli ibn Əbutalib(ə) Osmanın haqsızlıqlarına görə ona öz etirazını bildirərkən Osmanın bibisi oğlu Müğeyrə ibn Əxnəs xəlifəyə (Osmana) deyir ki, mən onun cavabını verərəm. Əli(ə) bunu eşidən kimi buyurur: "Ey Allahın mərhəmətindən uzaq olan və nəsli kəsilmişin oğlu, sən mənə cavab verəcəksən? And olsun Allaha, sənin kömək etdiyin heç kim üstün olmayıb, sənin ayaq üstə saxlamağa çalışdığın şəxs ayaq üstə dura bilməz. Uzaqlaş bizim yanımızdan, Allah səni xeyirdən uzaq etsin! Sonra nə istəsən edərsən, onsuz da Allah səni sağ qoymayacaq." [1]

Osmana qarşı etirazların artması

Vəziyyət elə bir həddə gəlib çatır ki, artıq bütün camaat qiyamçılara qoşulmaq qərarına gəlir. Yalnız bilavasitə, ya da hansısa bir vasitə ilə Bəni-Üməyyəyə mənsub Mərvan ibn Həkəm, Səid ibn As, Müaviyə ibn Əbu Süfyan kimi şəxslər axirətlərini dünyalarına satıb xəlifənin haqsızlıqları qarşısında susur, hətta bunu yaxşı mənalara yozmağa çalışırdılar. Müaviyə kimi elə adamlar da var idi ki, gələcək hakimiyyətinin əsasını qoymaqdan ötrü Osmanın qətlində iştirak etsə də, sonradan özünü onun tərəfdarı kimi göstərib intiqam almaq bəhanəsi ilə qiyam edirlər. Əmmar ibn Yasir, Abdullah ibn Məsud, Əbuzər Qifari, Miqdad ibn Əsvəd, Hücr ibn Ədiyy, Cəhcah ibn Səid, Əbu Əyyub Ənsari, Qeys ibn Səd ibn Übadə, Cabir ibn Abdullah Ənsari, Cəbələ ibn Əmr, Məhəmməd ibn Müslimə, Abdullah ibn Abbas, Amir ibn Vasilə, Malik Əştər, Məhəmməd ibn Əbu Hüzeyfə, Səsəə ibn Suhan kimi böyük səhabələr isə təbii ki, Osmanın bu haqsızlıqları qarşısında göz yummur, hər biri müxtəlif vasitələrlə öz etirazını bildirirdi. Təsadüfi deyil ki, onların bir çoxu xəlifənin əmri ilə döyülmüş, yaralanmış, aylıq hüququndan məhrum edilmiş, hətta arzuolunmaz yerlərə sürgün edilmişdir.

Bəlazəri və digər tarixçilərin yazdığına görə Osmanın qətlindən bir il əvvəl Bəsrə, Kufə və Misirin tanınmış adamları Məscidül-həramda görüşüb xəlifənin haqsızlıqlarından şikayətlənir və belə qərara gəlirlər ki, vətənlərinə qayıtdıqdan sonra hərə öz camaatına vəziyyəti danışıb bir il səbr etsinlər. Əgər bir ilə qədər onun işlərində müsbətə doğru dəyişiklik olmazsa, onda hamılıqla onun yanına gedib öz etirazlarını bildirsinlər. Əgər xəlifə bundan da bir nəticə çıxarmazsa, onda ona qarşı ciddi bir ölçü götürsünlər. Bir il keçdikdən sonra vəziyyətdə hər hansı dəyişiklik baş vermədiyi üçün Malik Əştər iki yüz nəfərlə (bəzi mənbələrdə min nəfər göstərilir)Kufədən, Hükeym ibn Cəbələ yüz əlli nəfərlə Bəsrədən, Məhəmməd ibn Əbubəkr də iki min nəfərlə(ya da bir qədər az) Misirdən çıxıb Mədinəyə gəlirlər. Mədinə camaatı onların gəlişindən xəbər tutduqda mühacir və ənsarın da bir dəstəsi onlara qoşulub Osmanın evini mühasirəyə alırlar. Vəziyyəti

[1] Nəhcül-bəlağə, 133-cü xütbə

belə görən Osman Müğeyrə ibn Şöbəni onların yanına göndərir. Lakin Müğeyrə evdən çıxan kimi qiyamçılar: "Qayıt, ey fasiq, geri dön, ey günahkar!"– deyərək onu yaxın buraxmırlar. Bu dəfə Osman Əmr ibn Ası onların yanına göndərir, lakin o da qiyamçıların: "Qayıt, ey Allahın düşməni!"-fəryadı ilə üzləşib geri qayıtmaq məcburiyyətində qalır. Osman axırda Əli ibn Əbutalibi(ə) qiyamçılarla görüşə göndərmək məcburiyyətində qalır. Əli(ə) Osmanın təklifi ilə razılaşır, bu şərtlə ki, o da(yəni,Osman) qiyamçıların tələblərini qəbul etsin. Osman Əlinin(ə) bu şərti ilə razılaşdığına görə Əli(ə) qiyamçılarla görüşərək onlara bildirir ki, Osman sizin tələblərinizi qəbul edəcəyinizə söz vermişdir. Qiyamçılar da belə tələblə çıxış edirlər ki, onda Osman bu barədə bir öhdəlik yazıb səhabələrə imzalatdırsın. Osman bu tələbi qəbul edib aşağıdakı məzmunda bir iltizamnamə yazır: "Mən Osman ibn Əffan söz verirəm ki, bundan sonra Allahın kitabı, Peyğəmbərin(s) sünnəsi əsasında rəftar edib ehtiyacı olana beytül-maldan bəxşiş, pənah gətirənə də pənah verəcəyəm... Əli ibn Əbutalib də mənim bu iltizamnaməyə əməl edəcəyimə möminlər qarşısında zamin durur." İltizamnamə hazır olduqda səhabələrdən Zübeyr, Təlhə, Səd ibn Malik, Abdullah ibn Ömər, Zeyd ibn Sabit, Səhl ibn Hüneyf və başqaları onu imzalayırlar. Sonra da Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) məsləhəti ilə Osman özü də qiyamçıların qarşısına çıxaraq gördüyü işlərdən Allah dərgahına tövbə edir, etdiyi haqsızlıqlara görə onlardan üzr istəyib onu düz yola yönəltmələrini xahiş edir. Camaat bundan xoşhal olur, hətta Osmanı daha yaxından görüb görüşmək üçün bəziləri onun evinə də gəlirlər. Lakin Mərvan ibn Həkəm evdən çıxaraq camaatın üstünə qışqırıb deyir ki, indi Osmanın sizinlə görüşməyə vaxtı yoxdur. Çıxın gedin, lazım olsa, o özü sizi çağırtdırar.

Bu xəbər Əli ibn Əbutalibin(ə) qulağına çatan kimi hirslənib Osmanın yanına gəlir. Osmanla görüşüb onu baş verənlərdən xəbərdar edir və deyir ki, Mərvan sənin xeyrini istəmir. O, səni elə bir pis vəziyyətə salacaq ki, daha heç bir çıxış yolun olmayacaq. Bundan sonra mən bir daha sənin yanına gəlməyəcəyəm.

Əli(ə) çıxıb getdikdən sonra Osmanın arvadı Nailə bint Fərafisə ərinə deyir ki, gördün Əli Mərvan haqqında nə dedi? Özü də bildirdi ki, daha sənin yanına gəlməyəcək. Sən onu atıb heç kimin yanında hörməti olmayan Mərvanımı üstün tutursan? Bu sözlərdən sonra Osman Əlinin(ə) dalınca adam göndərsə də daha o Həzrət gəlmir. Bəzi mənbələrdə isə bildirilir ki, Əli ibn Əbutalib(ə) yenə də Osmanın yanına gələrək ona deyir: "Mən bir dəfə səndən ötrü zamin dayandım, ancaq sən sözünün üstündə durmadın. İndi yenə də məni camaatın yanında başıaşağı eləmək istəyirsən?" Osman Əlidən(ə) xahiş edir ki, bu dəfə camaat nə tələb irəli sürsə, razılaşıb qəbul edəcək. Nəhayət, Əli(ə) Misirdən gəlmiş camaatın yanına gəlib onları geri qayıtmağa razı salır. Onlar Misirə doğru yola düşdükdən sonra Mərvan bu dəfə də işə qarışıb Osmanla o qədər danışır ki, axırda onu yenə də ver-

diyi sözə əməl etməməyə vadar edir. Osman məscidə gələrək elə bir söz deyir ki, misirli qiyamçılarının yenidən Mədinəyə qayıtmasına səbəb olur.

Misirli qiyamçıların Mədinəyə qayıdışı və Osmanın evinin yenidən mühasirəyə alınması

Tarixçilərin yazdığına görə[1] misirli qiyamçılar Mədinədən çıxıb Misir istiqamətində hərəkət edirlər. İylə adlı məntəqəyə çatdıqda arxadan bir süvarinin arxadan onlara doğru gəldiyini görürlər. Süvari gəlib çatdıqda onu araşdırıb öyrənirlər ki, o, Osmanın nökəridir və yəqin edirlər ki, Misir valisinə məktub aparır. Qiyamçılar belə qərara gəlirlər ki, məktubu ondan alıb oxusunlar, bəlkə Osman valiyə onlarla əlaqədar hansısa tapşırıq verib. Ancaq nə qədər axtarsalar da məktubu tapa bilmirlər. Onu buraxmaq istdikdə qiyamçılardan Kənanə ibn Bişr adlı bir kişi deyir ki, gözləyin onun su tuluğunu da axtarım. Ona deyirlər ki, heç su tuluğunda da məktub gizlədərlər? Kənanə cavab verir ki, adamlar indi hər cür hiyləyə əl atırlar. Bunu deyib qasidin su tuluğunu yoxlamağa başlayır. Birdən tuluğun içərisindən qamışa bənzər bir şey tapır. Onu sındırdıqda görür ki, içərisində Misir valisi Abdullah ibn Sədə yazılmış bir məktub var. Məktubu açıb oxuyur. Məktubda yazılmışdı: "Əmr ibn Büdeyl yanına gələn kimi boynunu vur, İbn Üdeys, Kənanə və Ürvənin də əllərini kəs, qoy qanları axa-axa çabalayıb ölsünlər. Sonra da, bədənlərini ağacdan as!" Bəzi mənbələrdə Əmr ibn Humq, Ürvə ibn Yəba Leysi və başqalarının da adı göstərilmişdir.

Qiyamçılar Mədinəyə qayıdıb məktubu Əli ibn Əbutalibə(ə) verirlər ki, aparıb Osmana göstərsin. Əli(ə) məktubu gətirib Osmana göstərdikdə o, məktubdakı möhürün onun möhürü və məktubun yazıldığı xəttin də onun katibinin xətti olduğuna etiraf etsə də, belə bir məktubun yazılmasından xəbərsiz olduğunu bildirir.

Bəzi tarixçilər belə yazmışlar ki, Osmanın mohürü Mərvan ibn Həkəmdə olurdu və Misir valisinə məktubu da məhz o özü yazmışdı. Camaat ona deyir ki, əgər sənin möhürün olan bu məktubu sən yazmamısansa, deməli, Mərvan yazıb, elə isə onu bizə təhvil ver, biz onunla nə edəcəyimizi çox yaxşı bilirik. Lakin Osman bununla razılaşmır. Bu da qiyamçıların Osmanın evini yenidən mühasirəyə alması ilə nəticələnir.

Osman evi mühasirəyə alanların qarşısına çıxdıqda qiyamçılar ondan soruşurlar ki, bu məktubu sənmi yazmısan? Osman and içib deyir ki, mənim belə bir məktubdan xəbərim yoxdur. Qiyamçılar əsəbi halda deyirlər ki, bu daha pisdir. Əgər sənin adından yazılan məktubdan xəbərin yoxdursa, necə xəlifəlik edə bilərsən? İndi dərhal xəlifəlikdən kənarlaş! Osman onların cavabında deyir ki, Allahın mənə geydirdiyi bu xəlifəlik əbasını əynimdən çıxaran deyiləm. Bunu deyib evə keçərək

[1] Mənbələr haqqında əl-Qədir kitabına(c-9, s-177) müraciət edə bilərsiniz.

qiyamçılara bir məktub yazır. Məktubda deyilirdi ki, istədiyiniz şəxsi Misirə vali seçin, Misir beytül-malının açarlarını da sizə göndərirəm. Ancaq qiyamçılar onun dedikləri ilə razılaşmayıb bildirirlər ki, sən bizim gözümüzdə müttəhimsən, sənin sözünü qəbul edən deyilik.

Bəzi mənbələrdə göstərilir ki, Osman qiyamçıları evində qəbul edib onlarla görüşür. Qiyamçılar Osmanın bütün haqsızlıqlarını onun özünə bildirirlər. Ancaq o,Misir valisinə yazılmış məktubdan doğrudan da xəbərsiz olduğunu bildirir və xəlifəlikdən kənarlaşmasına razı olmur. Osmanın qiyamçılara son sözü belə olur: "Allah qarşısında tövbə edib bir daha keçmiş əməllərimi təkrarlamayacağıma, müsəlmanların bəyənmədiyi işləri görməyəcəyimə söz verirəm. Mən Allaha möhtacam və Ondan qorxuram."[1]

Əli ibn Əbutalibin(ə) Osman üçün su aparması

Qiyamçılar Osmanın evini mühasirəyə alıb evə hər hansı giriş-çıxışı qadağan etmiş, hətta içiriyə su aparılmasına da icazə vermırdılər. Osman evin damına çıxaraq soruşur ki, Əli sizin aranızdadırmı?

Qiyamçılar: Yox.

Osman: Bəs Səd necə?

Qiyamçılar: O da aramızda yoxdur.

Osman: Kimsə Əliyə xəbər verə bilərmi ki, bizim üçün bir az su gətirsin?

Bu xəbər Əliyə(ə) çatan kimi üç su tuluğunu su ilə doldurub Bəni-Haşimdən olan bir neçə nəfərin köməyilə Osmanın evinə aparır. Qiyamçılar onlara mane olmaq istəsələr də, axır ki, suyu evə aparmağa müvəffəq olurlar.

Osmanın digər şəhərlərin əhalisinə müraciəti

Tarixçilər yazmışlar ki, Osman evinin qiyamçılar tərəfindən mühasirəyə alındığını və üzrxahlığının bir nəticə vermədiyini görüb Şam, Misir, Bəsrə və digər şəhərlərdəki valilərinə məktub göndərərək onlardan yardım istəyir. Göndərdiyi məktublardan biri də Şam valisi Müaviyə ibn Əbu Süfyana ünvanlanmışdı. Məktubda deyilirdi: "Mədinə camaatı dindən çıxmış, beyətlərini pozmuş, sözümə qulaq asmır. Sərəncamında nə qədər döyüşçü varsa, hamısına mənim köməyimə göndər."[2] Məktubu Müsəvvər ibn Müxriməyə verib tapşırır ki, onu Müaviyəyə çatdırsın. Müsəvvər məktubu Müaviyəyə çatdırıb deyir ki, Osmanı qətlə yetirəcəklər, aç gör məktubda nə yazıbsa, ona da əməl et! Müaviyə onun cavabında deyir: "Müsəvvər, mən açıq deyirəm, Osman əvvəlcə Allahın və Peyğəmbərin bəyəndiyi kimi davranırdı, buna görə də Allah və Peyğəmbər ondan razı idi. Ancaq sonra-

[1] "Tarixi Təbəri", c-5, s-120

[2] Əl-Kamilu fit-tarix, c-5, s-67; Tarixi Yəqubi, c-2, s-152

dan metodunu dəyişdi, buna görə Allah da ona qarşı fikrini dəyişdi. İndi Allahın istəyini mən dəyişə bilərəmmi?"

Tarixçilərin yazdığına görə Müaviyədən müsbət cavab almayan Osman bu dəfə Yezid ibn Əsədə məktub yazaraq şamlılardan yardım istəyir. Yezid ibn Əsəd Osmanın məktubunu alan kimi elə də böyük olmayan bir dəstə ilə Mədinəyə doğru hərəkət edir. Ancaq Müaviyə ona tapşırır ki, gedib mənim əmrim sizə çatana qədər Zi-xəşəb ərazisində dayansınlar. Yezid ibn Əsəd Müaviyənin dediyi kimi edir. Osman qətlə yetirildikdən sonra Müaviyə bu xəbəri ona çatdırır və Yezid ibn Əsəd də öz dəstəsilə birlikdə Zi-xəşəbdən Şama geri qayıdır. Deməli, Müaviyə Osmana köməkdən imtina edir ki, qoy tezliklə o qətlə yetirilsin, Müaviyə özü də çoxdan planlaşdırdığı xain niyyətinə çatsın. Bununla bağlı müasir sünni tədqiqatçılarından doktor Məhəmməd Tahir Dərviş yazır: "Osmanın qətlində günahlandırılacaq yeganə şəxs varsa, o da Müaviyədir. Osmanın ölümünə o səbəb oldu və bunun məsuliyyəti də bilavasitə onun boynundadır. Çünki Osmanın ən yaxın və ən imkanlı adamı məhz Müaviyə idi. Osman ondan kömək istəsə də Müaviyə bunu ondan əsirgədi. Bu məsələdə Müaviyədən başqa kimisə günahlandırmaq olmaz."[1]

Osmanın müxtəlif şəhərlərin əhalisini ünvanladığı məktublara müsbət cavab verənlər də oldu. Bəzi şəhərlərdən dəstə-dəstə insan Mədinə istiqamətinə üz tutur. Ancaq Mədinəyə çatmamış Osmanın qətlə yetirildiyi xəbərini eşidib yarı yoldan öz şəhərlərinə qayıdırlar.

Osmanın qətlə yetirilməsi

Osmanın etdiyi haqsızlıqlara dözməyən müsəlmanlar nəhayət ki, iki aya yaxın mühasirədən sonra Osmanı qətlə yetirirlər. Onun qətlində əsasən mədinəlilər, bəsrəlilər, kufəlilər və misirlilər iştirak etmişdir. Evə soxulmağa çalışan qiyamçılarla evi qoruyan dəstə arasında kiçik toqquşma və tərəflərdən bir neçə nəfərin qətlə yetirilməsindən sonra qiyamçılar Osmanın evinə daxil olmağa müvəffəq olurlar. Belə ki, Osmanın qonşularından biri qiyamçıları öz həyətinə buraxır, Oradan da Osmanın evinə daxil olan qiyamçılar Osmanla baş-başa qalırlar. Başda Məhəmməd ibn Əbubəkr olmaqla Osmanın qaldığı otağa girənlər bir qədər danışdıqdan sonra onu qətlə yetirirlər.

Osmanın qətlə yetirilməsindən üç gün keçməsinə baxmayaraq hələ də onun nəşi dəfn edilməmişdi. Təbərinin yazdığına görə yalnız Hükeym ibn Həzam və Cübeyr ibn Mütəm bu barədə Əmirəl-möminin Əli ibn Əbutaliblə(ə) danışdıqdan və o Həzrətin işə müdaxiləsindən sonra Osmanın qohumlarından bir neçə nəfər gecə ikən onun nəşini evdən götürə bilirlər. Bu dəfə camaat onun nəşini daşqalaq etməklə Bəqi qəbristanlığında dəfn edilməsinə mane olur. Axırda Osmanın

[1] Həyatul-İmam Huseyn, c-1, s-387

qohumları onu yəhudilərin basdırıldığı Həşşu-kəvkəb adlanan yerdə dəfn etmək məcburiyyətində qalırlar. Bəzi mənbələrin yazdığına görə onlar qorxudan qəbrin kənarındakı divarı da qəbrin üstünə uçururlar ki, qoy Osmanın qəbri gizli qalsın.

Osman təxminən on iki il xəlifəlik etmişdir. Zilhəccə ayının sonlarında qətlə yetirilmiş və həmin vaxt onun səksən iki, ya da səksən altı yaşı olmuşdur. Bir çox arzuolunmaz hadisələrlə müşayiət edilən və hətta ürəkaçmayan sonluqlarla nəticələnən bu qətl hadisəsi Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) düşmənləri üçün əsl bəhanə yaradır. Belə ki, Osmanın ölümündən sonra Bəni-Üməyyədən olanlar, xüsusilə də Müaviyə ibn Əbu Süfyan onun qanlı köynəyini əllərində bayraq edib Cəməl və Siffeyn kimi döyüşlərin başlanmasına şərait yaradırlar. Axırda da hakimiyyət başına keçərək uzun müddət xalqa sözün əsl mənasında qan uddurur, İslam tarixinin qan yaddaşına həkk olunmuş cinayətlər törədirlər. Mövzumuzun sonunda bir neçə məqama toxunmağı lazım bilirik.

1. Bütün deyilənlərdən belə məlum olur ki, Osmanın və ətrafındakı şəxslərin haqsızlıqları bir-iki dəfə ilə məhdudlaşmayıb. Onların özbaşınalıqları elə bir həddə gəlib çatıbmış ki, Əmmar ibn Yasir, Əbuzər Qifari, Malik Əştər, Əmr ibn Humq Xüzai, Məhəmməd ibn Əbubəkr, Abdullah ibn Büdeyl Xüzai, Hükeym ibn Cəbələ kimi səhabələr, həmçinin Kufə, Bəsrə və Misirdən gəlmiş qiyamçılar artıq onların bu özbaşınalıqlarına göz yuma bilmirlər. Osman onların nəsihətlərindən də bir nəticə çıxarmır, bundan sonra daha haqsızlıq etməyəcəyinə dair bir-iki dəfə söz versə də, sözündə durmur. Düzdür, biz burada qiyamçıların gördüyü işin doğru olduğunu iddia etmir, eləcə də onları bu əməllərinə görə ittiham etmirik. Biz bu haqda eynilə Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) buyurduğu sözü deyirik. Bunu bir qədər sonra diqqətinizə çatdıracağıq.

2. Bu, bir faktdır ki, Əli ibn Əbutalib(ə) Osmanın qətlində iştirak etməmişdir. Hətta az öncə qeyd etdiyimiz kimi o Həzrət çətin vaxtlarda Osmana lazımi tövsiyələrini verirdi. Qiyamçıların onu öldürməsilə razılaşıb-razılaşmamasına gəlincə, yaxşısı budur bunu o həzrətin öz dilindən eşidək: "Osmanın öldürülməsinə əmr etsəydim, onda onun qatili olardım, əgər onun öldürülməsinin qarşısını alsaydım, onda da onu dəstəkləyənlərdən olardım. Onu müdafiə edənlər deyə bilməzlər ki, biz Osmanı öldürənlərdən üstünük. Onu öldürənlər də deyə bilməzlər ki, Osmanı bizdən üstün olanlar müdafiə edirdilər. Onun barəsində qısaca olaraq belə demək olar ki, o, layiqincə yerinə yetirmədiyi bir işi öhdəsinə götürdü, ancaq ona yaxşı əməl etməyib özbaşınalığa yol verdi. Siz də özünüzü ələ ala bilmədiniz, özü də çox pis iş gördünüz. Özbaşınalığa yol verən (Osman) və özünü ələ ala bilməyənlər (sizin) barəsində Allahın hökmü dəyişməzdir (Allah-təala qiyamət günü onlar barəsində hökm verəcək, hər kəsi öz günah və təqsiri qədər cəzalandıracaqdır.)"[1]

[1] Nəhcül-bəlağə, 30-cu xütbə

Başqa bir vaxt Əli ibn Əbutalib(ə) Osmandan ona Yənbuya getməsi xəbərini gətirmiş İbn Abbasın cavabında belə buyurmuşdur: "Osman məndən su daşıyan dəvə kimi istifadə etmək istəyir. Gah yanına çağırır, gah da getməyimi tapşırır. İndi də getməyimi tapşırıb. Allaha and olsun, mən onu o qədər müdafiə etdim ki, axırda qorxdum birdən günahkar olaram."[1]

Bəlazəri "əl-Ənsab" əsərində Əli ibn Əbutalibin(ə) Osmanın qətlinə belə münasibət bildirdiyini yazır: "Mən onun öldürülməsini istəmirdim, buna qarşı da çıxmırdım. Nə onun öldürülməsinə əmr etdim, nə də bu işdən çəkindirdim."[2]

"Əl-İmamətu vəs-siyasət" kitabında deyilir: "Osman qətlə yetirildikdən sonra Əmr ibn As yolda bir süvari ilə rastlaşır. Ondan soruşur ki, (Mədinədə) nə xəbər var?

Süvari: Osman öldürüldü.

Əmr ibn As: Bəs camaat nə etdi?

Süvari: Əliyə beyət etdi.

Əmr ibn As: Əli Osmanın qatilləri barədə nə fikirləşir?

Süvari: Vəlid ibn Üqbə onun yanına gedib bu barədə onunla söhbət etdi. Əli ona dedi ki, mən onun öldürülməsini istəmirdim, buna qarşı da çıxmırdım. Nə onun öldürülməsinə əmr etdim, nə də bu işdən çəkindirdim.

Əmr ibn As: Axırda Əli qatillərə nəsə etdimi?

Süvari: And olsun Allaha ki, heç bilinmədi Əbülhəsən(Əli) Osmanın müxaliflərindən idi, yoxsa onu dəstəkləyənlərdən."[3]

Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) bu məzmunda kəlamları kifayət qədərdir və onlarla tanış olduqda o Həzrətin Osmanın qətli ilə bağlı hansı mövqedə olduğunu müəyyənləşdirmək mümkün olmur. Mərhum Əllamə Əmini "əl-Qədir" əsərində bu barədə yazır: "Bu hədislərdən belə bir nəticəyə gəlmək olar ki, Əli(ə) Osmanı ədalətli xəlifə kimi qəbul etmirmiş və buna görə də onun öldürülməsi o Həzrəti narahat etmir. Hətta qorxur ki, birdən onu həddən artıq çox müdafiə edəcəyi təqdirdə günaha düşər. Qatilləri də günahlandırmaq istəmir, yoxsa onların qarşısını almağa cəhd edər və etdikləri əməldən narahat olardı. Əgər Osmanı ədalətli xəlifə kimi qəbul etsəydi, ən azından onun haqqında belə deyərdi ki, onu müdafiə edənlər qətlə yetirənlərdən yaxşı olmuşdur. Bu məsələ ilə bağlı Əlinin(ə) xəlifəliyinin ikinci günü buyurduğu xütbə də nisbətən o Həzrətin mövqeyini bəlli edə bilər. Həzrət həmin xütbədə buyurmuşdu: "Onu bilin ki, [4]Osmanın beytülmalın hesabından bağışladığı torpaq sahələri və eləcə də əmlak beytül-mala qaytarılacaq." Əgər o Həzrət Osmanı ədalətli xəlifə kimi qəbul etmiş olsaydı, onun kimlərəsə bağışladığı əmlakı geri ala bilməz, buna heç haqqı da çatmazdı."

[1] Nəhcül-bəlağə, 238-ci xütbə

[2] Əl-Ənsab, c-5, s-101

[3] Əl-İmamətu vəs-siyasət, c-1, s-42

[4] Şərhi Nəhcül-bəlağə(İbn Əbilhədid), c-1, s-90

VI FƏSİL

ƏMİRƏL-MÖMİNİN ƏLİ İBN ƏBUTALİBİN (Ə) XƏLİFƏLİK DÖVRÜ

Osmanın qətlindən sonra nəhayət, müsəlmanlar belə nəticəyə gəlirlər ki, burulğana düşüb batmaqda olan bu gəmini yalnız və yalnız Əli ibn Əbutalib(ə) sağsalamat sahilə çıxara bilər. Təəssüflər olsun ki, camaat bunu çox gec anladı. Artıq baş vermiş haqsızlıqlar cəmiyyətdə öz təsirini qoymuş, bundan sonra çətin ki, kimsə vəziyyəti Peyğəmbərin (s) və ya ən azından Əbubəkrin dövründəkinə qaytara biləydi. Təsadüfi deyil ki, Əli ibn Əbutalib (ə) xəlifə seçildikdən sonra camaatı haqsız əməllərdən çəkindirdikdə Həzrətə qarşı döyüşə qalxır və imkan vermirlər ki, İslam öz əsl məcrasında davam etsin. Gör vəziyyət nə həddə gəlib çatır ki, camaat Peyğəmbərin (s) əsl canişinlərinə qarşı çıxıb Müaviyə Yezid kimilərin xəlifəliyinə razı olub onların haqsız əməllərinə bəraət qazandırmağa çalışır. Yaxşısı budur bu barədə İmam Əlinin(ə) öz dilindən eşidək. Bəri başdan qeyd edək ki, o Həzrət vəziyyətin belə olacağını təxmin etmişdi. Buna görə də camaata buyurmuşdu ki, siz haqq-ədalətlə razılaşmayacağınıza görə mənim xəlifəliyimə tab gətirə bilməzsiniz. Tarixçilərin yazdığına görə Həzrət camaata belə buyurur: "Əl çəkin məndən, gedin başqa birisini özünüzə xəlifə seçin! Bu, elə bir işdir ki, çox cəhəti var, ağıllar onun qarşısında tab gətirə bilməz. Üfüqü qara buludlar almış, yol isə itmişdir. Xəlifəliyi qəbul edəcəyim təqdirdə öz bildiyim kimi rəftar edəcək, heç kəsin sözünə qulaq asmayacağam. "

Əli ibn Əbutalib(ə) bu sözləri deməyə məcbur idi. Çünki bilirdi ki, camaat Osmanın xəlifəlik dövrünə adət etmiş, onun lazımsız bəxşişlərinə, haqsız yerə kimisə vəzifəsindən kənarlaşdırıb başqa birisini layiq olub-olmadığını nəzərə almadan onun yerinə təyin etməsinə öyrəşmişdi. Məlum məsələdir ki, belə bir vəziyyətin dəyişdirilməsi mümkünsüz, ya da ən azından çox müşkül olacaq. Lakin buna baxmayaraq camaatın israrı və Əlinin(ə) məsuliyyət hissi nəticəsində o Həzrət xəlifəliyi qəbul etmək məcburiyyətində qalır və bununla da özünü problemlər dəryasına atır. Axırda da bu yolda mübarək canını belə əsirgəmir.

Camaatın Əmirəl-möminin Əli ibn Əbutalibə (ə) beyət etməsi

Osmanın qətlə yetirilməsindən sonra camaat Əli ibn Əbutalibə(ə) beyət etmək üçün onun evinə hücum çəkir. Bu barədə Şiqşiqiyyə xütbəsində Əli(ə) özü belə

buyurur: “ (Osmanın qətlindən) sonra kaftarın boynunun tükü tək camaatın məni dövrəyə almasından başqa heç nə məni bu çətin və böyük işə vadar etmədi. Hər tərəfdən üstümə elə hücum çəkdilər ki, izdihamdan, camaatın çoxluğundan Həsənlə Hüseyn ayaq altında qaldılar. Paltarım və əbam hər iki tərəfdən cırıldı, (mənə beyət etmək üçün) qoyun sürüsü kimi məni dövrəyə aldılar. Beyətlərini qəbul edib xəlifəliyə başladıqda isə bir hissəsi (Təlhə, Zübeyr və başqaları) mənimlə olan beyətlərini pozdu, bir dəstə (Nəhrəvan xəvarici və başqaları) beyətdən çıxdı, bəziləri isə (Müaviyə və sair şəxslər) Allah-təalanın itaətindən çıxdılar. Sanki, müxaliflər pak olan Allahın: “Biz bu axirət yurdunu təkəbbürlük etməyənlərə və fitnə-fəsad törətməyənlərə qismət edirik. (Ən gözəl) aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir!”[1]-ayəsini heç eşitməyiblər. Bəli, Allaha and olsun, bu ayəni eşidib və əzbərləyiblər. Lakin dünya onların gözlərini qamaşdırıb və dünyanın zinəti isə onları aldatmışdır.

Agah olun! Toxumu ortadan yaran və insanı xəlq edən Allaha and olsun, bu qədər camaat (mənə beyət etmək üçün) toplaşmasaydı, höccətin tamam olmasına kömək etməsəydilər, Allah-təalanın zalımın (zülm vasitəsilə) doyması və məzlumun (onun zülmündən) ac qalmasından razılaşmamaları üçün üləmalardan aldığı əhd olmasaydı, xəlifəlik dəvəsinin yüyənini hər an onun hörgücünün üstünə atardım, xəlifəliyin sonuna əvvəlcə verdiyim kasada süd verərdim. Bilirsiniz ki, sizin dünyanız mənim üçün dişi keçinin asqırarkən burnundan axan su qədər dəyərsizdir.”

Camaatın beyət etdikdən sonra Əliyə(ə) qarşı çıxmasının əslə səbəbi də elə o olmuşdur ki, o vaxtadək hamı Osmanın haqsız və yersiz əməllərinə öyrəşdiyinə görə haqqı qəbul etməyə razı olmurdular. Dünya onların başını o qədər qatmışdı ki, axirəti tamamilə unutmuşdular. Digər tərəfdən də Əlinin(ə) ədalət prinsiplərinə sadiq qalıb hamıya eyni gözlə baxması, heç kəsi digərindən üstün tutmaması bəzilərinin ona qarşı qiyam etməsinə gətirib çıxartdı. İbn Əbilhədidin Şərhi Nəhcül-bəlağədə(c-1, s-90) tam olaraq, Nəhcül-bəlağədə isə yalnız bir hissəsi verilmiş xütbədə Əli(ə) buna açıq şəkildə toxunur. İbn Abbasdan nəql edilmiş hədisdə deyilir ki, Əli ibn Əbutalib xəlifə seçildiyi ikinci gün camaata müraciət edərək buyurur: “Bilin və agah olun, Osmanın beytül-malın hesabından bağışladığı torpaq sahələri və əmlakın hamısı beytül-mala qaytarılacaq. Haqqı heç nə dəyişə bilməz. (Osmanın qanunsuz hərəkətlərini qanun kimi qəbul edib bunlara göz yuma bilmərik) Hətta kimlərsə o əmlakın hesabına evlənib onu qadınların mehriyyəsi təyin ediblərsə də, onları bir-birindən boşandırıb həmin əmlakı yenidən beytül-mala qaytaracağam. Əsl rifah ədalətdədir, kim ədalətə boyun əyməsə, zülm və haqsızlıq onu daha da sıxar.”

[1] Qəsəs-83

Təbii ki, əqidəsi zəif olan, dünyasını axirətə, dünyanın fani ləzzətlərini axirətin əbədi nemətlərinə dəyişməyə hazır olmayanlar belə bir ədalətli hökumətlə razılaşmayacaqdılar. Bu cür hökuməti səmimi-qəlbdən qəbul edən əsl möminlər, çətinliklərlə sınağa çəkilib üzüağ çıxanların sayı isə çox az olur. Əmirəl-möminin Əli ibn Əbutalib(ə) ona beyət edilən gün məhz bu məsələyə də toxunaraq buyurmuşdur: "Verdiyim sözlərə əməl etməyə borcluyam və buna söz verirəm. Təqva imkan verməz ki, həyatdakı hadisələrdən ibrət götürən şəxs şübhə altına düşsün. Allah Peyğəmbəri(s) peyğəmbər göndərdiyi ilk vaxtlardakı kimi indi də bəla və sınaqlar sizi çox sınayacaq. And olsun Peyğəmbəri(s) haqq olaraq peyğəmbərliyə göndərmiş Allaha, belə bir vaxtda hamınız bir-birinizə qarışacaq, qazan qarışdırılarkən altındakı üstə, üstündəki də alta getdiyi kimi, sizin də əsl möminləriniz önə çıxacaq, özünü üzdə mömin göstərənlər arxada qalacaqlar. İslamda başqalarını üstələmiş bəzi şəxslər susub qalacaqlar. And olsun Allaha, dediklərimdə nə bir yalana yol verdim, nə də nəyisə əsirgədim."

Əmirəl-möminin Əli ibn Əbutalibin (ə) xəlifə seçilməsinin tarixi

İbn Əsir və digərlərinin yazdığına görə, Osman qətlə yetirildikdən sonra Təlhə və Zübeyr başda olmaqla mühacir və ənsardan ibarət səhabələr Əli ibn Əbutalibin(ə) evinə axışaraq ona deyirlər ki, camaatın rəhbərə ehtiyacı vardır. Əli(ə) onların cavabında buyurur ki, rəhbərlik işi mənlik deyil, siz kimi seçsəniz, mən də onu qəbul edəcəyəm. Səhabələr bildirirlər ki, biz ancaq səni xəlifə seçəcəyik. Bu söhbətlərin, eləcə də çox get-gəllərin nəticəsi belə olur ki, axırda səhabələr israr edərək deirlər: "Xəlifə olmağa səndən layiqlisini tanımırıq. Sən həm İslamda hamıdan üstünsən, həm də Peyğəmbərə(s) olan qohumıuq və münasibətin hamıdan yaxındır. Əli(ə) onlara belə cavab verir: "Gəlin belə etməyin, mənim sizin xəlifəniz olmaqdansa, məsləhətçiniz olmağım daha yaxşıdır.

İbn Əsir "əl-Kamilu fit-tarix" əsərində yazır: "Əli ibn Əbutalib(ə) xəlifəliyi qəbul etmədikdə Mədinənin silahlı qüvvələri camaatı bir yerə yığaraq onlara xəbərdarlıq edir ki, sizə bir gün möhlət verirıki, bu bir gün ərzində kimisə xəlifə seçə bilməsəniz, onda Əli, Təlhə və Zübeyri qətlə yetirəcəyik. Camaat bu xəbərdarlıqdan dərhal sonra Əli ibn Əbutalibin(ə) yanına gəlib deyir ki, nə olur-olsun, ancaq sənə beyət edəcəyik. Müsəlmanların vəziyyətinin daha acınacaqlı olduğunu və camaatın ondan əl çəkmədiyini görən Əli(ə) buyurur: "İndi ki belədir, onda mənimlə ancaq məsciddə beyət edə bilərsiniz. Mənimlə gizlində beyət etmək olmaz. Bu iş mütləq məsciddə baş tutmalıdır." Bunu deyib ayağa qalxaraq məscidə gəlir. Camaat da onu müşayiət edərək məscidə axışır. Əli(ə) kamanına söykəndiyi halda camaat ona beyət edir. İlk olaraq Təlhə beyət edir. Onun əli iflic olub tərpənməz hala düşmüşdü. Həbib ibn Züeyb bunu görən kimi deyir ki, inna lillah və inna ileyhi raciun, ilk olaraq iflic əl xəlifəyə beyət etdi, Allah bu

işin axırını xeyir eləsin! Təlhədən sonra Zübeyr Əliyə(ə) beyət əlini uzadır. Lakin Osmanın qətlindən cəmi dörd ay sonra (hələ Əlinin(ə) xəlifə seçilməsindən heç dörd ay da keçməmişdi) beyətlərini pozub Məkkəyə qaçırlar. Sonra da deyirlər ki, biz qorxumuzdan Əliyə beyət etmişdik. Təlhə ilə Zübeyrin ardınca digər səhabələr beyət etdilər. Ancaq mühacirlərdən Səd ibn Əbu Vəqqas və Abdullah ibn Ömər, ənsardan isə Həssan ibn Sabit, Kəb ibn Malik, Sələmə ibn Müxlid, Əbu Səid Xidri, Məhəmməd ibn Müslimə, Noman ibn Bəşir, Zeyd ibn Sabit, Malik ibn Kəb, Rafe ibn Xüdeyc və Fəzalə ibn Übeyd beyət etmədilər. Noman ibn Bəşir qiyamçıların Osmanın evinə hücum edən zaman arvadı Nailənin kəsilmiş barmaqları ilə Osmanın qanlı köynəyini götürüb Şama-Müaviyənin yanına qaçır. Müaviyə Əliyə(ə) qarşı məhz həmin qanlı köynəyi əlində bayraq edərək camaatı ətrafında birləşdirmişdi. Camaat həmin qanlı köynəyi gördükdə Əliyə(ə) qarşı daha da nifrət edib Osmanın intiqamını almağa çalışırdı."

Mədinə camaatı hicrətin otuz beşinci ili, Zilhəccə ayının iyirmi beşində Əli ibn Əbutalibə(ə) beyət etmişdir. İbn Əbilhədid isə belə hesab edir ki, beyət Zilhəccə ayının on səkkizi, həftənin cümə günü baş tutmuşdur. O daha sonra yazır: "Səhərisi gün-şənbə günü Əli ibn Əbutalib məscidə gəlib bir xütbə oxuyur. Həmin xütbədə o, öz siyasət xəttini açıqlayaraq bildirir ki, əsl ədalət prinsiplərinə sadiq qalacaq. Məhz bu amil bəzilərinin onun əmrindən çıxmasına səbəb olur.

Əmirəl-möminin Əli ibn Əbutalib(ə) beyətin ilk günlərində buyurduğu xütbədə (İbn Əbilhədid Şərhi Nəhcül-bəlağədə (c-2, s-171) həmin xütbəni tam olaraq qeyd etmişdir) bir neçə məsələyə xüsusi toxunur:

1. Mən yalnız sizin təkidinizdən sonra xəlifəliyi qəbul etdim.

2. Mənim xəlifə olacağım müddətdə sizi əsl sınaqlar gözləyir. Gecənin zülməti hər tərəfi bürüdüyü kimi, fitnələr də sizə hücum çəkəcək. Onda yalnız səbirli və agah insanlar tab gətirə biləcək.

3. Mən Peyğəmbər(s) dönəmində qətiyyətli olduğum kimi, indi də qətiyyətli olacağam. (Mən elə həmin Əliyəm.) Bunları deyib sağ-soluna baxaraq xütbənin ardını buyurur: "Agah olun, sabah başı dünyaya qarışmış, mal-mülk, torpaq sahələri, incəbelli kənizlər əldə etmiş, özləri üçün bulaqlar çəkmiş, say-seçmə atlarda gəzənlərin (əlbəttə, bunların hamısı onlar üçün fitnədən və ardan başqa bir şey deyil) əlində olanlarını əllərindən alıb yalnız qanuni məvaciblərini verdikdə narahat olub deməsinlər ki, Əbutalibin oğlu bizi öz haqqımızdan məhrum etdi. Peyğəmbərin(s) səhabəsi olanlar elə bilməsinlər ki, başqalarından üstündürlər. Üstünlük yalnız Allahın yanındadır və mükafatı da qiyamətdə veriləcəkdir. Allahın və Peyğəmbərin(s) dəvətinə müsbət cavab verib dinimizi qəbul edən, qibləmizə üz tutan hər bir şəxs bizimlə eyni səviyyədədir. Hamınız Allahın bəndəsisiniz, beytülmalda olan mal da Allahınkıdır. O, sizin aranızda bərabər bölünəcək. Kiminsə başqasından üstünlüyü yoxdur. Təqvalılar üçün ən gözəl mükafat qiyamət günü

Allahın yanında olacaq. Allah-təala bu dünyanı təqvalılar üçün mükafat qərar verməyib. Allah dərgahında olan mükafat daha gözəldir. İnşallah sabah hamınız yanıma gəlin, beytül-malın xəzinəsində olan əmlakı aranızda bölüm. Nə bir ərəb, nə də qeyri-ərəb yaddan çıxıb qalmasın, hamı gəlsin. Adı xüsusi mükafat alanlar sırasında olmaq şərt deyil, əsas odur ki, müsəlman olsun. Beləliklə də həm özüm, həm də Sizlər üçün Allah-təaladan mərhəmət diləyirəm."

İbn Əbilhədid xütbəni nəql etdikdən sonra deyir ki, bu xütbə öz işini gördü. Belə ki, o Həzrətin beytül-malı hamı arasında bərabər şəkildə bölməsi bəzilərində ona qarşı nifrət yaradır. Səhərisi gün hamı beytül-maldakı payını almaqdan ötrü Əli ibn Əbutalibin yanına gəlir. O, katibi Übeydullah ibn Əbu Rafeyə tapşırır ki, mühacirləri çağır və hər birinə üç dinar ver, sonra da ənsarı səslə və onların da hər birinə eyni qaydada üç dinar ver. Bu vaxt Səhl ibn Hüneyf irəli gələrək yanındakı adamı göstərib deyir ki, ey Əmirəl-möminin, bu, dünənə qədər mənim nökərim idi, indi onu azad etmişəm. Əli cavab verir ki, biz ona da sənə verdiyimiz qədər pay verəcəyik. Belə olduqda Təlhə, Zübeyr, Abdullah ibn Ömər, Səid ibn As, Mərvan ibn Həkəm və Qüreyşdən bir neçə nəfər, öz paylarını almayıb Əliyə olan etirazlarını açıq şəkildə bildirirlər.

Əmirəl-möminin Əli ibn Əbutalibə (ə) qarşı etirazların başlanması

İbn Əbilhədid yazır: "Səhərisi gün Təlhə ilə Zübeyr məscidə gəlib Əli ibn Əbutalibin başına toplaşmış cəmiyyətdən kənarda, bir küncdə otururlar. Bir qədər sonra Mərvan ibn Həkəm, Səid ibn As və Abdullah ibn Zübeyr də gəlib onların yanında otururlar. Onların da ardınca Qüreyşdən olan bir dəstə gəlib onlara qoşulur. Bir müddət yavaşca nəsə danışırlar. Sonra da Vəlid ibn Üqbə qalxıb Əli ibn Əbutalibin yanına gələrək ona nə isə deyir, Əli də onun cavabını verir. Vəlid yenidən Təlhə və tərəfdarlarının yanına qayıdıb öz söhbətlərinə davam edirlər.

Təlhə və digərləri Əliyə olan etirazlarını aşkar etdikdə Əmmar ibn Yasir, Əbu Əyyub Ənsari, Səhl ibn Hüneyf və bəzi səhabələr Əlinin yanına gəlib deyirlər ki, bu adamlar öz beyətlərini pozaraq əhd-peymanlarına sadiq qalmamışlar. Gizlində bizi də sənə qarşı çıxmağa dəvət etdilər. Buna səbəb isə beytül-mal bölgüsündə onlarla başqaları, hətta qeyri-ərəblər arasında da fərq qoymamağınızdır. Onlar indi Osmanın intiqamını əllərində bəhanə edib müsəlmanların vəhdətini, birliyini pozmağa və yolundan çıxanlarını öz tərəflərinə cəlb etməyə çalışırlar. Nə məsləhət bilirsənsə, onu da et.

Əli ibn Əbutalib bu sözləri eşitcək belində qılınc, əlində kaman qalxıb birbaş məscidə gəlir. Minbərə qalxıb kamanına söykənərək Allaha həmd-səna etdikdən sonra aşağıdakı xütbəni buyurur: "Allah dərgahında ən üstün və Ona ən yaxın bəndə o şəxsdir ki, Ona və Peyğəmbərinin(s) sünnəsinə daha yaxşı itaət edib əmrində dursun, Onun kitabını uca tutsun. Bizim fikrimizcə Allaha və Peyğəmbərə

itaət etməkdən başqa üstünlük ola bilməz. Allahın kitabı, Peyğəmbərin(s) sünnəsi aramızdadır, onu inadkar cahildən savayı heç kim inkar edə bilməz. Allah-təala buyurub ki, ey insanlar, Biz sizi bir kişi və bir qadından(Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır.[1]" Sonra isə daha uca səslə buyurur: "Allaha və Onun Peyəmbərinə itaət edin, əgər bundan (Allaha və Peyğəmbərinə itaət etməkdən) üz döndərsəniz, (bilin ki,) Allah kafirləri sevməz.

Ey mühacirlər və ənsar, İslamı qəbul etdiyinizə görə Allaha və Peyğəmbərinə(s) minnətmi qoymaq istəyirsiniz? Əslində sizi haqqa hidayət etdiyinə görə Allahın boynunuzda minnəti var. Mən Əbülhəsənəm. (Əli ibn Əbutalib bu ifadəni həmişə qəzəbləndiyi vaxt deyərdi.) Bilin və agah olun ki, can atdığınız bu dünya sizin əsl mənziliniz deyil. Siz buradan ötrü yaradılmamısınız. Dünya sizi aldatmasın! Allah sizi bu dünyaya aludə olmaqdan çəkindirmişdir. Allahın sizə verdiyi nemətlərdən istifadə edin, Allaha itaətdə, Onun hökmləri qarşısında səbirli, təmkinli olun! Bölünən beytül-mala gəlincə isə bu bölgüdə heç kimin başqasına üstünlüyü yoxdur. Əslində o Allahın malıdır, siz də Allahın müsəlman bəndələrisiniz. Allahın kitabı aramızdadır, hamımız onun hökmlərinə tabeyik. Verdiyimiz sözün üstündə də durmuşuq, kim bununla razı deyilsə, istədiyi yerə gedə bilər. Allahın hökmünə tabe olub əmrində duran şəxsin heç kimdən qorxusu yoxdur." Xütbəni bitirərək minbərdən aşağı enib iki rükət namaz qılır. Sonra isə Əmmar ibn Yasirlə Əbdürrəhman ibn Həsəl Qürəşini məscidin bir küncündə oturmuş Təlhə ilə Zübeyrin yanına göndərib onları öz yanına çağırtdırır.[2]

Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) Təlhə və Zübeyrlə dialoqu

Təlhə ilə Zübeyr Əli ibn Əbutalibin(ə) yanına gəldikdə Həzrət onlardan soruşur: Sizi and verirəm Allaha, siz öz xoşunuzla yanıma gəlib istəmədiyim halda mənə xəlifə olmağımı təklif etmədinizmi?

Təlhə və Zübeyr: Doğrudur.

Əli ibn Əbutalib(ə): Onda sizi nə məcbur edən var idi, nə də təzyiq göstərən. Siz öz razılığınızla mənə beyət etmədinizmi?

Təlhə və Zübeyr: Doğrudur.

Əli ibn Əbutalib: Bəs onda sizin bu hərəkətinizə nə səbəb olub?

Təlhə və Zübeyr: Biz sənə beyət etdik ki, işlərdə bizimlə məsləhətləşib bizim xəbərimiz olmadan heç nə etməyəsən. Bizim başqalarından üstün olduğumuzu özün də bilirsən. Beytül-mal bölgüsündə bizimlə məsləhətləşmədən özün bildiyin kimi bölgü apardın və bizim haqqımızı qorumadın.

[1] Hucurat-13

[2] Şərhi Nəhcül-bəlağə(İbn Əbil-hədid), c-2, s-172

Əli ibn Əbutalib: Sizin əsəbiniz az, ümidiniz isə çox idi. Elə isə onda Allahdan bağışlanmağınızı diləyin. İndi mənə deyin görüm, mən sizin hansısa haqqınızı pozub sizə azacıq da olsa, haqsızlıq etmişəmmi?

Təlhə və Zübeyr: Qətiyyən yox.

Əli ibn Əbutalib: Müsəlmanların hansısa haqqını pozub onlara qarşı azacıq da olsa, haqsızlıq etmiş və ya onların haqqını ödəməkdə səhlənkarlığa yol vermişəmmi?

Təlhə və Zübeyr: Qətiyyən yox.

Əli ibn Əbutalib: Bəs onda mənim hansı işimə qarşı çıxıb etiraz edirsiniz?

Təlhə və Zübeyr: Bizim sənə olan etirazımız sənin beytül-mal bölgüsündə Ömər ibn Xəttabdan fərqli davranmağındır. Sən bölgüdə bizə də başqaları ilə eyni gözdə baxıb beytül-malı bizimlə eyni səviyyədə olmayanlar arasında bərabər böldün. Biz öz qılınclarımızla İslamı yayıb beytül-malın xəzinəsində olan bu əmlakı İslam düşmənlərinin çəngindən çıxartmışıq.

Əli ibn Əbutalib: Beytül-mal bölgüsündə sizinlə məsləhətləşməməyimə gəldikdə, and olsun Allaha, qeyd edim ki, mənim əsla xəlifəlik istəyim yox idi. Məni xəlifə olmağa güclə razı saldınız. Mən də qorxdum ki, əgər razılaşmasam, İslam ümmətində parçalanma baş verər. Xəlifə seçildikdən sonra Allahın kitabı və Peyğəmbərin(s) sünnəsinə müraciət edib orada olanlara əməl etdim, daha sizinlə və başqaları ilə məsləhətləşməyə ehtiyac qalmadı. Əgər qarşılaşacağım hər hansı məsələnin həllini Quran və Peyğəmbər(s) sünnəsində tapmasam, onda mütləq sizinlə məsləhətləşəcəyəm.

Beytül-malın müsəlmanlar arasında tam bərabər şəkildə bölməyimə gəlincə, bunu da mən özbaşına etməmişəm. Mən də, siz də Peyğəmbəri(s) görmüşük, hamı bilir ki, o Həzrət də beytül-malı eynilə bu cür bölürdü. Allah-təalanın kitabı da bizə məhz belə tövsiyə edir, sözsüz ki, ona batil nüfuz edə bilməz.

Biz öz qılınclarımızla İslamı yayıb beytül-malın xəzinəsində olan bu əmlakı İslam düşmənlərinin çəngindən çıxartmışıq, indi nəyə görə başqaları da bizimlə eyni səviyyədə olmalı və beytül-maldan bizim aldığımız qədər almalıdır fikrinizə gəlincə, Peyğəmbərin(s) də dövründə kimlərsə İslamda öncüllərdən olub cihadlarda iştirak etmişdilər, ancaq o Həzrət beytül-mal bölgüsündə yenə də onlara başqalarına verdiyi qədər verdi. Belələrinin mükafatını qiyamət günü Allah-təala Özü verəcək. And olsun Allaha, mənim sizə və başqalarına verə biləcəyim yalnız budur.[1]

Müaviyənin Zübeyrə məktub göndərməsi

Qeyd etdiyimiz kimi, Təlhə ilə Zübeyr o Həzrətə qarşı çıxıb öz beyətlərini pozurlar. Onları bu addımı atmağa daha da cəsarətləndirən sabiq xəlifə Osmanın Şama

[1] Şərhi Nəhcül-bəlağə(İbn Əbilhədid), c-2, s-173

vali təyin etdiyi Müaviyənin (xatırladaq ki, Əli(ə) xəlifə seçildikdən dərhal sonra valiliyə layiq olmayan digər şəxslər kimi, onu da valilikdən kənarlaşdırır, ancaq Müaviyə o Həzrətin əmrinə tabe olmayıb Şamda qalaraq valiliyini davam etdirir, bununla da Əliyə qarşı çıxdığını rəsmən elan edir) onlara göndərdiyi məktub olur. Bilavasitə Zübeyrə ünvanlanmış məktubda deyilirdi: "...Mən şamlılardan sənin üçün beyət almışam, onlar da səmimi qəlbdən beyət etmişlər. Buna görə də dərhal Bəsrə və Kufə istiqamətinə doğru hərəkət et. Məbada o iki şəhəri Əli ibn Əbutalib səndən qabaq ələ keçirsin. Yoxsa heç nə edə bilmərik. Səndən sonra da Təlhə üçün camaatdan beyət almışam. Elə isə siz Osmanın intiqamı bəhanəsi ilə qiyam edib camaatı da ətrafınıza toplayın. İnanıram ki, qalib gələcəksiniz..."

Zübeyr məktubu alan kimi oxuyub sevinir, onu Təlhəyə də göstərir, o da son dərəcə xoşhal olur. Hər ikisi Müaviyənin onların xeyrinə çalışdığına inanır, onun öz sözündə yalan danışdığını ağıllarına belə gətirmirlər.

Ədalətli hökumətin ilk dörd ayına ötəri baxış

Təlhə, Zübeyr və Aişənin başı Əli ibn Əbutalibə(ə) qarşı ordu və silah-sursat toplamağa möhkəm qarışdığı bir vaxtda gəlin görək Əlinin(ə) xəlifə seçilməsindən cəmi dörd ay(və ya bir az da artıq) keçdiyi bir müddət ərzində nələr baş verdi ki, Qüreyş camaatı hər tərəfdən o Həzrətə qarşı ayağa qalxıb öz beyətini pozdu? Onların nəinki zülm və haqsızlıq olmadığı, hətta haqsızlığın iyi belə gəlmədiyi bir hökumətə düşmən kəsilmələrinə səbəb nə idi? Axırda da elə vəziyyət yaratdılar ki, camaatın avamlığı, cahilliyi, nifaqı üzündən haqq-ədalət uzun illər boyu buludlar arxasında gizləndi.

Qurani-Kərimdə, hədislərdə, İslam maarifində göstərildiyi kimi, insanların təbiəti müxtəlifdir. Hamı fitrətən eyni ola bilməz. Bir çoxları dünyanın fani və ötəri nemətlərini axirətin əbədi nemətlərindən üstün tutub ikincini birinciyə dəyişib axirəti dünyaya satırlar. Belə insanlar həmişə olmuş, hətta tarix boyu onlar üstünlük təşkil etmişlər. Bəzən öz ideyalarına güya fəlsəfi don geydirməyə çalışaraq Makyavel fəlsəfəsinə istinad edib məhz bu yolun haqq olduğunu göstərməyə də çalışmış, tutduqları mövqeyi inadla müdafiə etmişlər. İndi gəlin görək Əli ibn Əbutalib(ə) öz hökumətində hansı siyasi xətti tutub gedirdi ki, belələri də tez bir vaxtda ona qarşı çıxıb hətta döyüşməkdən də çəkinmədilər?

1. Əvvəlki valilərin işdən kənarlaşdırılması

Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) ədalətli hökumət yaratmaq məqsədilə atdığı ilk addım camaatın qəniminə çevrilmiş valiləri işdən kənarlaşdırmaq olur. Öncə də qeyd etdiyimiz kimi, onların əksəriyyəti Osmanın qohumları və Bəni-Üməyyə nəslinin nümayəndələri idilər. Müaviyə ibn Əbu Süfyan da onlardan biri idi. Onu hələ Ömər ibn Xəttab xəlifə olarkən Şama vali təyin etmişdi. Osman da xəlifə seçildikdən sonra onu öz vəzifəsində saxlayır. Müaviyə Şamda uzun

müddət vali olması səbəbilə oranın əhalisində özünə, Osmana, ümumiyyətlə Bəni-Üməyyəyə qarşı rəğbət, Bəni-Haşimə, xüsusilə də Əli ibn Əbutalibə(ə) qarşı isə nifrət hissi yarada bilmişdi. Müaviyənin Şama vali təyin edildiyi vaxtlarda Şam şəhəri təzəcə fəth edilmişdi. Buna görə də yenicə müsəlman olmuş camaat İslamı demək olar ki, Müaviyənin simasında görür, onu İslamın təməl daşı kimi qəbul edirdi. Bundan istifadə edən Müaviyə isə öz hakimiyyətini istədiyi kimi möhkəmlədə bilir. Müaviyənin onlara dediyi söz sanki bir şəriət qanunu idi. Bəli, bu, əsl Əməvi İslamı idi. Müaviyənin keçmişinə nəzər saldıqda onun Şamda, hökumət içərisində qurduğu hökumətinin gələcəkdə İslam hökumətinə qarşı necə böyük bir təhlükə yarada biləcəyini anlamaq elə də çətinlik yaratmır.

Əmirəl-möminin Əli ibn Əbutalib(ə) xəlifə seçildiyi ilk günlərdə digər şəhər valiləri kimi, Müaviyənin də tutduğu vəzifədən kənarlaşdırılması barədə əmrini verir. Hətta Həzrətin ən sadiq səhabələrindən bəzisi məsləhət görürlər ki, hökuməti tam qurub möhkəmlədənə qədər Müaviyə qoy Şamda qalsın, sonra onu da valilikdən kənarlaşdırarsan. Lakin Əli(ə) bu təklif qarşısında çox sərt mövqe tutaraq buyurur: "Bu, dolayısı ilə Müaviyənin əməllərinin üstünün ört-basdır edilməsi deməkdir. Mənim onu bircə an da olsun tutduğu vəzifədə saxlamağım o deməkdir ki, onun layiqli, ədalətli bir vali olduğunu, haqsız əməllərini qəbul etdiyimi göstərər."

2. Haqsız olaraq götürülmüş əmlakın yenidən beytül-mala qaytarılması

Ötən səhifələrdə də qeyd etdiyimiz kimi, Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) ədalətli hökumətin qurulması yolunda atdığı digər bir addım haqsız və əsassız olaraq öz qohumlarını payladığı əmlakın yenidən beytül-malın büdcəsinə qaytarılması olmuşdur. Həzrət xəlifəliyinin ikinci günündə camaatın qarşısında buyurduğu xütbədə qətiyyətlə qeyd etmişdi ki, haqsız olaraq beytül-maldan pay verilən əmlak və ya torpaq sahələri yenidən beytül-malın büdcəsinə qaytarılacaq. Hətta həmin əmlak qadınların mehriyyəsi təyin olunmuş və ya başqa şəhərlərə gedib çıxmış olsa belə, ərlə-arvadı bir-birindən boşayıb mehriyyə təyin edilmiş malı beytülmala qaytaracaq.

İbn Əbilhədid Kəlbidən nəql edərək yazır: "Əmirəl-möminin bu xütbəni buyurduqdan dərhal sonra göstəriş verir ki, Osmanın şəxsi silahı və miniyi istisna olmaqla evində olan digər silahların, heyvanatın hamısı beytül-mala təhvil verilsin. Həmçinin tapşırır ki, Osmanın beytül-maldan əsassız yerə başqalarına pay verdiyi əmlak da geri alınıb beytül-malın büdcəsinə qoyulsun. Bu xəbər Əmr ibn Asa çatan kimi Müaviyəyə belə bir məktub göndərir: "Nə tədbirin varsa, gör, yoxsa ağacın qabığı soyulduğu kimi, Əbutalibin oğlu da əlindəki bütün əmlakını soyub beytül-mala qatacaq."[1]

[1] Şərhi Nəhcül-bəlağə(İbn Əbilhədid), c-1,s-90

3. Əmirəl-möminin Əli ibn Əbutalibin (ə) beytül-mal bölgüsündəki siyasəti

Əvvəlki söhbətlərimizdən belə məlum oldu ki, bəzilərinin Əli ibn Əbutalibə(ə) olan beyətini pozmasının əsas səbəblərindən biri də Həzrətin beytül-malı ədalətli şəkildə bölməsi olmuşdur. Məhz bu amil Təlhə ilə Zübeyrin, onların ardınca da başqalarının öz beyətlərini pozub Əliyə(ə) qarşı çıxmalarına, sonra da Cəməl döyüşünə səbəb oldu.

Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) ədaləti doğrudan da bütün millətlərin dilində artıq bir zərbi-məsələ çevrilmişdi. O, xəlifə seçilən kimi əvvəlki xəlifələrin dövründən etibarən adət halını almış yersiz və əsassız imtiyazları ləğv etməklə hamıya eyni gözlə baxır. Beytül-malın bölgüsü zamanı ərəblə qeyri-ərəbə, mühacirlə ənsara, qüreyşli ilə qeyri-qüreyşliyə, hətta Peyğəmbərin(s) qohumlarına, xanımlarına, bir sözlə hamıya eyni məbləğdə məvacib verir. Tarixdə belə bir əhvalat nəql edilmişdir ki, qüreyşli bir qadın Hicazdan Kufəyə gəlir ki, beytül-maldan bir qədər çox məvacib alsın. Şəhərə çatdıqda Kufəyə təzəcə gəlib məskunlaşmış bir fars qadını ilə rastlaşır. Ondan beytül-maldan nə qədər məvacib aldığını soruşur. Fars qadın aldığı məvacibin məbləğini dedikdə qüreyşli qadın görür ki, onun məvacibi ilə öz məvacibi bərabərdir. Həddən artıq narahat olub fars qadınla birlikdə Əli ibn Əbutalibin(ə) yanına gələrək uca səslə deyir: "Mənimlə bu fars kənizinə eyni gözlə baxmağın ədalətdəndirmi?" Əli(ə) qadına nəzər yetirib yerdən bir ovuc torpaq götürərək əlində bir qədər oynatdıqdan sonra deyur: "Bu torpağın bir hissəsinin digər hissəsindən heç bir üstünlüyü yoxdur." Sonra da bu ayəni oxudu: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından(Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır."[1]

İbn Əbilhədid Mədainidən nəql edərək yazır: "Camaatın Əlinin ətrafından dağılıb Müaviyənin başına toplaşmasının əsas səbəbi maddi məsələlər idi. Çünki Əli maddi sahədə heç kəsə üstünlük vermir, hamıya eyni gözlə baxırdı. Ancaq Müaviyə belə deyildi."[2]

İbn Əbilhədid daha sonra bu mövzu ilə bağlı maraqlı əhvalatlar qeyd etmişdir. O cümlədən yazır ki, Əli ibn Əbutalib hər cümə günü beytül-malın xəzinəsini süpürür, axırda da iki rükət namaz qılaraq buyurardı ki, qiyamət günü mənim üçün şahidlik et!

Mədainidən nəql edilmiş rəvayətdə isə deyilir ki, Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) tərəfdarlarından bir dəstəsi onun yanına gələrək deyirlər ki,

[1] Hucurat-13

[2] Şərhi Nəhcül-bəlağə(İbn Əbilhədid), c-1, s-180-181

qüreyşlilər səhabələrin öndə gedənləridir. Onlara beytül-maldan bir qədər artıq pul ödə ki, bu yolla onları ələ ala biləsən. Həzrət onların cavabında buyurur: "Qələbə naminə zülm etməyimimi tövsiyə edirsiniz? And olsun Allaha, nə qədər ki günəş yer üzünə saçır və ulduzlar yeri işıqlandırır, mən belə bir iş görən deyiləm. Allaha and olsun ki, əgər öz malım olsaydı belə, yenə də onu hamı arasında bərabər bölərdim, o ki olsun beytül-malın əmlakı ola."[1]

Əli ibn Əbutalibin(ə) iqtisadi sahədə yürütdüyü siyasətdən məlum olur ki, o Həzrət ayrıseçkiliyə qarşı çıxmış, bunun hakimiyyətinin əlindən çıxması və camaatın onun ətrafından dağılması ilə nəticələnəcəyi təqdirdə belə yenə də ədaləti pozmamışdır.

İbn Əbilhədid yazır: "Əli camaata deyirdi ki, ay Kufə camaatı, əgər mən sizin aranızdan çıxıb gedərkən gəldiyim vaxt özümlə gətirdiyimdən artığını apararamsa, deməli, mən xəyanətkaram."[2]

4. Bərabərlik və azadlıq

Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) yürütdüyü siyasətin əsas prinsiplərindən biri də bərabərlik, müsavat və azadlıq olmuşdur. Yəni, qanun qarşısında hamı bərabər, beytül-mal bölgüsü zamanı müsavata riayət edilməli, eyni zamanda cəmiyyətdə söz azadlığı olmalı idi. Əli(ə) elə bir şəxs idi ki, valilərindən birinə yazmışdı: "Camaat qarşısında təvazökar ol, onlarla gülərüz və mehriban davran! Hamıya eyni gözlə bax(ayrıseçkilik salma), hətta ən adi şeylərdə də hamını bərabər tut! Belə et ki, qoy böyüklər(cəmiyyətdə sayılıb-seçilənlər) sənin zülm etmədiyini görsün, sərəncamında olan işçilərin isə sənin ədalətindən ümidsiz olmasınlar."[3]

Əli ibn Əbutalib(ə) elə bir şəxsiyyət idi ki, onun xəlifə seçilməsinə qarşı çıxıb beyət etməyən Səd ibn Əbu Vəqqas, Həssan ibn Sabit, Əbu Səid Xidri kimilər Mədinədə azad şəkildə gəzib dolaşırdılar. Təlhə ilə Zübeyrin öz beyətlərini pozaraq Mədinədən çıxdıqlarını bilməsinə rəğmən onların qarşısını kəsmir, Mədinədən çıxmalarına icazə verir. Mübarək ömrünün sonunda Əbdürrəhman ibn Mülcəmin onu qətlə yetirəcəyini bilsə də, ona toxunmur və cinayətdən qabaq cəzalandırmağı heç bir vəchlə uyğun görmür. Müasir yazarlardan biri bu barədə olduqca gözəl və obrazlı bir ifadə işlədərək demişdir ki, Əli həmin anda görür ki, ya özü, ya da haqq-ədalət ölməlidir. O, özünün haqq-ədalətə qurban getməsinə razı olur, ancaq haqq-ədaləti öz qurbanına çevirmir. Fikirləşir ki, ədalətin ölməsindənsə özünün ölməsini məsləhət görür.

---

[1] Şərhi Nəhcül-bəlağə(İbn Əbilhədid), c-1, s-182
[2] Şərhi Nəhcül-bəlağə(İbn Əbilhədid), c-1, s-181
[3] Nəhcül-bəlağə(Feyzülislam), s-967

5. Valilərin işinə olduqca diqqət yetirmək

Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) özünəməxsus cəhətlərindən biri də o olmuşdur ki, Malik Əştər, Məhəmməd ibn Əbubəkr, Səhl ibn Hüneyf kimi əməlisaleh və ən imanlı şəxsləri müxtəlif şəhərlərə vali təyin edir, Əşəs ibn Qeys, Əmr ibn Hüreys, Şəbəs ibn Rəbi kimi təqvasız adamları isə ətrafından uzaqlaşdırırdı. Nəticədə onlar da Müaviyənin tərəfinə keçir və onların oğul-uşaqları da bir neçə il sonra Kərbəlada Übeydullah ibn Ziyadın ordusunda sərkərdəlik edirlər. Valiliyə olduqca inanılmış şəxsləri təyin etməsinə baxmayaraq, onların hərəkətlərini daim nəzarətdə saxlayır, onların ən kiçik səhvə, haqsızlığa yol verdiklərini eşitdikdə dərhal cəzalandırır, ya da işdən çıxarılması əmrini verirdi. Tarixçilərin yazdığına görə Sövdə bint Ümarə adlı bir qadın Əlinin(ə) təyin etdiyi valilərdən birindən şikayət etməkdən ötrü Həzrətin yanına gəlib etirazını bildirir. Həzrət bunu eşitcək uşaq kimi ağlamağa başlayaraq buyurur: "İlahi, mənə də, onlara da Özün şahidsən. Mən onlara camaatın haqqını tapdalamağı və Sənin haqqını pozmağı tapşırmamışam." Dərhal da həmin valinin işdən çıxarılması əmrini yazdırıb həmin qadına verir ki, onu valiyə çatdırsın.[1]

Əmirəl-möminin Əli(ə) Bəsrəyə vali təyin etdiyi Osman ibn Hüneyfə belə bir məktub göndərir: "Ey Hüneyfin oğlu, eşitmişəm Bəsrə gənclərindən biri səni toy məclisinə dəvət etmiş, sən də tələsik həmin məclisə getmisən. Sənin qarşına cürbəcür ləzzətli yeməklər düzülmüş, qarşına böyük kasalar qoyulmuşdur. Sənin kasıb və yoxsullarını qovan, varlıları isə dəvət edən bir camaatın ziyafətinə gedəcəyinə inanmazdım. Yediyin yeməyin (halal, yoxsa haram olduğuna) fikir ver, (halal-haramlığı) sənə məlum olmayan şeyi yemə! Qazanc yollarının halal olduğunu bildiyin şeylərdən ye!

Bil ki, tabe və ardıcıl olan hər bir şəxsin bir imam və başçısı var ki, ona tabe olur və elminin nuru ilə aydınlıq axtarır. Onu da bil ki, sizin imamınız öz dünyasından iki köhnə paltarla, yeməklərdən isə iki tikə çörəklə kifayətlənib. Sizin belə etmək qüdrətiniz yoxdur. Amma (heç olmasa) mənə pərhizkarlıq, çalışqanlıq, iffət və düzlüklə kömək edin! Allaha and olsun ki, sizin dünyanızdan qızıl toplamamışam, onun qənimətlərindən çox mal yığmamışam və əynimdəki köhnə paltardan başqa digər bir köhnə paltarım da yoxdur.

Bəli, göyün kölgə saldığı bütün şeylərdən (dünya malından) yalnız Fədək bağı bizim ixtiyarımızda idi ki, onu da bəxşiş etdik. Allah gözəl hakimdir. Fədək və Fədəkdən qeyrisi mənim nəyimə lazımdır ki? Halbuki insanın yeri sabah qəbirdir ki, onun qaranlıqlarında nişanələri məhv olacaq və xəbərləri itib gedəcək. Həmçinin elə bir çuxurdur ki, əgər onun genişliyi çoxalsa və gorqazanın əlləri

[1] İqdul-fərid, c-1, s-211; Bəlağatun-nisa, s-30

onun genişliyində çalışsa, daş-kəsək onu sıxar və torpaq bir-birinin üstünə yığılaraq deşiklərini örtər. Mənim fikir və diqqətim ondadır ki, öz nəfsimi pərhizkarlıqla tərbiyə edərək xar edim ki, qorxu və vahiməsi çox olan gündə(qiyamət günündə) asudə və rahat olsun və sürüşkənliyin kənarında möhkəm dayana bilsin.

Əgər istəsəm yolumu bu balın saf və təmizinə, buğda çörəyinin xalisinə və bu ipək paltarın toxunulmuşu istiqamətinə sala bilərəm. Amma Hicazda, yaxud Yəmamədə kiminsə (imkansızlıqdan) bir tikə çörəyə ümidsiz olması və çox yatdığı vaxtı yadından çıxarması ehtimalı ola-ola nəfsi istəklərin mənə qalib gəlməsi və hərisliyin çoxluğunun məni yemək seçməyə vadar etməsi məndən necə də uzaqdır! Həmçinin ətrafımda ac qarın və isti (susuz) ciyərlər ola-ola tox qarınla yatmaq, yaxud söz sahibinin(Hatəm ibn Abdullah Tainin) dediyi kimi olmaq məndən çox uzaqdır. O deyib:

"Sənə bu dərd yetər ki, gecə tox qarınlayatasan və ətrafında keçi balasının dərisinin həsrətini çəkənlər olsun."

Dövranın çətinliklərində onlarla həmdərd olmadan, acı günlərində gözləri önündə durmadan mənə möminlərin əmir və başçısı deyilməsilə kifayətlənməliyəmmi? Məni fikri ancaq ot olan bağlı heyvan, yaxud bir şey tapıb yemək üçün zir-zibili alt-üst edən və mədəsini əlinə düşənlə doldurараq onun üçün nəzərdə tutulan şeydən qafil olan, açıb buraxılmış heyvan kimi yaratmayıblar ki, gözəl təamlar yemək məni (əbədi xoşbəxtlikdən) saxlasın. Həmçinin məni bekar qalaraq əbəs yerə özbaşınalıq etmək və ya azğınlıq ipini çəkərək düşünmədən sərgərdanlıq yoluna yollanmağım üçün yaratmayıblar. Sanki sizlərdən birinin belə dediyini görürəm: Əgər Əbutalibin oğlunun yeməyi budursa, onda zəiflik və süstlük onu tay-tuşları ilə döyüşdən və şücaətli şəxslərlə rəqabət apararaq bərabərlik etməkdən saxlamayacaq! Bilin ki, (susuz qalan) çöl ağacının taxtası bərkdir(möhkəmdir). Amma (lazımi qədər su içmiş) yaşıl ağacların qabıqları daha nazikdir. (Yağış suyundan başqa su görməyən) səhra bitkilərinin alovu daha çox şölə saçır, onlar daha gec sönür."[1]

Əli ibn Əbutalib(ə) elə bir şəxsiyyət idi ki, qazi vəzifəsinə təyin etdiyi Rüfaə ibn Şəddada göndərdiyi məktubda yazır: "Rüfaə, yaddan çıxartma ki, bu hakimiyyət(vəzifə) əlimizdə bir əmanətdir. Kim ona xəyanət edərsə, qiyamətədək Allahın lənəti olsun ona! Xəyanətkar bir adamı iş başına gətirən şəxsə isə Məhəmməd(s) dünya və axirətdə nifrət edir."[2]

6. İşdə qətiyyət

Əmirəl-möminin Əli ibn Əbutalibi(ə) başqalarından fərqləndirən digər bir cəhəti yürütdüyü siyasətdəki qətiyyəti olmuşdur. O, heç vaxt hiyləyə əl atmır, bü-

[1] Nəhcül-bəlağə, 45-ci məktub

[2] Mustədrəku Nəhcül-bəlağə, c-5, s-33

tün işlərini açıq şəkildə həyata keçirirdi. Məhz bu səbəbdən hakimiyyətə çatmaq və ya onu qorumaq yolunda istənilən hiylədən istifadə etməyi məqbul sayan istər o dövrün, istərsə də sonrakı dövrlərin siyasətçiləri o Həzrəti siyasət adamı kimi qəbul etməmiş, ona yersiz iradlar bildirmişlər. Ancaq Əli(ə) də müxtəlif vaxtlarda layiqli cavablar verməklə onları yerinə otuzdurmuşdur. Məsələn, xütbələrinin birində buyurur: "Vallah, Müaviyə məndən heç də zirək deyil, o, sadəcə olaraq xəyanətə əl atır. Əgər xəyanət etmək pis iş sayılmasaydı, onda mən dünyanın ən zirək(və ən siyasətcil) adamı olardım."[1]

Digər bir yerdə buyurur: "Vay olsun onlara! Onların hiylələrindən xəbərdar olduğum halda yenə də mənə qarşı hiyləyə əl atırlar. Mən hiylənin yollarını onlardan da yaxşı bilirəm. Ancaq onu da bilirəm ki, hiylə və kələkdən istifadə edənin yeri Cəhənnəmdir. Buna görə də hiylələrin qarşısında dözür, onların etdiyi kimi etmirəm."[2]

Başqa bir yerdə buyurur: "Əgər hiyləgər və xəyanətkarın yeri Cəhənnəm olmasaydı, mən camaatın ən hiyləgəri olardım."

Bu məqamda İmam Əlinin (ə) Misirə hakim təyin etdiyi Malik Əştərlə olan əhd-peymanını olduğu kimi əziz oxucularımızın ixtiyarına vermək istərdik. Bu Nəhcül Bəlağənin 53-cü məktubunda göstərilmişdir. Hənim məktubda oxuyuruq:

"*Ruzi verən və bağışlayan Allahın adı ilə*

Bu, Allahın bəndəsi Əmirəl-möminin Əlinin Malik ibn Haris Əştəri Misirə, oranın vergilərini yığmaq, düşmənləri ilə vəziyyətinin yaxşılaşdırılması ilə məşğul olmaq və şəhərini abadlaşdırmaq üçün vali təyin edən zaman onunla olan əhdindəki əmrlərdir.

Ona pəhrizkarlıq edərək Allahdan qorxmağı, Onun əmrlərini üstün tutmağı və Öz kitabında (Qurani-Kərimdə) əmr etdiyi vacib və bəyənilmişlərə tabe olmağı əmr edir. Onlara (həmin vacib və bəyənilmiş şeylərə) əməl etmədən heç kəs xoşbəxt ola bilməz və hər bir kəs ancaq onlardan boyun qaçıraraq onları ayaq altına salmaqla bədbəxt olar. Həmçinin nöqsan sifətlərdənuzaq və pak olan Allaha (Onun dininə) qəlb, əl və dili ilə yardım etməsini əmr edir (Qəlbində iman və inamı olsun, əli ilə düşmənin qarşısını alsın, dili ilə isə yaxşı işlərə əmr edərək pis işlərdən çəkindirsin). Çünki adı uca olan Allah Ona yardım edənə yardım etməyə, Ona (dininə) hörmət göstərənə izzət bəxş etməyə zəmanət verib.

Ona əmr edir ki, şəhvət və istəklərin (tüğyan edən) zamanında öz nəfsini bassın və baş qaldıraraq itaətsizlik edən vaxt onun qarşısını alsın (ki, cilov onun əlinə düşməsin və çətinliklərə salmasın). Çünki Allah rəhm etdiyi kimsə istisna olmaqla, nəfs hər bir kəsə pis işlər görməyi əmr edir.

[1] Nəhcül-bəlağə, 198-ci xütbə

[2] Camius-səadat, c-1, s-202

Ey Malik, sonra bil ki, mən səni səndən qabaq ədalətli və zalım hökmdarları olmuş şəhərlərə göndərirəm. Sən özündən qabaqkı hökmdarlarına necə baxırsansa, xalq da sənin işlərinə həmin nəzərlərlə baxır. Sən onların barəsində nə deyirsənsə, camaat da sənin barəndə həmin şeyləri deyir. Allahın, bəndələrinin dillərində əzbər etdiyi (yaxşı və pis) sözlərdən, saleh və yaxşı əməl sahiblərini tanıyıb bilmək mümkündür. Buna görə də sənin ehtiyac günü üçün tədarük gördüyün şeylərin ən yaxşısı saleh əməl olmalıdır. Öz nəfsi istəklərinə hakim ol (Onların cilovunu əlində saxla ki, səni çətinliklərə salmasın). Halal və rəva olmayan şeyləri nəfsinə qıyma, simiclik et. Çünki nəfsə xoşladığı və ya xoşlamadığı şeydə simiclik etmək insaf və ədalətdir. Rəiyyətlə qəlbən mehriban, xoş rəftarlı və yaxşı ol. Məbadə onlara qarşı yeməklərini qənimət bilən yırtıcı heyvan kimi olasan. Çünki onlar iki dəstədirlər:

Ya sənin din qardaşındırlar, ya da yaradılışda sənin kimidirlər ki, ayaqları sürüşür, pisliklərə səbəb olan amillər onlara üz tutur və bilərəkdən və ya səhvən (bilmədən) onların əllərinə düşür. Buna görə də Allahın güzəşt edərək səni bağışlamasını istədiyin kimi, sən də güzəşt edib günahlarından keçməklə onları əfv et. Çünki sən onlardan, səni valiliyə göndərən səndən, Allah isə bu hökuməti sənə tapşıran, işlərini yerinə yetirməyini istəyən və səni onlarla sınayandan üstündür. Məbadə özünü Allahla mübarizəyə hazırlayasan (dinə qarşı çıxaraq xalqa zülm edəsən) ki, sən Onun qəzəbinə dözə bilməzsən və Onun bağışlamasına və mehribançılıqlarına möhtacsan. Heç vaxt əfv və güzəşt etməkdən peşman, cəzalandırmaqdan şad olma. Düçar olmamağını bacardığın qəzəbə tələsmə. (İtaətsizlik və qəlbiqaralıq üzündən) mən məmuram və (hər nə istəyirəmsə) əmr edirəm və gərək mənim əmrimi qəbul etsinlər, demə. Bu, qəlbin qaralması, dinin zəifləməsi və nemətlərin dəyişərək zavala uğramasına səbəb olar. Səltənət və hökümət sənə əzəmət və böyüklük və ya lovğalıq və özündən razılıq gətirən zaman Allahın səndən üstün olan səltənətinə, həmçinin Onun sənə nisbətdə sənin özünün aciz olduğun şeyə qadir olmasına nəzər sal və bax ki, bu baxış (Onun böyüklüyü barəsində düşünmək Allahı hər çeyə qalib bilmək) lovğalıq və itaətsizliyi yatırdar, dikbaşlığının qarşısını alar və səndən uzaqlaşmış ağıl və düşüncəni sənə qaytarar. Özünü Allahla Onun əzəmətində bir tutmaqdan və qüdrətində özünü Ona bənzətməkdən çəkin. Çünki Allah hər bir itaətsiz lovğanı xar edərək alçaldır. Allahla insaflı davran (Onun əmrlərinə əməl edərək qadağan etdiklərindən çəkin). Özün, yaxın qohumların və sevdiyin hər bir rəiyyət tərəfindən xalq barəsində insafı əldən vermə. Əgər belə etməsən, zülümkar olarsan. Allahın bəndələrinə zülüm edənlə, bəndələrin yerinə Allah düşmən olar. Allah, Onunla düşmən olanın dəlil və sübütunu puça çıxarar. Həmin kəs zülümdən əl çəkərək tövbə edib düz yola qayıdana kimi Allahla müharibədə olar. Allahın nemətlərinin dəyişməsində

və Onun tez qələbə gətirilməsində zülüm etməkdən təsirli bir şey yoxdur. Çünki Allah, məzlumların dualarını eşidən və zalımların pusqusunda dayanandır.

Sənin üçün işlərin ən sevimlisi haqda orta yolu tutmaq, onu bərabərlik baxımından ümumiləşdirmək və rəiyyətin şad olmasına daha çox səbəb olan ədalətlilik olmalıdır. Çünki kütlənin qəzəbi bir neçə nəfərin razılığını məhv edir kütlənin razılığı müqabilində bir neçə nəfərin qəzəbi əhəmiyyətsizdir. Rəiyyətin valiyə rifah və asayiş zamanı ən ağır yük olanı, çətinliklərdə ən az kömək edəni, ədalət və bərabərlik zamanı ən narazısı, istəklərdə ən çox israr edəni, bəxşiş veriləndə ən az şukur və minnətdarlıq edəni, rədd edəndə üzrü hamıdan gec qəbul edəni, dövranın çətinlikləri müqabilində səbr etməkdə ən zəifi xas təbəqədir. Dinin sütünu, müsəlmanların kütləvi birliyi və düşmənlər müqabilində hazır olan xalqın ümumi hissəsidir. Buna görə də gərək onlarla birgə olasan və meyl və rəğbətin onlarla olsun. Rəiyyətin, özündən ən çox uzaqlaşdıraraq düşmən saymalı olduğun adamı camaatın eyblərini danışmaqda israr edəni olmalıdır. Çünki camaatın eyb və nöqsanları var və onları örtməyə ən layiq olan kəs, validir. Buna görə də camaatın sənə gizli olan eyblərini axtarma ki, sənin vəzifən sənə məlum olanları ört-basdır etməkdir. Səndən gizlin olan şeylər barəsində Allah hökm edəcək. Belə isə Allahın, sənin rəiyyətdən gizlətmək istədiyin eyblərini örtməsi üçün bacardıqca camaatın eyblərinin üstünü ört. Camaatdan olan bütün kin düyünlərini aç. Səni intiqam və cəzaya birləşdirən bütün telləri qır. Sənə görə düz olmayan hər bir şeydə özünü bilməməzliyə vur. Qeybətçi və söz gəzdirəni təsdiqləmək və ona inanmaqda tələsmə. Çünki sözgəzdirən özünü öyüd verənlərin simasına salsa da xəyanətkar və hiyləgərdir.

Öz məsləhətləşmələrinə xəsis adamı daxil etmə ki, o, səni yaxşılıqdan və bəxşiş verməkdən saxlayar, yoxsulluq və kasıblıqla qorxudar; nə ürəksiz və qorxağı da daxil et ki, o, səni işlərdə süstləşdirər; nə də həris adamı ki, o, hərisliyinin çoxluğundan xalqa zülüm etməyi sənin gözündə gözəlləşdirər. Beləliklə, xəsislik, qorxaqlıq və hərislik bir-birindən ayrı müxtəlif xislətlərdirlər ki, Allaha qarşı pis gümanda olmaq onları bir yerə toplayır.

Sənin vəzirlərinin ən pisi səndən qabaq şər və pis əməlli insanların vəziri olmuş və günahlarda onlarda şərik olmuş vəzirdir. Buna görə də belə bir adam sənin yaxın və xüsusi adamlarından olmamalıdır. Çünki onlar günahkarların köməkçiləri və zalımların yoldaşlarıdırlar. Halbuki sən onların yerinə ölkənin işlərində onlar kimi gözəl düşüncə və yaxşı icraçılıq bacarığına malik olanlar arasından üzərində olanların günah və çirkin əməlləri olmayan, zalıma zülmündə və günahkara günahında yardım etməyərək əlbir olmamış ən yaxşı vəzir tapa bilərsən. Gərək sənin yanında onların ən üstünü o vəzir olsun ki, sənə, acı olan həqiqəti çox söyləyir və səni, Allahın Öz dostları üçün bəyənmədiyi danışıq və davranışında az tərifləyir,

hərçənd acı söz sənin istək və arzularını az tərifləmək ürəyinin sıxılmasına səbəb ola bilər.

Yaxşı iş görənlə pis iş görən kəs sənin yanında bir səviyyədə olmamalıdır. Çünki bu, yaxşı əməl sahiblərini yaxşılıq etməkdən həvəsdən salar, pis əməlliləri isə pislik etməyə məcbur edər. Onların hər birinə özlərinin seçdikləri şeylə əvəz ver. Bil ki, valinin rəiyyətə yaxşılıq etməsindən, xərclərini yüngülləşdirməsindən və onlardan əsassız inciməməsindən yaxşı heç nə, onun onlara münasibətdə nikbinliyinə səbəb olmur. Buna görə də gərək bu barədə rəiyyətin barəsində nikbin olmağına səbəb olan işlər görəsən. Sənin ona qarşı nikbin olmağına ən layiqli kimsə, çox yaxşılıq edərək yaxşı sınadığın kimsədir. Barəsində bədbin olmağına ən layiqli kimsə isə pis rəftar edərək az sınadığın şəxs olmalıdır.

Bu ümmətin başçı və böyüklərinin əməl etdikləri, camaat arasında ülfət və ünsiyyət yaranmasına səbəb olmuş və rəiyyəti onun işlərini sahmana salmış gözəl adət və qaydanı pozma. Keçmiş adətlərdən nəyəsə ziyan vuran ənənə və üsulları icra etmə. Çünki savab və mükafat həmin gözəl adət və qaydaların kökünü qoyanın, günah isə həmin adətləri pozduğun üçün sənin olacaqdır.

Bil ki, rəiyyət bir neçə təbəqədən ibarətdir ki, bəziləri yalnız digər bəziləri ilə qaydaya, nizam-intizama düşür, bir dəstə digər dəstəyə möhtacdır. Beləliklə, onların bəziləri Allahın orduları, bəziləri ümumi və xüsusi katiblər, digər bir qismi ədalətli qazılar, başqa bir hissəsi insaflı və mülayim davranan işçilər, bəziləri himayədə olan cizyə verənlər və xərac verən müsəlmanlar, digər bir qismi tacirlər və sənət sahibləri, başqa bir dəstəsi möhtac və miskinlərdən ibarət aşağı təbəqədir. Allah bu təbəqələrin hər birinin pay və səhmini zikir edib, onun vacibi ölçü miqdarını Öz kitabında (Qurani-Kərimdə) və ya Peyğəmbərinin (s) sünnəsində əhd və əmr formasında bəyan edib ki, onlar bizim yanımızda saxlanılaraq qorunub. Əsgərlər Allahın əmri ilə rəiyyət üçün qala və istehkam kimi, valilərin zinət və bəzəyi, dinin izzəti və əmin-amanlıq yollarıdırlar. Rəiyyətin bərqərar olması ancaq onların mövcudluğundan asılıdır. Əsgərlərin nizam intizamı və asayişi isə Allahın onlar üçün müəyyənləşdirdiyi xəracdan başqa heç nə ilə təmin olunmur. Onlar, onun vasitəsilə düşmənləri ilə vuruşmağa güc və qüdrət əldə edirlər və işlərini sahmana salmaqda ona arxalanırlar. Xərac əsgərlərin ehtiyacı olan zaman işlədilir. Bu iki dəstənin dayağı və asayişi isə ancaq üçüncü dəstədən asılıdır ki, bağlantılar barəsində hökm çıxaran qazılar, vergi və xərac toplayan məmurlar, ümumi və xüsusi işlərdə etimad edilən katiblərdən asılıdır. Bütün bu dəstələrin rahatlıq və asayişi isə ancaq gəlir və xeyirlərini toplayıb bazarlar yaradan və özlərindən başqalarının səy və tələşlarının qura bilmədiyi işləri quran tacir və sənət sahibləri vasitəsi ilə təmin olunur. Bu dəstələrdən sonra möhtac və yoxsullardan ibarət aşağı təbəqə gəlir və (varlılara), onlara əl tutaraq kömək etmək vacib və lazımdır. Allah yanında bu təbəqələrin hər biri üçün gen-bolluq, firavanlıq vardır. Bu dəstənin

hər birinin, valinin boynunda, onun işini sahmana salmaq miqdarında haqqı var. Vali Allahın ona vacib etdiyi şeyin öhdəsindən ancaq səy və təlaş etmək, Allahdan yardım istəmək, özünü haqqın həyata keçirilməsinə hazırlamaq və çətin və asanlığından asılı olmayaraq hər bir işdə səbr etməklə gələ bilər.

Buna görə də əsgərlərindən o adamı təyin et ki, Allah və Onun Peyğəmbəri üçün, həmçinin imam və rəhbərin üçün, daha çox öyüd qəbul edən, daha təmiz ürəkli, daha ağıllı və səbrli olsun. Həmin şəxs gec qəzəblənənlərdən, üzrü tez qəbul edənlərdən olsun.

Buna görə də şərəfli və nəcib ailələrdən olanlar, gözəl keçmişə malik kimsələrlə, həmçinin igidlər, şücaətlilər, səxavətlilər və comərdlərlə otur-dur. Çünki onlar böyüklük və toplusu və yaxşılığın qol-budağıdırlar. Belə isə övladlarına can yandıran valideyn kimi onların işinə can yandır. Onlara olan və onları qadir edən yaxşılığın sənə böyük gəlməməlidir. Çünki yaxşılıq onları sənə xeyirxah və xoşbin edər. Onların böyük işlərini yerinə yetirməyə arxalanmaq və ümid bəsləməklə az əhəmiyyətli işlərdə onlara kömək etməyi tərk etmə. Çünki sənin kiçik yaxşılığının öz yeri var və onlar ondan bəhrələnirlər. Eləcə də böyük yaxşılıqlarının öz yeri var ki, onlar ona möhtacdırlar. Gərək qoşun başçılarının ən seçilmişi və üstünü qoşunla yoldaşlığında bərabərlik edəni, insaflısı və qoşunun düşmənlə döyüşdə yekdil olması üçün öz imkanatından asayişdə olmaları miqdarında onlara və ailələrinə ehsan edən kimsə olsun. Valiləri şad edən ən gözəl şey şəhərlərdə ədaləti bərqərar etmək və rəiyyətin arasında məhəbbəti üzə çıxarmaqdır. Onların məhəbbəti ancaq sinələrinin salamat qalması ilə üzə çıxır. Onlar valilərin qorunmasını istəmələri, onların ətrafında olmaları, hakimiyyətini ağır saymamaları və onların hökümət müddətinin başa çatmasını gözləməməkdən başqa heç bir şeylə xeyirxah olmurlar. Buna görə də onların arzularını yerinə yetir. Onları yaxşı yad et və sınaqdan keçib əziyyət çəkənlərin çalışqanlıqlarını dilə gətir. Çünki onların yaxşı iş görənlərini yad etmək şücaət sahibini həyəcanlandıraraq hərəkətə gətirər və Allahın istəyi ilə oturanı həvəsləndirər.

Buna görə də onların hər birinin zəhmət və işini onun özü üçün hesab et və birinin zəhmətini digərinə nisbət vermə. O, işini sona çatdırdıqda onu mükafatlandırmaqda səhlənkarlıq etməlisən. Həmçinin, kiminsə böyüklüyü səni onun kiçik işini böyük hesab etməyə, eləcə də birinin kiçikliyi onun böyük zəhmət və işini kiçik saymağa vadar etməməlidir.

Aciz qaldığın çətin işləri, sənə şübhəli görünən işləri Allaha və Onun Peyğəmbərinə həvalə et. Çünki Allah Qurani-Kərimin Nisa surəsinin 59-cu ayəsində hidəyət etmək istədiyi dəstəyə belə buyurub:

"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə (imam, rəhbər və Həzrət Peyğəmbərin haqq olan xəlifə və canişininə) itaət edin. Əgər bir iş barəsində mübahisə etsəniz (ixtilafa düçar olsanız) onu, Allaha və

Peyğəmbərə həvalə edin (belə hallarda onlara müraciət edin, nəfsi istəklər üzündən hökm çıxarmayın ki, bu məhvə səbəb olar."

Beləliklə, xalq arasında qəzavət və hakimlik üçün rəiyyətin ən yaxşısını seç. Eləsini ki, işlər ona çətin gəlməsin, çəkişməyə düşmüş kəslər dava və qalmaqal barəsində öz nəzərlərini ona qəbul etdirə bilməsinlər, mütəmadi olaraq səhvə yol verməsin, haqqı dərk edəndə ona qayıtmaqda aciz qalmasın, nəfsi tamah və hərisliyə meylli olmasın, lazımınca düşünmədən az anlayışla kifayətlənməsin, şübhəli məqamlarda hamıdan çox götür-qoy etsin, dəlil və sübutları hamıdan çox öyrənib mənimsəsin, çox tərifləmək onu xudbinliyə düçar etməsin və məcburiyyət və kələk onu meylli etməsin. Bu sifətlə zinətlənmiş hakimlər az ələ düşürlər. Bundan sonra onun çıxardığı hökmlərdən ətraflı xəbər tut, yoxla. Ona o qədər bəxşiş et və yaşayışını elə gen-bol təmin et ki, üzr və bəhanə gətirməsinə yer qoymasın və həmin bəxşiş səbəbindən xalqa ehtiyacı az oslun. Beləliklə, qazıları seçmək və onlar üçün saydığım sifətlər barəsində hərtərəfli fikirləş. Çünki bu din şər və pis əməlli adamların əlində əsir olub, onunla nəfsi istəklər əsasında davranılıb və onun vasitəsilə dünya istənilib.

Sonra məmur və icraçıların işlərinə nəzər sal, diqqət et. Onları sınaqdan keçirdikdən sonra işə təyin et. Onları öz istəyinlə, onlara kömək məqsədilə və özbaşına bir işə göndərmə. Çünki kimisə öz istəyinlə və özbaşına hər hansı bir işə təyin etmək rəiyyətə zülüm və xəyanət budaqları toplumudur. Onları sınanılmış, nəcib və ləyaqətli ailələrdən olan həyalılardan və İslamda öncül olanlardan təyin et. Çünki onlar gözəl əxlaq və xasiyyətə, düzgün namus və şərəfə, az tamaha və işlərin sonunu görməkdə düzgün fikrə malikdirlər. Sonra onların ərzaq paylarını gen-bol ver. Əgər əmrinə tabe olmasalar, və ya əmanətinə xəyanət etsələr, bu, sənin onlara qarşı dəlil və sübutundur. Sonra onların işini təftiş et, yoxla. Onlara doğruçu və vəfalı müfəttişlər göndər. Çünki sənin onların işlərini gizlin şəkildə yoxlamağın onların düz və rəiyyətlə yumşaq və mülayim davranmağa məcbur olmalarına səbəb olar. Özünü yardımçı və köməkçilərdən qoru. Əgər onlardan biri xəyanət və nadürüstlük etsə və müfəttişlərinin onun xəyanəti barəsindəki xəbərləri biri-biri ilə üst-üstə düşsə, həmin xəbərlərlə kifayətlən. Buna görə gərək ona bədən cəzası verəsən və onu əməlinə görə tənbeh edəsən. Sonra onu dəyərsiz və xar et, ona xəyanət damğası vur və töhmət və bədnamlıqla arını boynundan as ki, nadürüst insanlar üçün ibrət olsun.

Vergi işlərində vergi verənlərin xeyrinə araşdırma apar. Çünki verginin və vergi verənlərin xeyrində başqalarının dinclik və rahatlığı var. Camaatın hamısı verginin və vergi verənlərin çörəkyeyənləridir. Sən vergi almaqdan çox vergi alınan yerlərin abadlığına diqqət yetirməlisən. Çünki vergi ancaq abadlıqla əldə edilir. Əgər vergi verənlər müəyyənləşdirilmiş verginin ağırlığından, xəstəlik və bəladan, su payının kəsilməsindən, yağış yağmaması və şeh düşməməsindən, suyun örtdüyü yerin

dəyişməsindən və ya susuzluğun əkinləri məhv etməsindən şikayətlənsələr, onların vergilərini işlərinin düzələrək yaxşılaşacağına ümid bəslədiyin qədər yüngülləşdir. Onların yüklərini yüngülləşdirmək sənə ağır gəlməməlidir. Beləliklə, qarşıya elə bir hadisə çıxa bilər ki, etdiyin yaxşılıqdan sonra onu onlara tapşırarsan və onlar onu sevinclə yerinə yetirərlər. Çünki abad məmləkətə hər nə yükləsən çəkə bilər. Yer həmişə əhalisinin yoxsulluğu üzündən viran olur. Rəiyyətin yoxsul və pərişan olmasının səbəbi isə hökmdarların ancaq mal-sərvət toplamaq fikrində olmaları, höküməddə qalmağa bədbinlikləri və hadisələr, ibrətlər və dövranın gedişi barəsindəki düşüncələrdən az bəhrələnməkləridir.

Ondan sonra katiblərinin işinə nəzər sal və onların ən yaxşısını işə təyin et. Düşmənin qarşısını almaq və dövlətçilik barədə plan və sirlərini açıqladığın məktubları elə adama həvalə et ki, bütün bəyənilmiş xüsusiyyətlərdə digər katiblərdən zəngin olsun. Elə bir adamı ki, məqam və böyüklük onu, camaatın və böyüklərin hüzurunda sənə qarşı çıxmaqdan çəkinməmək həddinə qədər cürətləndirməsin, qafillik və unutqanlıq məmurlarının məktublarının sənə çatdırılmasında və onlara sənin tərəfindən gözəl cavab verilməsində, eləcə də sənin üçün aldığı və sənin tərəfindən bağışladığı şeylərdə səhlənkarlıq etməsinə səbəb olmasın, sənin xeyrinə olacaq müqaviləni süst bağlamasın (onu möhkəm və tutarlı yazsın), sənin zərərinə bağlanmış müqavilənin düyününü açmaqda aciz olmasın və işlərdə öz yerini və qədir-qiymətini bilsin. Çünki öz məqam və işini bilməyən kəs başqasının yerini və işini heç bilməz. Bir də onları öz ayıq-sayıqlığın, inamın və nikbinliyinə əsaslanaraq işə təyin etməlisən. Çünki insanlar vali və hökmdarların ürəklərini ələ almaq üçün özlrini bəzədilmiş yaxşı xidmət edən kimi tanıtdırırlar. Halbuki onlarda özlərindən biruzə verdikləri və özlərini bəzədikləri şeylərin arxasında xeyirxahlıq və əmanətə sədaqətdən əsər-əlamət yoxdur. Lakin onları səndən qabaqki yaxşılar üçün gördükləri işdə sına. Sonra onların xalq arasında tanınmışlarının ən yaxşılarını və əmanətdə məşhur və adı dillərdə olanların ən düzünü seç. Sənin bu sınağın Allaha və işləri sənə tapşıran kəsə (İmama(ə)) tabe olmağına bir dəlildir. İşlərinin hər biri üçün katiblərdən bir rəis və müdir təyin et ki, işlərin böyüklüyü onu məğlub və aciz, çoxluğu pərişan etməsin. Əgər katiblərində bir eyib və nöqsan olsa və sənin ondan xəbərin olmasa, həmin pisliyə görə səndən də yapışarlar. (Onun məsuliyyəti sənindədir).

Sonra tacirlər və sənət sahibləri barəsindəki tapşırıqları qəbul et və öz məmurlarına onlara yaxşılıq etməyi tapşır, istə onların məskunlaşaraq oturaq sakanı olsun, istər öz mal və sərvəti ilə get-gəl edəni, istərsə də öz bədəni (fiziki əməyi) ilə fayda verənlər! Çünki onlar mənfəət amili və mənbəyidirlər və malı sənin hakimiyyətinin əhatədairəsində olan səhra, dəniz, düzənlik və dağlıqların çətin yollar və nöqtələrindən – camaatın toplaşmadığı və getməyə cürət etmədiyi yerlərdən gətirənlərdir. Beləliklə, tacirlər sərtlik qorxusu olmayan asudəlik,

həmçinin şər və pislik gözlənilməyən sülh və barışıq adamlarıdır. Özün olan yerdə və şəhərlərinin kənar-bucağında onların işlərini yoxla. Onlar barəsində olan bütün tapşırıqlarla bərabər bil ki, onların çoxunda hədsiz hərislik, çirkin və xoşagəlməz xəsislik, baha satmaq üçün möhtəkirlik və istədiyi kimi qiymət qoymaq xisləti var. Onların bu işləri xalqa ziyan dəyməsinə ziyan dəyməsinə səbəb olur və bu, valilərə nöqsandır. Buna görə də möhtəkirliyin qarşısını al. Çünki Allahın Peyğəmbəri (s) onu qadağan edib. Alış-veriş gərək asan, əyər-əskiyi olmayan tərəzilərlə elə qiymətə aparılsın ki, satana və alana zülüm və haqsızlıq olmasın. Beləliklə, sənin qadağa qoyduğundan sonra möhtəkirlik edəni cəzalandır, elə cəzalandır ki, onun rüsvay olmasına səbəb olsun. Amma həddini keçməsin.

Sonra çarəsiz, aciz, yoxsul və möhtaclardan, eləcə də çətinlik, xəsislik və zəifliyə düçar olmuşlardan ibarət aşağı təbəqə barəsində Allahdan qorx, Allahdan qorx! Çünki bu təbəqə içərisində həm həqirlik və biçarəliyini üzə çıxarıb istəyənlər, həm də bəxşişə möhtac olmasına baxmayaraq, onu zahirdə bildirməyənlər var. Allahın razılığını qazanmaq üçün Onun öz haqqından, onlar barəsində sənə əmr etdiyini yerinə yetir və əlində beytülmalın bir hissəsini, eləcə də hər bir şəhərdə İslamın qənimət yolu ilə aldığı yerlərin taxıl və məhsulunun bir qismini onlara qyır. Çünki onların ən uzaqda olanı ən yaxında olan qədər pay və bəhrəyə malikdir. Səndən onların hər birinin hüquqlarına riayət etmək istənilib. Buna görə də şadlıq itaətsizliyi və naz nemətə qərq olmaq səni onların halini bilməkdən saxlamasın. Çünki sən, barəsində səy və diqqətin çox olan böyük işləri möhkəmləndirməyin üçün kiçik işləri əldən çıxartmağa görə üzürlü sayılmırsan. Buna görə də səyini onlardan əsirgəmə və itaətsizlik səbəbindən onlardan üz döndərmə. Yoxsul və zəiflərin – gözlərin xar və həqirliklə baxdığı, xalqın kiçik saydığı kimsələrin – sənə əli çatmayanlarının işləri ilə maraqlan, araşdır. Beləliklə, onlar üçün özünün Allahdan qorxan və təvazökar olan inanılmış nümayəndəni təyin et ki, onların işlərini sənə çatdırsın. Sonra onların barəsində elə işlər gör ki, Qiyamətdə Allaha qovuşacağın gün üzrünü qəbul etsinlər. Çünki onlar rəiyyət arasında ədalət və insafa başqalarından daha çox möhtacdırlar. Beləliklə, onların hər birinin haqqını əda etməkdə Allah yanında dəlil və sübuta malik ol. Az yaşlı yetimləri və çarəsiz və özlərini xahişə hazırlamamış yaşlı qocaları öhdənə götür. Dediklərimiz valilərə ağır və çətindir. Ümumiyyətlə, Haqqın hamısı ağırdır. Bəzən Allah onu gözəl mükafat və nicat axtaranlara, özlərini səbrə vadar edənlərə və Allahın vəd etdiyinin (əbədi Cənnətin) düzlüyünə inananlara yüngülləşdirər.

Vaxtının bir hissəsini sənə ehtiyacı olanlara ayır və həmin vaxt özünü onlar üçün hazırlayaraq ümumi məclisdə otur. Səni yaradan Allaha görə təvazökar ol. Öz gözətçi və qaravulçularından olan əsgər və qapıçılarını onlara mane olmaqdan saxla ki, onların nümayəndələri kəkələməkdən, qorxub çəkinmədən danışsın. Çünki mən Həzrət Peyğəmbərin (s) dəfələrlə belə buyurduğunu eşitmişəm ki,

“Heç bir ümmət, zəifin haqqı güclüdən kəkələmədən, qorxub çəkinmədən alınmayınca paklaşmaz, ülviləşməz”. Sonra onların sərtlik, kobudluq və söhbət qaydalarını bilməmələrinə döz və üzə vurma. Tünd xasiyyətliliyi və özünü bəyənməyi özündən uzaqlaşdır ki, Allah Rəhmət qapılarını sənin üzünə açsın və itaət və tabeçilik mükafatını sənə əta etsin. Bağışladığın bir şeyi xoş üzlə bağışla. Həmçinin mehribançılıq və üzrxahlıq əsirgə.

İşlərinin içərisində bəziləri də var ki, onları gərək sən özün yerinə yetirəsən. Onlardan biri məmurlarına katiblər aciz qalanda cavab verməkdir. O işlərdən biri camaatın, köməkçilərinin darıxmasına səbəb olan istəklərini sənə çatan gün yerinə yetirməyindir. Hər günün işini həmin gün gör. Çünki hər günün özünə məxsus işi var. Vaxtın ən gözəl və fəzilətlisini özünlə müəyyənləşdir, ayır. Hərçənd ki, əgər onda niyyət və məqsəd pak və rəiyyət ondan asayişdə olsa, vaxtların hamısı Allaha məxsusdur.

Ancaq və ancaq Allaha görə olan vacib əməllərin yerinə yetirilməsi, gərək dinini Allah üçün xalisləşdirdiyin xüsusi vaxtda olsun. Beləliklə, gecə və gündüzündə Allaha ibadət et. Vasitəsilə Allaha yaxınlaşdığın şeyə vəfalı ol. Çalış ki, bədənini əzginləşdirsə də, onları kamil şəkildə, eyb və nöqsansız yerinə yetirəsən. Namazını camaatla qılanda xalqı özündən uzaq və incik, namazı isə zay və xarab etmə. Çünki camaat içərisində əlil, xəstə və möhtac və işi olan var. Allahın Peyğəmbəri (s) məni Yəmənə göndərəndə soruşdum ki, “onlarla necə namaz qılım?” Buyurdu: “onlarla ən zəif və acizləri kimi namaz qıl və möminlərə qarşı mehriban ol!”.

Bu göstərişlərdən sonra məbadə özünü rəiyyətin gözündən çox gizlədəsən. Çünki valilərin rəiyyətə görünməməsi sıxıntı, az elmlilik və işlərdən xəbərdar olmamağın bir hissəsidir. Həmçinin valilərin rəiyyətə görünməməsi onlara gizli olan şeylər haqqındakı məlumatları örtülü saxlayır. Beləliklə, valinin yanında böyük iş kiçik, kiçik iş isə böyük, gözəllik çirkinlik, çirkinlik isə gözəllik görünər və Haqq və düzlük batil və nadürüstlüyə qarışar. Vali də adi bir insandır ki, xalqın ondan gizlədilən işlərindən xəbərdar ola bilmir. Haqqın da elə bir əlamətləri yoxdur ki, onların vasitəsilə düzlə yalanın növləri tanınsın. Sən iki adamdan birisən:

1. Biri budur ki, Haqq və düzlüyü əda etməkdə səxavətli və əliaçıqsan. Belə olan halda, vacib Haqqı əda etməyin və ya gözəl bir iş görməyin üçün üzə çıxmamağının səbəbi nədir?

2. Yaxud da sən bərk və bəxşiş etməyən bir adamsan. Belə olan halda tezliklə xalq səndən bir şey istəməkdən əl çəkər. Çünki sənin bəxşişindən naümid olar. Halbuki xalqın səndən istəklərinin çoxu xərc və zəhməti olmayan – zülümdən şikayətlənmək, yaxud davranış və rəftarında insaflı və ədalətli olmağı istəmək kimi şeylərdir.

Sonra bil , valilərin bəzi yaxınları və qohumları var ki, özbaşınalıq, itaətsizlik, əliuzunluq və insafsızlığa adət ediblər. Həmin sifətlərə səbəb olan amilləri kəsib

uzaqlaşdırmaqla onların şərlərinin kök və əsaslarını qurut. Ətrafında olanlardan, əhli-beytin və qohumlarından heç kəsə torpaq vermə. Gərək heç kəs səndən tarla və əkinəcək alıb onun qonşuluğundakı camaata su mənbəyində ziyan vurmaq, yaxud müştərək görülməli işdə şərikli işin çətinlik və ağırlığını qonşulara yükləmək tamahına düşməsin. Belə olan halda, onun xeyir və mənfəəti sənin deyil, onların olacaq. Onun dünya və axirət eyib və məzəmməti isə sənə qalacaqdır. Haqq layiqli və bəyənilən olduğu üçün qohum və yaddan olmasından asılı olmayaraq onu icra et. Bu işdə səbrli və əvəz istəyən ol və hətta Haqqı icra etmək nəticəsində qohum və yaxınlarına hər nə olsa belə! Sənə olan ağırlıqla Haqqın sonuna bax ki, onun sonu bəyənilən və bərəkətlidir. Əgər rəiyyət sənin barəndə zalımlıq gümanında olsa, üzr və dəlilini onlara açıqla və bu açıqlama ilə onların gümanlarını onlardan uzaqlaşdır. Çünki sən bu işlə özünü ədalət və insafa öyrəşdirərək adət verər və rəiyyətə mehribançılıq göstərmiş olarsan. Həmçinin bu üzr gətirməklə sən onları Haqqa vadar etmək barəsindəki istəyinə çatmış olarsan.

Düşməninin səni çağırdığı və Allahın da razılığı olan sülh və barışıqdan boyun qaçırma. Çünki barışıqda ordunun rahatlığı, qəm-kədərin asayişi və şəhər əhalisi üçün əmin-amanlıq vardır. Amma barışıqdan sonra düşmənindən çəkin və qorx. Çünki çox vaxt düşmən, özünü yaxınlaşdırır ki, tərəfmüqabilini qəfildən haqlasın. Buna görə də ehtiyyatlı olmağa işi möhkəm görməyə adət et və tez, nikbinlik və yaxşı güman yükünün altına girmə. Əgər düşməninlə bir əhd bağlasan və öz tərəfindən ona aman əhdinə vəfa et və verdiyin pənah və sığınacağa riayət et, özünü bağladığın əhd-peymana sipər et. Çünki insanlar, ziddiyyətli istəklərə və fikir ayrılığına malik olmalarına baxmayaraq, Allahın vacib buyurduqları içərisində əhdə vəfa etməyi uca tutmaq kimi heç nə barəsində yekdil deyildirlər. Müşriklər də müsəlmanlardan qabaq öz aralarında əhdə vəfa etməyi zəruri bilirdilər. Çünki əhdi pozmağın xoşagəlməz və pis nəticələrini başa düşmüşdülər. Buna görə də öz verdiyin amana xəyanət edib öz əhdini pozma və düşmənini aldatma. Çünki bədbəxt nadanlardan başqa heç kəs Allaha qarşı çıxmaz, cürət etməz. Allahın əhdi Onun Rəhmət və mehribanlıqla bəndələri arasında yaydığı əmin amanlıq və rahatlıqdır. Onu sığınacaq edib ki, möhkəmliyi ilə yaşayaraq ona pənah aparsınlar. Buna görə də onu pozmaq və onda hiylə işlətmək rəva deyil. Elə bir əhd-peyman bağlama ki, onda başqa bir yerə yozmaq, bəhanə gətirmək və hiylə, kələk işlətmək yolu olsun. Əhd-peymanı bərqərar edib möhkəmləndirdikdən sonra ikibaşlı söz işlətmə. Barəsində Allahın əhdinə riayət etməli olduğun işin çətinliyi səni, onu nahaq yerə pozmağa vadar etməsin. Çünki sənin, mükafatında asayiş və artım olmasına ümidvar olduğun çətin işə səbr etməyin, dünya və axirətdə əfv və bağışlanmasını istəmək yolu ilə olmayan bunu edə bilməyəcəyin hiylə və kələyin günah və cəzasından və Allah tərəfindən sorğu-suala tutulmağından qorxmaqdan daha yaxşıdır.

Qanlardan və onu nahaq yerə tökməkdən qorx. Çünki nahaq qan tökmək kimi heç nə əzab və cəzanın çoxluğuna, sorğu-sualın böyüklüyünə, nemətin əldən çıxmasına layiq olmağa və ömrün sona çatmasına səbəb olmur. Nöqsan sifətlərdən pak olan Allahın, Qiyamət günü, barəsində bəndələr arasında hökm edəcəyi ilk şey tökülmüş qanlar olacaqdır. Buna görə də hökümətini haram qan tökməklə möhkəmləndirərək bərqərar etmək istəmə. Çünki haram qan tökmək hökümət zəiflədərək süstləşdirən, hətta onu aradan aparan və bir sülalədən digər sülaləyə keçirən işlərdəndir. Sən qəsdən adam öldürmək barəsində nə Allahın və nə də mənim yanımda üzrlü hesab eilməzsən. Çünki həmin təqdirdə bədən qisası almaq lazım gəlir. Əgər xəta və səhv üzündən başqasını öldürsən, qamçın və ya qılıncın işgəncə verməkdə həddini aşsa – deməli, yumruq vurmaq və ondan yuxarısı da öldürməkdir – hökümət qürurun səni, öldürülmüş şəxsin sahib və qohumlarına onun qanbahasına ödəməkdən saxlamalıdır.

Özünü bəyənməkdən, səni məğrurluğa sövq edən şeylərə arxalanmaqdan və camaatın səni çox tərifləmələrini sevməkdən çəkin. Çünki bu hal şeytanın yaxşı əməl sahiblərinin yaxşılıqlarını aradan aparması üçün ən mühüm fürsətlərindəndir.

Rəiyyətə, etdiyin yaxşılığa görə minnət qoymaqdan, gördüyün işi olduğundan artıq saymaq və ya ona verdiyin vədə vəfa etməməkdən çəkin. Çünki minət qoymaq yaxşılığı nəticəsiz edir. İşi olduğundan artıq güman etmək Haqqın nurunu söndürür. Vədə vəfa etməmək də Allahın və xalqın qəzəbinə səbəb olur. Allah Təala Səff surəsinin 3-cü ayəsində buyurur:

“Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar”.

Vaxtı çatmamış işlərdə tələsməkdən, çatılan zaman onların arxasınca düşüb bərk çalışmaqdan, kələfin ucu məlum olmayan zaman inadkarlıq göstərməkdən, yaxud ələ düşəndə onlarda süstlük göstərməkdən çəkin. Beləliklə, hər bir şeyi öz yerinə qoy və hər bir işi öz vaxtında yerinə yetir.

Xalqın bərabər olduğu şeyi ancaq özünəməxsus etməkdən qorx. Hamının bildiyi işlərdə sənin diqqət etməli olduğun şey barəsində özünü nadanlığa vurmaqdan çəkin. Çünki o, (zülümlə aldığın şey) səndən, başqası üçün geri alınacaqdır. Tezliklə işlər üzərindən pərdələr götürülər və məzlumun və zülmə məruz qalanın haqqı səndən alınar. Qəzəbin şölənəndə, itaətsizliyin kəskinləşəndə, əlinlə hücum edəndə və dilin acılaşaraq çirkin sözlər danışanda özünü ələ al. Tələsməmək və hücumu təxirə salmaqla bu çirkin işlərdən çəkin ki, qəzəbin yatsın və həmin vaxt güc və ixtiyar taparaq özünü ələ alarsan. Rəbbinə doğru qayıdacağını çox yadına salıb fikirləşməyincə özünü ələ ala bilməyəcək, qəzəbdən qurtulmayacaqsan.

Sənə səndən əvvəlkilərinin başlarına gələnləri – çıxardıqları ədalətli və düzgün hökmləri, yaxud əməl etdikləri gözəl ənənələri, yaxud da Peyğəmbərimizdən (s) nəql etdikləri xəbərləri, ya da Allahın kitabındakı vacib əməlləri yerinə yetirmələrini – yada salmaq vacibdir. Beləliklə, bu işlərdən əməl etdiyimizi gör-

düyün şeyləri sən də et və bu əhdnamədə sənə tapşırdıqlarıma tabe olmağa çalış. Mən bu əhdnamə ilə sənə ünvanlanmış dəlillərimi möhkəmləndirdim ki, nəfsin istəklərə doğru tələsəndə heç bir bəhanən olmasın. Allahdan başqa pislikdən qoruyan və yaxşı işə nail edən heç bir kimsə qətiyyən yoxdur. Allahın Peyğəmbərinin (s) mənə olan vəsiyyətlərində əhd bağlayaraq tapşırdığı şey namaz və zəkata, eləcə də qullarınızla mehriban olmağa təşviq etmək və bu yolda çalışmaq idi və mən O Həzrətin vəsiyyət və tapşırığını sənə yazdığım əhdin sonluğu edirəm. Uca və əzəmətli Allahın iradə və istəyi olmadan heç kəsdə bir hərəkət və qüdrət yoxdur.

Bu da həmin əhdnamənin bir hissəsi və sonudur

Və mən Allahdan istəyirəm ki, Rəhminin genişliyi və hər bir mətləbi vermək qüdrətinin böyüklüyü ilə məni və səni razılığı onda olan şeyə - Onun və yaratdıqlarının qarşısında üzrə malik olmağa, bəndələr arasında yaxşılıqla xatırlanmağa, şəhərlərdə gözəl nişanələr qoymağa, neməti tam və izzəti artıq olmağa müvəffəq etsin. Həmçinin mənim və sənin həyatını səadət və şəhadətlə (Allah yolunda öldürməklə) sona çatdırmasını diləyirəm. Biz Ona tərəf dönəcəyik. Salam olsun Allahın elçisinə (Həzrət Mustafaya); ona və onun pak və təmiz Əhli-Beytinə Allahın salamı olsun!

Aişə, Təlhə və Zübeyrin Bəsrəyə getməsi

Qeyd etdiyimiz kimi Təlhə ilə Zübeyr Əli ibn Əbutalibə(ə) beyət etdikdən cəmi dörd ay Mədinədə qalırlar. Sonra isə beyətlərini pozaraq ümrə ziyarəti bəhanəsilə Məkkəyə gedib o həzrətə qarşı döyüş hazırlığı görməyə başlayırlar. Digər tərəfdən Osmanın vali təyin etdiyi, Əlinin(ə) isə işdən kənarlaşdırdığı və vəzifədən gedərkən özləri ilə çoxlu mal-dövlət götürmüş Bəni-Üməyyə nümayəndələri də bu məsələdən xəbər tutub özlərini Məkkəyə yetirərək Aişə, Təlhə və Zübeyrə qoşulur, döyüşdə onlara hər cür kömək edəcəklərini bildirirlər. Təlhə ilə Zübeyr Bəsrə və Kufə şəhərlərində onları dəstəkləyən adamlara gizli qasidlər vasitəsilə məktublar göndərib döyüşə hazır olmalarını tapşırırlar. Döyüşün əsas xərcini isə vaxtilə Yəmən və Bəsrədə vali olmuş və oranın beytülmalını talamış Yəla ibn Üməyyə və Abdullah ibn Amir öz öhdələrinə götürürlər. Tarixçilərin yazdığına görə təkcə elə Yəla ibn Üməyyə altı yüz baş dəvə və altı min dirhəm ödəyir. Məkkədən çıxarkən onların ixtiyarında üç min nəfərlik bir ordu var idi. Aişə də öz növbəsində orduda iştirak etmək məqsədilə səksən dinara bir dəvə alır. Əskər adlandırılmış bu dəvəyə kəcavəsini də qoyub orduya qoşulur. Döyüş vaxtı onun kəcavəsini pərdələmiş, pərdənin üstündən pələng dərisi örtmüş, onun da üstündən zireh çəkmişdilər. Hərəkət istiqamətlərini müəyyənləşdirmək üçün əvvəlcə məsləhətləşdilər ki, Mədinəyəmi getsinlər, yoxsa başqa şəhərə? Belə qərara gəldilər ki, Mədinə İslam hökumətinin mərkəzidir və təbii ki, əhalisi də

digər şəhərlərlə müqayisədə daha çoxdur, deməli, oranın camaatı qarşısında tab gətirə bilməzdilər. Şam camaatı da Müaviyənin əmrində idi və onlara təslim olmaq fikirləri yox idi. Ən yaxşısı bu idi ki, Bəsrəyə, oradan da Kufəyə getsinlər. Məkkədən bir qədər aralandıqdan sonra Mərvan ibn Həkəm zöhr azanını verib Təlhə ilə Zübeyrin yanına gəlir. Onlardan soruşur ki, başçımız hansı birinizsiz? İndi camaat namazında qabaqda hansınız dayanacaqsınız? Abdullah ibn Zübeyr cavab verir ki, mənim atamdır başçı. Məhəmməd ibn Təlhə də deyir ki, xeyr, başçı mənim atamdır, qabaqda da məhz o duracaq. Beləliklə, orduda ikitirəlik yaranır. Yalnız Aişənin müdaxiləsindən sonra mübahisəyə son qoyulur. Aişə göstəriş verir ki, namazda bacısı oğlu Abdullah ibn Zübeyr dayansın.

Zati-ərəq adlı yerə çatdıqda Səid ibn As onlarla rastlaşıb deyir ki, Osmanın qatilləri sizin öz aranızda olduğu bir halda hara gedirsiniz? Onları öldürün, məsələ həll olunsun. Sonra da çıxın gedin ev-eşiyinizə, özünüzü qırğına verməyin! Mərvan və yanındakılar cavab verirlər ki, biz Osmanın bütün qatillərini öldürməkdən ötrü gedirik. Sonra Səid ibn As Təlhə ilə Zübeyri bir kənara çəkib soruşur ki, əgər qalib gəlsəniz, xəlifə hansınız olacaq? Cavab verirlər ki, camaat hansı birimizi seçsə, xəlifə də o olacaq. Səid deyir ki, əgər doğrudan da Osmanın intiqamını almaq məqsədilə yola çıxmısınızsa, onda qalib gələcəyiniz təqdirdə Osmanın övladlarından birini xəlifə seçin. Təlhə ilə Zübeyr ona belə cavab verirlər ki, mühacirlərin ağsaqqalları qala-qala onların uşaqlarınımı xəlifə seçməliyik?!

Həvəb itlərinin Aişəyə hürməsi

Ötən səhifələrdə qeyd etdik ki, bir gün Ümmi-Sələmə ilə Aişə Peyğəmbərlə(s) birlikdə səfərə getmişdilər. İstirahət zamanı Aişə həzrətin başını yuyur, Ümmi-Sələmə isə onun xoşladığı, xurma, un və yağdan ibarət halva hazırlayırdı. Birdən həzrət başını qaldırıb onlara buyurdu: "Kaş sizdən hansı birinizin qırmızı tüklü dəvəyə minib gedərkən Həvəb itlərinin ona hürəcəyini biləydim. O, haqq yoldan uzaqlaşacaq." Ümmi-Sələmə bu sözü eşidən kimi əlini saxlayıb deyir ki, bu işdən Allaha və Onun Rəsuluna pənah aparıram! Peyğəmbər(s) isə əlini Aişənin kürəyinə vuraraq buyurur ki, ehtiyatlı ol, birdən o qadın sən olarsan ha! Sonra da Ümmi-Sələməyə buyurdu ki, ey Əbu Üməyyənin qızı, ehtiyatlı ol, birdən o qadın sən olarsan ha![1]

Tarixçi və hədis alimlərinin yazdığına görə qoşun (Bəni-Amir qəbiləsinə məxsus, su gölməçəsi də olan) Həvəb adlı yerdən keçərkən itlər Aişəyə hürüşür. Bundan ehtiyyat edən dəvələr ətrafa səpələnir. Aişənin yaxınlığında olanlardan biri deyir ki, gör Həvəbdə nə çox it var və necə də hürüşür! Aişə dərhal müdaxilə

[1] Kənzül-ümmal, c-6, s-84; Tarixi Təbəri, c-3, s-485; Şərhi Nəhcül-bəlağə(İbn Əbilhədid), c-3, s-78; Müsnədi Əhməd, c-6, s-97; Məcməüz-zəvaid(Heysəmi), c-7, s-234

edib soruşur ki, bunlar Həvəbin itləridir? Qaytarın məni, məni geri qaytarın!(Bunu deyərək yuxarıda qeyd etdiyimiz hədisi danışır.)

Əmirəl-möminin Əlinin(ə) Səhl ibn Hüneyfi Mədinədə öz yerinə qoyub düşmən istiqamətinə hərəkət etməsi

Aişə, Təlhə və Zübeyrin Məkkədən Bəsrə istiqamətinə hərəkət etməsi xəbəri Əliyə(ə) çatdıqda həzrət bir xütbə oxuyaraq Mədinə camaatını Təlhə ilə Zübeyrin beyətlərini pozduğu və Aişə ilə birlikdə Bəsrəyə doğru getdiklərindən xəbərdar edir. Bu xütbə bir çox kitablarda verilmişdir. O cümlədən İbn Əbilhədid, Kəlbiyə istinadən belə nəql edir ki, Əli(ə) Bəsrəyə doğru hərəkət etməzdən qabaq bir xütbə oxuyur. Həmin xütbədə Allaha həmd səna etdikdən və Peyğəmbərə(s) salam göndərdikdən sonra belə buyurur: "Peyğəmbər(s) vəfat etdikdən sonra Qüreyş üstümüzə hücum çəkib haqqımızı əlimizdən aldı. Həmin haqqa hamıdan daha layiq biz idik. Baxıb gördüm ki, müsəlmanların birliyini pozub qanını axıtmaqdansa səbr etmək daha yaxşıdır. Camaat İslamı təzəcə qəbul etmişdi və su tuluqda oynadığı kimi, onların da imanı oynayırdı.(Yəni, imanları hələ elə də möhkəmlənməmişdi.) Buna görə də başqaları xəlifə oldular və bunun öhdəsindən də layiqinca gələ bilmədilər. Nəhayət, onlar axirət yurduna köçəsi oldular və etdikləri əməllərə görə onlara qarşı necə davranılacağını Allah bilir. Allah bu işdə nəyi məsləhət bilirsə, ona da razıyam. Əgər tövbə edib bu yoldan dönsələr, nə gözəl! Mən də onları bağışlayaram. Bundan yaxşı nə ola bilər?! Yox əgər öz niyyətlərində qalıb döyüşmək istəsələr, onda iti qılıncımla onlara qarşı çıxacağam. Haqqın dirçəlməsi və batilin aradan getməsi üçün bu yetər!"[1]

Təlhə ilə Zübeyr Aişəni də özləri ilə döyüşə gətirmələri haqqında isə belə buyurur: "Özləri gəlmiş, kənizi satın alarkən o tərəf-bu tərəfə çəkdikləri kimi hələ Peyğəmbərin(s) də xanımını özləri ilə gətirmişlər. Öz qadınlarını evdə saxladıqları halda Peyğəmbərin(s) xanımını camaatın qabağına çıxarıblar. Onların qoşununda olanların hamısı mənə beyət edənlərdir, özü də könüllü şəkildə, kimsə onları məcbur etməmişdi."[2]

Şeyx Tusinin "əl-Əmali" əsərində qeyd etdiyinə görə (Əllamə Məclisi də bunu Biharul-ənvarda nəql etmişdir[3]) Əbu Səid Əqəbə ibn Ömər, Qeys ibn Səd və Xalid ibn Yezid Əmirəl-möminin Əliyə(ə) təklif etdilər ki, özü Mədinədə qalıb sərkərdələrdən birini orduya başçı təyin etsin. Lakin həzrət ordu ilə birlikdə gedəcəyi fikrində israrlı idi. Buna görə də Səhl ibn Hüneyfi Mədinədə öz yerinə təyin edib ordu ilə birlikdə Mədinədən çıxır.

[1] Şərhi Nəhcül-bəlağə(İbn Əbilhədid), c-1, s-102
[2] Nəhcül-bəlağə, 171-ci xütbə
[3] Biharul-ənvar, c-8, s-405

Əmirəl-möminin Rəbəzə və Zi-qara yetişməsi, Kufə valisi Əbu Musa Əşəriyə və Kufə camaatına məktub göndərməsi

Əmirəl-möminin Əli ibn Əbutalib(ə) Rəbəzəyə çatdıqda rastlaşdığı adamlardan Təlhə və Zübeyr haqqında soruşur. Ona cavab verirlər ki, onlar Bəsrəni ələ keçirmək və oranı öz mərkəzlərinə çevirmək məqsədilə məhz həmin şəhərə doğru getmişlər. Əli(ə) Rəbəzədə dayanıb beyətini pozanlara qarşı vuruşmaq üçün ordunun sayını artırmaq qərarına gəlir. Bu məqsədlə Hicaz və Kufəyə qasidlər göndərir. Bir neçə gündən orada qalaraq Hicazdan çıxmış ordu gəlib çatdıqdan sonra Bəsrə ilə Kufə arasındakı Zi-qar adlı məntəqəyə doğru hərəkət edirlər.

İbn Əbilhədid yazır: "Əli ibn Əbutalib Rəbəzədə olarkən Kufəyə ilk məktubu qardaşı oğlu Məhəmməd ibn Cəfər və Məhəmməd ibn Əbubəkrlə yollayır. Məktubda həzrət kufəliləri beyətini pozub Osmanın intiqamını bəhanə edənlərə qarşı döyüşdə iştirak etməyə səsləyirdi. Həmin vaxt həzrət bir məktub yazıb Haşim ibn Ütbəyə verir ki, Kufə valisi Əbu Musa Əşəriyə çatdırsın. Məktubda Əbu Musaya tapşırılmışdı ki, kufəliləri döyüşə göndərməkdən ötrü əlindən gələni etsin. Lakin Məhəmməd ibn Cəfərlə Məhəmməd ibn Əbubəkr, onların ardınca da Haşim ibn Ütbə məktubları Kufəyə gətirib camaatı döyüşə səslədikdə Əbu Musa Əlinin(ə) tapşırığının əksinə olaraq camaatı döyüşə getməyə qoymur. Əli(ə) hələ Rəbəzədə ikən qasidlər qayıdıb bu xəbəri həzrətə çatdırırlar. Əli(ə) bu dəfə kufəlilərə Abdullah ibn Abbas və Məhəmməd ibn Əbubəkrlə ikinci bir məktubu göndərir. Əbu Musa Əşəriyə də çox sərt bir məktub yazaraq onu tənbeh etməklə yanaşı, vəzifədən kənarlaşdırılması əmrini verir. Sonra isə özü ordu ilə birlikdə Zi-qara doğru hərəkət edir. Ora çatdıqda Kufədən və göndərdiyi qasidlərdən bir xəbər çıxmadığını görüb kufəlilərə üçüncü məktubu yazaraq oğlu Həsən, Əmmar ibn Yasir, Zeyd ibn Suhan və Qeys ibn Übadə ilə Kufəyə göndərir. Ancaq Əbu Musa Əşəri də öz fikrindən vaz keçmək istəmir, camaatı döyüşə buraxmamaqda israr edir, bununla da Peyğəmbər(s) balasına (Həsən ibn Əliyə) qarşı çıxırdı. Vəziyyətin belə olduğunu görən Əli(ə) axırda Malik Əştəri Kufəyə göndərmək qərarına gəlir. O, Kufəyə gələrək Əbu Musa Əşərini rüsvay edərək şəhərdən çıxarır."[1]

Ədiyy ibn Hatəmin Əmirəl-möminin Əliyə(ə) qoşulması

Öz səxavətilə dillər əzbərinə çevrilmiş Hatəm Tayinin oğlu Ədiyy ömrünün sonuna qədər Əlinin(ə) ən sədaqətli və vəfalı dostlarından biri olmuş, Cəməl və Siffeyn döyüşlərində böyük qəhrəmanlıq göstərmişdir. Şeyx Mufidin yazdığına görə Ədiyy ibn Hatəm öz qəbiləsindən olan kiçik bir dəstə ilə Qaid adlı yerdə gəlib Əmirəl-möminin Əliyə(ə) qoşulur. Öz gəlişinin səbəbini açıqlayaraq deyir:

[1] Şərhi Nəhcül-bəlağə(İbn Əbilhədid), c-3, s-291-293

"Mən hələ Peyğəmbər(s) dövründə İslamı qəbul edib zəkat vermişəm. Ondan sonra dindən çıxanlara qarşı vuruşmuşam. Bu işlərə görə Allahdan öz mükafatımı gözləyirdim. Təqvalı adamların mükafatını Allah Özü verəcək. Bizə çatmış xəbərə görə Məkkədə bir dəstə adam beyətlərini pozub sənə qarşı çıxmışdır. Biz də gəlmişik ki, sənə kömək edək. İndi biz sənin sərəncamındayıq, nə əmr versən, itaət edəcəyik." Əli(ə) ona öz təşəkkürünü bildirib onun üçün dua edir.[1]

Əlinin(ə) qeybdən xəbər verməsi və Üveys Qəraninin gəlişi

Əmirəl-möminin Əli ibn Əbutalib(ə) Zi-qarda dayanıb Kufədən gəlib ona qoşulacaq dəstəni gözləyirdi. Əli(ə) onu hələ lazımi səviyyədə tanımayanlara qələbə müjdəsi versə də, onlar baş verəcək döyüşün necə nəticələnəcəyindən narahat idilər.

İbn Əbilhədid Əbu Müxnəfə istinadən İbn Abbasdan belə nəql edir: "Zi-qarda olarkən Əliyə(ə) dedim ki, Kufədən elə də çox adam gəlib bizə qoşulmadı. Buyurdu ki, and olsun Allaha, Kufədən düz altı min altmış beş nəfər gəlib bizə qoşulacaq, nə bir nəfər az, nə də bir nəfər çox.

Mən Əlinin(ə) bu sözündən bərk narahat oldum ki, birdən dediyi düz çıxmadı, axı onun sözünü hamı eşidirdi. Ona görə də belə qərara gəldim ki, Kufədən gəlib bizə qoşulacaq adamları dəqiq sayacağam. Əgər Əlinin(ə) dediyi rəqəm alınmasa, üstünü özüm düzəldəcəyəm ki, qoy münafiqlər dedi-qodu çıxartmasınlar. Ancaq Kufədən gələnləri sayanda gördüm ki, heç bir artıq-əskiyi olmadan, eynilə həzrətin dediyi rəqəm alındı."[2]

Təbərsi "Əlamul-vəra" kitabında yazmışdır ki, Əli ibn Əbutalib(ə) Zi-qarda əyləşib camaatla beyəti təzələyərkən buyurur: "Bu gün Kufədən düz min nəfər gəlib bizə qoşulacaq." İbn Abbas deyir: "Kufədən gələnləri sayıb doqquz yüz doxsan doqquz nəfər olduqlarını gördükdə çox narahat oldum. "İnna lillah və inna ileyhi raciun"-deyib öz-özümə fikirləşdim ki, bəs Əli nəyə görə min nəfər dedi?! Bu fikirdə idim ki, bir də gördüm uzaqdan bir nəfər gəlir. Yaxınlaşdıqda onun yun parçadan tikilmiş köynək geydiyini, qılınc-qalxan götürdüyünü və çiynində su tuluğu olduğunu gördüm. O, Əliyə(ə) yaxınlaşıb deyir ki, əlini uzat sənə beyət edim. Söz verirəm ki, əmrinə tabe olacaq, qalib gələcəyimizə və ya şəhid olana qədər düşmənlə vuruşacağam. Əli(ə) soruşdu ki, adın nədir? Cavab verdi ki, Üveys.

Əli(ə): Sən Üveys Qəranisən?

Üveys: Bəli.

Əli(ə): Allahu əkbər, qardaşım Peyğəmbər(s) mənə xəbər vermişdi ki, onun ümmətindən Üveys Qərani adlı bir şəxslə görüşəcəyəm. O, Allahı və Peyğəmbərini

[1] Biharul-ənvar, c-7, s-413

[2] Şərhi Nəhcül-bəlağə (İbn Əbilhədid), c-1, s-176; Tarixi Təbəri, c-3, s-513

sevir, axırda da şəhid olacaq. O, elə bir adamdır ki, qiyamət günü Rəbiə və Müzirr kimi (iki böyük) qəbilə üzvlərinin sayı qədər insana şəfaət edəcək.

İbn Abbasdan nəql edilmiş digər bir hədisdə deyilir: "Cəməl döyüşünə gedərkən Zi-qarda dayandığımız vaxt Əlinin(ə) yanına gedib gördüm ki, çadırında oturub ayaqqabısına yamaq vurur. Məni görən kimi soruşur ki, bu ayaqqabının nə qədər qiyməti olar? Cavab verdim ki, bunun elə bir qiyməti yoxdur. Dedi ki, and olsun Allaha, bu ayaqqabı mənim üçün xəlifəlikdən daha qiymətlidir. Bunu deyərək çadırından çıxıb camaat üçün aşağıdakı xütbəni buyurur: "Allah-təala ərəblərin yazıb-oxuya bilmədiyi, heç kəsin peyğəmbərlik iddiası etmədiyi bir vaxtda həzrət Məhəmmədi(s) peyğəmbər göndərdi. Peyğəmbər(s) onları(ərəbləri) tərəqqiyə doğru aparıb layiq olduqları məqama yüksəltdi, onların fərdi və ictimai həyatlarında sabitlik yaratdı. Agah olun, and olsun Allaha, mən elə insanların arasında idim ki, düşmənin bütün qoşunu arxa çevirib qaçana qədər onlar doğru yola və nicata sövq edirdilər. Mən aciz qalmadım, qorxunu özümə yaxın buraxmadım. Mənim Bəsrə camaatı ilə müharibəyə getməyim Peyğəmbərlə(s) xalqı doğru yola yönəltmək və nicat vermək üçün getdiyimiz vaxtlarda olduğu kimidir. Haqqı onun içindən çıxarmaq üçün batili yaracağam. Mənim Qüreyşlə nə işim var? And olsun Allaha, kafir olduqları vaxt onlarla döyüşdüm və haqqın yolundan dönərək, fitnə-fəsad yolunu tutduqları indiki vaxtda da onlarla döyüşürəm. Mən dünən onlarla yol yoldaşı olduğum (onlara qarşı vuruşduğum) kimi, bu gün də onlarlayam (və yenə də onlarla vuruşuram)."[1]

Əmirəl-möminin Əli ibn Əbutalibin(ə)
Bəsrə valisi Osman ibn Hüneyfə məktubu

Əmirəl-möminin Əli ibn Əbutalib(ə) hələ Rəbəzədə olarkən Osman ibn Hüneyfə belə bir məktub göndərir: "Bu zalımlar öz beyətlərini pozub sənin şəhərinə doğru gəlirlər. Şeytan onları Allahın bəyənmədiyi yola çəkib apardı. Ancaq Allahın intiqamı çox çətin olacaq. Sənin yanına gələn kimi onları Allaha itaət etməyə və mənə olan beyətlərinin üstündə durmağa dəvət et! Razılaşsalar, onlara ehtiram et, əks təqdirdə onlarla vuruş! Aranızda Allah hökm edəcək. O, ən gözəl hakimdir. Bu məktubu sənə Rəbəzədən yazıram və inşallah tezliklə özüm də gəlib oraya çatacağam."

Məktub Osman ibn Hüneyfə çatan kimi Əbu Əsvəd Duəlini çağırıb İmran ibn Hüseyn Xüzai adlı şəxslə birlikdə beyətlərini pozanlarla danışığa göndərir. Onlar gedib Təlhə ilə Zübeyrin qoşununa çatdıqda ilk növbədə Aişənin yanına gedirlər. Ona öz məsləhətlərini verib Allaha and verirlər ki, bu işdən əl çəksin. Bunun günahsız müsəlmanların qətlə yetirilməsindən başqa heç bir nəticəsi olmayacaq. Aişə onları Təlhə ilə Zübeyrin yanına göndərir ki, gedib onlarla danışsınlar.

[1] Nəhcül-bəlağə, 33-cü xütbə

Əbu Əsvəd Duəli və İmran ibn Hüseyn Xüzai Aişənin yanından durub Zübeyrin yanına gəlirlər. Zübeyr onları görcək deyir ki, biz Osmanın intiqamını almaqdan ötrü buraya gəlmişik. Qoy camaat xəlifəlik məsələsini yenidən şuraya çıxartsın, kim seçilsə, xəlifə də o olsun. Əbu Əsvədlə İmran Zübeyrin cavabında deyirlər: "Axı Osman Bəsrədə öldürülməyib ki, intiqamını da burada alasınız(yəni, onun qatilləri burada deyil). Onun qatillərinin kim və indi harada olduğunu özün çox yaxşı bilirsən. Xəlifəliyin yenidən şuraya çıxarılmasına gəlincə, məgər siz Əli ibn Əbutalibə könüllü olaraq beyət etməmişdiniz? Xüsusilə də sən, Zübeyr, axı o vaxtdan hələ elə də çox keçməyib. Peyğəmbərin(s) vəfatından sonra Əlini müdafiə edərək Əbubəkrə beyətdən imtina edir və qılıncını əlində tutub deyirdin ki, xəlifəliyə Əli ibn Əbutalibdən layiqlisi yoxdur. Bəs bu sözlərinlə indiki hərəkətini neə başa düşək?

Zübeyr: Gedin Təlhə ilə danışın!

Əbu Əsvədlə İmran Zübeyrdən ayrılıb Təlhənin yanına gəlirlər. Təlhə ilə danışdıqda onun öz fikrində daha da israrlı olduğunu görürlər. Buna görə də Osman ibn Hüneyfin yanına qayıdıb onu baş verənlərdən xəbərdar edirlər. Osman ibn Hüneyf məcbur olub qoşun hazırlayaraq Bəsrədən çıxır. Bəsrə qoşunu şəhərin kənarında dayanır. Ancaq bəsrəlilərdən bir dəstəsi Təlhə ilə Zübeyrin qoşununun mövqe seçdiyi yerin yaxınlığında mövqe seçib dayanırlar. Bundan xəbər tutan Təlhə, Zübeyr və Aişə onların yanına gəlib hər biri öz növbəsində Osmanın məzlumluğu, Bəsrəyə gəlişlərinin səbəbi və Əliyə qarşı çıxdıqları barədə çıxış edir. Onların çıxışlarından sonra bəsrəlilər arasında parçalanma yaranır və onlar iki hissəyə ayrılır. Bir dəstə Təlhə və tərəfdarlarını dəstəkləyir, digər bir dəstə isə onlara öz etirazlarını bildirir. Yalnız bundan sonra Təlhə və Zübeyr Bəsrə qoşununun dayandığı yerə gəlir və iki dəstə arasında döyüş başlayır. Bəsrə qoşunundan Hükeym ibn Cəbələ Təlhənin qoşununa hücum edib onların şəhərə girməsinə mane olur. Şəhərin kənarındakı evlərin damına çıxmış qadınlar da daş atmaqla onlar üçün çətinlik yaradırdılar. Bu səbəbdən Təlhə və tərəfdarları şəhərin digər istiqamətinə doğru gedib orada gecələmək məcburiyyətində qalırlar. Səhər açıldıqda Bəsrə qoşunu gəlib onların qarşısında dayanır. Osman ibn Hüneyf sözə başlayaraq müxaliflərə deyir: "Məgər Əliyə beyət edən, camaatı Osmana qarşı qaldıran siz deyildinizmi?" Sonra da onları Allaha and verir ki, gəlin bu fikrinizdən əl çəkin, müsəlmanları qırğına verməyin. Lakin müxaliflər Osmanın sözünü qəbul etmədilər, nəticədə iki qoşun arasında döyüş başlayır ki, bu da hər iki tərəfdən bir hissənin ölməsi və yaralanması ilə nəticələnir. Sonra isə tərəflər arasında müvəqqəti atəşkəs sazişi imzalanır. Sazişdə Əmirəl-möminin Əli ibn Əbutalib(ə) gələnə qədər Təlhə və tərəfdarlarının Bəsrəyə girib rahat gəzib dolaşa biləcəkləri, heç kimə təzyiq etməyəcəyi, şəhər valisi Osman ibn Hüneyf, məscid, minbər və beytül-malla işləri olmayacağı da bildirilirdi. Əli(ə) gəldikdən sonra isə məsələyə yenidən baxılacaqdı.

7 Cəməl döyüşü

İki qoşunun Bəsrə yaxınlığında üz-üzə gəlməsi

Əmirəlmöminin Əli(ə.s) Bəsrədən gələn xoşagəlməz xəbərləri, əhdi-peymanı pozan insanların o şəhərdə törətdikləri cinayətləri eşitdikdən sonra Kufədən, Hicazla İraqın bəzi şəhərlərindən toplanılmış qoşunla Bəsrə istiqamətində hərəkətə başladı.

İbn Şəhraşubun "Mənaqib"[1] əsərində qeyd etdiyi kimi Əmirəlmöminin Əli(ə.s) Məkkədən hərəkət etdiyi gün Səhl ibn Hənifi Mədinənin və Qəsəm ibn Abbası Məkkənin başçısı təyin etdi və altı min əsgərlə Rəbzəyə, daha sonra Ziqara yetişdi. Bəsrənin Rəbiə qəbiləsindən də üç min döyüşçü O həzrətə qoşuldu. Əhnəf ibn Qeys Əmirəlmöminin Əli(ə.s)-a O həzrətin istəyəcəyi təqdirdə iki yüz atlı ilə ona qoşula biləcəyi, icazə verəcəyi təqdirdə Bəni Səd qəbiləsi ilə müharibəyə son qoyub bununla da həzrətdən altı min düşməni uzaqlaşdıra biləcəyi barədə xəbər göndərdi. Əmirəlmöminin Əli (ə.s) ikinci təklifi qəbul edərək onun müharibədən uzaqlaşmasına icazə verdi.

Aişə, Təlhə və Zübeyr Əmirəlmöminin Əli(ə.s)-ın artıq yola düşmə xəbərini eşitdikdən sonra öz qoşunu ilə Bəsrədən çıxdılar və Abdullah ibn Ziyadın qəsri adlı məkanda üz-üzə gəldilər.

Tarixçiləri yazdıqlarına görə qoşunlar müharibə etmədən üç gün həmin məkanda qaldılar və bu üç gün ərzində yalnız məktublaşma işləri görülürdü. Əmirəlmöminin Əli(ə.s)-ın Təlhə və Zübeyrə göndərdiyi və Şərif Rəzinin "Nəhcül Bəlağədə" qeyd etdiyi məktublardan biri budur. Qeyd etmək lazımdır ki, bu məktubu oxuyanda Həzrətin onları düz yola dəvət etmə sahəsində boynuna düşən vəzifəni tam yerinə yetirməsini və Əmirəlmöminin Əli (ə.s)-ın haqlı olmasını sübut edir.

"Gizləsəniz də bilirsiniz ki, camaat məni (mənə beyət etmək) istəyənə kimi mən onların fikrinə düşmədim (onların beyət etmələrini istəmədim) və onlar mənə əl uzadana kimi, mən onlara əl uzatmadım. Siz mənə tərəf gəlib beyət edən kimsələrdən idiniz. Xalq mənə nə güc və qüdrətə və nə də mövcud mal və sərvətə görə beyət etməyib. Buna görə də əgər siz mənimlə ixtiyari syrətdə beyət edib əhd bağlamısınızsa, nə qədər ki gec deyil qayıdın, tövbə edib Allaha tərəf dönün. Əgər ürəksiz əhd bağlamısınızsa, itaət və tabeçiliyi üzdə göstərib günah və itaətsizliyi gizlətməklə mənim üçün yol açmısınız. Canıma and olsun ki, siz təqiyyə etməyə, qorxmağa və mənimlə beyətə könülsüzlüyünüzü bildirməməyə, mühacirlərdən daha layiqli deyilsiniz. Sizin üçün beyətə daxil olmamışdan onun yükünün altına girməməyiniz, onu qəbul etdikdən sonra əhdinizi pozmaqdan daha asan idi. Siz mənim Osmanı öldürdüyümü güman edirsiniz. Belə isə mənimlə sizin aranız-

[1] Mənaqib, 1 cild, səh 151

da Mədinə əhalisindən şəxslər var ki, həm məndən, həm də sizdən uzaqlaşıblar. Beləliklə, hər bir kəs bu işdə əli olan miqdarda (cinayəti) boynuna almağa məcbur edilsin! (və ondan qisas alınsın) Buna görə də ey qocalar, fikrinizdən daşının. Çünki rüsvayçılıqla cəhənnəm odu bir yerə toplaşmamışdan sizin qarşınıza çıxacaq ən böyük iş xəcalət və ardır. Salama layiq kimsəyə salam olsun!"

Abbasla Zübeyr üçün məxsusən göndərdiyi məktublardan birində Həzrət Zübeyrə xitab edərək buyurur: "Sən Hicazda məni tanıyırdın, amma İraqda məni tanımırsan? Nə baş verib?"

İbni Abbasa Təlhə ilə görüşməməyi tapşırdı, çünki O həzrətin buyurduğuna görə Təlhə buynuzlarını hücuma möhkəmlətmiş inəyə bənzəyir və o heç vaxt əlaqqı qəbul etməyəcəkdir.

Abdullah ibni Abbas və Zeyd ibni Suhanı Aişənin yanına göndərərək onlara buyurur:

"Aişəyə deyin ki, Allahu-təala sənə evində oturmağın, çölə çıxmamağın barədə əmr verdi. Sən çox gözəl bilirsən ki, bir qrup insan səni aldadıb, sən də aldanmısan. Aldanaraq evdən çıxmısan, bu hərəkətinlə sənə qoşulmaq istəyən insanları bəlaya və çətinliyə atmısan. Sənincün ən yaxşısı evinə qayıtmaq, müharibədən və düşməndən uzaq olmaqdır. Əgər evinə qayıtmasan və bu alovu söndürməsən, müharibə başlayacaq, çoxlu insan tələf olacaq.

Ey Aişə Allahdan qorx və onun dərgahına tövbə et, ondan bağışlanmağını istə! Allah öz bəndələrinin tövbəsini qəbul edər və onların günahlarını bağışlayar. Uzaqlaş bu işlərdən, çünki Abdullah ibni Zübeyrin məhəbbəti və Təlhənin yaxınlığı səni sonu cəhənnəm atəşi ilə bitən işi görməyə vadar edə bilər."

Bu iki nəfər Aişənin yanına gəldi və Əmirəlmöminin Əli (ə.s)-ın sözlərini ona çatdırdılar. O, bu sözlərin cavabında Əli ibni Əbitalibə sözü olmadığını və o həzrətin dəlillərinə cavabı olmadığını bildirdi. İbn Şəhraşubun nəql etdiyinə əsasən Abbas ona dedi: "Sənin Allah bəndəsi müqabilində cavab verməyə taqətin yoxdur, bəs Yaradan qarşısında cavab verməyə necə taqət tapacaqsan?"

Əmirəlmöminin Əli (ə.s)-ın elçiləri geri qayıtdılar, Aişə, Təlhə və Zübeyrin cavablarını, inadkarlıqlarını, hətta Əmirəlmöminin Əli (ə.s)-ı müharibə və ağır döyüşlə hədələdiklərini Həzrətin diqətinə çatdırdılar. Əmirəlmöminin Əli (ə.s) onun hikmətli nəsihətlərini və xeyirli tövsiyələrini qəbul etməkdən boyun qaçıran əhdə xilaf çıxmışlarla müharibəyə hazırlaşmağa başladı. O həzrət Allahu təalaya və onun Rəsuluna salam göndərdikdən sonra döyüşçülərinə xütbə söyləməyə başladı. Bu xütbə Əsəm Kufi və İbn Əbil Hədidin nəql[1] etdiklərinə görə belədir:

"Əyyuhənnasu inni rəqəbtu..."

[1] "Tarixi Əsəm", səh 175: Nəhcül Bəlağənin İbn Əbil Hədiddən şərhi, 1cild, səh 101. Bir hissəsi də "Nəhcül Bəlağə"nin 22 xütbəsində qeyd olunub.

"Ey insanlar mən bu dəstə ilə xoşluqla danışdım ki, fikirlərindən dönsünlər və geriyə qayıtsınlar. Onları əhdə dönük çıxdıqlarına görə danladım və etdikləri zülmləri diqqətlərinə çatdırdım. Amma onlar utanmadılar və cavab verdilər ki, nizələrilə üzləşməyə hazır olum, onların qılıncları önündə səbr edim. Dedilər ki, mənim başımda səhv arzular baş qaldırıb, nəfsim mənə aldadıcı və yalan vədələr verib. Anaları yasların-da otursun. Mən nə qədər yaşamışam heç zaman müharibəyə dəvətlə hədələnməmişəm, döyüşdən qorxmamışam. İnsaflı olmalıdılar, çünki məni müharibəyə onlar sövq edirlər. Əgər boş guruldamaq istəyirlərsə qoy guruldasınlar. Bunlar mənim keçmişi-mi və mənim yaşadığım çətinlikləri görüblər. Bəs necə görüblər? Mən müşriklərin qüdrətini dağıdan, hamısını məğlub edən Əbul Həsənəm. Bu gün də həmin ürəklə düşmənlərimin qarşısına gəlmişəm. Mən Allahımın kömək vədələrinə inanıram, öz işimə yəqinliyim var və məzhəbimə heç bir şübhə ilə yanaşmıram.

Ey inasanlar həqiqətən ölüm elə bir şeydir ki, evdə oturan onu itirə bilməz və qaçan insan onu gücdən sala bilməz. Ölümün əlindən qaçmaq və onun üçün nəsə çarə tapmaq olmaz. Öldürülməli insan öləcəkdir! Həqiqətən ölümlərin ən yaxşı-sı Allah yolunda İlahi məqsədlər uğrunda olan ölümdür. Əlinin canınını əlində saxlayana and olsun ki, min qılınc zərbəsi almaq mənim üçün yataqda tək qalıb ölməkdən daha asandır."

Və elə həmin an əllərini duaya qaldıraraq dedi:

"Ey Allahım, Təlhə mənimlə olan beyətini və əhdini pozdu, Osmanı qətlə yetirmək üçün xalqı ona qarşı qaldırdı, sonra məni onun qətlində ittihamlandırdı. Allahım ona möhlət vermə!

Allahım, həqiqətən Təlhə mənimlə olan mərhəmət əlaqəsini kəsdi, mənimlə olan əhdini pozdu və düşməni mənim üzərimə qaldırdı. Bu gün hər necə ki istəyirsən, onun üzərində qələbə çalmağa mənə kömək ol."

İki qoşunun sıralanması

Təbəri ***"Tarix"*** kitabında belə yazır: "İki qoşun Hicri-qəməri tarixi ilə 36-cı il, cümə axşamı günü, Cəmadiəl-axir ayının 15-də bir-birinin müqabilində səf qurdular. Əmirəlmöminin Əli (ə.s)-ın qoşunun sayı iyirmi min, Təlhə ilə Zübeyrin qoşunun sayı otuz min idi. Ə***mali*** rəvayətinə əsasən, Əmirəlmöminin Əli (ə.s)-ın qoşununda Bədr döyüşündə iştirak edən insanlardan 80 nəfər və min beş yüz nəfər Həzrət Muhəmməd (s.ə.a.s)-in səhabələrindən var idi[1].

İbn Şəhraşubun nəql etdiyinə əsasən Əmirəlmöminin Əli (ə.s) Hicri-qəməri tarixilə 36-cı ildə cümə günü Cəmadiəl-axir ayının 10-da qoşununu sıraladı. Qo-şunun sağ tərəfində öndə Malik Əştər, Səid ibni Qeys, sol tərəfində öndə Əmmar, Şərih ibn Hani və qoşunun qəlb hissəsində öndə Muhəmməd ibn Əbu Bəkr, Ədi

[1] "Biharul Ənvar", (Kompani çapı), səh 434

ibn Hatəmi əmir təyin etmişdi. Ziyad ibn Kəb, Həcər ibn Ədiyə qoşunun qanadlarını və Əmr ibn Həməq, Cəndəb ibn Zəhirə pusqunu, piyada qoşunu Əbu Qənadə Ənsariyə və döyüş bayrağını Muhəmməd ibn Hənifəyə verdi[1].

Əmirəlmöminin Əli (ə.s) həmin an döyüşçülərin arasında nərə çəkərək dedi:

"Bu insanlarla savaşmayın, çünki Allaha şükürlər olsun ki, sizin hüccətiniz var. Onların müharibəyə başlamamasından öncə sizin savaşa başlamanız sizin haqlı olmanızın ən böyük sübutudur. Savaş zamanı yaralıları öldürməyin, onların müqavimətini parçaladıqdan sonra qaçanları qovmayın, heç kimin övrətini açmayın, ölülərin burun, dodaq və qulaqlarını kəsməyin, onların mənzillərinə və hərəmlərinə çatdıqda mənzillərinə daxil olmayın, arvad-uşaqları olan yerə girməyin və onların malından heç nə götürməyin!"

Məsudinin hadisəni nəql etməsində bu sözlər də əlavə edilmişdir:

"Düşmənin qoşun qərargahında olan silah-sursat, qulam və kənizlərdən başqa heç bir malına əl dəyməyin. Sizin qanunla götürə biləcəyiniz şeylərdən əlavə qalan heç nəyə əl vurmayın, çünki bu Allahın kitabında buyurduqlarına əsasən, onların varislərinə çatmalıdır. Qadınlar sizi təhqir eləsələr, başçılarınıza xoşagəlməz sözlər desələr də onları incitməyin, çünki onlar həm söz, həm can, həm də ağıl cəhətdən sizdən zəifdirlər."

Kim Quranı götürməyə hazırdır...

Təbərinin və digərlərinin ***Tarix*** kitablarında qeyd olunmuşdur ki, Cəməl müharibəsi başlamadan öncə Həzrət Əli (əs) Qurani Kərimi əlinə götürdü və onu səhabələrin və dostlarının yanına gətirərək dedi:

"Aranızda bu Quranı əlinə götürərək insanları onun içində olanlara dəvət edə biləcək və bu yolda ölə biləcək şəxs varmı?"

Başqa bir yerə bu hadisə belə nəql edilir: "Əgər onun bir əlini kəssələr Quranı o biri əlinə və əgər o biri əlini də kəssələr dişləri ilə götürsün və bilən şəxs aranızda varmı?" Ağ libas geyinmiş gənc Kufəli ayağa qalxaraq dedi: Mən!

Əmirəlmöminin Əli (ə.s) ona tərəf baxmadan bir daha həmin sözləri təkrar etdi və həmin gəncdən savayı heç kim önə çıxmadı. Kufəli Gənc yenidən önə çıxaraq dedi: Mən!

Əmirəlmöminin Əli (ə.s) Quranı ona verdi. Gənc oğlan Quranı götürdü və Aişənin qoşununun qarşısına gəldi, onları Quranda buyurulmuşlara əməl etməyə çağırdı. İbn Əsəm Kufinin dediklərinə görə elə bu zaman Aişənin xidmətçilərindən biri önə çıxdı və onun əlini kəsdi. Kufəli gənc Quranı o biri əlinə götürdü, amma xidmətçi onun o biri əlini də kəsdi. Libası al qana boyanmış gənc Quranı dişlərilə götürdü və Aişənin xidmətçisi onu şəhid etdi.

[1] Mənaqib, cild 3, səh 153

Həmin anda Əmirəlmöminin Əli (ə.s) buyurdu:

"Artıq onlarla savaşmaq bizə vacib oldu!"

Bu zaman Əmmar ibn Yasir qalxdı və onlara xitabən sözlər deyərək nəsihət etdi. Sonra Aişənin oturduğu yerə gəldi və onunla söhbət edərək dedi: "Allah bu gün haqqı tapdalayan və batili tələb edənləri, başqalarına sitəm edənləri öldürsün." Ona tərəf ox yağdırmağa başladılar və Əmmar atını çaparaq geriyə, qoşunun yanına gəldi və Əmirəlmöminin Əli (ə.s)-a dedi:

"Daha nəyi gözləyirsən ki, bunlarla müharibə etməkdən başqa çıxış yolu qalmayıb."

Döyüşə hazırlıq

Aişənin qoşunu əhdi qırmış şəxslərin əmri ilə Əmirəlmöminin Əli (ə.s)-ın qoşununu ox yağışına tutdular və bu ox yağışı o qədər şiddətli idi ki, döyüşçülər həyəcan içində dedilər: "Ey möminlərin Əmiri bunların oxları bizi məğlub edəcək."

Elə həmin an düşmən oxuna tuş gələrək şəhid olmuş döyüşçülərdən birinin cənazəsini O həzrətin yanına gətirdilər və Əmirəlmöminin Əli (ə.s) dedi:

"Allahım şahid ol!"

Bunun ardınca Abdullah ibn Bədil ibn Vərqa düşmən oxuna tuş gələrək şəhid olmuş qardaşının cənazəsini o Həzrətin hüzuruna gətirdi və dedi: "Bu mənim qardaşımdır, onu qətlə yetirdilər."

Əmirəlmöminin Əli (ə.s) İstirca kəlməsini dilinə gətirdi və Allahın rəsulunun "Zatul Fuzul" adlı zirehini gətirməyi əmr etdi, onu bədəninə taxdı və Zülfüqar qılıncını belinə bağladı. Qartallı qara bayrağını övladı Muhəmməd ibn Hənifəyə verdi və Həsən ilə Hüseyn (əs)-lara buyurdu: "Bayrağı sizə yox Muhəmmədə verməyimin səbəbi sizin Allahın Rəsuluna (s.ə.a.s) yaxın olmanızdır." Sonra döyüşçülərinə baş çəkərək bu Quran ayəsinin tilavət etdi:

"(Ey möminlər!) Sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlməmiş behiştə daxil olacağınızımı güman edirsiniz? Onları (şiddətli) fəlakət və sıxıntı elə bürümüş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və iman gətirənlər birlikdə: "Allahın köməyi nə vaxt gələcək?" – demişdilər. Bilin ki, Allahın köməyi (sizə) yaxındır! [1]"

Əli (əs) gələcəkdən xəbər verir

Təbəri, İbn Əbil Hədid[2] və digət tarixçilər çox cüzi ixtilafla belə nəql edirlər ki, hər iki qoşun döyüşə hazırlıq kimi səf çəkəndə Əmirəlmöminin Əli (ə.s) Həzrət Muhəmməd (s.ə.a.s)-in qatırında oturduğu halda zirehsiz və silahsız meydana daxil oldu və bir neçə dəfə Zübeyri çağırdı.

[1] Bəqərə surəsi, ayə 214

[2] Tarixi Təbəri, cild 5, səh 206: İbn Əbil Hədidin Nəhcül Bəlağəyə şərhi, cild 1, səh 78

Xübeyr tam silahlanmış, başına və bədəninə zireh geyinmiş halda meydana Əmirəlmöminin Əli (ə.s)-ın qarşısına gəldi[1]. Onlar bir-birilərinə o qədər yaxınlaşdılar ki, üzərlərində oturduqları heyvanların boyunları bir-birilərinə dəyirdi. Əmirəlmöminin Əli (ə.s) dedi: "Vay olsun sənə Zübeyr! Səni bura hansı fikirlər gətirib?"

Zübeyd dedi: "Osmanın qanı!"

Əmirəlmöminin Əli (ə.s) buyurdu: "Allah bizlərdən Osmanın qətlinə ən yaxın olanını öldürsün!" O Həzrət sözlərinin davam etdirərək buyurdu: "Ey Zübeyr, yadına gəlir sən məni qucaqlamışdın və bu mənzərəni görən Həzrət Muhəmməd (s.ə.a.s) buyurdu: "Onu çox sevirsən?" Sən də cavabında dedin ki, "O, mənim qadraşım və dayım oğlu olduğu halda mən onu necə sevməyə bilərəm?!"[2] O zaman Allahın Rəsulu Buyurdu:

"Amma bil ki, sən gələcəkdə özün haqsız olduğun halda ona zülm edəcək və onunla müharibə edəcəksən."

Zübeyr bu sözləri eşitdikdən sonra istiğfar etdi və dedi: " "İllərin mənim yadımdan çıxardığını sən yadıma saldın."

Bu sözləri dedi və öz qoşunu tərəfə qayıtdı.[3]

Onu görən oğlu Abdullah irəliyə çıxdı və dedi: "Halın dəyişib, gedəndə üzün başqa cür idi, indi başqa cür."

Zübeyr dedi: "Əli mənim yadıma zamanın yadımdan çıxardığı bir hədisi saldı! Mən daha onunla müharibə etməyəcəyəm, geri qayıdacağam və bu gün sizdən ayrılacağam."[4]

Bu hadisədən narahat olmuş Abdullah ibn Zübeyr o həssas vaxtda hansı yolla olursa olsun atasını bu fikirdən daşındırmağa səy göstərirdi. O, atasına dedi: "Amma məncə sən Əbdül Müttəlibin övladlarının qılınclarından qorxursan! Çünki onların iti qılıncları var və bu qılınclar qorxu bilməyən igidlərin əllərindədir."

Zübeyr dedi: " Vay olsun sənə! Məni Əli ilə müharibəyə təhrik edirsən? Bil və agah ol ki, mən onunla müharibə etməyəcəyimə and içmişəm!"

---

[1] "*Murucuz Zəhəb"* kitabında qeyd olunub ki, Həzrət Əli (əs)-ın Zübeyri meydana çağırması və Zübeyrin də meydana getmə xəbəini Aişəyə çatdıranda, o narahatlıqdan nalə çəkərək dedi: "Vay olsun Əsmanın halına!" Amma biləndə ki Həzrət Əli (əs) silahsiz və zirehsiz gəlib sakitləşdi.

[2] Zübeyr Əbdül Müttəlibin qızı Səfiyyənin övladı, Həzrət Əli (əs)-ın bibisi oğludur.

[3] Məsudinin *Murucuz Zəhəb* belə deyilir: Əgər bu hədis mənim yadımda olsaydı, heç bura gəlməzdim! Həzrət Əli (əs) buyurdu: "İndi də qayıda bilərsən!" Zübeyr dedi: Axı mən necə qayıda bilərəm ki, artıq iki qoşun üz-üzə dayanıb?! Allaha and olsun ki, bu mənim üçün heç cur bağışlanılmayan ar və qəbahətdir." Həzrət Əli (əs) buyurdu: "Ar, qəbahət və cəhənnəm atəşini birlikdə özün üçün toplamamışdan öncə bu qəbahəti boynuna götür və qayıt." Bundan sonra Zübeyr qayıdır.

[4] Təbəri tarixində belə qyd olunub ki, Zübeyr Aişənin yanına gəldi və dedi: "Mən özümü tanıdığım zamandan hara və nə üçün getdiyimi yaxşı bilmişəm. Bəsirətim bir dəfə burda bağlandı." Aişə dedi: "İndi nə etməyi düşünürsən?" Zübeyr dedi: " İndi bunları qoyub geri dönmək istəyirəm." Bu an oğlu Abdullah daxil oldu və onunla söhbətə başladı.

Abdullah dedi: “Öz andının kəffarəsini ver və qal ki, Qureyş qəbiləsinin qadınları deməsinlər qorxmusan! Sən ki, heç vaxt qorxmamısan?!”

Döyüşə təhrik olunmuş Zübeyr dedi: “Nökərim Məkhulu azadlığa buraxıram! O, mənim andımı pozmamın kəffarəsidir!” sonra nizəsini götürüb Əmirəlmöminin Əli (ə.s)-ın qoşununun sağ tərəfinə hücum etdi.

Əmirəlmöminin Əli (ə.s) buyurdu: “Zübeyr məcburiyyət üzündən bu işi görür və onu bu işə təhrik ediblər. Onun üçün yolları açın!”

Qoşunun döyüşçüləri onun üçün yolları açdılar və Zübeyr öz qoşununa tərəf qayıtdı və yenidən Əmirəlmöminin Əli (ə.s)-ın qoşununun sol tərəfinə hücum etdi. O həzrət yenidən yolların açılması əmrini verdi. Zübeyr üçüncü dəfə qoşunun mərkəz hissəsinə hücum etdi və oğlu Abdullahın yanına qayıtdı və dedi: “Qorxaq adam belə hərəkət edər?!”

Abdullah daha onu təhrik etməyə heç bir yol tapa bilməyərək dedi: “Üzərinə düşən vəzifəni yerinə yetirdin və hərəkətlərində qaranlıq heç nə qalmadı!”

İbn Əbil Hədid yazır: Zübeyr birinci dəfə geri qayıdanda Əmirəlmöminin Əli (ə.s) şad halda qoşununa tərəf qayıtdı. Əmirəlmöminin Əli (ə.s)-ın silahdaşlarından biri irəli çıxdı və soruşdu: “Zübeyrin şücaətini hamı bilir. Necə oldu ki, Zübeyr tam silahlı olduğu halda silahsız və zirehsiz onunla döyüş meydanına getdiniz?”

Həzrət buyurdu:

“O, məni öldürən şəxs deyildir. Məni əsil-nəcabətsiz, heç kimi tanımadığı bir şəxs hiyləgərliklə və gözlənilmədən qətlə yetirəcəkdir. Bu nə müharibə meydanında, nə də döyüş zamanı baş verəcəkdir. O insanlargn ən rəzilidir. Arzusu anasgngn onun yasgnda oturmasg olacaqdır. (Kaş bu işi etməyəydi) Bilin ki, o, Saleh peyğəmbərin dəvəsini öldürən insanlarla eyni zəncirlə bağlanacaqdır və onlarla bir yerdə olacaqdır!”

Zübeyr İbn Cərmuz adlg bir şəxs tərəfindən qətlə yetirilir

Qeyd etdiyimiz kimi Zübeyr döyüş meydanından uzaqlaşdı və yolu Səba vadisindən düşdü. Bəni Təmim qəbiləsindən olan Əhnəf ibn Qeys döyüşçülərilə döyüşdən uzaqlaşaraq orada yerləşmişdilər. (Əhnəfin müharibədən uzaqlaşması bir neçə səhifə bundan öncə şərh edildi.)

Bəni Təmin qəbiləsindən bir şəxs Əhnəf ibn Qeysə dedi: “O gedən Zübeyrdir.” Əhnəf dedi: “Mənim Zübeyrlə heç bir işim yoxdur. İki dəstə adamı toplayaraq üz-üzə gətirərək üzləşdirən, indi də sağlam halda evinə qayıda bilən insan böyük insandır. O, öldürməyə layiqdir və qoy onun ölümünü Allah versin!”

Bəni Təmim qəbiləsindən olan şücaətli döyüşçü Əmr ibn Cərmuz Zübeyri izlədi, ona çatdı və onunla getməyə başladı. Zübeyr ondan soruşdu: “Mənimlə nə işin var?” Dedi: “Gəlmişəm səndən müharibədə olan insanlar barədə soruşum.”

Zübeyr cavab verdi: "Mən onları üz-üzə dayandıqları və biri-birlərinə qarşı qılınc çəkərək savaşa başladıqları zaman tərk etdim."

İbn Cərmuz onunla yola düşdü və hər ikisi biri-birlərindən çəkinirdilər. Beləcə şam namazının vaxtı çatdı və Zübeyr üzünü ona çevirərək dedi: "Biz namaz qılmaq istəyirik." İbn Cərmuz da cavabında dedi: "Mən də bu işi görmək istəyirəm."

Zübeyr dedi: "Mən sənə aman verəcəyəm və sən də mənə aman verəcəksən." O, dedi: "Bəli!" Zübeyr dəstəmaz aldı və namaza başladı və İbn Cərmuz arxadan ona hücum edərək qətlə yetirdi.[1]

Müharibənin başlaması və İmamın əmri

Müharibə başladı və Əmirəlmöminin Əli (ə.s) həmin anda öz döyüşçülərinə nəsihətli sözlər dedi və döyüşün qaydaları barədə buyurdu:

"Ey insanlar, gözlərinizi bağlayın və dişlərinizi qıcayın, Allahı çox zikr edin və çox danışmaqdan uzaq durun!"

Sonra döyüş bayrağını əlində saxlayan övladı Muhəmməd ibn Hənifəyə buyurdu:

"Ey mənim övladım, dağlar yerindən qopsa da, sən yerindən ayrılma, dişlərini biri-birinə sıx, başını Allaha tapşır, ayaqlarını yerə möhkəm yapışdır, düşmən qoşununun ən uzaq hissəsinə bax, gözlərini yum və bil ki, kömək yalnız Allahdandır."

Bunun ardınca Əmirəlmöminin Əli (ə.s) hücum əmrini verdi.

Təlhə İbn Abdullahın Mərvan İbn Həkəmin oxuna tuş gələrək ölməsi

İbn Əsakirin dediklərinə əsasən, Əmirəlmöminin Əli (ə.s) Təlhəni meydana çağırdı və ona dedi: "Səni and verirəm Allaha, eşitmədin Allahın Rəsulu (s.ə.a.s) buyurdu:

Təlhə dedi: "Bəli eşitmişəm!"

Əmirəlmöminin Əli (ə.s) buyurdu: "Yaxşı mənimlə niyə müharibə edirsən,"

Təbəri yazır ki, Əmirəlmöminin Əli (ə.s) ona dedi: "sən Allahın Rəsulunun həyat yoldaşını müharibəyə gətirmisən, onunla birlikdə döyüşürsən, amma öz həyat yoldaşını evində gizlətmisən? Sən mənə beyət etməmişdinmi?"

Təlhə dedi: "Məcburiyyət üzündən beyət etdim."

---

[1] Tarix kitablarının bəzilərində qeyd olunub ki, İbn Cərmuz Zübeyri qətlə yetirdikdən sonra başını bədənindən ayırdı, üzüyünü və qılıncını götürüb Həzrət Əli (əs)-ın yanına gəldi. Həzrət qılıncı götürdü, hərəkət etdirərək bu sözləri dedi: "Bu qılınc Allahın Rəsulunun üzündə çox qəm qüssəni silib. İbn Cərmuz dedi: "Ey Əmirəlmöminin mükafat ver." Həzrət Əli (əs) buyurdu: "Allahın Rəsulundan (s.ə.a.s) bu hədisi eşitmişəm ki buyurub: "Səfiyyənin övladının (Zübeyrin) qatilini cəhənnəm atəşi müjdəsini ver."
İbn Cərmuz bu sözləri eşitdikdən sonra qəmli və ümidsiz halda o Həzrətin yanından çıxdı və bu hadisə ilə bağlı ərəbcə bir neçə beyt şer söylədi. Sonralar İbn Cərmuz xəvariclərə qoşuldu və Nəhrəvan müharibəsində öldürüldü.

Əbu Muxnəf Cəndəb ibn Abdullahdan belə nəql edir: "Mən Təlhə ibn Abdullahı görəndə bir dəstə ilə döyüşürdü və hamısı yaralı idi. Təlhənin özü də yaralanmışdı. O, əlində qılınc, döyüşçüləri səbr etməyə və müqavimət göstərməyə çağırırdı."

Yəqubi, İbn Əsir və digər tarixçilər belə nəql edirlər ki, döyüş başlanan zaman Mərvan ibn Həkəm dedi: "Mən bu gündən sonra heç kimdən öz qanımı istəməyəcəm!" Sonra Təlhə tərəfə bir ox atdı və ox Təlhənin dizinə batdı. Təlhənin dizindən güclü qan axmağa başladı və o beləcə qətlə yetirildi. Alimlər və tarixçilər arasında Mərvanın o gün Təlhəni öldürməsi sahəsində heç bir fikir ayrılığı yoxdur. Məsudi yazır: "Mərvan Təlhəni görəndə dedi: "Mənim üçün Əlinin yaxud Bəsrə qoşununa ox atmağın heç bir fərqi yoxdur[1]." Və bu sözlərdən sonra Təlhə tərəfə ox atır, çox onun arteriyasını kəsir və Təlhə qan itirərək ölür."

Bundan sonra Mərvan üzünü yanında olana çevirərək deyir: "Mən sənin atanın qətlində əli olan insanlardan birini qətlə yetirdim və sənə bu yolda kömək etdim."

İbni Əsirin "**Əsədül Ğabə"** və İbni Əsakirin "**Təhzib"** əsərlərində belə qeyd olunur ki, Təlhə deyir: "Sübhanallah ki, mən bu gün Qureyş qəbiləsindən qanı mənim qanımdan da pis olan kimsəni görmədim. Mən bilmirəm bu oxu mənə kim vurdu, amma yazı necədirsə elə də olsun!"

Sonra döyüş meydanından kənarlaşdı və istirahət üçün yer axtardı. Əmirəlmöminin Əli (ə.s) silahdaşlarından hər kəsi görəndə deyirdi: "Mən Təlhəyəm. Kim mənə pənah verə bilər?" Təlhə bu sözləri hey təkrar edirdi.

Həzrət Əli (əs)-ın Cəməl döyüşündə göstərdiyi tayı bərabəri olmayan igidliklərdən nümunələr

Cəməl döyüşü zamanı Əmirəlmöminin Əli (ə.s)-ın şərafətli ömrünün altmış ili tamam olmuşdu və həyatının saysız hesabsız çətinliklərini, məhrumiyyətlərini geridə qoymuşdu. Əmirəlmöminin Əli (ə.s) saçını saqqlını İslam dininin inkişafı, Qurani Kərimin müqəddəs ehkamlarının müdafiəsi yolunda ağartmışdı.

Amma gənc vaxtlarında Bədr, Ühüd, Xeybər və Hüneyn kimi döyüşlərdə döyüşdüyü kimi bu müharibədə də misli bərabəri olmayan igidliklər göstərirdi. Əgər onun döyüş meydanına çıxmasını əngəlləyən Malik Əştər, Əmmar ibn Yasir, Ədi ibn Hatəm və s. qəhrəmanlar olmasaydı ardıcıl olaraq hücumlar edərdi. Əmirəlmöminin Əli (ə.s) bütün hücumlarda iştirak etmək istəyirdi və başqalarına icazə vermək istəmirdi.

[1] "Biharul Ənvar", (Kompani çapı), cild 8, səh 435, rəvayətə görə Mərvan ibn Həkəm Cəməl döyüşündə hər iki qoşuna ox atırdı və deyirdi: "Haraya dəyməsindən asılı olmayaraq qələbədir." Elə bu səbəbdən də onun dinsizliyi məlum olur və o hər iki tərəfə ittihamlar yağdırır.

Cəməl döyüşündə Əmirəlmöminin Əli (ə.s) tərəfindən Bəsrə qoşunundan qətlə yetirilmiş məşhur insanlara nümunə kimi Abdullah ibn Yəsribi və Abdullah ibn Xələf Xəzaini misal çəkmək olar. Bu iki şəxs Bəsrə şəhərinin ən dövlətlilərindən və Aişəni Bəsrədə qarşılayan şəxslər idilər. Bəsrənin ən varlı şəxsi olan Abdullah ibn Xələf Xəzaini qoşundan ayrılaraq döyüş meydanına daxil oldu və döyüşə Əmirəlmöminin Əli (ə.s)-dan savayı kiminsə gəlməsini istəmədi. Döyüş meydanında meydan sulamağa başladı. Əmirəlmöminin Əli (ə.s) döyüş meydanına gəldi, bircə qılınc zərbəsilə başını kəsdi. Abdullah ibn Əbzi Aişənin dəvəsinin önündə dayanaraq yüyənindən tutdu və Həzrət Əli (əs)-ın qoşununa hücum edərək bu sözləri dedi:

"Mən sizi qılıncımla vuracam, amma Əbul Həsəni görmürəm və həqiqətən bu çox qəmgin məsələdir."

Bu zaman Əmirəlmöminin Əli (ə.s) irəli çıxdı, ona nizə ilə bir zərbə vuraraq onu qətlə yetirdi və buyurdu: "Artıq Əbul Həsəni gördün, necə gördün?" və onun bədəninə sancılmış nizəni buraxdı.

Bu hissəni İbn Əbil Hədidin Nəhcül Bəlağənin 13-cü xütbəsinin şərhində qeyd edib və bu hadisəni onun öz dilindən eşidin:

"Əmirəlmöminin Əli (ə.s) mühacirlər və ənsarlardan ibarət qoşunun arasında, oğulları Həsən, Hüseyn, Muhəmməd yanında dayanmışdı. O Həzrət Aişənin dəvəsinə tərəf hücuma başladı və bayrağı oğlu Muhəmmədə verərək dedi: "Onu Aişənin dəvəsinin gözünə batıracağın məsafəyə qədər irəli apar və ona çatmayınca dayanma!" Muhəmməd bayrağı aldı və hücum etdi. Amma düşmən qoşunu tərəfdən ox yağışı yağırdı və bu üzdən o öz silahdaşlarına dayanmaq əmrini verdi və dedi: "Bir az gözləyin oxları qurtarsın." Ox yağışının qurtarmağına az müddət qalmış Əmirəlmöminin Əli (ə.s) onun yanına çapar göndərərək ona irəliləmək əmrini verdi. Çünki uzaqdan getməkdə zəiflik göstərdiyini müşahidə edirdi. Əmirəlmöminin Əli (ə.s) özü irəli çıxdı və sol əlini onun sağ çıyninə qoyaraq dedi: "İrəli, ey anasız!"

Muhəmməd ibn Hənifə Cəməl döyüşündən sonra həmişə o günü xatırlayıb ağlayardı və deyərdi: "Elə bil indi də onun mənim başımın arxasında nəfəs almasını hiss edirəm və Allah and olsun ki, bu hadisəni heç zaman unuda bilmərəm."

Başqa bir rəvayətə görə guya Əmirəlmöminin Əli (ə.s) bu sözləri dedikdən sonra öz övladına ürəyi yandı və bayrağı onun əlindən alaraq və zülfuqarı sağ əlinə götürərək düşmən qoşununa hücum etdi və qoşunun içində gözdən itdi. Birazdan qayıtdı və zərbələrdən əyilmiş qılıncı dizinin üzərinə qoyaraq bir dəfə sıxmaqla düzəltdi. O Həzrətin silahdaşları olan Malik Əştər və Əmmar dedilər: "Ey Əmirəlmöminin, biz sənin yerinə vuruşacayıq." Amma Əmirəlmöminin Əli (ə.s) onların sözlərinə diqqət yetirmədi, onlara tərəf baxmadan şir kimi döyüşə atıldı.

Əmirəlmöminin Əli (ə.s)-ın baxışları Bəsrə qoşununa tərəf idi və ətrafındakıları nə görür, nə də cavab verirdi.

O Həzrət bayrağı yenidən Muhəmməd ibn Hənifəyə tapşırdı və tək hücum edərək düşmən qoşunun içərisinə daxil oldu. Qılınc oynatmağa başladı və düşmən onun ətrafından qaçmağa başladı. O qədər döyüşdü ki, yeri qanla suvardi və ikinci dəfə geri qayıtdı. Əyilmiş qılıncını düzəltmək üçün yenidən dizinin üzərinə qoydu. O Həzrətin dostları, silahdaşları ətrafına toplaşaraq onu özünə və İslam dininin hörmətinə and verərək dedilər: "Əgər siz qətlə yetirilsəniz, yaxud sizə nəsə olsa İslam dini məhv olmaqla üzləşəcək!"

Əmirəlmöminin Əli (ə.s) buyurdu: "Allaha and olsun ki, mənim Allahın razılığını və qiyamət gününün mükafatını əldə etməkdən savayı heç bir məqsədim yoxdur." Sonra üzünü övladı Muhəmməd ib Hənifəyə tərəf çevirərək buyurdu: "Ey Hənifənin övladı, belə hücum et!"

Həzrətin ətrafındakı insanlar dedilər: "Axı kim sənin gördüyün işi təkrarlaya bilər?!"[1]

Başqa bir yerdə belə nəql olunur ki, bayrağı Muhəmməd ibn Hənifəyə verəndə buyurdu: "Hücum et!" Muhəmməd dayandı və Əmirəlmöminin Əli (ə.s) bir daha buyurdu: "Hücum et!" Muhəmməd cavab verdi: "Ey möminlərin əmiri görmürsünüz, ox yağış kimi yağır?!" Əmirəlmöminin Əli (ə.s) əlini onun sinəsinə vuraraq buyurdu:

"Ananın qanı səni tutub!"[2]

Sonra bayrağı onun əlindən aldı və hücum etdi.[3]

Cəməl döyüşünün qəhrəmanları

Bəsrə qoşunun hər cəhətdən tam təchiz olunmasından ötrü mil və mülkün xərclənməsinə baxmayaraq Cəməl müharibəsi Əmirəlmöminin Əli (ə.s)-ın qoşunun tez və tam qələbəsi, Təlhə, Zübeyr və s. əhdə dönük çıxmışların qətlə yetirilməsilə başa çatdı.

Bu erkən qazanılmış qələbə ilk olaraq Allahın insanlar arasındakı höccəti, müdrik rəhbər Həzrət Əmirəlmöminin Əli (ə.s)-ın düzgün rəhbərliyinin, igidliyinin və şücaətinin qələbəsi idi. Cəməl müharibəsində qazanılmış qələbə ikinci olaraq isə O Həzrətin yaxın silahdaşlarının iman və fədəkarlıqlarının, üçüncü isə böyük igidlərin Əmirəlmöminin Əli (ə.s)-ın köməkliyi ilə göstərdikləri qəhrəmanlıqların bəhrəsi idi. Belə fədakar qəhrəmanlardan nümunə olaraq Malik Əştəri misal çəkmək olar. O, İslam uğrunda olan döyüşlərdə, xüsusən Əmirəlmöminin Əli

[1] Nəhcül Bəlağənin şərhi, cild 1, səh 85

[2] Yəni sənin anan da Bəni Haşim nəslindən və Əbdül Müttəlib ailəsindən olsaydı dayanmazdın, hücum edərdin və oxlardan qorxmazdın.

[3] Həmin mənbə, s 81

(ə.s)-la birlikdə göstərdiyi igidliklər hamıya məlumdur. Bu öncə qeyd olundu ki, Əbu Musa Əşəri Kufədə Əmirəlmöminin Əli (ə.s)-ın əmrinin əksinə olaraq insanları Cəməl müharibəsinə getməsinə mane olurdu. Malik Əştər Kufəyə getdi, onu hakimiyyətdən uzaqlaşdırdı və Kufədən qovdu. Malik Əştər eləcə də Aişə Əmirəlmöminin Əli (ə.s)-la müharibə üçün Məkkədən çıxmağa hazırlaşanda ona yazmışdı:

Cəməl müharibəsində də göstərilən rəşadətli igidliklərin çoxu ona aiddir. Bu igirliklərdən bir neçəsinin gələn səhifələrdə Malik Əştərlə Abdullah ibn Zübeyrin döyüşlərində diqqətinizə çatdıracayıq. Qeyd etmək lazımdır ki, Malik Əştər üç gün idi ki, oruc tutmuşdu və ac olduğundan gücü zəifləmişdi.

İbn Əbul Hədid və s. tarixçilər Cəməl döyüşündə Bəsrə qoşunundan Malik Əştər tərəfindən qətlə yetirilmiş böyük döyüşçülərin adını da qeyd etmişlər. Bunlara nümunə olaraq Xəbab ibn Əmr Rasibi (bu şəxs barədə məlumat evrəcəyik) və Əbdürrəhman ibn İtabmisal çəkmək olar. Qeyd etmək lazımdır ki, Əbdürrəhman ibn İtab Qureyş zadəganlarından idi və "Vəlvəl" adlı xüsusi qılıncı var idi. O, döyüş meydanına daxil olub biraz meydan suladı, amma Malik ona hücum edərək qətlə yetirdi. Onun ardınca Aişənin qoşunundan Abdullah ibn Həkim ibn Həzam meydana çıxdı və döyüşmək istədiyini bildirdi. O da Malikin qılıncının zərbəsindən yerə yıxıldı, amma döyüş meydanından qaçaraq canını qurtardı.

Cəməl müharibəsindən sonra Malik Əştər həmişə Əmirəlmöminin Əli (ə.s)-la bir yerdə olub və O Həzrəti həmişə müdafiə edib. Siffeyn müharibəsində də böyük igidliklər göstərib ki, bu barədə söhbət açacağıq. Malik Əştər sonda Müaviyənin qurduğu tələyə düşərək Misirə gedən yolda şəhid edildi. Əmirəlmöminin Əli (ə.s) onun şəhadətə yetirilməsi xəbərini eşidəndə çox qəmgin oldu və bu hadisəni də diqqətinizə çatdıracağıq.

Cəməl müharibəsində rəşadət göstərmiş insanlardan biri də Əmmar ibn Yasir idi. O, İslam dinini ilk qəbul edən insanlardan idi və bu dinin müdafiəsi yolunda böyük əzab, işgəncələr görmüş və İslam yolunda layiqli işlər görmüşdü. Belə ki, qeyd etdiyimiz kimi Əmirəlmöminin Əli (ə.s) onu böyük oğlu Həsən ibn Əli (əs)-la Kufəyə göndərdi və qoşunu səfə düzərkən ona qoşununun sərdarlarından biri təyin etdi.

Tarixçilərin yazdıqlarına əsasən, Əmr ibn Yəsri Zəbbi Bəsrə qoşununun güclü döyüşçülərindən biri idi. O, Əmirəlmöminin Əli (ə.s)-ın qoşunundan bir neçə nəfəri şəhid etdi, sonda Zeyd ibn Suhanı şəhadətə çatdırdı və iftixarla Aişənin dəvəsinin yanına gəldi, dəvənin yüyənindən yapışaraq özünü tərifləməyə başladı. Əmr yenidən döyüş meydanına qayıdaraq mübarizəyə döyüşçü çağırdı. Əmmar ibn Yasir döyüş meydanına getdi, biri-birlərinə qılınc zərbələrindən sonra Əmr ibn Yəsrinin qılıncı Əmmarın qalxanına ilişdi. Əmmar fürsətdən yararlanaraq onun başına zərbə endirdi, yerə yıxdı sonra ayaqlarından tutud sürüyərək

Əmirəlmöminin Əli (ə.s)-ın yanına gətirdi və orada qətlə yetirdi. İbn Əbil Hədid belə yazır: "Əmirəlmöminin Əli (ə.s) dəvənin ətrafındakı insanların qətlə yetirildiklərini, qolların kəsildiyini və qanların töküldüyünü gördükdə buyurdu:

"Malik Əştərlə Əmmarı mənim yanıma çağırın. Onlar Əmirəlmöminin Əli (ə.s)-ın yanına gələndə buyurdu:

"Gedin və bu dəvəni öldürün! Nə qədər ki, o dəvə sağdı, bu müharibənin odu səngiməyəcək. Onlar dəvəni özlərinin qibləsi ediblər."

Malik Əştər və Əmmar Mərad qəbiləsindən olan bir dəstə gənc döyüşçülərlə getdilər və döyüşərək özlərini dəvəyə çatdırdılar. Mərad qəbiləsindən olan gənclərdən biri dəvəyə qılıncla zərbə vurdu. Dəvə yerə yıxıldı, dəhşətli səs çıxardı və onun ətrafına toplaşmış insanlar hamısı dağılışdı.[1]

Əmmar Cəməl müharibəsindən sonra da həmişə Əmirəlmöminin Əli (ə.s)-ın yanında oldu və Siffeyn müharibəsində şəhid oldu. Əmirəlmöminin Əli (ə.s) Əmmar şəhid olanda onun yanında oturaraq bu sözləri şerlə buyurdu:

"Ey məni (dünyadan və bədən adlı qəfəsdən) ayıran ölüm, gəl məni rahatlaşdır! Çünki sən mənim bütün dost və yoldaşlarımı məndən almısan."

Cəməl müharibəsinin qəhrəmanlarından biri də Ədi ibn Hatəmdir. O, Əmirəlmöminin Əli (ə.s)-ın ən böyük səhabələrindən və vəfalı dostlarından biri idi. Ədinin Cəməl döyüşündə gözü yaralandı və kor oldu. Cəməl mmüharibəsindən sonra bir gün Abdullah ibn Zübeyr ona dedi: "Gözün nə zaman kor oldu?" Ədi cavabında dedi: "Atan ölən və sənin də öz xalan Aişəni qoyub qaçdığın gün. Mən haqqı qoruyurdum, sən isə onu məhv edirdin."

Cəməl müharibəsində Ədi ibn Hatəmin övıadlarından biri də şəhid edildi. Onun digər övladları da Siffeyn və digər müharibələrdə Əmirəlmöminin Əli (ə.s) ilə bir yerdə olublar və şəhadət zirvəsinə yüksəliblər. Əmirəlmöminin Əli (ə.s) ın şəhadətindən sonra Müaviyə bir gün ona dedi: "Oğlanların necə oldu?" Cavab verdi: "Öldürüldülər!" Müaviyə dedi:

"Əli sənlə insafla davranmadı. Çünki sənin oğlanlarını ölümə verdi, amma öz oğlanları sağ qaldı"

Ədi cavabında dedi:

"Mən Əli ilə insafla davranmadım ki, O şəhid oldu, mən isə hələ də sağam."

Cəməl müharibəsində igidlik nümayiş etdirmiş insanlardan biri də Muhəmməd ibn Əbu Bəkrdir. Onun anasının adı Əsma binti Əmyəs idi. Muhəmməd Əmirəlmöminin Əli (ə.s)-ın vəfalı silahdaşlarından idi və Siffeyn müharibəsində də O Həzrətlə birlikdə böyük rəşadətlər nümayiş etdirmişdir. Sonda o Əmirəlmöminin Əli (ə.s)-ın əmri ilə Misirə getdi və baş vermiş müharibə nəticəsində şəhid edildi.

[1] İbn Əbul Hədidin Nəhcül Bəlağəyə şərhi, cild 2, səh 81

Onun şəhadət xəbəri Əmirəlmöminin Əli (ə.s)-ın qulağına çatanda çox qəmgin oldu və mübarək üzü qəmləndi.

Rəvayətlərdən birində belə qeyd olunur ki, Əbdürrəhman ibn Şəbib Əmirəlmöminin Əli (ə.s)-a dedi: "Şam əhlinin Muhəmməd ibn Əbu Bəkrin ölüm xəbərindən şad olduğu kimi kiminsə, nədənsə belə şad olduğunu çox az görmüşəm." Əmirəlmöminin Əli (ə.s) buyurdu: "Bil ki, bizim də onun ölümündən olan qəmimiz onların sevinci qədərdir, bəlkə də daha çoxdur."

Zeyd ibn Suhan Cəməl müharibəsinə şəhid edildi və yerə yıxılanda Əmirəlmöminin Əli (ə.s) onun yanına gəldi və onu mədh edərək dedi:

Zeyd O Həzrətin səsini eşidərək başını qaldırır və deyir:

Zeyd əllərindən birini döyüşlərdən birində itirmişdi, amma sağ qalmışdı. Sonda Cəməl döyüşündə şəhidlik zirvəsinə çatdı. Allahın Rəsulu (s.ə.a.s)-dən belə nəql edirlər ki, buyurdu:

İbn Əbul Hədid və digər tarixçilərin yazdıqlarına əsasən, Aişə Bəsrədən Zeyd ibn Suhana məktub göndərmişdi. Məktubda bu sözlər yazılmışdı: "Bu məktub Aişədən övladı Zeyd ibn Suhanadır. Məktubumu alandan sonra evdə otur və insanları Əmirəlmöminin Əli (ə.s)-a yardım etməsinə əngəl törət. Mənim yeni məktubum sənə çatmayacağı zamanadək bu işləri yerinə yetir!"[1] Zeyd Aişəyə cavab olaraq yazır:

"Allah sənə əmr verib və mənə də başqa əmr verib. Sənə əmr edib ki, evində oturasan və mənə cihad etməyi əmr edib! Səndən məktub gəldi və o məktubda Allahın əmrinin əksinə iş görməmə əmr etmisən. Yəni mənə sənin özünün etməli olduğun işi görməyi əmr etmisən, amma özün də mənim görməli olduğum işi görürsən. Deməli sənin məktubunun cavabı yoxdur!"

Cəməl döyüşündə qəhrəmanlıq göstərmiş digər şəxslərin adları da lazım gələrsə qeyd ediləcəkdir.

Müharibə neçə gün çəkdi və nə vaxt bitdi

Tarix kitablarında Cəməl müharibəsinin başlandığı və sona çatdığı müddət qeyd olunmayıb. Amma bəzi tarix kitabıarında bir gün səhərdən axşama qədər uzandığı qeyd olunub.[2] İbn Şəhraşubun Mənaqib əsərində belə yazılıb: "Cəməl müharibəsi günortadan sonra başladı və gün batana qədər davam etdi."[3] İbn Əbil Hədidin yazdıqlarına əsasən, Cəməl müharibəsi üç gün davam edib. Biz onun geniş şərhini tam olaraq sizin diqqətinizə çatdırırıq:

[1] *Qamusəl Rical, cild 4, səh 256*
[2] Şəzəratuz Zəhəb, cild 1, səh 42
[3] Mənaqib (Qum çapı), cild 2, səh 162

"Bəsrə qoşunu öz oxu ətrafında fırlanan dəyirman daşı kimi Aişənin dəvəsinin ətrafına fırlanırdılar və güclü müdafiə edirdilər. Dəvənin ətrafındakı insan izdihamı artdı və Hətat Məcaşəi möhkəm səslə dedi: "Ananız, Ananız!"

İnsanların arasında vurhavur atrdı. Belə ki, biri-birlərini öldürürdülər. Kufə qoşunu da hamılıqla Aişənin dəvəsini öldürməyə can atırdı. Amma dəvənin qoruyucuları onun ətrafında dağa bənzər möhkəm sədd, daha dəqiq müdafiə səddi qurmuşdular. Ölənlərin yeri dərhal yeni döyüşçülərlə dolurdu. Əmirəlmöminin Əli (ə.s) yüksək səslə dedi:

"Vay olsun sizlərə, dəvəni oxlayın və ayaqlarını kəsin. Allah ona lənət eləsin!"

Aişənin dəvəsi tərəfə ox yağdırmağa başladılar. Əmirəlmöminin Əli (ə.s)-ın qoşunu o qədər ox yağdırdı ki, dəvənin və kəcavənin üstündə ox dəyməmiş yer qalmadı. Amma üzərində olan zirehə görə dəvəyə heç nə olmadı və dəvə kirpini xatırladırdı. Dəvəni müdafiə edən Əzəd və Zəbbə qəbiləsinin döyüşçüləri fəryad çəkdilər:

"Ey Osmanın qisasını istəyənlər!" Bu onların şüarı idi.

Əmirəlmöminin Əli (ə.s)-ın silahdaşları fəryad çəkdilər: "Ya Muhəmməd!" Onlar da "Ya Muhəmməd!" şüarını seçdilər. İki qoşun müharibəyə başladı.

Əmirəlmöminin Əli (ə.s) da Allahın Rəsulu Həzrət Muhəmməd (s.ə.a.s)-in şüarını dedi.

Bu hadisələr müharibənin ikinci günündə baş verdi.

Əmirəlmöminin Əli (ə.s)-ın bu şüarından sonra düşmənin dizləri əsdi. Bu hadisə əsr vaxtı baş verdi. Bundan sonra müharibə səhərdən axşama qədər davam etdi və qoşunu yordu.

Vaqidinin dediklərinə əsasən Əmirəlmöminin Əli (ə.s)-ın müharibədə səsləndirdiyi şüarlardan biri bu idi:

Hər iki qoşun müharibəni dayandırdılar və ayrıldılar. Çoxlu sayda insan qırılmışdı. Bəsrə qoşununun verdiyi tələfat daha çox idi və Kufə qoşununun qələbəsinin nişanələri aşkar idi.

Müharibənin üçüncü günü döyüş meydanına birinci daxil olan şəxs Abdullah ibn Zübeyr oldu. Onunla döyüşə Malik Əştər çıxdı. Aişə soruşdu: Abdullahla döyüşə kim çıxdı?" Cavab verdilər ki, Malik Əştər. Aişə dedi: "Vay olsun ki, Əsma oğulsuz qaldı!"[1]

Hər ikisi döyüşə başladı və Malik Əştər Abdullahı yerə yıxaraq sinəsinin üstündə oturdu. İki qoşun hücuma başladı. Bir hissəsi Abdullaha və bir hissəsi də Malikə kömək etməyə çalışırdılar.

Malik Əştər üç gün idi ki, oruc tutmuşdu, qarnını boş və ac saxlayırdı. Bu onun müharibə zamanında olan adətlərindən idi.[2] Eyni zamanda yaşlı, amma olduqca şücaətli şəxs idi.

[1] Əsma Aişənin bacısı və Abdullah ibn Zübeyrin anası idi.

[2] Bəzi tarix kitablarında bel yazırlar ki, Ərəblərin igid döyüşçülərinin, ya da Malik Əştərin özünün adəti belə idi. Bu adətə görə döyüş zamanı mədələrini boş saxlayırdılar ki, öləndə və qarınları parçalananda

Abdullah fəryad çəkərək deyirdi: "Məni Maliklə öldürün", amma əgər desə ki, məni Əştərlə öldürün camaat onların hər ikisini qətlə yetirərdi. Onların ətrafından keçən döyüşçülər izdihamın güclü və üst-üstə qalanmış insanların çox olması səbəbindən onları tanıya bilmirdilər. Elə buna görə də Abdullah ibn Zübeyr Malikin əlindən qaçdı.[1]

Əbu Məxnəf belə nəql edir: "Elə həmin an Haris ibn Zəhir Əzədi Əmirəlmöminin Əli (ə.s)-ın qoşunundan ayrıldı və dəvəyə çatdırdı. Bəsrə qoşunundan bir nəfər dəvənin yüyənindən tutmuşdu və yaxına gələni qətlə yetirirdi. Haris ibn Zəhir Əzədi ona hücum edərək özünə tərif yağdırmağa başladı."[2]

Hücum edərək döyüşə başladılar və biri-birlərini qətlə yetirdilər. Cəndəb ibn Abdullah Əzədi yazır: "Mən onlara yaxınlaşanda hər ikisi ayaqlarını qumlara sürtərək can verirdilər və bir neçə dəqiqədən sonra hər ikisi dünyasını dəyişdi."

Bu zaman Bəsrə qoşunundan Xəbab ibn Əmr Rasibi başqa bir döyüşçü irəli atıldı və meydan döyüşçü tələb etdi. Malik Əştər onu görən kimi hücum etdi və qətlə yetirdi. Ondan sonra Qureyş qəbiləsinin zadəganlarından olan Əbdürrəhman Ətab meydana çıxdı və o da Malik Əştərin qılıncından aldığı zərbədən öldü. Daha sonra Qüreyş qəbiləsinin başqa bir zadəganı Abdullah ibn Həkim ibn Həzam da döyüş meydanına atıldı və mübarizəyə döyüşçü çağırdı. Malik Əştər ona hücum etdi, başına qılınc zərbəsi vuraraq yerə yıxdı. Amma o ayağa qalxaraq döyüş meydanından qaçdı.

---

içərisində insanlarda nifrət yaradacaq və bədənlərini bulaşdıracaq pis heç nə olmasın. Bunu özləri üçün qəbahət sayırdılar.

[1] İbn Əbul Hədid bu yerdə Malik Əştərdən bir neçə beyt şer nəql edir. Əsbəğ ibn Nəbatə rəvayət edir ki, Cəməl müharibəsindən sonra bir gün Əmmar ibn Yasir və Malik Əştər Aişənin yanıına getdilər. Aişə Əmmardan soruşdu: "Sənin lə gələn yoldaşının adı nədir?" Əmmar dedi: "Malik Əştər!"
Aişə soruşdu: " Mənim bacım oğlu isə belə davranan sən idin Malik?"
Malik cavab verdi: "Bəli, əgər üç gün ac qalmış olmasaydım Muhəmməd (s.ə.a.s)-in ümmətini onun şərindən qurtarmışdım" Aişə dedi: "Məgər bilmirsən Allahın Rəsulu buyurub: "Müsəlmanın qanı yalnız üç halda halal olur: Mürtəd olanda, böyük zinada və haqsız olaraq kimisə qətlə yetirəndə!"
Malik dedi: "Mən də bu üç məsələnin bəzisinə görə onunla döyüşürdüm ey möminlərin anası. Allaha and olsun ki, o hadisəyə qədər mənim qılıncım heç vaxt mənə xəyanət etməmişdi və mən o qılıncı bir daha özümlə gəzdirməyəcəyimə and içmişəm."

[2] Aişəyə xitabən bir neçə beyt dedi ki, tərcüməsi belədir: Ey bizim anamız! Bəyəm biz sənin üzünə ağ olmuşuq? Bilirsən ananın işi nədir? Ana öz övladına yemək verməli və onu əzizləməlidir! Görürsən nə qədər qəhrəman insan yaralı halda gəzirlər və əlləri, başları kəsilərək yerə düşür?!"
Cəndəb ibn Abdullah yazır: "Cəməl döyüşündən sonra Mədinə şəhərində olanda Aişənin yanına getdim və ona salam vedim. Məndən soruşdu: "Sən kimsən?" Dedim mən Kufəliyəm!" Soruşdu: "Bəsrə müharibəsində iştirak edirdin?" Dedim: "Bəli!" Soruşdu ki, "Hansı qoşunda idin?" Dedim ki, Həzrət Əli (əs)-ın qoşunundan. Aişə yenə də soruşdu: "Mənim dəvəmin yanında mənə xitabən şer deyən adamı tanıyırsan?" Dedim ki, bəli. O, mənim əmim oğlanlarından biri idi. Soruşdu: "Nə oldu ona?" Dedim ki, dəvənin yanında qətlə yetirildi və qatilini də özü öldürdü." Abdullah yazır: "Aişə ağlamağa başladı və o qədər möhkəm ağladı ki, fikirləşirdim daha heç zaman dayanmayacaq. Aişə dedi: "Allaha and olsun ki, bu hadisəni görməmək üçün iyirmi il bundan öncə ölmək istərdim."

Deyilənə görə Aişənin dəvəsinin yüyənindən yetmiş nəfər Qureyşli tutaraq onun müdafiə etdi və onların hamısı qətlə yetirildi. Ümumiyyətlə, Cəməl döyüşündə Aişənin dəvəsinin yüyənindən tutan hər kəs qətlə yetirildi, yaxud əli kəsildi.

Bu zaman əsil nəcabəti tam məlum olmayan Bəni Naciyə qəbiləsinin döyüşçüləri irəli çıxdılar və dəvənin yüyənindən tutdular. Aişə dəvəsinin yüyənindən tutan hər bir şəxsdən kim olduğunu soruşurdu. Bu dəfə də soruşdu: "Bunlar kimlərdirlər?" Dedilər ki, Bəni Naciyə qəbiləsidir.

Aişə dedi: "Ey Bəni Naciyə övladları müqavimət edin ki, mən sizdə Qureyş qəbiləsinin nişanələini görürəm!" Yalnız bu səbəbdən Bəni Naciyənin bütün döüşçüləri dəvənin atrafında qətlə yetirildilər.

Həbbə Ərənidən nəql edərək yazırlar ki, Əmirəlmöminin Əli (ə.s) ölümün o dəvənin (Məyşum dəvənin adıdır) yanından əmələ gəldiyini müşahidə etdi və dəvənin sağ olduğu zamanadək müharibə alovunun sönməyəcəyini anladı. Qılıncı çiyninə qoyaraq dəvəyə tərəf yönəldi və döyüşçülərinə də dəvəyə hücum etməyi əmr etdi.

Həmin anda dəvənin yüyəni Bəni Zəbbə qəbiləsinin əlində idi. Ağır döyüş oldu və onların əksəriyyəti qətlə yetirildi. Əmirəlmöminin Əli (ə.s) Nəxə və Həmdan qəbilələrindən olan silahdaşları ilə özlərini dəvəyə çatdırdılar. Əmirəlmöminin Əli (ə.s) Nəxə qəbiləsindən olan Bəhir adlı şəxsə buyurdu: "Ey Bəhir, dəvəni öldür!"

Bəhir irəli getdi və dəvənin qarnının arxa hissəsindən qılıncla zərbə vurdu. Dəvə yerə yıxılaraq boynunu yerə vurdu və indiyə qədər eşidilməmiş möhkəm səs çıxardı.

Dəvə nərə çəkərək yıxılandan sonra ətrafındakı insanlar güclü küləkdən qaçan çəyirtkə sürüsü kimi qaçdılar. Aişəni kəcavəsilə birlikdə Abdullah ibn Xələfin evinə apardılar. O Həzrət buyuru: "Allah lənət eləsin o dəvəyə ki, Bəni-İsrailin inəyinə çox bənzəyirdi."[1]

Qoşununun məğlubiyyətindən sonra Aişənin taleyi

Nəql olunmuş rəvayətə əsasən, Aişənin dəvəsini öldürəndən sonra Əmirəlmöminin Əli (ə.s) Aişənin onun qoşununda döyüşən qardaşı Muhəmməd ibn Əbu Bəkrə onun kəcavəsinin üstünə örtük atmasını və zədələnib-zədələnmədiyini soruşmağı əmr etdi. Muhəmməd ibn Əbu Bəkr deyilənləri etdi və başını örtüyün içərisinə saldı. Aişə soruşdu: "Kimsən?" Cavab verdi: "Xanidanının ən qəzəblisi sənin qarşındadı!" Aişə dedi: "Xəsəmiyyənin övladısan?" Dedi: "Bəli!"

Muhəmməd ibn Əbu Bəkr dedi: "Əmirəlmöminin Əli (ə.s) məni göndərib ki, sənin halını soruşum, zədələnib zədələnmədiyini öyrənim. Aişə cavab verdi: "Mənə bir ox dəyib və elə də zədələməyib."

[1] İbn Əbul Hədidin Nəhcül Bəlağəyə şərhi, cild 1, səh 79-87

Əmirəlmöminin Əli (ə.s) gəldi, Kəcavənin yanında dayandı və əlindəki çubuqla Aişənin kəcavəsinə vuraraq buyurdu: "Ey Humeyra! Allahın Rəsulu sənə belə etməni əmr etmişdi? Məgər O Həzrət sənə evində qalmanı və heç bir yerə getməməni əmr etməmişdi?! Allaha and olsun ki, öz qadınlarını evlərində saxlayaraq səni müharibəyə gətirənlər səninlə insafla davranmayıblar!"

Bəzi rəvayətlərdə isə belə nəql edilib ki, Cəməl müharibəsi başa çatandan sonra Əmirəlmöminin Əli (ə.s) Aişənin yanına gələrək buyurdu:

"Ey Humeyra Allahu Təalanın sənə qarşı rəftarını necə dəyərləndirirsən?"

Aişə cavabında dedi:

"Sən qələbə çalmısan və qüdrət qazanmısan. Ona görə güzəştə get və yaxşılıq et!" Bu sözlər atalar sözünə çevrilərək tarixdə qaldı.

Tarixdə atalara sözü kimi qalan sözlərdən biri də Əmmar ibn Yasirin sözləridir. Belə ki, Cəməl müharibəsindən sonra o Aişənin yanına gələrək onunla söhbət etdi. Aişə onu Əmirəlmöminin Əli (ə.s)-a göstərdiyi məhəbbətə və onu tərəfdarı olmasına görə danladı və kinayə ilə Əmmara dedi: "Qələbə çaldığınıza görə mənimlə belə danışırsan?" Əmmar onun cavabında dedi:

"Allaha and olsun ki, siz bizi vursaydınız və Bəhreynin xurma bağlarına qədər təqib etsəydiniz də bizim haqlı və sizin haqlı olmanıza yəqinliyim zərrə qədər də azalmazdı."

Bir neçə hədisdə qeyd olunub ki, Əmirəlmöminin Əli (ə.s) Cəməl müharibəsindən sonra döyüşçülərinə ələ keçirdikləri malı götürmələrini, amma qaçanları qovmamalarını, camaatın evlərinə soxulmamalarını, qadın və uşaqları əsir götürməmələrini, yaralıları öldürməmələrini və həyat yoldaşları ölmüş qadınlara vəfat iddəsini gözləmələrinə şərait yaratmalarını əmr etdi. Bundan sonra etirazlar eşidilməyə başladı. Belə ki, bəziləri ölənlərin qanlarının halal olmasına, amma qadınlarının haram olmasına etiraz etdilər.

Əmirəlmöminin Əli (ə.s)-ın onlara verdiyi cavabından sonra bu sözləri deyənlər günahkar halda O Həzrətin hüzuruna gəldilər və üzr istədilər. Əmirəlmöminin Əli (ə.s) bu sözləri buyurdu: "Bunlar qiblə sakinləridirlər və bunlar barədə olan hökm budur. O qadınlardan biri də Aişədir. Sizin hansınız onu öz səhminə götürmək istəyir?" Əmirəlmöminin Əli (ə.s)-ın bu sözlərindən sonra hər tərəfdən səslər yüksəlməyə başladı. Onlar bu sözləri deyirdilər:

"Ən düzgünü sənin buyurduqlarındır və biz xəta etdik. Sən alimsən, biz isə nadan! Biz Allahdan bağışlanmağı istəyirik və insanlar hər tərəfədn fəryad edərək dedilər: "Ən düzgün yol sən buyurduqlarındır, ey Əmirəlmöminin. Allah səni xeyir və savab yolunda sabitqədəm etsin!"[1]

[1] Aişənin hədisləri, səh 181-182

Ümumiyyətlə, Cəməl müharibəsindən sonra Əmirəlmöminin Əli (ə.s)-dan Bəsrəni və bu şəhər sakinlərini çox məzəmmət edib və bu sözlər Nəhcül Bəlağədə[1], Tarixi Yəqubi, Murucuz zəhəb və s. Kitablarda qeyd olunmuşdu.

Bəzi rəvayətlərə görə Əmirəlmöminin Əli (ə.s) İbn Abbası Aişənin yanına göndərdi və ona Mədinədəki evinə qayıtmağı əmr etdi. Aişə İbn Abbasla söhbətlərdən sonra Mədinəyə qayıtmağa hazırlaşdı. Əmirəlmöminin Əli (ə.s) böyük hörmət və ehtiramla onu Mədinəyə yola saldı. Belə ki, Əqdul Fərid kitabında onu qırx, yaxud yetmiş qadının Mədinəyə çatdırması qeyd olunub.

Məsudinin yazdığına əsasən, qardaşı Əbdürrəhman ibn Əbu Bəkri otuz nəfər kişi ilə birlikdə onunla göndərdi. Bəzi rəvayətlərdə qeyd olunduğu kimi Aişə Bəsrədə qalmaq istəyirdi, amma Əmirəlmöminin Əli (ə.s) yenidən məkirli işlərin başlanılmasından xəbərdar oldu və onu Mədinəyə aparmağı əmr etdi.[2]

Cəməl müharibəsinin tələfatı və mənfi nəticələri

Qeyd etdiyimiz kimi bu döyüşdə çoxlarının qolları kəsildi və onların dəqiq sayı məlum deyil. Cəməl müharibəsində ölənlərin sayı barədə müxtəlif rəvayətlər var. Təbəri tarix kitabında Cəməl müharibəsində altı mindən çox insanın həlak olduğu bildirir.

İbn Əsəmin Tarix kitabında belə qeyd olunur: "Əmirəlmöminin Əli (ə.s)-ın qoşunundan min yeddi yüz və düşmən qoşunundan altı min insan qətlə yetirildi."

İbn Əbdürəbə Əqdül Fərid kitabında yazır: "Aişənin qoşunundan iyirmi min və Əmirəlmöminin Əli (ə.s)-ın silahdaşlarından beş yüz nəfər qətlə yetirildi.

Tarixi Yəqubidə müharibədə ümumilikdə otuz mindən çox insanın tələf olması qeyd olunub.[3]

İbn Şəhraşubun Mənaqib kitabında qeyd olunub ki, Əmirəlmöminin Əli (ə.s)-ın qoşununda iyirmi min döyüşçü var idi və onlardan səksən nəfəri Bədr döyüşünü görmüş insanlar idilər. İki yüz əlli nəfəri Rizvan beyəti hadisəsində Allahın Rəsulu (s.ə.a.s)-lə beyət etdilər.

Allahın Rəsulu (s.ə.a.s)-in səhabələrindən min beş yüz nəfəri Əmirəlmöminin Əli (ə.s) tərəfindən vuruşurdular.

Aişənin qoşununun sayı otuz min nəfər idi. Qutadənin nəql etdiyi rəvayətə əsasən, Cəməl müharibəsində iyirmi min insan qətlə yetirildi. Kəlbi isə belə yazır: "Əmirəlmöminin Əli (ə.s)-ın qoşununda min piyada və yetmiş atlı döyüşçü şəhid edildi. Şəhid olanlardan Zeyd ibn Suhanın, Hind Cəməli, Əbu Abdullah Əbdi və Abdullah ibn Rəqəbəni misal çəkmək olar.

---

[1] Nəhcül Bəlağə, xütbə 13

[2] Daha ətraflı məlumat üçün *Biharul Ənvar, cild 8, səh 450-452; Əbdülfəttah Əbdülməqsudun İmam Əli kitabının Cəməl hissəsinə, səh 427-ə müraciət edin.*

[3] Aişənin hədisləri, səh 187

Aişənin qoşununda olan təkcə Əzəd qəbiləsindən dörd min döyüşçü qətlə yetirildi. Bəni Ədi və yaxınlarından doxsan kişi, Bəni Bəkrdən səksən nəfər, Bəni Hənzələdən doqquz yüz nəfər, Bəni Naciyədən dörd yüz nəfər və bunlardan əlavə təxminən doqquz min nəfər qətlə yetirildi. Daha sonra qətlə yetirilənlərin arasında Qureyş qəbiləsinin tanınmış şəxsiyyətlərindən olan Təlhə, Zübeyr, Muhəmməd ibn Təlhə və sairlərinin qətlə yetirildiyini qeyd edir.

1) Allahın Rəsulunun (s.ə.a.s)-in Həzrət Əli (əs)-a əhdi pozanlarla döyüşmək barəsində buyurduqları

Bu fəsildə hər şeydən öncə diqqətinizə çatdırmaq istədiyim məsələ "Əhdi pozanlar" ləqəbinin Allahın Rəsulu (s.ə.a.s) tərəfindən Təlhə, Zübeyr və başqalarına ünvanlaması və onların gələcəyindən xəbər verməsidir. Bunu da bilməlisiniz ki, onlarla döyüşməyi də O Həzrətin özü Həzrət Əli (əs) buyurmuşdur.

Belə hədislərin sayı əllidən artıqdır, müxtəlif kitablarda və müxtəlif sənədlərlə qeyd olunmuşdur. Amma bu hədislərin əksəriyyəti Şiə mənbələrində **Biharul Ənvar** kitabında (cild 8, səh 454-459) və Sünni mənbələrində **Əhqaqul Həqq** kitabında (cild 6, səh 59-78) qeyd olunmuşdur. Bu hədislərin hamısında qeyd etdiyimiz iki cəhət açıq şəkildə qeyd olunmuşur və biz burada hər kitabdan bir neçə hədisi diqqətinizə çatdırırıq. Amma öncə diqqətinizə bir maraqlı hədisi çatdırmaq istəyirəm. Bu hədisi İbn Məğazili Şafei **Mənaqib** və Şeyx Müfid (r) **İrşad** kitabında, eləcə də **Mənaqib və Kəşful Ğəmə** kitablarında da İbn Məğazilinin **Mənaqib** kitabına istinadən qeyd edilib.

O, bu hədisi birbaşa olaraq Əbu Səid Xədriən nəql edərək yazır: "Bir gün Allahın Rəsulu (s.ə.a.s) mənim yanıma gəldi. Biz hamımız məsciddə oturmuşuq və heç birimiz danışmırdıq. O Həzrət buyurdu:

"Həqiqətən sizin aranızda elə insan var ki, mənim Quranın nüzulu üçün mübarizə apardığım kimi, o da Quranın təvili (açıqlanması) üçün mübarizə aparacaqdır."

"O şəxs hücrədə başmaqları tikir!"

Əbu Səid Xədri deyir: "Bu zaman Əli ibni Əbi Talib (Allah ondan razı olsun) hücrədən çıxdı və əlində Allahın Rəsulu (s.ə.a.s)-ın başmaqları var idi."[1]

Şeyx Səduq (r) **Məaniyəl Əxbar** kitabında Um Səlmənin özündən Allahın Rəsulu (s.ə.a.s)-in bu hədisini rəvayət edir:

"Ey Um Səlmə, eşit və şahid ol! Bu Əli ibn Əbi Talib müsəlmanların ağası, təqvalı insanların rəhbəri, üzüağ insanlar karvanının saravanı, əhdi pozanlar, zalımların və dindən xaric olmuşların qatilidir!" Um Səlmə deyir ki, soruşdum: "Əhdi pozanlar (Nakəslər) kimlərdir?" Buyurdu: "Onunla Mədinədə beyət edib,

[1] Mənaqib, İbn Məğazili Şafei, səh 438; Biharul Ənvar (Kompani çapı) cild 8, səh 455-456

Bəsrədə bu beyəti pozanlar.” Dedim ki, “Zalımlar (Qasitlər) kimlərdir?” Buyurdu: “Müaviyə və onun Şamdan olan silahdaşları.” Soruşdum ki, “Dindən xaric olmuşlar (Mariqlər) kimlərdir?” Buyurdu: “Nəhrəvan əshabı.”

Bu hədis xırda fərqlərlə Sünni kitablarında on dəfədən artıq Əbu Əyyub Ənsaridən rəvayət olunub və **“Əhqaqul Həqq”**[1] kitabının altıncı cildində qeyd edilib. Bu hədisi Əlqəmə və Əsvəd rəvayət edirlər və o belədir: “Əbu Əyyub Ənsari Siffeyndən qayıdanda onu görməyə getdik və ona dedik: “Ey Əbu Əyyub, Allah sənin məqamını Həzrət Muhəmməd (s.ə.a.s)-i sənin evində qalmaqla yüksəltdi. O Həzrətin dəvəsi sənin evinin qarşısında oturdu başqa yerdə yox. Amma indi qılıncı götürüb “La İlahə İlləllah” deyənlərlə müharibəyə qalxmısan? Əbu Əyyub cavab verdi:

“Ey cənablar! Allahın Rəsulu (s.ə.a.s) mənə əmr edib ki, Əli ibn Əbi Taliblə birlikdə üç dəstə insanlarla döyüşüm: Nakislər, Qasitlər və Mariqlər!”

Sonra Əbu Əyyub sözünü davam etdirərək deyir: “Nakislərlə biz döyüşdük və onlar “Cəməl əshabı” idilər, yəni Təlhə, Zübeyr və s. Qasitlərin döyüşündən biz indi qayıdırıq, yəni Müaviyə və Əmr ibn As. Amma Mariqlər Tərfa, Nəxliyat və Nəhrəvan əhlidirlər. Allaha and olsun ki, mən bilmirəm onlar hardadırlar, amma onlarla müharibədən başqa çarəmiz olmayacaq İnşaallah Təala.

On hədisdən də çox hədisdə bu məsələlər sünnilərin özləri tərəfindən Əmirəlmöminin Əli (ə.s)-dan nəql olunmuşdur. O Həzrət buyurub:

“Mən üç dəstə insanlarla döyüşməyə məmur edilmişəm: Nakəslər, Qasitlər və Mariqlər. Qasitlər Şam əhlidir, Nakəslər Cəməl əhli və Mariqlər Nəhrəvan əhli, yəni Xəvariclərdir!”

Bu da Allahın Rəsulunun qeybdən verdiyi xəbərlərdəndir...

Əgər qeyd olunmuş rəvayətləri sıralasaq, onların Allahın Rəsulu (s.ə.a.s)-in qeybdən xəbər verməsi və eyni zamanda O Həzrətin möcüzələri sırasına daxil etmək olar. Belə ki, O Həzrət gələcəkdən xəbər verdi və bu buyurduğu kimi baş verdi. Bu sözləri sünni alimlərinin birinin dilindən eşitməniz yaxşı olar. İbn Əbil Hədid Əmirəlmöminin Əli (ə.s) **Şiqşiqiyyə** xütbəsinin açıqlamasında, O Həzrətin bu sözlərinin ardınca yazır:[2]

“Nakəslər Cəməl əshabı, “Fasiqlər” Allahın Rəsulu (s.ə.a.s)-in “Qasitlər” adlandırdığı Siffeyn əshabı və “Mariqlər” tayfası Nəhrəvan əshabıdır.” İkinci dəstəni Qasitlər adlandırılmasının səbəbi O Həzrətin Əmirəlmöminin Əli (ə.s)-a buyurduqlarından məlum olur. O Həzrət buyurub:

“Tezliklə məndən sonra Nasəklər, Qasitlər və Mariqlərlə müharibə edəcəksən.”

[1] Əhqaqul Həqq, cild 6, səh 59-64

[2] Bu xütbənin tam açıqlaması və tərcüməsi öncəki səhifələrdə qeyd edilib

Müəllif davam edərək yazır: "O Həzrətin buyurduqları birbaşa olaraq qeybdən xəbər verməkdir və burada heç bir qaranlıq məqam, yaxud şişirtmə yoxdur və digər xəbərlər kimi deyil[1]

Bu barədə qeyd olunmuş rəvayətlərdən birində bu məsələ ilə yanaşı başqa məsələyə də işarə edilərək üzərindən anlaşılmazlıq götürülür. Bu yazıçının sünni qardaşlarımızdan və böyük sünni alimi olmasını bir daha diqqətinizə çatdırıram. O, Nəhcül Bəlağənin 154-cü xütbəsinin altında yazır:

"Bu xəbər Allahın Rəsulu (s.ə.a.s)-dən rəvayət edilir və və hədis alimlərinin bəziləri onu birbaşa Əmirəlmöminin Əli (ə.s)-dan rəvayət edirlər. Allahın Rəsulu (s.ə.a.s) O Həzrətə buyurub: "Həqiqətən Allah təala müşriklərlə cihadı mənə vacib buyurduğu kimi fitnə törədənlərlə cihad etməyi sənə vacib buyurub."

Əmirəlmöminin Əli (ə.s) deyir: "Ey Allahın Rəsulu, Allahın mənə mübarizə aparmağı vacib buyurduğu fitnə törədənlər kimlərdir?"

O Həzrət buyurdu: "Allahdan qeyri ibadətə layiq kimsənin olmamasına və mənim Allahın Rəsulu olmama şəhadət verdikləri halda mənim buyurduğum sünnətə qarşı çıxan insanlardır."

Dedim ki, " Ay Allahın Rəsulu (s.ə.a.s), mənim şəhadət verdiyimə şəhadət verənlərlə, (müsəlman olanlarla) hansı cinayətlərinə görə müharibə etməliyəm?"

Buyurdu: "Dində bidət yaratmaları və Vilayətə qarşı çıxmalarına görə."

Dedim ki, "Ey Allahın Rəsulu, mənə şəhadət vədəsi vermisən. Allahdan istə ki, sizin yanınızda şəhid olmağı mənə nəsib etsin və bu işi tez etsin."

Buyurdu: "Yaxşı, Nakəslər, Qasitlər və Mariqlərlə kim döyüşsün?! Mən sənə şəhadət müjdəsi vermişəm və sən şəhid olacaqsan. Sənin başına zərbə vuraraq saqqalını qana boyayacaqlar. Yaxşı, sən onda necə səbr edəcəksən?"

Dedim ki, "Ey Allahın Rəsulu o vaxt səbr vaxtı yox, şükr vaxtı olacaq."

Buyurdu: "Bəli, düzgün dedin. Elə buna görə də sənə qarşı düşməniçilik aparmalarına hazır ol, çünki sənin lə düşmənçilik edəcəklər."

Dedim ki, "Ey Allahın Rəsulu, bir az çox açıqlama verin və məsələni daha geniş bəyan edin."

Buyurdu: "Tezliklə mənim ümmətim məndən sonra fitnəyə düçar olacaqlar. Quranı öz meyillərinə uyğun olaraq təfsir edib, öz düşüncələrinə əməl edəcəklər. Şərabı halal içki kimi halal edəcəklər. Batil malı hədiyyə, ribanı ticarət kimi halal biləcəklər. Quranı əsil mənasını təhrif edərək zəlalət və azğınlıq yaradacaqlar. Bu zaman xəlifə seçiləcəyin vaxta qədər evində otur. Xilafətə çatandan və hakimiyyəti ələ aldıqdan sonra sinələrdə sənə qarşı düşmənçilik qaynayacaq (düşmənçiliklər aydın olacaq), bütün işlər sənə qarşı yönələcək. Bu zaman mənim Quranın nüzulu

[1] Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 1, səh 66-67

uğrunda apardığım müharibə kimi sən də Quranın təvili (təfsiri) üçün mübarizə aparacaqsan. Amma onların ikinci halətləri birinci halətləri kimi olmayacaq."[1]

Mən dedim ki, "Ey Allahın Rəsulu, səndən sonra onlarla hansı meyarlara uyğun olaraq davranım: Fitnəkarlıq meyrarı yaxud mürtədlik meyarı ilə?

Buyurdu: "Fitnə meyarı ilə, çünki onlar ədalətə çatana qədər fitnənin içərisində azaraq avara qalacaqlar."

Dedim ki, "Ey Allahın Rəsulu, ədalət bizim tərəfimizdən onlara çatacaq, ya başqaları tərəfdən?"

Buyurdu: "Bizim tərəfimizdən. Çünki işlər bizim tərəfdən başlayıb və bizim tərəfimizdən də sona çatacaq. Bizim vasitəmizlə Allah ürəkləri müşriklikdən çıxararaq cəmləşdirdi və bizim vasitəmizlə də ürəkləri fitnəkarlıqdan uzaqlaşdıraraq cəmləşdirəcək."

Mən dedim: "Allahın bizə əta etdiyi fəzilətə görə şükr olsun."

2) Əli (əs)-la müharibə Allahın Rəsulu (s.ə.a.s)-lə müharibə deməkdir

Sonda bəhsimizi və son iki fəsli tamamlamaq üçün bu fəsli də onlara qoşuruq və Əmirəlmöminin Əli (ə.s)-a qarşı vuruşan Təlhə, Zübeyr və s. kimi insanların hökmünü müəyyənləşdirəcəyik. Sünni və şiyə mənbələrində dəfələrlə qeyd olunmuş rəvayətlərə əsasən, Allahın Rəsulu (s.ə.a.s) dəfələrlə Əmirəlmöminin Əli (ə.s)-a buyurub:

"Ey Əli, sənin sülhün mənim sülhüm, sənin müharibən mənim müharibəmdir!"

Başqa bir yerdə isə belə buyurub:

"Sənin müharibə etdiyin hər bir şəxslə mən də müharibə edirəm və sülh bağladığın hər bir şəxslə sülhdəyəm!"

Bu rəvayət də bir çox yerdə, o cümlədən "**Biharul Ənvar"ın** (cild 8, Kompani çapı, səh 459-dan sonra) **"Ehqaqul Həqq"** (cild 6, səh 39-da sonra) qeyd olunub. İbn Əbil Hədidin Əmirəlmöminin Əli (ə.s)-ın xilafəti zamanı o Həzrətə qarşı müharibə etmək istəyənlərə qarşı qiyam edən şəxslər barədə yazdıqları da olduqca maraqlıdır. O, yazır: "Biz onları fasiqlikdə günahladırırıq və onları fasiq adlandırırıq[2] və O Həzrətin bu barədə çıxardığı höküm Allahın Rəsulu (s.ə.a.s)-in hökmüdür. Çünki O Həzrətdən bizə çatan səhih hədislədə belə buyurub:

"Əli Haqladır və Haqq da Əli ilədir. Əli hardadırsa, Haqq da orada dolanır."

Eləcə də bir neçə dəfə Əmirəlmöminin Əli (ə.s)-a buyurub:

"Sənin müharibən mənim müharibəm, sənin sülhün mənim sülhümdür!"[3]

---

[1] Belə başa düşmək olar ki, onlar elə həmin birinci dəstədir, amma dəyişilmiş şəkildə.

[2] Başqa bir yerdə deyir: "Amma bizim nəzərimizdən Siffeyn əshabı fasiq olduqlarına görə hamılıqla əbədi cəhənnəm əhlidirlər... (cild 1, səh 68)

[3] Nəhcül Bəlağənin şərhi, cild 1, səh 212

Başqa bir yerdə özünün və əshabının Əmirəlmöminin Əli (ə.s) barədə əqidəsini belə bəyan edir:

"Əlini düşmən bilən, onunla müharibə və düşmənçilik edən hər kəs Sübhan Allahın düşmənidir. O şəxs tövbə edib tövbəsini sübuta yetirməsə və O Həzrətin dostluğu və məhəbbəti yolunda ölməsə, kafirlərlə və münafilərlə əbədi olaraq cəhənnəmdə qalacaqdır.[1]"

Başqa yerdə Müaviyə və onun Əmirəlmöminin Əli (ə.s)-a qarşı düşmənçiliyi barədə belə yazır:

"Görəsən Müaviyə və digərləri Allahın Rəsulunun min yerdə Əmirəlmöminin Əli (ə.s) barədə buyurduqlarını eşitməyiblər? O Həzrət buyurub: "Sən müharibə etdiyin adamla mən də döyüşdəyəm və sən sülh bağladığın adamla, mən də sülhdəyəm." Yaxud O Həzrətin buyurduğu bu sözlər: "Allahı onu düşmən bilən hər kəslə sən düşmən, dost bilən hər kəslə dost ol![2]"

Eləcə də: "Sənin müharibən mənim müharibəm və sənin sülhün mənim sülhümdür."

Eləcə də: "Sən Haqq iləsən və Haqq sənindədir."

Eləcə də: "Bu məndəndir və mən ondanam!"

Eləcə də: "Bu mənim qardaşımdır!"

Eləcə də: "Allahı və Rəsulunu sevir, Allah və Rəsulu da onu sevirlər!"

Eləcə də: "Allahım, öz yaratdıqlarının ən sevimlisini mənim yanıma gətir!"

Eləcə də: " O məndən sonra bütün möminlərin başçısı olacaq!"

Eləcə də: "O başmaq tikəndir..."[3]

Eləcə də: "Onu sevən ancaq mömin və düşmən bilən yalnız münafiq ola bilər!"

Eləcə də: "Həqiqətən də cənnət dörd nəfərin intizarındadır və birincisi odur."

O Həzrətin Əmmara buyurduqlarından: "Səni zalımlar dəstəsi qətlə yetirəcək.

Eləcə də: "Sən məndən sonra Nakəslər, Qasitlər və Mariqlərlə müharibə edəcəksən."

Əgər biz Allahın Rəsulu (s.ə.a.s)-in Əmirəlmöminin Əli (ə.s) barəsində buyurduğu hədisləri sadalasaq, çox uzanacaq və bunun üçün ayrıca kitab yazmaq lazımdır.

---

[1] Həmin mənbə, səh 520

[2] Həmin mənbə, səh 221

[3] Bir az öncə qeyd etdiyimiz hədisdəndir.

8 Cəməl müharibəsindən sonra Siffeyn müharibəsinin başlandığı zamana qədər

Əmirəlmöminin Əli (əs)-ın döyüşdən sonra Bəsrə əhli ilə söhbəti və onları məzəmmət etməsi

Cəməl müharibəsi oxuduğunuz ardıcıllıqla sona çatdı. Təlhə, Zübeyr və digər tanınmış insanlar qətlə yetirildilər, Aişə Əmirəlmöminin Əli (ə.s)-ın əmri ilə Mədinəyə geri qayıtdı, Əmirəlmöminin Əli (ə.s) Bəsrə şəhərinə daxil oldu, bir neçə gün orada qaldı. Əmirəlmöminin Əli (ə.s) müharibə dağıntılarını təmir etməyə, şəhər əhalisinin durumunu yaxşılaşdırmağa və beytülmalı bölüşdürməyə başladı. Bu müddət ərzində Bəsrə sakinləri ilə söhbətlər etdi. Əmirəlmöminin Əli (ə.s)-in Bəsrə sakinləri ilə etdiyi söhbətlərdən və bu şəhər sakinlərinə xitabən buyurduğu sözlərin bəzi hissələrini qısa şəkildə Seyyid Rəzi "Nəhcül Bəlağə"də və bəzən geniş şəkildə qeyd etmişdir. Amma "Nəhcül Bəlağə"də qeyd olunmuş sözlər budur:

"Sizlər qadının qoşunu və dilsiz-ağızsız heyvanın ardıcılları idiniz. O heyvan səsi çıxardı və siz cavab verdiniz, öldürüldü və siz hamınız qaçdınız! Siz təbiətcə zəif və əhdə vəfasız insanlarsınız. Sizin rəsminiz ikiüzlü və şəhərinizin suyu duzludur.

Sizin aranızda qalan insan günahın hədəfindədir və sizdən uzaqlaşan insan Allahın rəhmətini dərk edər. Allahu təala bu şəhərə yuxarıdan aşağı əzab göndərir və sizin şəhərinizdə gördüyüm məscid (suda batmış) gəmi göyərtəsinə bənzəyir ki, onda olan hər bir insan batacaqdır."

Başqa bir rəvayətdə buyurub: "Allaha and olsun ki, sizin məscidiniz batacaqdır. Belə ki, mən onun məscidini sinəsi üstündə oturmuş (hərəkət etməyən) gəmiyə və dəvəquşuna bənzədirəm."

Başqa bir rəvayətdə də dənizdə üzərində olan quşun sinəsinə bənzədir və "Nəhcül Bəlağə"də belə buyurur:

"Məmləkətiniz suya yaxın və asimandan uzaqdadır. Ağıllarınız yüngül, beyniniz puçdur. Siz ox atanların hədəfi, yeyicilərin tikəsi və ovçuların ovusuz."

Gələcəkdən verilmiş xəbərindən

Nəhcül Bəlağədə Cəməl müharibəsindən sonra Mərvan ibn Həkəmin əsir götürülməsi, onun azadlığa buraxılması üçün İmam Həsən və İmam Hüseyn (əs)-ı Əmirəlmöminin Əli (ə.s) üçün şəfaətçi və vasitəçi kimi gətirdilər. Əmirəlmöminin Əli (ə.s) onun azadlığa buraxmaq əmrini verdi və Həsən O Həzrətə dedi: "Mərvan sizinlə beyət edəcək?" Buyurdu: "Məgər Osmanın qətlindən[1] sonra mənimlə beyət

[1] Bəzi rəvayətlərdə "Osmanın qətlindən öncə" və zahiri mətndə tərcümə olduğu kimidir.

etmədimi? Mənim onun beyətinə ehtiyacım yoxdur. (Onlar kimi yalançı və əhdi pozandır). O elə bir insandır ki, əli mənə beyət etsə də arxası əhdi pozaraq xəyanət edəcək. Tezliklə ümmət (İslam ümməti) ondan və övladlarının əlindən qırmızı (qara) günlər görəcəklər."[1]

Əmirəlmöminin Əli (ə.s)-ın bu sözləri söyləməkdə məqsədi Əbdülməlik ibn Mərvanın övladları olan Yəzid, Süleyman, Vəlid və Hişamdır və bu dörd nəfər hakmiyyətdə olublar. Bu sözlərdən alınan başqa bir ehtimalı İbn Əbil Hədid nəql edir: "Ola bilsin məqsəd Mərvanın nəvələri yox, oğul nəslindən olan oğlanları, yəni Əbdülməlik, Əbdüləziz, Bəşər və Muhəmmədir ki, onlardan Əbdülməlik xilafətə çatdı və Əbdüləziz Misirdə, Bəşər İraqda və Muhəmməd Əlcəzairdə hakimiyyətə gəldilər.

Bir maraqlı hədis

"Nəhcül Bəlağə" kitabında rəvayət olunub ki, Əmirəlmöminin Əli (ə.s)-ın Cəməl müharibəsindəki qələbəsindən sonra O Həzrətin silahdaşlarından biri bildirdi: "Çox istərdim ki, mənim qardaşım filankəs də bizimlə olardı və Allahın sizi düşmənləriniz üzərində qələbəyə çatdırmasını görərdi."

Əmirəlmöminin Əli (ə.s) buyurdu: "Sənin qardaşının qəlbi və ürəyi bizimlə idi?" Cavab verdi: "Bəli." Əmirəlmöminin Əli (ə.s) buyurdu: "Belə olduğu halda o və atalarının bellərində, analarının bətnlərində olan və gələcəkdə həyatın onları dünyaya gətirəcək və imanlarının onlara güc verəcəyi insanlar bizimlə olublar."[2]

O Həzrətin qeybdən verdiyi xəbərlərdən biri də Bəsrə barəsində idi. Belə ki, O Həzrət Sahib Zəncin Bəsrədən çıxışı barədə xəbər verir və qeybdən xəbər vermənin Allah yanında mövcud olan elmlərdən biri olduğunu və bu elmin peyğəmbərə təlim edildiyini bildirir.[3]

Beytülmalın bölüşürülməsi

İbn Əbil Hədid Əbul Əsvəd Deəlidən rəvayət edir ki, Əmirəlmöminin Əli (ə.s)-ın Cəməl müharibəsində qələbə çalmasından sonra bir dəstə Mühacir və

[1] Xütbə 71

[2] Xütbə 12. Həzrət Əli (əs)-ın buyurduqları Allah təalanın hər insanı niyyəti və əqidəsinə uyğun olaraq mükafatlandırması düşüncəsindən mənşə alır. Yəni hər bir əməlin əsasını niyyət müəyyənləşdirir. Allahu təala əməlsiz niyyətə görə də insanı mükafatlandırır. Belə ki, rəvayətlərin bəzilərində belə buyrulub: "Kim xeyirli əməl niyyətində olsa və həmin işi görməsə belə onun üçün xeyrə yazılacaq"
Başqa bir rəvayətdə də belə qeyd olunub: "Xeyirli əməlin niyyəti pislik yaratmaz və riyakarlıqla görülmüş işlərdən mükafatlandırmaya daha yaxındır." Xülasəsi budur ki, işin əsasını xeyirli əməl təşkil edir. Mövlana Cəlaləddin Rumi deyir: "Ey qardaşım, sən düşüncədən ibarətsən, bundan başqa sən yalnız sümük və maddiyatdan ibarətsən. Əgər sənin düşüncən güldürsə, sən gülüstansan və əgər sənin düşüncən tikandırsa sən də çirkabsan."

[3] Xütbə 26-ya müraciət edin

Ənsarla birlikdə Bəsrənin Beytülmal saxlanıldığı yerə daxil oldu. Mən də O Həzrətlə birlikdə idim. Əmirəlmöminin Əli (ə.s) çoxlu pul görən kimi bir neçə dəfə dedi: "Ğurri Ğeyri"

"Məndən qeyrisini aldat və yoldan çıxar!"[1]

Sonra ordakı mal dövlətə dəqiq nəzər salaraq buyurdu: "Bunları bölün və hər kəsə 500 dirhəm verin!" Muhəmməd (s.ə.a.s)-i peyğəmbərliyə məbus edən Allaha and olsun ki, mal-dövləti böldükdən sonra nə bir dirhəm az gəldi, nə bir dirhəm çox. Elə bil ki, Əmirəlmöminin Əli (ə.s) pulun miqdarını və insanların sayını bilirdi. Çünki, pulun miqdarı altı min min (6 000 000) dirhəm və O Həzrətin əsgərlərinin sayı on iki min nəfər idi.

Həbbə Ərənidən (Əmirəlmöminin Əli (ə.s)-ın səhabələrindən biri) rəvayət edir: "Əmirəlmöminin Əli (ə.s) Bəsrə beytülmalını öz silahdaşları arasında bölüşdürdü və hər adam başına 500 dirhəm düşdü və O Həzrətin özü də başqaları kimi 500 dirhəm götürdü. Bu zaman O Həzrətin yanına müharibədə iştirak etməyən bir şəxs gəldi və dedi:

"Ey Möminlərin Əmiri, mənim cismim sizinlə bir yerdə olmasa da, ürəyim sizinlə bir yerdə idi. Bu mal-dövlətdən mənim payımı da ödə."

Əmirəlmöminin Əli (ə.s) öz payına düşən 500 dirhəmi də ona verdi və özünə heç nə qalmadı.

Əmirəlmöminin Əli (ə.s)-ın Bəsrə sakinləri üçün ünvanladığı nitq və Kufə sakinlərinə ünvanladığı məktub

Şüyx Müfid (r) "İrşad" kitabında belə rəvayət edib ki, Əmirəlmöminin Əli (ə.s) Bəsrədə öz düşmənlərinə qalib gəldikdən sonra onlar üçün bir nitq söylədi və ardınca Kufə sakinlərinə məktub yazaraq həmin şəhərə getmək qərarını qəbul etməsini onlara çatdırır.

O Həzrətin Bəsrə əhli üçün söylədiyi nitq bu idi. Əmirəlmöminin Əli (ə.s) Allaha həmd və səna göndərdikdən sonra buyurdu:

"Həqiqətən, Allahın rəhməti hədsiz, bağışlamağı əbədi, güzəştə getməyi çox və əzabı olduqca ağırdır. Rəhmətini, bağışlamasını və güzəştə getməyini itaət edən bəndələri üçün buyurub və rəhmətilə düz yolu tapanları hidayət edir. Ona itaət etməyən bəndələri üçün qəzəb, əzab və cəza yaradıb. Yollarını azmışların bu azğınlığı düz yolun aşkarlanması və açıq-aydın dəlillərdən sonra yaranıb. (Yəni Allahu Təala bütün lazımi dəlilləri sizin üçün müəyyənləşdirib və hər kəsin yolunu azmasını yeganə səbəbkarı özüdür.) Ey Bəsrə əhli, siz mənimlə bağladığınız beyəti pozanda və düşmənimə mənə qarşı kömək edəndə nə düşünürdünüz?" (Mən sizinlə nə edim.)

[1] Şairin dediyi kimi: "Get bu tələni başqa quş üçün qur, çünki simurqun yuvası çox hündürdədi."

Bir kişi ayağa qalxaraq dedi: "Bizim sənin yaxşı olmağın barədə müsbət gümanımız var və sənin qələbə çalaraq bizim qüdrətimizi ələ aldığını görürük. Əgər bizi cəzalandırsan, biz buna layiqik, çünki biz itaətsizliyə və günaha əl uzatmışıq. Əgər güzəştə getsən, bu Allah yanında daha seviləndir."

Həzrət buyurdu: "Sizin günahınızdan keçdim, amma fitnəkarlıqdan uzaqlaşın, çünki siz əhdi pozaraq ümmətin güclü birliyində çat əmələ gətirdiniz."

Rəvayət edən deyir: "Bu sözlərdən sonra O Həzrət oturdu və xalq onunla beyət etdi." Amma O Həzrət Kufə əhlinə ünvanladığı məktubunda belə buyurub:

Rəhman və Rəhim Allahın adı ilə

İbadətə ondan başqa layiq olmayan Allaha həmd edirəm və Allaha həmd və şükrdən sonra (bildirirəm ki,) Allah ədalətli hakimdir və "hər bir toplum özü istəmədiyi təqdirdə (Allah) onlar ümün heç nəyi dəyişməz, əgər Allah bir toplumun pisliyini istəsə, onlar üçün qayıdış olmaz və onlara ondan başqa başqa başçı yoxdur). Sizi öz işim gedişatından xəbərdar edirəm. Onlar ki, onlara tərəf getmişdik Bəsrə əhli idi və onlar ki, onlara qoşulmuşdular Qureyşlilər idilər və Təlhə, Zübeyrlə gələnlər və əhdi pozanlar idilər. Bu dəstənin, Bəsrəyə gedən və mənim Bəsrədəki hakimim və nümayəndəmlə etdiyi davranışlardan xəbərdar olan kimi Mədinədən qalxaraq (həmin tərəfə getim) və Ziqarın mənzilinə çatdım. Orada (övladım) Həsən ibn Əli, Əmmar ibn Yasir və Qeys ibn Səədi (sizin yanınıza) göndərdim. Allahın və onun Rəsulu(s)-in mənə verdiyi və özümün malik olduğum haqqa əsaslanaraq sizdən Bəsrəyə getmənizi istədim. Sizin qardaşlarınız tez bir zamanda mənə tərəf gəldilər və yetişdilər. Mən onları götürərək yola düşdüm və Bəsrənin arxasına çatdım.İlk olaraq onları (geriyə dönmək və keşmiş işlərindən əl çəkməkdən) çəkindirmək yolu ilə müharibədən uzaqlaşdırmaq istədim. Əlimdə olan səbəb və dəlillərlə ayağa qalxdım onların, həm Qureyşdən olan, həm də digər əqidələri zəifləyərək dindən çıxmışların keçmiş günahlarını bağışladım. Onları mənimlə beyəti və Allahla bağladıqları əhdi pozmaqdan geri qaytarmaq istədim, amma onlar qəbul etmədilər, mənimlə və mənimlə olanlarla döyüşməyi seçdilər. Onlar öz azğınlıqlarına təkid göstərdilər və mən onlara qarşı cihadı və müharibə etməyi seçdim. Allahu təala bütün ölənləri beyəti pozanlardan etdi, fərarilər öz evlərinə qaçdılar, Təlhə və Zübeyr də beyəti pozduqlarına və itaətsizliklərinə görə qətlə yetirildilər. O qadın onlar üçün (Səmud qövmünün öldürdüyü) Saleh(əs)-ın dəvəsindən daha pis oldu və elə buna görə də əlacsız qalaraq arxa çevirdilər, tədbir kələfinin ucunu əllərindən buraxdılar. Belə olduğunu (məğlubiyyətə uğradıqlarını) görəndə onları bağışlamamı istədilər. Mən qəbul etdim, qılıncımı qınına qoydum, onlar barəsində isə haqqı və Peyğəmbər(s)-in əmrlərini yerinə yetirdim.

Abdullah ibn Abbası özüm tərəfimdən Bəsrəyə hakim və nümayəndə təyin etdim.

Və mən inşaallah, Kufəyə tərəf yola düşəcəm və indi Zəhr ibn Qeys Cəəfini sizə tərəf göndərmişəm ki, hadisələrin necə cərəyan verdiyini ondan öyrənəsiniz. O, bizim və onların işləri, onların haqdan boyun qaçırmaları, onu özümüzə qaytarmaları, onların istəmədikləri halda Allahın bizi onların üzərindən qələbəyə çatdırması barədə sizləri agah edəcək.

Vəssalamu əleykum və rəhmətullahi və bərəkatuhu.

İmam Əli (əs)-ın Kufə tərəfə yola düşməsi

Tarixçilərin qeyd etdiyi kimi Əmirəlmöminin Əli (ə.s) Cəməl müharibəsindən sonra təxminən bir ay Bəsrədə qaldı və bu müddət ərzində işləri nizama salmaqla və əhdi pozanların bu şəhərdə törətdikləri dağıntıları abad etməklə məşğul oldu. Bir neçə gün xəstələndi və böyük övladı İmam Həsən (əs)-ı camaat namazına göndərdi.[1] Bəsrədə olduğu müddət ərzində Həsən Bəsri ilə də söhbətləri olub və bu hadisə tarix kitablarında qeyd olunub. Daha sonra Abdullah ibn Abbası Bəsrədə öz yerinə təyin edərək Bəsrə şəhərinin tanınmış insanları ilə Kufə istiqamətində yola düşdü. Hicrətin 36-cı ili, Rəcəb ayının əvvəllərində[2] Kufə şəhərinə daxil oldu və Kufə şəhərinin sakinləri O Həzrəti qarşılamaq üçün şəhərin kənarına çıxdılar.

Əmirəlmöminin Əli (ə.s) gəldi və Kufə məscidinə daxil oldu, iki rükət namaz qıldı, sonra minbərə çıxaraq xütbə söylədi. Bu xütbənin rəvayət olunmasında bəzi ixtilaflar olsa da, İbn Əbil Hədid onun bəzi hissəsini belə nəql edir:

Sonra ona kömək etməkdən boyun qaçırmış insanlardan şikayətlənərək minbərdən aşağı düşdü və Cədət ibn Həbirə Məxzumi[3] yerləşdi.

Əmirəlmöminin Əli (ə.s)-ın danladığı insanlardan biri Süleyman ibn Sərd Xəzai idi və Həzrət Əli (əs) onu köməklik göstərməkdən boyun qaçırdığı üçün tənbeh etdi. O da öz növbəsində üzr istəyərək olanlardan xəcalət çəkdirdiyini bildirdi.[4] Rəvayətlərdə başqa insanların da adları qeyd olunub və onların hamısı O Həzrətin yanına gələrək Bəsrəyə getmədikləri və Cəməl müharibəsində iştirak etmədikləri üçün üzr istədilər. Əmirəlmöminin Əli (ə.s) böyüklüyü üzündən onların üzrünü qəbul etdi. Sonra hökumət işlərini nizama qoymağa, hər bölgə üçün vali təyin edərək onları işləməli olduqları bölgələrə göndərdi.

[1] "Biharul Ənvar" (Kompani çapı), səh 442

[2] Nəsr ibn Müzahim rəcəbin onunda və digərlərini dediklərinə görə rəcəbin on üçündə.

[3] Cədət, Həzrət Əli (əs)-ın bacısı oğlu idi və Kufədə yaşayırdı.

[4] Süleyman ibn Sərdin Kərbəla hadisəsində və İmam Hüseyn (əs)-ın şəhadətindən sonra O Həzrətin intiqamını almaq üçün qiyam etməsi və bu yolda şəhid olması barəsində çoxlu hekayələr var və biz İnşaallah yerində diqqətinizə çatdıracayıq.

Əmirəlmöminin Əli (ə.s)-ın valilərə məktub göndərməsi

Əmirəlmöminin Əli (ə.s)-in gördüyü işlərdən biri də hakimlərə və valilərə məktub göndərmək oldu. O Həzrət onların hamısını onunla beyəy etməyə çağırdı. Bu məktublara nümunə olaraq O Həzrətin Həmədanın valisi Cərir ibn Abdullaha və Azərbaycanın valisi Əşəsə ünvanladığı məktubları misal çəkmək olar. Cərir və Əşəs itaət etdiklərini O Həzrətin diqqətinə çatdırdılar. Bu hadisədən sonra Cərir ibn Abdullah Həmədandan yola düşərək özünü Kufədə Əmirəlmöminin Əli (ə.s)-a çatdırdı və Həzrətlə yaxından beyət etdi.

Əmirəlmöminin Əli (ə.s) Şama Müaviyəyə məktub göndərmək istəyəndə Cərir ibn Abdullah dedi: "Məni Şama göndərin. Mən onunla və Şam əhli ilə qədimdən dostluğum var və bu səbəbdən onları daha asan sənə beyət və itaət etməyə dəvət edərəm."

Malik Əştər dedi: "Cərir, Müviyə və Bəni Ümməyyə tərəfdarlarındandır və bu səbəbdən də onun Şama göndərilməsini məsləhət bilmirəm. Amma Əmirəlmöminin Əli (ə.s) Cəriri Şama, Müaviyənin yanına göndərdi. Əmirəlmöminin Əli (ə.s) Müvaiyəyə məktub yazdı, onu Allahın hökmünü qəbul etməyə, beyət bağlamağa, Haqqın qarşısında təslim olmağa dəvət etdi və Təlhə ilə Zübeyrin taleyini onun yadına saldı..."[1]

Əmirəlmöminin Əli (ə.s)-ın Müaviyəyə məktubu

Cərir O Həzrətin məktubunu götürdü və Şama, Müaviyənin yanına getdi. Müaviyəni nəsihət edərək Əmirəlmöminin Əli (ə.s) ilə beyət etməyə dəvət etdi. Müaviyə onun cavabında dedi: "Mən bu barədə düşünməli və Şam əhalisilə məsləhətləşməliyəm."

Bir neçə gün sonra Şam sakinlərini məscidə dəvət edərək onlar üçün nitq söylədi. Bu nitq zamanı Ömər və Osman tərəfindən Şama vali təyin olunduğunu bildirərək dedi: "Osman məzlumcasına qətlə yetirildi və indi siz nə deyirsiniz?"

Şam əhli fəryad çəkərək dedilər: "Biz Osmanın qisasını almaq məqsədilə sənlə beyət edirik. Biz onun qisasını alacağıq və bu yolda canımızı, malımızı əsirgəməyəcəyik."

Cərir ibn Abdullah Müaviyədən cavab istədikdə, bu gün sabah edirdi və cavabı sonraya saxlayırdı. Müaviyənin Cərin İbn Abdullahın nəsihətləri və Əmirəlmöminin Əli (ə.s)-la beyət bağlaması, ona itaət etməsinin cavabı yalnız məsələnin cavabını gecikdirmək ola bilərdi.

Sonda o bu barədə qardaşı Ətibə ibn Əbu Süfyanla məşvərət etdi və o Müaviyəni ərəblərin dahisi adlandırdığı Əmr ibn As tərəfə yönəldərək, onu öz yanına çağımasını və məsləhətləşməsini tapşırardı.

[1] Məktubun tam mətni İbn Əbil Hədidin Nəhcül Bəlağəyə şərhində qeyd edilib, cild 1, səh 248

Müaviyənin Əmr ibn Asa məktub göndərməsi və ondan kömək istəməsi

Müaviyə qardaşı Ətibənin təklifini qəbul edərək Əmr Asa məktub yazdı və onu Şama dəvət etdi. Ona Cərir gəlməsini və Əmirəlmöminin Əli (ə.s)-ın məktub göndərməsini onun diqqətinə çatdırdı.

Müaviyənin məktubunu alanda dərin fikrə getdi və bu barədə oğlanları Abdullah və Məhəmmədlə məşvərət etdi. Ağıllı və saleh gənc olan Abdullah ona dedi: "Mənim nəzərimcə Müaviyənin cavabını vermə, evində otur və dünyaya görə özünü həlak etmə."

Amma atası kimi dünyasını çox sevəm Muhəmməd onu Müaviyənin yanına getməyə həvəsləndirdi.

Əmr As Abdullaha dedi: "Sən dini baxımdan mənim xeyrimi düşündün." Muhəmmədə isə dedi: "Sən isə mənim dünyamı ikirləşib danışdın. Gərək bu barədə ətraflı düşünüm." Axşam olanda öz çaşqınlığı barədə yazdığı şeri ailəsi üçün oxuyaraq nə qərar verəcəyini qərara ala bilmirdi.

Qeyd etmək lazımdır ki, Əmr As Misiri fəth etmiş, orada hakimiyyət etmiş və Misirin hakimliyindən gözəl xatirələrə malik şəxs idi. O, yenidən Misirin hakimi olmaq arzusu ilə yaşayırdı. Sonda bu istək və onu Müaviyəyə kömək etməklə Misirin hakimi olmaq sevgisi onu aldatdı. Əmr As fani dünyanı əbədi dünyadan üstün tutdu və dinini dünya yolunda satdı. O hələ səhər olmamış Şama hərəkət üçün hazır oldu, Vərdan adlı ağıllı və dərrakəli nökərinə səfər üçün heyvanı hazırlamağı əmr etdi.

Hətta hərəkət zamanı da çaşqınlıqdan tam yaxa qurtara bilməmişdi. Belə ki, tarixçilərin yazdıqlarına əsasən, gah yola düşmə, gah da dayanmaq əmrini verirdi. Vərdan ona dedi: "Ey Əbu Abdullah işləri qarışdırmısan? İstəyirsənsə, səni qəlbində baş verənlərdən agah edim?" Əmr As dedi: "De!"

Vərdan dedi: "Sənin vücudunda dünya ilə axirət keşməkeşə düşüblər. Öz özlüyündə düşünürsən ki, Əlinin axirəti var, dünyası yoxdur, amma axirət dünyanın əvəzini verir. Müaviyənin dünyası var, axirəti yoxdur və dünya axirətin əvəzini verə bilməz. Sən bunları arasında ilişib qalmısan?"

Əmr As dedi: "Allah səni öldürsün, yaxşı anlamısan və ürəyimdə olanı başa düşmüsən. İndi sənin bu barədə fikrin nədir?"

Vərdan dedi: "Mənim fikrimcə evində qalıb vəziyyəti müşahidə etmən daha yaxşıdı. Yəni, dinəhli qələbə çaldığı təqdirdə onlarının dininin rəhmət kölgəsi altında yaşayarsan və dünyapərəstlər qələbə çaldığı təqdirdə sənə yüz faiz ehtyacları olacaq!"

Əmr Asın Müaviyənin yanına getməsi

Qeyd olunduğu kimi Əmr As Şama tərəf hərəkət etdi. Müaviyə qəbuluna girəndə, ona Əmirəlmöminin Əli (ə.s)-la müharibədə onunla bir olması təklifini

verdi. Əmr As cavab verərək dedi: "Sən özün O Həzrətlə eyni dərəcədə ola bilməyəcəyini yaxşı bilirsən. Sən və ümumiyyətlə heç kim nə hicrət, nə İslamdakı rəşadətlər, nə Allahın Rəsulu ilə həmsöhbət olmaqda, nə cihad, nə fiqh, nə elm, nə mübarizə və döyüşmək baxımından O Həzrətlə eyni ola bilməzsən.

Müaviyə dedi: "Düzdür, amma biz Osmanın qisasını almaq bəhanəsilə onunla döyüşəcəyik.

Əmr As cavabında istehza ilə gülümsəyərək dedi: "Osmanın qətli məsələsini açıqlamasan daha yaxşı olar! Çünki biz hamımız yaxşı bilirik ki, sən ona kömək etməkdən boyun qaçırdın və o da çarəsizlikdən Yəzid ibn Əsəd Bəcəliyə sığındı və mən də onu tək qoyaraq Fələstinə getdim."

Cərir ibn Abdullahın taleyi

İndi yenidən Cərir ibn Abdullahın hekayəsinə qayıdaq. Əmirəlmöminin Əli (ə.s)-ın Müaviyyəyə göndərdiyi cavabı sizin diqqətinizə çatdırmaqdan öncə qeyd etmək lazımdır ki, Cərir bir neçə ay keçdikdən sonra Kufəyə qayıtdı və O Həzrətin əshablarının bir çoxunun mühakiməsi ilə üzləşdi. Hamıdan öncə Malik Əştər Əmirəlmöminin Əli (ə.s)-ın yanına gəldi və dedi: "Mən Cəririn zəif iradəli, Müaviyəyə meyilli və Şam əhalisindən olduğunu bilirdim. Müviyə qoşun toplamaq və Şam əhlini müharibəyə hazırlamaq üçün bu gün-sabah edərək onu öz yanında saxlayıb. İndi müharibəyə tam hazır olduğu zamanda onu geri göndərib. Kaş Cərir heç vaxt bu işin arxasıyca getməyəydi." Bu hadisədən sonra Malik Əştərlə Cərir ibn Abdullah arasında mübahisə baş verdi. Digər şəxslər də Cəririn bu işindən qəmgin olmuşdular. Bu hadisələr sonda Cəririn Əmirəlmöminin Əli (ə.s)-dan uzaqlaşması, Kufədən Qərqisaya qaçması və qəbiləsinin əksəriyyətinin ona qoşulması ilə nəticələndi. O və qəbiləsinin əksər sakinləri Siffeyn müharibəsində iştirak etmədilər və bəzi tarixçilərin nəzərincə Müaviyəyə birləşdilər. Amma İbn Əbil Hədid yazır: "O, Əmirəlmöminin Əli (ə.s)-dan və Müaviyədən uzaqlaşdı və ömrünün axrınadək Cəzirədə qaldı və Şəratda dünyasını dəyişdi."[1] Cərir Əmirəlmöminin Əli (ə.s)-la olan əlaqəsini kəsdi və bəzi rəvayətlərə görə O Həzrətin lənətini qazandı.

Əmirəlmöminin Əli (ə.s)-ın Müaviyəyə məktubu

Əmirəlmöminin Əli (ə.s)-ın Müaviyəyə göndərdiyi məktub budur:

"Əmirəlmöminin Əli ibn Əbi Talibdən Müaviyə ibn Hərbə. Səndən mənə məktub gəlib. Bu məktubu yazan şəxsin ona yol göstərmək üçün gözləri, düz yola yönəldəcək bələdçisi yoxdur, nəfsani istəkləri ou özünə tərəf dəvət edib və o bunu qəbul edib. Azğınlıq və zəlalət ona bələdçilik edərək onu davamçılarından edib. Sən elə təsəvvür etdin ki, mənim Osman barəsində olan səhvlərim mənimlə beyəti sənin boynundan götürdü? Öz canıma and olsun ki, mən də mühacirlərdən biri

[1] Həmin mənbə, cild 1, səh 261

idim və işlərin gəliş-gedişində onlarla eyni idi. Belə deyildi ki, Allah onların hamısını azğınlıq ətrafında toplayaraq korluğa düçar etmiş olsun...

Bundan başqa, sənin Osmanla nə işin var? Sən Bəni Üməyyədən birisən və Osmanın övladları Osmanın qanının qisasını almaq üçün daha haqlıdırlar və əgər sən düşünürsən ki onun övladlarından daha güclüsən, onda birinci bütün müsəlmanların qəbul etdiklərini qəbul et və sonra onların mühakiməsini mənim yanıma gətir.

Sən Təlhə, Zübeyr, Şam və Bəsrə əhli ilə sənin aranda olan fərqi yazmışdın. Öz canıma and olsun ki, sizin aranızda heç bir fərq yoxdur, çünki mənimlə olan beyət hamıya aid olan beyət idi və heç kim (bu beyət sahəsində) istisna ola bilməz...

Amma İslamdakı şərafətimi, Allahın Rəsulu (s.ə.a.s) ilə olan yaxınlığımı və Qureyş qəbiləsi arasında olan yerimi inkar etməmisən və bunu etiraf etmisən. Öz canıma and olsun ki, əgər onu inkar edə bilsəydin, hökmən bu işi görərdin..."[1]

Müaviyənin Hicazın bir neçə tanınmış şəxsiyyətinə məktub göndərməsi

Tarixçilərin yazdıqlarına əsasən, Cərir ibn Abdullahın Şamda keçirdiyi günlər ərzində Müaviyə Əmirəlmöminin Əli (ə.s)-ın məktubuna cavab verməyi gecikdirirdi. O, bir gün Əmr ibn Asa dedi:

"Mən Mədinə əhlinə məktub yazmağı və Osmanın hekayəsini onlara yenidən çatdırmaq istəyirəm. Bu işin faydası isə olacaq ki, məktublaşmaqla ya onları özümüzə birləşdirməklə arzumuza çatacağıq, ya da bizə qarşı çıxmaqdan çəkindirəcəyik."

Əmr As ona dedi: "Yazdığın bu məktub üç haldan xaric deyil, ya Əlidən razı olan insanlara göndərirsən və bunun da onun öz işi sahəsindəki agahlığını daha da gücləndirməkdən başqa heç bir faydası olmayacaq, ya Osmanın havadarlarına göndərirsən və bu məktub onun əqidəsinə heç nə artırmayacaq, ya da bitərəf insana ünvanlayırsan ki, sən onların nəzəri barəsində Əlidən daha arxayın ola bilməzsən."

Amma Müaviyə onun sözünə qulaq asmadı, Məkkə və Mədinə əhlinə məktub ünvanladı. Məktubun məzmunu belə idi: "Hər şey bizim üçün gizli olsa da, Əlinin Osmanın qatili olması heç birimizə gizli deyil. Bunun dəlili Osmanın qatillərinin Əliyə yaxın olmasıdır. İndi biz Osmanın qatillərini Əlidən tələb edirik və onları qətlə yetirmək istəyirik. Əgər onları bizə təhvil versələr, bizim onunla işimiz yoxdur. Xilafəti də müsəlmanlar arasında şura keçirdikdən sonra seçərək təyin edək. Ömər ibn Xəttabın gördüyü işi təkrarlayaq. Biz xilafəti istəmirik. Siz bizə bu işləri

[1] Müaviyənin məktubu və Əmirəlmöminin Əli (ə.s)-ın ona cavabı bu formada İbn Əbil Hədidin həmin kitabında, cild 1, səh 252-də tərcümə edılmışdır və başqa mənbələrdə xırda ixtilaflarla rəvayət edilmişdir.

həyata keçirməkdə kömək edin. Çünki, sizin köməkliyinizlə öz məqsədimizə çata və qələbə çala bilərik."

Tarixçilərin yazdıqlarına əsasən Müaviyə Mədinədə yaşayan və Əmirəlmöminin Əli (ə.s)-la beyət etməmiş şəxslərə, o cümlədən Səd ibn Vəqqasa, Abdullah ibn Ömərə, Muhəmməd ibn Müsliməyə və Məsud ibn Məxrəməyə ayrıca məktub yazdı və onlardan kömək istəyərək, Osmanın intiqamını almağa dəvət etdi. Qeyd etmək lazımdır ki, bu şəxslərin hər biri ona kəskin rədd cavabı verdilər və Əmr Asın nəsihəti həqiqətə çevrildi.

Bu rədd məktublarına nümunə olaraq Abdullah ibn Ömərin cavab məktubunu diqqətinizə çatdırıram: "Ey Müaviyə və ey Əmr As, öz canıma and olsun ki, kömək istəmək üçün düzgün ünvan seçməmisiz və böyük səhvə yol vermisiz. Siz məktubunuzun bizim bu hadisə ətrafında olan şübhələrimizi çoxaltmaqdan başqa heç bir nəticəsi olmadı. Axı siz hara müşavirə etmək hara? Sizin xilafətlə nə işiniz ola bilər? Ey Müaviyə, sən Təlqadansan və ey Əmr As nəsil-nəcabət barəsində ittiham olunursan.[1] Özünüzü qoruyun və bilin ki, bizdən sizə kömək ola bilməz!"

Mədinə ənsarlarından biri bu barədə şer yazaraq Abdullah ibn Ömərin cavabı ilə birlikdə Müaviyəyə göndərdi.

Səd ibn Əbu Vəqqas Müaviyəyə cavab olaraq yazdı: " Bil ki, Ömərin şuraya daxil etdiyi şəxslərin hər biri xilafətə layiq insanlar idilər. Eləcə də bizlərdən heç biri xilafət məqamına çatmaq üçün biz ondan daha layiqli deyildik. Əlinin malik olduğu xüsusiyyətlərə biz də malik idik, amma yalnız bir xüsusiyyət var idi ki, onda var idi və bizdə yox idi. Həmin xüsusiyyətin də nə əvvəli, nə də axırı sənin tərəfindən bəyənilmirdi. Təlhə ilə Zübeyr də evlərində otursaydılar, onlar üçün

[1] Əmr Asın nəsil-nəcabətinə görə ittiham edilməsinin səbəbi budur ki, tarixçilərin, o cümlədən İbn Əbil Hədidin Nəhcül Bəlağənin şərhində (cild 2, səh 100) yazdıqlarına görə Əmr Asın anası Nabiğə adlı kəniz idi və Abdullah ibn Cədan onu almışdı. O zinakar qadın idi və Abdullah ibn Cədan onu azad etdi. Sonra Əbu Ləhəb ibn Əbdülmüttəlib, Üməyyə ibn Xələf, Hişam ibn Müğəyrə, Əbu Süfyan və As ibn Vail "bir təmiz dövrdə" (aralarında heyz fasiləsi buraxmadan) onunla yaxınlıq etdilər və sonra Əmri dünyaya gətirdi. Onların hər biri bu uşağın ondan olduğunu iddia etdilər və sonda anası Nabiğənin bu barədə bir hökm verməsini və hamısının onların çıxardığı bu hökümlə razılaşması qərarına gəldilər. Nabiğə uşağın As ibn Vaildən olduğunu bildirdi və bunun səbəbi As ibn Vailin onun üçün başqalarından daha çox pul xərcləməsi idi. Amma tarixçilərin nəzərincə o Əbu Süfyanın övladı idi və ona daha çox bənzəyirdi. Hətta Əbu Süfyan Əmr Asın əslində onun övladı olması barəsinə şer də yazmışdı.
Müaviyə barəsində isə Zəməxşəri "Rəbiul Əbrar" kitabında (cild 1, səh 111) belə rəvayt edir: "Müaviyənin dörd nəfərən birinin oğlu olduğunu bildirirlər: Müsafir ibn Əbu Əmr, Əmmarə ibn Vələd, Abbas ibn Əbdülmüttəlib və Səbah. Səbah Əmmarə ibn Vələdin xanəndəsi idi və o olduqca yaraşıqlı idi. Müaviyənin anası Hind onu öz yanına çağıraraq onunla yaxınlıq etdi. Deyilənə görə Ətibə ibn Əbu Süfyan da onun övladı idi və onu dünyaya gətirmək istəyəndə çox narahat idi. Hind onu evdə dünyaya gətirmək istəmirdi və elə buna görə də evdən getdi və Məkkə ətrafındakı təpələrdən birində onu dünyaya gətirdi. Həssan bu barədə Hindin zinasını açıqlayan şerlər yazdı. Kim istərsə həmin kitaba müraciət edə və onunla tanış ola bilər." Nəhcül Bəlağənin şərhi, cild 1, səh 111-112

daha yaxşı olardı. "Möminlərin anasını" da Allahu təala etdiyi işə görə bağışlasın..."

Muhəmməd ibn Müslimə Müaviyənin cavabında yazdı: "Mən qılıncımı sındırmışam, evdə oturaraq hər şeydən uzaqlaşmışam. Amma ey Müaviyə, öz canıma and olsun ki, sən dünyadan başqa heç nəyi istəmirsən və öz nəfsani həvəslərindən başqa heç nəyin arxasınca getmirsən. Əgər Osman öləndən sonra onu dəstəkləməyə qalxmısansa, de görüm niyə görə sağ olarkən ona kömək etmirdin və hörmətdən salırdın?"

Beləliklə, Müaviyənin məktub ünvanladığı hər kəs təxminən oxşar məzmunlu rədd məktubu yazdılar və Müaviyə heç nə əldə edə bilmədi.

Əmirəlmöminin Əli (ə.s) öz valilərinə məktub yazır

Artıq Müaviyənin müsəlmanların xəlifəsinə qarşı çıxması və O Həzrətlə müharibəyə hazırlaşması aydın olmuşdu. Yəni o haqq sözünü eşitmirdi və şeytanın itaətindən boyun qaçırmırdı. Elə buna görə də Əmirəlmöminin Əli (ə.s) valilərinə məktub yazaraq onları son hadisələr barəsində məlumatlandırdı və onları İslamın daxilindən olan qəddar düşmənlə müharibəyə səslədi. Eyni zamanda onlara hakimiyyət sahəsində lazımi göstərişlər də verdi.

Məsələnin maraqlı cəhətlərindən biri də budur ki, Müaviyənin məktublarında nə qədər yalan, hiylə, böhtan, hədə və xəyanət var idisə, Əmirəlmöminin Əli (ə.s)-ın məktublarında bir o qədər Allahdan, axirətdən, əxlaqdan, nəsihətdən, fani dünyaya bağlanmağın yaratdığı fəsadlardan, axirət həyatının əbədiliyindən və Allahın tükənməz nemətlərindən söhbət açılırdı. İnsanlar bu gözəlliklərə dəvət edilirdi. Bununla da Haqq batildən seçilirdi.

Qurani Kərimin buyurduğu kimi xəbislər yaxşılardan seçilməlidirlər.

Biz nümunə üçün həmin məktubların bəzi hikmətli və nəsihətli hissələrini sizin üçün qeyd edirik. Bu məktublardan biri O Həzrətin Bəsrənin valisi Abdullah ibn Abbasa olan məktubdur:

"Allaha həmd və Hzərət Peyğəmbərə salamdan sonra; insanı onun, əldən çıxarmamalı olduğu şeyə çatmaq sevindirir, əldə edilməsi olmayan şeyə çatmaq isə kədərləndirir. Buna görə də gərək sevincin axirət mənfəətinə görə olsun. Həmçinin qəm-qüssən əldən çıxmış axirət xeyri üçün olmalıdır. Dünyada əldə etdiyin şey üçün çox sevinmə. Dünya malından əldən çıxmış şeylər üçün qəmli və səbirsiz olma. Sənin səy və tələşin, gərək ölümdən sonrakı işlərdə olsun."

Abdulah ibn Abbas deyərmiş: "Həzrət Peyğəmbərin(s.ə.a.s)-in kəlamından sonra bu söz kimi heç bir sözdən faydalanmamışam."

Ziyad ibn Əbihə o, Bəsrə hökumətində Abdullah ibn Abbsın canişini olan zaman yazdığı məktublardandır. Andullah həmin vaxt Əmirəlmöminin Əli (ə.s)

tərəfindən Bəsrə, Əhvaz, Fars və Kerman şəhərlərinin hakimi idi. Əmirəlmöminin Əli (ə.s) yazır:

"Mən tam sədaqətlə və düzgünlüklə Allaha and içirəm ki, əgər mənə sənin müsəlmanların beytülmalına istər az, istərsə də çox xəyanət etməyin və ya onu göstərişə zidd sərf etməyin (barəsində xəbər gəlib) çatsa, səninlə sərt davranacağam. Elə sərt ki, o səni sərmayəsi az, yükü çox , zəlil və xar etsin.[1]"

Daha sonra belə buyurur:

"İsraf etmə, mötədil ol. Bu gün səhərin fikrində ol. Malından, öz ehtiyacın qədər dala at, artığını ehtiyac günün üçün qabağa göndər. Allahın sənə təvazökarlara verəcəyi mükafatı verməsinə ümid bəsləyirsən, halbuki Allah yanında təkəbbür edərlərdənsən. Allahın sənə sədəqə verənlərin mükafatını vacib etməsi və verməsinə hərissən, halbuki eyş-işrətə qərq olub aciz, biçarə, dul qadın və yoxsulları ondan bəhrələndirmirsən! İnsana ancaq və ancaq öncə gördüyü işə görə mükafat veriləcək və o, əvvəlcədən göndərdiyi yerə daxil olacaq."

Azərbaycanın hakimi Əşəs ibn Qeysə yazır:

"Sənin işin sənin üçün ruzi və yemək deyil. O iş sənin boynunda olan bir əmanətdir. Səndən özündən üstün olan kimsə üçün gözətçi olmağını istəyiblər. Rəiyyətin işində öz istədiyin kimi davrana bilməzsən. Sənə əmr və fərman gəlməyincə böyük işə girişə bilməzsən. Sənin əlində bənzərsiz və böyük Allahın mallarından var. Sən onları mənə təhvil verənə kimi mənim xəzinədarlarımdan birisən. Ümidvaram ki, mən sənin üçün vali və əmirlərindən ən pisi olmayım."

Məblardan birində isə yazır:

"Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: nöqsan sifətlərindən pak və uzaq olan Allah, dünyanı axirət üçün yaradıb və dünya əhlini onda sınağa çəkib ki, onlardan hansının əməllərinin daha yaxşı olmasını bilsin. Biz dünya üçün yaradılmamışıq və onun üçün çalışmağa göndərilməmişik. Bizi dünyaya onunla sınanmağımız üçün göndəriblər. Allah məni səninlə və səni mənimlə sınayıb və bizim birimizi digərlərimizə dəlil-sübut edib. Sən dünyanı əldə etmək üçün Quranı yozmağa tələsdin. Məndən, əlim və dilim cinayət və günahına batmadığı şeyi istəyibsən. Sən Şam əhli ilə məni Osmanın qanında günahlandırdınız. Aliminiz cahilinizi, duranınız oturanızı təhrik etdi. Buna görə də özün barəsində Allahdan qorx. Şeytana müqavimət göstərərək cilovunu onun əlindən çıxart. Bizim və sənin yolun olan axirətə üz tut. Allahın, səni öz tərəfindən əsl və kökünə işləyərək nəslini kəsən təcili bəlaya düçar etməsindən qorx. Mən, sənə görə, Allaha doğru olan bir and içirəm ki, əgər bir yerə toplayan tale mənimlə səni qarşılaşdırsa, həmişə səninlə qalacağam. "o vaxta kimi ki, Allah bizim aramızda Öz hökmünü versin. Axı O, hökm verənlərin ən yaxşısıdır."(Əraf surəsi, 87-ci ayə)

[1] Nəhcül Bəlağə, məktub 22

Sözümüz əgər bu yerə çatdısa, onda Əmirəlmöminin Əli (ə.s)-la Müaviyə arasında yazılmış məktublara işarə edərək Siffeyn müharibəsi macərasını araşdıraq.

Əmirəlmöminin Əli (ə.s)-la Müaviyə arasında yazılmış məktublar barəsində

Tarixçilərin yazdıqlarına əsasən Siffeyn müharibəsindən öncə, bəzilərinin vurğuladığı kimi[1] Əmirəlmöminin Əli (ə.s)-ın Kufədə qaldığı təxminən on yeddi ay ərzində O Həzrətlə Müaviyə arasında çoxlu məktub yazılmışdır. Bu məktubların əksəriyyətini mərhum Seyyid Rəzi Nəhcül Bəlağədə qeyd etmişdir və bəzi hissəsi də tarix kitabında qeyd olunmuşdur. Belə məktubların ən çoxu "Nasixül Təvarix" kitabında nəql edilmişdir. Nəzərinizə çatdırdığımız kimi Müaviyənin bütün məktublarında yalan, böhtan, hiylə və yersiz iddialar aydın şəkildə gözə çarpır. Eləcə də Əmirəlmöminin Əli (ə.s)-ın bütün məktublarında Müaviyənin bütün yalanları və iddiaları rədd edilərək, nəsihət, hikmətli sözlər, pərhizkarlığa dəvət, Allahdan qorxu və axirət əzabları qeyd edilmişdir. Əmirəlmöminin Əli (ə.s) adətən məktubların Müaviyə qarşısında öz fəzilətlərini sayır və Müaviyədə həyasızcasına buna cavab olaraq özü üçün fəzilət kəşf etməyə çalışır. Amma Müaviyə və onun Əmr As kimi daş ürəkli və riyakar yaxınlarının O Həzrətin nəsihətlərindən ağıllanaraq batil yolundan haqq yoluna qayıtması qeyri-mümkün iş idi. Qeyd emək lazımdır ki, onların batilə bu dərəcədə uymaları sonda İslam tarixində təəssüfləndirici hadisələrin əmələ gəlməsinə və İslamın öz əsas yolundan çıxmasına səbəb oldu.

Amma ola bilsin ki, Əmirəlmöminin Əli (ə.s)-ın məktubları mütəmadi olaraq göndərməsinin əsas səbəbi Müaviyə və onunla eyni düşüncəni paylaşanlar, eləcə də Müaviyənin təsiri altına düşmüş, yaxud gələcəkdə düşəcək insanlar barəsinə üzərinə düşən vəzifəni tam olaraq həyata keçirmək olmuşdur.

Yoxsa hər bir tarixçi və oxucu üçün Əmirəlmöminin Əli (ə.s)-ın İslam aləmində belə əzəmətə və şəxsiyyətə sahib olduğu halda Müaviyə və onun kimi insanlara bu qədər yumuşaqlıq və səbr nümayiş etdirməsi təəccübləndirici, daha dəqiq desək təəssüfləndirici haldır. Əmirəlmöminin Əli (ə.s)-ın səbr nümayiş etdirməsi sonda Müaviyənin özünü öyməsi, O Həzrətdən daha üstün bilməsi, bütün çirkinliklərini gözəllik nümunəsi kimi qələmə verməsi ilə nəticələndi.

Söylədiklərimizə nümunə kimi bir məktubu və onun cavabını nəzərinizə çatdırıram. Bu məktubun (32-ci məktub) bir hissəsi Nəhcül Bəlağədə qeyd olunmuşdur və onu İbn Əbul Hədid məktubu şərh edərkən tam şəkildə qələmə almışdır:

"Allahın bəndəsi, Möminlərin Əmirindən Müaviyə ibn Süfyana məktub. Amma davam edirəm ki, bu dünya ticarət və alış-veriş dünyasıdır, onun qazancı isə axirətdir. Xoşbəxt o insandır ki, bu dünyada topladığı saleh əməllər

[1] Biharul Ənvar, (Kompani çapı), cild 8, səh 471

olub və bu dünyaya ibrət gözüylə baxır və öz ölçülərilə (dünyanı) ölçüb. Mən sənin alın yazını və qədərin sənin barəndə nə qələm çəkdiyini və geriyə dönüşün olmadığını bildiyim halda yenə də sənə moizə edirəm. Amma Allahu Təala alimlərin və ziyalıların üzərinə əmanətlərini ödəmələri, azmış insanlara nəsihət vermək öhdəliyini qoymuşdur. (onlara hər ikisini vacib buyurmuşdur) Onda Allahdan qorx, Allaha hörmət və dəyər qoymayan şəxslərdən olma, o kəslər ki, əzab onlar üçün qaçılmazdır. Həqiqətən Allahu Təala pusqudadır və həqiqətən dünya tezliklə səndən üz döndərəcək və həsrət kimi yenidən yanına qayıdacaqdır. Buna görə də bu qədər yaşa dolduqdan və ömrünün sonuna çatdığın zamanda bu azğınlıqdan, zəlalətdən uzaqlaş, çünki sənin vəziyyətin köhnə paltara bənzəyir ki, onu hansı tərəfdən yamasan da başqa bir tərəfdən yırtılır.

İnsanların çoxunu həlak etdin, onları öz azğınlığınla aldatdın, öz (nifaq və ikiüzlülük) dənizinin dalğalarına atdın. Zülmətlər onları əhatə edib və şübhələr onların ətrafında ləpələnir. Beləliklə, öz doğru yollarından uzaqlaşdılar. Keçmişlərinə qayıtdılar və arxa çevirdilər. (Batil yoldan haqq yoluna) qayıtmış gözüaçıqları istisna olmaqla, (qalanları) əsl-köklərinə arxalandılar. Bu cür onlar səni tanıdıqdan sonra səndən ayrıldılar. Onları çətinliklərə doğru çəkəndə və doğru yoldan qaytaranda, sənə kömək etməkdən Allahın yardımına qaçdılar. Belə isə, ey Müaviyə özün barəsində Allahdan qorx və cilovunu Şeytanın əlindən çək! Çünki dünya səndən ayrılacaq və axirət sənə yaxındır."

Müəllif yazır: "Siz bu məktubda əvvəlindən axırınadək davam edən nəsihət və hikmətə diqqət yetirin. Bu məktuba diqqət yetirsəniz, İlahi peyğəmbərlərə, dini liderlərə aid olan böyüklük və mehribanlıqla yazılmış həqiqət, nəsihət və gözəl hikmətli sözlərdən savayı heç nə olmadığını görərsiniz. Belə sözlər təkcə Müaviyə üçün deyil, ümumiyyətlə bütün insanlar üçün ən gözəl fərman və ruh üçün şəfalı dərmandır.

Bu məktubda əvvəldən axıradək həqiqətə zidd, ədəbdən uzaq olan, təhqir edici bir cümlə və yaxud söz gözə çarpmır. O Həzrətin belə dəyərli məktubunda Müaviyə və onun kimi digər insanların əlinə bəhanə verəcək və bununla da O Həzrəti çirkin məqsədlərnin və nalayiq sözlərinin hədəfinə çevirəcək söz vardı?

Hər halda o məktubu oxudunuz, indi də Müaviyənin cavabını eşidin. Müaviyənin cavab məktubunu İbn Əbul Hədid Əmirəlmöminin Əli (ə.s)-ın məktubunun ardınca qeyd edib. Özünüz qərar verin, elə hikmətli məktubun cavabı belə ədəbsiz sözlərdirmi? Heç bu nəsihət dolu məktubla onun cavabı arasında hər hansı əlaqə gözə çarpırmı? Bu iki məktubun arasında hər hansı bir uyğunluq mövcuddurmu?

Allahu Təalanın buyurduğu söz bunu açıqlayır: "Hər kəs özünə uyğun və oxşar olaraq əməl edir." İran şairlərindən biri belə yazır: "Hər kuzə daxilində olanı çölə tökür."[1]

Əmirəlmöminin Əli (ə.s)-ın Müaviyəyə göndərdiyi məktubun cavabı.

"Bu məktub Müaviyə ibn Əbu Süfyandan Əli ibn Əbu Talibədir. Mən məktubunu gördüm və sənin fitnədən əl çəkmək istəmədiyini və onu daha da şiddətləndirmək istədiyini anladım. Mən bilirəm ki, səni bu yola sövq edən sənin qətl yerindir və sən buna bir çarə tapa bilmirsən. Baxmayaraq ki, ondan nicat tapmaq üçün vasitə və çarə axtarırsan. Əgər belədirsə öz azğınlığına bir az da azğınlıq artır. Sənin ağlın illərdir ki, yüngülləşir. Sən özünə aid olmayan şeyi istəyirsən və özündən daha üstün şəxslə üz-üzə dayanmısan və sonda məsələ başqasının xeyrinə tamalanacaqdır. Sən günahlarına görə bu işlərin vəbalını (pis nəticəsini) öz boynuna götürmüsən."

Yenə də nəzərinizə əhli-sünnət almilərindən birinin qeyd etdiyini və onların da bu hadisələrə görə nə dərəcədə narahat olduqlarını və təəssüfləndiklərini çatdıracağıq.

İbn Əbul Hədid Əmirəlmöminin Əli (ə.s)-la Müaviyə arasında yazılmış bu və daha bir neçə məktubu şərh edərək yazır: "Dünyada təəccübləndirici və yeni hadisələrin olmasına baxmayaraq ən təəccübləndirici və yeni məsələ Müaviyənin özünü Əmirəlmöminin Əli (ə.s)-la eyni məqamda görməsidir. Belə ki, Müaviyə ilə Əmirəlmöminin Əli (ə.s) arasında olan məktub yazışmasında onun özünü O Həzrətlə bərabər tuturdu və Əmirəlmöminin Əli (ə.s)-ın məktublarında özü üçün qeyd etdiyi fəziləti Müaviyə də özü üçün yazırdı. Bəzən də özünü O Həzrətdən daha üstün bilirdi."

İbn Əbul Hədid öz kitabında bu heyrətləndirici sözləri qeyd etdikdən sonra yazır:

"Bu sözlərdən sonra mən qəlbimdəkiləri Əmirəlmöminin Əli (ə.s)-a ünvanlayaraq deyirəm ki, kaş biləydim O Həzrət niyə görə Müaviyə ilə məktub yazışmasına başladı? Əgər bunu zərurət üzündən edirdisə niyə görə Müaviyəyə göndərdiyi məktublarında yalnız öyüd-nəsihətlə kifayətlənmədi və öz tərifində sözlər deməyə başladı və bununla da Müaviyəyə belə cəsarətlənməyə bəhanə verdi? Əgər bunu da etməyə vadar idisə niyə görə bu qədər iftixarlı sözlər və tərifl ərlə kifayətlənmədi və Müaviyənin özündə O Həzrətlə müharibə hissini yaratması üçün şərait yaratdı?! Hansı səbəblərə görə tarixin böyük şəxsiyyətə malik kişisi o səfeh və axmağın təhqirlərindən uzaqlaşmadı. Halbuki, O Həzrət özü buyururdu:

"Hər kəs insanların narahatlığına səbəb olarsa, onun barəsində bilmədikləri sözləri danışarlar, iftira atarlar və onun barəsində düzgün olmayan sözlər söyləyərlər."

[1] Bu misra Ərəb dilindəki atalar sözünə bənzəyir.

Sonda İbn Əbul Hədid özünə bu cümlə ilə təskinlik verərək yazır: "Ola bilsin o böyük şəxsiyyətin belə addım atması üçün hansısa məsləhət olub və bu məsləhət bizi üçün hələ də gizlidir. Allah hamıdan daha elmli və daha bilicidir!"[1]

İbn Əbul Hədid sözlərini davam etdirərək yazır: "Kaş Muhəmməd (s.ə.a.s) sağ olaydı və bütün gücünü uğrunda sərf etdiyi, ən böyük məşəqqətlərə sinə gələrək dözdüyü, onu təsdiq etmək üçün müharibər etdiyi, bununla da onun səsini hər yerə çatdırdığı İlahi dinə dəvətin necə tam şəkildə onun düşmənlərinin ixtiyarına keçdiyini görərdi. Onlar Həzrət Muhəmməd (s.ə.a.s.)-i müqəddəs İslam dininə dəvəti zamanı dandılar, Allahın Rəsulunun bu müqəddəs dəvət uğrundakı qətiyyətini görəndə onu öz vətənindən qovdular, onunla müharibəyə qalxdılar, çox hörmətli əmisini və ailəsini qətlə yetirdilər. Elə bil, O Həzrətin bu qədər əzab-əziyyətə dözməsi düşmənləri üçün və bu qədər narahtlıqla üzləşməsi onların rahatlığa qovuşması üçün imiş!"

"Belə ki, Osmanın zamanında Əbu Süfyan bu sözləri Həmzənin qəbri üzərində demişdir. O, ayağını Həmzənin qəbri üzərinə qoyaraq demişdir: "Ey Əbu Əmmarə! Bizim uğrunda biri-birimizə qılınc qaldırdığımız şey indi bizim övladlarımızın əlində oyuncağa çevrilib və övladlarımız onunla oyuncaq kimi oynayırlar."

Daha sonra yazır: "Axırda da iş o yerə çatır ki, Müaviyə Əmirəlmöminin Əli (ə.s)-ın qazandığı iftixarlar müqabilində özü üçün fəxr mənbəyi yaratmaq, O Həzrətlə əzəmət və böyüklük baxımından üzləşmək istəyir və özünü O Həzrətlə eyni səviyyədə görür."

Müəllif yazır: "Bəziləri Əmirəlmöminin Əli (ə.s)-ın Müaviyəyə məktub yazaraq öz fəzilətlərini ona çatdırması üçün müxtəlif səbəblər qeyd ediblər. Biri budur ki, Şam əhli islam dinini qəbul edərək müsəlman olduğu zamandan Əbu Bəkr, Ömər və Osman barəsində məlumat almışdılar, amma Müaviyə və Bəni Üməyyənin Əmirəlmöminin Əli (ə.s) barədə apardığı mənfi təbliğata görə O Həzrətin fəzilətləri və İslamdakı şöhrətlərindən xəbərsiz idilər. Əmirəlmöminin Əli (ə.s) bu məktublarla özünü Şam əhlinə tanıtmağa və bununla da onları Müaviyə ilə əlbir olmaqdan çəkindirməyə, sonda bir yolla İslam dininin düşmənlərini zəiflətməyə çalışırdı. Belə rəvayətlər, nəzərlər çoxdur və bunun həqiqətə nə dərəcədə uyğun olduğunu deyə bilmərik. Ən yaxşısı O Həzrətin məsum, insanlarla Allah arasında vasitəçi, gördüyü hər bir işin İlahi öhdəlik, bütün xeyirli və xeyirsiz işlər sahəsində hamıdan daha məlumatlı olmasını qəbul edək. Bu hadisələrin bizdə dərin təəssüf və qəm-qüssə hissi yaratmasına baxmayaraq.

Müaviyə həmin dövrlərdə onun xeyrinə təbliğat aparmaq üçün Həcc zəvvarları libasında Məkkəyə təbliğat dəstəsi göndərmişdi.

[1] Nəhcül Bəlağənin şərhi, cild 4, səh 51

Müaviyənin öz fəaliyyətlərini gücləndirmək məqsədilə gördüyü işlərdən biri də müxtəlif bölgələrə, xüsusən də İslam dininin zühur etdiyi Məkkə şəhərinə və Hicaza təbliğat dəstələri göndərməkdən ibarət idi. Elə bu məqsədlə o bir dəstə adamı həcc mərasimi üçün Məkkəyə göndərdi və onlara insanlar arasında Əmirəlmöminin Əli (ə.s)-ın Osmanın qatili olması və xilafətə layiq olmaması təbliğatını aparmağı tapşırdı.

Bu xəbər Əmirəlmöminin Əli (ə.s)-a çatdı və O Həzrət Məkkədəki hakiminə Qusəm ibn Abbas ibn Əbdül Müttəlibə məktub yazdı. Bu məktub Nəhcül Bəlağədə də qeyd olunub. Məktub belədir:

"Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra; mənim qərbdəki kəşfiyyatçım məktub yazaraq məni Şam əhalisindən bir dəstənin həccə göndərilməsindən xəbərdar edib. Onların qəlbləri kor, qulaqları kar və gözləri anadangəlmə kordur. Onlar haqqı batildə axtarırlar. Yaradılmışa tabe olub yaradana günah və Allaha itaətsizlik edirlər. Din bəhanəsilə dünyanın südünü sağırlar. Yaxşı əməl sahibləri və təqvalıların axirətlərinin əvəzinə mövcud dünyanı alırlar. Yaxşı əməl sahibindən başqa heç kəs xeyir və yaxşılığa nail olmaz. Pis əməl sahibindən başqa heç kəs pis cəza görməz. Buna görə də çalışqan, ehtiyatlı və öz imam və rəhbərinə tabe olan ağıllı nəsihətçi kimi əlində olan şeydə möhkəm dur və müqavimət göstər. Məbada üzrxahlığa səbəb olacaq bir iş görəsən. Nemət firavanlığı zamanı çox şad olma. Həmçinin çətinliklər zamanı qorxma və özünü itirmə."

Əmirəlmöminin Əli (ə.s)-ınMədinən hakimi olan Səhl ibn Hüneyfə ünvanladığı məktubdan məlum olur ki, bu təbliğat heç də təsirsiz olmamışdır və dünyapərəst nəfsani istəklər arxasınca olan insanlar gizli şəkildə Müaviyəyə tərəf qaçıb ona birləşirlər. Əmirəlmöminin Əli (ə.s) yazır:

"Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra: Mənə xəbər çatıb ki, sənin yanında olanlardan bəziləri gizlində Müaviyəyə birləşirlər. Onların əldən çıxması və sənə olan köməkliklərinin azalmasına görə ruhdan düşüb kədərlənmə. Onlar üçün azğınlıq, sənin üçün isə onlardan şəfa tapmaq bəsdir. Onların qaçdıqları çey hidayət və qurtuluş, tələsdikləri şey isə azğınlıq və nadanlıqldır. Onlar dünya sevənləndir ki, tələsik ona üz tutublar. Onlar ədalət və düzlüyü tanıyıb gördülər, eşitdilər, qulaqlarında saxladılar və bildilər ki, bizim yanımızda olan insanlar haqq-hüquq baxımından bərabərdirlər. Buna görə də qaçdılar ki, özləri mənfəət əldə edib başqalarını nəsibsiz qoysunlar. Allah onları rəhmindən uzaq etsin!

Allaha and olsun ki, onlar zülm və sitəmdən qaçmayıb, ədalət və insafa qovuşmayıblar. Biz Allahın istəyəcəyi təqdirdə bu xilafət işinin çətinliklərini bizim üçün asanlaşdıracağına və nahamarlıqlarını hamarlaşdıracağına ümidvarıq. Sənə salam olsun!"

Əmirəlmöminin Əli (ə.s)-ın xalqı Müaviyə ilə müharibəyə dəvət etməsi və onlardan nəzərlərini soruşması

Əmirəlmöminin Əli (ə.s)-ın nəsihətli və hikmətli məktublarının Müaviyənin və onun muzdurlarının daş ürəklərinə təsir etmədiyi, əksinə onun O Həzrətlə müharibə üçün döyüşçü və silah toplaması, günbəgün öz gücünü artırması, işlərin gedişini öz xeyrinə dəyişməklə döyüşə hazırlaşması məlum olandan sonra daha çox gözləməyi düzgün saymadı və Müaviyə ilə müharibə etmək üçün öz əshablarını topladı, onların nəzərlərini öyrəndi. Nəsr ibn Müzahimin rəvayətinə görə İmam Əmmar ibn Yasir, Haşim ibn Ətibə ibn əbu Vəqqas, Qeys ibn Səd ibn İbadə və Səhl ibn Hüneynin iştirak etdiyi məclisdə belə buyurdu:

"Sizlər yüksək düşüncəyə malik, həlim və səbirli insanlarsınız, işləriniz mübarək və sözləriniz haqqdır. Biz artıq özümüzün və sizin düşmənlərin üzərinə getmək qərarına gəlmişik. Belə isə bu barədə öz nəzərlərinizi bəyan edin."

Əmirəlmöminin Əli (ə.s)-ın adları yuxarıda qeyd olunan silahdaşlarının hamısı bir-bir ayağa qalxaraq O Həzrətin sözlərini təsdiqlədilər və döyüş əhval-ruhiyyəsi yaradan sözlər dedilər. Onlar özlərinin və yoldaşlarının düşmənə tez bir zamanda hücum etmək üçün hazır olduqlarını bildirdilər. Biz İslam dininin bu qəhrəmanlarının, xüsusən də dəhşətli müharibədə şəhid olmuş bir neçə qəhrəmanın adlarını və onların müharibə əhval-ruhiyyəsi yaradan nitqlərini diqqətinizə çatdıracağıq.

Həmin igid şəxsiyyətlərdən biri olan Əmmar ibn Yasir Əmirəlmöminin Əli (ə.s)-ın qarşısında dayandı və Allaha həmd oxuyaraq dedi:

"Ey Möminlərin əmiri!Əgər bir gün belə dayana bilmirsənsə, dayanma! Bu azğınların yandırdığı atəşin alovları güclənməmiş onları haqqı qəbul etmək və ayrılmaq istəmə düşüncələri tam baş qaldırmamış bizi onlarla döyüşə apar. Onları haqqa və həqiqətə dəvət et. Əgər qəbul edərlərsə səadətə çatarlar, amma əgər boyun qaçırarlarsa və müharibədən savayı heç nəyə qane olmazlarsa Allaha and olsun ki, onların qanını tökmək və onlara qarşı cihad etmək Allah dərgahında bizim ona yaxınlaşmamız və kəramət sahibi olmamız üçün ən yaxşı vasitə olacaq."

Səhl ibn Hüneyf Allaha həmd göndərdikdən sonra nitq söyləyərək bildirdi:

"Ey Möminlərin əmiri! Biz sənin sülh etdiyin hər bir şəxsin qarşısında təslimik, döyüşdüyün insanlarla isə döyüşərik və bizim düşüncəmiz sənin düşüncənizdir."

Qeys ibn Səd ibn İbadə Allaha həmd edərək dedi:

"Ey Möminlərin əmiri bizi tez bir zamanda düşmənə tərəf yönləndir və bu işdə gecikmə, çünki mənim üçün bunlarla döyüşmək Türk və Rumlularla döyüşməkdən daha xoşdur. Çünki, bunlar Allahın göndərdiyi dində hiyləgərlik, iki üzlülük ediblər, Allahın dostlarını təhqir etməyi Allahın Rəsulunun dostlarından, mühacirlərdən, ənsarlardan, davamçılardan və tabeinlərdən istəyiblər."

Əli ibn Hatəmi Tayi yerindən qalxaraq Allaha həmd oxuduqdan sonra dedi:

"Ey möminlərin əmiri elmin üzündən olmayan bir söz demədin, haqdan başqa heç nəyə dəvət etmədin, islah olunmaq və düz yola yönəlməkdən qeyri heç nəyə əmr etmədin. Amma buna baxmayaraq yenidən onlarla xoş davrana, onlara məktub və çapar göndərməyi məsləhət edə bilərsən"

Bu zaman Ömər ibn Həməq Xəzai söhbət əsnasında Əmirəlmöminin Əli (ə.s)-a belə dedi:

"Ey Möminlərin əmiri Allaha and olsun ki, mən səni sevirəm və sənինlə beyət etmişəm. Amma bu beyət mənimlə sənin aranda olan yaxınlıq və qohumluğa görə deyil. Səndən, mənə vermək üçün nə var-dövlət, nə də adımı ucaldacaq hakimiyyət istəyirəm. Səni beşə şeyə görə sevirəm: Sən Allahın Rəsulu (s.ə.a.s)-in əmisi oğlusan, onun vəsisisən, Allahın Rəsulunun bizim aramızdakı övladlarının atasısan, İslam dinini qəbul etməkdə hamıdan öndəsən, müharibələr arasında sənin cihad payın hamının payından daha artıqdır. Əgər sənin dostuna güc vermək və düşmənini məhv etməkdən ötrü mənə dağların ağır daşlarını və dərin dənizlərin suyunu daşımağı tapşırarlarsa düşünmədən edərəm və sənin bizim üzərimizdə olan haqqını ödəmiş olaram."

Bu sözlər o qədər səmimi və ürək oxşayan idi ki, Əmirəlmöminin Əli (ə.s) onun barəsində belə buyurdu:

"Ey Allah onun ürəyini təqva nuru ilə nurlandır və öz düzgün yoluna hidayət elə. Kaş mənim qoşunumun arasında sənin kimi yüz nəfər olardı."

Nəsr ibn Ədi dedi:

"Ey Möminlərin əmiri biz müharibə övladlarıyıq, döyüş insanlarıyıq, ona birləşmişik, onu sınamışıq. Sən də bizləri bu sahədə sınamısan və biz də sınanmışıq. Bizim güclü, sınanmış və nəzər sahibləri olan qohumlarımız, dostlarımız var. Biz sənin ixtiyarındayıq və sənin əmrini gözləyirik. Əgər şərqə hücum etsəniz sizin arxanızca gələcəyik, əgər qərbə hücum etsəniz biz də qərbə gedəcəyik. Nəyə əmr etsən itaət edəcəyik."

Belə imanlı və şücaətli insanlarla yanaşı zəif əqidəyə malik və imansız şıxslər də mövcud idi. Onlar düşmənə tərəf hərəkətə başlamaqdan boyun qaçırır, müxtəlif bəhanələr gətirirdilər. Tarixdə Abdullah ibn Məsudun əshabı kimi tanınan bu dəstəyə Rəbi ibn Xəsim[1] kimi daha 400 insan daxil idi. O, Əmirəlmöminin yanına gələrək dedi: "Bizim bu müharibə barəsində şübhələrimiz var və bizim sənin fəzilətlərini tanımağımıza baxmayaraq hələ də aydınlaşmayıb. Elə bu səbəbdən də bizi sərhədlərdən birinə göndər və orada öz vəzifəmizi yerinə yetirək."

Belə insanlardan biri də Bəni Fərazə qəbiləsindən olan Arbəd adlı şəxs idi. O, Bəni Fərazə qəbiləsindən olduğu üçün birbaşa, yaxud dolayısı ilə Müaviyənin

[1] Rəbi ibn Xəsim çox tanınmış Xacə Rəbidir. O, Əli (əs)-ın tərəfdarlarından olmasına baxmayaraq O Həzrətlə birlikdə müharibədə olmaqdan boyun qaçırıb. Onun ibadət əhli olması bu günhalarını yumaq iqtidarında deyildir. Allah hamıdan daha bilicidir.

hiylələrinə uymuşdu. Ərbəd ayağa qalxaraq dedi: " Biz Şam əhlindən olan qardaşlarımızla müharibəyə aparmaq və Bəsrə əhli ilə etdiyin müharibəni yenidən təkrarlamaq istəyirsən. Allaha and olsun ki, belə iş görməyəcəyik."

Malik Əştər onun sözlərindən qəzəbləndi və fəryad çəkərək Ərbədi tutmağı əmr elədi. Ərbəd məsələni belə gördükdə qaçmağa başladı. Amma onu tutdular və təpik, yumruqla ölənə qədər əzişdirdilər. Əmirəlmöminin Əli (ə.s) bu hadisədən xəbərdar olan kimi onun qanpulunun beytülmaldan ödənilməsi əmrini verdi.

Malik Əştər Bəni Fəzarə qəbiləsindən olan o şəxsin sözlərinin Əmirəlmöminin Əli (ə.s)-ın ürəyinə əsər qoya biləcəyindən qorxdu və ayağa qalxaraq dedi: "Ey Möminlərin əmiri! Müşahidə etdiyin bu səhnə sənin qərarının zəifləməsinə səbəb olmasın və bu bədbəxt xaindən eşitdiyin sözlər səni naümid etməsin."

Malik Əştər dediyi sözlərlə bacardığı qədər özünün və silahdaşlarının O Həzrəti dəstəkləməkdə inamlı olduğunu bildirdi.

Münafiqlərin və əqidəsizlərin əhdlərini pozmağa başlamaları və Əmirəlmöminin Əli (ə.s)-ın cavabı

Kufə əhli Əmirəlmöminin Əli (ə.s)-ın silahdaşları arasında belə münafiq və zəif əqidəli insanlar çox idi. Onlar mütəmadi olaraq O Həzrətin verdiyi əmr və fərmanları pozurdular və böyük ehtimala görə etiraz edərək bir çox işlərə qarşı çıxırdılar. Elə bu səbəbdən də Əmirəlmöminin Əli (ə.s)-ın buyurduğu sözlərdə həmin insanlardan çoxlu şikayətlər gözə çarpır, bəzən onlara pis dualar edir, onlarla həmsöhbət olmaqdan qurtarmaq üçün Allahdan ölüm və nicat istəyir.

Əlbəttə bunu da qeyd etmək lzımdır ki, öncə belə insanlar öz mənfi sifətlərini daha az nümayiş etdirirdilər, amma zaman ötdükcə O Həzrətlə düşmənləri arasında, xüsusən də Busr ibn Ərtah və Müğeyrə ibn Şəbənin İraq, Yəmən və s. yerlərdə törətdikləri cinayətlər, etdikləri qarətlərdən sonra gizli üzləri açıldı və münafiqlərin sifətləri daha aydın şəkildə gözə çarpdı. Əmirəlmöminin Əli (ə.s)-ın yanında olan şəxslərin mənəvi zəifliklərı və imansızlıqları daha şiddətli şəkildə gözə çarpdıqca O Həzrətin də yorğunluğunu və şikayətini bildirməsi meydana çıxırdı. Əmirəlmöminin Əli (ə.s) belə buyurur:

"Ey bədənləri burada olanlar, ağılları isə tapılmayan, düşüncələri müxtəlif olanlar! (Bir yerdə toplaşıb ağılın göstərişinə əməl etməyən və işlərdə hər biri öz nadürüst düşüncələrinin ardınca gedənlər). Onlara (nifaq, ikiüzlülük və fikir ayrılıqlarına) görə başçıları (fitnə-fəsada) mübtəla və giriftar olanlar. Sizin əmiriniz (İmam əleyhis-salam) Allaha itaət edir. Siz isə onun göstərişinə uyğun rəftar etmirsiniz. Şam əhlinin başçısı (Müaviyə) Allaha qarşı günah və itaətsizlik edir, onlar isə onun mütiləridir. Allaha and olsun, istərdim ki, Müaviyə sizlər üçün sərraf kimi mənimlə alver etsin, (on gümüş dirhəmə bərabər olan) bir qızıl dirhəm verim

və bir gümüş dirhəm alım, sizin on nəfərinizi məndən alsın və qoşunundan bir nəfər versin." (Nəhcül Bəlağə, xütbə 95)

Daha sonra belə buyurur:

"Allah mənimlə sizin aranızda ayrılıq salsın və məni sizlərdən daha layiq olanlara (Həzrət Peyğəmbərə, Həmzəyə, Cə'fərə və zülm, sitəmi qəbul etməyənlərə) qovuşdursun. (Çünki) Allaha and olsun, onlar bəyənilmiş rəy və düşüncəli, çox helmli və səbrli kişilər, zülm və sitəmi rəva görməyən doğru, haqq söz sahibi idilər (azğınlıq yoluna qədəm qoymazdılar). Bir-birini ötməklə, qabaqlamaqla doğru yolla gedib aydın (hidayət və nicat) yoluna tələsdilər. Deməli, əbədi axirətə, gözəl şadlığa, eyşi-nuşa çatdılar (cənnət onların nəsibi oldu). Agah olun! And olsun Allaha, (cihadda süstlük və səhlənkarlığınıza, zalımların qarşısını almadığınıza görə işiniz o yerə çatacaq ki,) Bəni-Səqif qəbiləsindən bir oğlan (Həccac ibn Yusif) sizlərə hakim kəsiləcək, təkəbbüründən paltarını yerlə sürüyəcək. Haqdan üz döndərərək çox zülm, sitəm törədəcək, sizin göyərtinizi yeyəcək, (malınızı qəsb edəcək) və piyinizi əridəcək. (Sizi həmişə zülm və sitəmə məruz qoyub incidəcək.) Nəyin varsa gətir, ey Əbu Vəzəhə" (Nəhcül Bəlağə, xütbə 114)

Daha sonra buyurur:

Mənə xəbər çatıb ki, Bosr (Müaviyənin əmrilə böyük bir qoşunla) Yəmənə daxil olub. Allaha and olsun ki, onların öz batil yollarında birlik və həmrəyliklərilə sizin haqq yolunda təfriqə və dağınıqlığınıza görə tezliklə sizlərə hakim kəsilib hakimiyyətə sahib olcaqlarını güman edirəm. Ona görə ki, siz haqq yolunuzda İmam və rəhbərinizə itaətsizlik göstərirsiniz, onlar isə batil yolda olsalar belə öz rəhbərlərinə itaət edirlər. Onlar rəhbərlərinin əmanətini qoruyur, siz isə xəyanət edirsiniz (onların bey'əti davamlıdır, siz isə əhdinizi pozursunuz). Bir də şəhərlərindəki islah işlərinə (bir-birilə ülfət və dostluq edir, birliklərini saxlayırlar), sizin isə fəsadınıza görə (bir-birinizə kin, paxıllıq bəsləməyinizə, ikiüzlülüyünüzə və təfriqənizə görə. Bu bir qövmün məğlubiyyət səbəbidir).

(Beləliklə, sizi o qədər xəyanətkar sanıram ki,) əgər sizdən birinə taxta qədəhi belə tapşırsan, qorxuram ki, onun (dəvənin palanından asdıqları) tutacağını aparasınız. Pərvərdigara, mən onlardan (Kufə əhlindən) bezmişəm və qəlbim sıxılıb, onlar da məndən doyublar. Belə isə, onlardan daha yaxşısını mənə nəsib et, mənim əvəzimə onlara bir şər ver. Allahım, onların ürəklərini (əzab və qorxudan) duz suda əriyən kimi ərit. (Ey Kufə əhli,) agah olun ki, Allaha and olsun, mənim üçün sizlərin yerinə (öz qeyrət, şücaət və yoldaşlıqları ilə məşhur olan) Fəras ibn Qənm övladlarından min süvarinin olmasını istərdim. (Nəhcül Bəlağə, xütbə 25)

Cihad və insanlar arasında bu sahədə yaranmış zəiflik, xalqın O Həzrətə qarşı itaətsizliyi, onun yürütdüyü siyasətin mənasızcasına mühakimə edilməsi və digər məsələlər barəsində ümumi olaraq belə buyurur:

"Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra, cihad (dinə qarşı çıxanlarla döyüş) Allahın özünün xüsusi dostlarının üzünə açdığı Cənnət qapılarından biri, təqva və pərhizkarlıq libasıdır. (Paltar insanı soyuqdan və istidən qoruduğu kimi təqva əhlini müxaliflərin şərindən qoruyar.) Haqq-təalanın möhkəm zirehi və onun (təqva əhlini düşmənlərin silahlarından qorumaq üçün) güclü qalxanıdır. Hər kəs ondan uzaqlaşıb, onu tərk edərsə Allah ona zillət və xarlıq paltarı, bəla və çətinlik cübbəsi geyindirər. Bunun təsirindən isə həmin adam həqir, alçaq, zəlil və biçarə olar. Allah öz rəhmətini onun qəlbindən götürdüyünə görə ağılsızlığa mübtəla olar (öz işlərində heyran və sərgərdan olar). Cihada getmədiyinə və bu mühüm işə əhəmiyyət vermədiyinə görə haqqın yolundan uzaqlaşaraq batil yola qədəm qoyar. Müsibətə və biçarəliyə düçar olaraq ədalət və insafdan məhrum olar (zülmkar ona hakim kəsilərək onunla insafsızcasına davranar).

Agah olun, mən sizləri gecə və gündüz, gizlində və aşkarda döyüşə (Müaviyə və ona tabe olanlara qarşı döyüşə) dəvət edərək dedim ki, onlar sizinlə döyüşə gəlməmiş, siz onlarla döyüşə çıxın. Allaha and olsun, hər hansı qövmün öz evində (diyarında) elə bir müharibə olmayıb ki, orada onlar zəlil və məğlub olmasınlar. Siz isə vəzifənizi bir-birinizə həvalə etdiniz (sizlərdən hər biriniz başqasının öz vəzifəsinə əməl etməsini umurdunuz). Mal-mülkünüz hər yandan qarət olunana, (düşmən qələbə çalıb) yurdunuz əlinizdən çıxana qədər bir-birinizi xar etdiniz. Bu, öz süvarilərilə (Müaviyənin əmrinə əsasən Fərat çayının şərq sahillərində yerləşən İraqın qədim şəhərlərindən biri olan) Ənbar şəhərinə daxil olub, Həssan ibn Həssan Bəkrini (şəhərin vali və hakimi) öldürüb, süvarilərinizi şəhərin hüdudlarından uzaqlaşdıran Qamidin (Bəni Qamid qəbiləsindən olan Süfyan ibn Əuf) qardaşlarındandır. Mənə xəbər çatdı ki, onların bir döyüşçüsü bir müsəlman qadına və müsəlmanların amanında olan bir kafir qadına hücum edərək xalxalı, bilərzik, boyunbağı və sırğalarını qoparmış, o qadın da zar-zar ağlayaraq öz qohumlarını köməyə çağırmaqdan başqa cür onlara mane ola bilməmişdir. Düşmənlərdən heç birinin yaralanmadığı, qanları tökülmədiyi halda onlar (bu döyüşdən) böyük qənimət və sərvətlə qayıtdılar. Əgər müsəlman kişi bu hadisəni eşidib qəm-qüssədən ölərsə ona eyib deyil. Mənə görə isə ölüm bundan daha layiqlidir. Nə qədər də heyrətli və təəccüblüdür! And olsun Allaha, onların (Müaviyə və tərəfdarlarının) özlərinin nahaq işlərinin ətrafında birləşməsi, sizin isə haqq işinizdə təfriqə və ixtilafa düşməniz ürəyi öldürür, qəm və hüznü özünə çəkir. Onların oxlarına tuş gəldiyiniz vaxt üzünüz qara, qəlbləriniz qəmli olsun (düşmən sizə doğru ox atır, siz isə qeyrətsizliyinizə, təfriqə və ixtilafınıza görə sinələrinizi onun hədəfinə çevirib sakit oturmusunuz). Onlar sizin malınızı yağmalayırlar, siz isə əlinizə heç nə almırsınız. Sizinlə döyüşürlər, sizsə döyüşmürsünüz. Allaha asi olurlar, siz isə razısınız. Yayda sizə onlarla döyüşə çıxmağı əmr etdikdə dediniz ki, indi hava istidir və istilər sınana qədər bizə möhlət ver. Qışda onlarla döyüşmənizi əmr etdikdə isə

dediniz ki, bu günlər hava çox soyuqdur və soyuqlar çıxana qədər bizə möhlət ver. Siz isti və soyuqdan qaçmaq üçün bu qədər bəhanə gətirirsiniz, Allaha and olsun (döyüş meydanında), qılıncdan daha tez qaçacaqsınız. Ey kişilikdən nişanəsi olmayan namərdlər! Ey ağlı uşaq və bəy otağına təzə girmiş qadın ağlı kimi olanlar! Ey kaş mən sizləri nə görə, nə də tanıyaydım. And olsun Allaha, sizi tanımağın nəticəsi peşmanlıq, qəm və qüssədir. Allah sizləri məhv etsin ki, mənim ürəyimi qan etdiniz, sinəmi qəzəblə doldurub-daşırdınız. Aldığım hər nəfəsdə mənə qəm və hüzn yedirtdiniz. Mənə itaətsizlik, etinasızlıq edərək tədbirimi pozub, puç etdiniz, bunun nəticəsində də Qüreyş "Əbu Talibin oğlu igiddir, ancaq müharibə aparmaq qaydasını bilmir" dedilər. Allah atalarına rəhmət etsin! (Öz dedikləri sözü fikirləşmirdilər.) Onlardan hansı biri döyüşdə mənim qədər çalışqan və ciddi idi, yoxsa öndə getməkdə və ya müqavimətdə məndən artıq idilər? Hələ iyirmi yaşıma çatmamış döyüşə hazır idim və indi də ömrümdən altmış ildən çox keçmişdir. (Mənim döyüşlərdəki fikrim və tədbirim həmişə düz olmuşdur.) Ancaq fərmanına itaət olunmayanın, hökmünə əməl edilməyinin əlacı yoxdur. (Nəhcül Bəlağə, xütbə 27)

Yaxşı olar ki, Əmirəlmöminin Əli (əs)-ın həyatının ürək yaxan bu hissəsinin üzərində çox dayanmayaq və söhbətimizi davam etdirək.

Əmirəlmöminin Əli (əs)-ın qoşun toplayaraq düşmənlə müharibəyə getmək üçün buyurduğu sözlərindən sonra O Həzrətin yanına gələrək Müaviyə ilə müharibəyə getməmək üçün üzrlü olmalarını bildirən insanlardan bir neçəsinin də adını qeyd etmək istəyirəm. Birinin adı Abdullah ibn Mutəm Əbəsi və digərinin adı Hənzələ ibn Rəbi Təmimi idi. Sonralar bu şəxslərin münafiq olmaları, gizlində Müaviyə ilə məktublaşmaları və sonda Kufədən qaçaraq Müaviyəyə qoşulmaları əksər tarix kitablarında qeyd olunmuşdur. Bu iki nəfər öz qəbilələrindən olan bir neçə nəfərlə Əmirəlmöminin Əli (əs)-ın evinə gedərək O Həzrətdən Müaviyə ilə müharibə etməyə tələsməməyi, onunla məktublaşmağı davam etdirməyi xahiş etdilər. Çünki bu müharibədə kimin qələbə çalacağı bilinmirdi.

Əmirəlmöminin Əli (əs) İlahi Peyğəmbərlər, müqəddəs insanlar və dini liderlər kimi onların cavabını belə verdi:

"Həqiqətən bəndələrin və şəhərlərin yeganə varisi, yeddi qat göyün və yerin Tək Allahdır. Hamı ona tərəf qayıdacaqdır, hökuməti kimə istəsə verə və kimdən istəsə geri alar. İstədiyi insanı yüksəldə və istədini xar və zəlil edər. Müharibəyə arxa çevirmək, qalib gəlib, yaxud məğlub olmasından asılı olmayaraq itaətsiz azğın insanların alın yazısıdır. Allaha and olsun ki, nə yaxşı işi yaxşı tanıya bilən, nə də pis işi pis tanıyan insanların sözlərini eşidirəm..."

Bəli nəzərinizə çatdırdığımız bu sözlər zəif əqidəli və imansız insanların sözləri və əməllərinə, Əmirəlmöminin Əli (əs)-ın sözləri isə İlahi və imanlı şəxslərin qətiyyətli cavablarına bir nümunədir.

Yəni zəif əqidəli imansız insanlar məsələlərin ancaq zahirini anlaya bilirlər və bu zahiri dünya görüşlərinə əsaslanaraq nəzər irəli sürürlər. Amma İlahi şəxsiyyətlər və imanlı insanlar öz sarsılmaz imanlarına arxalanaq məsələlərin batinini və işlərin sonunu görə bilirlər.

Zəif əqidəli imansız insanlar qələbəni mənasını qələbənin zahirində axtarırlar və qələbə çalmış şəxsin haqlı olduğunu qəbul edirlər. Belə insanlar səhv məntiqə əsaslanan "Haqq qələbə çalanladır" sözünü qəbul ediblər və Makyavellinin siyasətinə əsaslanaraq gücü bütün işlərin əsasi kimi qəbul edirlər, başqa heç bir insani və əxlaqi prinsipləri qəbul etmirlər. Amma İlahi şəxsiyyətlər qələbəni haqqı və bu dünya həqiqətlərini müdafiə etməkdə görürlər. Belə şəxsiyyətlər Allah və Allaha bağlı hər şeyi haqq bilirlər və bu şeyləri dünyanın əsil qələbəsi bilirlər. İmanlı şəxslərin məntiqi Əmirəlmöminin Əli (əs)-ın onlara verdiyi cavabla eynidir. Bu məntiq Qurani Kərimin və İlahi vəhyin məntiqidir.

Əmirəlmöminin Əli (əs)-ın Müaviyə ilə müharibəyə getdiyi zaman söylədiyi xütbə

Şama, Müaviyə ilə müharibəyə hərəkətə başladığı anda Əmirəlmöminin Əli (əs)-dan müxtəlif qısa və uzun xütbələr nəql olunmuşdur. Bunlardan ən kamili Şeyx Müfidin "İrşad" kitabında nəql etdiyi xütbədir. Bu xütbənin tam olmasından əlavə orada öyüd-nəsihət və digər olduqca mühüm məsələlər qeyd olunmuşdur. Biz də elə bu səbəbdən qeyd olunan məsələləri nəzərə alaraq onun tərcüməsini sizin nəzərinizə çatdırıram:

Allaha həmd etdikdən və Allahın Peyğəmbərinə (s.ə.a.s)-ə salam göndərdikdən sonra belə buyurur: "Ey Allahın bəndələri! Allahdan qorxun, öz imamlarınızın və rəhbərlərinizin davamçıları olun, onlara itaət edin. Çünki, yaxşı davranışa malik və ləyaqətli insanlar öz ədalətli rəhbərlərinin köməkliyi ilə nicat taparlar. Bilin ki, nalayiq davranışa malik insanlar öz rəhbərlərinin köməkliyi ilə məhv olarlar. Müaviyə hal-hazırda malik olduğu haqqı nahaqcasına əldə edib, mənim beyətimi pozub və Allahu Təalanın göndərdiyi dinə xələl gətirib. Ey müsəlmanlar insanların dünən nə etdiyini yaxşı bilirsiniz və siz mənə qarşı olan rəğbətinizlə öz işlərini qaydasına qoymaq məqsədilə irəli çıxdınız və mənimlə beyət etməkdən ötrü məni evimdən çölə çıxardınız. Mən sizlərin əqidələrini yoxlamaq üçün sizin beyətinizi qəbul etməkdən boyun qaçırdım və sözünüzü bir neçə dəfə başdan başladınız (mənim xilafəti qəbul etməmi və mənimlə beyət etmək istədiyinizi bildirdiniz). Mən də sözlərimi bir daha təkrar edərək (sizin beyətinizi qəbul etməkdən boyun qaşırdım), amma sizlərin mənimlə beyət etməkdə israrlı olmağınıza görə dəvələrin su çuxurlarına (su içmək üçün) hücum etmələri kimi mənə hücum etdiniz və sizin biri-birinizi öldürə biləcəyindən qorxdum.

Bunları gördükdə öz və sizin işiniz barəsində düşündüm və öz-özümə dedim: "Əgər mən onların işləri sahəsində lazımı addım atmasam və sözlərini qəbul etməsəm, mənim yerimi tuta biləcək bir kəs tapa bilməyəcəklər və mənim kimi ədalətlə davranacaq kimsəni tapmayacaqlar." (Belə olduqda öz-özümə düşünərək) dedim: "Allaha and olsun ki, mənim onların hakimi olmaqla onların mənim daha üstün olmam haqqımı tanımaları, onların mənim üzərimdə hökümranlıq edərək daha üstün olma haqqımı tanımamalarından daha yaxşıdır. Beləliklə, (beyət üçün) əlimi açıq saxladım və müsəlman dəstələrindən olan sizlər mənimlə beyət etdiniz. Sizin aranızda yaxşı əməl sahibi olan ənsarlar, mühacirlər və davamçılar var idi. Mən sizdən beyət etmək əhdini və beyət üçün əl verməkdə vacib olan bütün işləri gördüm. Mən sizin mənə vəfalı olmanız, mənim göstərişlərimi eşitmək, davamçım olmaq və mənim barədə yaxşı düşünərək hər bir zalım insanla döyüşməkdə, dindən çıxmış hər bir şəxslə düşmənçilik etməkdə mənimlə bir yerdə olmanız barəsində sizlərlə ən böyük və İlahi peyğəmbərlərin əhdini bağladım və siz də bunu qəbul etdiniz.

Deməli mən sizinlə İlahi əhd və peyğəmbərin adı ilə olan peyman bağlamışam və siz də bunu qəbul etmisiniz. Mən Allahı hamınıza və bəzilərinizi başqa birinizə şahid etdim. Sonda Allahın kitabına və Peyğəmbər (s.ə.a.s)-ə arxalanaraq ayağa qalxdım. (xilafəti qəbul etdim)

(Bütün bunlara baxmayaraq) Mənimlə xilafət üzərində vuruşan, mənim imam və rəhbər olmağımı danan Müaviyə ibn Əbu Süfyanın işlərindən təəccüblənirəm. O xilafətə məndən daha layiqli olduğunu düşünür və onun xəlifə olması üçün heç bir dəlil və sübutu olmadan Allaha və Peyğəmbərinə cürət edərərək ədəbsizlik göstərir. Çünki, nə Mühacirlər, nə Ənsar, nə də Müsəlmanlar onun xilafətini qəbul etməmiş və onunla xəlifə kimi beyət etməmişlər.

Ey Mühacir və Ənsar dəstələri və məni eşidən hər kəs! Məgər sizlər mənim davamçım olmağı özünüz üçün vacib etmədinizmi?! Məgər siz özünüz rəğbətlə və şəxsi istəyinizlə mənimlə beyət etmədinizmi?! Məgər sizin mənim sözlərimi qəbul etməniz barəsində sizinlə əhd bağlamadımmı?! Sizin mənimlə etdiyiniz beyət Əbu Bəkr və Ömərlə etdiyiniz beyətlərdən daha möhkəm deyildimi?! (Çünki mənimlə bağlanılan əhd və edilən beyət qədər o iki nəfərlə edilməmişdir) Onda nəyə görə mənimlə hal-hazırda müxalifət edən və o iki xəlifəni qəbul edən bu şəxs nəyə görə indi mənimlə bağladığı əhdi və etdiyi beyəti pozur?! Məgər mənim işlərim barəsində hüsnüzən edərək düzgün düşünmənizi deməmişdiniz?! Məgər mənim əmrlərim sizə lazım deyildirmi. Məgər bilmirsinizmi mənimlə beyət etmək sizin hamınız üçün, istər yanımda olan, istərsə də yanımda olmayanlar üçün vacibdir?! (Yəni, Müaviyə və onun kimi digərlərinin mənimlə beyət zamanı Mədinə şəhərində olmamalarına baxmayaraq Mədinə sakinlərinin, Mühacirlərin, ənsaraların mənimlə beyət etmələri səbəbindən onlar üçün də bu beyət vacib sa-

yılır) Yaxşı onda Müaviyə və onun silahdaşlarına nə olub ki mənə tənə vururlar? (mənim xilafətimi qəbul etmirlər?) Nəyə görə mənimlə beyət bağlamaqda əhdə vəfalı deyillər? Halbuki mən Allahın Rəsulu ilə qohumluq əlaqələrinə malikəm, İslam dinini qəbul etməkdə hamıdan öncüləm və Peyğəmbərin kürəkəni kimi kimi bu yerə hamıdan daha çox layiqəm.

Məgər siz Allahın Rəsulunun Qədir–Xum günündə mənim vilayətim və dostlarım barədə vurğuladılaqrını eşitməmisinizmi? Elə isə Ey müsəlmanlar Allahdan qorxun, Müaviyə ilə döyüşməkdən ötrü hərəkət edin. Əhdi pozmuş Müaviyə və onun düzgün olmayan davranışlara malik dostlarına qarşı vuruşun!

İndi Allahın Peyğəmbərə nazil etdiyi Kitabdan sizin üçün oxüyacağım sözlərə qulaq asın və ibrət götürün, çünki Allaha and olsun bu sizlər üçün nəsihətdir. Allahın nəsihətlərindən yararlanın və özünüzü Allaha itaətsizlikdən uzaqlaşdırın. Cünki, Allah-Təala sizə öyüd-nəsihət verir(Sizdən öncə yaşamışlarınn həyatlarından hekayələr qeyd etməklə sizə öyüd-nəsihət verir) və Peyğəmbər (s.ə.a.s)-ə buyurur:

"Ya Rəsulum! Musadan sonra bir dəstə (tanınmış) İsrail övladının başına gələnləri görmədinmi? Onlar öz peyğəmbərinə: "Bizə bir hökmdar göndər ki, (onun köməyi ilə) Allah yolunda (zülmkarlarla) vuruşaq!" - dedilər. O da (onlara): "Sizə vuruşma əmri olduqda, bəlkə, vuruşmadınız?" – söylədi. Onlar cavabında dedilər: "Allah yolunda nə üçün vuruşmayaq ki, yurdumuzdan çıxarıldıq, övladlarımızdan ayrıldıq". Lakin onlara vuruşmaq vacib olduğu vaxt, içərilərindən az bir qismi müstəsna olmaqla, (hamısı döyüşdən) üz çevirdilər. Allah (özlərinə) zülm edənləri tanıyır! (İsrail övladının) peyğəmbəri onlara dedi: "Allah Talutu sizə padşah göndərdi". Onlar isə: "Biz hökmdarlığa daha layiq ikən və ona vardövlət verilmədiyi halda, o, necə bizə padşah ola bilər?" – deyə cavab verdilər. (Peyğəmbər onlara) dedi: "Allah sizdən ötrü onu (bəyənib) seçmiş, elm və bədəncə (qüvvəcə) ona üstünlük vermişdir. Allah Öz mülkünü (səltənətini) istədiyinə verər. Allah (Öz lütfü və kərəmi ilə) genişdir, (Allah hər şeyi) biləndir!"

Ey insanlar bu ayələrdə Allahın xilafəti və hakimiyyəti Peyğəmbərdən sonra onun ailə üzvlərinə tapşırması sahəsində sizlər üçün böyük öyüd və ibrət alınacaq məsələlər var. Bilin ki, Allah Talutu yüksəltdi və onu seçməkməklə digər insanlardan irəli apardı, elmdə və gücdə üstünlük verdi. Belə olduğu halda siz hələ də Allah-Təalanın Bəni Üməyyəni Bəni Haşim üzərində rəhbər təyin etmdiyini düşünürsünüz? Müaviyəyə həm elm, həm də gücbaxımından üstünlük verdiyini fikirləşirsiniz? Ey Allah bəndələri Allahdan qorxun və itaətsizliyinizə görə Allahın sizə qəzəbi tutmamışdan öncə onun yolunda döyüşün. Allah-Təala buyurur:

"Bəni İsraildə kafir olanlar Davud və İsa ibn Məryəmin dili ilə lənətləndilər. Çünki onlar itaətsizlik göstrədilər və təcavüzkarlardan oldular. Onlar etdikləri çirkinliklərdən əl çəkmirdilər. Onların etdikləri nə qədər də çirkin idi!"

"Möminlər Allaha, Peyğəmbərə iman gətirənlərdirlər, şübhə etmirlər və Allahın yolunda malları və canları ilə cihad edirlər. Onlar düz danişandırlar"

"Ey iman gətirənlər, sizi dəhşətli əzabdan qurtaracaq müamiləyə hidayət etməyim? Allaha və Peyğəmbərinə iman gətirin, öz mallarınız və canlarınızla onun yolunda cihad edin, əgər başa düşsəniz (bilərsiniz ki) bu sizin üçün yaxşıdır. Sizin günahlarınızı bağışlayar və sizi axar bulaqlar olan cənnətlərə daxil edər və əbədi cənnətin məkanlarına. Budur ən böyük qurtuluş"

Ey Allahın bəndələri Allahdan qorxun və öz imamınızla birlikdə cihad etmək üçün (xalqı) müharibəyə çağırın. Əgər sizin əvəzinizə Bədr döyüşündəki döyüşçülərin sayı qədər (313 nəfər) onlar kimi döyüşçüm olsaydı, sizlərə ehtiyac duymazdım və dərhal Müaviyə və onun silahdaşları ilə müharibəyə gedərdim. Çünki mən o döyüşmülərə əmr edəndə itaət edirdilər və onları döyüşə həvəsləndirəndə döyüşə tələsirdilər. Bilin ki vacib cihad elə budur.

Nəhcül Bəlağədə qeyd olunub ki, Həzrət Əli (əs) yola düşmək istəyəndə belə buyurdu:

"Ey Allah, səfərimizn çətinliyindən, qayıdışımızın əziyyətindən və ailəmizinmalımızın pisliklərlə üzləşməməsi üçün sənə pənah gətirirəm. Ey Allah, səfər zamanı yoldaşımız, ailəmizdəki nəzarətçimiz sənsən. Səndən qeyri heç kim bunun ikisini bir yerdə cəmləşdirə bilməz. Çünki evdə qalan eyni zamanda səfər çıxa bilməz və səfərdə bizimlə olan, evdə qala bilməz."

9 Siffeyn döyüşünün başlaması

Qoşunun Nəxilə istiqamətinə hərəkəti əmri

Əmirəlmöminin Əli (əs) əshabların bəzilərinin təklifi ilə qoşunu Kufə yaxınlığında yerləşən Nəxilə istiqamətinə hərəkət etməsi əmrini verdi və Haris ibn Uur Həmədaniyə bu əmri bütün insanların diqqətinə çatdırmağı buyurdu. O Həzrət Uqbə ibni Əmr Ənsarini onun səlahiyyətlərini yerinə yetirmək üçün müvəqqəti olaraq Kufənin hakimi təyin etdi və qoşununun bir hissəsi ilə Nəxiləyə gəldi. Qoşunun digər hissələrinin də onlara çatması üçün dayanmağı əmr etdi.

Sonra Ziyad ibni Nəzər və Şərih ibni Hani adlı səhabələrini yanına çağırdı və onları on iki min nəfərlik qoşunun başçısı təyin edərək düşmənlə üz-üzə gəlmək üçün irəli göndərdi. Əmirəlmöminin Əli (əs) düşmənlə üz-üzə gəldikdə onları dayandırmaları əmrini verdi. Bu sahədə onlara bir sıra göstərişlər verdi və sonra onlara məktub göndərərək hakimiyyət etmək və döyüş sənəti barəsində öyüd-nəsihət buyurdu.[1]

[1] Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 1, səh 285

Qoşunun qalanını da yeddi dəstəyə bölərək hər birisi üçün başçı təyin etdi. Onların hər birisi üçün ayrıca olaraq icra planı hazırlayaraq göndərdi. Əmirəlmöminin Əli (əs) bütün məktublarında qoşunu insanı davranışlar etməyə, zülm və qeyri-insanı davranışlardan uzaq olmağa dəvət etdi.

O Həzrətin qoşununa buyurduğu sözlər budur:

" Allahu Təalaya həmd və şükürdən, onun Rəsuluna salamdan sonra... qoşunların qaydasız və zülmkar hücumlarından tam narahat və bizar olmağımı sizin diqqətinizə çatdırıram. (Çünki qoşun əhli bilmədən insanların məhsullarını, əkinlərini məhv edərək onların mallarını talayırlar) Onda öz döyüşçülərinizin qarşısını alın, zülm və sitəm etmələrinə icazə verməyin. Səfehlərinizin bunlardan (belə qəddar və qeyri-insanı işlərdən) əl çəkmələrinə təkid göstərin. Allah təalanı bizdən narazı edə biləcək bütün işlərdən uzaqlaşın. Sonda dualaların köməkliyi ilə özümüz özümüzə qayıdacayıq. Allah təala buyurur: "De ki, əgər dualarınız olmasaydı mənim Rəbbim sizə heç bir diqqət və etina etməzdi."

Əmirəlmöminin Əli (əs) Mədaindən keçdiyi və Kəsradan (İran şahından) qalan xarabalıqları gördüyü zaman buyurduqları

Adı qeyd olunan müəllif yazır: "Əmirəlmöminin Əli (əs) "Bəhərsiz" şəhərinə çatanda O Həzrətin səhabələrindən olan Hürr ibn Səhm adlı bir şəxs Kəsranın sarayının dağıntılarına baxdı və Əsvəd ibn Yəfərin şerlərindən misal gətirərək bu dünyanın etibarsız olduğunu nəzərə çatdırmaq istədi.

Əmirəlmöminin Əli (əs) ona buyurdu ki, nəyə görə bu ayələri oxumadı? Allah təala buyurur:

"25. (Fironun bütün əyan-əşrafı və əsgərləri boğulub tələf oldular). Onlar (özlərindən sonra) neçə-neçə bağlar, çeşmələr qoyub getdilər; 26. Neçə-neçə əkinlər, gözəl yerlər (möhtəşəm qəsrlər). 27. Və zövq aldıqları neçə-neçə nemətlər (tərk etdilər). 28. (Onları) belə (cəzalandırdıq) və ona (onların sərvətlərinə, mülklərinə) başqalarını (İsrail oğullarını) varis etdik! 29. Onlardan ötrü nə göy, nə də yer ağladı. Onlara (tövbə etməyə) imkan da verilmədi! (Əksinə, elə bu dünyada cəzalarına çatdılar; axirət əzabı isə daha şiddətli olacaqdır. Budur küfrün nəticəsi!)"

Əmirəlmöminin Əli (əs) Qurani Kərimdən olan bu ayəni oxuduqdan sonra üzünü insanlara tutaraq buyurdu: "Bunlar öz əcdadlarından irs qazanmış insanlar idilər, amma indi onların özləri irs qoymuşlar və başqaları onların varislərinə çevrilmişlər. Bunlar onlara əta eilmiş nemətlərinə görə şükr etməlidilər və elə bu səbəbdən də onların dünyası itaətsizliklrinə və günahlarına görə onlardan geri alındı. İlahi nemətləri danmaqdan qorxun ki, əzablar sizin üzərinizə yağmasın."

Əmirəlmöminin Əli (əs) Mədainə gəldi, oranın sakinlərilə söhbət etdi və sonda Ənbar şəhərinə daxil oldu. Həmin şəhər əhalisindən olan bir dəstə torpaq sahibi

Əmirəlmöminin Əli (əs)-ı qarşıladılar. Onlar Əmirəlmöminin Əli (əs)-ı görən kimi qatırlarından düşdülər və O Həzrətə tərəf qaçmağa başladılar. Onlar qatırları ilə yolu bağlayaraq Əmirəlmöminin Əli (əs)-ın atını əhatəyə aldılar.

Əmirəlmöminin Əli (əs) onlardan soruşdu: "Bu qatırlar nədir? Bu nə işdir ki siz görürsünüz?"

Onlar cavab verdilər: "Bu bizim adət-ənənəmizdir. Biz hakimlərimizi və əmirlərimizi qarşılayanda onlara belə ehtiram göstəririk. Bu qatırları da gətirmişik ki,sizə hədiyyə edək və sizin qoşun üçün azuqə hazırlamışıq. Heyvanlarınız üçün də çoxlu ot-ələf gətirmişik."

Əmirəlmöminin Əli (əs) buyurdu: "Siz bu adət-ənənənizi bundan sonra bir-daha təkrarlamayın, çünki Allaha and olsun ki, bu işlər sizin hakimlərinizə və əmirlərinizə xeyir verməz. Bu işin sizin özünüzü və cisminizi əzaba və məşəqqətə atmaqdan savayı heç bir xeyri yoxdur. Amma sizin gətirdiyiniz qatırlara gəldikdə isə, əgər bizim onları sizdən qəbul etməyimizi istəyirsinizsə biz götürərik, amma sizin ödəməli olduğunuz vergilərin bir hissəsi kimi qəbul edirik. O ki, qaldı bi-zim üçün hazırladığınız yeməklərə, biz pulunu ödəməmiş sizin ərzaqlardan heç nə yeyə bilmərik."

Sakinlər cavab verdilər: "Ey Əmirəlmöminin Əli (əs) biz bunların hamısı-nın qiymətlərini hesablayaraq pulunu sizdən alacağıq." Əmirəlmöminin Əli (əs) buyurdu: Belə olduqda siz onları həqiqi qiymətlərilə qiymətləndirməmisiz. Biz başqa şeylərlə kifayətlənərik və buna qane olarıq.

Əmirəlmöminin Əli (əs)-ın Kərbəlaya çatması və İmam Hüseyn (əs)-ın şəhadəti barəsində O Həzrətə xəbər verilməsi.

İstər Şiə, istər Sünni kitablarında azacıq fikir ayrılığı ilə[1] Əsbəğ ibn Nəbatə, Abdullah ibn Abbas, Hərsəmə ibn Səlim və digər hədis rəvayət edənlərdən belə məlum olur ki, Əmirəlmöminin Əli (əs) Siffeynə gedəndə Kərbəla adlı yerdən keç-di. O Həzrət Kərbəlayə çatanda dayandı, bir müddət ağladı, o yerin gələcəyindən, övladı Həzrət Hüseyn (əs)-ın və Bəni-Haşim gənclərinin orada şəhadətə çataca-ğında və elə həmin məkanda dəfn olunacağından xəbər verdi. Nəsr ibn Müzahimin nəql etdiyi hədisə əsasən Əmirəlmöminin Əli (əs) həmin yerin torpağından bir ovuc götürdü və onu iyləyərək belə buyurdu:

"Necə də xoş qoxulu torpaqsan! Səndən qiyamət günü elə insanlar məhşur olacaqlar (qəbirlərindən qalxcacaqlar) ki, hesab-kitabsız cənnətə daxil olacaqlar."

Başqa bir hədisdə belə nəql olunur ki, həmin məkanda dayandı və O Həzrətə belə deyildi:

[1] Daha ətraflı məlumat üçün Əhqaqül Həqq, cild 8, səh 143-149, Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 1, səh 278, Əkmal Əddin, səh 543, İsbatil Hədat, cild 2, Əmirəmöminin Əli (əs)-ın möcüzələri fəslinə müraciət edə bilərsiniz.

"Ey Əli bura Kərbəladır!"

Əmirəlmöminin Əli (əs) belə buyurdu:

"Bəli, kədər və bəla torpağıdır."

Sonra əli ilə torpağa işarə edərək buyurdu:

"Bura onların yüklərini boşaldacaqları və dəvələrinin dizləri üzərində oturacaqları və onların üzərində oturmuş insanların düşəcəkləri yerdir."

Sonda başqa bir yerə işarə edərək belə buyurdu:

"Burada onların qanlarının axıdılacağı yerdir."[1]

Başqa bir hədisdə isə belə qeyd olunub ki, Əmirəlmöminin Əli (əs) yüksək səslə buyurdu: "Ey Əbu Abdullah Fəratın yanında gözlə, Ey Əbu Abdullah səbr et!"

Hədisi rəvayət edən şəxs dedi: "Məqsədiniz nədir?"

Əmirəlmöminin Əli (əs) buyurdu: "Bir gün Allahın Rəsulu (s)-in yanına gəldim və gördüm ki, O Həzrətin gözlərindən yaş axır. Soruşdum ki, "Ey Allahın Rəsulu sizin ağlamağınızın səbəbi nədir?" Buyurdu: "Cəbrayıl (əs) mənim yanımda ayağa qalxdı və dedi ki, Hüseyn Fəratın kənarında qətlə yetiriləcək."[2]

Qoşunun susaması, bunun üçün göstərilən möcüzə və rahibin hekayəsi

Qoşun əhlinin susaması, O Həzrətin qoşunun susuzluğunu yatırtmaq üçün göstərdiyi möcüzə və xristian rahibinin iman gətirməsi hekayəsi Şiə və Sünni hədisçiləri tərəfindən rəvayət olunmuşdur. Amma bu məsələ sahəsində daha geniş məlumat əldə etmək üçün İsbatul Hədat (Əmirəlmöminin Əli (əs)-ın möcüzələri fəsli) və Əhqaqul Həqqə (cild 8, səh 722-725) müraciət edə bilərsiz.

İbn Əbul Hədid "Nəhcül Bəlağənin şərhi" kitabında (cild 1, səh 228-də) daha geniş şərhlə Nəsr ibn Müzhimdən belə rəvayət edir və Şeyx Müfid (rə) də "İrşad" kitabında azacıq fərqlə eyni tərzdə rəvayət edir. Biz Şeyx Müfidin rəvayət etdiyini sizin üçün daha məqsədəuyğun bilərək burada qeyd edirik:

"Əmirəlmöminin Əli (əs) Siffeyn istiqamətinə hərəkətə başladıqdan sonra O Həzrətin yoldaşları və silahdaşları güclü susuzluqla üzləşdilər və onların özləri ilə götürdükləri su qurtardı. Onlar su tapmaq üçün səhrənın hər yerinə getdilər, amma sudan bir əsər-əlamət tapa bilmədilər. Əmirəlmöminin Əli (əs) onları yollarından döndərərək başqa bir istiqamətə apardı. Bir az yol getdikdən sonra səhranın ortasında bir xristiyan məbədi görsəndi. Əmirəlmöminin Əli (əs) onları məbəd tərəfə apardı və onlar məbədin tam yaxınlığına çatdılar. Sonra məbəddə yaşayan şəxçi çağırmağı əmr etdi. Onlar məbəddə yaşayan şəxsi çağırdılar və o başını məbəddən çölə çıxartdı. Əmirəlmöminin Əli (əs) ona dedi: "Sənin yaşadığın yerin yaxınlığında qoşunumun susuzluğunu yatırtmaq üçün su var?" O, cavab verdi: "Mənimlə su

[1] Nəhcül Bəlağənin şərhi, İbn Əbulhədid, cild 1, səh 287

[2] Əl Bədayət və Ən Nəhayət, İbn Kəsir, cild 8, səh 169

olan yer arasında məsafə çoxdur. İki fərsəxdən çox yol var. Bu yaxınlıqda heç su yoxdur və mənimçün də ayda bir dəfə su gətirirlər. Əgər bu sudan qənaətlə istifadə etməsəm susuzluqdan həlak olaram." Əmirəlmöminin Əli (əs) qoşununa buyurdu: "Eşitdiniz məbəddə yaşayan nə dedi?"Cavab verdilər: "Bəli. Əmr edirsiniz onun işarə etdiyi yerə gedək və gücümüz başa çatmamış suya çataq?"

Əmirəlmöminin Əli (əs) buyurdu: "Buna ehtiyac yoxdur."

Bunu deyib üzərində oturduğu qatarın boynunu qəbiləsinə tərəf döndərdi, məbədin yaxınlığında bir yerə işarə edərək onlara buyurdu: "Oranı qazın!" Bir dəstə insan oranı qazmağa başladı. Böyük və parlaq daş aşkar olundu. Onlar dedilər: "Ey möminlərin əmiri burada böyük daş var və əlimizdəki bellə daşa heç nə edə bilmirik."

Əmirəlmöminin Əli (əs) buyurdu: "Bu daş suyun üzərindədir və onu öz yerindən hərəkət etdirə bilsəniz suya çatacaqsınız." Onlar yenidən qazmağa başladılar, amma nə qədər tərpətməyə çalışdılarsa bacarmadılar və çətinliklə üzləşdilər. Əmirəlmöminin Əli (əs) onların hamısının daşı qazıb çıxarmaq üçün bir yerə toplaşdığını, amma bir şey edə bilmədiklərini mübarək qədəmlərini yəhərin üzərindən aşıraraq aşağı endi. Barmaqlarını daşın altına saldı, onu yerindən tərpətdi, asanlıqla yerindən qaldıraraq kənara tulladı. Daş yerindən çıxarıldıqdan sonra suyun parıltısı görsəndi.

Qoşun əhli suyun başına toplaşdı və hamı o sudan içdi. Bu onların Siffeyn səfəri zamanı içdikləri ən dadlı, soyuq və təmiz su idi. Əmirəlmöminin Əli (əs) onlara buyurdu: "Yola bu sudan götürün və susuzluğunuzu tam yatırdın." Sonra O Həzrət həmin daşı mübarək əlləri ilə əvəlki yerinə qoydu və üstünü torpaqlamanı və bütün nişanələri itirməyi əmr etdi. Bütün bu hadisələri məbəddə yaşayan xristian müşahidə edirdi. Hadisələri sona qədər izləyən həmin şəxs fəryad çəkdi və dedi:

"Ey insanlar! Məni bu məbəddən aşağı endirin!"Müsəlmanlar böyük çətinliklə də olsa onu məbəddən aşağı endirdilər. O, Əmirəlmöminin Əli (əs)-ın qarşısında dayandı və belə dedi: "Ey kişi! Sən Peyğəmbərsən?" Əmirəlmöminin Əli (əs) buyurdu: "Xeyr". Həmin şəxs soruşdu: "Sən Allah dərgahının ən böyük mələyisən?" Əmirəlmöminin Əli (əs) buyurdu: "Xeyr". O, bir daha soruşdu: "Bəs sən kimsən?" Əmirəlmöminin Əli (əs) buyurdu: " Mən Allahın Rəsulu, sonuncu Peyğəmbər Muhəmməd ibn Abdullah (s)-in vəlisiyəm". Qoca rahib dedi: "Əlini aç ki mən sənin əlinlə Allah təbarəkə və təalaya iman gətirim!" Əmirəlmöminin Əli (əs) mübarək əlini açdı və ona belə buyurdu: "Şəhadəteyni dilinə gətir". Rahib dedi: "Şəhadət verirəm ki, Allahdan başqa heç bir Allah yoxdur və onun şəriki mövcud deyil. Şəhadət veririəm ki, Muhəmməd onun bəndəsi və rəsuludur. Şəhadət verirəm ki, Allahın Rəsulundan sonra ouun vəlisi, xilafətə ən layiqli şəxs sənsən". Sonra Əmirəlmöminin Əli (əs) onunla bütün İslam əməllərini yerinə yetirəcəyi baərəd əhd bağladı. Əmirəlmöminin Əli (əs) ona belə buyurdu: "Bu qədər uzun

müddət məbəddə yaşadıqdan, İslam dininə müxalif olan dinə qulluq etdikdən sonra indi İslam dininə iman gətirməyə səni nə məcbur etdi?"

Qoca rahib dedi: "Ey möminlərin əmiri indi sənə bu məbədin səhranın ortasında tikilməsinin, bu daşı qazaraq tapan və həmin daşın altından bu suyu aşkarlayan şəxsi müəyyənləşdirmək üçün olduğunu tam açıqlayaram. Məndən öncə də çox zaman kjeçib və məndən öncə də bu məbəddə yaşayanlar bu səadətə qovuşmayıblar. Allah bu səadəti mənim ruzim qərar verib. Biz öz kitablarımızda oxumuşuq və öz alimlərimizdən eşitmişik ki, bu yerlərdə bulaq və onun üzərində daş var. Bu bulağın yerini peyğəmbər, yaxud onun vəlisindən başqa heç kim bilmir. Şübhəsiz Allahın bu bulağının yerini bilən və onun üzərindəki daşı götürmək gücünə malik vəlisi olduğuna inanırdıq. Mənim gözlədiyim sonda elə mənim vaxtımda baş verdi və mən ən böyük arzuma qovuşdum. İndi tək sənin əlinlə İslam dininə iman gətirdim və sənin haqq olmana, hakimiyyətinə imanım var".

Əmirəlmöminin Əli (əs) bu sözləri eşidən kimi ağlamağa başladı və gözlərindən axan göz yaşları onun saqqalını islatdı. O Həzrət buyurdu: "Kitablarında mənim adımı qeyd etmiş Allaha şükürlər olsun." Sonra camaatı yanına çağırdı və belə buyurdu: "Sizin bu müsəlman qardaşınızın söylədiklərinə qulaq asın". İnsanlar onun söylədiklərinə qulaq asdılar, onlar üçün belə nemət göndərdiyi və Əmirəlmöminin Əli (əs)-ın haqlı olmasını onlara tanıtdığı üçün Allah təbarəkə və təalaya hədsiz-hüdudsuz şükürlər göndərdilər və yollarına davam etdilər.

Məbəd sakini də Əmirəlmöminin Əli (əs) və onun silahdaşları ilə birgə yola düşdü və Şam əhli ilə yaranmış Siffeyn müharibəsində iştirak etdi. Həmin şəxs Siffeyn döyüşünün ilk şəhidlərindən biri oldu. Əmirəlmöminin Əli (əs) onun namazını qılaraq dəfn etdi və Allahdan onun bağışlanılmasını istədi. Sonralar hər dəfə yadına düşəndə belə buyururdu: "O mənim dostum idi."[1]

Şeyx Müfid (r) bu rəvayəti nəql edəndən sonra Seyid Hümeyrənin bu barədə yazdığı "Baiyyə" qəsidəsinin bir neçə beytini qeyd etmişdir ki, olduqca maraqlıdır. Həmin qəsidədən:

1. Bir axşam (Siffeynə gedən) yolda qoşunla birlikdə gecə yarısından sonra Kərbələdan keçdi.
2. Dünyadan üz döndərmiş insana çatdı və o özülü səhranın quru, yandırıcı qumunda qoyulmuş məbəddə yaşayırdı.
3. O, hər tərəfə getdi və orada səhranın vəhşi heyvanlarından və qoca kişidən başqa heç nə görmədi.
4. Sonra həmin məbədə yaxınlaşdı, qocanı səslədi, və qoca tələ qurub gizləndiyi yerdən tələyə baxan insan kimi aşağı baxdı.

[1] İrşad Müfid, cild 1, səh 338

5. Buyurdu: “Sənin yaşadığın yerin yaxınlığında su tapılır?” Dedi: “Burada su yoxdur.”

6. Kim iki fərsəx uzaqlıqda. Yalnız qum təpələrinin arasında və quru səhrada bizim üçün su tapa bilər.

7. Sonra atlarının başlarını çətin və quru yerlərə tərəf çevirdilər, saf və yumşaq daş parladı ki, qızılla işlənilmiş gümüş kimi

8. Buyurdu: “Bu daşı çevirin, əgər çevirə bilsəniz susuzluğunuzu yatırdacaqsınız, yoxsa susuz qalacaqsınız.

9. Sonra hamı onu yerindən qopartmaq üçün güc verdi, amma həmin daş üzərinə kiminsə minməsinə icazə verməyən dəvə kimi onlara itaət etməkdən boyun qaçırdı.

10. Sonda onları yordu və çətinliklə üzləşdirdi. O Həzrət əlini daşa tərəf uzatdı və O hər bir döyüşçü ilə üzləşdiyi zaman əlini ona tərəf uzadanda qələbə qazanardı.

11. Elə bil həmin böyük daş (O Həzrətin güclü əllərində) oyun meydanında top vuran güclü qollara malik gəncin əlindəki topa bənzəyirdi.

12. Həmin daşın altından çıxan təmiz və dadlı suyla Onların susuzluqlarını yatırtdı və həmin su bütün suların ən dadlısı və içməlisi idi.

13. Hamı susuzluğunu yatızdırdıqdan sonra daşı yerinə qaytardı və getdi (onun yeri itdi) elə bil ki, həmin yerə heç kim yaxınlaşmayıb.

Məqəl ibn Qeysin məmuriyyəti və
Əmirəlmöminin Əli (əs)-ın Rəqqəyə getməsi

Nəsr ibn Müzahim yazır: “Əmirəlmöminin Əli (əs) Mədaindən Məqəl ibn Qeysə məmuriyyət tapşırdı. Belə ki, ona üç min nəfərlik qoşunla Mosulda keçərək Nəsibeynə getməsini və sonra Fərat çayının sahilində yerləşən Rəqqə şəhərində ona çatmasını tapşırdı. Ona bəzi tapşırıqlar verdi və sonra O Həzrətin özü də hərəkət edərək Rəqqəyə gəldi. Orada səhabələrindən bir dəstəsi dedi: “Öz üzərinizə düşən vəzifəni tam yerinə yetirmək üçün Müaviyəyə yenidən məktub yazmanız yaxşı olar”. Əmirəlmöminin Əli (əs) də bu təklifin ardınca Müaviyəyə məktub yazdı.

Əmirəlmöminin Əli (əs)-ın Müaviyəyə məktubu

Allahın bəndəsi Əliibn Əbu talibdən Müaviyəyə və onun yanında olan Qureyşlilərə. Salam olsun sizlərə. Mən sizin yanınızda ondan başqa ibadətə layiq olmayan Allaha şükr edirəm. Həqiqətən Allahın elə bəndələri var ki, Allah tərəfindən nazil olunmuş kitaba iman gətiriblər, onun təvilini və təfsirini anlayıblar, din (məsələləri) üzrə fəqih olublar. Allah təbarəkə və təala onların fəzilətini Qurani Kərimdə bəyan edib. Siz o zamanlar Allahın Rəsulunun düşməni idiniz, Allahın kitabını dandınız, müsəlmanlarla döyüşmək üçün əlbir olmuşdunuz. Ələ keçirdiyiniz hər bir müsəlmanı zindana salırdınız, ya işkəncə edirdiniz, ya da öl-

dürürdünüz. O zamana qədər ki, Allah təbarəkə və təala öz iradəsi ilə öz dininə izzət bəxş etdi, onun məqsədi aşkar oldu, ərəblər dəstə-dəstə dini qəbul etdilər və ümmət istər istəyi və rəğbəti, istərsə də məcburiyyət üzündən təslim oldular. Sizlər istəyi və rəğbəti, yaxud məcburiyyət və qorxu üzündən bu dini qəbul etdiniz. Bu elə bir zamanda baş verdi ki, artıq (İslam dini) öncüllər öndə olmaq istək və səylərinə görə nicat tapdılar və ilk mühacirlər üstünlük səadətinə qovuşdular.

Dində belə bir keçmişi olmayan və İslamda birinci dəstə kimi fəzilətlərə layiq olmayanların onlarla (İslam dininin öncülləri ilə) düşmənçilik aparmaları onları öz ayaqlarını Haqq dairəsindən çıxarmaları və zülm etmələri mənasını daşıyır. Ağıllı insanın öz qədrini bilməməsi, ayağını yorğanına görə uzatmaması, layiq olmadığı şeyi istəməsi və qəlbindəki yersiz arzuya yetişməsi rəva deyil. Çünki, həm keçmişdə, həm də indi bu xalqı idarə etmək üçün ən layiqli, Allahın Rəsuluna ən yaxın, Allahın kitabının bilicisi və Allahın dini sahəsində alim şəxs olmalıdır.

O şəxs, İslam dinində hamıdan öncül, cihadda digərlərindən üstün, ümmətin rəhbərlik yükünü daşımaqda hamıdan daha güclü olmalıdır. Onda hamımızın qayıdışı ona tərəf olan Allahdan qorxun, haqqı batillə əzməyin və insanları bilərəkdən səhv yola sürükləməyin.

Bilin ki, Allahın yaxşı və seçilmiş şəxsləri bildiklərinə əməl edənlər, pisləri isə cəhalətləri və nadanlıqlıarı üzündən elm əhli ilə müharibəyə qalxan nadanlardır. Həqiqətən də alim insan öz elminə görə fəzilətə malikdir və cahil insan alim insanla düşmənçilik apardığı üçün cəhalətini daha da artırır.

Agah olun ki, mən sizi Allahın kitabına, Peyğəmbərin sünnətinə, ümmətin qanının axıdılmamasına çağırırram. Əgər qəbul etsəniz, öz savabınızı və mükafatınızı artırarsınız, öz xeyirli payınızı tapmış olacaqsınız, amma qəbul etməsəniz insanlar arasında təfriqə və ziddiyyət yaratmaq istəmənizi məlum olacaq. Bilin ki, bu yolla Allahdan uzaqlaşmaqdan başqa heç nə əldə etməyəcəksiniz və bunun ardınca özünüz üçün Allahın qəzəbini qazanmış olacaqsınız. Vəssəlam"[1]

Amma hikmətlə dolu olan bu sözlərə cavab tapa bilməyən Müaviyə yalnız müharibə mövzusunda bir şer yazmaqla kifayətləndi. Bu şer onun haqq sözləri müqabilində boyun əyməməsindən, macəra axtarmasından və müharibə istəməsindən söz açırdı. Əmirəlmöminin Əli (əs) bu cavabı eşidəndə belə buyurdu:

"Hidayət axtarmayan və azğınlıq arxasınca olan şəxslər bu sözlərlə və bu qədər səylərlə hidayət olunmazlar".

"Bəxt xalçası qara toxunmuş insanın bəxt xalçasını Kövsər və Zəmzəm suyu ilə yusan da ağarmaz.

[1] Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 1, səh 290

Haqq və batil qoşununun üz-üzə gəlməsi

Hər şeydən öncə qeyd etməliyik ki, Əmirəlmöminin Əli (əs)-ın qoşunu ilə yola düşməsi xəbəri Kufədən Müaviyəyə çatanda o Şam məscidinə getdi. Amma məscidə getməmişdən öncə insanları təhrik etmək məqsədilə Osmanın qanlı köynəyini məscidin minbərindən asmaq əmrini vermişdi. İbn Əbul Hədidin[1] sözlərinə görə Şam əhlindən olan yetmiş min qocanı bu minbərin ətrafına Osman üçün ağlamaq məqsədilə toplamışdı və bu qocaların göz yaşları dayanmaq bilmirdi.

Bu zaman Müaviyə məscidə gəldi və məsciddə toplaşanlar üçün nitq söyləyərək dedi: "Ey Şam əhli! Sizlər Əli barəsində məni təkzib edirdiniz, amma artıq onun bütün işləri sizin üçün aydın olub. Allaha and olsun ki, ondan başqa heç kim sizin xəlifənizi qətlə yetirməyib. O, sizin xəlifənizin qətlə yetirilməsi əmrini verən şəxsdir. O, insanları bu işə təhrik edib, qatillərə isə öz yanında pənah verib. Osmanın qatilləri indi Əlinin qoşunundadırlar və onun silahdaşlarıdırlar.

İndi Əli həmin insanları özü ilə birlikdə sizinlə müharibə etməyə və sizin şəhərləri dağıtmağa gətirir. Ey Şam əhli! Agah olun! Allah xətrinə Osmanın qanının tapdalanmasına icazə verməyin. Mən Osmanın intiqamını almaq istəyirəm və onun qisasını almağa layiq insanam. Allah bu haqqı mənə verib ki, onun qisasını alım. Öz məlum xəlifənizə kömək edin, çünki onların sizin xəlifənizin başına nə gətirdiklərini yaxşı bilirsiniz. Onu zülm və sitəmlə qətlə yetiriblər".

Şam əhli bu sözləri eşitdi və onun ətrafına toplaşaraq Əmirəlmöminin Əli (əs)-la müharibə etməyə hazır olduqlarını bildirdilər. Müaviyə də müharibəyə hazırlaşdı, Əbul Uur Səlmini bir neçə min Şamlı döyüşçü ilə Siffeyn istiqamətinə göndərdi.

Əmirəlmöminin Əli (əs) Rəqqədə öz qoşunu ilə Fərat çayından keçəndən dərhal sonra O Həzrətin qoşun başçılarından olan Ziyad ibn Nəsr və Şərih ibn Haninin çaparı gəldi və Əbul Uur Səlminin qoşunu ilə üz-üzə dayandıqlarını O Həzrətə çatdırdılar.

Malik Əştər özünü düşmən qoşununun ön hissəsinə çatdırmaq əmrini alır

Qeyd etdiyimiz xəbər Əmirəlmöminin Əli (əs)-a çatanda O Həzrət Malik Əştəri yanına çağırdı və ona özünü tez bir zamanda Ziyad və Haniyə çatdırmağı əmr etdi. Əmirəlmöminin Əli (əs) onların hər ikisinə məktub yazaraq Malik Əştərə itaət etmələrini tapşırdı. Malik Əştərə isə müharibəni ilk başlamamağı, onların qarşısında dayanmağı əmr etdi və dedi ki, əgər onlar müharibəyə başlamasalar O Həzrət özünü onlara çatdırana qədər özlərini müdafiə etməklə kifayətlənsinlər.

[1] Həmin mənbə, səh 286

Malik Əştər yola düşdü və tez bir zamanda Suri Rum (Rum divarı) adlı yerə çatdı. Burada hər iki qoşunun keşikçiləri dayanmışdılar. Onlara çatdı və Əmirəlmöminin Əli (əs) buyurduğu kimi müharibəyə başlamadılar. Və günün sonuna qədər hazırlıq vəziyyətində dayandılar.

Axşam düşəndə Əbul Uur Səlmi qoşunuyla hücuma keçdi. Bir neçə saatlıq döyüşdən sonra yenidən öz yerlərinə qayıtdılar. Bunun ardınca İraq qoşunundan olan Haşim ibn Ətibə qoşundan çıxaraq ertəsi günə qədər Əbul Uurun qoşunu ilə rəşadətlə döyüşdü. Səhərisi gün Malik Əştər onlarla döyüşə getdi və onların bir dəstəsini qətlə yetirdi. Elə bu səbəbdən də Əbul Uur Səlmi öz qoşunu ilə döyüşdən qaçdı və geri çəkilmək məcburiyyətində qaldı. Malik Əştər öz qoşunu ilə Onların ardınca getdi və onların yerində yerləşdi.

Malik Əştər öz qəbiləsindən və tabeliyində olan döyüşçülərdən biri Sənan ibn Malik Nəxəiyə dedi: "Əbul Uur Səlminin yanına get və onu təkbətək döyüşə dəvət et!"

Dedi: "Özümlə təkbətək döyüşə çağırım ya sizinlə?"

Malik Əştər dedi: "Əgər mən sənə onunla döyüşmək əmrini versəm döyüşərsənmi?"

Sənan cavab verdi: "Bəli! İbadətə layiq tək Allaha and olsun ki, əgər mənə qılıncla özümü düşmən səfinə vurmamı, özümü Əbul Uur Səlmiyə çatdıraraq ona hücum etməmi əmr etsən bu işi görərəm".

Malik Əştər onun üçün dua etdi və dedi: "Yox! Sənin onunla döyüşə hazır olmana baxmayaraq gənc olmana görə Əbul Uur Səlmi sənin lə döyüşə gəlməyəcək. Mən istəyirəm ki, onu mənimlə təkbətək döyüşə çağırasan".

Sənan ayağa qalxdı və Əbul Uur Səlminin qoşununa tərəf getdi və qoşuna çatanda dedi: "Mənim sizin əmirə sözüm var". Onlar Sənanı Əbul Uur Səlminin yanına apardılar.

Səna ibn Malik üzünü Əbul Uur Səlmiyə tərəf tutaraq dedi: "Malik Əştər səni təkbətək döyüşə çağırır".

Əbul Uur Səlmi başını aşağı saldı, uzun müddət fikrə getdi, səsini çıxarmadı və sonra başını qaldıraraq belə dedi: "Malik Əştər başı boşluğu və inamsızlığı üzündən Osmanın bütün məmurlarını qovdu və ona böhtan atdı, mənim yanımda onun hörmətini aşağı saldı, onun haqqını tapdaladı və düşmənçiliyini tam şəkildə aşkar etdi. Onun ikinci başı boşluğu budur ki, Osmanın evinə gedərək onun qətlində iştirak etdi və əlini onun qanına buladı... Mənim onunla döyüşməyə ehtiyacım yoxdur!"

Səna ibn Malik rəvayət edir ki, Əbul Uur Səlmiyə dedim: "Sən öz sözlərinin hamısını söylədin, amma indi qulaq as, çünki sənin cavabını vermək istəyirəm". Əbul Uur Səlmi qəzəbli halda qışqıraraq dedi: "Mənim sənin cavabına və deyəcəyin sözlərə ehtiyacım yoxdur. Ayağa qalx və burdan uzaqlaş!" Bu hadisədən sonra Əbul Uur Qənəssərin adlı yerə qədər geri şəkildi və orada Siffeyn adlı yerdə

yerləşdi. Malik Əştər ora çatana qədər Fərat çayının içməli su üçün istifadə olunan yerlərini ələ keçirməyi əmr etdi və onların arxasınca gələn Malik Əştərin qoşunu üçün yolları bağladı.

Əmirəlmöminin Əli (əs)-ın Siffeynə gəlməsi və Müaviyənin qoşunun suya gedən yolu bağlaması

Ən inanılan rəvayətə əsasən Hicri-qəməri tarixi ilə 37-ci ilin məhərrəm ayının 22-də Əmirəlmöminin Əli (əs) Siffeynə çatdı və O Həzrətin qoşununun sayı yüz mindən artıq idi. Müaviyə O Həzrətdən daha tez Siffeynə daxil olmuşdu və Əbul Uur Səlmi ilə Fərat çayının sahilində çadır quraraq suya gedən yolu bağlamışdılar.

Əmirəlmöminin Əli (əs) Siffeynə çatanda Müaviyənin ordusunun çay kənarında düz yer seçərək yerləşdiyini başa düşdü. O Həzrət də qoşunun yerləşməsi üçün məkan seçdi. Fərat çayının sahilinə su gətirmək üçün gedən də isə Müaviyənin qoşununun suya gedən yolu bağladığını və su götürməyə imkan vermədiklərini gördülər.[1]

Elə bu səbəbdən su arxasınca gedən insanlar Əmirəlmöminin Əli (əs)-ın yanına gələrək hadisəni ona çatdırdılar. Əmirəlmöminin Əli (əs) Sə'sə'ə ibn Suhanı Müaviyənin yanına göndərdi və ona Müaviyəyə bu sözü deməyi tapşırdı. Həmin söz bu idi: "Biz buraya gəlmişik və üzərimizə düşən vəzifələri yerinə yetirməmiş sizinlə döyüşmək istəmirik. Qoşunun bir hissəsini göndərərək müharibəni ilk başlayan sən idin, indi də insanların sudan istifadəsinə mane olan da sənsən. Bu işdən əl çək və camaatın sudan istifadəsinə imkan yarat, bunlardan sonra baxarıq işimiz nə ilə nəticələnəcək".

Sə'sə'ə ibn Suhan bu sözləri Müaviyəyə çatdırdı və Müaviyə üzünü silahdaşlarına tutaraq onların bu barədə nəzərini öyrəndi. Onlardan bir neçə nəfər, o cümlədən Vəlid ibn Əqəbə və Osmanın qardaşı Abdullah ibn Səid belə

[1] Qeyd etmək lazımdır ki, faciə ilə nəticələnəcə biləcək bu cinayət Müaviyənin qoşununda olan bəzi insanların etirazına da səbəb oldu. Belə ki, tarixçilərin yazdıqlarına görə Əmr As və Məri ibn Əfil adlı başqa bir şəxs Müaviyəni belə qeyri-insani işdə və cinayətdən əl çəkməyə çağırdılar və bu işin faciyəvi sonluğu barədə ona xəbərdarlıq etdilər. Məri ibn Əfil Müaviyəyə dedi: "Sübhanallah! Ey Müaviyə siz Fərat çayının sahilinə onlardan daha tez çatdınız və suyu ələ keçirdiniz və indi onlara su verməkdən boyun qaçırırsız. Agah ol! Allaha and olsun ki, əgər onlar sizdən daha tez çatsaydılar sizin sudan istifadənizə mane olmazdılar... Məgər bilmirsiniz ki, onların arasında qulam, kəniz, zəif və günahsız insanlar var?! Allaha and olsun ki, bu iş sizin ilk zülm və sitəminizdir. Sən bu işinlə qorxaq insanları da cürətləndirdin və ürəklərində qorxu olanlara şücaət verdin, bu işdə tərəddüd edənlərə kömək etdin (qəlblərindəki tərəddüdü aradan götürdün və bizimlə döyüşə vadar etdin) və sənin müharibə etmək fikrində olmayanları belə öz çiyninə oturtdun. Hədisi rəvayət edən şəxs yazır: "Məri ibn Əfil bu sözlərdən sonra şer söylədi və gecə vaxtı Müaviyənin qoşunundan qaçaraq Əmirəlmöminin Əli (əs)-ın qoşununa birləşdi.

söylədilər: "Bunlar Osmanı susuz qətlə yetiriblər, indi onları da susuz qətlə yetirmək lazımdır".

Onlarla Sə'sə'ə ibn Suhan arasında söhbət uzandı və təhqirlə nəticələndi. Sə'sə'ə ibn Suhan ayağa qalxaraq Əmirəlmöminin Əli (əs)-ın yanına gəldi və hadisəni ona danışdı. Bu hadisədən sonra O Həzrətin qoşun əhli arasında qəzəb və həyəcan çoxaldı və Malik Əştər, Əşəs ibn Qeys kimi ordu başçıları müharibə edərək Fərat çayının sahilini ələ keçirmək qərarına gəldilər. Onlar Əmirəlmöminin Əli (əs)-dan bu işi həyata keçirmək üçün icazə də aldılar.

Güclü döyüş başladı və İraq ordusunun geniş hücumları qarşısında müqavimət göstərə bilməyən Şam qoşunu böyük tələfatlar verərək döyüş meydanını boşaltdılar və Fərat çayının sahilindəki yerlərindən qüvvələrini çıxararaq yerlərini İraq qoşunu üçün tərk etdilər.

Bu döyüşdə Şam qoşununun ordu başçıları və pəhləvan döyüşçüləri[1], o cümlədən Saleh ibn Feruz, Malik ibn Ədhəm, Riyah ibn Ətik, Əcləh ibn Mənsur, İbrahim ibn Vuzah, Zamil ibn Übeyd, Məhəmməd ibn Ruzə, Malik Əştər tərəfindən qətlə yetirildilər. İraq ordusunun qələbəsi ilə başa çatan döyüşdən sonra Fərat çayının sahili düşmənlərdən azad olundu və suya aparan bütün yollar İraq ordusunun əlinə keçdi. Şam ordusu isə pərakəndə halda səhranın ətrafına səpələndilər.

Bu zaman Əmr As Müaviyənin yanına gedərək dedi: "Ey Müaviyə indi bu qoşun barəsində nə düşünürsən? Bunlarda əvəzini çıxaraq sənin suyun yolunu bağladığın kimi suya aparan yolları bağlasalar nə edəcəksən? Sən də onlar kimi döyüşməyə və qılınc gücünə suyu geri qaytarmağa hazırsanmı?"

Müaviyə dedi: " Keçmişi burax, sən Əlinin indi nə edəcəyini və necə davranacağını düşünürsən?"

Əmr As cavab verdi: "Güman edirəm ki, o sənin kimi davranmayacaq, çünki onun buraya qədər ardınca gəldiyi su deyil, onu buraya gətirən başqa məsələdir".

Müaviyə əsəbi halda ona ağır söz dedi və bu söz Əmr Ası qəzəbləndirdi. O, Müaviyənin cavabında nəsihət verici bir şer söylədi.

Nəsr ibn müzahim belə rəvayət edir ki, Əmirəlmöminin Əli (əs)-ın səhabələri və dostları O Həzrətin yanına gələrək dedilər: "Ey möminlərin əmiri, onlar suyu sizin üzünüzə bağladıqları kimi siz də əmr edin suya gedən bütün yolları onların üzünə bağlayaq." Əmirəlmöminin Əli (əs) cavabı belə oldu: "Xeyr! Onlarla su arasında maniə yaratmayın. Mən cahillərin və nadanların gördüyü işi görmək istəmirəm. Biz Allahın kitabını onlara anladaraq hidəyətə dəvət edəcəyik. Əgər qəbul etsələr öz məqsədimizə çatmış olacağıq, əgər etməsələr bizim qılınclarımızın iti ağızları bizi belə işlərə möhtac etməyəcək. İnşaallah!"

[1] Daha ətraflı məlumat əldə etmək üçün həmin mənbəyə, cild 1, səhifə 329-331 müraciət edə bilərsiz.

Hədisi rəvayət edən İmam (əs)-ın bu sözlərinin ardınca belə yazır: Allaha and olsun ki, hələ həmin gün sona yetməmiş Şam və İraq qoşunundan olan insanlar azad şəkildə sudan istifadə edirdilər. İstər Şam, istər İraq qoşununu suyla təchiz edən məmurlar Fəratın suyundan bərabər şəkildə yararlanırdılar və heç kim bir-birinə etiraz etmirdi.

Başqa bir hədisdə belə qeyd olunub ki, Əmirəlmöminin Əli (əs)-ın qoşunu suyu ələ keçirdikdə bir-birilərinə deyirdilər ki, Allaha and olsun biz də onların sudan istifadə etmələrinə icazə verməyəcəyik. Əmirəlmöminin Əli (əs) onların yanına məmur göndərərək buyurdu: "Siz ehtiyacınız olduğu qədər su götürün və qoşunun yanına qayıdın (çadırlarınıza), sudan istifadə üçün yolu açıq qoyun, çünki onların sizə etdiyi zülm və sitəmə görə Allah sizə onların üzərində qələbəyə çatdırdı."

Əmirəlmöminin Əli (əs) üzərinə düşən vəzifəni yerinə yetirmək üçün yenə də müharibəyə başlamır və sonda öz silahdaşlarının etirazı ilə üzləşir

Nəhcül Bəlağədə, O Həzrətin xütbələri hissəsində bu xütbə qeyd olunmuşdur və Seyid Rəzi (r) belə yazır: "İmam bu sözləri silahdaşlarının O Həzrətin müharibəyə başlamaq əmrini bu gün-sabah etdiyini görəndə etraz etdikləri (O Həzrəti qorxmaqda və Müaviyə ilə Şam əhli barəsində qərar qəbul etməkdə tərəddüd etməsində ittiham edəndə)vaxt vurğulamışdır. Əmirəlmöminin Əli (əs) onların cavablarında belə buyurmudu: "Deyirsiz ki, bu qədər gözləmək və gecikmək ölümdən qorxduğum üçündür. Allaha and olsun ki, mənim ölümü tapmaqdan, yaxud ölümün məni tapmasından heç bir qorxum yoxdur. Amma dediniz ki, bu gözləmə Şam əhli barəsində tərəddüd və şübhədə olduğum üçündür. Allaha and olsun ki, heç bir zaman döyüşü bir gün belə gecikdirməmişəm, yalnız onlardan bir dəstəsinin mənim vasitəmlə hidayət olunacağına, öz zəif nurlu gözlərilə məni görəcəklərinə ümidim olduğu zaman gecikdirmişəm. Belə olanda mənim üçün gözləmək və tələsməmək azğınları qətlə yetirməkdən daha xoşdur, hətta günahları ilə qayıtsalar belə."

Bu xütbənin şərhində İbn Əbul Hədid O Həzrətin başqa bir hədisini rəvayət edir. O hədis budur:

"Mənim nə zaman ölümdən xoşum gəlməyib? Heç vaxt! Bu təəccüblüdür, amma mən ölümü uşaqlıqdan sevmişəm və indi qoca vaxtımda, ömrümün sonunun və əcəlimin yaxınlaşdığı zaman ondan xoşum gəlməsin? Mənim tərəddüdüm bu insanların döyüşməsi barəsindədir. Əgər mənim bunlarla döyüşməkdə tərəddüdüm və şübhəm olsaydı Bəsrəlilərlə döyüşdə tərəddüd edərdim! Allaha and olsun ki, mən bu işi (düşünərək) neçə dəfə alt-üst etdimsə də döyüşməkdən savayı çarə tapa bilmədim. Ya da gərək Allaha və Allahın Rəsulu (s)-ə qarşı itaətsizlik edim. Amma mən bu insanlara sülhlə yanaşaraq onlarla müharibə etməyə tələsmək istəmirəm. Ola bilsin ki, hamısı hidayət olsunlar, yaxud onların bir dəstəsi hidayət olsun.

Çünki, Allahın Rəsulu (s) Xeybər döyüşündə mənə belə buyurdu: "Əgər Allah sənin vasitənlə bir nəfəri belə hidayət edərsə,onun üçün günəşin işıq saçmasından daha yaxşıdır."

"Quran qarilərinin" müharibənin baş verməməsi üçün iki qoşun arasında vasitəçilik etməsi

Tarixçilər belə qeyd edirləri ki, hər şeyə baxmayaraq Əmirəlmöminin Əli (əs) yenə də üç nəfəri Müaviyənin yanına getməyə, onu Allah və İlahi qanunlara itaət etməyə dəvət üçün məmur etdi. Bu üç nəfər Bəşir ibn Əmr Ənsari, Səid ibn Qeys Həmədani və Şəbəs ibn Rəbii Təmimi idi. Onların üçü də Müaviyənin yanına gəldilər və hər biri ayrı-ayrılıqda söhbət edərək onu bu yoldan döndərməyə çalışdılar, amma ona təsir etmədi. Müaviyə dayanmadan Osmanın qisasından danışırdı və sonda tutarlı sübut qarşısında qalanda hədə-qorxu gəlməyə, təhqiramiz sözlər deməyə başladı və hər üçünü yanından qovdu.

Nəsr ibn Müzahim və başqaları belə qeyd etmişlər ki, Bu zaman sayı otuz minə çatan, İraqdan və Şamdan olan Quran qariləri hər iki qoşundan ayrılaraq uzaqda məskən saldılar və iki qoşun arasında vasitəçilik etməyə başladılar. İlk olaraq Müaviyənin yanına getdilər və ona dedilər ki, sən nə istəyirsən? Müaviyə dedi: "Osmanın qisasını!" Dedilər ki, kimdən almaq istəyirsən? Müaviyə cavab verdi: "Əlidən!" Qarilər dedilər ki, Məgər onu Əli qətlə yetirib? Cavab verdi: "Bəli, Əli Osmanın qatilidir və onun qatillərinə öz yanında pənah verərək onları gizlədib."

Onlar Müaviyənin yanından çıxaraq Əmirəlmöminin Əli (əs)-ın yanına gəldilər və Müaviyənin sözlərini O Həzrətə dedilər. Əmirəlmöminin Əli (əs) buyurdu: "Allahım sən özün şahidsən ki, yalan deyir. Mən öldürməmişəm." Onlar yenidən Müaviyənin yanına qayıtdılar, danışıqlar apardılar və Əmirəlmöminin Əli (əs)-ın sözlərini ona çatdırdılar. Müaviyə, cavab verərək dedi: "Əgər Əli Osmanı qətlə yetirməyibsə onun qətlə yetirilməsi əmrini verib və bu işə meyli olub." Qarilər Əmirəlmöminin Əli (əs)-ın yanına qayıtdılar və Müaviyənin sözlərini ona çatdırdılar. Əmirəlmöminin Əli (əs) buyurdu: "Allah şahiddir ki, yalan danışır."

İki qoşun arasındakı bu gediş-gəliş uzun çəkdi və Nəsr ibn Müzahimin sözlərinə görə bu gediş-gəlişlər üç ay davam etdi. Yəni Rəbiül-Axir, Cəmadiəl-U'la və Cəmadiəl-sani. Bu üç ay ərzində iki qoşun arasında dəfələrlə qarşılıqlı hücumlar da baş verdi, amma qarilər hər dəfə insan tələfatının olmaması üçün döyüşə mane olurdular.

Rəcəb ayı çatdı və Müaviyə bu gediş-gəlişlərin bir az da davam edəcəyi təqdirdə insanların döyüşməkdən boyun qaçıracaqları və onun öz istəyinə çatmayacağından qorxdu. Elə bu səbəbdən də əvvəllər olduğu kimi yenidən hiyləyə əl atdı və bu hiyləgərliklə Quran qarilərini vasitəçilikdən, gedib-gəlməkdən uzaqlaşdırmağa çalışdı.

Müaviyə yeni hiylə hazırlayır

Nəsr ibn Müzahim yazır: "Rəcəb ayı çatanda yuxarıda qeyd etdiyimiz kimi Müaviyə əvvəllər olduğu kimi yenidən hiyləyə əl atdı və bu hiyləgərliklə Quran qarilərini vasitəçilik, gedib-gəlməkdən uzaqlaşdırmaq üçün yeni hiyləyə əl atdı. Müaviyə əmr etdi ki, bir oxun üzərinə yazsınlar və həmin oxu da Əmirəlmöminin Əli (əs)-ın Fərat çayı sahilində, bir az aşağıda məskən salmış qoşununun yanına atsınlar. Oxun üzərində bu cümlə yazılmışdı:

"Bu sizlərin xeyrini istəyən Allah bəndəsi tərəfindən bir xəbərdarlıqdır və həmin xəbərdarlıq budur ki, Müaviyə Fərat çayını sizin yerləşdiyiniz yerə tərəf açmaq və sizi suda batırmaq istəyir. Özünüzü qoruyun."

Bu oxu Əmirəlmöminin Əli (əs)-ın qoşunundan olan bir döyüşçü tapdı və o da həmin oxu başqa birisinə verdi. Ox belə əldən-ələ keçdi və xəbər bütün qoşun arasında yayıldı. Hamı deyirdi ki, bu bizim yaxşılığımızı istəyən bir nəfərin məktubudur və bu barədə düşünmək lazımdır. Sonda bu xəbər O Həzrətə də çatdı.

Bu arada isə Müaviyə iki yüz fəhləni bel və külünglə Əmirəlmöminin Əli (əs)-ın qoşunun görə biləcəyi yerdə Fərat çayının sahilini qazmaq üçün çaya göndərdi.

Müaviyənin hiyləsindən agah olan Əmirəlmöminin Əli (əs) bu hiylənin təsiri altına düşmüş insanlara belə buyurdu: "Vay olsun sizlərə! Müaviyə bu işi heç vaxt yerinə yetirə bilməz, çünki bunun üçün yetərincə gücə malik deyil. Onun məqsədi sizi yerinizdən hərəkət etdirməkdən və digər bir yerə köçürməkdən başqa bir şey deyildir. Siz bu hiyləyə uymayın və yerinizdən hərəkət etməyin!"

Ancaq onlar qulaq asmayaraq dedilər: "Allaha and olsun ki, qazırlar. Biz burada qalmırıq."

Əmirəlmöminin Əli (əs) buyurdu: "Bu işi etməyin, bizim zəifləməmiz üçün şərait yaratmayın və mənim düşüncələrimi məhv etməyin."

Amma camaat qulaq asmadan söylədi: "Allaha and olsun ki, biz buradan gedirik. Sən istəyirsən gəl, istəmirsən qal."Onlar bu sözdən sonra köçməyə başladılar və Əmirəlmöminin Əli (əs) da onların arxasınca köçmək məcburiyyətində qaldı.

İraq qoşununun köç etməsindən dərhal sonra Müaviyə öz qoşunu ilə onların yerlərini tutdu və strateji əhəmiyyətə malik yeri, eləcə də Fəratın içməli suyunu ələ keçirdi. Bu yerin əhəmiyyəti ondan ibarət idi ki, Müaviyə həmin yeri tutmaqla İraq tərəfdən gələn silah-sursat və azuqə yardımlarının Əmirəlmöminin Əli (əs) və onun qoşununa çatmasının qarşısını aldı.

Əmirəlmöminin Əli (əs) vəziyyəti belə görəndə Malik Əştər və Əşəs ibn Qeysi yanına çağırdı və buyurdu: "Məni öz nəzərinizlə məğlub edən siz deyildinizmi? İndi bu siz, bu da vəziyyət."

Əşəs dedi: "İndi səhvimi düzəldərəm!" Bunu dedi və Kəndə qəbiləsini toplayaraq dedi: "Bir bu gün məni xar və rüsvay etməyin. Mənim sözümü qəbul edin, çünki mən sizinlə Şam qoşununu əzəcəm." Sonra öz qəbiləsilə Şam qoşununa hücum etdi. Digər tərəfdən Malik Əştər İraq ordusundan olan bir dəstə atlı döyüşçü ilə onun köməyinə getdi. Onların hücumu o qədər güclü oldu ki, Müaviyə və onun qoşununu öz yerlərindən üç fərsəx uzağa qovdular və orada yerləşdilər. Əşəs ibn Qeys Əmirəlmöminin Əli (əs)-ın yanına gələrək dedi: "Səni razı sala bildim Ey Möminlərin əmiri!" Sonra Tərfənin şerlərindən oxumağa başladı. Onun ardınca Malik Əştər gəldi və dedi: "Allah suyu yenidən sənin ixtiyarına verdi."

Bundan sonra Zilhiccə ayının sonunadək hər gün iki qoşundan bir neçə nəfər meydana çıxaraq döyüşürdülər və Nəsr ibn Müzahimin sözlərinə görə öz qüvvələrini böş və mənasız yerə itirməməyə görə geniş hücumdan imtina etdilər.

Məhərrəm ayının çatması və müvəqqəti atəşkəs

Nəsr ibn Müzahim yazır: "Məhərrəm ayının başlaması ilə hər iki qoşun döyüşü dayandırdı və Əmirəlmöminin Əli (əs) qoşunu tərəfindən olan sülh heyəti Müaviyəni fikrindən daşındırmaq, haqq-ədalətə boyun əyməyə vadar etmək və sülhü bərqərar etmək üçün yenidən yola düşdü. Müaviyə də yeni hiylə işlədərək sülhsevərlik təzahürü ilə Əmirəlmöminin Əli (əs)-ın yanına sülh elçiləri göndərdi. Əmirəlmöminin Əli (əs) tərəfindən Müaviyənin yanına gedən ilk heyətə Əli ibn Hatəm Tayi, Şəbəs ibn Rəbi, Yəzid ibn Qeys və Ziyad ibn Həfsə daxil idi. Qeyd olunan heyət Müaviyənin yanına gələrək onunla söhbət etdilər, amma Müaviyə yenidən öz sözlərini və əsassız iddialarını irəli sürərək Osmanın qisasından və digər mənasız məsələlərdən söz açdı. Sülh heyəti Əmirəlmöminin Əli (əs)-ın yanına qayıtdı.

Qarşı tərəfdən də Müaviyə Şərhəbil ibn Səmət, Həbib ibn Müslimə, Mə'ən ibn Yəzidi Əmirəlmöminin Əli (əs)-ın yanına göndərdi. Onlar Müaviyənin həmişəki sözlərini bir daha təkrar etdilər. Əmirəlmöminin Əli (əs) onların cavabında hikmətli sözlər buyurdu ki, xülasəsi belədir:

"Sübhan və Pak Allah Muhəmməd (s)-ı göndərdi və insanları O Həzrətin bərəkətilə azğınlıqdan qurtardı, öz peyğəmbərliyini yerinə yetirdi. Həzrətdən sonra camaat Əbu Bəkri ondan sonra da Ömәri onun canişini etdilər. O iki nəfər, insanlarla yaxşı tərzdə davranırdılar. Biz peyğəmbərin ailəsində olmamıza, xilafət üçün daha layiqli olmamıza baxmayaraq öz haqqımıza göz yumduq. Sonra hakimiyyəti Osman ələ aldı və elə işlər gördü ki, insanların iradı ilə üzləşdi, ona qarşı qiyam etdilər və qətlə yetirdilər. Sonra insanlar mənim yanıma gəldilər. Mən razılıq vermədim, amma onlar təkid etdilər və dedilər: "İslam ümməti səndən qeyrisinə razı olmayacaq. Biz sənin də qəbul etməyəcəyin təqdirdə insanlar arasında təfriqə düşməsindən qorxuruq." Mən onlarla beyət etdim, amma o iki nəfərdən əlavə

Müaviyənin müxalifətilə üzləşdim. Müaviyənin nə dində sabiqəsi, nə də İslamda parlaq keçmişi var. (Əsirlikdən) Azadlığa buraxılmış şəxsin övladının azadlığa buraxdığı insandır. Özü və atası daima Allaha, Allahın Rəsulu(s) və müsəlmanlarla düşmənçilik edən insanlardandır və sonda məcburiyyət üzündən İslamı qəbul etdilər.

Sizin Müaviyənin ətrafına toplaşmanız və Allahın Rəsulu (s)-in ailəsindən uzaqlaşmanız çox təəccübləndiricidir. Onlar sizə layiq deyildilər. Onlarla müxalifət edin, onlardan uzaqlaşın və insanlardan birini onların qarşısına çıxarın.

Mən sizi Allahın kitabına, Peyğəmbərin sünnətinə, batili məhv edərək dini təlimləri yaşatmağa dəvət edirəm."

Şərhəbilin və Mə'ənin deməyə sözü qalmamışdı və Əmirəlmöminin Əli (əs)-ın gətirdiyi dəlillər müqabilində çıxılmaz vəziyyətdə qalmışdılar. Elçilər O Həzrətin məntiqli sözləri qarşısında təslim olmağın əvəzinə soruşdular: "Osmanın məzlumcasına qətlə yetirilməsinə şəhadət verirsən?"

Haqq, sədaqət və düzgünlük nümunəsi olan Əmirəlmöminin Əli (əs) açıq-aydın tərzdə buyurdu: "Mən bu sözü demirəm. Həmin iki nəfər dedi: "Osmanın məzlumcasına qətlə yetirildiyinə şəhadət verməyən şəxslə bizim işimiz yoxdur!" Bu sözləri deyərək ayağa qalxıb Müaviyənin yanına qayıtdılar.

Əmirəlmöminin Əli (əs) işi belə görəndə Qurani Kərimin bu ayəsini tilavət etdi : "İnnəkə la tusmiu..."

Atəşkəsin başa çatması və müharibənin yenidən başlaması

Hicri-qəməri tarixilə 37-ci ilin məhərrəm ayı sona çatdı və səfər ayının başlamasını bildirən yeni ay üfüqdə görsəndi. Hər iki qoşun müharibəyə hazırlaşmağa başladı. Əmirəlmöminin Əli (əs) öz qoşununu hazırladı, hər iki dəstəyə əmir təyin etdi, döyüş bayrağını da Haşim ibn Ətibə ibn Əbu Vəqqasa tapşırdı. Əmirəlmöminin Əli (əs) qoşun əhli üçün xütbə söyləyərək bu və bundan öncə olan döyüşlərdə olduğu kimi lazımi göstərişlər verdi. O Həzrət bu sözləri buyurdu:

"Onlar döyüşü başlamasalar, bu camaatla döyüşə başlamayın, çünki onların başlaması sizin üçün yeni bir dəlildir. Döyüşdükdən və onları döyüş meydanından qovduqdan sonra döyüşdən qaçanları öldürməyin, yaralıları öldürməyin, övrətlərini açmayın, ölənləri doğramayın.

Düşmənlərin çadırlarına və mənzil qurduqları yerə çatanda heç bir pərdəni cırmayın, mənim icazəm olmadan kimsənin çadırına daxil olmayın, qoşunun dayandığı yerdə topladığınız əşyalardan savayı onların heç bir malına əl vurmayın. Sizi təhqir etsələr və başçılarınıza, ən yaxşılarınıza hörmətsizlik etsələr belə, mənim icazəm olmadan heç bir qadına hörmətsizlik etməyin, çünki onlar güc, bədən və ağıl cəhətdən zəifdirlər.

Allahın bəndələri, Allahdan qorxun, gözlərinizi (hücum zamanı) yumun, səsləri azaldın, sözləri qısaldın, özünüzü atdan düşməyə, cövlan etməyə, düşmənlə əlbəyaxa olmağa hazırlayın, möhkəm olun, Allahı çox zikr edin və nicat tapmağa ümidvar olun...”

Müaviyə də öz qoşununu bir yerə topladı və Nəsr ibn Müzahim sözlərinə görə səfər ayının 1-i cümə axşamı günü iki qoşun arasında döyüş başladı. Döyüşün başlanğıcında hər gün İraq qoşununun ordu başçılarından biri bir dəstə döyüşçü ilə döyüş meydanına gəldi və Şam qoşunundan olan ordu başçıları və onunla döyüş meydanına gələn döyüşçülərlə mübarizə aparmağa başladılar. Birinci gün Malik Əştər İraq qoşunundan olan silahdaşları ilə Həbib ibn Müslimə və silahdaşları ilə axşama qədər şiddətli döyüş keçirdi. İkinci gün Haşim ibn Ətibə Əbul Uur Səlmi və üçüncü gün Əmmar ibn Yasir Əmr Asla döyüşdü. Hər üç gün ağır döyüş baş verdi. Xüsusən üçüncü gün Əmmar və silahdaşları, ƏmrAsı döyüş meydanından qaçmağa məcbur etdilər və tam qələbə qazanaraq öz yerlərinə qayıtdılar.

Əmirəlmöminin Əli (əs)-ın buyurduqları,
Əmmar Yasirin Müaviyə barədə sözləri və küfr etməsi

Nəsr ibn Müzahim Hind ibn Bəcəlidən belə rəvayət edir ki, Müaviyə və Şamlıların bayraqları Əmirəlmöminin Əli (əs)-ın gözünə dəyəndə belə buyurdu:

“Toxumu parçalayan (yəni toxumdan biti yaradan), insanı xəlq edən Allaha and olsun ki, bunlar müsəlman olmayıblar. Bunlar məcburiyyət üzündən təslim olublar (İslamı qəbul etdiklərini təzahür edənlər) daxillərindəki küfrü gizlədiblər, öz küfrlərini nümayiş etdirmək məqsədilə dost və köməkçi tapdıqlarına görə bizimlə olan düşmənçiliyi yenidən başladılar. Onların İslam dinindən etdikləri bir şey var o da namazı tərk etməyiblər və hələ də namaz qılırlar.”[1]

Sonra Muhəmməd ibn Hənifədən də bu barədə rəvayət edir və sonda Abdullah ibn Məsuda istinadən Allahın Rəsulu(s)-dan hədis nəql edir ki, belə buyurmuşdur: “Müaviyə ibn Əbu Süfyanı mənim minbərimdən xütbə oxuduğunu görəndə boynunu vurun.”[2]

Sonra Həsənə istinadən yazır: “Allaha and olsun ki, bu işi görmədilər və nicat da tapmadılar!”

Buna bənzər digər bir hadisə də Əbu Səid Xədriyə istinadən nəql edir. Abdullah ibn Ömərə istinadən rəvayət edərək yazır: “Fironla Müaviyənin tabutunun arasında yalnız bir dərəcə fərq var və o da buna görədir ki, Firon Allahlıq iddiası edirdi.”

[1] Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 1, səh 347
[2] Siffeyn, Nəsr ibn Müzahim, səh 157

Zeyd ibn Ərqəmə istinadən yazır: "Bir gün Müaviyənin yanına getdim. Əmr As da onun yanında oturmuşdu. Zeyd gəldi və onların ikisinin arasında oturdu. Əmr As narahatlıqla dedi: "Mənimlə Əmirəlmöminin arasında ayrılıq salmaqdan savayı oturmağa yer tapmadın?" Zeyd dedi: "Allahın Rəsulu (s) döyüşlərin birində sizin bir-birinizin yanında oturduğunu müşahidə etdi və çox sərt baxışlarla sizə baxdı. İkinci və üçüncü gün də bunu müşahidə etdi və hər dəfə sizə uzun-uzadı sərt baxışlarla baxdı. Sonda üçüncü gün dedi: "Hər zaman Müaviyə ilə Əmr Ası yanaşı oturmuş görsəniz aralarında fasilə yaradın ki, o iki nəfər xeyirli iş üçün bir-birilərinin yanında oturmazlar."[1]

Beləliklə, qeyd etdiyimiz kimi Səfər ayının 7-dək İraq və Şam qoşununda məşhur qəhrəmanlardan biri bir dəstə döyüşçü ilə meydana çıxaraq ağır döyüş keçirdilər. Bir gün Muhəmməd ibn Hənifə Abdullah ibn Ömərlə döyüşə girdi, amma Əmirəlmöminin Əli (əs) özü meydana girərək Muhəmməd ibn Hənifəni kənara itələdi və özü Abdullah ibn Ömərlə döyüşmək istədi. Abdullah ibn Ömər isə Əmirəlmöminin Əli (əs)-la döyüşməkdən imtina edərək döyüş meydanını tərk etdi. Başqa bir gün isə Abdullah ibn Abbasla Vəlid ibn Əqəbə arasında çox ağır döyüş baş verdi.

Müaviyənin qoşunundan bir dəstə döyüşçünün İraq qoşununa qoşulması

Nəsr ibn Müzahim Siffeyn kitabında belə nəql edir ki, döyüşlərin qeyd etdiyimiz kimi davam etməsiylə eyni zamanda Şimr ibn Əbrəhə Hümeyra Şam əhlindən olan bir dəstə qari ilə Əmirəlmöminin Əli (əs)-ın ordusuna qoşuldular. Bu iş belə davam etdi və Şam qəbilələrindən olan dəstələr və zadəganlar özlərini Əmirəlmöminin Əli (əs)-ın ordusuna çatdıraraq pənah istəyirdilər. İnsanların qoşundan belə qaçması Müaviyə ilə Əmr Asın narahatlığına səbəb oldu və onları düşünməyə məcbur etdi. Əmr As Müaviyəyə dedi: "Sən Şam əhlinin köməkliyi ilə Allahın Rəsulu(s) ilə qohumluğu olan, İslam dinindən hamıdan öndə duran, Allahın Rəsulu(s)-ın səhabələri arasında şərəf və şücaət baxımından tayı-bərabəri olmayan insanla müharibə edirsən. Elə bu səbəbdən də insanların bu vəziyyətdən yorulmamış və onlarda zəiflik hiss olunmamış tez bir zamanda ümumi hücum etməliyik və işi bir dəfəlik qurtarmalıyıq." O fikrini bu sözlərlə başa çatdırdı: "Nəyi istəyirsən yaddan çıxart və nəyi istəyirsən unut, amma unutma ki, sən nahaq və batilsən!"

Əmr As bu sözü ilə Müaviyəyə başa çatdırmaq istəyirdi ki, əgər vəziyyət belə davam edərsə insanlar haqqı daha çox anlayacaqlar və şam əhlinin Əmirəlmöminin Əli (əs)-la yaxından təmas qurması onun zərərinə olacaq.

[1] Həmin mənbə, səh 157-158

İki qoşunun geniş hücuma hazırlaşması və Əmirəlmöminin Əli (əs)-ın xütbəsi

Əmr Asın sözləri Müaviyəni düşünməyə vadar etdi və o geniş miqyaslı, eyni zamanda həlledici hücum hazırlamağa başladı. Elə bu məqsədlə qoşun əhlini bir yerə toplayaraq onlar üçün nitq söylədi. Onları İraq ordusu ilə müharibəyə həvəsləndirdi. Onun sözlərinin ardınca Əmr As da nitq söyləyərək Müaviyənin sözlərini təsdiqlədi.

Bu xəbər Əmirəlmöminin Əli (əs)-a çatdı və O Həzrət qoşunu toplamaq əmrini verdi. Əmirəlmöminin Əli (əs) xütbə söylədi və həmin xütbənin bir hissəsi belədir:

"Ey camaat! Mənim sözlərimə qulaq asın və sözləri zehninizdə saxlayın. Xodxahlıq itaətsizliyin və özünü təkəbbürdən uzaqlaşdırmaq, özünü sevməmək şeytanın düşməni olmağın mənasını verir. Agah olun ki, sizə batil vədə verir.

Rəhmət ailəsi bizik. Sözlərimiz düzgün, davranışımız ədalətlidir. Peyğəmbərlərin sonuncusu bizdəndir, İslam başçıları bizim aramızda və Allahın kitabı olan Quranın qariləri bizim ailədəndir.

Agah olun ki, həqiqətən işlərin ən təəccüblüsü Müaviyə ibn Əbu Süfyan Əməvi və Əmr As Səhminin gəlmələridir. Onlar xalq (səhv) düşüncələrinə əsasən din sevərliyə dəvət edirlər və həvəsləndirirlər. Siz yaxşı bilirsiniz ki, mən heç vaxt Allahın Rəsulu(s)-lə müxalifət etməmişəm və heç bir zaman, heç bir işdə ona itaətsizlik göstərməmişəm. Öz canımı məşhur pəhləvanların belə qorxudan döyüş meydanlarını tərk etdikləri, ürəkləri titrədikləri meydanlarda O Həzrətin yolunda sipər edən mən idim. Bu gücü və qüdrəti mənə əta edən Allaha şükürlər olsun.

Allahın Rəsulu (s)-ın canı mübarək bədənini tərk edəndə O Həzrətin başı mənim dizlərimin üzərində idi. O Həzrətə tək başına qüsl verən mən idim. Bu işi öhdəmə götürdüm və Allah dərgahının ən yaxın mələkləri mənimlə birlikdə Allahın Rəsulu(s)-in mübarək bədənini o tərəf, bu tərəfə çevirirdilər.

Allaha and olsun ki, batil əhli haqq əhlinə qalib gəldiyi ümmətdən savayı heç bir ümmətdə peyğəmbərdən sonra belə ixtilaf meydana çıxmayıb. Allah istədiyindən savayı"[1]

Nəsr ibn Müzahim bu xütbədən sonra Əbu Sənan Əsədiyə istinadən yazır ki, Əmmar ibn Yasirdən eşitdim ki, Əmirəlmöminin Əli (əs)-ın bu sözlərini eşitdikdən sonra dedi: "Əmirəlmöminin Əli (əs) sizi agah etdi ki, bu ümmət sonda onunla müxalifət edəcək."

[1] Siffeyn, Nəsr ibn Müzahim,s160

Gecə-gündüz davam edən hücum, İmamın xütbəsi və O Həzrətin sədaqətli silahdaşları

Hicri-qəməri tarixi ilə 37-ci ilin səfər ayından çərşənbə axşamı hər iki qoşun geniş miqyaslı hücuma hazırlaşırlar və Əmirəlmöminin Əli (əs) da döyüşçülərinə namaz qılmağı, Quran oxumağı və qələbə qazanmaq üçün dua etməyi tapşırdı. O Həzrət özü də çadırından çölə çıxaraq qoşunu hazırlaşdırmağa başladı və döyüşə hazır olduğunu düşmənə çatdırdı. Onlar da döyüşün hazırlıqmərhələsi ilə məşğul idilər. Müharibə günü Əmirəlmöminin Əli (əs) döyüşlərdə oxuduğu duanı oxumağa başladı. O Həzrətin fədakar ordu başçıları da hərəsi ayrı-ayrılıqda tabeliyində olan döyüşçüləri üçün nitq söylədilər və onları döyüşə hazırlaşdırdılar.

Əmirəlmöminin Əli (əs) və onun sədaqətli dostlarının bu tarixi gündə söylədikləri xütbələrin ən yaddaqalan hissələrini diqqətinizə çatdırıram. İmam (əs) onların qarşısında dayandı və vəcdə gətirən xütbəsini oxuyaraq belə buyurdu:

"Sözsüz Allah təbarəkə və təala sizi əzabdan qurtaracaq bir ticarətə tərəf yönəltdi. Yəni sizi Allaha, Allahın Rəsulu (s)-ə iman gətirməyə, onun yolunda cihad etməyə yaxınlaşdırdı. Onun savabı və mükafatı olaraq günahlarınızın bağışlanılmasını və məkanınızın "Ədən" cənnətlərində hazırlanmasını təşkil etdi. Rizvan məqamı və Allahın tam razılığı daha böyükdür. Bu barədə sizləri ən sevimli məsələlər sahəsində agah etdi və buyurdu:

"Həhiqətən Allah onun yolunda səff qurub, möhkəm səddə bənzər sıxlıq yaratmaqla döyüşənləri və mübarizə aparanları sevir."

Deməli öz səflərinizi dəmir sədd kimi möhkəmləşdirin və sıxlaşdırın. Zirehi və qalxanı olanlar öndə, zirehi və dəbilqəsi olmayanlar isə onların arxasında dayansınlar. (Hücum zamanı) Ön dişlərinizi sıxın ki, bu qılıncları baş kəsməkdə kütləşdirir, ürəklərə güc və qəlblərə sakitlik verir. Səsinizi azaldın, çünki zəifliyi uzaqlaşdırmağa təsir göstərir, vüqarına layiqli sakitlik bəxş edir."

Şücaət və qəhrəmanlıqla dolu bu xütbəsindən sonra düşmənlərin qılınclarından qorxub qaçan insanlar barəsində bu Quran ayəsini tilavət etdi:

"(Ya Peyğəmbər! Bu münafiqlərə) de: "Əgər ölməkdən, yaxud öldürülməkdən (qorxub) qaçarsınızsa, qaçmaq sizə heç bir fayda verməz. (Qaçsanız belə, dünyada) ancaq az bir müddət dolanıb-keçinərsiniz. (Alnınıza nə yazılmışsa, o da olacaq. Qaçsanız da, qaçmasanız da əcəliniz çatan kimi öləcəksiniz. Allahın əzəli hökmünü dəyişdirmək olmaz!)"

Sonda buyurdu: "Allaha and olsun ki, indi olan qılınclardan qaçsanız axirət qılıncından sağ-salamat qurtara bilməyəcəksiniz. Düzgünlük və müqavimətlə (Allahdan) kömək gözləyin, çünki müqavimətdən sonra Haqq Təala köməyi nazil olacaq"

Bu Səəd ibn Qeysin nitqindən bir hissədir

...İlahi qəza və qədərdəndir... Xoşladığımız və xoşlamadığımız hər bir şeyə görə Allaha şükürlər olsun ki, bizi Qənsəreyndə düşmənlərimizlə üz-üzə gətirdi. Allahu Təala bizə elə bir məxsusi nemət əta etmişdir ki, onun şükrünü edə bilmərik və bu nemətin miqdarını da bilmirik. Həqiqətən Həzrət Muhəmməd(s)-in ən seçilmiş silahdaşları bizlərin arasındadırlar və bizimlədirlər.. Hər şeyi görən və agah olan Allaha and olsun ki, əgər bizim başçımız burnu kəsik Həbəş zənci belə olsaydı ürəyimiz rahat və bu müharibə barəsindəki baxışlarımız açıq-aydın olardı. Çünki, bizim aramızda Bədr döyüşündə iştirak etmiş yetmiş döyüşçünün olması bizim haqq tərəfində olmağımızı bir daha sübut edir. Halbu ki, bizim rəhbərimiz Peyğəmbər (s)-in əmisi oğludur. O Həzrət balacalığında namaz qılmış və böyüklüyündə bizim peyğəmbərlə cihada getmiş Bədr döyüşünün sadiq döyüşçülərindəndir. Amma Müaviyə əsirlikdən azadlığa buraxılmışlardandır və o əsirlikdən buraxılmışın övladıdır...

Agah olun ki, sizlər onları qətlə yetirməklə səadətə çatacaqsınız və onlar da sizləri qətlə yetirməklə bədbəxt və günahkar olacaqlar. Allaha and olsun ki, sizlərdən elə bir adam yoxdur ki, onlardan birini öldürməmiş olsun, amma Allah (onları) qətlə yetirənləri Ədən cənnətlərinə və qətlə yetirilənləri (düşmənləri) cəhənnəmə varid edəcək və cəhənnəmin odu yandırıcı və alovlandırıcıdır."

Bir neçə kəlmə də O Həzrətin qoşunun qəhrəmanı, pərhizkarlıq və cihad insanı olan Malik Əştər Nəxəidən eşidək. O, gecə kimi qara atının üzərində insanların qarşısında dayanaraq dedi:

"Uca səmaları yaradan Allaha şükürlər olsun. Göylərdə, yerdə və yerin altında olan hər şey ona məxsusdur. Bəxş etdiyi saysız-hesabsız nemətlərinə və gözəl imtahanlarına görə hər səhər – axşam Allaha ibadət edirəm və şükürlərimi bildirirəm. Allahın hidayət etdiyi hər bir şəxs hidayət olmuşdur və Allahın azğın etdiyi şəxs azğınlığa düşər...

Şəhadət verirəm ki, Allahdan qeyri ibadətə layiq heç nə yoxdur və onun şəriki mövcud deyil. Şəhadət verirəm ki, Muhəmməd onun qulu və elçisidir. Allah o Həzrəti yaxşılıq və hidayət üçün göndərib və müşriklər istəməsələr belə onun dinini bütün dinlərin ən üstünü edib. Allahın salamı ona və ailəsinə olsun. Amma sonra demək istəyirəm ki, bizim dünyanın bu yerinə gəlib çıxmamız və düşmənlə bizim bu nöqtədə toplaşmamız və üz-üzə gəlməmiz ilahi qəza və qədərdir. Allaha bizim üçün bəxş etdiyi nemətlərə, fəzilətə və minnətə görə şükürlər olsun ki, gözümüz işıqlı və ürəyimiz rahatdır və onlarla etdiyimiz savaşda yaxşı mükafat qazanacağımıza və ilahi əzablardan uzaq olacağımıza ümidimiz var. Bizimlə birlikdə Allahın Rəsulu (s)-in əmisioğlu və Allahın qılınclarından biri, yəni Əli ibn Əbu Talib bizimlədi. O Həzrət Allahın Rəsulu ilə namaz qılırdı və heç kim ondan daha

irəliyə gedə bilmədi və sonda qoca yaşına çatdı. Nə heç vaxt həvəsinin arxasınca qaçıb, nə də həyatında bir səhv olub. Allahın dinində fəqih və Allahın sərhədlərini tanımaqda alimdir. Dərin düşüncəyə, olduqca gözəl səbr və dözümə malikdir və ən parlaq keçmişə malik pəhrizkar və təqva əhlidir.

Elə isə Allahdan qorxun, işlərinizdə daha diqqətli və çalışqan olmaqda səy göstərin. Bilin ki,siz haqq və bunlar batil və səhvdirlər. Onlar Müaviyə ilə birlikdə döyüşürlər, siz isə Bədr müharibəsi döyüşçüləri ilə! Bədr müharibəsində iştirak etmiş yüzə yaxın insan və Həzrət Muhəmməd(s)-in digər silahdaşları sizinlədirlər və sizin bayraqlarınızın əksəriyyəti Allahın Rəsulunun bayraqlarıdır. Müaviyənin bayraqları isə Allahın Rəsulu ilə müharibə edən müşriklərin bayraqlarıdır. Qəlbləri ölmüş insanlardan savayı heç kimin bu döyüş barəsində qəlbində şəkk və tərəddüd olmasın. Həqiqətən siz iki yaxşı alın yazısı ilə üz üzəsiniz: Qələbə və şəhadət...!"

Eləcə də Abdullah ib Bədil Xəzai, Yəzid ibn Qeys Ərhəbi və O Həzrətin digər səhabələri və silahdaşları oxuduğunuz maraqlı və qəhrəmanlıqla dolu nitqlər kimi nitqlər söylədilər. Bu barədə daha ətraflı məlumat toplamaq üçün qeyd olunmuş hadisə ilə bağlı qələmə alınmış kitablara müraciət edə və onların qəlblərindəki imanı və cəsurluğu sözlərinin içərisində duya bilərsiniz[1].

Hücum başlayır və böyük insanlar qanlarına qəltan olurlar

Səfər ayının 7-də Siffeyn müharibəsi tarixində böyük və eyni zamanda çətin döyüş başladı. Hər iki tərəfdən olan hücumlar və qaçışlar əhəmiyyətli idi. Əmirəlmöminin Əli (əs)-ın qoşunundan ilk olaraq döyüş meydanına ayaq basan Hucər İbn Ədi idi. O, Müaviyənin qoşununda olan eyni ada malik əmisioğlu ilə meydana girdi və gərgin döyüş baş verdi.

Sonra Abdullah ibn Bədil döyüş meydanına girərək güclü döyüş nümayiş etdirdi. Belə ki, özünü Müaviyənin oturduğu çadıra çatdırdı və onu öz yerindən durmağa məcbur etdi. Amma bu zaman Müaviyənin qoşunu arasında ilişərək qaldı. Onu əhatəyə alaraq daşqalaq elədilər və şəhadətə çatdırdılar.

Qeyd etmək lazımdır ki, Abdullah ibn Bədil Əmirəlmöminin Əli (əs)-ın əmri ilə qoşunun sağ hissəsinin başçısı təyin olunmuşdu. Onun hücumundan sonra qoşunun sağ hissəsi nizam-intizamını itirdi və Müaviyənin əmri ilə Şam qoşununun sol hissəsinin başçısı Həbib ibn Müslimə İraq qoşununun sağ qanadının qalan hissəsini də dağıtmaq üçün hücuma keçdi. Onun hücumundan sonra Əmirəlmöminin Əli (əs)-ın qoşununun sağ qanadı darmadağın oldu. Gözlənilmədən Əmirəlmöminin Əli (əs) qoşununun sol qanadına baxdı. Qoşunun sol qanadı iki dəstəyə bölünmüşdü. Birinci dəstə Məzər qəbiləsinin döyüşçüləri idilər və onlar döyüş meyda-

[1] Siffeyn, Nəsr ibn Müzahim, səh 168-178

nını boş qoymuşdular. Yalnız Rəbiə qəbiləsinin döyüşçüləri rəşadətlə müqavimət edirdilər.

Amma onların da müqaviməti uzun çəkmədi və sürətli, ardıcıl hücumlar nəticəsində parçalandı. Əmirəlmöminin Əli (əs) diqqət yetirdi və qoşununun nizamsız vəziyyətdə olduğuna və bəzilərinin qaçdığına diqqət yetirdi. Özündən və onu müdafiə etmək üçün yanında qalan övladlarından və bir neçə sədaqətli silahdaşından başqa kimsəni görmədi. Bu vəziyyət Ühüd və Hüneyn müharibələrində Allahın Rəsulu (s)-in üzləşdiyi tənhalığı xatırladırdı.

Bu zaman Müaviyənin yaxınlarından olan Əhmər adlı bir nəfər Əmirəlmöminin Əli (əs)-ı gördü və onu qətlə yetirmək fikrinə düşdü. O Həzrətə çatan kimi Əmirəlmöminin Əli (əs) əlini onun bədənində olan zirehin altına saldı və sinəsindən tutan kimi havaya qaldırdı. Belə ki, onun ayaqlarının Əmirəlmöminin Əli (əs) başı üzərində hərəkət etdiyini gördülər. O Həzrət sonra bir hərəkətlə onu yerə çırpdı və onun çiyin, qol sümükləri sındı. Əmirəlmöminin Əli (əs)-ın övladlarından ikisi, İmam Hüseyn(əs) və Muhəmməd Hənifə onu dərhal qətlə yetirdilər. İmam Həsən (əs) isə dayanıb tamaşa edirdi. Əmirəlmöminin Əli (əs) ona buyurdu:

"Nəyə görə iki qardaşın kimi onu öldürməyə getmədin?"

Buyurdu: "Onların ikisi kifayət idi."

Bu zaman Şam əhli O Həzrətə yaxınlaşmaq üçün yaxınlığına gəldilər, amma Əmirəlmöminin Əli (əs) özü onlara tərəf hücum etməyə başladı. Övladı İmam Həsən(sə) buyurdu: "Əgər siz düşmənlərin müqabilində müqavimət göstərən dostlarınızın yanına getsəydin necə də yaxşı olardı. O Həzrət buyurdu: "Oğlum! Atanı irəlidə müəyyən olunmuş gün gözləyir və (həyatı) ondan çox olmayacaq. Ona görə də tez və yaxud gec getməyin heç bir təsiri yoxdur. Allaha and olsun ki, sənin atanın qorxusu yoxdur, istər ölüm onun üzünə, istər ölüm mənim tərəfimə gəlsin."

Baş qa bir hədisdə Əbu İshaq rəvayət edərək yazır:

"Əmirəlmöminin Əli (əs) döyüş günü irəli çıxdı və əlində qısa nizə var idi. O Həzrət Səid ibn Qeys Həmdaninin önündən keçəndə Səid dedi: "Ey möminlərin əmiri düşmənlərə bu qədər yaxın olduğun halda qorxmursan ki, düşmənlərdən biri sənə qəfildən hücum edər?" Əmirəlmöminin Əli (əs) buyurdu:

"Elə bir insan yoxdur ki, Allah onu qorumaq üçün kimisə (qoruyucu mələk) ayırmamış olsun. Onlar həmin insanı quyuya yıxılmaqdan, üzərinə divar aşmasından və ona hər hansı bir zərərin yetişməsindən qoruyurlar. Amma qəza və qədər çatanda onu buraxıb gedirlər və qəza və qədərin ona çatması üçün yolu açırlar."

İraq qoşununun sağ qanadının dağılmasından və qoşunda yaranmış çaxnaşmadan sonra Əmirəlmöminin Əli (əs) qoşunun sol qanadına diqqət yetirdi və onları igidlik göstərməyə və müqavimət nümayiş etdirməyə həvəsləndirdi. O Həzrət bu çaxnaşmada Malik Əştəri görür və yanına çağıraraq buyurur:

"Bu insanların qarşısını kəs və onlara de ki, əlində qaçmaq mümkün olmayan ölümdən hara qaçırsınız? Sizin üçün belə əbədi qalmayacaq həyata qaçırsınızmı?!"

Malik Əştər tez özünü döyüşdən qaçanların qarşısına çatdırdı və Əmirəlmöminin Əli (əs)-ın ruhun qidası olan müraciətini onlara çatdırdı və onlara öyüd-nəsihət verərək imanla dolu olan ürəyindən gələn odlu-alovlu sözlərlə[1] onları geri qayıtmağa və düşmənin qarşısında müqavimət göstərərək müqavimət aparmağa səslədi. Tədricən Həmdan və digər qəbilələrdən olan döyüşçülərin əksəriyyəti geri qayıdaraq və misli görünməmiş rəşadət göstərərək Əmirəlmöminin Əli (əs)-ın qoşununun sağ qanadını yenidən Qasit kafirlərin müqabilində dəmir səddə çevirdilər.

Əmirəlmöminin Əli (əs) qoşunun sağ qanadının yenidən qayıtmasını görəndə onlara sarı getdi və nitq söylədi. O Həzrət onları geri qayıtmaları ilə ən böyük günahlardan sayılan düşmənin qarşısından qaçmaq günahından yaxa qurtardıqlarını buyurdu və yenidən döyüşə səslədi.

Siffeyn müharibəsi tarixi barəsində mövcud olan rəvayətlərə və hədislərə görə Malik Əştər həmin gün misli görünməmiş rəşadət göstərdi. O, dayanmadan bir tərəfdən başqa bir tərəfə hücum edirdi, döyüşçüləri hücum etməyə və düşmən müqabilində müqavimət göstərməyə təşviq edirdi, özü də hər tərəfdən düşmənə hücum edirdi. Sonda Müaviyənin qoşunun geri çəkilməsinə və onların müqabilində möhkəm səf təşkil etməyə nail oldu.

Əmirəlmöminin Əli (əs)-ın qoşunundan olan bir döyüşçünün Müaviyənin çadırına çatması

Nəsr ibn Müzahim yazır: "Həmin gün, yəni çərşənbə günü[2] ağır döyüş baş tutdu və Əmirəlmöminin Əli (əs)-ın silahdaşlarından və Əzdəşnuh qəbiləsindən olan bir döyüşçü qoşunun arasından irəli çıxaraq dedi: "Allaha and olsun ki, mən Müaviyəni öldürmək üçün ona hücum edəcəyəm!"

Bu sözdən sonra atın üzərinə qalxaraq heç bir qorxu hissi duymadan irəli hücum etdi və özünü Müaviyəyə çatdıraraq başının üzərində dayandı. Müaviyə işi belə görəndə ayağa qalxıb çadırın içinə daxil oldu. Həmin döyüşçü də atdan düşərək onun ardınca çadıra daxil oldu. Müaviyə çadırın o biri tərəfindən çölə çıxdı və döyüşçü onu təqib edərək çadırdan çölə çıxdı. Sonda Müaviyənin döyüşçüləri onu əhatəyə alaraq qılıncları ilə ona hücum etdilər.

Müaviyə fəryad çəkərək dedi: "Qılınc onu öldürə bilməz, elə buna görə də bura qədər gəlib çıxa bilib. Onu daşla vurun!" İnsanlar daşqalaq etdilər və o qədər

[1] İslam tarixinin bu böyük şəxsiyyətinin dediyi sözlər barədə məlumat toplamaq üçün Nəsr ibn Müzahimin Siffeyn kitabının 180-182-ci səhifələrinə müraciət edə bilərsiniz.

[2] Böyük ehtimala görə Səfər ayının 8-nə təsadüf edir.

daş vurdular ki, sonda şəhid oldu. Yalnız bundan sonra Müaviyə yenidən yerinə qayıtdı.

Bu çox maraqlı hadisədir

Əmirəlmöminin Əli (əs)-ın qoşunundan Əbu Əyyub adlı bir nəfər irəli çıxdı, Müaviyənin qoşununa hücum etdi və geri qayıtdı. Geri qayıdanda onun qarşısını Şam qoşunundan olan bir döyüşçü kəsdi. Əbu Əyyub onun boynuna qılıncla möhkəm zərbə vurdu və Şamlı döyüşçü Müaviyənin qoşununa tərəf qayıtmağa başladı. HamıƏbu Əyyubun qılıncının ona təsir etməməsindən təəccüblənmişdi və onun zərbəsinin Şamlı döyüşçüyə təsir etmədiyini düşünürdülər. Sonda həmin döyüşçü Şam qoşunun ortasına çatdı və gözlənilmədən başı bir tərəfə və bədəni başqa bir tərəfə düşdü.

Bu mənzərəyə müşahidə edən Əmirəlmöminin Əli (əs) buyurdu: "Allaha and olsun ki, məni təəccübləndirən Əbu Əyyubun zərbəsindən daha çox bu döyüşçünün başının bu qədər müddət yerində qalması oldu.

Müaviyənin nökərinin Əmirəlmöminin Əli (əs) tərəfindən qətlə yetirilməsi və O Həzrətin Müaviyəni döyüşə çağırması

Belə yazırlar ki, Müaviyənin Həris adlı olduqca güclü və şücaətli nökəri var idi və Müaviyə onu çox sevirdi. Ona demişdiki, yalnız Əli ilə mübarizə aparmaqdan qorx və çəkin, amma başqa kiminlə istəsən döyüşə bilərsən."

Əmr As onun yanına gələrək dedi: "Ey Həris Allaha and olsun ki, əgər sən Qureyş qəbiləsindən olsaydın Müaviyə sənin Əlini öldürmənə razı olardı, amma Qureyş qəbiləsindən olmaman üçün Müaviyə bu iftixarın sənə nəsib olmasını istəmir. Ona görə də Əlini qətlə yetirmək üçün fürsət tapanda Müaviyəyə qulaq asma və bu işi yerinə yetir."

Həris bu sözləri eşidən kimi döyüş meydanına girdi və Əmirəlmöminin Əli (əs)-a xitab edərək dedi: "Mənimlə döyüşməyə hazırsan?"

Əmirəlmöminin Əli (əs) irəli çıxdı rəcəz oxudu və sonra Hərisə bir qılınc zərbəsi vuraraq onu qətlə yetirdi. Müaviyə Hərisin ölümündən kədərləndi və Əmr Ası etdiyi bu işə görə məzəmmət etdi.

Əmr ibn Şimrin dediklərinə əsasən bu hadisədən sonra Əmirəlmöminin Əli (əs) iki qoşunun arasında dayanaraq bir neçə dəfə Müaviyəni çağırdı. Müaviyə dedi: "Soruşun görək nə işi var?"

Əmirəlmöminin Əli (əs) buyurdu: "İstəyirəm özünü göstərsin, çünki ona bir kəlmə sözüm var."

Müaviyə Əmr As yanında dayandığı halda döyüş meydanına çıxdı. Əmirəlmöminin Əli (əs) Əmr Asa diqqət yetirmədən Müaviyəyə belə buyurdu: "Vay olsun sənə! Nəyə görə bu insanlar bir-birilərini mənimlə sənin qarşın-

da öldürməlidirlər və döyüşməlidirlər? İndi sən mənimlə döyüşə çıx və hər kim digərini qətlə yetirsə xilafət onun olsun."

Müaviyə üzünü Əmr Asa tərəf tutaraq dedi: "Sənin bu barədə fikrin nədir?"

Əmr As dedi: "Həqiqətən çox insaflı bir təklifdir. Bunu da bil ki, bu təklifi qəbul etməsən və boyun qaçırsan Ərəb olana qədər bu ar və xəcalət sənincün və gələcək nəslin üçün qalacaq!"

Müaviyə dedi: "Ey Əmr As mənim kimi adamı aldatmaq mümkün deyil və məğrurluq üzündən belə iş görmür. Allaha and olsun ki, Əli ilə heç kim döyüşə bilməz və əgər döyüşsə də öz qanına qəltan olar." Müaviyə bu sözləri dedi və dərhal qoşunun son səflərinə doğru hərəkət etdi və Əmr As da onunla getdi.

Əmmar ibn Yasirin şəhadəti

Əmmar ibn Yasir İslam dinin sabiqəli şəxslərindən və İslam dininə, Allahın Rəsulu (s)-ə ilk iman gətirənlərdəndir. Onun fəxrli həyatının və fədakarlıqlarının bir hissəsini "Allahın Rəsulu və Əmirəlmöminin həyatı" kitabında qələmə almışıq və elə həmin kitabda da istər sünni, istər şiyə tarixçiləri arasında qəbul olunan Allahın Rəsulu(s)-in məşhur hədisini[1] qeyd etmişik ki, hədisdə buyurur:

"Həqiqətən səni zalım qövm qətlə yetirəcək və sən cənnət əhli olacaqsan."[2]

Allahın Rəsulu (s) onun barədə buyurub:

"Kim Əmmarı özünə düşmən bilsə, Allah onu düşmən bilər və kimsə Əmmarı qəzəbləndirsə, Allah ona qəzəblənər.[3]"

Allahın Rəsulu (s) onun barədə buyurub:

"Həqiqətən Əmmar başdan ayağa qədər özünü imanla doldurub, iman onun ətinə qanına qarışıb."[4]

O, elə bir şəxsdir ki, Allahın Rəsulu(s) onun barəsində buyurub:

"Həqiqətən Əmmar Haqqladır və Haqq onunladır, Haqq harada dolanırsa Əmmar da orada Haqqla dolanır. Və Əmmarı qətlə yetirən cəhənnəm atəşində olacaq"[5]

---

[1] Əmmar barədə qeyd etdiyimiz hədislər barədə daha geniş məlumat kəsb etmək məqsədilə İbn Əbul Hədidin "Nəhcül Bəlağənin şərhi" kitabının cild 2, 537-538-ci səhifələrinə müraciət edə bilərsiniz.

[2] Sünnə əhlinin hədis və tarix kitablarında bu məzmunda çoxlu sayda rəvayətlər qeyd olunub: "Müstədrikəl Səhiheyn" cild 3, səh 385-386; Əhməd ibn Hənbəlin "Müsnəd" əsəri, cild 2, səh 161-164, "Təbəqat ibn Səd", cild 3,1-ci hissə, səh 181, Heysəmi "Məcməül Zəvayid" kitabında, cild 7, səh 240, İbn Qətibə "Əl İmamət vəl siyasət" kitabında, səh 106, Şəblənci "Nurul əbsar" kitabında, səh89, Əbu Əsir "Əsədul Ğabə" kitabında, cild 4, səh 47, İbn Həhəc "Əsabət" kitabında, cild 2, səh 111, və digər kitablarda onun düzgün hədis olmasını etiraf ediblər.

[3] Əsədül Ğabə, cild 4, səh 45

[4] Kənzul Əmal, cild 6, səh 184, Təfsir Alusi, cild 14, səh 237, Təfsir Fəxr Razi, cild 5, səh 365, Beyzavi, cild 1, səh 683, Hilyətul Övliya, cild 1, səh 139, Təfsir Zəməxşəri, cild 2, səh 176 və digər kitablar.

[5] Təbəqati İbn Səd, cild 3, səh 187

Allahın Rəsulu (s) Mədinə məscidinin inşası zamanı ona buyurdu:

"Həqiqətən sən cənnət əhlindənsən və səni zalım qövm qətlə yetirəcək."[1]

Əmmarın fəziləti barəsində əhli-sünnət kitablarında onlarla müxtəlif hədis qeyd olunmuşdur və bu barədə daha ətraflı məlumat əldə etmək üçün Əl Ğədir kitabına (cild 9) və Nəsr ibn Müzahimin Siffeyn kitabına (səh 230) müraciət edə bilərlər.

Beləliklə Əmmar ibn Yasirin zalım qövm tərəfindən qətlə yetirilməsi və onun qatilinin cəhənnəmdə yanacağı barəsində Allahın Rəsulu (s)-dən müxtəlif hədislər rəvayət olunmuşdur. Allahın Rəsulu (s)-dən nəql olunmuş bu rəvayətlərə görə Siffeyndə olan və hansı qoşuna birləşməsinə görə öz işləri barəsində tərəddüddə olan insanlardan bir dəstəsi Əmmar ibn Yasirin Əmirəlmöminin Əli (əs)-ın qoşununda olmasını görüb O Həzrətin qoşununa qoşuldular. Başqa bir dəstə insan isə Əmmarın şəhid olmasını görəndən sonra Əmirəlmöminin Əli (əs)-ın qoşununa qoşuldu. Belə şəxslərdən biri Abdullah ibn Suveyd Humeyra idi. O, müharibənin əvvəlindən orada olmasına baxmayaraq tərəddüddə olduğu üçün heç bir qoşuna qoşulmadan dayanmışdı. Əmmarın qətlə yetirilməsini görəndən sonra qılıncını ələ alaraq Əmirəlmöminin Əli (əs)-ın qoşununa qoşuldu və Müaviyənin qoşununa qarşı döyüşə girdi.[2]

Əmmarın şəhadəti barəsində buyurulmuş hədisin şöhrəti nəticəsində Müaviyənin qoşununda güclü ixtilaf və qarşıdurma meydana çıxdı. Müaviyə bu səs-küyü və qarşıdurmanı aradan götürmək və qoşunun dağılmasının qarşısını almaq məqsədilə həmin hədisi gülməli şəkildə və səhv təfsir edərək belə dedi:

"Əmmarı bura gətirənlər qətlə yetiriblər."[3]

Əmirəlmöminin Əli (əs) Müaviyənin bu gülməli və mənasız açıqlamasını eşidəndə belə buyurdu:

"Bu təfsirə istinad etsək belə çıxır ki, Həmzəni Allahın Rəsulu (s) kafirlərlə müharibəyə göndərdiyi üçün öldürüb"[4]

---

[1] Siffeyn, Nəsr ibn Müzahim, səh 236

[2] Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 2, səh 274, Şəzəratüz zəhəb, cild 1, səh 45, Mustədrəküs səhiheyn, cild 4, səh 385-də Xəzimə ibn Sabiti də belə insanlardan biri kimi qeyd etmişlər, amma bu səhvdir və səhv olmasını onun barədə məəlumat verəndə diqqətinizə çatdıracağıq.

[3] Əl İmamət vəl siyasət, səh 106

[4] Şəblənci, Nurul Əbsar, səh 89

İbn İmad Hənbəli Şəzəratüz Zəhəb kitabında yazır: "Hicri-Qəməri tarixi ilə 37-ci ildə Siffeyn müharibəsi baş verdi." O, Müharibə macərasını şərh etdikdən sonra deyir: "Əhli sünnə bu döyüşdə Əmirəlmöminin Əli (əs)-ın tərəfini saxlayıblar. Bunu etmək üçün onların əlində dəlillər vardı və bu dəlillərdən ən aydını və ən möhkəmi Allahın Rəsulunun (s)-in Əmmar barədə buyurduğu hədisdir və bu hədis möhkəm hədisdir. Sonra Müaviyənin səhv təfsirini və Əmirəlmöminin Əli (əs)-ın ona verdiyi cavabı qeyd edərək yazır: "Bu cavabı olmayan lazımlıq bildirən sözdür və elə bir dəlildir ki, buna qarşı heç bir etiraz etmək mümkün deyil." Daha sonra yazir: "Bu döyüşdə Əli (əs)-ın qoşunundan qətlə yetirilmiş şəxslərdən biri də Əmmar Yasir idi ki, müharibələrdə ədalət nümunəsi kimi qəbul olunurdu. O, başdan ayağa qədər

Amma haqqı bu qədər tapdalamaqlarına və səhv açıqlamalar verməklərinə baxmayaraq sonda bu mənasız sözlər o yerə çatdı ki, özləri də öz yalnışlıqlarını qəbul etməməyə başladılar. Elə bu səbəbdən də Əmmar ibn Yasiri şəhadətə çatdırandan sonra onun kəsilmiş başını Müaviyənin yanına gətirdilər və iki nəfər ayağa qalxaraq söz davası etməyə başladılar. Onların hər birisi Əmmarı qətlə yetirdiklərini söyləyirdi. Əmr As o iki nəfərə dedi:

"Allaha and olsun ki, sizin bu davanızın mənası cəhənnəmdən başqa bir şey deyildir. Çünki Allahın Rəsulu (s) buyurmuşdur: "Həqiqətən sən cənnət əhlindənsən və səni zalım qövm qətlə yetirəcək."[1]

Amma ayrı yerdə Əmr Asdan başqa bir söz nəql edir ki, Ömər ibn Xəttabın nökəri Həni deyir: "Mən Müaviyənin qoşunu ilə birlikdə Əli ibn Əbu Talibə qarşı döyüşürdük. Müaviyənin silahdaşlarından eşidirdim ki, deyirdilər: Allaha and olsun biz heç vaxt Əmmarla döyüşməyəcəyik, çünki əgər biz onu öldürsək deyilənlər bizim başımıza gələcək!"

Həni deyir: "Əmmar ibn Yasir qətlə yetiriləndə Əmr Asın yanına getdim və o yerində oturmuşdu. Dedim ki, Ey Əbu Abdullah! Cavab verdi ki, nə deyirsən? Dedim ki, qulaq as gör nə deyirəm! Əmr As yerindən qalxıb mənim yanıma gələndən sonra ona dedim: "Əmmar barəsində nə eşitmisən?"

Əmr As cavab verərək dedi: "Allahın Rəsulu buyurub ki, səni zalım qövm qətlə yetirəcək." Mən dedim: "Allaha and olsun ki, Əmmarı indi qətlə yetirdilər."

Əmr As dedi: "Bəlkə səhv edirsən". Dedim: "Yox mən özüm gördüm ki qətlə yetirilib"

O, dedi: "Onda onu mənə göstər" Mən onu apardım və Əmmarın cənazəsini ona göstərdim." Əmr Asın gözü Əmmarın cənazəsini görən kimi rəngi qaçdı və sonra üzünü kənara çevirərək dei: "Onu buraya gətirən insan qətlə yetirib!"[2]

Bu hədisdən məlum olur ki, həmin gülməli və mənasız sözü Əmr As Müaviyəyə öyrətmişdir. Amma Heysəmi "Məcməul Zəvaid" əsərində nəql olunmuş rəvayətə istinad etsək bunun əksini görmüş olarıq[3].

Əmmarın bu dünyadan apardığı son azuqə süd şərbəti oldu

Əbu Nəim "Hilyətul Övliya" əsərində Əbu Sənan Dueliyə istinadən nəql edərək yazır: "Əmmarın içmək üçün şərbət istədiyini gördüm. Onun üçün bir qədəh süd gətirdilər və o bu süddən bir az içdi və dedi: "Allahın Rəsulu düz buyurub. Dostlar bu gün Muhəmməd (s) və onun ümmətini görəcəyəm. Allahın Rəsulu

imanla dolu idi və iman onun əti və qanı ilə qarışmışdır... (Şəzəratüz zəhəb, cild 1, səh 44-45)

[1] İbn Qətibə, Əl İmamət vəl Siyasət, səh 106, bu məzmunda Mustədrəkus Səhiheyn kitabının cild 3, səh 385-də başqa bir hədis qeyd olunmuşdur.

[2] Təbəqati İbn Səd, cild 3, 1-ci hissə, səh 181

[3] Məcməul Zəvaid, cild 9, səh 181

(s) buyurmuşdu ki, sənin bu dünyadan aparacağın ən son azuqə süd şərbəti olacaqdır.” Sonra dedi:

“Allaha and olsun ki, bunlar bizi münhəzim edəcəklər və Bəhreynin xurma bağlarına qədər aparacaqlar, amma bilirik ki, biz haqq tərəfindəyik və onlar batildirlər.”[1]

Başqa bir rəvayətə əsasən belə deyir: “Bilirik ki, bizimölülərimiz cənnətdə və onların ölüləri cəhənnəmdədirlər.”[2]

Başqa bir rəvayətə görə südü içən zaman dedi: “Cənnət nizələrin kölgəsi altındadır və bu gün öz əzizlərimi görəcəm”[3]

Nəsr ibn Müzahim də İbn Hərisə istinadən yazır:

“Əmmar ibn Yasirin Raşid adlı nökəri var idi. O Əmmarın yanına gəldi və onun üçün süd şərbəti gətirdi. Əmmar dedi: “Dostum olan Allahın Rəsulu (s) belə buyurdu ki, Sənin dünyadan köçdüyün zaman son azuqən süd şərbəti olacaqdır.”[4]

Bu hədisin ardınca Abdullah ibn Əmr ibn Asdan belə bir hədis rəvayət edir: “İki nəfər Əmmar ibn Yasiri öldürmələri, silah və zirehini götürmələri üstündə bir-biriylə mübahisə etdi və sonda Abdullah ibn Əmr ibn Asın yanına gəldilər. O, onlara dedi: “Vay olsun sizə! Mənim yanımdan uzaqlaşın, çünki Allahın Rəsulu (s) Əmmarla mübarizə aparan Qüreyşlilər barəsində belə buyurmuşdu:

“Bunların Əmmarla nə işi var? Əmmar onları cənnətə tərəf çağırır və bunlar cəhənnəmə tərəf çağırırlar. Onu qətlə yetirən, zireh və paltarını oğurlayan insanlar cəhənnəm atəşində yanacaqlar!”[5]

Əmmarın şəhid olması

Qabaqkı səhifələrdə açıqlama verərək qeyd etdiyimiz kimi Əmmar ibn Yasir Allahın Rəsulunu görmüş və O Həzrətin sözlərinə qulaq asmış insanlar üçün bir nümunə idi. Elə bu səbəbdən də Allahın Rəsulu(s)-in səhabələri və Quran qariləri Siffeyn döyüşündə Əmmarın bayrağı altında döyüşürdülər[6], onun arxasınca gedirdilər və Əmmar onlar üçün nümunəyə çevrilmişdi[7].

---

[1] Hilyətul Övliya, cild 1, səh 141

Hədis kitablarında buna bənzər müxtəlif hədislər qeyd olunmuşdur. Belə ki, Əmmarın bu sözləri məsələ çevrilmişdir və Ərəblərin ədəbiyyat kitablarında istifadə olunmuşdur. Belə ki, Əbu Əsir “Madətu Səəf” kitabında Əmmardan bu hədisi rəvayət edərək yazır: “Bəhreynin adını qeyd etməkdə məqsəd o məntəqələrin uzaqda yerləşməsi və bu yerlərdə xurma ağaclarının çox olmasına görədir”

[2] Siffeyn, Nəsr ibn Müzahim, səh 246

[3] Həmin mənbə

[4] Həmin mənbə, səh 253

[5] Nəsr İbn Müzahim, Siffeyn, səh 253

[6] İbn Əsir “Əsədül Ğabə” kitabında (cild 4, səh 46) Əbu Əbdürrəhman Səlmiyı istinadən rəvayət edərək yazır: “Biz Siffeyn döyüşündə Əmirəlmöminin Əli (əs)-la bir yerdə idik və Əmmar Yasiri gördüm ki, hara getsə də Reyğəmbər (s)-in səhabələri onun arxasınca gedirdilər. Beləliklə də Əmmar ibn Yasir onlar üçün nümunəyə və əsil şəxsiyyətə çevrilmişdi”

[7] İbnƏbul Hədidin bu barədə maraqlı sözü var və mən onu sizə deməyi özümə borc bildim. O, Allahın

Qeyd etdiyimiz kimi Əmmar ibn Yasir şəhid olduğu gün ilk öncə süd şərbəti içdi və sonra Əmr ibn Asın yanına getdi: "Ey Əmr dinini Misirə görə satdın. Məğlubiyyət sənindir olsun. Uzun müddətdir ki, sən İslam dinində olmana baxmayaraq səhv yolda addımlayırsan!"

Sonra əllərini Allah dərgahına uzadaraq dedi:

"Allahım sən həqiqətən bilirsən ki, sənin rizayətin özümü dənizə atmaqda belə olsa bunu edərəm. Allahım sən bilirsən ki, sənin rizayətin qılıncı qarnıma dayamaq, güc verərərək qarnıma sancmaq və kürəyimdən çıxartmaqda belə olsa bunu edərəm. Allahım mən sənin mənə öyrətdiklərindən anladım ki, bu gün sənin rizayətini qazanmaqdan ötrü ən vacib işin fasiqlərlə döyüşdür. Əgər sənin rizayətini qazanmaqdan ötrü bundan yaxşı əməl bilsəydim sözsüz onu edərdim"

Nəsr ibn Müzahimin Siffeyn kitabında belə rəvayət edilir ki, Əmmar həmin gün fəryad çəkərək deyir:

"Allahının rizayətini qazanmaq üçün çalışan, mal və övladına tərəf qayıtmayan kəs haradadır?"

Sonra döyüşdü və şəhədətə çatdı. Rəvayətdə belə qeyd olunur ki, Əmmar ibn Yasirin ölüm xəbəri Əmirəlmöminin Əli (əs)-a çatanda çox kəskin şəkildə təsirləndi və ərəb dilində şer oxudu ki, biz onun Azərbaycan dilindəki formasını diqqətinizə çatdırırıq:

1. Ey ölüm, məni azadlığa çıxarmayacaqsan? Məni rahatlaşdır, çünki mənim iki vəfali dostumun hər ikisini aparmısan.
2. Belə görürəm ki, sən mənim sevdiyim bütün insanları əla tanıyırsan və əlində olan dəlil-sübutlarla onlar tərəfə gedirsən.

Əmirəlmöminin Əli (əs) Nəhcül Bəlağədə Siffeyn döyüşündə şəhidlik zirvəsinə çatmış Əmmar ibn Yasir, Əbul Heysəm ibn Tihan və Xəzimə ibn Sabit barəsində belə buyurmuşdur:

Rəsulu (s)-in Əmmar barəsində buyurduğu məşhur hədisi rəvayət etdikdən və həmin hədisin şöhrəti barəsində söz açdıqdan sonra buyurdu: "Çox təəccüblüdür ki, Əmmara görə qəlblərində şübhə və tərəddüd yaranmış insanlar üçün Əmirəlmöminin Əli (əs)-ın orada olması heç bir tərəddüd yaratmadı, və necə ola bilər ki İraq qoşununda Əmmarın olmasını bu ordunun haqq tərəfdarı olması kimi qəbul edən insanlar Əmirəlmöminin Əli (əs)-ın bu qoşunla olmasına bu qədər əhəmiyyət vermirdilər?"

Necə ola bilər ki, Allahın Rəsulu(s)-in Əmmar barədə buyurduğu "Onu zalim qövm öldürəcək" hədisindən vahimə içində idilər, amma Allahın Rəsulu (s)-in Əli (əs) barəsində buyurduğu hədislərdən, o cümlədən; "Allahım onu sevənləri sev və onunla düşmənçilik edənlərlə düşmənçilik et!" və "Onu(Əli (əs)-ı) sevən ancaq mömin və ona qəzəb bəsləyən yalnız münafiq ola bilər" heç bir vahimələri yox idi və qorxmurdular?"

Bu Qureyşlilərin Əli (əs)-ın fəzilətlərini aradan götürmək, imtiyazlarını və böyüklüyünü gizlətmək üçün lap başdan tam ciddiyyətlə çalışdıqları üçün yaxşı sübutdur. Bu işlərin nəticəsində O Həzrətin fəzilətləri açıqlanmayıb və insanların olduqca az hissəsi Əmirəlmöminin Əli (əs)-ın əzəmətli şəxsiyyətini anlaya bilir. (Nəhcül Bəlağənin şərhi, cild 2, səh 271)

"Siffeydə qanları axıdılmış qardaşlarımız heç bir ziyan etməyiblər, çünki onlar indi həyatda yoxdurlar və qüssələnərək qara su içmirlər. Allaha and olsun ki, Allahın görüşünə çatıblar və Allah onların əcrini tam olaraq onlara əta edib.Onları qorxudan uzaqlaşdırıb və əmin yerdə yerləşdirib. Düz yolu tutaraq haqqa tərəf gedən qardaşlarım hardadılar?

Əmmar hardadır? (Malik) İbn Tihan hardadır? Zu şəhadəteyn hardadır? Onlar kimi ölüm əhd-peymanı bağlamış və başlarını günahkarların yanına aparmış digərləri hardadırlar?"

Bu sözləri dedi, əlini saqqalına vurdu və çoxlu ağladıqdan sonra buyurdu:

"Quranı oxuyaraq onu yaşadan, hər bir vacibat barədə düşünərək onu həyata keçirən, sünnəti (Peyğəmbər(s)-in sünnətini və adət-ənənələrini) daima diri saxlayan və bidəti aradan götürən qardaşlarım üçün heyf olsun. Cihada dəvət olundular və onlar da qəbul etdilər, rəhbərlərinə inandılar və onun davamçısı oldular."[1]

Əmmarın şəhid olunduğu vaxtda ömrünün neçənci ilində olması barədə ixtilaflar mövcuddur və ümumiyyətlə doxsan ildən çox yaşadığını qeyd edirlər. İbn Əbul Hədid "Nəhcül Bəlağənin şərhi" kitabında yazır: Əbu Əmr deyir ki, Əmmarın yaşı şəhid edildiyi günü doxsandan yuxarı idi. Nəzərlər müxtəlifdir, beləki bəzilərinin sözlərinə əsasən doxsan bir, bəzilərinin sözlərinə əsasən doxsan iki və başqa birilərinin nəzərincə doxsan üç yaşı var idi.[2]

Şəzəratuz Zəhəb (cild 1, səh 45) kitabında Əmmarın şəhid edildiyi zaman yetmiş neçə yaşı olduğu bildirilir. Müəllifin nəzərincə "Səbiin(yetmiş)" və Tisiin (doxsan) arasında səhv olub. Doğru nəzəriyyə elə birinci nəzəriyyədir.

Əmirəlmöminin Əli (əs)-ın silahdaşlarından olan digər şəhidlər

Əmirəlmöminin Əli (əs)-ın buyurduğu sözlərdə Siffeyn döyüşündə şəhid olunmuş şəxslərin adları xüsusi və digərlərinin adı ümumi şəkildə qeyd olunduğunun və O Həzrətin belə insanları itirdiyi üçün necə təəssüfləndiyinin şahidi oldunuz. İndi biz burada həmin şəxslərdən bir neçəsi barəsində sizə məlumat vermək istəyirik.

Əbul Heysəm və Malik ibn Tihan

O, Mədinə ənsarlarından və birinci, ikinci əqəbələrdə iştirak etmişdir. Bəzilərinin dediklərinə əsasən Allahın Rəsulu (s)-lə beyət edən ilk şəxs olmuşdur və eyni zamanda Bədr müharibəsi iştirakçılarındandır. Bütün başqa müharibələrin hamısında yaxından iştirak etmişdir. Bundan öncə diqqətinizə çatdırmışdıq ki, Əbu Bəkrin xilafətinin lap əvvəlində onu mühakimə edən on iki nəfərdən biri

[1] Nəhcül Bəlağə, xütbə 180

[2] Nəhcül Bəlağənin şərhi, cild 2, səh 539

olub. Düzgün və səhih məlumatlara, eyni zamanda Nəhcül Bəlağədə qeyd olunduğu kimi Siffeyndə Əmirəlmöminin Əli (əs)-la bir yerdə döyüşmüş və elə oradaca şəhid edilmişdir.[1]

Xəzimə ibn Sabit "Zuşəhadəteyn"

O da İslam dini ilk qəbul etmiş şəxslərdən və Əmirəlmöminin Əli (əs)-a dərin məhəbbəti və hörməti olan insanlardan biri olub. Əbul Heysəm kimi Əbu Bəkri mühakimə edən, onun xilafətini mühakimə edənlərdən biri olub. O, Allahın Rəsulu (s)-in rehlətindən sonra Əmirəlmöminin Əli (əs)-ın xilafəti barəsində şer yazmıışdır. Cəməl müharibəsində də Əmirəlmöminin Əli (əs)-ın ordu başçılarından təyin edilib və min döyüşçüyə başçılıq edib. Əhli sünnənin rəvayətlərində belə qeyd olunub ki, Xəzimə Siffeyn döyüşü zamanı Əmmar ibn Yasirin qətlə yetirildiyi vaxta qədər tərəddüddə olub. Bundan sonra Əmirəlmöminin Əli (əs)-ın başçılıq etdiyi qoşunun haqq tərəfində olmasına yəqinlik tapan Xəzimə ibn Sabit qılıncını çəkib Şamlıların döyüşünə gedib və şəhid olana qədər döyüşüb.

Amma onun İslamdinindəki keçmişinə və Əmirəlmöminin Əli (əs)-ın Nəhcül Bəlağədə buyurduğu sözlərə diqqət yetirdikdə bu sözlərin həqiqətlə uzlaşmamasının şahidi oluruq. Bizim nəzərimizcə qeyd olunmuş hadisə barəsində ən səhih hədis Əbu İshaqın rəvayət etdiyi hədisdir. Bu hədisdə belə qeyd olunur: "Əmmar şəhid olandan sonra Xəzimə çadırına daxil oldu, silahını götürdü və onun üzərinə su tökərək qüsl verdi, çadırından çölə çıxdı və şəhadətə çatana qədər döyüşdü. Muhəmməd ibn Əmmar ibn Xəzimədən rəvayət edirlər ki, Xəzimə ibn Sabit Cəməl və Siffeyn müharibələrində qılıncını asılı vəziyyətdə saxlayırdı, amma Əmmar ibnYasirin şəhid edilməsindən sonra qılıncını qınından çıxardı və dedi: "Allahın Rəsulu (s)-in belə bir hədis buyurduğunu eşitmişəm:

"Əmmarı zalım qövm qətlə yetirəcək."

Sonra döyüşməyə başladı və sonda şəhid edildi.

Haşim ibn Ətibə "Mirqal"

O da Əmirəlmöminin Əli (əs)-ın qoşununun qorxmaz və şücaətli döyüşçülərindən biri olub. Haşim göstərdiyi qəhrəmanlıqdan və düşmən ordusundan bir çox döyüşçünü qətlə yetirdikdən sonra şəhid oldu. Onu döyüşdəki sürətinə görə "Mirqal" adlandırırdılar. O, Qadisiyyə və Cəlula döyüşündə müsəlmanların qələbə qazanmasında əhəmiyyətli rol oynayan və rəşadətlə vuruşan qorxmaz döyüşçü idi.

[1] Daha geniş məlumat toplamaq üçün həmin kitaba müraciət edə bilərsiniz.

Haşim ibn Ətibə bir gözünü Yərmuk döyüşündə itirmişdi və elə bu səbəbdən də onu "Uur" adlandırırdılar. Siffeyn döyüşündə şəhadətə çatmamışdan öncə bir çox günlər Əmirəlmöminin Əli (əs)-ın qoşununun bayraqdarı olmuşdu və şəhid olunduğu gün O Həzrət onu yanına çağıraraq buyurdu:

"Nə vaxta qədər çörək yeyib su içəcəksən?"

Haşim cavab verdi: "Çalışacağam ki, bundan sonra diri halda sizin yanınıza qayıtmayım." Əmirəlmöminin Əli (əs) buyurdu: "Sənin müqabilində Zəlkəlla[1] və onun yanında qırmızı ölüm var!" Haşim döyüş meydanına qədəm qoydu və Zəlkəla ilə döyüşə başladı. O qədər güclü döyüş baş verdi ki, sonda hər iksi dünyasını dəyişdi.

Nəsr ibn Müzahimin Siffeyn əsərində belə qeyd olunub ki, Haşim ibn Ətibə həmin gün Əmirəlmöminin Əli (əs)-a belə deyib:

"Allaha and olsun ki, mən yer üzərindəki və səma altındakı hər şeyin mənə verilməsini və bunun müqabilində sənin düşmənlərindən birini sevməyi, yaxud dostlarından birini özümə düşmən bilməyi istəmirəm."

Əmirəlmöminin Əli (əs) bu sözləri eşidən kimi buyurdu:

"Allahım, sənin yolunda şəhid olmağı və peyğəmbərin ilə dost və qonşu olmağı ona nəsib et!"

Nəsr ibn Müzahimin Siffeyn kitabında qeyd olunub ki, Haşim ibn Ətibə fəryad çəkərək dedi:

"Agah olun və bilin! Hər kimin Allaha ehtiyacı varsa və hər kim axirət tələb edirsə addımını irəli atsın."

---

[1] Zəlkəlla Humeyra Müaviyə ordusun bayradarlarından, sərkərdələrindən və böyük qəhrəmanlarından biri idi və onun adı öncə qeyd olunmuşdur. O, Müaviyənin güclü tərəfdarlarından və Şam əhlini Müaviyənin tərəfində olmağa dəvət edənlərdən və Əmirəlmöminin Əli (əs)-la döyüşə təhrik edənlərdən biri idi. Onun Müaviyəni belə dəstəkləməsi çox təsirl idi və Siffeyn müharibəsində Haşim ibn Ətibə ilə döyüşdə qətlə yetirildi. Rəvayətlərə görə eyni zamanda çox sadə və avam insan idi və Müaviyə onun bu avamlığından yetərincə yararlanırdı. Tarix kitablarında Zəlkəllanın Əmmar ibn Yasirdən öncə qətlə yetirildiyi qeyd olunub. Əmmar qətlə yetiriləndə Əmr As Müaviyəyə dedi: "Allaha and olsun ki, ey Müaviyə, bu iki nəfərin hansının ölümünə daha çox sevinmək lazım olduğunu bilmirəm. Allaha and olsun ki, əgər Zəlkəlla Əmmarın qətlə yetirildiyi vaxt diri olsaydı, öz qəbiləsinin insanlarını Əlinin qoşunu tərəfə aparardı və bizim qoşunu darmadağın edərdi.

Çünki Əmr As bu hadisədən bir neçə gün öncə Əmr As Zəkəllaya demişdi ki, Allahın Rəsulu(s) Əmmar ibn Yasirə belə buyurmuşdu: "Səni zalım qövm qətlə yetirəcək və sənin (dünyada) içəcəyin son nemət süd şərbəti olacaqdır." Zəkəlla bu sözləri eşidən kimi dedi: "Vay olsun sənə! Bu nə sözdü danışırsan?"

Əmr As onun cavabında dedi: "Qəm yemə, çünki Əmmar tezliklə bizə qoşulacaq!" (Siffeyn, Nəsr ibn Müzahim, səh 252) Buna bənzər başqa bir rəvayəti İbn Əsir "Əsədül Ğabə" kitabının, 2-cild, 43-cü səhifəsində, Müaviyə barəsində nəql etmişdir.

Onun bu sözlərindən sonra ətrafına müxtəlif dəstələr toplaşdı və Haşim ibn Ətibə onları götürərək Şam ordusu üzərinə hücuma keçdi. O hara hücum edirdisə şam qoşunu ona müqavimət göstərirdi və o da güclü mübarizə aparırdı.

Vəziyyəti belə görən Haşim dedi: "Ey camaat, onların belə güclü müqavimət göstərmələri sizin qəlbinizdə dəhşət yaratmasın, Allaha and olsun ki, gördüyünüz bu müqavimət ərəb təəssübkeşliyindən başqa bir şey deyildir. Siz haqqsınız, onlar isə səhv və batildirlər!"

Bir maraqlı hekayə

Əbu Səlmədən belə rəvayət olunur ki, Haşim ibn Ətibə Quran qariləri ilə birlikdə Şam qoşununa qarşı döyüşəndə Şam ordusundan bir gənc irəli çıxdı, rəcəz oxudu, qılınc oynatdı, irəli sıçradı və bütün bu hərəkətlərlə eyni zamanda Əmirəlmöminin Əli (əs)-ı təhqir və məzəmmət etdi.

Vəziyyəti belə görən Haşim ona dedi: "Ey kişi, bu günün sabahı da var və bil ki, sənin yaxşıların ağası barəsində dediyin lənətlərdən sonra yerin cəhənnəm olar. Elə isə Allahdan qorx ki, öz Allahına tərəf geri dönəcəksən, bu gününə və bü gün dediyin sözlərə görə mühakimə olunacaqsan!"

Gənc oğlan dedi: "Əgər Allah mənə sual versə deyəcəm ki, mən İraqlılarla döyüşürdüm, çünki onların əmiri namaz qılmırdı və onların özləri də namaz qılmırdılar, onların əmiri bizim xəlifəni qətlə yetirmişdi və bu insanlar xəlifəni qətlə yetirməkdə ona kömək etmişlər."

Haşim dedi: "Ey övlad, sənin Osmanla nə işin var? Onu Muhəmmədin əshabı qətlə yetirib və onlar müsəlmanların işlərinə nəzarət etməkdə hamıdan daha layiqlidirlər. Bizim əmirimiz də onun qətli ilə əlaqəli deyil və bu işdən uzaqdır."

Amma dedin ki, O namaz qılmır! O, Allahın Rəsulu (s) ilə ilk namaz qılan və ona ilk iman gətirən şəxsdir!

Amma deyirsən ki, onun əshabı və silahdaşları namaz qılmırlar! Sənin onun yanında gördüyün hər bir insan Quran qarilərdirlər və onlar gecə-gündüz ibadətlə məşğuldurlar. Elə isə Allahdan qorx və günahdan uzaqlaş. Bu azğın və günahkar insanlar səni aldatmasınlar və məğrur etməsinlər!"

Gənc oğlan dedi: "Ey Allah bəndəsi həqiqətən sənin bu sözlərindən qəlbimdə qorxu yarandı və mənim zənnimcə sən saleh və düz danışan adamsan və mən xəta etmiş günahkar bəndəyəm! Görəsən tövbə edə bilərəm?"

Haşim dedi: "Bəli, öz Allahına tərəf qayıt və tövbə et, çünki o günahları bağışlayır və saleh bəndələri sevir!"

Həmin gənc ürəyi sınmış halda və peşimanlıqla öz qoşununa tərəf geri döndü. Şam əhli olan bir nəfər ona dedi: "Bu İraqlı səni aldatdı!" Gənc oğlan isə onun cavabında belə dedi: "Xeyr! O məni nəsihət etdi!"

Əmirəlmöminin Əli (əs) Haşim ibn Ətibənin cənazəsi yanında

Nəsr ibn Müzahim birbaşa olaraq Əbduxyr Həmdaniyə istinadən rəvayət edir ki, Haşim ibn Ətibə şəhadətə çatan günü öz silahdaşlarına dedi: "Ey insanlar! Mən iri cüssəli insanam və mənim yerə yıxılmağım sizi qorxuya salmasın. Çünki mənim ölümüm bir dəvəni qurban etməkdən artıq deyildir." Sonra hücum etdi, döyüşdü və sonda yerə yıxıldı. Döyüşü müşahidə edən Əmirəlmöminin Əli (əs) bayrağın irəli getməməsini gördü. O Həzrət bir nəfər göndərdi və ona Haşimin yanına getməyi və bayrağı irəli aparmağı ona tağşırmağı əmr etdi.

Çapar Haşimə çatdı və Əmirəlmöminin Əli (əs)-ın tapşırıqlarını ona çatdırdı. Haşim dedi: "Mənim qarnıma bax!" Qarnına baxanda onun parçalandığını gördü. Şəhadətə çatandan sonra Əmirəlmöminin Əli (əs) gəldi və onunla şəhadə çatmış Əsləm qəbiləsindən olan döyüşçülərin və Quran qarılərinin cənazələri yanında dayandı. Bu qəmli mənzərəni müşahidə edən Əmirəlmöminin Əli (əs) çox narahat oldu və onlar üçün mərsiyə oxudu.

Haşimin şəhid edilməsindən sonra övladı Abdullah ibn Haşim atasının ordusunun sərkərdəliyini öz üzərinə götürdü, güclü döyüş keçirdi və Şam qoşununun döyüşçülərini qanlarına qəltan etdi. Siffeyn müharibəsindən sonra Nəsr ibn Müzahim və digər tarixçilərin nəql etdiyi, onunla Müaviyə və Əmr As arasında baş vermiş hadisəni eşitmisiniz. Həmin gün də bayrağı əlinə götürdükdən sonra maraqlı xütbə söyləyir.[1]

Abdullah ibn Bədil

O, Əmirəlmöminin Əli (əs)-ın sədaqətli dostlarından və O Həzrətin qoşununun sərkərdələrindən biri idi. Abdullah ibn Bədil şəhid olanda Müaviyə, Zəlkəla, Huşəb və digər sərkərdələrinin qətlə yetirilməsindən güc və səbrlərini itirmiş qoşun əhlinə dedi: "Siz bu qədər narahat olmayın, çünki İraq ordusu itirdiyi insanlara görə sizdən daha çox narahat olmalıdırlar." Sonra sözlərini davam etdirərək dedi: "Əmmar onların ən kərimi, Haşim onların Həmzəsi və Abdullah ibn Bədil isə onlar üçün çox işlər görmüşdür. Onların hər üçü qətlə yetiriliblər və onların əvəzinə Əştər, Əşəs və Ədi ibn Hatəm qalıbdır."

Nəsr ibn Müzahim özünə istinadən belə rəvayət edir ki, Abdullah ibn Bədil zərbə aldıqdan sonra Əsvəd ibn Təhman Xəzai onun yanından keçəndə hələ bədənində son gücü qalmış Abdullaha dedi: "Allaha and olsun ki, səni ölü halda görmək mənim üçün çox ağırdır. Allaha and olsun ki, əgər səni daha öncə görsəydim müdafiə edərdim və səni bu halda torpağa uzatmış insanı qətlə yetirərdim."

[1] Siffeyn, Nəsr ibn Müzahim, səh 257-258; Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 2, səh 275-277

Sonra atından düşdü onun yanında oturdu və ona dedi: “Ey Abdullah, Allah sənə rəhmət etsin, çünki sənin ətrafında yaşayan hər bir şəxs tam təhlükəsizlikdə yaşayırdı və sən həmişə Allahı yad edən insanlardan olmusan. İndi vəsiyyətin varsa mənə de!

Abdullah ibn Bədil belə dedi: “Sənə Allah təqvasına sadiq olmağı tapşırıram. Əmirəlmöminin Əli (əs)-a qarşı həmişə xeyirxahlıq et və haqq qələbə çalana, yaxud Allaha qovuşana qədər onunla birlikdə döyüş!

Mənim salamımı Əmirəlmöminin Əli (əs)-a çatdır və de ki, döyüşərək meydana tərəf gəl və döyüş meydanını arxada qoy. Çünki, döyüş meydanını arxada qoyaraq bura qədər gəlib çata bilən şəxs qalibdir.”

Abdullah ibn Bədil bu sözləri dedi və dünyadan köçdü.

Əsvəd bu sözləri Əmirəlmöminin Əli (əs)-a çatdıranda O Həzrət belə buyurdu: “Allah ona rəhmət etsin ki, həyatda olanda bizimlə bir yerdə düşmənlərlə döyüşdü və dünyadan köçəndə də bizi nəsihət etdi.”

Nəsr ibn Müzahim bu rəvayəti qeyd edəndən sonra buna bənzər başqa bir rəvayəti Əmirəlmöminin Əli (əs)-ın silahdaşlarından olan Əbdürrəhman ibn Kəldəyə istinadən nəql edir. Əbdürrəhman ibn Hatib deyir: “Mən ölənlərin arasında qardaşım Süveydi axtarırdım və birdən ölülərin arasından kiminsə mənim paltarımdan tutmasını hiss etdim. Diqqətlə baxanda bunu Əbdürrəhman ibn Kəldə olduğunu gördüm. Dedim: “Hamımız Allahdanıq və hamımız ona qayıdırıq!” su istəyirsən?” Dedi: “Yox, Silahlar mənim bədənimi parçalıyıb və heç nə içməyə gücüm yoxdur. Sən Əmirəlmöminin Əli (əs)-a bir söz çatdıra bilərsənmi?” Dedim ki, bəli!

Əbdürrəhman dedi: “Mənim salamımı O Həzrətə çatdır və de ki, Ey Möminlərin Əmiri yaralıları öz qərargahının arxasına aparın və hamını arxanızda saxlayın. Qələbə belə iş etmiş insana məxsusdur!”

Bu sözləri Əmirəlmöminin Əli (əs)-a çatdırdıqda O Həzrət Əbdürrəhmanın sözlərini təsdiqləyərək buyurdu: “Düz deyib!” Sonra bu işin həyata keçirilməsini əmr etdi.

Abdullah ibn Bədilin şəhadətə çatması barədə belə yazırlar ki, O döyüşə girəndə iki zireh geyinmişdi və iki qılınc asmışdı. Qılınc vura-vura irəli getdi və özünü Müaviyəyə çatdırdı, onu və ətrafındakıları yerlərindən durmağa məcbur etdi. İşi belə görəndə onlar Abdullahı daşlamağa başladılar və onu atdan yerə salaraq şəhid etdilər. Ədi ibn Hatəm Abdullah ibn Bədil, Əmmar ibn Yasir, Haşim Mirqalın şəhadətə çatmasından sonra bir neçə beytlik şeir dedi və biz həmin şerin tərcüməsini sizlər üçün qeyd edirik:

“Görəsən döyüş meydanlarında meydan sulayan Əmmar, Haşim və Abdullah ibn Bədildən sonra bizim yaşamağa ümidimiz var? Yox bu səhv və düzgün

olmayan fikirdir! Həqiqətən biz ötən gün qorxmaz və qəhrəman kişiləri itirmək müsibətinə düçar olduq.”

Üveys Qərəni

Üveys Qərəni Tabeinlərin ən tanınmışlarından və zahidlərindən biri hesab edilir və o da Siffeyn döyüşündə Əmirəlmöminin Əli (əs)-ın yanında döyüşərək şəhid edilir. Əbdürrəhmanın qeyd etdiyi rəvayətə görə Siffeyn döyüşü zamanı Şam qoşunundan bir nəfər irəli çıxdı və üzünü İraq qoşununa tərəf tutaraq dedi: “Üveys Qərəni sizinlədir?” Cavab verdik ki, bəli.

Şamlı kişi dedi: “Allahın Rəsulu (s)-dən eşitmişəm ki, buyurmuşdu: “Tabeinlərin ən yaxşısı Üveys Qərənidir!” Bu sözləri dedi və Şam qoşunundan ayrılaraq bizim yanımıza gəldi və bizə qoşuldu.

Əsbəğ ibn Nəbatədən belə rəvayət edilir ki, biz Əmirəlmöminin Əli (əs)-la bir yerdə Siffeyndə idik və doxsan doqquz nəfər orada Həzrətlə beyət etdi. Əmirəlmöminin Əli (əs) buyurdu: “Yüzüncü adam haradadır? Allahın Rəsulu (s) mənə buyurmuşdu ki, bu gün mənimlə yüz kişi beyət edəcək.”

Əsbəğ deyir: “Bu zaman iki yun libas geymiş və iki qılınc asmış bir kişi irəli şıxdı və dedi: “Əlini aç ki mən sənlə beyət etmək istəyirəm!” Əmirəlmöminin Əli (əs) buyurdu: “nəyə görə mənimlə beyət edirsən?” Üveys dedi: “Canımı sənin yolunda fəda etmək istəyirəm.” O Həzrət buyurdu: “Sən kimsən?” O, cavab verdi: “Mən Üveys Qərəniyəm!”

Bunun ardınca Əmirəlmöminin Əli (əs)-la beyət etdi və onun gözləri qabağında döyüşərək şəhid oldu. Onun cənazəsini piyadaların yanında tapdılar. İbn Şəhraşubun Mənaqib kitabında qeyd olunub ki, Üveys Qərəni iki qılınc asmışdı və düşməni daşla vurmaq üçün özü ilə sapand da gətirmişdi.

Hilyətül Övliya kitabında da Əsbəğə istinadən rəvayət olunur ki, Üveysin Allahın Rəsulu (s)-in yanına getməməsinin səbəbi onun anasına etdiyi yaxşılıqlar olmuşdur. Üveysin adəti belə idi ki, axşam olanda deyərdi: “Bu axşam ruku axşamıdır” və səhərə qədər ruku edərdi. Axşam olanda ehtiyacından artıq olan yemək və geyimi sədəqə verərdi və deyərdi: “Allahım acından kimsə ölərsə ona görə məni cəzalandırma, hər kəs paltarsız ölərsə ona görə məni cəzalandırma.”

Başqa bir rəvayətə görə Allahın Rəsulu (s) bir gün öz əshabına buyurdu: “Mənim ümmətimdən olan Üveys Qərəni adlı şəxsə müjdə verin ki, O, (qiyamət günü sayları) Rəbiə və Məzər qəbilələrinin sayı qədər çox olan insanlara şəfaət edəcəkdir!”

Sonra Ömərə buyurdu: “Əgər onu görsən mənim salamımı ona çatdır”

Yazırlar ki, bu hadisədən sonra Ömər ibn Xəttab onun axtarışına başladı. Ömərə çatdırdılar ki, o Kufədə yaşayır. Həcc zamanı çatanda Ömər Kufədən gələn karvanlardan onun sorağını aldı və karvan əhli təəccüblənərək dedilər: “O bizimlədir,

amma elə də böyük şəxsiyyət deyil ki, sən onu sorağlaşıb axtarasan. Çünki o yüngül beyinli insandır və uşaqların əyləndiyi bir şəxsdir.'' Ömər bu sözləri eşidəndən sonra onu görməyə dana çox can atmağa başladı və onu gördü. Ömər ibn Xəttab Allahın Rəsulu (s)-in salamını ona çatdırdı və O Həzrətin onun məqamı, qiyamət günü şəfaətci olacağını bildirdi. Üveys Qərəni bu sözləri eşidən kimi səcdəyə getdi və şükr etməyə başladı.

Müharibənin son günləri, "Leylətul hərir" və Siffeyn müharəbəsinin icmalı

Siffeyn müharibəsinin neçə müddət davam etməsi barəsində ixtilaf mövcuddur və İnşaallah gələcəkdə bu məsələ barəsində daha ətraflı araşdırma aparmaq üçün çalışacağam. Amma heç bir şübhə yoxdur ki, bu dağıdıcı müharibə Müaviyənin hədsiz-hüdudsuz səyləri, geniş təbliğatları və misli bərabəri olmayan hiyləgərlikləri nəticəsində yaranmış və məqsəd İslam dinini inkişaf yolundan saxlamaq və milliyətçilik, ərəbpərəstlik hisslərini gücləndirməkdən ibarət idi. Bundan da başlıca məqsəd isə həmin milliyətçi hökumətin başında xəbis Bəni Üməyyə sülaləsinin dayanması və bu sülalədən olan dırnaqarası hakimlərin müsəlmanlar üzərində hökumət etməsindən ibarət idi. Bir neçə ay davam edən bu müharibədə böyük insan qüvvəsi, əzəmətli insanlar, Allahın Rəsulu (s)-in vəfalı və imanlı silahdaşları şəhidlik zirvəsinə çataraq dünyalarını dəyişdilər. Sonda bu küfr və nifaqın kökünün kəsilməsinə, müsəlmanlar arasındakı bu pis qüvvənin məhv edilməsinə son saatlar qalmış tarixin ən böyük hiyləgərliklərindən və qabaqcadan hazırlanmış rəzillik baş verdi və Müaviyənin əmri ilə nizələrin uclarına Quranlar sancıldı. Müaviyə bu hərəkətilə İslam tarixində ən böyük facilərdən birini yaratdı və rəhbərlərin rəhbəri Əmirəlmöminin Əli (əs)-ın hakimiyyəti altında hərəkətə başlayan İslamın öz əsas yolunu tapması və dünyanı bu cəhalət, fəsad, pozğunluq, istismar və digər bədbəxtliklərdən qurtarması yolunda irəliləməkdən saxladı. Müaviyə və onun silahdaşları İslamı yenidən inhirafa tərəf sürükləməyə başladı və İslam dininə elə od vurdu ki, hələ həmin odun tüstüsü müsəlmanların gözlərini kor etməkdədir. İslam dininin bədənində alovlanan bu tüstünü hələ neçə əsrlər müsəlmanların gözlərini kor edəcəyi və dünya müsəlmanları üçün nə qədər zəiflik, rüsvayçılıq, bədbəxtlik yaradacağı məlum deyil.

Bəni-Üməyyə sülaləsinin tayı-bərabəri olmayan rəzil əməlləri əsrlər boyu dünya ictimaiyyətində İslam dininə qarşı nifrət yaratdı və İslam düşmənlərini ən kəsici silahlarla silahlandırdı.

Belə ki, İslam dini düşmənlərindən biri belə demişdi: "Biz Müaviyənin heykəlini ən yaxşı metallardan və ən gözəl şəkildə yaratmalıyıq, bütün şəhərlərimizdə yerləşdirməliyik, onun üçün ən böyük orden və medallarımızı nəzərdə saxlamalıyıq. Çünki, o öz əməlləri və xilafəti peyğəmbər ailəsinin əlindən almaqla İslamın

sürətli inkişafının qarşısını aldı və dayandırdı. Əgər belə olmasaydı indi biz hamımız istər-istəməz İslam dininə və Quran qanunlarına tabe olmalıydıq...!"

Ən yaxşısı budur ki, bu qəmli macəranı burada dayandıraq və öz tarixi bəhsimizi davam etdirək, çünki bu hadisələr barədə bəhs etmək insanın dilini, canını, beynini və sümüyünü yandırır.

Bir neçə ay davam edən müharibənin son günlərinə yaxınlaşdıqca hər iki tərəfin həyata keçirdiyi hücumlar daha güclü və tələfat günü-gündən daha çoxalırdı. Xüsusən Əmmar Yasir. Xəzimə, Haşim ibn Ətibə, Üveys Qərəni və bütün müsəlmanlar üçün çox sevimli, möhtərəm olan, Əmirəlmöminin Əli (əs)-ın qoşununun haqq tərəfdarı olmasını sübut edən, eyni zamanda O Həzrətin qoşununun düşmənlərlə döyüşməkdə şövqünü artıran, düşmənlərin, Yəni Müaviyə və silahdaşlarının zəifləməsinə kömək edən məşhur qəhrəmanların şəhadətə çatması ilə tələfat daha da çoxaldı.

Mərhum Şəhraşub Siffeyn döyüşünu rəvayət edəndə giriş hissəsini qeyd edəndən sonra belə yazır: "Əmirəlmöminin Əli (əs) doxsan min döyüşçü ilə Müaviyəyə qarşı döyüşməyə gəldi və Səəd ibn Cübeyrin dediklərinə əsasən O Həzrətin qoşununda doqquz yüz ənsar, səkkiz yüz mühacir olub. Əbdürrəhman bin Əbu Leylanın sözlərinə əsasən yetmiş və başqalarının rəvayətlərinə əsasən otuz nəfər Bədr müharibəsi döyüşçülərindən də bu qoşunda mövcud olub. Müaviyə isə Siffeyn müharibəsinə yüz iyirmi min döyüşçü ilə daxil olmuşdur."

Sonra nəql edərək yazır ki, Əmirəlmöminin Əli (əs) Zil-hiccə ayının sonuna bir neçə gün qalmış Siffeynə daxil oldu və o bir neçə günü də düşmənlə döyüşdü. Məhərrəm ayı çatanda hər iki qoşun döyüşü dayandıdı və Hicri-Qəməri tarixi ilə 37-ci ilin Səfər ayı başlayan kimi müharibəyə yenidən başladı. Əmirəlmöminin Əli (əs)-ın qoşunu belə tənzim olunmuşdu: qoşunun sağ tərəfini Həsən, Hüseyn (əs)-lara, Əbdullah ibn Cəfər, Müslim ibn Əqilə, sol tərəfini Muhəmməd ibn Hənifəyə, Muhəmməd ibn Əbu Bəkrə və Haşim ibn Ətibəyə, qoşunun qəlb hissəsini Əbdullah ibn Əbbas, Abbas ibn Rəbiiə, Malik Əştərə və Əşəs ibn Qeysə, qoşunun qanadını isə Səəd ibn Qeys Həmdani, Abdullah ibn Bədil, Rəfaə ibn Şəddad və Ədi ibn Hatəmə tapşırmışdı. Əmmar ibn Yasir, Əmr ibn Həməq, Amir ibn Vasilə və Qəbisə ibn Cabir Əsədini isə pusquda saxlamışdı.

Sonra Müaviyənin qoşununun necə tənzim edilməsini qeyd edir.

İki qoşun arasında qırx dəfə ağır döyüş baş verdi və bu döyüşlərin əksəriyyəti Əmirəlmöminin Əli (əs)-ın qoşununun qələbəsilə tamamlandı. Bu döyüşlərin birincisi çərşənbə günü İraq qoşunundan olan Malik Əştərlə Şam qoşunundan olan Həbib ibn Müslim arasında baş verdi. İkincisi Haşim ibn Mirqalla Əbul Uur Səlmi, üçüncüsü Əmmar ibn Yasirlə Əmr As, dördüncüsü Muhəmməd ibn Hənifə ilə Abdullah ibn Ömər, beşinci Abdullah ibn Abbasla Vəlid ibn Əqəbə, altıncısı Səəd

ibn Qeyslə Zəlkəla Humeyra arasında baş verdi və sonuncu, qırxıncı döyüş olan "Leylətul Hərir" döyüşünə qədər davam etdi.

Müəllif yazır: "Sonuncu "Leylətul Hərir" döyüşü bir çox tarixçilərin rəvayətlərinə əsasən Rəbiul-Əvvəl ayının onuncu gününə təsadüf etdi."

İbn Əbul Hədid Nəhcül Bəlağənin şərhi kitabında (35-ci xütbəni şərh edərkən) belə qeyd edir:

"Şam qoşununu "Həkəmiyyətə" razı edən onların İraq qoşununun qılınclarından olan qorxusu oldu. Belə ki, İraq qoşununun qələbəsi nişanələri görünməyə və onların qələbəsi aydın şəkildə gözə çarpmağa başlayanda Şam qoşunu şərəfli döyüşdən üz döndərərək hiyləgərliyə əl atmağa başladılar və bu işlərin hamısı Əmr ibn Asın təklifləri ilə həyata keçirilirdi. Bu hadisələr "Leylətul Hərirdən" sonra meydana çıxdı və həmin gecə böyük əhəmiyyət kəsb etdiyinə görə məsələyə çevrildi." Sonra Nəsr ibn Müzahimin Siffeyn kitabından Malik Əştərin xütbə deməsi və onun hücuma keçməsi məsələsini rəvayət edir. Bu hadisələr Rəbiul-Əvvəl ayının 10-da başladı. Sübh namazından gecə yarısına qədər davam etdi. Namazlarını da işarələrlə qıldılar. Səhər olanda Malik Əştər döyüş meydanını yetmiş min ölü ilə tərk etmişdi və o gecəni "Leylətul Hərir" adlandırdılar."

Bunun ardınca qeyd edir: "Malik Əştər qoşunun sağ cinahında, İbn Abbas sol cinahında və Əmirəlmöminin Əli (əs) qoşunun mərkəzində idi. İnsanlar dayanmadan döyüşürdülər və sonra bu döyüş gecə yarısından səhəri günün günorta namazına qədər davam etdi.

İbn Şəhraşub belə rəvayət edir ki, Əmirəlmöminin Əli (əs) həmin gecə xütbə oxudu və xütbədə buyurdu:

"Bilin və agah olun ki, qadınların xizabı (saçlarını rəngləmək üçün istifadə etdiyi maddə) xınadır, amma kişilərin qan! Hər bir işin sonluğu üçün səbr daha yaxşıdır. Agah olun ki, bunlar Bədr və Ühüd döyüşlərinin, cahiliyyət dövrünün kinidir." Sonra bu ayəni tilavət etdi:

"Əgər əhd bağladıqdan sonra andlarını pozsalar və dininizi yamanlayıb təhqir etsələr, (sözlərinin üstündə durmayan) küfr başçıları ilə vuruşun. Onların həqiqətdə andları (əhdləri) yoxdur (onlar üçün heç bir andın, əhdin əhəmiyyəti yoxdur). Bəlkə, (bu yaramaz işlərdən) əl çəkələr! (Tövbə surəsi, ayə 12)

Bundan sonra döyüş meydanına daxil oldu, rəcəz oxudu, on iki minlik qoşunu ilə düşmənin səfinə hücum etdi, düşmən səfini qırdı və düşmən qoşununu darmadağın etdi. Vəziyyəti belə görən Müaviyə Əmr Asa dedi:

"Bu gün müqavimət və sabah iftixar günüdür"

Əmr As cavab verdi: "Ey Müaviyə düz deyirsən, amma ölüm haqdır və həyat batildir. Əgər Əli silahdaşları ilə bir də hücum etsə məhvimiz qaçılmazdır."

Əmirəlmöminin Əli (əs) öz silahdaşlarına buyurdu: "Əgər cənnət istəyirsinizsə nəyin intizarındasınız?" Bu zaman Əbul Heysəm ibn Tihan rəcəz oxudu, hücum

etdi və şəhid oldu. Sonra Xəzimə ibn Sabit rəcəz oxuyaraq hücuma keçdi və döyüşərək şəhadətə çatdı.

Onlardan sonra Ədi ibnHatəm rəcəz oxudu, hücum etdi, güclü döyüş keçirdi və onun bir gözü çıxdı. Ondan sonra Malik Əştər rəcəz oxuyub döyüş meydanına daxil oldu və bu savaş zamanı Cəndəb ibn Züheyr şəhid oldu. Əmirəlmöminin Əli (əs)-ın əshabı və silahdaşları dayanmadan döyüşdülər. Sonda "Leylətul Hərir" kimi tanıdığımız cümə axşamı gününün axşamı başladı və həmin axşam Əmirəlmöminin Əli (əs)-ın qoşunu Müaviyənin qoşununun dörd tərəfində təbil çalırdılar və şüar söyləyidilər: "Əli qalibdir!"

Əmirəlmöminin Əli (əs) dayanmadan başını səmaya tərəf qaldırırdı və deyirdi: "Allahım qədəmlər sənə doğru gəlib, ürəklər diqqətini sənə yönəldib, əllər sənin dərgahına və boyunlar sənin tərəfə uzanıbdır. Hacətlər səndən istənilir və gözlər sənin tərəfə baxır. Allahım bizimlə qövmümüzü haqqa tapındır. Sən fatehlərin ən yaxşısısan!"

Əmirəlmöminin Əli (əs) rəcəz oxuyurdu, dayanmadan hücumlar edirdi və düşmən qoşununun mərkəzinə daxil olurdu. Səhər açılanda O Həzrətin qoşunundan ölənlərin sayı dörd minə çatmışdı, amma Müaviyənin qoşunundan otuz iki min adam qətlə yetirilmişdi. Vəziyyəti belə görən camaat fəryad çəkərək dedilər: "Ey Müaviyə Ərəbi məhv etdin!" Müaviyə Əmr Asdan kömək istədi və o da Quranları nizələrə taxmağı əmr etdi.

"Şəzəratuz Zəhəb" kitabında iki qoşunun yeddi ay Siffeyndə qalması qeyd olunmuşdur və digər rəvayətlərə əsasən doqquz və üç ay orada qalmışlar. Onların arasında təxminən yetmiş döyüş baş vermişdir və ən son döyüş "Leylətul Hərir" olmuşdur.

"Hərir" növhə və hüzn səsinə verilən addır[1]. Həmin gecədə oxlar qurtardı, nizələr sındı, qılınclar iki yerə qırıldı. Sınıb qısalmış nizələrlə döyüş davam etsə də tezliklə həmin nizələr də tam qırılaraq sıradan çıxdı. Müharibə daşlarla davam etdirildi və sonda daşlar da qurtardı. Daşlarında qurtardığını görən döyüşçülər dizlərinin üzərində oturaraq bir-birilərinin üzlərinə qum atmağa, onların görmələrini məhdudlaşdırmağa, bu yolla onlara yaxınlaşmağa əlbəyaxa döyüşməyə başladılar. Toz-torpaq əlindən ətraf görünmürdü və bütün bayraqlar yerə atılmışdı.

[1] "Əmid" izahlı lüğətində "Hərir" sözünün açıqlamasında itin ulaması, soyuqdan titrəyən itin ulaması kimi məna verilib. "Leylətul Hərir" Əmirəlmöminin Əli (əs)-ın qoşunu ilə Müaviyənin qoşunu arasında olmuş döyüşün baş verdiyi gecənin adıdır. Bəzi insanları döyüşün baş verdiyi bu gecənin belə adlandırılması barədə belə deyiblər: "Bu gecədə yaralıların ah,nalə ağlamaq, fəğan, inilti səsləri eşidildiyi üçün belə adlandırılmışdır." Həm Əhli-sünnə, həm də şiyə mənbələrində həmin gecə və səhərisi gün Əmirəlmöminin Əli (əs)-ın qoşunu dayanmadan döyüşdü və döyüş o qədər şiddətli keçirdi ki, namazlarını belə döyüşü dayandırmadan işarələrlə yeinə yetirdilər. Onlar namazın yerinə "Sübhanallahi vəlhəmdulillahi və la ilahə illəllahu vallahu əkbər" deyirdilər. (Biharul Ənvar, cild 8, səh 518) Şeyxin "Əmali" kitabında hər namazın əvəzinə bir dəfə təkbir dedikləri qeyd olunmuşdur.

Nəsr ibn Müzahimin Siffeyn adlı kitabında Cabir ibn Nəmir Ənsariyə istinadən belə rəvayət edir: "Muhəmməd(s)-i haqqa yönəldən Allaha and olsun ki, Allahu-Təala yeri və göyləri yaratdığı gündən indiyidək heç bir sərkərdənin Əmirəlmöminin Əli (əs)-ın həmin gecədə etdiyini etmiş olması eşidilməyib. Çünki, hesablamalara görə Əmirəlmöminin Əli (əs) "Leylətul Hərir" gecəsində tək başına düşmənin beş yüzdən artıq tanınmış sərkərdəsini və döyüşçüsünü qətlə yetirdi. Şeyxin "Əmali" adlı kitabında isə beş yüz altı nəfəri qətlə yetirməsi qeyd olunmuşdur[1].

Dəhşətli faciə yaradan hiylə tarixin gedişatını dəyişdi

Şam qoşununun məğlubiyyətə uğraması məsələsi artıq hamı üçün aydın idi. Qələbənin sonuna isə təxminən bir neçə saat, yada bir saatdan az vaxt qalmışdı. Əmirəlmöminin Əli (əs) öz döyüşçülərinə belə buyurdu:

"Ey camaat sizin işlərinin düşməni gördüyünüz vəziyyətə salmışdır və onların son nəfəslərindən savayı heç nəyləri qalmamışdır!"

Müaviyə qarşı tərəfdən Əmirəlmöminin Əli (əs)-ın bu sözlərini eşidən kimi Əmr Asın yanına çağıraraq dedi: "Ey Əmr bu gecə sona çatana qədər Əli bizim işimizi bitirəcək! Sən bu barədə nə düşünürsən?"

Əmr As dedi: "Sənin döyüşçülərin onun şücaətli döyüşçüləri qarşısında müqavimət göstərə bilmirlər və sən özün də onun kimi deyilsən. O, sənin lə başqa bir şey uğrunda döyüşür və sən də tamam ayrı bir şey uğrunda. Sən yaşamağın tərəfdarısan, o isə fənanın! İraqlılar sənin onlar üzərində qələbə çalmasından qorxurlar, amma Şamlılar Əlinin qələbə çalmasından heç bir qorxuları yoxdur!"

Əmr As sözlərini davam etdirərək dedi: "Amma onlara elə bir şey təklif et ki, qəbul etdikdə aralarında ixtilaf yaranmış olsun. Əgər qəbul etməsələr də yenə də ixtilafla üzləşəcəklər. Onları Allahın kitabına və Quranın hakimliyinə dəvət et. Belə etsən öz istəyinə çatarsan. Mən bunu lap qabaqcadan düşünmüşdüm, amma onu belə bir gün üçün, yəni sənin ehtiyacın olacağın gün üçün saxlamışdım."

Müaviyə diqqətlə onun sözlərinə qulaq asırdı və bu təklifi eşidəndə sevinclə dedi: "Düz deyirsən və bu işi görəcəyik!"

Quranlar nizə başına taxılır

Nəsr ibn Müzahim Təmim ibn Həzimə istinadə rəvayət edərək yazır: "Leylətul Hərir" gecəsi başa çatdı və hava işıqlaşmağa başladı. Şam qoşunun qaşısında və Əmirəlmöminin Əli (əs)-ın yerləşdiyi məkanın müqabilində bayraqlara bənzər bir şeylər gözümüzə çarpmağa başladı. Diqqətlə nəzər yetirdikdə bunun nizələrə bağlanılmış Quran kitabları olması müəyyən oldu. Şam qoşununda olan bütün Quran-

[1] Həmin mənbə

ları nizələrin başlarına sancmışdılar və Şamın ən böyük məscidində olan "Böyük Quranı" üç nizənin ucuna bağlayaraq on nəfər əlində saxlamışdı..."

Ümumilikdə nizələrin uclarında beş yüz Quran var idi və onun yüz ədədi Əmirəlmöminin Əli (əs)-ın qarşısına gətirilmişdi və digər tərəflərdə də iki yüz Quran yerləşdirilmlşdi.

Bunun ardınca Tufeyl ibn Ədhəm Əmirəlmöminin Əli (əs)-ın qarşısında, Əbu Suteyh Cəzami İraq qoşununun sağ cinahının qarşısında və vərqa ibn Məmur İraq qoşunun sol cihanının müqabilində dayandı. Onlar yüksək səslə belə dedilər: "Ey Ərəblər sizi and veririk Allaha qadınlarınızı, qızlarınızı və övladlarınızı düşünün! Əgər hamınız məhv olsanız onları Rumluların, Türklərin və Farsların qarşısında kim qoruyacaq? Sizi and verirəm Allaha öz dininizi də düşünün! Bizim və sizin aranızda hakim Allahın kitabıdır!"

Əmirəlmöminin Əli (əs) bu sözləri eşidəndən sonra dedi:

"Allahım sən özün bilirsən ki, bunlar Quranı istəmirlər. Sən özün bizimlə onlar arasında hökm et ki, sən açıq-aydın Haqqın hakimisən!"

Bu zamandan sonra Əmirəlmöminin Əli (əs)-ın dostları və silahdaşları arasında ixtilaf yarandı. Bir dəstə deyirdi: "Müharibə edək!" Başqa bir dəstə isə belə deiyrdi: "Hakimiyyət Quranındır! Belə bir halda döyüş bizim üçün vacib deyil!"

Əşəs ibn Qeysin xəyanəti

Bundan öncə Əşəs ibn Qeys adı Kəndə olan qəbiləsinin başçısı idi və öz qəbiləsilə birlikdə Əmirəlmöminin Əli (əs)-ın qoşununda döyüşürdü. Fərat çayının sahilinin şam qoşunundan geri alınmasında və yenidən ələ keçirilməsində mühüm rol oynamışdı, amma ondan sonra onun adı heç yerdə qeyd olunmur. Onun sonrakı davranışları da müharibədə iştirak etməsinin Əmirəlmöminin Əli (əs)-a olan imanı və O Həzrətin böyük amallarını həyata keçirmək uğrunda yox, Ərəb mentaliteti sahəsində olan təəssübkeşliyinə görə olması müəyyənləşdirdi. Belə ki, Əmirəlmöminin Əli (əs)-dan onun həmin gün apardığı döyüşdə belə bu sözləri deməsi rəvayət olunur: "Bu gün bizim hürriyyətimizin qələbə günüdür!"[1] O, münafiq və imansız insan idi və sonda Nəhcül Bəlağədə[2] qeyd olunduğu kimi Əmirəlmöminin Əli (əs)-ın lənətini qazandı. Bir çox rəvayətlərə görə Əşəsin Əmirəlmöminin Əli (əs)-ın şəhadətə çatdılrılmasında və O Həzrətin qətli üçün lazımı işlər görməsində yaxında köməyi olub.

O, Allahın Rəsulu (s)-in rehlətindən sonra İslam dinindən çıxan insanlardan biri oldu və müsəlmanlara qarşı döyüşə gəldi. Əşəs bu döyüşdə məğlub olaraq əsir düşdü və onu Əbu Bəkrin yanına gətirdilər. Amma Əbu Bəkr onun günahını bağış-

[1] Qamus ər-Rical, cild 2, səh 99

[2] Nəhcül Bəlağə, xütbə 19

ladı.İbn Əbul Hədid yazır: Əşəs ibn Qeys Əmirəlmöminin Əli (əs)-ın zamanında yaşayan münafiqlərdən biri idi. Onun Əmirəlmöminin Əli (əs)-ın əshabı arasında olması Abdullah ibn Əbiy ibn Əbu Səlulun Allahın Rəsulu (s)-in əshabı arasında olmasına bənzəyirdi, çünki onların hər birisi öz dövürlərinin bütün münafiqlərinin başçıları olublar.

Bu məsələni, yəni onun İslam dininə və Əmirəlmöminin Əli (əs)-a imanı olmamasını düşmənlər də bilirdilər. Müaviyə Siffeyn döyüşü əsnasında bir neçə dəfə bu sözləri təkrarlayaraq demişdi ki, onun döyüşü İslam dininə görə yox, ərəb hürriyyəti və mentaliteti üçündür[1].

Rəvayətə əsasən "Leylətul Hərir"-də Əşəs çıxış edərək insanları Müaviyə ilə saziş bağlamağa dəvət edirdi və deyirdi: "Ey camaat Ərəb xalqını, qadınlarınızı, uşaqlarınızı da fikirləşin və bilin ki əgər sabah biz döyüşməkdən üz döndərsək döyüşdən və ölümdən olan qorxumuza görə yox Ərəblərin məhvinin və hərəmlərimizin aradan getməsinin qarşısını almaqdan ötrüdür.[2]

Müaviyənin casusları bunu ona çatdırdılar və o bu sözləri eşitdikdən sonra Quranların nizələrin uclarına sancılması, bu hiyləni və dəhşətli faciəni həyata keçirməkdə daha da ürəkləndi.

Bəzi yazıçıların nəzərincə böyük ehtimala görə Əşəs ibn Qeys əvvəlcədən də Əmr Asla əlaqə qurub, onunla məşvərət edib və Quranların nizələrin uclarına sancılması hiyləsi də bu iki nəfərin birgə hiyləsi olub. Bu təsadüfi bir hadisə və Əmr Asın tək başına hazırladığı hiylə olmayıb. Doktor Taha Hüseyn "Əl Fitnətul Kubra" adlı kitabında yazır:

"İraqlı hiyləgər olan Əşəs ibn Qeys, Şamlı hiyləgər Əmr Asın bu planı birlikdə hazırlaması təəccüblü hal deyildir. Onlar gizli şəkildə qərara gəliblər ki iki qoşun döyüşə başlasın. Şamlıların qələbə qazanacağı təqdirdə məqsəd əldə olacaqdı, amma Şam ordusunun məğlubiyyətə uğrayaraq döyüş meydanından qaçacağı təqdirdə Quranların nizə uclarına sancılması həyata keçiriləcək və bununla da İraq ordusu arasında çaxnaşma və qarşıdurma yaratmaqla onlar bir-birilərini qıracaqdır[3].

Beləliklə bu məkirli siyasətdən sonra Əşəs ibn Qeys Şam ordusu ilə sülh və sazış bağlamağı, Quran hakimiyyəti şüarını rəhbər etdikcə onun ardınca qaçan, zəif əqidəli, döyüşdən yorulmuş insanlar da bu hiyləilə razılaşırdılar. Sonda İraq ordusunda olan zəif əqidəli insanlar Əmirəlmöminin Əli (əs)-a sülh bağlamaq təklifini irəli sürdülər.

[1] Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 2, səh 299
[2] Siffeyn, Nəsr ibn Müzahim, səh 352
[3] Əl Fitnətul Kubra, cild 2, səh 89

İraq qoşununda ixtilaf və...

Qeyd etdiyimiz kimi Əşəs ibnQeys öncədən hazırlanmış məkirli siyasətə uyğun olaraq Quranların nizələrin uclarına sancılmasından sonra Əmirəlmöminin Əli (əs)-ın yanına gəldi və əsəbi halda dedi:

"Bunlara müsbət cavab ver ki, sən onlardana dah çox Qurana layiqsən və insanlar da döyüşü bundan artıq davam etdirə bilmirlər."

Onun əksinə olaraq Malik Əştər müharibənin davam etməsini istəyirdi və Nəsr ibn Müzahimin qeyd etdiyi kimi digərləri də iki dəstəyə bölünürdülər. Səid ibn Qeys gah Malik Əştərin nəzərini dəstəkləyərək müharibənin davam etməsini bildirirdi, gah da Əşəs ibn Qeysin nəzərinə əsaslanaraq sülhün bağlanmasını istəyirdi. Kərdus ibn Hani (sərkərdələrdən biri) Malik Əştərin tərəfdarı idi, Şəqiq ibn sur Bəkri (başqa bir sərkərdə) sülhün tərəfdarı idi və deyir: "Biz başlanğıcda Allahın kitabını onlara qəbul etdirmək istədik və onlar qəbul etmədilər, əgər indi onlar bizi Allahın kitabına dəvət edirlərsə və biz onları rədd ediriksə onlar kimi olacağıq." Başqa sərkərdələr də iki dəstəyə bölündülər, bir hissəsi sülh və saziş bağlanılmasının və digər hissəsi müharibənin davam etdirilməsinin tərəfdarı idilər. Elə bu səbəbdən də camaat da iki dəstəyə bölündü və tədricən Müaviyənin məkirli siyasətinin və hiyləsinin qurbanına çevrildilər. Şam qoşununun sıralarından irəli çıxaraq İraq ordusunun qarşısında sülh və Quran hakimiyyətindən Abdullah ibn Əmr As kimi insanların çıxışları ilə sülh və saziş tərəfdarlarının sayı artmağa başladı. Sülh və sazişin bağlanılmasını istəyənlərin sayı durmadan artırdı və bir çox rəvayətlərə görə tədricən onları sayı on iki min nəfərə çatdı. Onların hamısının alınları səcdə etməkdən qabar bağlamışdı və əksəriyyəti Quran qariləri idilər. Onlar İraq qoşunundan ayrılaraq irəli çıxdılar və Əmirəlmöminin Əli (əs)-ın müqabilində dayanaraq O Həzrətə Əmirəlmöminin kimi xitab etmədən adı ilə çağıraraq dedilər:

"Ey Əli, bu insanların Quran barəsindəki dəvətini qəbul et, yoxsa Əffanın oğlunu (Osman) öldürdüyümüz kimi səni də öldürərik. Allaha and olsun ki, onların dəvətini qəbul etməsən bu işi edəcəyik[1]

İmam (əs)-ın ruh yandıran ahı və məzlumcasına nalə çəkməsi
Dünən Əmirəlmöminin idim və bu gün məmur

Çox qəribə mənzərə idi. Əmirəlmöminin Əli (əs)-la beyət edərək onu dini, siyasi və hərbi başçı seçən insanlar indi özləri müctehid, nəzər sahibi və əmir olmuşdular və əmrlər verirdilər. Onların verdikləri əmr zillət verici və rüsvayçı idi və bu əmrləri misli bərabəri olmayan bir şəxsiyyətə verirdilər.

[1] Nəsr ibn Müzahim, Siffeyn, səh 351-357

Tarixdə buna bənzər itaətsizlik və əmrdən boyun qaçılmalar olması mümkündür və müxtəlif tarixi zaman kəsiklərində başqa nümunələr də olmuşdur, amma bu qədər faciəlisi və əvəzolunmaz bədbəxtlik gətirəni omamışdır. Elə bu səbəbdən də İmam Baqir (əs) tarixin bu hissəsini rəvayət edəndə ağlayırdı[1] və Əmirəlmöminin Əli (əs)-ın özü də bu hadisəni yadına salanda onu bəla, böyük faciə və çətin hadisə kimi adlandırırdı[2].

Qurani Kərimdə belə buyurulub:

"Amma, xeyr! (Ya Rəsulum!) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (münsif) təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, (həqiqi surətdə) iman gətirmiş olmazlar."

Bu surənin davamında belə buyurulur:

"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır."

Başqa bir ayədə də belə buyurulur:

"(Ya Rəsulum!) De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, övrətləriniz, qəbiləniz (qohumlarınız), qazandığınız mallar, kasad olmasından qorxduğunuz ticarət, xoşunuza gələn məskənlər sizə Allahdan, Onun Peyğəmbərindən və Allah yolunda cihaddan daha əzizdirsə, Allahın əmri (əzabı) gəlincəyə qədər gözləyin. Allah fasiqləri doğru yola yönəltməz!"

Qurani Kərimdə insanların İslami rəhbərlərinə, dini, siyasi və hərbi başçılarına itaət etməmələri barədə ayələr çoxdur. Rəhbərliyi Allahın kitabı və Peyğəmbər (s)-ın sünnəti yolu ilə təyin olunmuş, xüsusilə müharibə meydanlarında və hərbi məsələlər sahəsində əmrlər verən, şəxsi ictihadına əsaslanaraq insanları itaətsizlikdən və rahatlıq arxasınca qaçmaqdan çəkindirmək yolu ilə onun yarada biləcəyi qorxulu sonluqları barədə məlumatlandıran və onların böyük əzabla üzləşəcəyini bildirən rəhbərlər itaətsizlik dəhşətlik sonluqla nəticələnir. Belə itaətsizliklər əsrlər boyu xalqları zillətə, qarşıdurmaya, pozğunluğa, əsarətə və digər bədbəxtliklərə sövq etmişdir və dəhşətli faciələr yaratmışdır.

Belə nəzərə çarpır ki, qeyd olunan bu tip hədislərin mənaları yuxarıda qeyd etdiyimiz kimidir və kor-koranə şəkildə tənqidləri qəbul etməyən insanlar üçün nəzərdə tutulmayıb.

Üsuli Kafi və digər hədis kitablarında belə məna kəsb edən hədislər çoxdur və hamısında rəhbərin və vilayətin qəbul edilməsi məsələnin əsasını təşkil edir. əgər

[1] Nəhcül Bəlağə, xütbə 35

[2] Həmin mənbə

rəhbər və vilayət qəbul olunmasa Siffeyndə səcdə etməkdən alınları qabar çalmış və Quran qarilərinin Əmirəlmöminin Əli (əs)-a qarşı çıxması kimi hadisələr meydana çıxacaqdır.

Bu bəhsimizi saxlayaq və olduqca qüssəli, eyni zamanda faciəli bəhsimizi davam etdirək. Tarixçilər əksərən belə qeyd edirlər ki, Əmirəlmöminin Əli (əs) faciəli vəziyyətin yarandığını müşahidə etdi, ayağa qalxdı və öz qoşununa xitabə buyurdu:

"Ey camaat müharibə sizi zəif edənə və taqətdən salana qədər mənimlə sizin aranızda olan vəziyyət həmişə ürəyimcə olub, amma Allaha and olsun ki, müharibə sizi tutdu və yenidən buraxdı, düşmənlərinizi isə tutdu, lakin buraxmadı. (Müharibənin) Tullantıları onları daha çox gücdən saldı və zəiflətdi. Amma mən dünən Əmirəlmöminin (fərman verən) idim, bu gün isə məmuram (icra edən). Dünən nəhy edən və uzaqlaşdıran mən idim, bu gün isə özüm nəhy olunmuşam. Sizlər (dünyada) qalmağı və bəqanı sevirsiniz və mən sizi etməkdən boyun qaçırdığınız işlərə məcbur edə bilmərəm."

Şeyx Mufid (r) belə rəvayət edir ki, Əmirəlmöminin Əli (əs) Quranların nizələrin uclarına sancıldığını görəndə buyurdu:

"Vay olsun sizlərə! Bu bir hiylədir. Bu insanlar Quranı istəmirlər, çünki Quran əhli deyillər. Onda Allahdan qorxun və əvvəlki baxışınızla bunlarla etdiyiniz müharibəni davam etdirin. Bu işi görməsəniz aranızda parçalanma baş verəcək və peşiman olacaqsınız, amma artıq peşimançılığın sizə heç bir faydası olmayacaq."

Həqiqi müsəlmanlar və möminlər, Malik Əştər,
Əmr ibn Həməq və başqaları

Qeyd etdik ki, həqiqi müsəlmanlar və möminlər öz rəhbərlərinin əmr və tapşırıqları qarşısında təslim olan, öz nəzərlərini irəli sürmədən istəklərini həyata keçirməyən insanlardır. Dəhşətli faciə yaradan belə özbaşınalıqlardan birinin şahidi olduq. Belə ki, Əmirəlmöminin Əli (əs) dərdli sözlər və ürək yandıran ahıyla buyurdu: "Mənim işim elə bir yerə çatıb ki, dünən əmir (əmr verən) idim, bu gün isə məmuram (əmri icra edən)." Amma Əmirəlmöminin Əli (əs)-ın silahdaşları arasında elə insanlar da var idi ki, O Həzrətin rəhbərliyini həqiqətən qəbul etmişdilər və sözün əsil mənasında mömin insan idilər. Onlardan biri Malik Əştər və digəri Əmr ibn Həməq idi.

Malik Əştər

Malik Əştər elə bir insan idi ki, onun ölüm xəbərini Əmirəlmöminin Əli (əs)-a çatdıranda barəsində belə buyurdu:

"Allah rəhmət eləsin Malikə. Mən Allahın Rəsulu (s) üçün necə idimsə, o da mənim üçün elə idi.[1]"

Başqa bir rəvayətə istinadən Əmirəlmöminin Əli (əs) bu qəmli xəbəri eşidəndə buyurdu:

"Ey Allahım mən bu müsibəti sənin hesab dərgahında hesaba salacağam, çünki bu ölüm dünyanın ən ağır müsibətlərindən biridir." Sonra sözlərini davam etdirərək buyurdu: "Allah Malikə rəhmət eləsin. O, öz əhdinə vəfalı qaldı, Allahın yolunda dünyadan köçdü və öz Rəbbinin görüşünə getdi. Biz Allahın Rəsulu (s)-in müsibətindən (rehlətində və dünyasını dəyişməsindən) sonra bütün müsibətlərə səbr edəcəyimizə əhd bağlasaq da bu müsibət ən böyük müsibətlərdən biridir![2]

Başqa rəvayətə əsasən bu dəhşətli xəbəri O Həzrətə çatdıranda dərin həsrət və təəssüflə buyurdu:

"Allah Malikin əcrini versin. Malik, necə Malik idi?! Əgər dağ olsaydı dağların ən böyüyü, əgər daş olsaydı daşların ən möhkəmi olardı. Agah ol ki, sənin ölümün dünyanı lərzəyə saldı və dünyanı razı etdi. Ağlayanlar Malik kimi insana ağlamalıdırlar. Görəsən Malik kimisi mövcuddur?[3]

Əmirəlmöminin Əli (əs)-ın sözlərinə bənzər sözləri İbn Qətibə və başqalarından da nəql etmişlər. Onlardan biri budur:

Bir nəfərdən Maliki necə tanıdığını soruşdular. Cavab verdi: "Həyatı və yaşamağı ilə Şam əhlini, ölümü isə İraq əhlini hüzn və kədərə qərq edən insan barədə nə deyə bilərəm?![4]"

Başqa bir şəxs isə onun şücaəti barədə danışaraq dedi: "Əgər kimsə Allahu təalaya Ərəb və Əcəm arasında-ustadı Əmirəlmöminin Əli (əs)-dan savayı-Malikdən daha şücaətli olmamasına and içsə günah etməmişdir![5]"

Əmirəlmöminin Əli (əs)-ın onun barəsində buyurduğu, Nəhcül Bəlağədə və digər kitablarda qeyd olunmuş[6] sözlərdən biri Əmirəlmöminin Əli (əs)-ın məşhur əhdnaməsidir və bu əhdnamə Malik Əştərin məqam və şəxsiyyətini açıqlayan ən yaxşı sənəddir.[7]

---

[1] Nəhcül Bəlağənin şərhi, cild 1, səh 185 və cild 3 səh 416; Qamusər Rical, cild 7, səh 464

[2] Nəhcül Bəlağənin şərhi, cild 2, səh 29

[3] Həmin mənbı, cild 2, səh 301

Əmirəlmöminin Əli (əs)-ın Nəhhcül Bəlağəsində, "Hikmətlər və moizələr" bölməsində 443-cü hikmətində Malik Əştər barəsində gözəl sözlər buyurmuşdur.

[4] Həmin mənbə, cild 1, səh 185; Qamusər Rical, cild 8, səh 465

[5] Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 1, səh 185

[6] Nəhcül Bəlağənin məktublar bölməsi, 13, 38, 53-cü məktublar, Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 3, səh 416-417

[7] Nəhcül Bəlağə, 53-cü məktub. Müaviyədən belə rəvayət edirlər ki, Malikin ölüm xəbərini ona çatdıranda dedi: "Əlinin iki qolu var idi. Biri Əmmar ibn Yasir idi ki, Siffeyndə kəsildi və biri də Malik Əştər idi ki, bu gün kəsildi.

Malik Əştəri ən imanlı şəxslərin sırasına daxil etmək lazımdır. Çünki, düşmənin bu işi öncədən hesablı şəkildə hazırlamış olması, qorxulu tələ olmasını və böyük faciə ilə nəticələnəciyini bilməsinə, öncədən bu xainlərin islam dininin belini qıracaq bu rüsvayçı hərəkətindən əl çəkməyə qane edəcəyini və döyüşü davam etdirəcəyini düşünməsinə baxmayaraq rəhbərinin razı olmasını görəndə o da razılaşdı.

Əmr et Malik qayıtsın, yoxsa səni öldürəcəyik!

Nəsr ibn Müzahim rəvayət edir ki, Şamlılar Quranları nizələrin uclarına sancdıqdan sonra Əmirəlmöminin Əli (əs)-ın silahdaşlarından olan, səcdə etməkdən alınları qabar bağlayıb qaralmış, zirehli paltarlar geyinmiş və boyunlarından qılınc asmış iyirmi min silahlı İraq qoşunundan ayrılaraq irəli çıxdı, öncə qeyd etdiyimiz kimi Əmirəlmöminin Əli (əs)-ı adı ilə çağırıb O Həzrətə Şamlıların dəvətlərini qəbul etmək təklifini verdilər.[1] Xatırladaq ki, əksəriyyəti xəvaric kimi tanınacaq bu insanların başında Məsər ibn Fədəki və bir dəstə Quran Qariləri dayanırdı.

Əmirəlmöminin Əli (əs) onlara buyurdu:

"Vay olsun sizlərə! Mən Allahın kitabına dəvət edən və onun dəvətini qəbul edən ilk insan olmuşam. Bu mənim üçün halal deyildir. Dinim cəhətdən məni Allahın kitabına dəvət etmək və mənim də bu dəvəti qəbul etməməm mümkün deyildir. Məgər mən Quranın hökümlərini boyunlarından asmaq üçün onlarla döyüşmüşəm?! Çünki bunlar Allahın buyurduğu hökümlər barəsində onlara itaətsizlik etdilər, əhd-peymanı pozdular, kitabını arxaya atdılar. Amma mən sizə elan etdim ki, onlar sizi aldadırlar və Qurana əməl etmək niyyətində deyillər."

Onlar dedilər: "Malik Əştəri geri çağırmaq üçün bir nəfər göndər.

Malik həmin anda gərgin döyüş keçirirdi. Əmirəlmöminin Əli (əs) Yəzid ibn Hanini göndərdi və ona Həzrətin yanına qayıtmaq əmrini çatdırdı.

Yəzid ibn Hani Əmirəlmöminin Əli (əs)-ın sözlərini Malikə çatdırdı. Malik dedi: "O Həzrətin yanına qayıt və de ki, belə zamanda məni bu yerimdən geri çağırmaq məsləhət deyil, çünki qələbəyə ümidim var. Məni tələsdirmə."

Yəzid ibn Hani Əmirəlmöminin Əli (əs)-ın yanına qayıtdı və Malikin sözlərini ona çatdırdı. Yəzidin qayıtmağından az keçmiş Malik Əştərin qoşunundan qələbə şüarları eşidilməyə başladı və Şam ordusunun məglubiyyəti malikin qoşununun fəthi nişanələri müəyyən olundu.

Onlar vəziyyəti belə görəndə Əmirəlmöminin Əli (əs)-a dedilər: "Allaha and olsun ki, biz ki belə görürük sən ona geri qayıtmaq əvəzinə döyüş əmri vermisən."

[1] 572-ci səhifəyə müraciət edin

Əmirəlmöminin Əli (əs) buyurdu: "Məgər görmədiniz ki, mən sizin yanınızda əmr göndərdim və siz də bunu eşitdiniz? Məgər onunla xüsusi söhbət etdim və onun qulağına gizlicə söz dedim?"

Dedilər: "Bir adam göndər ki, Malik qayıtsın. Yoxsa səni məzul edəcəyik!"

Əmirəlmöminin Əli (əs) Yəzid ibn Haniyə buyurdu: "Vay olsun sənə Yəzid! Malikə de mənim yanıma qayıtsın, çünki fitnə baş qaldırıb."

Yəzid ibn Hani Malik Əştərin yanına gəldi və hadisəni bütünlüklə ona danışdı. Malik soruşdu: "Quranların nizə uclarına sancılmasından sonra bu hadisə baş verdi?" Yəzid cavab verdi: "Bəli."

Malik dedi: "Allaha and olsun ki, Quranlar nizə uclarına sancılan vaxt təfriqə və ixtilafın meydana çıxacağını güman edirdim və Allaha and olsun ki, bu Nabiğənin oğlunun hiyləsidir."

Malik eşitdikərindən təsilənmiş halda üzünü Yəzid ibn Hani tərəfə çevirərək sözünü davam etdirdi və belə dedi: "Vay olsun sənə, məgər bu qələbəni görmürsən? Məgər düşmənin başına nələr gəldiyini görmürsən? Allahın bizə necə qələbə nəsib etdiyini görmürsən? Buranı atıb geri qayıtmaq düzgündürmü?"

Yəzid dedi: "Yaxşı sən burada qələbə qazandığın halda Əmirəlmöminin Əli (əs)-ın orada ətrafının boşaldılaraq düşmənə təslim edilməsini istəyirsən?" Malik cavab verdi: "Sübhanallah, Allaha and olsun ki, belə bir şey istəmirəm."

Yəzid ibn Hani dedi: "Allaha and olsun ki, Əmirəlmöminin Əli (əs)-a deyiblər və and içiblər ki, əmr et Malik qayıtsın, yoxsa Osmanı qətlə yetirdiyimiz kimi səni də öz qılınclarımızla öldürəcəyik, ya da düşmənə verəcəyik!"

Malik qayıtdı və Əmirəlmöminin Əli (əs)-ın ətrafında toplaşanlara xitabən fəryad çəkərək dedi:

"Ey zəif əqidəli zillət sevənlər! Onların üzərində qələbə qazanmağa yaxınlaşdığımızı gördülər və sizin onları məğlub edəcəyinizi güman etdilər. Quranları nizələrin uclarına sancdılar və sizi Quranda olanlara dəvət etdilər. Allaha and olsun ki, bunlar Quranın onlara əmr etdikirini qəbul etmədilər və sizi Quranda olanlara dəvət etdilər. Allaha and olsun ki, bunlar Quranın onlara buyurduqlarını qəbul etmədilər və Quranın nazil olduğu şəxsin sünnətini tərk etdilər! Onların (yalan) dəvətini qəbul etməyin və mənə bir dəvənin sağıldığı qədər vaxt verin, çünki mən qələbəni hiss edirəm!"

Onlar dedilər: "Yox möhlət vermirik!"

Malik dedi: "Yaxşı onda mənə bir atın hücum edə biləcəyi vaxt qədər vaxt verin, çünki mən qələbənin artıq əldə olunduğunu görürəm!" Dedilər ki, onda biz də sənin buraxdığın səhvlərə şərik olmuş olarıq."

Malik onları məzəmmət etməyə, keçmiş və baş vermiş hadisələri təhlil etməyə başladı, amma onlar yenə də cahillik, nadanlıq və tərsliklərini davam etdirdilər və dedilər: "Biz sənin davamçıların deyilik, bizdən uzaq ol!"

Malik dedi: "Allaha and olsun ki, sizə qarşı hiyləgərlik etdilər və siz də bu hiyləyə aldandınız. Sizi döyüşdən əl çəkməyə çağırdılar və siz də qəbul etdiniz, Ey (səcdə etməkdən alınları qabar bağlamış) qara alınlılar! Biz elə düşünürdük ki, sizin namazınız dünyadan uzaqlaşdırmaq və Allahın görüşünə olan sevginizə görədir, amma sizin bu qaçışınız ölümdən dünyaya tərəf qaçış olması məlum olur. Üzünüz qara olsun! Ey öz nəcisini yeyən dəvəyə bənzərlər! Siz bundan sonra heç vaxt izzət və böyüklük görməyəcəksiniz. Zalım insanların Haqdan üz döndərdikləri kimi Haqq-təalanın rəhmətindən uzaqlaşın!"

Beləliklə tarixdə və tarixçilərin yazılarında Malik Əştərlə münafiqlər arasında baş verən uzun söhbətlərdən sonra onun təslim olması qeyd olunub. O, Əmirəlmöminin Əli (əs)-a olan itaətini dilinə gətirərək dedi: "Amma mən Əmirəlmöminin Əli (əs)-ın razı olduğu hər şeyə razıyam. Onun daxil olduğu yerlərə mən də daxil olaram və onun xaric olduğu yerlərdən mən də xaric olaram. Çünki, (bilirəm) O hidayət və savab olmayan heç nəyi qəbul etməz."

Maraqlı məsələ budur ki, rəvayətlərdə Əmirəlmöminin Əli (əs)-ın da bu sözləri təsdiq etməsi qeyd olunmuşdur. Belə ki sülh sazişi imzalananda O Həzrətə dedilər: "Malik Əştər bu sülh sazişinə razı deyil və onun nəzərincə (hökmən döyüşmək lazımdır) bu insanlarla döyüşməkdən və mübarizə aparmaqdan başqa yolumuz yoxdur."

Əmirəlmöminin Əli (əs) buyurdu: "Çünki Malik Əştər mən razılıq verdiyim halda razı olacaq. Biz və siz razılığa çatdıq."

Əmr ibn Həməq

Öz səmimi itaətini və O Həzrətin buyurduqları qarşısında tam təslim olmasını nümayiş etdirən şəxslərdən biri də Əmr ibn Həməq idi . O, ixtilaf meydana çıxan zaman ayağa qalxaraq dedi:

"Ey Möminlərin əmiri, and olsun Allaha ki, biz sənin dəvətinin batil kimi qəbul etməmişik və batil yolda sənin silahdaşın olmamışıq. Biz Allahın dəvətindən savayı heç nə qəbul etməmişik və haqqdan savayı heç nə tələb etməmişik. Əgər ayrı bir şəxs bizi sənin dəvət etdiyin şeylərə dəvət etsəydi tərslik edərdik və söz-söhbətlər çoxalardı. Amma haqq öz yerinə çatmış və bizim sənin müqabilində nəzərimiz yoxdur."

Kərdus ibn Hani Bəkri

Yuxarıda qeyd etdiyimiz kimi elə şəxslərdən biri də Kərdus ibn Hani idi. O da vəziyyətin belə olduğunu görəndə ayağa qalxaraq dedi: "Ey camaat, Allaha and olsun ki, biz nifrətlə Müaviyədən ayrıldıqdan sonra onu daha sevməmişik və Əlini dostumuz kimi seçdikdən sonra ondan heç vaxt uzaqlaşmağa çalışmamışıq. Həqiqətən bizim ölülərimiz şəhiddir və bizim dirilərimiz yaxşı insanlardır. Həqiqətən

Əmirəlmöminin Əli (əs) öz Allahından aydın malikdir (və haqdır) və gördüyü hər bir iş insafla olmuşdur. Həqiqətən onun müqabilində təslim olan hər bir insan nicat tapanlardandır və onunla müxalif olan insaların hamısı məhv olmuşdur"

Süleyman ibn Surəd Xəzai

Zillət və rüsvayçılıqla dolu olan bu sülh sazişini qəbul etməyən insanlardan biri də Süleyman ibn Sərd Xəzai idi. Onun Kərbəla hadisələri və İmam Hüseyn (əs)-ın qanlı inqilabında da özünəməxsus yeri vardir və inşaallah lazımi yerdə siz oxucuların diqqətinə çatdırılacaqdır. Üzündən qılınc yarası almış Süleyman ibn Sərd sülh sazişinin hazırlanmasından sonra Əmirəlmöminin Əli (əs)-ın yanına gəldi. Əmirəlmöminin Əli (əs) Süleymanı gördükdə Qurani Kərimdən bu ayəni tilavət etməyə başladı:

"Möminlər içərilərində elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (verdikləri sözü) əsla dəyişməzlər ki,"

Əmirəlmöminin Əli (əs) sonra belə buyurdu: "Sən intizarda olan insanlardasan və dəyişilməmiş şəxslərdənsən." Süleyman dedi:

"Ey Möminlərin əmiri, əgər mənim köməyim olsaydı heç vaxt bu kağız parçası yazılmazdı. Allaha and olsun ki, mən insanların arasına və hər yerə getdim və onların əvvəlki vəziyyətlərinə (İslam düşmənləri ilə müharibə etmək vəziyyətinə) qayıtmaları üçün yanlarına getdim, amma bu müqəddəs məqsədlə həmrəy olan az adam tapdım."

Həzin ibn Mənzər

Həzin ibn Mənzər Rəbiə qəbiləsindən idi və imanlı gənclərdən biri idi. Siffeyn döyüşündə günlərin birində Əmirəlmöminin Əli (əs) müharibə bayrağını ona tapşırdı. O, Əmirəlmöminin Əli (əs)-ın onun barədə gözəl sözlər deməsi səadəti ona nəsib olmuşdur. İmam Əli (əs) ona belə buyurmuşdu:

"Ey Həzin, irəli get ki, heç vaxt sənin başına belə bayraq kölgə salmayacaqdır. Bu Allahın Rəsulu (s)-in bayrağıdır."

Həzin ibn Mənzər də hələ gənc olmasına, qəbilə başçılarının və ağsaqqallarının yanında nəzər vermək ədəbini tam bilməməsinə baxmayaraq bu dəhşətli və faciəli mənzərini görəndə özünü saxlaya bilmədi, ayağa qalxaraq dedi:

"Ey camaat! Bu din təslim özülü üzərində bina edilib. Onu öz nəzərlərinizə uyğun olaraq müqayisə etməklə məhv etməyin, şübhələr yaratmaqla viranə və xarabalığa çevirməyin. Əgər hər başa düşmədiyimiz məsələni qəbul etməsək, Allaha and olsun ki, haqdan əlimizdə olduqca az şey qalacaqdır. Eləcə də, əgər istədiyimiz hər şeyi öz meylimizə və istəyimizə uyğun olaraq tərk etsək batil və nahaqlıq artacaqdır. Bizim rəhbərimiz və başçımız var və onun bütün işlər barəsində qəbul

etdiyi qərarları, gördüyü işləri qəbul etmişik. O, həm sözündə, həm əməlində etimad oluna biləcək inamlı adamdır. Əgər O desə "yox", biz də "yox" deməliyik və əgər "bəli" desə biz də "bəli" deməliyik!"

Müəllif yazır: "Əgər biz bütün şəxsiyyətləri onların söylədikləri sözlərdən tanımaq istəsək onda deməliyik ki, Həzin ibn Mənzər İslam tarixinin böyük şəxsiyyətlərindən və məşhur alimlərindən biridir. Çünki, yalnız əsil müsəlman və İslam alimi belə bir tarixi vaxtda, əqidə və məzhəblərin üz-üzə gəldiyi belə döyüş meydanında, dövrünün bütün silahları qarşısında olmasına, öz dini, siyasi və hərbi başçılarını müdafiə etmək yolunda minlərlə döyüşçünün qanlarına qəltan olmasına baxmayaraq belə gözəl, eyni zamanda kəskin və mənalı danışa bilər."

Amma böyük təəssüflə bildirməliyik ki, belə qətiyyətli və haqqın müdafiəsində vurğuladığı ibrət dolu sözlər yalnız Həzinin gənc olmasına və məclis iştirakçıları kimi yaşlı olmamasına görə məclis iştirakçılarının, "Müqəddəs Mabanların" və daha dəqiq desək bir neçə rükət mənasız namaz qılmış və əməli olmayan, quru Quran oxumaqla məşğul olan, bununla da özünü hamıdan üstün bilən ağsaqqalların səs-küyü içərisində itdi, unuduldu və heç kim bu dərəcədə gözəl və qiymətli sözlərə diqqət yetirmədi.

Münafiq Əşəs ibn Qeys faciəni yaradan şəxsə çevrilir

Peyğəmbərdən sonra islam dininin düşmənləri öz şəxsi istəklərini və düşmənçiliklərini həyata keçirmək üçün yaxşı fürsət əldə etdilər. Bu zaman müsəlmanlar arasında ikiüzlü, münafiq insanlar peyda oldu. Onlardan biri Əşəs ibn Qeys Əmirəlmöminin Əli (əs)-ın qarşısında zahir oldu və dedi: "mən belə görürəm ki, camaat bunların təkliflərini qəbul edərək Quranın hökmünə razı olublar. İndi əgər istəsən mən Müaviyənin yanına gedərəm və onun bu barədə nəzərini öyrənərəm!"

Əmirəlmöminin Əli (əs) buyurdu: "Əgər istəyirsənsə get!"

Əşəs ibn Qeys Müaviyənin yanına gəldi və onun bu barədə nə düşündüyünü soruşdu. Müaviyə cavab verərək dedi: "Biz deyirik ki, həm biz, həm də siz Quranın hökmünə qayıdaq və Allahın Quranda buyurduğu hər şeyə əməl edək! Buna görə də həm siz, həm də biz xüsusi insanlar təyin etməklə onların Quranda əməl olunmalı hər şey barədə araşdırma apararaq nəzər vermələrini onlardan istəyək. Onların birgə razılığa gələcəyi hər şeyi biz qəbul edəcəyik!" Əşəs dedi: "Bu söz düzgün sözdür!"

Oradan çıxıb Əmirəlmöminin Əli (əs)-ın yanına qayıtdı və müaviyənin nəzərini O Həzrətin diqqətinə çatdırdı. Bundan sonra İraqli və Şamlı Quran qariləri vasitəçilik etmək niyyətilə bu məsələni təsdiq etdilər. Beləliklə, həm Şam, həm də İraq əhlindən bir nəfər seçərək müəyyənləşdirmələri qərara alındı. Şam tərəfi Əmr ibnAsı seçdi və bu xəbəri Əmirəlmöminin Əli (əs)-a və İraq qoşununa çatdırdılar.

10 Hakimiyyət oyunu

Razılıq sənədinin başlanğıcı Əmirəlmöminin Əli (əs)-a Xədibiyyə sülhünü və Allahın Rəsulu(s)-in qeybdən verdiyi xəbərini xatırlatdı

İşin ilkin işləri hazır olandan sonra razılıq sənədinin əvvəli Allahın adı ilə, yəni "Bismillahir Rəhmanir Rəhim"-lə başladı və bunun ardınca belə yazıldı:

"Əmirəlmöminin Əli ibn Əbu Talib və Müaviyənin sülh bağladığı məsələlər bunlardır..."

Müaviyə bunu gördükdə imza etmədi və dedi: "Əgər Əlinin Əmirəlmöminliyin qəbul edəndən sonra onunla müharibə etsəm mən nə dərəcədə pis adam olaram! Əmr ibn As da dedi: "Yalnız Əlinin adını və atasının adını yaz, çünki o sizin əmirinizdir, bizim yox."

Elə bu səbəbdən də məktubu imza olunmamış halda Əmirəlmöminin Əli (əs)-ın yanına gətirdilər və İmam (əs) sözlərin dəyişdirilməsini, yalnız adının və atası Əbu Talibin adının yazılmasını əmr etdi.

Əmirəlmöminin Əli (əs)-ın dostlarından olan Əhnəf ibn Qeys dedi: "Müharibə yenidən başlasa belə bu sözü pozmayın, (əmirəlmöminin sözünü) çünki bu sözün yenidən sizin adınıza qayıtmayacağından qorxuram." O biri tərəfdən isə Əşəs ibn Qeys bu sözün məktubdab pozulmasına və Əmirəlmöminin Əli (əs)-ın yalnız adı və atasının adının qeyd olunmasına təkid etdi.

Əmirəlmöminin Əli (əs) vəziyyəti belə gördükdə buyurdu:

"Allahdan başqa Allah yoxdur və Allah Böyükdür, adət-ənənə qarşısında adət-ənənə..."

Sonra Hədibiyyə sülhünü yadına saldı. Hədibiyyə sülhündə də Allahın Rəsulu(s)-in adının "Rəsulullah" kimi məktubda yazıldığını görəndə müşriklərin nümayəndəsi olan Süheyl ibn Əmr dedi: "Bu adı pozun..." Bu hadisə öncə sizin diqqətinizə çatdırmışdıq.

Əmirəlmöminin Əli (əs)-ın nəzərindən Əmr Asın və Müaviyənin İslamı

O zaman Əmirəlmöminin Əli (əs) sonda belə buyurdu:

"Bu gün Allahın Rəsulu (s) bunların atalarına yazdığı kimi mən də onların oğulları üçün yazıram, həmin şəkildə və həmin qədim tərzdə."

Əmr As narahatlıqla dedi: "Bizi müsəlman olduğumuz halda kafirlərə bənzədirsən?"

Əmirəlmöminin Əli (əs) buyurdu: "Ey Nabiğənin oğlu sən nə zaman kafirlərin arxa-dayağı və müsəlmanların düşməni olmamısan?!"

Əmr ibn As bu sözləri eşidən kimi ayağa qalxdı və məclisi tərk etdi və Əmirəlmöminin Əli (əs)-ın olduğu məclislərdə iştirak etməyəcəyinə söz verdi[1].

Əmirəlmöminin sülh sazişinin tənzimi işlərini onların özlərinə tapşırır

Yuxarıda qeyd etdiyimiz məsələlərdən və öncə vurğulanmış sözlərdən belə məlum olur ki, böyük ehtimala əsasən Əmirəlmöminin Əli (əs) artıq onların heç bir işinə dəxalət etmədi və onları bu işlər sahəsində özbaşına buraxdı. Qeyd etmək lazımdır ki, yazıçıların əksəriyyəti bu nəzəriyyəni qəbul edirlər[2]. Elə bu səbəbdən də sülh sazişi sənədi Əşəs ibn Qeys, Əmr ibn As və digər münafiqlər və hiyləgərlər tərəfindən hazırlandı və Əmirəlmöminin Əli (əs) və onun sədaqətli silahdaşları bu sənədin hazırlanmasınada iştirak etmədilər. Əmirəlmöminin Əli (əs) rüsvayçılığı qəbul etmiş münafiqlər və münafiqsifətlərin Müaviyə və Əmr ibn Asın hiylələrinə uyaraq belə zillət və rüsvayçılığı qəbul etmələri qarşısında müqavimət göstərmədi. Yalnız bu rüsvayçı hakimiyyətin qorxulu sonluğu barədə onları xəbərdar etdi. Əmirəlmöminin Əli (əs)-ın bu xəbərdarlıqlarından birini Şeyx Müfid rəvayət edir. Əmirəlmöminin Əli (əs) buyurdu:

"Siz elə bir iş gördünüz ki, bununla İslam dininin qüdrəti azaldı, gücü itdi, zəiflik və rüsvayçılıq əmələ gəldi. Siz üstünlüyü əldə etməyə yaxın olan vaxt-da düşmənləriniz məhv olmaqlarından qorxdular. Qırğın onları məhvə doğru sürüklədi və onlar yara ağrısını gördülər. Quranları yuxarı qaldırdılar və sizi onda olana dəvət etdilər ki sizin qarşınızı ala bilsinlər, özləri ilə sizin aranızda olan döyüşü dayandırsınlar. Hiylə və aldatma yolu ilə sizi həyatın yeni hadisələrinin qoynuna atdılar. Əgər siz bunları istədikləri məsələlərin ətrafında toplasanız və onların sizdən istədiklərini yerinə yetirsəniz aldadılmış insan olacaqsınız. Allaha and olsun ki, bundan sonra sizdə inkişaf və istiqamətin olacağına inanmıram və sizin hər hansı tədbir tökə biləcəyinizi görmürəm."

Nəhcül Bəlağədə də qeyd olunmuşdur ki, təhkim hadisəsindən sonra onla-ra buyurdu: "Həqiqətən də təcrübəli, alim və mehriban nəsihətçinin sözlərinə itaətsizlik göstərmək heyrət və sərgərdanlıq yaradar və peşimanlıq əmələ gətirər. Mən öncədən bu hakimiyyət barəsindəki nəzərlərimi sizlərə bildirmişdim və öz baxışlarımın xülasəsini diqqətinizə çatdırmışdım. Kaş ki, o gün "qəsir" nəzəri həyata keçərdi[3]! Siz cəfakar müxaliflər və itaət etməyən əhdə dönük çıxmışlar kimi

[1] Siffeyn, Nəsr ibn Müzahim, səh 371

[2] O Həzrətə dedikləri kimi: "Biz ƏbuMusa Əşəridən savayı kimsəni qəbul etmirik!" Əmirəlmöminin Əli (əs) onlara buyurdu: "Nə istəyirsinizsə edin. Allahım mən bunların işindən nə dərəcədə bizar olduğumu sənə bildirirəm.

[3] Bu cümlə Ərəblərin məşhur atalar sözlərindəndir və nəsihətə qulaq asmayan, sonda peşiman olan insanlar üçün deyilir. Həmin atalar sözünün hekayəsi belədir ki, Hirənin şahı olan Cəzimə ibn Əbrəş Cəzirənin padşahı Əmr ibn Zərb ilə döyüşdü və onu qətlə yetirdi. Əmrdən sonra qızı Zəbba onun cani-şini oldu və atasının qısasını almaq üçün Cəzimə ilə müharibəyə başlamaq istədi. Bacısı Zübeybəonu

nəsihəti qəbul etmədiniz və nəsihətçi öz nəsihətlərini davam etdirməkdə tərəddüd etdi. Od verən odunu verməyə paxıllıq etdi.[1]”

Abdullah ibn Abbası da qəbul etmədilər

Əmirəlmöminin Əli (əs) 236-cı xütbədə iki hakimi, Şam əhlini və bu hakimiyyəti istənilən şəkildə qəbul etmiş insanları məzəmmət edərək buyurur:

“Bunlar (yəni şam camaatı) möhkəm qəlbli və özbaşına insanlardırlar. Hər tərəfdən toplanılmış və hər qarışıq dəstədən yığılmış alçaq bəndələrdirlər. Öyrədilməli və tərbiyə olunmalı insanlardırlar, yəni onlar tərbiyə olunmalı, öyrədilməli və onların üzərinə hakim təyin edilməli və əllərindən tutulmalıdır. Nə mühacirlərdən, nə ənsarlardan və nə də Mədinədə yeri olan, möhkəm imana sahib olan insanlardan deyillər.

Agah olun ki, bu camaat sevdikləri üçün özlərinə ən yaxın olan şəxsi seçdilər (yəni Əmr ibn Ası), amma siz istəmədiyiniz üçün ən yaxın şəxsi seçdiniz. Sizin Abdullah ibn Qeys (Əbu Musa Əşəri) barədə xatirələriniz elə dünənə qayıdır və o (Cəməl müharibəsi və Siffeyn müharibəsi barəsində) deyirdi: Bu fitnədir və yaylarınızı işlətməyin, qılınclarınızı qınlarında saxlayın (müharibəyə getməyin). Əgər düz deyirdisə heç kim onu məcbur etmədən bizim yanımıza gəlməklə böyük xəta etmişdir və əgər yalan demişdisə müttəhəm olunmalıdır.

Siz Abdullah ibn Abbası Əmr ibn Asın üzərinə göndərin və günlərinizi, fürsətinizi əldən verməyin, İslamin (dünyasının) uzaq məntəqələrində olan şəhərləri qoruyun.

Siz döyüş müydanlarına çevrilmiş öz şəhərlərinizə baxmırsınız və hədəf seçilmiş qüdrətinzi görmürsünüzmü?!”

---

bu işi görməyə imkan vermədi. Sonra Zəbba hiyləgərliklə atasının qisasını almaq qərarına gəldi. Sonra Cəziməyə məktub yazaraq bildirdi ki, mən qadınam və şahlıq etmək mənə yaraşmır və mənə həyat yoldaşı lazımdır. Mən səndən savayı heç kimi həyat yoldaşı kimi qəbul edə bilmirəm və əgər insanların qınağı olmasaydı özüm sənin yanına gələrdim. Əgər qədəmlərinə zəhmət versən mənim məmləkətimin özününkü olduğu görəcəksən”. Bu məktub Cəziməyə çatanda müdrik insanlarla məşvərət etdi və Qəsir ibn Səiddən savayı onların hamısı onu bu səfəri həyata keçirməyə həvəsləndirdilər. O Cəzimənin kənizinin oğlu və olduqca dərrakəli insan idi və heç vaxt ehtiyatı əldən buraxmırdı. Müdrikliyinə görə bu dəvətdə nəsə hiylə olduğunu anladı. Onun Cəzimənin əshablarına qarşı çıxmasına və padşahı bu səfərə çıxmasından daşındırmaq istəməsinə baxmayaraq Cəzimə onun sözünə etina etmədən min atlı ilə yola düşdü. Cəzirəyə çatanda Zəbbanın qoşunu onu qarşıladı, amma padşah ehtiram görmədi. Qəsir işarə etdi ki, geri qayıt və Zəbbanın yanına getmə, çünki mən bu işdə hiylə görürəm. Cəzimə yenə də onun sözünə etinasızlıqla yanaşdı və o Cəzirəyə daxil olan kimi qətlə yetirildi. O zaman Qəsir dedi: “Kaş Qəsirin nəzəri qəbul olunardı!”. Bu söz sonralar Ərəblər arasında məsələ çevrildi. Əmirəlmöminin Əli (əs)-ın məüsədi bu idi ki, kaş mənim Əbu Musa Əşəri və Əmr ibn As hakimiyyətini qəbul etməmək baərədə nəzərimi qəbul edərdiz və indi peşiman olmayaydınız.

[1] Bu da atalar sözüdür və mənası budur ki, nəsihət edən şəxs onun nəsihətinə qulaq asmadığını görəndə nəsihət verməyi dayandırır.

Sülh sazişinin mətni

Sülh sazişinin mətnini bir neçə formada qeyd ediblər. Bəziləri qısa və müxtəsər, bəziləri isə geniş və müfəssəl şəkildə. Amma bizim nəzərimizdə olan şey qeyd olunmuş bütün formalarda mövcuddur və biz Nəsr ibn Müzahimin rəvayətinə əsaslanaraq bu sülh sazişinin bir hissəsinin tərcüməsini diqqətinizə çatdırırıq.

"Bu Əli ibn Əbu Talib və Müaviyə ibn Əbu Süfyanın və onların davamçılarının razılığa gəldiyi razılıq sənədidir. Allahın kitabı, Allahın Rəsulu(s)-in hökmü və Əlinin İraq əhli və şiyələr üzərində hökmünə əsaslanaraq hazırlanan sənəddir. Biz Quranın hökmünü qəbul etməyə,onun əmrləri qarşısında təslim olmaq sahəsində razılığa çatdıq. Bizi Qurandan başqa birləşdirən heç nə yoxdur və biz Quranı özümüzə hakim təyin etdik. Quranın buyurduqlarına əsasən Quranın yaşatdığı məsələləri yaşadaq və Quranın öldürdüyü məsələləri öldürək. Biz bu sahədə razılığa çatdıq.

Əli və onun davamçıları Abdullah ibn Qeysi (Əbu Musa Əşəri), Müaviyə və onun tərəfdarlar isə Əmr ibnAsı nazim və hakim kimi seçərək göndərdilər. Bu iki nəfər Allahın əhdi-peymanı ilə yalnız Allahın kitabını bələdçi seçiblər və çıxardıqları bütün hökmlərdə Qurandan kənara çıxmayacaqlar, yalnız Quranda olan şeylər barəsində hökm çıxaracaqları, Quranda tapa bilmədikdə isə Allahın Rəsulu (s)-in sünnətindən istifadə edəcəklərinə söz veriblər.

Onlar həmçinin bunun xilafını etməyəcəkləri, öz nəfsani istəklərinə qulaq asmayacaqları, şübhə və tərəddüdə qapılmayacaqları barədə əhd-peyman bağlayıblar.

Abdullah ibn Qeys və Əmr ibn As, Əli ilə Müaviyə arasında Allahın Kitabı və Peyğəmbərin sünnətinə əsaslanaraq verilən hökümlərə razı olmaları barədə əhd-peyman bağlanılıb və bu iki nəfər əhdi poza və hökmləri qəbuletməyə bilməzlər.

Onların öz hökuməti daxilində Haqq dairəsindən xaric olacaqları vaxta qədər qanları, canları, malları və ailələri amandadırlar. Buna razı olub olmamalarına baxmayaraq, İslam ümməti ədalətlə hökm verəcəkləri vaxta qədər o iki nəfərin dostudur.

Əgər bu iki hakimdən biri tez dünyasını dəyişərsə onun tərəfdarları yerinə qeyd olunmuş əhd-peyman çərçivəsində Allahın Kitabı və Allahın Rəsulu (s)-in sünnətinə uyğun olaraq hökm verə biləcək başqa bir nəfəri seçə bilərlər. Əgər Əmirlərdən biri digərindən daha tez dünyasını dəyişərsə, həmin əmirin tərəfdarları onun yerinə ədalətinə arxayın olduqları və inandıqları bir nəfəri seçə bilərlər."

Peşiman oldular, amma xeyri olmadı

Zillət və rüsvayçılıqla dolu olan bu sülh sazişinin hazırlanaraq təsdiq olunmasından çox müddət keçməmişdi ki, daha dəqiq desək sülh sazişinin mürəkkəbi belə qurumamışdı ki, atəşkəs və sülh tərəfdarları olan insanların bir dəstəsi,

digərlərindən fərqli olaraq sakit dayanaraq müdaxilə etməyən insanlar "Hökm Allaha məxsusdur" şüarı ilə çıxış etməyə başladılar və iki hakimiyyətliliyə olan etirazlarını bildirdilər.

Nəsr ibn Müzahim, Əqiq ibn Səlmə və digərlərinə istinadən belə rəvayət edir ki, Sülh sazişinin hazırlanmasından sonra Əşəs ibn Qeys onu götürərək Şam qoşununun cərgələri önündə dayandı, sənədin məzmununu oxumağa başladı və hamı qəbul etdi. Amma o İraq qoşununun qarşısına çatdı və Ənzə qəbiləsinin bayrağı yanında dayanaraq sülh sazişinin mətnini oxumağa başladı. Qəbilə gənclərinin bir dəstəsi fəryad çəkərək dedilər: "Hökm Allaha məxsusdur!" Eləcə də Murad, Bəni Rasib, Bəni Təmim və s. qəbilələrdən olan insanlar sülh sazişinin müddəalarını eşitdikdən sonra səslərini ucaldaraq etirazlarını bildirdilər və dedilər: "Biz insanların Allahın dini barəsində hökm çıxarmalarına razılıq vermirik və Allah özü öz dini barəsində hökm verməlidir!" Etirazçılar qeyd etdiyimiz şüarlara uyğun olaraq başqa bir neçə şüar da söylədilər.

Hətta onlardan bəziləri qılınclarını ələ alaraq Əşəsə hücum çəkdi və onu qətlə yetirmək istədi, amma bu işi həyata keçirə bilmədilər və Əşəs onların qılınclarından qaçdı. Əmirəlmöminin Əli (əs)-ın yanına gəldilər və adları qeyd olunmuş qəbilələrin etirazlarını və şikayətlərini O Həzrətə çatdırdılar. Sonra Əmirəlmöminin Əli (əs)-a belə dedilər: "İndi icazə verin Şam və İraq əhlindən bir dəstə hazırlayaq bunların döyüşünə göndərək və onları qətli-am edək."

Əmirəlmöminin Əli (əs) buyurdu: "Məgər onlar bir-iki dəstə və az saylı insan deyillər?" Əşəs dedi: "Yox!" İmam (əs) buyurdu: "Onlarla işin olmasın!"

Elə bu zaman hər tərəfdən fəryad səsləri eşidildi:

"Hökm yalnız Allaha məxsusdur! Hökm Allaha məxsusdur ya Əli sənə yox! Biz insanların Allahın dini barəsində hökm verməsinə razılıq vermirik. Allah Müaviyə və onların silahdaşlarının qətlə yetirilmələri, yaxud bizim əmrimiz altına düşmələri barədə hökm vermişdi, amma biz səhvə yol verdik və iki hakimin hakimiyyətini qəbul etdik. İndi bu əqidəmizdən qayıdaraq tövbə edirik və sən də bizim kimi qayıt və tövbə et, yoxsa biz səndən uzaqlaşacayıq!"

Əmirəlmöminin Əli (əs) buyurdu:

"Vay olsun sizlərə! Razılıq verdikdən və əhd-peyman bağladıqdan sonra geri qayıdaq? Məgər Allah-təala belə buyurmayıb: "Allahın peymanına vəfa edin, Allahı öz əməllərinizə nəzarətçi və şahid bilirsinizsə, əhdi-peyman bağladıqdan və andlarınıza təkid etdikdən sonra onu pozmayın və Allah sizin bütün əməllərinizdən agahdır!"

Beləliklə, onlar həmin gündən Əmirəlmöminin Əli (əs)-dan uzaqlaşdılar və özləri bir dəstə yaratdılar. Sonralar bu dəstə "Xəvariclər" kimi adlandırılmağa başladı.

Əsirlərin taleyi

Nəsr ibn Müzahim Şəəbiyə istinadən belə rəvayət edir ki, Əmr ibn As Müaviyəyə əsirləri qətlə yetirmək tapşırığını verdi və bu işin həyata keçirilməsinə təkid etdi. Amma Əmirəlmöminin Əli (əs) öz qoşununun Şam qoşunundan əsir götürdükləri insanların azadlığa buraxılması əmrini verdi. Azadlığa buraxılmayan düşmən əsgərləri də var idi və onlar O Həzrətin bəzi silahdaşlarını qətlə yetirməkdə təqsirli bilinirdilər və elə buna görə də qətlə yetirilmiş İraqlı döyüşçünün əvəzinə bir əsir qətlə yetirilirdi.

Əmirəlmöminin Əli (əs) tərəfindən Şam qoşunu əsgərlərinin azadlığa buraxılması xəbəri Müaviyəyə çatanda üzünü Əmr ibn Asa tərəf çevirərək dedi: "əgər sənin əsirlər barəsindəki əmrini həyata keçirsəydik indi bizim üçün çox pis və rüsvayçı iş olardı. Çünki Əli əsirlərin azadlığa buraxılması əmrini verdiyi halda biz onları qətlə yetirmiş olurduq." Müaviyə bu sözlərdən sonra əsirlərin azadlığa buraxılması əmrini verdi.

Əmirəlmöminin Əli (əs)-ın Siffeyindən geri dönməsi və "Dumətul Cəndələ" getməsi

Yuxarıda qeyd etdiyimiz kimi müharibə belə bir şəraitdə sona çatdı və Əmirəlmöminin Əli (əs) Kufəyə qayıtdı. Kufənin ətrafında bir neçə qəbir gördü və onların kimə məxsus olduğunu soruşdu. O Həzrətə olmadığı zaman ərzində Xəbab ibn Ərətin dünyasını dəyişməsi və burada basdırılmaq vəsiyyətini etdiyini çatdırdılar. Onu dəfn etdikdən sonra camaat öz ölülərini də onun yanında dəfn etdilər. Əmirəlmöminin Əli (əs) Xəbabın barəsində xeyir dua etdi və oradan keçərək Kufə şəhərinə daxil oldu.

O biri tərəfdən isə Siffeyndən yola düşəndə Əbu Musa Əşərini Şərih ibn Haninin başçılığı altında dörd yüz nəfərlə yola saldı və namaz qılınanda pişnamaz olmaq və digər işlərində dəstək olmaq üçün Abdullah ibn Abbası da onunla göndərdi. Müaviyə də Əmr Ası dörd yüz nəfərlə yola saldı.

* * *

İraq ordusundan göndərilmiş insanların nizam-intizamsızlıqları barədə belə yazırlar ki, hər dəfə Əmirəlmöminin Əli (əs) tərəfindən namə gələndə bu məsələ barəsində araşdırma aparırdılar və İbn Abbasın yanına gələrək deyirdilər: "Əmirəlmöminin Əli (əs) sənə nə yazıb? İbn Abbas da cavab verməkdən boyun qaçırdığı üçün onlar müxtəlif şayiələr yaymağa başlayırdılar. Amma Müaviyənin çaparı Əmr ibn Asın yanına gələndə heç kim onun nə üçün gəldiyini, nə gətirdiyini və özü ilə nə apardığını bilmirdi.

Elə bu səbəbdən də İbn Abbas Kufə əhlinə xitabən onları bu nizam-intizamsızlıqlarına görə tənqid edərək dedi: "Sizlər necə insanlarsınız axı? Nə zaman mənim yanıma çapar gəlirsə nə fərman gətirdiyiniz soruşursunuz. Sizə cavab verməkdən boyun qaçırdıqda isə, "niyə görə bizə düzgün cavab vermirsən?" deyə soruşursunuz. "Biz onsuzda bilirik nə gətirib və nə deyib" deyirsiniz. Davamlı olaraq mənim arxamca gəzirsiniz və məsələni öyrənməyə çalışırsınız. Sizin heç sirriniz yoxdur?

İkili hakimiyyət vaxtı çatdı və
Əbu Musanın yoldaşları onu xəbərdar etdilər

Sonda işin bütün əsas sahələrinin hazırlanması ilə iki hakim xüsusi mühitdə bir-biriləri ilə məşvərət etdi və xüsusi məclis hazırlandı və bu iclas "dumətül Cəndəl" və Əzrəhdə keçirildi.

Əbu Musa məşvərətə getməmişdən öncə Şərih ibn Hani onun əlindən tutdu və onu kənara çəkərək dedi: "Ey Əbu Musa çatladığı təqdirdə düzəldilə və məğlubiyyət qazandığı təqdirdə geri qaytarıla bilməyən bir iş üçün təyin edilmisən. Bu işdə buraxılan xətaya görə heç bir üzrxahlıq qəbul edilməyəcəkdir. Deyəcəyin hər bir söz istər xeyrinə, istər ziyanına olsun haqq söz olacağı təqdirdə tarixdə qeyd olunacaqdır. Amma batil söz olacağı təqdirdə unudulacaqdır. Bunu da bil ki, əgər həqiqətən Müaviyə hakimiyyət başına gələrsə İraqdan əsər-əlamət qalmayacaq, amma Əmirəlmöminin Əli (əs)-ın hakimiyyət başına gələcəyi təqdirdə Şam əhlinə heç bir ziyan dəyməyəcəkdir. Sən Kufənin hakimi olduğun illərdə Əmirəlmöminin Əli (əs)-a qarşı işlərində zəiflik olmuşdur. Əgər indi də qabaqlar olduğu kimi fəaliyyət göstərsən insanların sənin barəndə olan gümanı təsdiq olunacaq və sənə qarşı olan bütün ümidlərimiz məyusluğa çevriləcəkdir" Bu sözlərdən sonra danışdığı sözlər barəsində şeir də söylədi[1].

Əbu Musa bu sözləri və şeiri eşitdikdən sonra narahatlıqla dedi: "Məni ittihamlandıran insanlar üçün onları batildən qorumaq və haqqlarını müdafiə etmək üçün məni göndərmələri düzgün deyil!"

Mədəninin "Siffeyn" kitabında belə qeyd olunub ki, Abdullah ibn Abbas da orada olan insanların yanında Əbu Musaya yaxınlaşaraq dedi: "Ey Əbu Musa, ca-

[1] Şərihin sözlərindən biri də bu idi ki deyirdi: "Əgər Müaviyə hakimiyyət başına gəlsə İraq yer üzündən silinəcəkdir" Bu sözlərə bənzər digər sözlər Əhnəfin də sözlərində gözə çarpır və biz onu növbəti səhifələrimizdə diqqətinizə çatdıracağıq. Qeyd olunmuş sözlərdən belə məlum olur ki, onların verdiyi nəsihət Əmirəlmöminin Əli (əs)-a və O Həzrətin haqq olmasına olan imanına görə deyildir. Bu sözləri daha çox Kufə və Şam qəbiləçiliyi və nasionalizmi hisslərindən yaranmışdır. Onların ikiüzlülüyü və riyakar hərəkətləri gələcək əməllərində də gözə çarpır. Bu insanların bir çoxu, hətta Abdullah ibn Abbas belə Malik Əştər kimi tam etimad olunacaq şəxsiyyətlərdən deyildir. Onlar İslam dininiöhdəliklərinə, vəzifələrinə və İslama olan imanlarına xalıs niyyətlə bağlı deyildilər. Bunların imansızlıqları və inamsızlıqları sonda Əmirəlmöminin Əli (əs)-ın məzlumiyyətilə nəticələndi.

maatın sənin seçilmənlə razılaşmaları və sənin hakimiyyətini qəbul etmələri sənin digərlərindən fəzilətli və daha üstün olduğun üçün deyildir. Çünki səndən daha üstün, yaxud sənin lə eyni dərəcədə olan çoxlu sayda Mühacir və Ənsar mövcuddur. Amma, İraq əhli hakimlərdən birinin Yəmənli olmadığı təqdirdə onu qəbul etməyəcəklərini bildirdilər. Onlar elə düşünürdülər ki, Şam əhlinin əksəriyyəti Yəmənli olduğu üçün bu onlara köməklik edəcəkdir. Amma Allaha and olsun ki, o, həm mənim, həm də sənin üçün böyük şər yaradacaqdır. Çünki, Ərəblərin ən dahisi (zirəngi və hiyləgəri) sənin lə bir seçilib. Bil ki, Müaviyənin də onun xəlifə təyin olunması üçün heç bir ləyaqəti yoxdur. Elə buna görə də çalış özündə olan haqqla onun batil düşüncələrini məhv edəsən və öz məqsədinə çatasan. Əgər onun batil düşüncələri səni tamahkarlığa sürükləyirsə, o öz məqsədinə çatmış olacaqdır.

Əbu Musa bunu da bil ki, Müaviyə İslamın azad olunmuşlarındandır və onun atası (İslam dini müxaliflərinin) dəstə başçılarından olub. O, şuraya müraciət etmədən və beyət etmədən xilafət iddiası ilə çıxış edənlərdəndir. Bunu da bil ki, Əmr Asda səni sevindirəcək hər bir şeylə yanaşı, sənin halını pisləşdirə biləcək şeylər də mövcuddur.

Nəyi unutsan da bunu unutma ki, insanlar Əbu-Bəkr, Ömər və Osmanla beyət etdikləri kimi Əmirəlmöminin Əli (əs)-la da beyət etdilər. Onların etdikləri beyət açıq-aydın beyət olmuşdur və Əmirəlmöminin Əli (əs) da itaətdən boyun qaçıranlar və əhd-peymana dönük çıxanlardan savayı kimsə ilə döyüşmür."

Əbu Musa onun cavabında dedi: "Allah rəhmətini sənin üzərindən əskik etməsin. Allaha and olsun ki, mənim Əlidən savayı İmamım yoxdur və həqiqətən də mənim üçün Allahın razılığını Müaviyənin razılığını qazanmaqdan daha xoşdur və hamımızın sonu Allahladır."

Əbu Musa Əşəri ilə son söhbət edən şəxs Əhnəf ibn Qeys idi və o Əbu Musanın əlindən tutaraq dedi: "Ey Musa! Bu günün əhəmiyyətini anla və bil ki, bu günün sabahı da var. Sən əgər İraqı hörmətdən salsan, artıq İraq adlı yer qalmayacaq. Allahdan qorx, çünki dünya və axirət sənin üçün bir yerə toplaşıbdır. Əmr Ası ilk görəndə ilk olaraq ona salam vermə. Bu adət İslam dininin sünnətində olmasına baxmayaraq o bu sünnətə layiq deyildir. Ehtiyatlı ol ki, səni məclisin lap yuxarı tərəfində oturtmasın, çünki bu hiylədir və heç vaxt onunla tək başına görüşmə."

Əhnəf sözlərini davam etdirərək onun qəlbinin dərinliklərində Əmirəlmöminin Əli (əs)-a olan sevgini anlamaq istədi və buna görə ona belə dedi: "Əgər Əmr ibn As Əli ibn Əbu Talib barəsində sənin lə razılaşmasa, sən onu iki təklifdən birini seçmək üçün azad burax. Birincisi belədir ki, İraq əhli Şamdan olan Qureyşlilərdən (yəni Şamda yaşayan Qureyşlilərdən) birini seçsin. Belə olduqda ixtiyar bizim əlimizdə olacaqdır və istədiyimiz insanı seçə bilərik. Əgər bu təklifi qəbul etməsələr Şam əhli İraqda yaşayan Qureyşlilərdən seçə bilərlər. Belə olduqda da işin kələfinin ucu bizim əlimizdə olacaqdır.(Gələcək başçı bizlərdən biri seçiləcəkdir)

Əbu Musa Əhnəfin sözlərinə qulaq asdı və cavab vermədi, amma onun sözlərini rədd etmədi.

Vəziyyəti belə görən Əhnəf Əmirəlmöminin Əli (əs)-ın yanına gəldi və dedi: "Ey möminlərin əmiri! Əbu Musa elə indidən yükünü kənara çəkdi. Mən ki belə görürəm biz bu yerə elə bir adamı təyin etmişik ki, sizin (hakimiyyət başında) olmamanızdan qorxusu yoxdur."

Əmirəlmöminin Əli (əs) buyurdu: "Allah öz işlərinin üzərində qalibdir!"

Kədərli hadisənin davamı və Samirinin Əmr As tərəfindən aldadılması

Bu qəmli hadisənin davamını müasir yazıçılardan olan Baqir Şərifin kitabından rəvayət edirik və deyəcəyimiz bu mətləblər bir neçə kitabdan xülasə şəklində toplanılmışdır. O yazır: "Allahən Rəsulu (s)[1]-in buyurduqlarına əsasən Bu iki hakim "Dumətul Cəndəl, yaxud Əzrəhdə" bir araya gəldilər. Tarixçilərin dediklərinə əsasən Əmr As üç gün Əbu Musa Əşəri ilə kəlmə belə kəsmədi, onun üçün xüsusi yer hazırlatdı, yemək, içmək göndərdi. Artıq onu öz əlində oyuncaq etdiyini anladıqdan sonra onunla söhbətə və onu böyük, gözəl xislətlərlə tərif etməyə başladı. Bu tərifləri onun bütün hisslərini əldə etdiyi zamana qədər davam etdirdi. Əmr As Əbu Musa Əşərini tərifləyərək belə deyirdi: "Ey Əbu Musa! Sən Muhəmməd(s)-in səhabələrinin şeyxi və başçısısan, onların arasında böyük fəzilətə, İslam dinində şərəfli ömür tarixinə malik insanlardansan. Sən özün ümmətin necə bir fitnənin qurbanına çevrildiyinin, ümmətin varlığının əsaslarını qorxuya atmalarının və bu qorxunun hələ də davam etməsinin şahidi olursan.

Ey Əbu Musa sən indi bu ümmətin ən bərəkətli və ən mübarək şəxsi ola bilərsən və Allah-Təala sənin vasitənlə onların həyatlarını qoruya bilər. Allah-Təala onların həyatlarının qorunması barədə belə buyurub: "Əgər bir kəs bir insanı dirildərsə, bütün insanları diriltmiş olur. İndi sən özün düşün bu qədər insanın həyatını xilas etmiş insanın Allah dərgahında nə dərəcədə böyük əcr və savabı var!"

Əmr As ona dedi: "Sən Əli ibn Əbu Talibi xilafətdən uzaqlaşdır və mən də Müaviyə ibn Əbu Süfyanı. Sonra hər ikimiz heç bir fitnəkarlıqda əli olmayan və

[1] İbn Əbul Hədid Süveyd ibn Ğəfələyə istinadə rəvayət edir ki, Osmanın hakimiyyət başında olduğu illərdə Əbu Musa ilə bir yerdə idim və o mənə həzrət Rəsulullahdan (s)-dən hədis rəvayət edərək dedi: "(Həzrət Musanın vəfatından sonra) Bəni İsrail arasında qarşıdurmalar meydana çıxdı və bu qaşıdurmalar bir müddət davam etdi. Sonda iki azğın və pozğun hakimi seçəndən sonra həm özləri, həm də davamçıları pozğunlaşdılar və azğınlaşdılar. Mənim ümmətim də belə olacaq və iki hakimin hakimiyyətilə üzləşəcəkdirlər ki, həm özləri, həm davamçıları azğın və pozğun olacaqlar."
Süveyd dedi: "Mən ona dedim ki, o iki hakimin birindən olmasından qorx!
Elə bu zaman Əbu Musa köynəyini əynindən çıxartdı və dedi: "mənim köynəyim məndən bezara gəldiyi kimi belə işlərin əlindən bezara gəldiyimi bildirirəm" (Nəhcül Bəlağənin şərhi, İbn İbul Hədid, cild 4, səh 288)

əlləri heç kimsənin qanına bulanmayan bir şəxsi ümmətə başçılıq etmək üçün seçək!"

Əbu Musa Əşəri səbirsizliklə dedi: "Bu xüsusiyyətlərə malik olan şəxs kimdir?"

Əmr ibn As Əbu Musa Əşərinin xilafət kürsüsündə Abdullah ibn Öməri görmək istəməsini bilirdi və elə bu səbəbdən də dərhal dedi: "Abdullah ibnÖmər!"

Əşəri şad və sevincək halda dedi: "Sənin bu işi həyata keçirəcəyinə necə əmin ola bilərəm?" Əmr As dedi: "Allahı zikr etməklə qəlblər sakitlik tapırlar." Mənim necə əhd-peyman istəsən bağlaya bilərsən."

Sonra aralarına mövcud olan bütün əhd-peymanlara and içməyə başladılar və bütün sazişlərinin öhdəliklərini dillərinə gətirdilər. Bu söhbətdən sonra Əbu Musa Əmr ibn Asın sözlərinə inandı və onların mübahisə etdiyi məsələni elan etməyə hazır olduğunu bildirdi. Onlar bu qərarın rəsmi şəkildə elan edilməsi üçün gün təyin etdilər.

Sonda hamının səbirsizliklə intizarında olduğu vaxt gəlib çatdı və hakimlərin əldə etdiyi razılıq və birgə qəbul etdikləri qərar barəsində danışmaq üçün bir yerə toplaşdılar və Hakimlər son nəzərlərini bildirmək üçün onlar üçün nəzərdə tutulmuş yerə getdilər.

Əbu Musa Əşəri sözlərini söyləmək üçün ayrılmış xüsusi yerə getdi. Lazımı yerə çatdıqdan sonra Allaha həmd etdi, Allahın Rəsulu(s)-ə salam göndərdi və sözünə başlayaraq dedi: "Ey camaat biz birlikdə işlərimizi diqqətlə araşdırdıqdan və məşvərət etdikdən sonra qan axıdılmasının qarşısını almaq, vəhdəti qorumaq və islah etmək, təhlükəsizliyi bərpa etmək üçün ən yaxşını və ən yaxını seçmişik. Bu seçimə əsasən Əli və Müaviyə xilafətdən uzaqlaşdırılmalıdır və mən öz növbəmdə başımda olan əmmaməni götürdüyüm kimi Əlini də xilafətdən uzaqlaşdırmışam. Bu sözlərdən sonra əlini başına uzadaraq əmmaməsini başından götürdü. Xilafətə başçılıq etmək üçün isə həm özü, həm də atası Peyğəmbər (s)-in əshablarından olan, digərlərindən bir addım öndə addımlayan Abdullah ibn Öməri təyin etmişəm[1]."

* * *

Əşəri öz rəyini verdi və növbə Əmr Asa çatdı. O, özünü çıxış edilən yerə çatdırdı və Allaha həmd etdikdən sonra dedi: "Ey camaat! Gördüyünüz kimi Əbu Musa Əşəri (Abdullah ibn Qeys) Əlini daha yaxşı tanıdığı üçün onu iddiasında olduğu

[1] İbn Şəhraşubun Mənaqib əsərində (Qum çapı, cild 3, səhifə 185) belə qeyd olunub ki, Əbu Musa Əmr Asın bu tərifləri eşitdikdən və ilk olaraq çıxış edəcəyi qərarını qəbul etdikdən sonra ayağa qalxdı və dedi: "Mən Əli və Müaviyəni barmağımdan çıxardığım üzük kimi hakimiyyətdən uzaqlaşdırıram." O biri tərəfdən Əmr As ayağa qalxaraq yaxınlaşdı və dedi: "Mən də Əbu Musa kimi Əlinin hakimiyyətdən uzaqlaşdırıram, amma Müaviyəni bu üzük kimi yenidən xilafət başına hakim təyin edirəm. Sonra üzüyünü sol əlindəki barmağından çıxardıb sağ əlindəki barmağına taxdı.

xilafətdən uzaqlaşdırdı. Bilin və agah olun ki, mən də onun kimi Əlini xilafətdən uzaqlaşdırıram və Müaviyəni həm özüm, həm də sizin üçün xilafət başına təyin edirəm. Əbu Musa bundan öncə imzaladığı məktubda Osmanın məzlum və şəhid öldüyünü yazmışdır və onun qisasını almaq hüququna malik insan onun qisasını kimliyindən asılı olmayaraq hamıdan ala bilər. Müaviyə Peyğəbərlə həmsöhbət olmuş insanlardandır və onun atası da Allahın Peyğəmbərinin söhbətlərindən istifadə etmişdir." Bu sözlərdən sonra Müaviyəni tərif etməyə başlayır və sözünü sonunda belə deyir: "Müaviyə bizim xəlifəmizdir və Osmanın qisasını almaq üçün biz onunla beyət və ona itaət etməliyik.

Aldadıldığını görən və Əmr Asın əhd-peymanı pozduğunu görən Əbu Musa Əşəri ona tərəf fəryad çəkərək dedi: "Sənə nə oldu?! Allah sənə lənət eləsin!

Əmirəlmöminin Əli (əs) onlar barədə belə buyurur:

"Agah olun ki, sizin hakim kimi təyin etdiyiniz iki şəxs Allahın hökmünü kənara qoyaraq öz istək və niyyətlərinə uyğun olaraq fikir bildirdilər. Beləliklə, bu iki nəfər Quranın diriltdiyi hər şeyi öldürdülər və Quranın öldürdüyü hər şeyi diriltdilər. Onlar çıxardıqları hökmlərlə bizə xəyanət etdilər və onların hər ikisi savab yolundan çıxdılar. Allah, Allahın Rəsulu (s) və layiqli möminlər onların əlindən zara gəliblər!"

Bütün bunları nəzərə almadan qeyd etmək lazımdır ki, ikili hakimlik macərası o qədər gülməli və dəyərsiz məsələ idi ki, bir çox araşdırmaçılar iki hakimlilik hekayəsinin yazıçılarına onların Peyğəmbər (s)-i dərk etmələri və O Həzrətin səhabələri olduğuna görə həmin məsələyə nikbin yanaşaraq onun nəql olunmasını düzgün hesab etməyiblər. Onlar bu məsələni geniş araşdırdıqdan sonra belə deyiblər:

"Birinci Əmirəlmöminin Əli (əs) ilə Müaviyə arasında olan qarşıdurmanın hansı səbəblər üzündən baş verməsi və hakimlərin hansı məsələlər sahəsində hökm vermələri nəzərə alınmalıdır. Əmirəlmöminin Əli (əs)-la Müaviyə arasındakı qarşıdurmanı tam təhlil etdikdən sonra məlum olur ki, Müaviyə kimisə işdə uzaqlaşdırıb yerinə başqa birsini təyin etmək hüququna malik insan deyildi. Əksinə o Allahın Rəsulu (s)-in səhabələrinin beyətilə seçilmiş xəlifəyə qarşı çıxan yağı idi. O, Osmanın dövrünün xəlifəsinə qisasını almaq bəhanəsilə bir dəstə müsəlmanı başına toplayaraq Allahın Rəsulu (s) tərəfindən təyin edilmiş xəlifə ilə müharibə edən azğın bir insan idi. Tarixçilər belə yazırlar:

"Müaviyənin vəzifəsindən uzaqlaşdırılması olduqca mənasız bir addım idi, çünki Müaviyənin kimisə öz vəzifəsindən uzaqlaşdırmaq səlahiyyətlərini yerinə yetirən Xəlifə olmamağından əlavə heç şam vilayətinin də hakimi qəbul olunmurdu. Belə ki, onun hakimlik vəzifəsi onu bu vəzifəyə təyin edən Osmanın qətlə yetirilməsi ilə sona çatdı.

Müaviyəyə Allahın Rəsulu (s)-ın tam hüququlu xəlifəsilə müxalifət etmək üçün Osmanın qisasını tələb etmək kimi gülməli bəhanəni irəli sürməkdən savayı heç nə qalmadı.

Digər tərəfdən Osmanın oğulları və yaxınları olduğu halda Osmana uzaq qohumluğu çatan Müaviyənin nəyə görə qisas iddiası ilə çıxış etməsi çox qəribədir.

Əmirəlmöminin Əli (əs)-ın Osmanın qətlində əli olmamışdır, əksinə onun nicat tapması üçün dəfələrlə səy göstərmişdir. Beləliklə, Osmanın qisasının almaq iddiası ilə meydana atılan hər bir şəxs Əmirəlmöminin Əli (əs)-la deyil digərləri ilə döyüşə getməli idi.

İbn Əbul Hədidin Müaviyənin və onun Əmirəlmöminin Əli (əs)-a qarşı çıxan digər silahdaşları barədə sözləri

"Hər kəs bir mömin şəxsi qəsdən öldürərsə, onun cəzası əbədi qalacağı Cəhənnəmdir. Allah ona qəzəb və lənət edər, (axirətdə) onun üçün böyük əzab hazırlar![1]"

Allah Təala onların əbədi olaraq cəhənnəmdə qalacaqlarını, daim Allahın lənət və qəzəbində olacaqlarını bildirir. Allahın bəndələrinin də qəzəb və lənəti onların üzərindən əskik olmayacaq.

Siffeyn döyüşüunun mənfi təsiri və insan itgisi

Bölümün sonunda bildirməliyik ki, Müaviyənin özbaşına hərəkəti nəticəsində yalnız Siffeyn döyüşündə yetmiş mindən artıq döyüşçü həlak olmuş, minlərlə baş mal-qara tələf edilmiş, yüz minlərlə dinar həcmində pul göyə sovrulmuşdu. Hər saatı İslam dininin çiçəklənməsinə, dünyanın müxtəlif yerlərində yayılmasına yeni töhfələr verə biləcək yüzlərcə gün mənasızcasına tələf olmuşdu.

İbn İmad Hənbəli "Şəzəratuz Zəhəb" kitabında yazır: "İki qoşundan ümumilikdə yetmiş min nəfər həlak oldu." Qətadə yazir: "Siffeyn döyüşündən həlak olanların sayı altmış min nəfər idi." İbn Sirin yetmiş nəfərin həlak olduğunu bildirir və "Ənsabul Əşraf" kitabında da bu göstəricini təkrar edir.

İbn Şəhraşub yazır: "Yalnız "Leylətul Hərir"-də Əmirəlmöminin Əli (əs)-ın qoşunundan dörd və Müaviyənin qoşunundan iyirmi iki min nəfər döyüşçü həlak oldu.

Nəsr ibn Müzahim kitabının sonunda yazır: "Siffeyn döyüşündə Şam ordusundan qırx beş min və Əmirəlmöminin Əli (əs)-ın qoşunundn iyirmi beş min döyüşçü həlak oldu.

[1] Nisa surəsi, ayə 93

11 Mariqlər, dindən çıxmışlar və Nəhrəvan döyüşü

Allahın Rəsulu (s) Xəvaricin dinsizliyindən və onların qaranlıq gələcəyindən xəbər verir

Keçən bölümlərdə Allahın Rəsulu (s)-in İslamın gələcəyindən, təcavüzkar Müaviyəin itaətsizliyindən, Cəməl müharibəsini meydana çıxaran əhdə dönük çıxanlardan, Əmirəlmöminin Əli (əs)-ın onlarla müharibə edəcəyindən xəbər verməsi barədə söz açmışdıq. O Həzrət eləcə də özlərini Quranın, İlahi əhkamların davamçıları adlandıran, namaz qılıb oruc tutaraq hamıdan daha çox müsəlman olmalarını nümayiş etdirməyə çalışan insanlar barədə xəbər vermiş, onları "Mariqlər", yəni dindən çıxmışlar adlandırmışdı.

Bu hədislərə böyük müsəlman alim və hədisçilərinin kitablarında, o cümlədən Səhih Buxari, Səhih Müslim, Əhməd ibn Hənbəl, Nəsai və digər kitablarda rast gəlmək olar. Bu hədislərdən birini Əbu Səid Xədəri rəvayət etmiş və Buxari onu Səhih kitabında qeyd etmişdir. Bu hədisi iyirmidən çox Əhli Sünnə alimi xırda ixtilaflarla Əbu Səid Xədəriyə, Hədis Əbul Vəzii, Ənəs ibn Malik, Muqsim Əbul Qasim, Səid ibn Malik, Aişə və digərlərinə istinadən rəvayət etmişlər. Əgər kimsə bu barədə Şiə və əhli sünnə kitablarında qeyd olunmuş rəvayətləri toplayaraq kitab halına salsa iri həcmli kitab əmələ gələr. Biz burada Əhli-sünnənin üç ən mühim hədis kitabından üç hədis seçərək siz əzizlərin diqqətinə çatdırırıq[1]:

1. Buxari "Səhih" kitabında Əbu Səid Xədəriyə istinadən rəvayət edərək yazır: "Biz Allahın Rəsulu (s)-in yanında idik və O Həzrət qənimətlərin bölüşdürülməsilə məşğul idi. Bəni Təmimdən olan Zul Xəvisərə adlı kişi O Həzrətin yanına gəldi və dedi: "Ey Allahın Rəsulu ədalətə riyayət et!"

Allahın Rəsulu (s) buyurdu: "Vay olsun sənə! Əgər mənim də ədalətim olmasa ədalətə kim riayət edəcək?! Mənim ədalətim olmasa məhv olardın və ziyan etmişlərdən birinə çevrilərdin!"

Ömər dedi: "Ey Allahın Rəsulu, icazə ver (bu mərifətsizliyinə və qanacaqsızlığına görə) onun boynunu vurum!"

O Həzrət buyurdu: "Onunla işin olmasın, çünki onun əshabı və silahdaşları olacaq və hər biriniz öz namaz və orucunuzu onların namaz və orucu ilə müqayisədə çox kiçik sayacaqsınız. Onlar Quran oxuyacaqlar, amma onların boğazların keçməyəcək. (oxuduqları Quran onların daxili aləminə təsir etməyəcəkdir) Ox ovun bədənindən çölə çıxan kimi onlar da dindən çıxacaqlar. Həmin oxun ucuna baxanda ucunda heç nə olmayacaq. Oxun orta hissəsinə də baxdıqda da oxun üzərində heç

[1] Bu hədislərin icmalını "Tarixe Ənbiya və Allahın Rəsulu (s)-in həyatı" kitabının üçüncü cildində, Hüneyn müharibəsi qənimətlərinin bölüşdürülməsi hissəsində diqqətinizə çatdırmışdıq. Maraqlananlar adı qeyd olunan kitaba müraciət edə bilərlər.

nə olmayacaq. Oxun qurtaracağına baxdıqda da orada heç nə görünməyəcəkdir. Ən sonda oxun pərlərinə baxdıqda da bədəndən və qandan keçməsinə baxmayaraq orada ovda heç bir əsər-əlamətin olmaması görünəcəkdir[1].

Onlardan birinin nişanələri belədir: qara dərili bir insandır, qollarının yuxarı hissəsi qadın döşü, yaxud bir parça ət kimi dartılır və onlar insanlar arasında ixtilaf və qarşıdurma yarandığı vaxt itaətsizlik və qiyam edəcəklər."

Əbu Səid Xədəri deyir: "Şəhadət verirəm ki, bu hədisi Allahın Rəsulu (s)-dən eşitmişəm və şəhadət verirəm ki, Əli ibn Əbu taliblə birlikdə onlarla döyüşmüşəm. Əli ibn Əbu Talib o kişini tapıb gətirmək əmrini verdi. Bir müddət axtarışdan sonra onu gətirdilər və mən ona baxdım. Mən ona baxdım və o, Allahın Rəsulu (s) buyurduğu kimi idi[2].

2. Əllamə Məclisi (rə) "Biharul Ənvar" kitabında söylənilmə sənədi Əbul Tufeylə qayıdan, Sünnə əhlinə aid təfsir kitablarına və Sələbinin təfsir kitabına istinadən rəvayət edərək yazır: "Xəvariclərdən biri olan İbn Kəvva Əmirəlmöminin Əli (əs)-dan Allahu Təalanın buyurduğu bu ayənin təfsirini soruşdu:

"(Ya Rəsulum!) De: "Sizə əməlləri baxımından (axirətdə) ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi?" O kəslər ki, onların dünyadakı zəhməti boşa getmişdir."

Allahın Rəsulu (s) buyurdu: "Onlar sizsiniz Hərura əhli![3]"

"Halbuki onlar yaxşı işlər gördüklərini (və bunun müqabilində mükafata nail olacaqlarını) zənn edirdilər."

"Onlar o kəslərdir ki, Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını (qiyamət günü dirilib haqq-hesab üçün Onun hüzurunda duracaqlarını) inkar etdilər, bununla da onların bütün əməlləri puça çıxdı. Buna görə də Biz (qiyamət günü) onlar üçün bir daş-tərəzi qurmayacağıq!"

3. Elə bu sənədə istinadən Abdullah ibn Şəddaddan rəvayət edir ki, Əbu İmamə mənimlə bir səfərdə olanda Dəməşq qalasının darvazaları yanında xəvariclərin yanında dayanaraq onlara üzünü çevirdi və dedi: "İtlər, itlər" O, bu sözləri bir neçə dəfə təkrarlayaraq dedi:

---

[1] Allahın Rəsulu (s)-in bu idi ki, onlar dindən elə çıxacaqlar ki, vücudlarında İslam dinindən heç bir əsər əlamət qalmayacaq. O Həzrət bu sözləri ən gözəl təşbihlərlə buyurmuşdur.

[2] Səhih Buxari, cild 4, səh 200; Səhih Müslim, cild 3, səh 112; Əhməd ibn Hənbəlin "müsnəd" əsəri, cild 3, səh 56-65; Xəsayese Nəsai, səh 43-44;Mənaqib, Əxtəb Xarəzmi, səh174; Əmtaul Əsma, Məqrizi, səh 425; Zəxairul Uqba, Təbəri, səh 110; Əsədul Ğabə, səh 140 və s. kitablarda bu rəvayət xırda fərqlərlə Əbu Səid Xədəriyə istinadən qeyd olunmuşdur. Şiə alimləri, o cümlədən İbn Şəhraşub və Ərbəli "Kəşful Ğəmə" kitabında bu hədisi Səhih Buxariyə və Əbu Səid Xədəriyə istinadən rəvayət etmişlər.

[3] Hərura Kufə yaxınlığında coğrafi mövqenin adıdır. Xəvariclər orada toplaşandan sonra onların mədəni fəaliyyətləri mərkəzinə çevrildi. Elə bu səbəbdən də onları "Həruriyyə" və "Həruri" adlandırırdılar. İbn Əbul Hədid Əbul Abbasdan rəvayət edərək bildirir ki, Əmirəlmöminin Əli (əs) elə bu səbəbdən onları belə adlandırmışdır. (Nəhcül Bəlağənin şərhi, cild 1, səh 205)

"Onlar göylərin üzərinə kölgə saldığı ölülərin ən pisləridirlər və onların müqabilində dayananlar onları qətlə yetirənlə öldürənlərin ən yaxşılarıdırlar."

Orada olan kişilərdən biri dedi: "Ey Əbu İmamə, sənin indi vurğuladığın "Onlar göylərin üzərinə kölgə saldığı ölülərin ən pisləridirlər və onların müqabilində dayananlar onları qətlə yetirənlə öldürənlərin ən yaxşılarıdırlar" öz nəzərindir, yaxud Allahın Rəsulundan (s) eşitmisən?"

O, dedi: "Mən Allahın Rəsulu (s)-dən eşitmədiyim sözü hansı cürətlə özüm tərəfindən deyə bilərəm?! Bilin ki, mən Allahın Rəsulu (s)-dən bir, iki yeddi dəfəyə qədər eşitmədiyim sözü dilimə gətirmərəm.

Həmin şəxs dedi: "Mən sənin gözlərindən yaş axdığını gördüm."

Əbu İmamə dedi: "Onlara rəhmim gəldi (ürəyim hallarına acıdı), çünki onlar mömin insanlar idilər və iman gətirdikdən sonra kafir olublar." Sonra bu Quran ayəsini tilavət etməyə başladı:

"(Allah tərəfindən) açıq-aydın dəlillər gəldikdən sonra, bir-birindən ayrılan və ixtilaf törədən şəxslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar.* Bəzi üzlərin ağ, bəzi üzlərin isə qara olacağı gündə (qiyamət günündə), üzü qara olanlara: "İman gətirəndən sonra kafirmi oldunuz? İndi, kafir olduğunuza görə dadın əzabı!" – deyiləcəkdir."

İbn Əbul Hədidin sözləri

İbn Əbul Hədid Nəhcül Bəlağənin şərhi əsərində yazır: "Allahın Rəsulu (s) dəfələrlə bildirmişdir ki, Allahu Təala Xəvaricləri qətlə yetirmiş insanların hər birinə savab yazacağını vəd edib. Əksər hədis kitablarında Allahın Rəsulu (s)-dən rəvayət edirlər ki, "Bir gün O Həzrət qəniməti insanlar arasında bölürdü..." Sonra Səhih Buxaridə qeyd olunmuş və bizim diqqətinizə çatdırdığımız rəvayəti yazır. Hədis kitablarının bəzilərində qeyd olunmuş şəxs (yəni Zil Xusirə) Peyğəmbərin yanından çıxdı və gizləndi, təmamilə məhv oldu. Əbu Bəkrə buyurdu:

"Ayağa qalx, o kişinin yanına get və onu qətlə yetir."

Əbu Bəkr ayağa qalxdı, çölə çıxdı, qayıdaraq dedi? "Mən onu namaz qılarkən gördüm. Onu qətlə yetirmədim" Allahın Rəsulu (s) bu sözü Ömərə dedi/ Ömər də gedib qayıtdı və Əbu Bəkrin sözlərini təkrar edərək dedi: "Onu namaz qılan halda gördüm.

Allahın Rəsulu (s) eyni əmri Əmirəlmöminin Əli (əs)-a verdi. Əmirəlmöminin Əli (əs) gedib qayıtdı və buyurdu: "Onu tapmadım". Allahın Rəsulu (s) buyurdu: "Əgər qətlə yetirilsəydi fitnənin əvvəli və sonu bu olardı (və bununla da fitnə sona çatardı) Agah olun ki, bu şəxsin davamçılarından olan insanlar ox ovun bədənini dəlib çıxan kimi dindən çıxacaqlar.[1]

[1] İbn Şəhraşubun Mənaqib əsərində Əbu Yəəli və Əbanə ibn Əkbərinin Müsnəd əsərlərinə, İbn Əbdurəbə

Bəzi səhih hədis kitablarında qeyd olunub ki, Allahın Rəsulu (s) belə buyurub: "İnsanların ən layiqlisi haqlı olaraq onu qətlə yetirəcək!"

Əhməd ibn Hənbəl "Müsnəd" əsərində Məsruqa istinadən belə yazır: "Aişə mənə dedi ki, sən mənim övladımsan, sən mənim övladalrımın ən sevimlisisən. Muxdəcdən[1] xəbərin varmı?"

Cavb verdim: "Bəli, Əli onu Xafiqlə Tərfanın arasında, çayın kənarında, yuxarı bölgələri Tamir və aşağı bölgələri Nəhrəvan adlandırılan yerdə qətlə yetirib.

Aişə dedi: "Dediyin sözləri sübuta yetirmək üçün şahid gətir." Mən bir neçə nəfəri gətirdim və onlar Aişənin yanında bu barədə şəhadət verdilər.

Mən Aişədən soruşdum: "Səni and verirəm bu qəbrin sahibinə (yəni Allahın Rəsuluna) onlar barədə Allahın Rəsulu (s)-dən nəsə eşitmisən?" Aişə cavab verdi: "Eşitmişəm ki, Allahın Rəsulu (s) onlar barədə belə buyurmuşdur: "Həqiqətən onlar Allahın yaratdığı ən pis varlıqlardırlar və onlaı Allahın yaratdıqlarının ən yaxşısı qətlə yetirəcək və həmin şəxs Allahın dərgahına ən yaxın olan insandır!"

Yuxarıda qeyd olunmuş hədisin bir neçə rəvayətini qeyd etdikdən sonra Mədaininin "Siffeyn" kitabından Məsruqa istinadən rəvayət edərək yazır: "Aişə Əmirəlmöminin Əli (əs)-ın o şəxsi qətlə yetirməsini biləndən sonra dedi: "Allah Əmr ibn Asa lənət eləsin! O, mənə yazaraq xəbər verdi ki, həmin şəxsi İskəndəriyyədə qətlə yetirib. Agah olun və bilin ki, mənim qəlbimdə olan hislər Allahın Rəsulu (s)-dən eşitdiyim sözləri sizə çatdırmağa mane ola bilməz. O Həzrət buyurmuşdur: "Onu mənim ümmətimin ən yaxşısı məndən sonra qətlə yetirəcək![2]"

Əndəlusinin Əqdul Fərid, Əbu Nəimin Hilyətul Övliya, Əbu Hatəmin Ziynət və Əbu Bəkr Şirazinin əsərlərinə istinadən qeyd olunmuşdur ki, Allahın Rəsulu (s)-in yanında onun adı çəkildi və onun çox ibadət etməsində O Həzrətə danışdılar. Allahın Rəsulu (s) buyurdu "Mən onu tanımıram." Bu zaman o gəldi və Peyğəmbərin səhabələri dedilər: "Elə özüdür!"

Allahın Rəsulu buyurdu: "Amma mən onun iki gözünün arasında şeytanın nişanəsini görürəm." Allahın Rəsulu (s)-in yanına gəldi və O Həzrət ona buyurdu: "Bizi görəndə öz-özünə fikirləşmədin ki, bu insanların arasında məndən yaxşısı yoxdur?" O cavab verdi: "Bəli fikirləşdim." Bunu deyərək məscidə getdi və namaza dayandı.

Allahın Rəsulu buyurdu: "Bu kişini öldürəcək bir insan yoxdurmu?"

Əbu Bəkr qollarını çirmələdi və onun arxasınca getdi, amma onu ruku halında gördü geri qayıtdı və dedi: "Ruku edən şəxsi qətlə yetirim?"

Allahın Rəsulu buyurdu: "Otur! Sən bu işin kişisi deyilsən." O Həzrət yenidən buyurdu: "Ey Əli ayağa qalx, çünki onun qatili sənsən."

Əli (əs) gedib qayıtdı və dedi: "Onu görmədim"

Allahın Rəsulu (s) buyurdu: "Əgər qətlə yetirilsəydi fitnənin əvvəli və sonu olardı. Başqa bir rəvayətə görə isə belə buyurur: "Bu mənim ümmətim arasında fitnənin ilk budaqlarıdır. Əgər onu qətlə yetirə bilsəydiniz məndən sonra iki nəfərin belə arasında qarşıdurma yaranmazdı. (Mənaqib, cild 3, səh 187)

[1] Zil Xəvisərətin ləqəblərindən biridir. Bu sözün kökü "Xədəc" sözündən götürülüb və naqis mənasını verir. Yəni onun qolunda nöqsan olduğu üçün onu "Muxdəc", yaxud "Muxdəcul Yəd" ləqəbilə çağırırdılar.

[2] İbn Əbul Hədid, Nəhcül Bəlağənin şərhi, cild 1, səh 202

* * *

Xəvariclərin işə başlaması

Tarixçilərin az ixtilafla qeyd etdiyi kimi, Əmirəlmöminin Əli (əs) Kufə şəhərinə daxil olduqdan sonra "Hökm Allaha məxsusdur!" şüarını səsləndirən və ikili hakimliyi qəbul etməyən xəvariclər iki hissəyə bölündülər: bir dəstəsi Əmirəlmöminin Əli (əs)-la Kufə şəhərinə gəldi və digər dəstə Kufə şəhərinin kənarında olan xurma bağlarında dayandılar.

Qarşı tərəfdən xəvariclərin baçılarından olan Hərqus ibn Zəhir və Zərəət ibn Bərəc Tayi Əmirəlmöminin Əli (əs)-ın yanına gəldilər və dedilər: "Etdiyin bu xətaya görə tövbə et və bizi yenidən Müaviyə ilə döyüşə apar və biz onunla müharibə edək." Əmirəlmöminin Əli (əs) onlara belə buyurdu: "Mənim lap əvvəlcədən sizi ikili hakimlilikdən uzaqlaşdırmağa çalışdım, amma siz qəbul etmədiniz. İndi isə bunu günah kimi qəbul edirsiniz? Bilin ki, bu günah deyildi, bu sizin düşüncə zəifliyiniz və bacarıqsızlığınız idi. Mən sizi ondan uzaqlaşdırdım." Zərəət dedi: "Allaha and olsun ki, əgər sən hakimiyyəti başqalarına tapşırdığın üçün tövbə etməsən səni öldürəcəyik və bu işi görməkdə məqsədimiz Allahın rəhmət və razılığını qazanmaqdır. (Səni qətlə yetirməyi savab bilirik!)

Əmirəlmöminin Əli (əs) buyurdu: "Nifrət və əzab sənə olsun!Necə də daş ürəkli olmusunuz? Mən sənin küləklər altında qalmış cəsədini görürəm!"

Zərəət dedi: "Mən belə bir günü sevinclə qarşılayaram."

İbn Şəhraşubun Mənaqib əsərində belə qeyd olunub ki, bu söhbətdən sonra xəvaric və münafiqlərdən başqa birsi İbn Kəvva irəli çıxaraq dedi: "İndi bizə sənin İmam olmadığın sübuta yetdi, çünki sən imam olsaydın (müharibədən) qayıtmazdın!"

Əmirəlmöminin Əli (əs) buyurdu: Alahın Rəsulu (s) Hədibiyyə ilində Məkkəlilərlə müharibə etmədi və geri qayıtdı."

Sonda onlar Əmirəlmöminin Əli (əs)-dan ayrıldılar və sayları on iki minə çatan bir dəstə yaratdılar. Onlar Kufə, Bəsrə və digər şəhərlərdən idilər. Onlar qoşun başçısının şəbəs ibn Rəbii, camaat namazında pişnamazın Abdullah ibn Kəvva olduğunu və qalibiyyətdən sona xilafəti şuraya tapşıracaqlarını bildirdilər.

İbn Şəhraşub sözlərini davam etdirərək yazır ki, Əmirəlmöminin Əli (əs) İbn Abbası onlarla danışıqlar aparmağa göndərdi və o, onları Quran ayələri, Peyğəmbər (s)-in sünnəti və İslami dəlillərlə düz yola yönəltməyə çalışdı, onları belə işlərinə görə təqsirləndirdi və onların bir hissəsi geri qayıtdı[1].

[1] "Kəşful Gimmə" əsərində qeyd olunub ki, onlar İbn Abbası qəbul etmədilər və dedilər: "Əli özü bizim yanımıza gəlməlidir." Əmirəlmöminin Əli (əs) onların yanına gəldi və danışıqlardan sonra onların bir dəstəsi xəvaric əqidəsindən daşınaraq Əmirəlmöminin Əli (əs)-a qoşuldular.
Nəhcül Bəlağədə qeyd olunub ki, Əmirəlmöminin Əli (əs) Abdullah ibn Abbsı düz yola dəvət etmək məqsədilə onların yanına göndərmək istəyəndə onu buyurdu:

Yenə də Əşəs ibn Qeysin fitnəli və münafiq işlərindən söz açaq

İbn Əbul Hədid Əbul Abbasdan rəvayət edir ki, xəvariclərin özlərini göstərən kimi Əmirəlmöminin Əli (əs) Səsəə ibn Suhanı, Ziyad ibn Nəsr Harisi və Abdullah ibn Abbasla bir yerdə onların yanına göndərdi. Onlar geri qayıdanda Əmirəlmöminin Əli (əs) Səsəədən soruşdu: "Onlar öz aralarında kimə daha çox diqqət yetirirdilər?" Səsəə cavab verdi: "Yəzid ibn Qeys Ərbəhəyə". Əmirəlmöminin Əli (əs) atını minərək onların əsas mərkəzi olan Həruraya gəldi. O, Yəzid ibn Qeysin yanına getdi, orada iki rükət namaz qıldı, sonra kamanına söykənərək üzünü xalqa tərəf çevirərək dedi6 "Bura bu dünyada nicat taparaqazadlıq tapa biləcək və qiyamət günü də nicat tapacaq insanların yeridir."

Sonra onlarla söhbət etdi və onları and içdirdi. Onlar dedilər: "Biz ikili hakimliliyi qəbul etməklə böyük günaha batmışıq. İndi də tövbə edirik. Sən də bizim kimi tövbə et!"

Əmirəlmöminin Əli (əs) buyurdu: "Mən bütün günahlarıma görə tək Allah dərgahında bağışlanmağımı istəyirəm!"

Bundan sonra sayı altı min nəfərdən ibarət olan dəstə Əmirəlmöminin Əli (əs)-la birlikdə Kufəyə qayıtdılar. Kufəyə gələndə Əmirəlmöminin Əli (əs)-ın ikili hakimlikdən üz döndərməsi, bunu batil bir addım kimi qəbul etməsi, insanların öz atlarına minərək və azuqələrini götürərək O Həzrətlə birlikdə Şama getməsi əmrini gözləməsi şayələri dolanmağa başladı.

Əşəs ibn Qeys bu sözləri eşidən kimi Əmirəlmöminin Əli (əs)-ın yanına gəldi və dedi: "Ey möminlərin əmiri camaat deyir ki, siz ikili hakimliliyi səhv addım və onu qəbul etməyi küfr adlandırmısınız."

Əmirəlmöminin Əli (əs) bu sözləri eşidən kimi ayağa qalxdı və xütbə oxuyaraq buyurdu: "Mənim ikili hakimlilikdən üz döndərməmi bildirən insanlar yalan deyiblər və bunun səhv olduğunu bilənlər özləri yollarını azıblar."

Bu sözlərdən sonra xəvariclər məscidi tərk edərək yenidən öz mövqelərinə qayıtdılar.

* * *

İbn Əbul Hədid bu hekayənin ardınca belə yazır: "Əmirəlmöminin Əli (əs)-a qarşı baş vermiş bütün qarşıdurmanın, fəsadın və iztirabın kökü Əşəs ibn Qeysə qayıdır. Çünki, onun ikili hakimlilik adı altında macəra axtarması və Əmirəlmöminin Əli (əs)-dan aldığı söz olmasaydı Nəhrəvan müharibəsi baş tutmayacaqdı. Əmirəlmöminin Əli (əs) da onları bir yerə toplayaraq Müaviyə ilə döyüşə aparardı və

"Onlarla mübahisə etmə, çünki Quran barədə ehtimallar və nəzərlər çoxdur. (Hər bir insan onu öz məqsədinə uyğun olaraq təfsir edə bilər.) Onlarla (Allahın Rəsulunun rəvayətləri) sünnətilə danış və dəlil gətir. Çünki, onlar sünnətdən gətirilmiş dəlillərin müqabilində acizdirlər və artıq bəhanə gətirə bilmirlər.

Şamı işğal edərdi. Çünki, Əmirəlmöminin Əli (əs) bu barədə xəvariclərlə birbaşa olmasa da söhbət etmişdi.

Belə ki, Onlar Əmirəlmöminin Əli (əs)-a dedilər ki, biz tövbə etdiyimiz kimi sən də etdiyin bütün işlərə görə Allahın dərgahına tövbə et və biz sənlə Şama gedək.

Əmirəlmöminin Əli (əs) bütün peyğəmbərlərin və məsumların dilinə gətirdiyi ümumi məna daşıyan sözü "Bütün günahlarıma görə Allahdan bağışlanılmağımı istəyirəm" sözünü dilinə gətirdi və onlar da bu sözə razı oldular. Onlar Əmirəlmöminin Əli (əs)-ın bu sözünü onların müsbət cavabı kimi qəbul etdilər. Halbu ki, O Həzrət küfr və ya günah etdiyini etiraf etməmişdi.

Amma Əşəs ibn Qeysin bu məsələni bu qədər araşdırması və macəra axtarması hər şeyi alt-üst etdi. Belə ki, o Əmirəlmöminin Əli (əs)-ın yanına gəldi və qeyd etdiyimiz məsələ barəsində o qədər sual verdi ki, sözünün üzərində olan örtüyü götürdü və məsələni tam şəkildə hamının diqqətinə çatdırdı. Bundan sonra iş pozuldu və fitnə yenidən baş qaldırdı.

Xəvariclərin qısa müddət ərzində törətdiyi cinayətlər

İbn Əbul Hədid yazır: Onlar barədə yayılan xəbərlərdən biri bu idi ki, xəvariclər yolda gedərkən iki nəfər kişi gördülər. Onlardan biri müsəlman və digəri xristiyan idi. Onlar müsəlmanı qətlə yetirdilər, amma xristiyanın zimmə olduğu (yəni müsəlmanların pənahı altında olduğu) üçün onu buraxdılar və dedilər: "Onlar müsəlmanların zimməsidirlər və buna görə də onları qorumaq bizim üzrəimizə düşür."

Əbul Abbasdan belə rəvayət edirlər ki, Xəvariclər Nəhrəvana gedən yolda boynundan Qurani Kərim asılmış və yanında hamilə həyat yoldaşı olan Abdullah ibn Xəbabı[1] tuturlar və ona belə deyirlər: "Sənin boynundan asılmış şey bizə səni qətlə yetirmək əmrini verir."

Abdullah ibn Xəbab dedi: "Quranın diriltdiklərini siz də dirildin və Quranın öldürdüklərini siz də öldürün!"

Bu zaman xəvariclərdən biri ağacdan düşmüş xurmanı ağzına qoydu. Dostları onun üzərinə fəryad çəkdilər (ki bu insanların malıdır) Həmin şəxs öz təqvası xatirinə ağzındakı xurmanı yerə tulladı. Onlardan biri donuzun nəcisinə etiraz əlaməti olaraq onu öldürdü. Ona dedilər ki, sənin bu etdiyin yer üzündəki fəsad və pozğunluqlardandır. Sən nəyə görə bu işi etdin?[2]"

[1] Onun atası Xəbab ibn Ərt Allahın Rəsulu (s)-in səhabələrindən və Əmirəlmöminin Əli (əs)-ın vəfalı silahdaşlarından biri idi. Həmin şəxs İslam dininin yayılmağa başladığı ilk illərdə müşriklərin amansız işkəncələri ilə üzləşmişdi. Biz onun barəsində "İslam Peyğəmbərinin həyatı" kitabında, İslam dininin ilk müsəlmanları bölməsində məlumat vermişik. Bir neçə səhifə bundan öncə də onun İmam Əli (əs)-ın olmadığı vaxtda dünyasını dəyişməsindən söz açmışdıq.
İbn Şəhraşubun qeyd etdiyi kimi Abdullah ibn Xəbab Xəvariclərin Nəhrəvana gələrək həmin məkanda yerləşdiyi vaxtlar Əmirəlmöminin Əli (əs) tərəfindən oranın hakimi təyin olunmuşdu.

[2] Rəvayətlərdə donuzu öldürmüş şəxsin həmin Xristiyan və zimmə əhli olan donuz sahibinin yanına

Sonra Abdullah ibn Xəbabın yanına gəldilər və dedilər: "Atandan bizim üçün hədis söylə!"

Abdullah ibn Xəbab dedi: "Atam deyirdi: "Allahın Rəsulu (s)-dən eşitmişəm ki, belə buyururdu:

"Tezliklə elə bir fitnə baş qaldıracaq ki, onda insanın qəlbi bədəni kimi öləcək. Onlar günü axşama vurana qədər mömin olduqları halda gecəni səhərə açdıqda artıq kafir olacaqlar. Həmin gün sən Allahın yanında qətlə yetirilmiş ol, qatil olma![1]"

Sonra ondan Əbu Bəkr, Ömər, Osman barəsində soruşdular və o həmin şəxslər barəsində müsbət fikirlər yürütdü. Onun Əmirəlmöminin Əli (əs) və ikili hakimlik məsələsi barəsində soruşdular. O, cavab verərək dedi:

"Həqiqətən Əli digərlərindən Allahın dini sahəsində daha bilikli, Allahın dinində hamıdan daha təqvalı və bəsirəti başqalarından daha açıqdır."

Xəvariclər ona dedilər: "Sən hidayətə boyun əyənlərdən deyilsən və insanların adına, adətinə itaət edirsən!" Sonra onu çay kənarına gətirərək başını kəsdilər[2]. Başqa bir rəvayətdə belə qeyd olunur ki, onu ilk dəfə tutanda öldürmədilər, ona donuzla bağlı olan hadisəni və zimmə əhli olan xristiyanın məsələsini danışdılar. Abdullah ibn Xəbab dedi: "Əgər siz bu sözləri doğrudan deyirsinizsə onda məncə siz mənə heç bir zərər yetirməyəcəksiniz. Çünki, mən İslam dinində heç bir bidətə yol verməmişəm, İslam dininə zidd olan heç bir iş görməmişəm. Mən mömin insanam və siz də mənə aman verərək "Sənin üçün heç bir qorxu yoxdur" dediniz.

Amma onlar Abdullah ibn Xəbabin sözlərinə fikir vermədilər və onun boynunu vurdular[3]. Qatillər sonra onun həyat yoldaşının yanına gəldilər. O, qorxudan titrəyirdi və onların qəlbinə rəhm salmaq üçün belə dedi: "Allahdan qorxmursunuz? Mən qadınam axı!" Amma xəvariclər onun sözünə də diqqət yetirmədilər, qətlə yetirərək qarnını parçaladılar.

Xəvariclər daha üç qadını da qətlə yetirdilər və onların arasında Allahın Rəsulu (s)-in söhbətlərindən yararlanmış, başqa sözlə desək qadın səhabələrdən biri olan Umm Sinan Səydavi də var idi[4].

---

getdiyi və onu razı saldığı qeyd olunur.

[1] Peyğəmbərin "qətlə yetirilmiş ol,amma qatl olma" sözünün mənası belədir ki, əgər sən qətlə yetirilsən belə sənin dinin sağlam qalacaq, çünki əgər sən qatil olsan dinində xətər yaranacaq. Elə onun vəziyyəti də belə oldu və onu söhbətdən sonra qətlə yetirdilər.

İbn Dizilin Siffeyn kitabının başqa bir yerində belə qeyd olunub ki, ondan "atanın Allahın Rəsulu (s)-dən rəvayət etdiyi nə hədis eşitmisən?" sualını soruşanda Allahın Rəsulu (s)-in xəvariclər barəsində buyurduğu məşhur hədisi qeyd etdi.

[2] Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 1, səh 206-207

[3] Bir neçə rəvayətdə belə qeyd olunub ki, Abdullah ibn Xəbabın qanı çaya axıdılanda suya qarışmadı və torpağın üzərində olduğu kimi suyun üzərində də axmağa başladı. (Şəzəratuz Zəhəb, cild 1, səhifə 51; Nəhcül Bəlağənin Şərhi, İbn Əbul Hədid, cild 1, səh 203)

[4] İmam Hüseyn ibn Əli (əs)-ın həyatı, cild 2, səh 82

Nəhcül Bəlağənin şərhi əsərində Əbul Abbasa istinadən belə rəvayət edilir ki, Xəvariclər Abdullah ibn Xəbabı qətlə yetirəndən sonra xurma ağacları olan xristiyan bir kişinin yanına gəldilər və onlara bu xurma ağacının meyvəsindən verməsini istədilər. Xristiyan kişi dedi: "Sizin olsun, götürün."

Xəvariclər cavab verdilər ki, verdiyin xurmanın pulunu almasan ona əl vurmayacayıq. Xristiyan kişi dedi: "Çox təəccüblüdür ki, siz Abdullah ibn Xəbab kimi insanı qətlə yetirirsiniz, amma pulunu ödəmədən bir xurma ağacının meyvəsini götürmək istəmirsiniz."

Əmirəlmöminin Əli (əs)-ın xəvariclələ müharibə məqsədilə yola düşməsi və münəccimin hekayəsi

Bütün rəvayətlərə diqqət yetirdikdən sonra belə nəticə çıxarmaq olar ki, Əmirəlmöminin Əli (əs)-ın yenidən qoşun toplayaraq Müaviyəilə müharibə etmək istəyirdi və buna görə də qoşununa Nəxiliyyə məntəqəsinə getməsini və orada qoşunun qalan hissəsinin gözləməsini əmr etdi. Amma O Həzrətin silahdaşlarından bir neçəsi xəvariclərin yarada biləcəyi fəsadlar barədə söz açaraq belə dedilər: "Sizin Kufədə olmadığınız vaxt onlar bu şəhərə hücum edə bilərlər." Başqa döyüşçülər də ailələrinin təhlükəsizlikdə olacaqlarından narahat olduqlarını bildirdilər. Elə bu səbəbdən də Əmirəlmöminin Əli (əs) Şama getməzdən öncə Xəvaricələrlə hesabı çürütmək qərarına gəldi.

Tarix kitablarında[1] belə qeyd olunub ki, Əmirəlmöminin Əli (əs) Xəvaricələrlə döyüşə getmək üçün Kufədən yola düşmək istəyəndə O Həzrətin səhabələri arasında dayanmış münəccim irəli çıxaraq dedi: "Ey möminlərin əmiri! Bu saatda yola düşmə, gözlə və üç saatdan sonra yola düş. Çünki, əgər indi yola düşsəniz həm özünüz, həm də sənlə olan döyüşçülər də böyük əzab-əziyyətlə üzləşəcəklər. Əgər mən dediyim vaxta qədər gözləsəniz və ondan sonra yola düşsəniz qələbə qazanacaqsınız və öz istəyinizi əldə etmiş olacaqsınız."

Əmirəlmöminin Əli (əs) buyurdu: "Bilirsən mənim atımın qarnında olan balası nədir, erkəkdir, ya dişi?"

Münəccim dedi: "Əgər hesablasam bilərəm."

Əmirəlmöminin Əli (əs) buyurdu: "Onda hər kəs səni təsdiqləyər və Quranı təkzib edər, çünki Allahu Təala Qurani Kərimdə buyurub:

إِنَّ اللَّهَ عِندَهُ عِلْمُ السَّاعَةِ وَيُنَزِّلُ الْغَيْثَ وَيَعْلَمُ مَا فِي الْأَرْحَامِ وَمَا تَدْرِي نَفْسٌ مَّاذَا تَكْسِبُ غَداً وَمَا تَدْرِي نَفْسٌ بِأَيِّ أَرْضٍ تَمُوتُ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ[2]

"Həqiqətən, o saatı (qiyamətin qopacağı vaxtı) ancaq Allah bilir. Yağışı (istədiyi vaxt) göydən O yağdırır, bətnlərdə olanı (doğulacaq uşağın oğlan, yaxud qız, xəstə

[1] Bu hadisələr barədə müxtəsər şəkildə Nəhcül Bəlağənin 77-ci xütbəsində də qeyd olunmuşdur.

[2] Loğman Surəsi, ayə 34

və ya sağlam, xoşbəxt və ya bədbəxt, yaxşı və ya pis əməl sahibi olacağını) O bilir. Heç kəs səhər nə kəsb edəcəyini (savab, yaxud günah qazanacağını), heç kəs harada öləcəyini bilməz. Allah isə, şübhəsiz ki, (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır!"

Əmirəlmöminin Əli (əs) sözlərini davam etdirərək buyurdu: "Muhəmməd (s) belə sənin iddia etdiyin elmin iddiasın etmirdi. Sən hər hansı bir şəxsin hərəkət etdiyi zaman uğur əldə edəcəyini və başqa bir vaxt yola düşəcəyi təqdirdə məğlubiyətlə üzləşəcəyini bildiyini düşünürsən? Səni bu barədə təsdiq edən hər bir şəxs öz çətinliklərini həll etmək yolunda Allaha ehtiyac duymaz və səni qəbul edən hər bir insan Allaha yox, sənə şükür etməlidir. Çünki, sən öz nəzərlərin və düşüncələrinlə onu zəfər və məğlubiyyət olan vaxtlar barəsində onu məlumatlandıra bilərsən. Sənə inanan insan isə Allahu Təalaya şərik qoşan insanlardan birinə çevrilər."

Əmirəlmöminin Əli (əs) bu sözlərdən sonra belə buyurdu: "Allahım sənin falından başqa fal, sənin ziyanından başqa ziyan və səndən başqa Allah yoxdur!"

Əmirəlmöminin Əli (əs) üzünü münəccimə tərəf çevirərək dedi: "Biz sənin bu sözlərinlə müxalifət edərək sənin bizim yola düşməyimiz üçün münasib bilmədiyin vaxt yola düşəcəyik. Sonra üzünü camaata tərəf çevirərək buyurdu:

"Ey camaat quruda və dənizdə qaranlıq vaxta yol tapmanıza köməklik edən münəccimlikdən savayı bütün münəccimlikdən uzaq olun. Əgər münəccim qeybdən xəbər verirsə kahin olur, kahin kafirdir və kafirin də yeri cəhənnəmdir!"

Əmirəlmöminin Əli (əs) yenidən üzünü həmin münəccimə tərəf çevirərək buyurdu: "Allaha and olsun ki, əgər sənin nücum elmilə məşğul olduğunu bilsəm, mən həyatda olduğum müddətdə səni zindana saldıracam və sənin beytulmaldan olan payını kəsəcəm."

Əmirəlmöminin Əli (əs) bu sözləri buyurduqdan sonra yola düşdü və xəvariclərə qalib gəldikdən sonra isə belə buyurdu: "Əgər münəccimin sözünə qulaq asaraq onun dediyi vaxt yola düşsəydik camaat deyərdi ki, münəccimin dediyi vaxta yola düşdükləri üçün qalib gəldilər." O Həzrət belə buyurdu: "Bilin və agah olun ki, Muhəmməd (s)-in münəccimi yox idi və O Həzrətdən sonra Allah Kəsranın (İran padşahı) və Qeysərin (Roma imperatoru) şəhərlərini fəth etməkdə bizə yardımçı olana qədər bizim də münəccimimiz olmayıb. Ey camaat, Allaha təvəkkül edin və ona inanın!"

Əmirəlmöminin Əli (əs)-ın Xəvariclərlə müharibəyə gedən zaman etdiyi dua

Qurbul Əsnad və digər kitablarda belə rəvayət olunub ki, Əmirəlmöminin Əli (əs) Xəvariclərlə müharibəyə yola düşmək istəyəndə bu duanı oxudu:

"Allahım, ey beytul məmurun, uca göylərin, geniş dənizlərin, Quran kitabının pərvərdigarı! Səndən Sənin kitabına etina etməyən, sənə itaətsizlik göstərərək

(Peyğəmbərin) Əhməd(s)-in dinindən üz döndərən insanların üzərində qələbə qazanmağı istəyirəm."

Əmirəlmöminin Əli (əs) Xəvariclərin gələcəyindən xəbər verir

İbn Əbul Hədid Mədaininin "Xəvaric" kitabına istinadən qeyd etdiyi və Şiə hədisçilərinin də xırda fərqlərlə öz kitablarında qeyd etdikləri rəvayətlərə[1] əsasən Əmirəlmöminin Əli (əs) Xəvariclərlə müzakirələr aparmaq istəyəndə O Həzrətdən daha tez irəli getmiş döyüşçülərdən biri onun yanına qayıdaraq dedi: "Müjdə Ey Möminlərin əmiri!"

Əmirəlmöminin Əli (əs) buyurdu: "Nə müjdə?" Döyüşçü dedi: " Bu qövm Sizin bura gəldiyinizi eşitdikdə çayı keçdilər və öz silahlarını yerə ataraq təslim olurlar."

Əmirəlmöminin Əli (əs) buyurdu: "Səni and verirəm Allaha, onların çayı keçdiklərini özün gördün?" Döyüşçü dedi: "Bəli!" İmam Əli (əs) onu üç dəfə Allaha and içdirdi və döyüşçü hər dəfə "Bəli" cavabını verdi.

Əmirəlmöminin Əli (əs) buyurdu: "Allaha and olsun ki, onlar çayı keçməyiblər və keçməyəcəklər. Onların yerləşdiyi yer çayın o biri tərəfidir və toxumu parçalayan, insanı yaradan Allaha and olsun ki, onlar "Əslas" və "Qəsrburan"-a çatmadan Allah hamısını öldürəcək. İftira atan və yalan danışan hər bir insan məqsədə çatmayacaq və ziyan edəcək!"

Bu zaman başqa bir atlı sürətlə gəldi və birinci atlının sözlərini (Xəvariclərin çayı keçmələrini) təkrarladı, amma Əmirəlmöminin Əli (əs) onun sözünə etina etmədi. Bir neçə atlı beləcə ardıcıl olaraq gəldilər və onlardan öncə gəlmiş digər atlıların sözlərini təkrarladılar, amma Əmirəlmöminin Əli (əs) onların dediklərinə də etinasızlıq göstərdi[2].

Bu hadisələri müşahidə edən gənc döyüşçü dedi: "Allaha and olsun ki, onların yanına gedirəm. Əgər Xəvariclərin çaydan keçdiklərini görsəm nizəmi O Həzrətin gözünə batıracağam! Bu sözlərlə O qeyb elmini bildiyini idda edir?!"

---

[1] İsbatul Hədat kitabının 11-ci bölümünə, yəni Əmirəlmöminin Əli (əs)-ın möcüzələri bölümünə müraciət edə bilərsiniz.

[2] Rəvayətin bura qədər eşitdiyimiz hissəsindən belə qənaətə gəlmək olar ki, Əmirəlmöminin Əli (əs)-ın nöqteyi nəzərindən həmin döyüşçülərin sözlərinin yalan olması müəyyənləşir. Rəvayətin davamında bunun həqiqətən belə olması təsdiqlənir. Bu yalanlar barədə düşündükdə iki nəzəriyyə meydana çıxır; Birincisi bu döyüşçülərin doğurdan mənzərəni səhv görmələri və tam dəqiqliklə baxmadan O Həzrətin yanına gəlmələri və İmam (əs)-a olan dərin sevgilərinə görə O Həzrəti sevindirmək istəmələri olub.
İkinci nəzəriyyəyə istinad etsək bu məsələdə hiylənin olduğunu görmüş olarıq. Belə ki O Həzrətin qoşunnunda həmişə münafiq insanlar olub və onlar Əmirəlmöminin Əli (əs)-ı bu döyüşə getməkdən saxlamaq üçün belə plan cızıblar. Məsələdən xəbərdar olan İmam (əs) onların sözlərinə inanmadı, öz sözündən dönmədi və bununla da bütün dini liderlərə böyük dərs vermiş oldu.

Həmin gənc çayın yanına gəldi və Xəvariclərin çayın o biri tərəfində olduqlarını, qılınclarının qınlarını sındırmalarının, atlarının ayaqlarını kəsdiklərinin və dizləri üstə oturaraq döyüşə hazır olduqlarının şahidi oldu. Vəziyyəti belə görən gənc döyüşçü Əmirəlmöminin Əli (əs)-ın yanına qayıtdı və dedi: "Ey Möminlərin əmiri mən sizin bu hadisə barəsində çıxardığınız qərara şübhə etdim, indi isə Allahın dərgahına və sizin hüzurunuzda tövbə etmək istəyirəm. Məni bağışla!"

Əmirəlmöminin Əli (əs) buyurdu: "Həqiqətən tək Allah günahları bağışlayandır və ondan bağışlanılmağını istə![1]"

Əbu Əyub Ənsarinin "Sülh" bayrağı

İbn Şəhraşub və digərləri belə qeyd ediblər ki, Əmirəlmöminin Əli (əs) döyüşdən öncə öz boynuna düşən işi tamamlamaq üçün onlarla danışıq apardı və onların bəziləri peşiman olaraq tövbə etdilər.

Əmirəlmöminin Əli (əs) Əbu Əyuba "sülh" bayrağını tapşırdı və bayrağın altına gələcək hər bir kəsə aman verilməsini tapşırdı.

Səkkiz min nəfər həmin bayrağın altına toplaşdı və Əmirəlmöminin Əli (əs) onların kənara çəkilərək digərlərindən ayrılmalarını əmr etdi. Öz batil düşüncələrindən əl çəkməyən dörd min xəvaric isə Nəhrəvan tərəfə getdilər.

Əmirəlmöminin Əli (əs) onlar üçün xütbə oxudu və onları Şama, Müaviyə ilə döyüşə getməyə çağırdı, amma onlar qəbul etmədilər və öz yollarına davam etdilər. Əmirəlmöminin Əli (əs) məktub yazdı və Abdullah ibn Əbu Əqəblə onlara göndərdi. Həmin məktubun bir hissəsi belədir:

"Rəiyyəti onun tərəfindən xoşbəxtliyə qovuşan şəxs xoşbətdir və rəiyyəti onun əli ilə bədbəxt olan şəxs həqiqətən bədbəxtdir. İnsanların ən pisi özü üçün pis olan, Allah yanında hörməti, insanlar arasında yaxını olmayan insandır. Hər kəs öz əməllərinini girovundadır."

Bunun ardınca onlardan bu müxalifəti kənara qoymağı və bağışlanmalarını istədi, amma onlar ixtilaflarını kənara qoymadılar və Əmirəlmöminin Əli (əs)-la müharibəyə hazırlaşdırlar. Ərbəlinin "Kəşful Ğəmə" əsərində belə qeyd olunur

[1] Ravəndinin "Xəraric" əsərində buna bənzər hekayəni Cəndəb ibn Zəhirə istinadən qeyd etmişdir: "Mən Əmirəlmömin Əli (əs)-la Xəvariclərlə döyüşmək üçün getmişdim. Onlara yaxınlaşanda onların arı pətəyindən arıların birgə səs çıxarması kimi bir yerdə Quran tilavət etmələrinin, üzlərində səcdə nişanələrinin olmasının, alınlarının qabar bağlamasının və ibadətə məxsus digər əlamətlərin olmasının şahidi oldum. Gördüyüm bu mənzərə qəlbimdə Xəvariclərlə döyüşmək barəsində şəkk yaratdı. Elə buna görə də atdan düşdüm, nizəmi yerə batırdım, qalxanımı yerə tulladım və zirehimi də qalxanımın üstünə qoydum. Namaz qıldım və dua edərək dedim: "Allahım əgər bu insanlarla döyüşmək sənin razılığına və sevincinə səbəb olacaqsa mənə bizim işimizin haqq olmasını təsdiq edən nişanə göstər. Əgər sənin qəzəbinə səbəb olacaqsa bu işi məndən uzaqlaşdır."
Bu zaman Əli (əs) irəli çıxdı Allahın Rəsulu (s)-in qatırından yerə düşdü və namaza başladı. Bir nəfər O Həzrətə yaxınlaşdı və dedi: "Bunlar çayı keçdilər...və qalanını biz sizlərin nəzərinizə çatdırmışıq.

ki, Xəvariclərin başçılarından iki nəfər, Abdullah ibn Vəhəb və "Zul Ədiyə" kimi tanınan Hərqus ibn Zuheyrirəli çıxaraq dedilər: "Biz sənlə etdiyimiz müharibədə Allahın razılığını və Qiyamət gününün xoşbəxtliyini axtarırıq!" Əmirəlmöminin Əli (əs) da qeyd etdiyimiz ayənin onlar üçün tilavət edir[1].

Döyüşün başlaması

Əmirəlmöminin Əli (əs) öz döyüşçülərinə düşmənlər hücuma başlamazdan öncə döyüşə başlamamq əmrini verdi. Ravəndinin "Xərayic" əsərinə istinadə döyüş başlamamışdan öncə Əmirəlmöminin Əli (əs) Quranı əlinə götürdü və üzünü silahdaşlarına tərəf çevirərək buyurdu:

"Sizin aranızda Quranı götürərək düşmənə sarı gedən və onları Allahın kitabına və Allahın Rəsulu (s)-in sünnətinə dəvət edən, bu yolda ölməyə hazır olan,amma müqabilində cənnətlə mükafatlanmaq istəyən şəxs kimdir?"

Bəni Amir ibn Səsəə qəbiləsindən olan yeniyetmədən savayı heç kim O Həzrətin çağırışına cavab vermədi. Əmirəlmöminin Əli (əs) onun yaşının azlığını və yeniyetmə olduğunu gördükdə buyurdu: "Öz yerinə qayıt!"

Yeniyetmə yerinə qayıtdı və Əmirəlmöminin Əli (əs) ikinci dəfə öz çağırışını təkrarladı. Amma yenə də həmin yeniyetmədən savayı heç kim cavab vermədi. Əmirəlmöminin Əli (əs) Quranı ona verdi və buyurdu: "Amma bil ki, sən öləcəksən!"

Həmin yeniyetmə Quranı əlinə götürdü və Xəvariclərin yanına apardı, onları Qurana əməl etməyə dəvət etdi. Xəvaricər onu ox yağışına tutdular və o Əmirəlmöminin Əli (əs)-ın yanına qayıdanda üzü kirpinin beli kimi oxla dolu idi. Bunun ardınca Əmirəlmöminin Əli (əs) hücum əmrini verdi.

Bir neçə hədisdə belə qeyd olunub ki, Əmirəlmöminin Əli (əs) onlarla üzüzə gələndə onlardan Abdullah ibn Xəbab, Haris ibn Mərə və qadınların kim tərəfindən qətlə yetirildiyini soruşdu və həmin şəxsdən qisas almaq üçün onu meydana dəvət etmək istədiyini bildirdi. Xəvariclərin hamısı bir ağızdan dedi: "Bizim hamımız onları öldürmüşük!" Onlar bu sözlə O Həzrətə qarşı olan inadkarlıqlarını və itaətsizliklərini bir daha sübut etdilər.

Qeybən bir xəbər və Qeyb elmi barədə müxtəsər söhbət

Nəhcül Bəlağədə (xütbə 59), Şiə və Sünnə əhlinin hədis alimlərinin rəvayətlərində belə qeyd olunmuşdur ki, Əmirəlmöminin Əli (əs) Xəvariclərlə döyüşdən

[1] Yəni Kəhf surəsinin 103-cü ayəsini oxuyur. Allahu Təala bu ayədə belə buyurur:

قُلْ هَلْ نُنَبِّئُكُمْ بِالْأَخْسَرِينَ أَعْمَالاً* الَّذِينَ ضَلَّ سَعْيُهُمْ فِي الْحَيَاةِ الدُّنْيَا وَهُمْ يَحْسَبُونَ أَنَّهُمْ يُحْسِنُونَ صُنْعاً

"(Ya Rəsulum!) De: "Sizə əməlləri baxımından (axirətdə) ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi?"* O kəslər ki, onların dünyadakı zəhməti boşa getmişdir. Halbuki onlar yaxşı işlər gördüklərini (və bunun müqabilində mükafata nail olacaqlarını) zənn edirdilər."

öncə bir neçə dəfə onların başına gələcək hadisələrdən xəbər vermişdi. Nəhcül Bəlağədə də onların Nəhrivan çayı üzərində olan körpüdən keçmələri barədə xəbəri çatdıranda buyurduğu sözlər qeyd olunmuşdur:

"Onların qətl yeri çayın bu tərəfidir və Allaha and olsun ki, onlardan yalnız on nəfər nicat tapacaq və sizlərdən də yalnız on nəfər qətlə yetiriləcək.[1]" Nəhcül Bəlağədə bunu ardınca başqa bir qeybdən xəbər qeyd olunmuşdur və həmin xəbər bu idi ki, Nəhrivan döyüşündən sonra Əmirəlmöminin Əli (əs)-a hamısının qətlə yetirildiyi barədə xəbər verəndə buyurdu:

"Yox, Allaha and olsun ki, belə deyil. Onlar kişilərin belində və qadınların bətnində olan nütfələrdirlər. Onlardan əmələ gəlmiş hər budaq sınacaq və sonda yolkəsən oğru olacaqlar."

Bu xütbədən öncə 58-ci xütbədə belə qeyd olunub ki, Əmirəlmöminin Əli (əs) Xəvariclə danışıqlar aparanda onlara gələcəkləri barədə xəbər verərək buyurdu: "Külək xırda çınqılları hərəkətə gətirərək sizin üzərinizə hərəkət etdirəcək və sizlərdən sizin xurma ağaclarınıza qulluq etmək üçün belə heç kim qalmayacaq (sizin nəsliniz kəsiləcək) Bilin və agah olun ki, tezliklə məndən sonra zillətə, böyük rüsvayçılığa və kəsici qılınclara düçar olacaqsınız və sizin malınızı zalımlar mənimsəyəcəklər. Onlar bu işi öz aralarında adət-ənənəyə çevirəcəklər."

İbn Əbul Hədid Əmirəlmöminin Əli (əs)-ın sözlərinin son hissəsinə şərh verərək Nəhrəvan döyüşündən sonra qalan Xəvariclərin başına gələnləri, müsəlman şəhərlərindən həyata keçirdikləri fitnələri, hər yerdə üzləşdikləri məğlubiyyətləri, sonda Əmirəlmöminin Əli (əs) buyurduğu kimi yol kəsmək və oğurluq etməklə məşğul olmalarını və məhv olmalarını geniş şəkildə qələmə almışdır. Maraqlanan hər bir şəxs bu məlumatları əldə edə bilər[2].

Əmirəlmöminin Əli (əs)-ın döyüş günü Xəvariclərin taleyi barədə buyurduqları "qeyb elmi" sahəsində araşdırılmalı məsələlərdən biridir. İbn Əbul Hədid belə yazır: "Əmirəlmöminin Əli (əs)-ın buyurduğu (o inlardan on nəfər nicat tapacaq və sizdən də on nəfər öləcək) qeybdən xəbəri böyük şöhrətə malikdir və demək olar ki hamı bu xəbərin O Həzrətdən olduğunu qeyd etmişdir. Bu O Həzrətin qeybdən verdiyi xəbərlərindən və möcüzələrindən biridir.

Sözlərini davam etdirərək belə yazır: "Xəbərlər iki dəstəyə bölünür. Birinci dəstədə olan xəbərlərdə möcüzə yoxdur. Məsələn, bir nəfər öz silahdaşlarına deyir: "Siz tezliklə sabah üzləşəcəyiniz qoşun üzərində qələbə qazanacaqsınız." əgər onlar qələbə qazanarlarsa hənim şəxs onu öz silahdaşları arasında möcüzə kimi qələmə verər. Amma qələbə qazanmadıqları təqdirdə onlara deyər ki, "sizin

[1] Bu hədis və bundan sonra qeyd olunacaq hədis barədə ətraflı məlumat toplamaq üçün Biharul Ənvarın 600-615-ci səhifələrinə və Əhqaqul Həqq əsərinin cild 8, səh 519-520 müraciət edə bilərsiniz.

[2] Nəhcül Bəlağənin Şərhi, İbn Əbul Hədid, cild 1, səh 380-424

niyyətləriniz dəyişdi və mənim söylədiklərimə şəkk etdiniz. Elə buna görə də Allah sizə yardımçı olmadı."

Eləcə də, şahların və sərkərdələrin arasında belə bir adət var idi ki, onlar öz döyüşçülərinə qələbə vəd edirdilər və başqa dövlətləri fəth etməkdən zəfər arzulayırdılar. Amma bu qələbə doğurdan hasil olanda onu həmin şəxsin qeybdən xəbər verməsi kimi dəyərləndirmək düzgün deyil.

İkinci dəstədə olan xəbərlər isə həqiqətən qeybdən verilmiş xəbərlərdir. Misal üçün diqqətinizə çatdırdığımız son hadisəni misal çəkmək olar və qeybdən verilmiş bu xəbərdə heç bir səhv ola bilməz. Çünki, ölənlərin sayı belə tam dəqiqliklə qeyd olunmuşdu və döyüşdən sonra qeybdən verilmiş xəbərin həqiqətlə tam üst-üstə düşməsi məlum olur. Bu İlahi məsələdir və buna Allahın Rəsulu (s) tərəfindən xəbərdar olmuşdur. Allahın Rəsulu (s) də bu məsələ barəsində Sübhan Allah tərəfindən xəbərdar edilmişdir. Belə məsələləri dərk etməkdən ötrü başqa bir açıqlama yoxdur. Elə bu səbəbdən də bir dəstə insan onun barədə mübaliğəyə əl ataraq onun İlahi gücə malik olmasını qəbul etmişlər. Onların nəzərincə Allah onun daxilində idi.

İbn Əbul Hədid onların hekayələrini qeyd edir və belə yazır: "Amma Allahu Təala tərəfindən O Həzrətə buyurulmuş qeybi xəbərlər onun Allahlığına və yaxud Allahın onun daxilində olmasına dəlalət eləmir...!"

O daha sonra qeyb elmindən xəbərdar olan şəxslər, o cümlədən münəccimlər, kahinlər və sadiq yuxular vasitəsilə qeybdən xəbər verən digər insanlar barədə danışdıqdan, onların təəccübləndirici hekayələrindən söz açdıqdan sonra yazır: "Bilin ki, biz insanın qeybdən xəbər vermək bacarığına malik olmasını danmırıq, amma bunların hamısı Allaha istinadən əmələ gəlir. Yəni, bu qeybi xəbərlər Pak Allahın qüdrəti və lazımi şərait yaratmasından sonra yarana bilir.[1]"

Müəllif yazır: İbn Əbul Hədidin sözlərindən məlum olduğu kimi qeyb xəbərlərinin Allahın Rəsulu və digər peyğəmbərlər, Əmirəlmöminin Əli (əs) və digər məsum İmamlarımız tərəfindən çatdırılması O Həzrətlərin möcüzələrindən biri kimi qəbul edilir. Əldə olunmuş tarixi sənədlərdən, rəvayətlərdən və Şiə alimlərinin qeyd etdikləri hədislərdən belə qənaətə gəlmək olar ki, nəinki imamlarımız, hətta İslam dininin müqəddəs Peyğəmbəri (s) belə özbaşına qeyb elmindən agah olmalarını iddia etməmişlər. O Həzrətlər qeybdən xəbər verərkən bu xəbərdən öncə və ya sonra buyurardılar: "Biz buna öz əcdadlarımızın vasitəsilə Allahın Rəsulu (s)-dən, Cəbrayıl (əs)-dan və Allah Təaladan xəbərdar olmuşuq. Qeyd etdiyimiz sonuncu məsələnin Allah Təalanın Qurani Kərimdə, qeyb elminin yalnız Allaha məxsus olması barədə buyurduğu ayələrilə heç bir ixtilafı yoxdur. Çünki, onların qeyb elmi Allahın qeyb elmindən mənşə alır. Onlar Allahın köməkliyilə

[1] Həmin mənbə, səh 425-427

qeybdən xəbərdar olurlar və başqalarını da xəbərdar edirlər. Başqa sözlə desək bu elə Allahın qeyb elmidir və bu xəbərlər Allahın Rəsulu (s) və Pak İmamlarımızın vasitəçiliyilə insanlara çatdırılır.

Amma onlarla adi insanlar arasındakı fərq bundan ibarətdir ki, O Həzrətlər hər dəfə qeyb elmindən xəbərdar olmaq istəyəndə AllahTəaladan istəyirdilər və Allah Təala da onların öz yanında malik olduqları məqam və əzəmətə görə onları qeyb elmindən xəbərdar edirdi. Elə bu səbəbdən də pak imamlarımızdan bizə bir çox rəvayətlər gəlib çatmışdır. Üsuli Kafi əsərində bu barədə bölüm də mövcuddur. Bu bölümdə qeyd olunmuş rəvayətlər də həmin məzmundadır. Qeyd olunmuş məsələ barəsində daha geniş məlumat əldə etmək üçün Üsuli Kafi, yaxud ona yazılmış şərhlər, o cümlədən Molla Sədra Mazəndəraninin şərhinə, Miratul Uqul əsərinə, Vafi və Biharul Ənvar əsərlərinə müraciət edə bilərsiniz.

Yalnız doqquz nəfər sağ qaldı

Qeyd etdiyimiz kimi Xəvariclərin dörd min nəfəri təslim olmadılar, döyüşə hazırlaşdılar və hücuma keçdilər. Xəvariclər ilk olaraq əlində Qurani Kərim saxlamış yeniyetməni ox yağışına tutdular və şəhid etdilər. Bundan sonra Əmirəlmöminin Əli (əs)-ın qoşununa hücuma başladılar. Əmirəlmöminin Əli (əs)-ın qoşunu sıraları açaraq onların qoşunun içərisinə girməyə şərait yaratdılar və onları iki tərəfdən mühasirəyə aldılar. Qısa müddət ərzində, yəni döyüş başladığı zamandan bir neçə saat ərzində döyüş meydanından qaçmağa müvəffəq olmuş doqquz nəfərdən savayı Xəvariclərin hamısı qılıncdan keçirildi. Ölənlərin cənazələri üst-üstə qalanmışdı və onların arasında Hərqus ibn Zuheyr, "Zul Sədiyə" də var idi. İbn Şəhraşubun qeyd etdiyinə əsasən, o əmisi oğlu Vuzah ibn Vuzahla hər biri bir tərəfdən Əmirəlmöminin Əli (əs)-a hücum etdilər. Əmirəlmöminin Əli (əs)Vuzahı qətlə yetirdi.Hərqusu da qətlə yetirmək üçün zərbə endirdi, amma qılıncla vurulan zərbə ata dəydi. Elə buna görə də at qaçdı və Hərqusu da özü ilə aparıb xarabalığa tulladı.

Döyüşün sonu və Əmirəlmöminin Əli (əs)-ın Hərqusun taleyi barədə soruşması

İbn Əbul Hədid yazır: "Tarixçilərin hamısı qeyd edir ki, Xəvariclərin hamısı qətlə yetirildikdən sonra Əmirəlmöminin Əli (əs) Zul Sədiyəni axtarmağa başladı. Əmirəlmöminin Əli (əs) ölülərin hamısının axtarılması və Zul Sədiyənin ölülər arasından tapılması əmrini verdi, amma axtarışlar heç bir fayda vemədi. Bu Hadisə Əmirəlmöminin Əli (əs)-ın ciddi narahatlığına səbəb oldu. Əmirəlmöminin Əli (əs) dayanmadan buyururdu: "Allaha and olsun ki, mənə yalan söyləməyiblər və mən də yalan söyləmirəm. O kişini axtarın, çünki bunların arasındadır."

Uzun sürən axtarışlardan sonra həmin insanı tapdılar. Onun qolunda nöqsan var idi. Bu barədə müxtəlif rəvayətlər mövcuddur və həmin rəvayətlərdən biri Yəzid ibn Ruyəmə məxsusdur. O, yazır: "Həmin gün Əmirəlmöminin Əli (əs) buyurdu: "Biz bu gün dörd min xəvarici qətlə yetirəcəyik və onlardan biri Zul Sədiyə olacaq!" Müharibə başa çatandan sonra Əmirəlmöminin Əli (əs) Zul Sədiyəni tapmaq istədi və mənə dörd min çubuq tapmağı buyurdu. Əmirəlmöminin Əli (əs) Allahın Rəsulu (s)-in qatırına mindi və mənə belə buyurdu: "Hər ölünün üzərinə bir çubuq at!" Mən beləcə addımlayaraq hər ölünün üzərinə bir çubuq atdım və O Həzrət də mənim arxamca gəlirdi. Sonda əlimdə bir çubuq qaldı. Bu zaman Əmirəlmöminin Əli (əs)-ın rənginin qaçdığını gördüm. O Həzrət, buyurdu: "Allaha and olsun ki, mənə yalan deyilməyib və mən də yalan söyləməmişəm!". Həmin an ətrafda olan quyulardan birindən su səsi eşidildi. Əmirəlmöminin Əli (əs) buyurdu: "Buranı da axtarın!"

Mən oranı axtardım və həmin quyunun içərisindəki suda olan cəsədi gördüm. Ölünün ayağından tutdum və O Həzrətə əlimdəkinin bir insan ayağının olduğunu bildirdim.

Əmirəlmöminin Əli (əs) dərhal qatırdan endi və ölünün o biri ayağından yapışdı və köməkləşib onu sudan çıxardıq. Onu yerə uzatdıqdan sonra Məxdəc olduğunu gördük. Bu zaman Əmirəlmöminin Əli (əs) uca səslə təkbir dedi, şükür səcdəsi etdi və insanlar da O Həzrətin ardınca təkbir dedilər."

İbn Əbul Hədid bu rəvayətin sonunda belə yazır: "Hədis alimlərinin əksəriyyəti belə rəvayət edirlər ki, Həzrət Peyğəmbər (s) bir gün əshabına belə buyurdu: "Həqiqətən sizlərin arasında eləsi var ki, mən Quranın nazil olması yolunda apardığım mübarizəni o Quranın təfsiri və təvili yolunda davam etdirəcəkdir." O indi mənim başmağımı tikən şəxsdir." Sonra Əmirəlmöminin Əli (əs) tərəfə işarə etdi[1].

Müəllif yazır: "İbn Əbul Hədidin Əmirəlmöminin Əli (əs)-ın Hərqus ibn Zuheyri axtarması barəsində olan rəvayətə Əhqaqul Həqq (cild 8, səh 475-522) əsərində və Biharul Ənvarda (cild 8, səh 596-614) və İsbatul Hədat kitabının (Əmirəlmöminin Əli (əs)-ın möcüzələri fəslində rast gələ bilərsiniz.

12 Siffeyn və Nəhrivan döyüşlərindən Əmirəlmöminin Əli (əs)-ın şəhadətinə qədər olan müddətdə Müaviyənin törətdiyi əməllər

Nakislər, Qasitlər və Mariqlərlə aparılan döyüşlər Əmirəlmöminin Əli (əs)-ın gücünü zəiflətdi

Əmirəlmöminin Əli (əs)-ın Nakislər, Qasitlər və Mariqlərlə apardığı döyüşlərdə hərbi və siyasi baxımdan qələbə çalmasına, Əmr Asla Əbu Musa Əşərinin ikili hakimlilik qurmasına və ikili hakimliliyin tanınmamasına baxmayaraq həm dost

[1] Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 1, səh 205. Biz bu hədis barədə öncə geniş məlumat vermişik. Maraqlanan şəxslər həmin bəhslərimizə müraciət edə bilərlər.

həm düşmən bütün bu macəraların hiylə və məkirli siyasətdən savayı bir şey olmadığını anlayırdı. Amma bunu da qeyd etmək lazımdır ki, bu müharibələri və hiylələri Əmirəlmöminin Əli (əs)-ın və onun tərəfdarlarının gücünü zəiflətmək sahəsində böyük rol oynamışdır.

Belə ki, Əmirəlmöminin Əli (əs)-ın Əmmar ibn Yasir, Zeyd ibn Suhan və digərləri kimi sadiq və mömin silahdaşları bu döyüşlərdə şəhid olmuşdular. Bu hiyləgərliklərə və Quranın nizələrin uclarına sancılması ilə həyata keçirilmiş məkirli siyasət nəticəsində Siffeyn döyüşü əsnasında İraq ordusundan böyük dəstənin yarılmasına və sonda Nəhrəvan müharibəsinin meydana çıxması ilə nəticələndi. Xəvariclərin "hakimiyyət yalnız Allaha məxsusdur" şüarından və bunun meydana çıxardığı ağır nəticələrin davamında qeyd olumuş müharibələr yarandı.

Bu itaətsizliklər və qanunpozmalar o qədər gücləndi ki, sonda Əmirəlmöminin Əli (əs) bu insanlarla əməkdaşlıq etməkdən və onları özünə silahdaş etməkdən məyus oldu. O Həzrətin şikayətlərindən olan nümunələr Nəhcül Bəlağədə və digər kitablarda qeyd olunmuşdur və biz bundan öncə etdiyimiz bəhslərdə siz oxucuların diqqətinə çatdırmışdıq.

Tarixçilərin öz kitablarında qeyd etdiyinə əsasən Əmirəlmöminin Əli (əs) Nəhrivan döyüşünü başa çatdırdıqdan sonra burada qalmaq əmrini verdi və öz silahdaşları və döyüşçüləri üçün bu sözləri buyurdu: "Allaha həmd və şükrdən sonra bildirmək istəyirəm ki, həqiqətən Allahu Təala sizə gözəl qələbə nəsib etdi. Elə buna görə də dərhal Şam əhlindən olan düşmənlərinizin üzərinə hücuma keçin!"

Qoşun əhli ayağa qalxaraq dedilər: "Ey Möminlərin əmiri, bizim oxlarımız qurtarıb, qılınclarımız kütləşib, nizələrimiz isə sınıb. Bizi yenidən güc toplamaq və daha çox döyüşçü toplamaq üçün öz diyarımıza qaytar."

Əmirəlmöminin Əli (əs) onlara cavab olaraq Musa (əs)-ın Bəni İsrail üçün oxuduğu ayəni onlar üçün tilavət etdi:

يَاقَوْمِ ادْخُلُوا الْأَرْضَ الْمُقَدَّسَةَ الَّتِي كَتَبَ اللَّهُ لَكُمْ وَلَا تَرْتَدُّوا عَلَى أَدْبَارِكُمْ فَتَنْقَلِبُوا خَاسِرِينَ[1]

"Ey camaatım! Allahın sizin üçün əzəldən (vətən) müəyyən etdiyi müqəddəs torpağa (Beytülmüqəddəs və ya Şama) daxil olun, geri dönməyin (düşməndən qorxub qaçmayın və ya dininizdən dönməyin), yoxsa zərər çəkmiş halda geri dönərsiniz."

Amma onlar nəsihətə qulaq asmadılar və "hava soyuqdur" deyərək bəhanə gətirdilər. Əmirəlmöminin Əli (əs) buyurdu: "Onlara (yəni düşmənlərimizə) da sizə olduğu soyuqdur." Bu sözlərdən sonra da yenə də O Həzrətin sözlərinə qulaq asmadılar və Şama getməkdən boyun qaçırdılar.

Əmirəlmöminin Əli (əs) buyurdu: "Of sizin əlinizdən. Bu hərəkətiniz öncədən də olan adət-ənənədir. Sonra qeyd etdiyimiz ayənin davamını tilavət etməyə

[1] Maidə surəsi, ayə 21

başladı. Həmin ayədə Allah Təala Həzrət Musa (əs)-ın vasitəsilə Bəni-İsrailə bu sözləri çatdırır: "Dedilər ki, ya Musa bu diyarda itaətdən boyun qaçıran insanlar var və onlar buradan çıxmayacağı zamana qədər biz bu yerlərə daxil olmayacayıq. Nə vaxt onlar oradan çıxarlar biz oraya daxil olarıq."

Bu zaman bir dəstə döyüşçü ayağa qalxaraq dedi: "Ey Möminlərin Əmiri, yaralarımız çoxdur. İndi Kufəyə qayıt, bir neçə gün orada qal sonra yola düş. Allah Təala sənin üçün xeyirli bildiyini qarşıya çıxaracaq." Əmirəlmöminin Əli (əs) çarəsiz qalaraq daxildən gələn istəyinin əksinə olaraq Kufəyə qayıtdı.

Əmirəlmöminin Əli (əs)-ın Kufəyə qayıtması

Qeyd etdiyimiz kimi Əmirəlmöminin Əli (əs) geri qayıtdı və ordusunu Kufənin yaxınlığındakı Nəxiliyyə adlı yerdə yerləşdirdi və qoşununa oranı tərk etməmək, orada qalmaq, həyat yoldaşları və ailələrilə görüşüb tez qayıtmağı əmr etdi. Əmirəlmöminin Əli (əs) onları qısa zaman ərzində düşmənin üzərinə hücuma aparmaq istəyirdi. O Həzrət özü də Nəxiliyyədə qaldı.

Amma Əmirəlmöminin Əli (əs)-ın bu əmrinə də itaətsizlik etdilər və axşam vaxtı dəstə-dəstə Kufəyə getdilər və geri qayıtmadılar. Sonda Nəxiliyyədə O Həzrətin bir dəstə imanlı silahdaşından savayı heç kim qalmadı.

Vəziyyəti belə görə, Əmirəlmöminin Əli (əs) onunla qalmış az saylı silahdaşıyla axşam vaxtı Kufəyə daxil oldu, Məscidə getdi, onlar üçün xütbə oxudu və onları düşmənə qarşı cihada səslədi. Amma heç kim O Həzrətin buyurduqlarına etina göstərmədi. Elə bu səbəbdən Əmirəlmöminin Əli (əs) bir neçə gündən sonra yeni bir xütbə oxudu və bu xütbə Nəhcül Bəlağədə (34-cü xütbə) qeyd olunmuşdur:

"İmam Əli əleyhis-salamın öz səhabələrinə Şam əhalisi ilə döyüşməyi əmr etdiyi vaxt buyurduğu xütbələrindəndir:

"Mən sizlərdən bezmişəm və narahatam. Sizi danlamaqdan əziyyət çəkirəm. Əbədi həyatın əvəzinə dünyanın müvəqqəti həyatından şadsınız? İzzət və başucalığın yerinə rəzalət və alçaqlığa boyun əymisiniz? Sizləri düşmənlə müharibəyə çağıranda gözlərinizi döyürsünüz (həyəcanlanırsınız). Çətinliklə can verirmiş, huşsuzluqdan əziyyət çəkirmiş kimi mənimlə danışmaq üçün diliniz tutulur, qulaqlarınız bağlanır, sözlərimin müqabilində mat-məəttəl qalırsınız, elə bil ağlınızı itirib dəli olmusunuz (doğru yolu səhv yoldan, yaxşını pisdən, izzəti zillətdən seçə bilmirsiniz) və başa düşmürsünüz. Heç vaxt sizlərdən əmin olmadım və sizləri düz əməl sahibləri saymadım (sizə etimad etmədim və indi də inanmıram). Nə (düşməni dəf etmək üçün) meyl salınası ordu, nə də ehtiyac duyulası güclü dostlarsınız. Siz, bir tərəfdən yığdıqda, digər tərəfdən dağılan sarvansız dəvələr kimisiniz. Allaha and olsun, siz müharibə atəşini alovlandırmaq üçün pis camaatsınız. (Çünki) Sizə qarşı hiylə və məkr işlədirlər, siz isə hiylə işlətmirsiniz. Sizin

şəhərləri tuturlar, siz isə qəzəblənmirsiniz (müdafiə olunmağı düşünmürsünüz). Düşmən yuxulamır, sizi isə qəflət yuxusu aparıb və unutqansınız. Allaha and olsun, (düşmənin irəliləməsinin qarşısını almaq üçün) bir-biri ilə yoldaşlıq etməyənlər məğlubdurlar. Allaha and olsun, güman edirəm ki, müharibə şiddətlənsə və ölüm, qətl atəşi alovlansa, sizlər baş bədəndən ayrılan kimi Əbu Talibin oğlundan (onun yanından) ayrılarsınız. (Belə xof və qorxaqlığınızla ikinci dəfə mənim ətrafıma yığışmağınız mümkün deyil.) Allaha and olsun ki, ətini sümükdə heç nə qalmayana qədər gəmirən, sümüyünü sındıran və dərisini soyacaq həddə düşməni özünə hakim kəsən (yəni, onun varlığını, canını, malını, arvad-uşağını ələ keçirən düşmənin qarşısını almayan) kimsənin acizliyi və qeyrətsizliyi hədsiz, ürəyi və ya onun sinə tərəfdən ürəyini əhatə edənləri zəifdir. Ey eşidən, sən də acizlikdə və qeyrətsizlikdə bu kişi kimi olmaq istəyirsənsə, ol. Amma mən, and olsun Allaha, düşmənə bu fürsət və imkanı verməzdən əvvəl Məşrəfi qılınclarla (Məşarif bu qılıncların hazırlandığı kəndin adıdır) onu elə vuracağam ki, başının sümüyünün xıncımları göyə sovrulsun və qolları, qıçları kəsilsin. Mənim səylərimdən sonra fəth və qələbənin ixtiyarı Allahın əlindədir.

Ey camaat! Mənim sizin üstünüzdə, sizin də mənim üstümdə haqqınız var: Sizin mənim üstümdə olan haqqınız sizə nəsihət vermək (bəyənilmiş əxlaqa təşviq etmək və nalayiq söz və əməllərdən çəkindirmək), qənimət və hüquqları bütünlüklə (israf edilməyə qoymadan, müsəlmanların beytülmalından) sizə çatdırmaq, nadan qalmamanız üçün (kitab və sünnədən bilmədiklərinizi) sizlərə öyrətmək, öyrənənə qədər də (şəriət qaydalarını öyrənib ona uyğun rəftar etməniz üçün) tərbiyə etməkdir. Mənim sizin üzərinizdə olan haqqım isə bey'əti saxlamanız, gizlində və aşkarda ixlas və dostluğunuz, sizi çağırdığım an cavab verməniz və sizə əmr etdiklərimə itaət etmənizdir.

Müaviyə Misiri almaq fikrinə düşür

Müaviyənin Kufədə və Əmirəlmöminin Əli (əs)-ın qoşununda casusları var idi. Bundan əlavə O Kufə münafiqlərilə də yazışma aparırdı və daim Kufənin stabil olmayan vəziyyətindən, oranın camaatının itaətsizliyindən lazımınca məlumat əldə edə bilirdi.

Adları tarix kitablarında qeyd olunmuş casuslardan Əmarə ibn Əqəbə, Əşəs ibn Qeys və həccac ibn Xəziməni misal çəkə bilərik. Adları çəkilən casuslar məlumat toplayırdılar və Müaviyəyə çatdırırdılar. Müaviyə isə onları hiyləgər vədləri və mükafatları ilə bu işi davam etdirməyə həvəsləndirirdi.

Əmarə ibn Əqəbə Valid ibn Əqəbənin qardaşı idi və biz onun pozğun və pisəməllərinin bir hissəsini siz oxucuların diqqətinə çatdırmışıq. O, Müaviyəyə ünvanladığı məktubunda belə yazır: "Əli ibadət və pərhizkarlıqla məşğul olan

dostlarına qarşı döyüşə getdi və onları qətlə yetirdi. Onları qətlə yetirdikdən sonra isə onun silahdaşları və döyüşçüləri arasında güclü ixtilaf meydana çıxdı."

Həccac ibn Xəzimə Müaviyəyə ünvanladığı məktubunda belə yazır: "Əli səndə olan gücə malik deyil. Çünki, sənin yanında olan insanlar sən sakit dayananda söz demirlər, sən söz deyəndə isə onlar sakit dayanırlar və sən əmr edəndə heç nə soruşmurlar. Amma Əli ilə olan insanlar elə insanlardırlar ki, Əli danışanda onlar da danışırlar və O susanda suallar soruşurlar..."

Beləliklə, Kufə əhli və Əmirəlmöminin Əli (əs)-ın ordusu arasında olan ixtilaf və qarşıdurmadan xəbərdar olan Müaviyə Şamla həmsərhəd olan bəzi əyalətlərə hücum etmək və həmin əyalətləri öz hökuməti altına keçirmək fikrinə düşdü. Hücum etmək və işğal etmək üçün ağlına gələn ilk yer Misir əyaləti və Nil çayının məhsuldar sahilləri oldu. Qeyd etmək lazımdır ki, Müaviyənin ilk olaraq bu əraziyə hücum etməsinin səbəbi daim Misir tərəfdən qorxu hiss etməsi olmuşdur. Belə ki, Müaviyə Əmirəlmöminin Əli (əs)-ın yenidən Şama hücum etməsindən və O Həzrətin Misirə hakim təyin etdiyi Qeysin başqa cinahdan ona qarşı hücuma keçməsindən və sonda iki qoşunun mühasirəsində qalmasından qorxurdu. Elə bu səbəbdən də, tez bir zaman ərzində Misir tərəfdən rahatlaşmaq istəyirdi. Digər tərəfdən Misir əyaləti gəlirli və insan resursları çox olan əyalətlərdən idi və oranı ələ keçirmək Müaviyə üçün böyük əhəmiyyət kəsb edirdi. Eləcə də, hiyləgər və vəfalı dostu olan Əmr Asa verdiyi sözü qısa zaman ərzində həyata keçirmək, Misir hakimiyyətini Əmirəlmöminin Əli (əs)-ın təyin etdiyi hakimdən alıb Əmr Asa vermək istəyirdi.

Misir hökumətinin o zaman malik olduğu vəziyyət

Tarixçilərin yazıdığına əsasən Osmanın qətlə yetirilməsindən öncə Abdullah ibn Əbu Sərəh Misirin hakimi idi və Əmirəlmöminin Əli (əs) xilafət başına gələndən sonra o Bəni-Üməyyə tərəfdarlarından olduğu üçün Şama, Müaviyənin yanına qaçdı.

Əmirəlmöminin Əli (əs) Hicri-qəməri tarixi ilə 36-cı ildə Qeys ibn Səəd ibn İbadəni Misirin hakimi təyin etdi və ona insanlarla xoş rəftar etmək barəsində tövsiyələr verdikdən sonra oraya göndərdi.

Qeys ibn Səəd ailəsindən və yaxınlarından olan yeddi nəfərlə Misirə yola düşdü, Misirə daxil oldu, minbərə qalxdı və Əmirəlmöminin Əli (əs)-ın Misir hakimiyyəti üçün verdiyi hökmləri onlar üçün oxudu. Sonra özü də qısa xütbə oxuduqdan sonra insanları onunla beyət etməyə çağırdı. İnsanlar onunla beyət etdilər və bir kənddən savayı bütün Misir onun hakimiyyəti altına keçdi.

Bu arada Müaviyənin tərəfdarlarından olan və Misirdə yaşayan Müslimə ibn Məxləd camaatı Osmanın qisasını almaq bəhanəsilə Qeys ibn Səədin hakimiyyətinə qarşı çıxmağa təhrik etməyə çalışdı. Amma Qeys ibn Səədin ona göndərdiyi

məktubdan və müslimənin iddialarının böyməsi üçün münbit şəraitin olmaması səbəbindən fitnə dayandı. Müslimə ibn Məxləd də vəziyyəti belə gördükdə Qeys ibn Səədə məktub ünvanlayaraq onun Misirin hakimi olacağı müddətdə ona qarşı çıxmayacağını bildirdi və onu özü tərəfdən sakitləşdirdi. Cəməl müharibəsi davam etdiyi müddət ərzində Qeys ibn Səəd Misirin hakimi vəzifəsində qaldı.

Müaviyə Misirin hakimi olan
Qeys ibn Səədi onunla əməkdaşlığa dəvət edir

Müaviyə Siffeyn döyüşü başlamamışdan öncə Əmirəlmöminin Əli (əs) tərəfindən Misirdə hakimlik edən Qeys ibn Səədə məktub yazır və onu Əmirəlmöminin Əli (əs)-la və Osmanın qatıllərilə döyüşə səsləyir. Müaviyə Qeys ibn Səədə Əmirəlmöminin Əli (əs) üzərində qələbə çaldıqdan sonra Kufə və Bəsrə hakimiyyətini ona verəcəyini, Hicazı da onun istəyəcəyi başqa bir şəxsə və bunlardan əlavə istədiyi hər bir şeyi ona verəcəyini vəd edir.

Qeys ibn Səəd ona cavab olaraq bu barədə düşünmək istəməsini, eyni zamanda onu tərəfdən Müaviyəyə heç bir zərər gəlməyəcəyini yazdı. Müaviyə məktubu oxuyanda bir tərəfdən onu özü ilə həmfikir olduğunu gördükdə sevindi, amma digər tərəfdən bu işdə hansı bir hiylənin olmasında qorxdu. Elə buna görə də, Qeys ibn Səədə yeni bir məktub yazdı və bu dəfə onu hədələməyə başladı. Müaviyə məktubunda yazırdi: "Əgər sənə dediklərimi qəbul etməsən səninlə döyüşmək üçün Misiri öz piyada döyüşçülərimlə dolduracağam."

Qeys ibn Səəd məktubu oxudu və Müaviyənin belə məktublarla qane olmadığını anladı və ona kəskin məzmunlu məktub yazaraq bildirdi ki, "Mən hər bir cəhətdən səndən üstün olan Əli ibn Əbu Talibi tək qoymayacağam və səni ondan üstün saymayacağam!"

Qeys ibn Səədin cavabını oxuyan Müaviyə onu öz pis istəklərini həyata keçirməkdə ələ ala bilməyəcəyini anladı. Qeys ibn Səədin gücündən və şücaətindən xəbərdar olan Müaviyə onu başqa yolla hakimiyyətdən uzaqlaşdırmağa çalışdı. Elə bu səbəbdən də Qeysin onunla sülh bağlaması və ona birləşmək istəməsi kimi şayə yaydı və Qeys ibn Səəd tərəfindən saxta məktub hazırlatdı. Həmin saxta məktubda yazılmışdı: "Mən Qeys ibn Səəd Osmanın məzlumcasına qətlə yetirilməsini anladım. Mən artıq müsəlman rəhbəri və yaxşı insanı qətlə yetirmiş şəxslərlə əməkdaşlıq edə bilmərəm. Buna görə Allahdan bağışlanmağımı istəyirəm və Osmanın qisasını almaq üçün sizə kömək etməyə və əməkdaşlıq göstərməyə hazıram!"

Müaviyənin tapşırığı ilə bu saxta məktub minbərlərdə oxunmağa və insanlar arasında yayılmağa başladı. Bu xəbər Əmirəlmöminin Əli (əs)-a da çatdı və O Həzrət çox narahat oldu. Əmirəlmöminin Əli (əs) Həsən, Hüseyn, Muhəmməd ibn Hənifə ə Abdullah ibn Cəfəri yanına çağıraraq hadisəni onlara çatdırdı. Abdullah

ibn Cəfər dedi: "Mənim nəzərim belədir ki, Qeys ibn Səədi Misir hakimliyindən kənarlaşdırasan və onun yerinə başqa bir nəfəri həmin vəzifəyə təyin edəsən."

Bu arada Qeys ibn Səəddən Əmirəlmöminin Əli (əs)-a məktub gəldi. Məktubda bu sözlər seyd olunmuşdu: "Burada bizimlə beyət etmək istəməyən bir dəstə var və onlar məndən onlara təzyiq göstərməməmi, vəziyyət tam müəyyənləşdikdən sonra qərarlarını bildirəcəklərini istəyirlər. Mən də onların təslim olacaqları ehtimalını nəzərə alaraq belə məsləhət edirəm ki, onlara toxunmayaq və onlarla döyüşməyə tələsməyək."

Bu məktub çatandan sonra Abdullah ibn Cəfər dedi: "Əgər Qeysə belə icazə verilərsə başqaları da bundan xəbərdar olacaqlar və onlar da beyətdən boyun qaçırmağa başlayacaqlar. Yaxşısı budur müharibə etməyi və beyət etməyənlərlə döyüşməyi əmr edin."

Əmirəlmöminin Əli (əs) ona belə yazdi: "Beyət etməkdən boyun qaçıranların yanına get və beyət etmədikləri təqdirdə onlarla müharibə et!" Qeys ibn Səəd bu məktubu oxuduqda özünü saxlaya bilmədi Əmirəlmöminin Əli (əs)-a məktub yazaraq O Həzrətin hökumətə qarşı çıxmamış insanlarla müharibə əmrini verməsindən təəccübləndiyini bildirdi. Qeys ibn Səəd Əmirəlmöminin Əli (əs)-dan müxaliflərlə daha yumşaq davranmaq üçün icazə istədi.

Amma bu dəfə Əmirəlmöminin Əli (əs) Abdullah ibn Cəfərin təkidi ilə Qeys ibn Səədin hakimiyyətdən uzaqlaşdırılması və onun təklifi ilə Muhəmməd ibn Əbu Bəkri (Abdullahın ana tərəfdən qardaşı) Misirə hakim təyin etdi.

Muhəmməd ibn Əbu Bəkr Əmirəlmöminin Əli (əs)-ın əmrilə Misirə getdi və bibisinin həyat yoldaşı olan Qeys ibn Səədin yanına gəldi və dedi: "Mən sənin yanında olmaq üçün gəlmişəm və sən də qabaqlar olduğu kimi hakimiyyət et."

Amma bundan narahat olan Qeys onun təklifini qəbul etmədi və dərhal yükünü yığaraq Hicaz istiqamətinə yola düşdü. Kufəyə yox Mədinəyə getdi və Əmirəlmöminin Əli (əs)-ın da yanına gəlmədi. Həssan ibn Sabit kimi insanlar da onun yanına gələrək narahatlığından Əmirəlmöminin Əli (əs)-a qarşı istifadə etməyə çalışdılar, amma Qeys ibn Səəd onları qovdu. Sonda bir neçə gün keçdikdən sonra Səhl ibn Həniflə Mədinədən yola düşdü Kufəyə, Əmirəlmöminin Əli (əs)-ın yanına gəldi və O Həzrətlə birlikdə Siffeyn döyüşündə iştirak etdi. Tarixçilərin qeyd etdiyinə əsasən onun hakimiyyət müddəti 36-cı ilin Səfər ayından Ramazan ayına qədər, yəni yeddi ay davam etdi[1].

[1] Əmirəlmöminin Əli (əs)-ın siyasətini sual altına aparan məsələlərdən biri Misir hakimi Qeys ibn Səədin hakimiyyətdən uzaqlaşdırılaraq Muhəmməd ibn Əbu Bəkri onun yerinə təyin etməsi olmuşdur. Bir çoxları bunu ölkəyə başçılıq siyasətiylə üst-üstə düşməməsini bildirirlər. Maraqlı burasıdır ki, tənqidçilər Müaviyənin Əmirəlmöminin Əli (əs) tərəfindən Şam hakimliyindən uzaqlaşdırılması ilə razı olmayan insanlardırlar. Bunıar O Həzrətin Təlhə və Zübeyrlə kəskin davranışını etraz etmiş və bu addımı bir növ siyasətsizlik kimi qələmə vermişlər. Biz onların bu tənqidlərini cavablandırdıq və burada da Mahmud Əl

Muhəmməd ibn Əbu Bəkrin Misirdə hakimlik etməsi

Qeyd etdiyimiz kimi, Əmirəlmöminin Əli (əs) Qeys ibn Səədi Misir hakimliliyindən uzaqlaşdırdı və onun yerinə Muhəmməd ibn Əbu Bəkri təyin etdi və onunla Qeys və Misir xalqı üçün məktub göndərdi. Bu məktub hikmətli nəsihətlər, dünya və axirət həyatı üçün ibrətamiz dərslərlə doludur. Bu məktubun çox uzun olması səbəbindən onun hamısını burada qeyd edə bilmirik, amma bu sözlərdə olan hikmətlərdən siz oxucuların da xəbərsiz qalmaması üçün həmin məktubun bəzi hissələrini[1] diqqətinizə çatdırırıq. Məktubun əvvəli təqva və saleh əməllərə dəvətlə başlayır:

"Sizi təqvaya və məsul olduğunuz işləri yerinə yetirməyə dəvət edirəm. Siz onun girovundasınız və onun yanına qayıdacaqsınız. Allahu Təala buyurur: "Hər kəs öz əməlinin girovudur!" və eləcə də buyurur: "Allah sizi özünüzdən qoruyur və qayıdış ona tərəfdir!" və yenə də buyurur: "Allaha and olsun ki, onların hamısını etdiyi əməllərinə görə sorğu-suala çəkəcəyik!"

Elə isə ey Allah bəndələri bilin ki, Allahu Təala sizi böyük və balaca işlərinizə görə sorğu-sual edəcək. Nəticədə əgər bizə əzab versə sitəm edən özümüzük (təqsir özümüzdədir) və əgər bağışlasa və rəhm etsə, rəhm edənlərin ən yaxşısıdır."

Bu məktubun başqa bir yerində belə buyurur:

"Allahın təqvası sizə olsun! Çünki, təqvanın malik olduğu yaxşılıqlara başqa heç nə malik ola bilməz. Eləcə də təqva yolu ilə əldə olunan şeylər başqa heç nəylə əldə edilə bilməz. Yəni dünya və axirətin xeyri... Ey Allahın bəndələri bilin ki, təqvalı möminlər dünya və axirətin xeyrini qazandılar. Dünya əhli ilə dünyada şərikdirlər, amma dünyatələblər axirətdə (axirət nemətlərini əldə etməkdə) onlarla şərik deyillər. Onlar dünya ləzzətinə qovuşdular və eləcə də qiyamətdən sonra da Allah Təalanın yaxınlarından olacaqlar."

Ölüm, onun nəticəsi və ölümü hər gün yada salmaq barədə buyurur:

"Ey Allahın bəndələri ölümdən və onun nazıl olmasından özünüzü qoruyun və özünüzü Ölümə hazırlayın. O, özü ilə böyük əmr gətirir. Yəni, daxilində heç bir şər olamayan xeyir ya da daxilində heç bir xeyir olmayan şər gətirə bilər. Hər

İqad kimi yazıçıların qeyd etdiyi kimi bunu bildirmək istəyirik ki, Qeys ibn Səədin şücaətli, qorxmaz, tanınmış və tədbirli insan olmasına baxmayaraq o yumşaq və güzəşt siyasətinin davamçılarından idi və bu da Əmirəlmöminin Əli (əs)-ın siyasətilə üst-üstə düşmürdü. Digər tərəfdən onun barəsində yayılmış şayiələr artıq geniş vüsət almışdı və Qeys ibn Səədin davranışları da şayiələrin yaranmasına köməklik göstərirdi. Buna görə Əmirəlmöminin Əli (əs) bu şayiələrin qarşısında müqavimət apara bilmirdi və Qeysin belə davranışları hətta O Həzrətin tərəfdaşları üçün belə qaranlıq və anlaşılmaz olaraq qalırdı. Bu da Əmirəlmöminin Əli (əs) üçün olduqca böyük əhəmiyyət kəsb edirdi.

[1] Nəsihətlə dolu bu məktub barəsində ətraflı tanış olmaq üçün İbn Əbul Hədidin Nəhcül Bəlağənin şərhi əsərinə (cild 2, səh 26-27) müraciət edə bilərsiniz. Bu məktubun xülasəsini Seyid Rəzi Nəhcül Bəlağənin 27-ci məktubunda qeyd etmişdir.

bir şəxs ruhu bədənindən ayrılanda bu iki mənzildən hansına gedəcəyini yaxşı anlayır; cənnətə yaxud cəhənnəmə? Yaxud, o Allahın dostudur, ya düşməni? Əgər Allahın dostu olarsa cənnətin qapıları onun üzünə açılar, yol onun üçün hamarlaşar, Allahın öz dostları üçün nəzərdə tutduğu şeylərə baxar, bütün əzab-əziyyətdən qurtarar və çiynindən bütün yüklər götürülər. Amma əgər Allahın düşməni olarsa cəhənnəmin qapıları onun üzünə açılar, Allahın cəhənnəm əhli üçün nəzərdə tutduğu şeyləri görər, bütün narahatlıqlar onun zərərinə yağar və bütün xoşluqlardan uzaqlaşar.

Elə buna görə də, nə zaman nəfsiniz şəhvətlərinizə görə sizinlə üz-üzə gəldikdə ölümü tez-tez yada salın, çünki yalnız ölüm insanın nəsihət alması üçün kifayət edər. Allahın Rəsulu (s) buyurdu: "Ölümü tez-tez yadınıza salın, çünki o bütün xoşluqları viran edər!" Ey Allahın bəndələri bilin ki, Allahın bağışalamadığı və rəhm etmədiyi insan üçün ölümdən sonra olanlar ölümün özündən daha çətindir!

Ey Allahın bəndələri bilin ki, ölümdən sonra olan vəziyyət qəbirdən daha çətindir. O elə bir gündür ki, həmin gün uşaq qocalar, böyüklərin (dəhşətli narahatlıqdan) ürəkləri gedər, hər süt verən ana öz sevimli balasını unudar. Qəm-qüssə günündən qorxun, çünki onun yaradacağı şər və pislik hər yeri əhatə edəcək...

Ey Allahın bəndələri bilin ki, bu gündən sonra baş verəcəyi hadisələr daha çətin və daha müsibətlidir. Elə bir atəşdir ki, onun sonu görünməz, hərarəti çox, əzabi təzədir."

Namaz və onun əhəmiyyəti barəsində belə buyurur:

"Bil ki, sənin yaxşı əməllərindən hər birisi sənin namazına bağlıdır. Hər kəs öz namazını pis edərsə başqa əməllərini daha pis etmiş olur."

Müaviyə və digər münafiqlərin yaratdığı xətər barəsində belə buyurur:

"Mən Allahın Rəsulu (s) buyurduğu bu sözü eşitmişəm: "Mən öz ümmətim üçün nə mömindən, nə də müşrikdən qorxuram. Çünki, mömini Allahu Təala malik olduğu imana görə (səhv yola getməkdən) qoruyar, müşriki isə küfrünə görə zəlil edər. Amma mən öz dili ilə nifaq yarada biləcək hər münafiqdən qorxuram. Çünki, onun dilində dediyi sözdən hamınızın xoşu gələr, amma əməl etdiyi işlərdən xoşunuz gəlməz..."

Əmirəlmöminin Əli (əs) məktubun sonunda Muhəmməd ibn Əbu Bəkrə yeddi sahədə çox dəyərli məsləhətlər verir və bunları həyata keçirməyi vəsiyyət edir və buyurur:

"Sənə yeddi işi görməyi tapşırıram və bil ki, onlar İslamın ən əsas sifətləridir. Allahın yolunda Allahdan qorx başqa kimsədən qorxma. Sözlərin ən yaxşısı əməllərin və davranışların onu təsdiqləyənidir. Bir məsələ barəsində iki dəfə hökm çıxartma, çünki işin yarımçıq qala bilər. Haqq yolundan dönmə və rəiyyətinin hər birisi üçün özünə istədiyini istə və özün üçün istəmədiklərini onlar üçün də rəva bilmə. Öz rəiyyətinin işini düzəlt və haqqa çatmaq yolunda bütün çətinliklərdən

keç! Kiminsə sənə öyüd-nəsihət verməsindən qorxma. Səninlə məşvərət edən hər bir şəxsin xeyrini istə və özünü müsəlmanların yaxın və uzaq adamları üçün nümunəvi göstər."

İbn Əbul Hədid bu məktubun ardınca belə yazır: Əmr ibn As Misir hakimiyyətin ələ keçirdikdən və Muhəmməd ibn Əbu Bəkri qətlə yetirdikdən sonra məktublarını əldə etdi və onların hamısını Müaviyəyə göndərdi. Müaviyə qeyd etdiyimiz bu məktubu diqqətlə oxudu və dəfələrlə ona baxdı və bu məktubdan necə təəccübləndiyini gizlədə bilmədi. Vəlid ibn Əqəbə Müaviyənin yanında idi və bu məktubun Müaviyəni necə təəccübləndirdiyini müşahidə edirdi. Vəlid Müaviyəyə dedi: "Əmr et, bu hədisləri yandırsınlar!"

Müaviyə dedi: "Yox, bu düzgün nəzər deyil." Vəlid dedi: "Əbu Turabın hədislərinin sənin yanında olması və sənin onlardan istifadə etməklə təlim alman düzgün nəzərdir?!"

Müaviyə dedi: "Vay olsun sənə! Sən mənə bu məktubda olan elm və biliyi yandırmağı əmr edirsən? Allaha and olsun ki, mən bundan gözəl və tutarlı bir elm eşitməmişəm!" Vəlid dedi: "Əgər sən onun elmindən bu qədər təəccüblənirsənsə nəyə görə onunla döyüşürsən?"

Müaviyə dedi: "Əbu Turab Osmanı öldürməsəydi biz onun davamçıları olardıq." Bir neçə dəqiqə sakit dayandıqdan sonra başını qaldırıb məclis iştirakçılarına dedi: "Biz bu məktubların Əli ibn Əbu Talibdən yox Əbu Bəkr Siddiqdən olduğunu, övladının yanında qaldığını və bizim ondan indi istifadə etdiyimizi deyərik."

Hədisi rəvayət edən İbrahim deyir: "Bu məktublar Bəni Üməyyənin xəzinəsində qaldı və Ömər ibn Əbdül Əziz hakimiyyətə gələndən sonra onu üzə çıxardı və məktubların Əli ibn Əbu Talibə məxsus olduğunu bildirdi.

Əmirəlmöminin Əli (əs) məktubların Müaviyənin əlinə düşməsi xəbərini eşidəndə çox qəmgin və məyus oldu.

Muhəmməd ibn Əbu Bəkrin işinin davamı

Muhəmməd İbn Əbu Bəkrin Misirdə yerləşməsindən hələ bir ay keçməmişdi ki, o Qeys ibn Səədin sülh etmək istədiyi insanların yanına adam göndərərək onlara ya bizim itaətimiz altında olmasınız, ya da bu diyarı tərk eləməlisiniz məzmunlu seçim təklif etdi.

Onlar belə cavab verdilər: "Biz bu diyardan getmirik, amma sən bizə bir az möhlət ver və bizim işimiz barəsində çox tələsmə." Amma Muhəmməd qəbul etmədi onlarla müharibə edəcəyini elan etdi. Bu arada Siffeyn döyüşü meydana çıxdı və müxaliflər qorxu içərisində yaşayırdılar. Sonda ikili hakimiyyət meydana çıxdı və Əmirəlmöminin Əli (əs) Kufəyə qayıtdı. Bu müddət ərzində müxaliflər Muhəmməd ibn Əbu Bəkrə qarşı çıxmağa cəsarət tapdılar və onunla müharibəyə hazır olduqlarını bildirdilər.

Muhəmməd ibn Əbu Bəkr bir neçə nəfəri onlarla döyüşə göndərdi, amma müxaliflər onları qətlə yetirdilər. Bir müddət davam edən bu vəziyyətdən sonra müxaliflərdən olan Müaviyə ibn Hədic Muhəmmədə qarşı qiyam qaldırdı. O, Osmanın qisasını almaq adı altında başına çoxlu insan topladı və Muhəmməd ibn Əbu Bəkrin vəziyyətini çətinləşdirdi.

Əmirəlmöminin Əli (əs) Muhəmməd ibn Əbu Bəkrin işinə düzən vermək üçün Malik Əştəri Misirə göndərir

Əmirəlmöminin Əli (əs) Siffeyn döyüşündən sonra Malik Əştəri Cəzirənin hakimi təyin etdi və Qeys ibn Səədi öz yanında saxladı və nizam-intizam işlərini ona tapşırdı.

Muhəmməd ibn Əbu Bəkrin üzləşdiyi çətinliklər və Müaviyə ibn Hədicin ona qarşı qiyam etməsi xəbəri Əmirəlmöminin Əli (əs)-a çatandan sonra O Həzrət həmin vaxt Nəsibeyndə olan Malik Əştərə məktub yazaraq Misirdə baş verən hadisələri və Muhəmməd ibn Əbu Bəkrin vəziyyətini açıqladı, ona Misirə gedərək qiyamı yatırtmağı və Misirə sakitlik bəxş etməyi tapşırdı.

Malik Kufəyə gəldi və Əmirəlmöminin Əli (əs) ona buyurdu: "Misiri yalnız sən sakitləşdirə bilərsən!" Əmirəlmöminin Əli (əs) Malikə iki məktub verərək Misirə göndərdi və O Həzrətin Malik Əştərə verdiyi məktub "Malik Əhdnaməsi" kimi tanınır. Bu məktub İslam tarixinin ən böyük siyasi və mədəni qaydaları kimi qəbul edilir. İstər Şiə, istər Əhli sünnət alimləri bu əhdnaməni dəfələrlə açıqlayaraq ayrıca kitab şəklinə salıblar. Bu məktubların hər ikisi Nəhcül Bəlağədə qeyd olunmuşdur[1].

Bu iki məktubdan Əmirəlmöminin Əli (əs)-ın Malik Əştərə olan inam və etimadi məlum olur, çünki birinci məktubda bir neçə cümlə ilə Maliki ən yaxşı tərzdə tanıdır. Əmirəlmöminin Əli (əs) Misir xalqına onun barədə belə deyir:

"Allaha həmd və şükürdən sonra. Allahın bəndələrindən birini sizə tərəf göndərirəm. O, qorxulu günlərdə yatmır və dəhşət yaradan vaxtda qorxmur. O, günahkarlar üçün yandırıcı alovdan daha möhkəmdir. O, Malik ibn Haris Məzhəcidir. Onun haqqla uyğun gələn sözlərinə qulaq asın və əmrinə itaət edin! O, Allahın itiliyi kütləşməyən və zərbəsi təsirsiz olmayan qılınclarından biridir. Əgər sizə köçmək əmrini versə köçün, əgər dayanmaq əmrini versə dayanın!"

İkinci məktubda Əmirəlmöminin Əli (əs) kimi tayı bərabəri olmayan dini, ictimai və siyasi rəhbərin təyin etdiyi hakimlərdən birinə yazdığı ən kamil və tamamlanmış qanunlar toplusu mövcuddur. Qeyd edək ki, biz bundan öncə həmin məktubu əziz oxucularimizın nəzərinə çatdırdıq.

[1] 38 və 53-cü məktublar

Müaviyə Malik Əştərin qətli üçün plan cızır

Əmirəlmöminin Əli (əs)-ın Malik Əştəri Misirin hakimi təyin etməsi xəbərin Müaviyəni dəli etdi. Çünki, artıq bir neçə müddət idi ki, o Misiri işğal edərək Əmr Asa təhvil verəcəyi xəyalı ilə yaşayırdı. Müaviəyə bu addımla dostu olan Əmr Ası mükafatlandırmaq və özünü onun şərrindən qurtarmaq istəyirdi. Amma, Malik Əştərin Misirə gedəcəyi təqdirdə orada güclü hakimiyyətin yaranacağını və onun cinayətlə dolu röyasının həyata keçməyəcəyini bilirdi.

Elə buna görə də Müaviyə ona xərac və vergi verən şəxslərdən birinə məktub yazaraq dedi: "Maliki hər nə yolla olursa olsun qətlə yetirə bilsən, nə vaxta qədər ki mən varam və sən varsan səndən xərac və vergi almayacağam."

Malik Əştər yola düşdü və Qırmızı dənizin sahilinə, Qulzuma çatdı. Misirə getmək istəyən Hicazlı müsafirlər burada gəmiyə minirdilər. Müaviyənin məktublaşdığı xain şəxs Malik Əştərin yanına gələrək onu evinə yemək yeməyə və istirahət etməyə dəvət etdi. Malik bu dəvəti qəbul etdi, həmin şəxsin evinə getdi, yemək yedi və yeməkdən sonra içərisinə zəhər qatılmış bal şərbətindən içdi. İçdiyi bu bal şərbəti onun şəhid olmasına səbəb oldu.

Müəllif yazır: "Şeyx Müfidin və digərlərinin kitablarından belə qənaətə gəlmək olar ki, Müaviyənin muzduru Malik Əştər kimi böyük şəxsiyyəti zəhər qatılmış bal şərbətilə şəhid etdi." Tarix kitablarında belə qeyd olunub ki, bu xəbər Müaviyə ilə Əmr Asa çatanda onlar qeyri-ixtiyari olaraq sevincdən dedilər:

"Allahın baldan qoşunları var."

İbn Əbul Hədid və digərləri yazırlar: "Müaviyə öz muzdlu qatili ilə bu planı cızanda davamlı olaraq Şam əhlinə Malikə lənət oxumağı və Allahdan onun ölümünü istəmələrini deyirdi. Malik Əştər şəhid edildikdən sonra o camaat üçün çıxış edərək dedi: "Allahın sizin duanızı necə yerinə yetirdiyini gördünüz?!" Sonra minbərə çıxaraq dedi: "Əli ibn Əbu Talibin iki əli var idi. Onlardan biri Əmmar ibn Yasir idi və O Siffeyndə kəsildi, ikincisi də Malik Əştər idi və o da bu gün kəsildi."

Əmirəlmöminin Əli (əs)-ın Malik Əştərin ölümündən təəssüflənməsi

Siffeyn döyüşü hadisələrini diqqətinizə çatdıranda Əmirəlmöminin Əli (əs)-ın Malik Əştərin şəhadətindən nə qədər təsirləndiyini və buyurduğu sözlərin bir hissəsini qeyd etmişdik. Əmirəlmöminin Əli (əs) Malik Əştərin ölüm xəbərini eşidəndə fəryad çəkdi, bunu ən böyük müsibətlərdən biri olduğunu bildirdi və bu ölümü Allah Təalanın üzərinə buraxdı. Bu qəmli hadisədən bir neçə gün keçməsinə baxmayaraq qüssə və kədər nişanələri O Həzrətin üzündən aydın şəkildə gözə çarpırdı. Gələn səhifələrimizdə Əmirəlmöminin Əli (əs)-ın Malik Əştəri mədh etməsi və ona dua etməsini diqqətinizə çatdıracağıq.

Nəhcül Bəlağədə Malik Əştər barəsində mədh qeyd olunmuşdur. İbn Əbul Hədidin sözlərinə görə bu mədhin qısa olmasına baxmayaraq ən mənalı və bəlağətli mədh və tərifl ərdən biridir. Əmirəlmöminin Əli (əs) qoşun sərkərdələrindən ikisinə yazdığı məktubda Maliki onların əmiri təyin etdiyini bildirir və onun barəsində bu sözləri buyurur:

"Mən onu sizin və sizin davamçılarınızın üzərində hakim və əmir təyin etdim. Elə isə onun əmrlərinə qulaq asın və itaət edin. Onu özünüzün zirehi və qalxanı bilin, çünki o qorxudan əsən və zəifləyən insanlardan deyil. Onun sürət və ehtiyat göstəriləsi yerdə mülayim davranmasında və mülayimlik göstəriləsi yerdə sürət nümayiş etdirməsində heç bir qorxu yoxdur."

İbn Əbul Hədid bu hissənin şərhində belə yazır: "Öz canıma and olsun ki, Malik Əştər həqiqətən öz ağası tərəfindən bu qədər tərifə layiq idi. Çünki, Malik çalışqan, səxavətli, böyük, həlim, güclü bəyana malik, şair bir insan idi. Malik Əştər Əxlaqı yumşaqlıqla möhkəmliliyi bir yerdə cəmləşdirən insan idi. Yəni möhkəmlik və kobudluq lazım olan yerdə kobudluq edər və yumşaqlıq lazım olan yerdə yumşaqlıq nümayiş etdirərdi."

Onun şəhadəti Hicri-Qəməri tarixi ilə 39-cu ildə baş verdi və o elə bir şəxs idi ki,şəhadətindən sonra Əmirəlmöminin Əli (əs) onun barəsində bu sözləri buyurdu:

"Allah Malikə rəhmət eləsin. O mənim üçün mən Allahın Rəsuslu (s) üçün olduğum kimi idi."

İbn Əbul Hədid yazır: "Hədis alimlərinin qeyd etdiyi bir hədis Malik Əştər (r)-in malik olduğu böyük fəzilətə dəlalət edir. Həmin hədisdə Allahın Rəsulu (s)-in Malik Əştərin imanı barəsində qətiyyətlə şəhadət verməsi qeyd olunmuşdur. Bu hədisi Əbdul Birr "İstiyab" əsərində, "Cəndəb"[1] fəslində qeyd etmişdir: "Əbuzər Rəbzədə ölüm ayağında olanda həyat yoldaşı Umm Zər ağlamağa başladı. Əbuzər ona dedi: "Niyə ağlayırsan?" Həyat yoldaşı cavab verdi: "Niyə də ağlamayım ki sən indi bu quru və yandırıcı məkanda öləcəksən və mənim səni kəfənləməyə parçam belə yoxdur. Həm də məcburam sənin dəfn işini özüm edim.(çünki bu qərib səhrada bizdən savayı heç kim yoxdur.)

Əbuzər dedi: "Ağlama, sənə müjdəm var. Mən Allahın Rəsulu (s) – dan bir söz eşitmişəm ki, həmin sözü mən də orada olmaqla bir neçə nəfərə buyurdu: "Sizlərdən biriniz quru və susuz səhrada öləcək və onun başına bir dəstə mömin yığışacaq. Bu bir neçə nəfərdən hər birisi dünyanın müxtəlif kəndlərində və dəstələri arasında dünyadan köçəcəklər." Mən (Allahın Rəsulu (s)-in buyurduğu) həmin şəxsin özüm olmasında heç bir şübhəm yoxdur. Allaha and olsun ki, yalan demirəm və mənə də yalan söyləməyiblər. İndi yola bax!"

[1] Cəndəb Əbuzər Ğəffarinin adıdır.

Umm Zər ona dedi: "Axı kim gələ bilər! Hacılar gediblər və yollar bağlanılıb." Əbuzər dedi: "Get, yenə də bax!" Umm Zər deyir: "Mən bir neçə dəfə qum təpəsinin üzərinə çıxdım və geri qayıdaraq (ölüm ayağında olan) Əbuzərin başı üstə dayandım."

Bu arada uzaqdan atlılar görünməyə başladı. Onlar atlarının üzərində qartal kimi süzürdülər. Atları onları sürətlə mənə sarı gətirirdi. Onlar mənim yanıma çatan kimi dedilər: "Ey qadın, nə baş verib?" Mən cavab verdim: "Müsəlmanlardan biri ölüm ayaöındadır. Siz gəlin onu kəfənləyin!" Atlılar ölüm ayağında olanın kim olduğunu soruşdular və mən onların cavabında dedim: "Əbuzər!" Onlar yenidən soruşdular: "Əbuzər! Allahın Rəsulu (s)-in dostu?!" Dedim: "Bəli". Atlılar dedilər: "Ata və anamız ona fəda olsun!" Onlar bu sözü deyib özlərini Əbuzərin yanına çatdırdılar.

Əbuzər onlara dedi: "Sizə müjdəm var. Mən Allahın Rəsulu (s)-dən eşitmişəm ki, mən də aralarında olduğum bir neçə nəfər belə buyurdu: "Sizlərdən biri quru və susuz yerdə dünyadan köçəcəkdir və o ölüm ayağında olanda bir dəstə onun başı üzərində toplaşacaq." Allaha and olsun ki, yalan demirəm və mənə də yalan söylənilməyib. Əgər mənim və yaxud həyat yoldaşımın parçası olsaydı həmin parçadan özümə kəfən edərdim və başqa heç bir kəfəni qəbul etməzdim. Mən sizi and verirəm Allaha məni əmir, sərkərdə, çapar və yaxud dəstə başçısı kəfənləməsin!"Bu karvanda olan insanlardan hər biri qeyd etdiyimiz mənsəb sahibləri idilər. Onların arasında gənc ənsar var idi və o dedi: "Ey əmi can, Səni iplərini və parçasını anam hazırlamış əbamla kəfən edəcəm."

Əbuzər dedi: "Sən məni kəfənə qoy!" Bu sözlərdən sonra Əbuzər dünyadan köçdü. Karvan əhli ona qüsl verdilər və ənsarlardan olan həmin gənc onu kəfənə qoydu və digərlərinin köməkliyi ilə onu dəfn etdi...

İbn Əbul Hədid bu sözlərin ardınca belə yazır: "Bu karvan əhlinin arasında Həcər ibn Ədi də var idi. O, Şiələrin tanınmış şəxsiyyətlərindən idi və Müaviyə onu qətlə yetirdi." Sözünü davam etdirərək belə yazır: "Mən ustadımız Əbdul Vəhhabın yanında oturmuşdum və onun üçün "İstiyab" kitabını oxuyurdular. Kitabı oxuyan şəxs bu hissəyə çatnda ustadlarımızdan başqa birisi, Ömər ibn Abdullah Dəbbas dedi: "Şiə bundan sonra nə istəsə deyə bilər!"

Muhəmməd ibn Əbu Bəkrin vəzifəsindən uzaqlaşdırılması barəsində narahatlığı

Tarixçilərin dediklərinə görə Malik Əştərin Misirə hakim təyin edilməsi xəəbəri Muhəmməd ibn Əbu Bəkrə ağır gəldi və narahatlığına səbəb oldu. Bu səbəbdən də Əmirəlmöminin Əli (əs) ona məktub yazdı. Əmirəlmöminin Əli (əs)-ın bu məktubu həm Nəhcül Bəlağədə, həm də digər rəvayətlərdə qeyd olunmuşdur.

Bu məktubda yenidən Malik Əştər mədh edilir və həmin məktubun mətni belədir:

"Allaha həmd və şükürdən sonra. Əştəri səni işlərini qaydasına qoymaq üçün göndərməyimim səni narahat etməsi barəsində xəbər eşitmişəm. Amma mənim belə iş görməm sənin işləri ləng görmən, yaxud öz səy və tələşını artırmaq üçün deyildir. Əgər səndən əlində olan (Misir hakimiyyətini) hakimiyyəti geri alsam, səni hökumət edilməsi daha asan və hakimiyyət etməsi sənin üçün daha münasib bir yerə təyin edəcəm.

Mənim Misir hakimiyyətini tapşırdığım insan xeyrə can atan, düşmən müqabilində möhkəm dayanan bir insan idi. Allah ona rəhmət eləsin. Onun ömrü başa çatdı və öz ölümünün görüşünə getdi. Biz ondan çox razıyıq və Allah da ona öz rizayətini nümayiş etdirsin və mükafatını iki dəfə artırsın. İndi düşmənə qarşı çıx, agah şəkildə irəli get və sənlə döyüşmək istəyənlərin döyüşünə tələs və onları Allahın yoluna dəvət et. Allahdan bu mühim işi həyata keçirməkdən və qarşılaşacağın hər vəziyyətdə sənə yardımçı olmasını istə İnşaallah!"

Müəllif yazır: İbn Əbul Hədid bu məktubu qeyd etdikdən sonra bu sözləri vurğulayır:

"Bu duadan sonra Allahın Malik Əştəri bağışlamasına, günalarından keçməsinə və cənnətə daxil etməsinə heç bir şübhə etmirəm. Mənim nəzərimcə bu dua Allahın Rəsulu (s)-in duaları ilə qəti fərqlənmir. Əmirəlmöminin Əli (əs)-dan belə dualar qazanmış insanların xoş halına...!"

Müaviyə Misir məsələsi barədə məşvərət etmək üçün dostlarını bir yerə toplayır

Qeyd etdiyimiz kimi, Misir əyaləti istər siyasi, istər vergi gəlirləri, istər insan resursları baxımından Müaviyə üçün böyük əhəmiyyət kəsb edirdi. Elə bu səbəbdən də həmişə oranı ələ keçirmək barəsində düşünürdü və bu işğal siyasətini həyata keçirmək istəyirdi. Müaviyənin orda Osmanın tərəfdarlarına və Əmirəlmöminin Əli (əs)-ın müxaliflərindən ibarət böyük dəstənin olmasından və onların Misirin hakimi Muhəmməd ibn Əbu Bəkrə qarşı çıxmasından da xəbəri var idi. Misiri işğal etmək üçün bütün münbit şəraitin olmasını, başqa sözlə desək "beşinci sütunun" olmasını anlayan Müaviyə bu planını həyata keçirmək istəyirdi. Buna görə də Müaviyə özünə yaxın olan insanlarla görüş keçirmək və bu məsələ barəsində onlarla məşvərət etmək və çıxış yolu tapmaq qərarına gəlir.

Müaviyə onlarla müşavirə apardıqdan sonra onların da bu fikirdə olduqlarını gördü. Yalnız Əmr As bu işlərin Müaviyənin dediyi yolla həyata keçirilməsini bəyənmədi. Bundan sonra Müaviyə Misirdə Osmanın dostlarından və Əmirəlmöminin Əli (əs)-ın müxaliflərindən olan və son zamanlar Muhəmməd ibn Əbu Bəkrlə müharibəyə girən Müaviyə ibn Hədicə və Müslimə ibn Məxlədə

məktub yazdı və onları Muhəmməd ibn Əbu Bəkrlə müharibəyə həvəsləndirərək onlara hər cəhətdən yardımçı olacağını bildirdi.

Həmin iki nəfər bu məktubu aldıqdan sonra Muhəmməd ibn Əbu Bəkrlə müharibəyə hazır olduqlarını bildirdilər və Müaviyədən onlara kömək etmək üçün qoşun istədilər.

Müaviyə Əmr Ası mücəhhəz qoşun ilə Misiri işğal etməyə göndərir

Bu dəfə də Müaviyə bütün müşavirlərinin nəzərini öyrəndikdən sonra Əmr Ası altı minlik qoşunla işğal üçün Misirə göndərir. Əmr As Misirə yaxınlaşanda Osmanın tərəfdarları bundan xəbərdar oldular və özlərini Əmr Asa çatdırdılar. Əmr As Muhəmməd ibn Əbu Bəkrə məktub yazaraq bildirdi: "Mən sənin qanını tökmək istəmirəm. Yaxşısı budur ki, özün şəhəri tərk edəsən və mənimlə döyüşə gəlməyəsən. əgər döyüşə gəlsən öldürüləcəksən!" Sonra bu məktubu Müaviyənin Muhəmməd ibn Əbu Bəkr üçün bu məzmunda yazdığı məktubu ilə birlikdə ona göndərdi.

Muhəmməd ibn Əbu Bəkr hər iki məktubu Əmirəlmöminin Əli (əs)-a göndərdi və O Həzrətə belə yazdı: "Asinin" oğlu "Asi" (üsyankarın oğlu üsyankar, yəni günahkarın oğlu günahkar, yəni Əmr ibn As) tam təchiz olunmuş qoşunla Misir yaxınlığında yerləşiblər və onların Misirdə olan tərəfdarları da onalara qoşulublar. Əgər Misir torpaqlarını istəyirsinizsə mənə mali və hərbi baxımdan yardım edin, çünki buranın əhalisində zəiflik və zəlillik müşahidə edirəm."

Əmirəlmöminin Əli (əs) Muhəmmədin məktubuna cavab olaraq onu düşmən qarşısında müqavimət göstərməyə çağırdı və ona həm maliyə, həm də döyüşçü cəhətdən yardım göstərəcəyini bildirdi. Eləcə də, Müaviyə ilə Əmr Asa necə cavab verməyi öz üzərinə buraxdı.

Muhəmməd ibn Əbu Bəkrin şəhid olması

Əmr As Osmanın Misirdəki tərəfdarları ona qoşulandan sonra Misirə tərəf yola düşdü. Muhəmməd ibn Əbu Bəkr Əmr Asın Misirə tərəf yola düşmə xəbərini eşitdikdən sonra insanlar üçün xütbə dedi və onları düşmənlə müharibəyə səslədi. Bundan sonra Kənanə ibn Bəşərin başçılığı altında iki min nəfər döyüşçünü Əmr Asla döyüşə göndərdi və özü də iki min döyüşçü ilə onun arxasınca yola düşdü.

Kənanə ibn Bəşər Əmr Asın qoşunuyla döyüşdə şəhid oldu və Muhəmməd ibn Əbu Bəkri də silahdaşları döyüş zamanı tək qoyub qaçdılar. Vəziyyəti belə görən Muhəmməd ibn Əbu Bəkr özünü bir xarabalığa çatdırdı və orada gizləndi.

Əmr As onun ardınca Misirin O zamankı paytaxtı Fistat şəhərinə daxil oldu və Muhəmməd ibn Əbu Bəkri axtarmağa başladı. Əmirəlmöminin Əli (əs)-ın düşmənlərindən olan Müaviyə ibn Hədic də Muhəmmədin axtarışına başladı. Sonda yoldan ötənlərin birindən onun dediyi şəkildə bir adamın xarabalıqlarda qaldığı-

nı öyrəndi. Həmin şəxsin Muhəmməd ibn Əbu Bəkr olduğunu anlayan Müaviyə ibn Hədic xarabalığa gəldi və susuzluqdan haldan düşmüş Muhəmmədi həbs etdi.

Muhəmməd ibn Əbu Bəkrin həbs olunması xəbərini eşidən Əmr As Müaviyə ibn Hədicin onu öldürməsindən təşvişə düşərək ona məktub yazdi. Əmr As Müaviyəyə Muhəmmədi öldürməməyi tapşırdı, amma o Əmirəlmöminin Əli (əs)-ın qatı düşmənlərindən və Osmanın tərəfdarlarından olduğu üçün bu təklifi qəbul etmədi və dedi: "mənim qohumum olan Kənanə ibn Bəşər qətlə yetirilsin, amma Muhəmməd ibn Əbu Bəkr sağ qalsın?! Heç vaxt!"

Sonra Muhəmməd ibn Əbu Bəkr onlardan su istədi və Müaviyə ibn Hədic hayasızlıqla dedi: "Siz Osmanı susuz qətlə yetirmisiniz və Allah onu cənnət bulaqlarının suyu ilə doyduracaq. Səni də susuz qətlə yetirəcəm ki, Allah sənə cəhənnəmin çirkabından içizdirsin!"

Muhəmməd ibn Əbu Bəkr ona dedi: "Ey Yəhudi toxucu qadının oğlu, həmin günün ixtiyarı nə sənin, nə də mənim əlimdədir. O günün ixtiyarı Allahın əlindədir və O öz dostlarının susuzluğunu yatırdacaq və düşmənlərini susuz saxlayacaq. Həmin insanlar da (Allahın su verməyəcəyi və düşmən bildiyi) sən, sənin dostların, silahdaşların və sənin sevdiyin insanlardırlar. Allaha and olsun ki, qılıncım əlimdə olsaydı siz mənimlə bu qədər cəsarətlə danışa bilməzdiz!"

Muhəmməd ibn Əbu Bəkrin fəziləti barəsində bir neçə hədis

İbn Əbul Hədid Muhəmməd ibn Əbu Bəkrin necə şəhid edilməsini qeyd etdikdən sonra "Kəsir Nəva"-dan bir rəvayət nəql edir. Muhəmmədin anası və Əbu Bəkrin həyat yoldaşı Əmsin qızı Əsma yuxu gördü. Bu yuxunu Allahın Rəsulu (s)-ə danışanda O Həzrət buyurdu:

"Allahu Təala Əsmada Əbu Bəkrə bir oğul əta edəcək və onun adını Muhəmməd qoyacaq. Allahu Təala onu kafirlərə və münafiqlərə kin və qəzəb aləti edəcək!"

Əbdürrəhman ibn Şəbib Xərazi belə rəvayət edir ki, Əmirəlmöminin Əli (əs) belə buyurdu: "Mən çox nadir adam görmüşəm ki, Şam əhli Muhəmməd ibn Əbu Bəkrin ölüm xəbərini eşidəndə sevindiyi və şadlandığı kimi sevinə bilsin."

Əmirəlmöminin Əli (əs) buyurur: "Bilin və agah olun ki, bizim qüssə və kədərimiz onların sevinci qədərdir, bəlkə də dəfələrlə artıqdır![1]"

Başqa bir hədisdə Muhəmməd ibn Əbu Bəkrin müsibəti barədə belə buyurur: "Ah, nə qədər də böyük müsibətdir! Mənim Muhəmməd barəsindəki müsibətim nə qədər böyükdür! Allaha and olsun ki, Muhəmməd mənim üçün öz oğlum kimi idi![2]"

Mədaini qeyd edir ki, Muhəmməd ibn Əbu Bəkr şəhid edildikdən sonra Əmirəlmöminin Əli (əs)-dan soruşdular: "Siz Muhəmmədin ölümündən çox

[1] Nəhcül Bəlağənin Şərhi, İbn Əbul Hədid, cild 2, səh 33-34
[2] Qamusər Rical, cild 7, səh 498

kədərləndiniz?" Əmirəlmöminin Əli (əs) buyurdu: "Bəli! Necə də kədərlənməyim?! Həqiqətən də o mənim həyat yoldaşınız oğlu idi və mənim oğullarım üşün qardaş idi. Mən onun atası idim və onu öz oğlum bilirdim![1]"

Kufə və oranın vəfasız və mənəviyyatsız camaatı barədə

Muhəmməd ibn Əbu Bəkrin Əmirəlmöminin Əli (əs)-dan yardım istəməsi barəsində göndərdiyi məktub Kufəyə çatanda O Həzrət camaatı məscidə çağırdı, xütbə oxudu və Allaha şükür etdikdən və Allahın Rəsulu (s)-ə salam göndərdikdən sonra buyurdu:

"Muhəmməd ibn Əbu Bəkr və sizin Misirdəki qardaşlarınız Nabiğənin oğlu, Allahın düşməni, Allahın dostlarının düşməni və Allahın düşmənlərinin dostu (Əmr Asın) Misirə hücum çəkməsinə görə bizdən kömək istəyirlər. Onlar artıq müharibəyə başlayıblar və onlara kömək göstərmək üçün tələsmək lazımdır.

Ey Allahın bəndələri! Misir Şamdan daha böyükdür və oranın camaatı da Şam əhlindən daha yaxşıdır. Misiri sizdən almasınlar, çünki Misirin sizin əlinizdə qalması sizlərə baş ucalığı və düşmənlərinizə məğlubiyyət və zəlalət gətirəcək! Cəz'əyə[2] tərəf tələsin! Biz də sabah oraya gələcəyik və inşaallah bir-birimizi görəcəyik."

Əmirəlmöminin Əli (əs) ertəsi gün həmin yerə getdi və günortaya qədər gözlədi, amma heç yüz nəfər belə gəlmədi. Əmirəlmöminin Əli (əs) yenidən şəhərə qayıtdı və axşam olanda Kufə şəhərinin zadəganlarını və tanınmış şəxsiyyətlərini çağırtdırdı. Onlar Darul İmarədə bir araya gəldilər. Qəmli və yorğun olan Əmirəlmöminin Əli (əs) onlarla söhbətə başladı, onların zəifliyindən gileyləndi və bu sözləri buyurdu:

"Sizi bir araya toplaya biləcək bir din, ya məzhəb yoxdurmu? Sizi qəzəbləndirə biləcək qeyrət və mənliyiniz yoxdurmu? Heç düşmənlərinizdən xəbəriniz varmı ki, onlar sizin şəhərlərinizi işğal edərək hər tərəfdən hücuma keçiblər?

Müaviyənin bir dəstə daş ürəkli, rəzil və zalım insanları bir yerə toplayaraq, onlara heç bir bəxşiş vermədən və köməklik etmədən hər il iki-üç dəfə müxtəlif yerlərə göndərməsi və onların bu sözlərin hamısına itaət etməsi təəccüblü deyildirmi? Amma siz ağıllı insanlar və böyük şəxsiyyətlərin nəslindən olduğunuz halda bu qədər ixtilafa maliksiniz. Sizlər mənim yanımdan uzaqlaşaraq mənimlə müxalifət edirsiniz."

Bu sözlərdən sonra Malik ibn Kəəb ayağa qalxdı və dedi: "Camaatın mənimlə gəlməsi üçün əmr verin. Mən bu işi yerinə yetirməyə hazıram." Sonra üzünü camaata tərəf çevirdi və onları danlayaraq dedi: "Öz İmamınızın sözünü qəbul edin və onun dəvətini qəbul edin!"

[1] Nəhcül Bəlağənin Şərhi, İbn Əbul Hədid, cild 2, səh 35

[2] Cəz'ə Kufə ilə Hirə arasında hərbi şəhərcik idi

Əmirəlmöminin Əli (əs) Malik ibn Kəəblə Misirə getmək üçün camaatı dəvət etməyi əmr etdi. Amma bu hadisədən bir ay keçməsinə baxmayaraq cəmi iki min nəfər döyüşçü yığılıdı. Əmirəlmöminin Əli (əs) böyük məyusluqla onları yola saldı və buyurdu: "Gedin, amma Allaha and olsun ki, inanmıram siz Misirli qardaşlarınızı sağ tapa biləsiniz."

Malik silahdaşları ilə yola düşdü, amma beş gün yol getdikdən sonr Muhəmməd ibn Əbu Bəkrin şəhid edilməsi xəbəri Əmirəlmöminin Əli (əs)-a çatdı. O Həzrət adam göndərdi və Malik yarı yoldan Kufəyə qaytartdı.

* * *

Müəllif yazır: "Əmirəlmöminin Əli (əs) Muhəmməd ibn Əbu Bəkrin şəhid edilməsi xəbərini aldıqdan sonra Abdullah ibn Abbasa məktub yazaraq Kufə əhlindən olan narazılığını ona çatdırır və belə buyurur:

"Allahdan istəyirəm ki, bu insanların əlindən xilas olmam üçün mənə yardımçı olsun. Məni tezliklə bunların əlindən rahatlaşdırsın. Allaha and olsun ki, öz düşmənimlə görüşdə özümü həmişə hazırladığım şəhidlik sevgisi olmasaydı, bu insanlarla bir belə qalmaq istəməzdim."

Bunun ardınca Kufə əhli üçün ətraflı nitq söyləyir və xütbə oxuyur və bütün hadisələri İslamın başlanğıcından Xəvariclərin məhv edilməsinə qədər, Kufə əhlinin O Həzrətə qarşı bütün itaətsizliklərini əvvəlldən axıra qədər buyurur. Eləcə də onları gözləyən təəssüflü gələcəkləri barəsində onlara xəbər verir. Biz bu məsələlərin hamısını geniş şəkildə qeyd etmək istəmirik və daha geniş məlumat tolamaq istəyənlər İbn Əbul Hədidin Nəhcül Bəlağənin şərhi kitabına müraciət edə bilərlər[1].

Əmr ibn Asın sonu və ölümü

Qeyd etdiyimiz kimi Əmr ibn As Misiri işğal etdi və Müaviyə tərəfindən oranın hakimi təyin edildi. O, sonda öz ürəyində çoxdan bəslədiyi arzusuna çatdı. Bir neçə il Misirin hakimi olduqdan sonra Hicri-Qəməri tarixi ilə 42 yaxud 43-cü ildə[2] dünyadan köçdü. Tarixdə olan bütün cinayətkarlar kimi o da ömrünün sonunda peşman olmuşdu və Allahın dərgahına üz tutaraq bağışlanmasını istəyirdi və belə deyirdi:

"Allahım sən bizə əmr etdin, biz isə itaətsizlik etdik. Sən bizi pis işlərdən çəkindirdin, amma biz yenə də həmin işi gördük. Mən nə günahdan uzaq deyiləm və üzr istəyə də bilmirəm, nə də ondan kömək istəməyə gücüm qalmayıb.[3]"

[1] Həmin mənbə, səh 35-38

[2] Şəzəratuz Zəhəb, cild 1, səh 53

[3] Şəzəratuz Zəhəb, cild 1, səh 53; Səhih Müslimdən nəql edilib

Amma Allahu Təala ölüm vaxtı çatanada Allahı xatırlayaraq tövbə edənlərin cavabını Quranda vermişdir:

وَلَيْسَتِ التَّوْبَةُ لِلَّذِينَ يَعْمَلُونَ السَّيِّئَاتِ حَتَّى إِذَا حَضَرَ أَحَدَهُمُ الْمَوْتُ قَالَ إِنِّي تُبْتُ الْآنَ وَلَا الَّذِينَ يَمُوتُونَ وَهُمْ كُفَّارٌ أُولَئِكَ أَعْتَدْنَا لَهُمْ عَذَابًا أَلِيمًا [1]

"Günah işlər görməkdə davam edərək ölüm yetişən anda: "Mən indi tövbə etdim" – deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq!"

* * *

Qeyd edək ki, Mötəzili məzhəbinin nümayəndəsi olan İbn Əbul Hədid də ölüm ayağında edilmiş tövbənin qəbul edilməməsi məsələsi barəsində bizimlə həməqidədir. O, bəzilərinin "o tövbə etdi" sözü üçün cavab olaraq yuxarıda qeyd etdiyimiz Quran ayəsini qeyd edir və deyir: "Bu sözlər tövbə sayılmır və tövbə sayılması üçün də heç bir dəlil yoxdur."

Müaviyə Misiri işğal etdikdən sonra İbn Həzrəmini Bəsrəyə göndərir

Misirin işğalından sonra İslam xilafətinin rəhbəri Əmirəlmöminin Əli (əs)-ın hakimiyyəti altında olan digər şəhərlərə və əyalətlərə hücum etmək üçün cəsarəti çoxaldı və Bəsrəyə hücum etmək fikrinə düşdü. Bu məqsədlə yenə də Osmanın qisasını almaq bəhanəsilə Bəsrədə olan bəzi insanları özünə tərəf çəkə bildi və ümumilikdə insanların hisslərindən sui-istifadə etdi. Bəsrədə olan silahdaşları ilə yazışdıqdan və onlar tərəfdən ürəyi tam rahatlıq tapdıqdan sonra öz əlaltılarından birini, yəni Abdullah ibn Həzrəmini Bəsrəyə yola saldı. Ona Əmirəlmöminin Əli (əs)-ın hakimiyyəti ilə arası olmayan Bəni Təmim qəbiləsinə getməsini və şəhərdə ixtişaş yaratmaq üçün həmin qəbilənin köməyindən istifadə etməsini tapşırdı.

Bəsrənin o zamankı hakimi Əbdullah ibn Abbas idi və o Muhəmməd ibn Əbu Bəkrin şəhadətinə görə Əmirəlmöminin Əli (əs)-a başsağlığı vermək üçün Kufəyə getmişdi və Ziyad ibn Übeydi (yaxud Ziyad ibn Əbihi)[2] canişin etmişdi.

İbn Həzrəmi də fürsətdən istifadə edərək Bəsrəyə daxil olan kimi Müaviyəni təbliğ etməyə, Osmanın qisası məsələsini şişirtməyə və bununla da Bəsrədə yaşayan qəbilələr arasında qarşıdurma yaratmağa başladı. Tədricən hədə-qorxu və tamahkarlıqla bəzi qəbilələri özü ilə həmdüşüncə edə bildi və bundan sonra

[1] Nisa surəsi, ayə 18

[2] Ziyad ibn Übeyd həmin Ziyad ibn Əbihdir. Tarix kitablarında adının belə qeyd olunmasının səbəbi atasının kimliyinin məlum olmaması üzündəndir. Müaviyə onun əqidəsiz insan olduğunu və öz mənfur əməllərini həyata keçirməkdə ondan istifadə edə biləcəyini anladıqdan sonra onu şama apardı və camaatı da məscidə dəvət etdi. Rüsvayçı nitqdən sonra onu öz qardaşı adlandırdı və Əbu Süfyana bağladı və bundan sonra onu Ziyad ibn Əbu Süfyan adlandırdılar. O Kufədə və Həzrət İmam Hüseyn (əs)-ın şəhid edilməsi hadisələrində misli bərabəri olmayan cinayətlər törətmiş Abdullah ibn Ziyadın atasıdır.

Əmirəlmöminin Əli (əs)-ın xilafətinə qarşı açıq şəkildə mənfi təbliğat aparmağa başladı.

Ziyad ibn Übeyd öz əmiri Abdullah ibn Abbasa məktub yazaraq hadisəni onun diqqətinə çatdırır və sonda bu xəbər Əmirəlmöminin Əli (əs)-a çatır. O, Bəni Təmim qəbiləsinin Kufədə yaşayan bəzi başçılarını yanına çağıraraq onların qəbiləsindən olan insanların Bəsrədə əhdi pozmalarını onların diqqətinə çatdırır. Onlar da bu hadisəyə görə üzr istəyərək öz səhvlərini düzəldəcəkləri barədə Əmirəlmöminin Əli (əs)-a söz verirlər.

Bəsrədə isə güclənməkdə olan və artıq müharibənin meydana çıxmasına şərait yaradan ixtişaşlar Əhnəf ibn Qeysin müdaxiləsilə müvəqqəti olaraq sakitləşdi və hər iki tərəf - Abdullah ibn Həzrəmi və Ziyad ibn Übeyd- müharibədən əl çəkdilər.

Əmirəlmöminin Əli (əs) Ziyada məktub yazdı və Ə'yən ibn Zəbiəni də öz qəbiləsi olan Bəni-Təmim qəbiləsilə danışıqlar aparmaq üçün Bəsrəyə göndərdi. O, Bəni-Təmim qəbiləsindən fitnəkar və ixtişaşçı Abdullah ibn Həzrəminin ətrafına toplaşmış insanları ondan uzaqlaşdırmalı idi və bu məsələni Ziyada yazdığı məktubda da qeyd etdi.

İbn Zəbiə də öz məmuriyyətinə başladı. O Bəsrə şəhərinə daxil olduqdan sonra öz qəbiləsinin camaatı ilə danışıqlar apardı və onlarla etdiyi söhbətlərdə Əmirəlmöminin Əli (əs)-la bağladıqları əhdnaməni onların yadına saldı, onları əhdi pozmaqdan çəkindirməyə çalışdı.

İxtişaşçılar Əmirəlmöminin Əli (əs)-ın göndərdiyi elçini də qətlə yetirdilər

Amma öz münafiq istəklərini və pis niyyətlərini həyata keçirmək üçün təzə meydan tapmış ixtişaçılar bu meydanı belə tezliklə sülh və əmin-amanlıq tərəfdarlarına təhvil vermək istəmirdilər. Digər tərəfdən də onları birliyə, sülhə və Əmirəlmöminin Əli (əs)-a sadiq qalmağa çağıran İbn Zəbiənin güclü məntiqi və dəlilləri qarşısında aciz qaldıqları üçün onu qətlə yetirmək qərarına gəldilər. Onlar gecə vaxtı hücum edərək bütün insani, İslami və qəbilə qanunlarını, eləcə də dünyanın heç bir yerində qəbul edilməyən elçilərin öldürülməsi qanununu pozdular və bu cinayəti həyata keçirdilər. Onlar öz rəhbərləri kimi heç bir insani qanuna bağlı olmadıqlarını bir daha sübut etdilər.

Bu cinayətdən sonra Bəsrədəki ixtişaşlar yenə də baş qaldırdı və Əzd qəbiləsi Ziyadın yanına gələrək ixtişaşçılarla müharibəyə və onları şəhərdən qovmağa hazır olduqlarını bildirdilər. Amma üzünə sülhsevərlik maskası taxmış Ziyad ibn Übeyd müharibənin baş tutmasına razı olmadı və Əmirəlmöminin Əli (əs)-a məktub göndərərək hadisəni O Həzrətin diqqətinə çatdırdı. O, eləcə də, Əmirəlmöminin Əli (əs)-dan Bəni Təmim qəbiləsində böyük nüfuza malik Cariyə

ibn Qədaməni Bəsrəyə göndərməsini və İbn Həzrəminin ətrafına toplaşmış Bəni Təmim qəbiləsinin sakinlərini ondan ayırmasını istədi.

Əmirəlmöminin Əli (əs) onun istəyini nəzərə aldı və Cariyəni Bəsrəyə göndərdi. Tarix kitablarında qeyd olunub ki, Nəhcül Bəlağədə də qeyd olunan bu məktubu (29-cu məktub) onlara ünvanladı:

"(Azğınların ardınca getmək nəticəsində) ipinizin qırılması (əhd-peymanı pozmaq), düşmənçilik və müxalifət etməyiniz (nalayiq işləriniz) nadan və xəbərsiz olduğunuz məsələlərdən deyildi. Amma mən sizin günahınızı bağışladım, qılıncı üz çevirib qaçanınızdan saxladım, üz tutanınızı (qayıdanınızı) qəbul etdim. Lakin bundan sonra əgər haqqa zidd pozğunçuluq və səhv düşüncələr sizi mənimlə düşmənçilik və müxalifətə sövq etsə, bilin ki, öz atlarını yaxına gətirərək öz minik dəvəsinə palan qoyan mən olacağam. Əgər məni özünüzə tərəf gəlməyə məcbur etsəniz, sizinlə elə döyüşə başlayacağam ki, Cəməl müharibəsi onun yanında (qazan dibi) yalayanın (qazanın dibini) yalaması kimi olsun. Hərçənd ki, sizə tabe olanın fəzilət və böyüklüyü və (sizə, mənə qarşı çıxmamaq barəsində) öyüd-nəsihət verənin haqqından da xəbərdaram. Eyni zamanda günahsıza vurulmuş töhmətdən və vəfalıya qarşı peymanını pozandan da keçməyəcəyəm. (Müharibə zamanı haqq ilə batili bir-birinə qatışdırmayacaq, kimin öldürülməli və kimin buraxılmalı, kimin cəzasına çatdırılmalı və kimin mükafatlandırılmalı olmasını yaxşı bilirəm.)"

Cariyə ibn Qədamə böyük həyəcanla Bəni Təmim və Əzd qəbilələrinin yanına getdi və Əmirəlmöminin Əli (əs)-ın məktubunu onlara çatdırdı. Sonda Ziyadın köməkliyi ilə bu iki qəbilədən İbn Həzrəminin ətrafına toplaşan insanları əksəriyyətini ondan ayıra bildi. İbn Həzrəmi və onun ətrafındakıları döyüş meydanına dəvət edərək qətlə yetirdi və beləliklə Müaviyənin göndərdiyi ixtişaşçının niyyətini puça çıxartdı.

İraqın Bəsrədən başqa Dəclə və Fərat çayları sahilində yerləşən abad şəhərləri bunlar idi: Mədain, Ənbar, Eynul Təmir, Vaqisə, Səmavə və daha bir neçə şəhər. Adları çəkilən şəhərlərin sakinləri Əmirəlmöminin Əli (əs)-ın hakimiyyəti altında yaşayırdılar və ədalətli hökümdarın misli bərabəri olmayan ədalətindən bəhrələnirdirlər. Amma hakimiyyətdən və onu hər nə yolla olursa olsun ələ keçirməkdən savayı başqa heç nə barədə düşünməyən Müaviyə İraq şəhərlərinin dinc sakinlərini qarət edib qətlə yetirmək, bununla da şəhərlərdə qorxu və vəhşət yaratmaq, İslamın mərkəzi hökumətini zəiflətmək və növbəti hücumları üçün münbit şərait yaratmaq fikrinə düşdü.

Bu məqsədlə əlaltılarından biri olan Numan ibn Bəşiri min atlı ilə birlikdə Eynul Təmir şəhərinə göndərdi və hücum əmrini verdi. Numan əmrə əsasən həmin şəhərə hücum etdi, amma Əmirəlmöminin Əli (əs) tərəfindən bu şəhərə hakim təyin edilmiş Malik ibn Kəəb onunla döyüşə çıxdı. Malik döyüşçülərinin sayı az

olmasına baxmayaraq elə qəhrəmanlıqla döyüşdü ki, Numan döyüşdən qaçmağa məcbur oldu və məğlubiyyətə uğradı.

Bu xəbər Əmirəlmöminin Əli (əs)-a çatan kimi Kufə əhli üçün xütbə oxudu və onları Malik ibn Kəəbə kömək etməyə dəvət edərək buyurdu:

"Ey Kufə sakinləri! Hər dəfə sizə atlılar yaxınlaşan və Şam qoşunu hücum edəndə hər biriniz kərtənkələnin və kaftarın yuvasında gizləndiyi kimi evinin qapısını bağlasın və gizlənsin, xar və zəlil olsun. Allaha and olsun ki, elə şəxs var ki, siz ona kömək etməlisiniz və həmin şəxs sizin köməkliyinizdən şad olar. Həqiqətən o nə ucu, nə də pəri olmayan oxlar atıb. Sizin üzünüz çirkin və qəlbiniz kədərli olsun ki, Mən sizi (birgə olmağa) çağırdım. Sizin nə düşmənlə üz-üzə gələndə azadlığınız, nə də sirr saxlamaq üçün qardaşlığınız var..."

Süfyan ibn Ouf bu məqsədlə Ənbər və Hiyt şəhərlərinə göndərilir

Müaviyə bu hadisədən sonra Süfyan ibn Ouf Ğamədini altı minlik silahlanmış qoşunla Ənbar, Mədain və Hiyt şəhərlərinə tərəf göndərdi. Onun əmrinin mətni İbrahim Səqəfinin qarətlər barədə yazdığı "Ğarat" kitabında mövcuddur və yazıçı bu mətni Süfyan ibn Əyinəyə istinadən öz kitabında yerləşdirib. Süfyan ibn Ouf deyir:

"Müaviyə məni yanına çağırdı və dedi: "Mən səni tam təchiz olunmuş qoşunla göndərirəm və sən Fərat çayının sahilini Hiyt şəhərinə qədər hücumlara məruz qoy və ora çatanda güclü hücum planı hazırla, həmin şəhəri qarət elə. Əgər sənin lə döyüşməyə heç bir qoşun gəlməzsə Ənbar şəhərinə hücum edərək oranı qarət et və əgər yenə də heç bir müqavimətlə rastlaşmasan Mədain şəhərinə gedərək qarətini davam etdir və sonra mənim yanıma gəl!

Ehtiyatlı ol Kufə şəhərinə yaxınlaşmayasan. Agah ol ki, Ənbar və Mədain şəhərlərini qarət etsən Kufə şəhərini qarət etmiş olursan.

Ey Süfyan! Bu qarətlər İraq xalqını qorxuya salacaq və bizim tərəfdaşlarımızın sevincinə bais olacaq. Sabahından qorxan insanları bizə tərəf yaxınlaşdıracaq. Buna görə də, sənin əqidəni dəstəkləməyən hər bir şəxsi qətlə yetir və gördüyün hər kəndi və evi viran et, insanların malını qarət et. Çünki var-dövlətin qarət olunması insanların öldürülməsi kimi bir şeydir, amma bu insanı daha çox yandırır.[1]"

* * *

Tarixçilərin qeyd etdiyinə əsasən Süfyan ibn Ouf Müaviyənin əmrinə uyğun olaraq Hiyt şəhərinə gəldi və orada müqavimətlə rastlaşmadığı üçün Ənbar şəhərinə üz tutdu. Ənbar şəhərinin Əmirəlmöminin Əli (əs) tərəfindən təyin olunmuş hakimi Əşrəs ibn Həsan Bəkri və onun otuz nəfər silahdaşını qətlə yetirdi və bu şəhəri qarət etdi. Qarət etdiyi var-dövləti götürərək Müaviyənin yanına gəldi və Süfyanın

[1] Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 1, səhifə 144

özü qeyd etdiyi kimi heç bir müharibə səfəri həm bizim üçün, həm də Müaviyə üçün bundan daha sevindirici olmamışdı. Onlar günahsız insanları qarət etdikləri və camaatı qorxuya qərq etdiklərinə görə hədsiz dərəcədə çox sevinirdilər.

Cinayət və qarət xəbərləri Əmirəlmöminin Əli (əs)-ı çox kədərləndirir

Ənbar şəhəri sakinlərinin qətlə və qarətə məruz qalması xəbərini bu şəhərdən olan bir dəstə insan Əmirəlmöminin Əli (əs)-a çatdırdılar. Əmirəlmöminin Əli (əs) təəssüf doğuran bu xəbərləri eşitdikdən sonra camaat üçün xütbə dedi və hamını Ənbar şəhəri sakinlərinə kömək etməyə çağırdı, amma heç kim O Həzrətin bu çağırışına cavab vermədi. Vəziyyəti belə görən Əmirəlmöminin Əli (əs) minbərdən aşağı düşdü və piyada şəkildə Nəxiliyə istiqamətinə yola düşdü və camaat da onun arxasınca gəlməyə başladılar.

Kufə şəhərinin tanınmış şəxsiyyətləri Əmirəlmöminin Əli (əs)-ı belə görəndə O Həzrətin yanına gəldilər və evə qaytarddılar. Amma O Həzrətin üzündəki kədər cizgiləri getmək bilmirdi. Süfyan ibn Oufun böyük qoşunla Kufəyə hücum etmək istəməsi xəbəri Əmirəlmöminin Əli (əs)-a çatanda Səid ibn Qeysi səkkiz min nəfərlik qoşunla onunla döyüşməyə göndərdi. Səid yarı yolda Süfyan ibn Oufun yenidən Şama qayıtdığını eşitdikdən sonra silahdaşları ilə birlikdə Kufəyə dönür.

Bu hadisələrdən sonra Əmirəlmöminin Əli (əs) daim qüssə və kədər içində idi. O Həzrət xəstələnmişdi və yataq xəstəsinə çevrilmişdi. Əmirəlmöminin Əli (əs) özü xütbə deyə bilmədiyi üçün bu xütbənin yazılmasını və Kufə sakinləri üçün oxunmasını əmr etdi. Həmin xütbə budur:

"Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra, cihad (dinə qarşı çıxanlarla döyüş) Allahın özünün xüsusi dostlarının üzünə açdığı Cənnət qapılarından biri, təqva və pərhizkarlıq libasıdır. (Paltar insanı soyuqdan və istidən qoruduğu kimi təqva əhlini müxaliflərin şərindən qoruyar.) Haqq-təalanın möhkəm zirehi və onun (təqva əhlini düşmənlərin silahlarından qorumaq üçün) güclü qalxanıdır. Hər kəs ondan uzaqlaşıb, onu tərk edərsə Allah ona zillət və xarlıq paltarı, bəla və çətinlik cübbəsi geyindirər. Bunun təsirindən isə həmin adam həqir, alçaq, zəlil və biçarə olar. Allah öz rəhmətini onun qəlbindən götürdüyünə görə ağılsızlığa mübtəla olar (öz işlərində heyran və sərgərdan olar). Cihada getmədiyinə və bu mühüm işə əhəmiyyət vermədiyinə görə haqqın yolundan uzaqlaşaraq batil yola qədəm qoyar. Müsibətə və biçarəliyə düçar olaraq ədalət və insafdan məhrum olar (zülmkar ona hakim kəsilərək onunla insafsızcasına davranar).

Agah olun, mən sizləri gecə və gündüz, gizlində və aşkarda döyüşə (Müaviyə və ona tabe olanlara qarşı döyüşə) dəvət edərək dedim ki, onlar sizinlə döyüşə gəlməmiş, siz onlarla döyüşə çıxın. Allaha and olsun, hər hansı qövmün öz evində (diyarında) elə bir müharibə olmayıb ki, orada onlar zəlil və məğlub olmasınlar. Siz isə vəzifənizi bir-birinizə həvalə etdiniz (sizlərdən hər biriniz başqasının öz

vəzifəsinə əməl etməsini umurdunuz). Mal-mülkünüz hər yandan qarət olunana, (düşmən qələbə çalıb) yurdunuz əlinizdən çıxana qədər bir-birinizi xar etdiniz. Bu, öz süvarilərilə (Müaviyənin əmrinə əsasən Fərat çayının şərq sahillərində yerləşən İraqın qədim şəhərlərindən biri olan) Ənbar şəhərinə daxil olub, Həssan ibn Həssan Bəkrini (şəhərin vali və hakimi) öldürüb, süvarilərinizi şəhərin hüdudlarından uzaqlaşdıran Qamidin (Bəni Qamid qəbiləsindən olan Süfyan ibn Əuf) qardaşlarındandır. Mənə xəbər çatdı ki, onların bir döyüşçüsü bir müsəlman qadına və müsəlmanların amanında olan bir kafir qadına hücum edərək xalxalı, bilərzik, boyunbağı və sırğalarını qoparmış, o qadın da zar-zar ağlayaraq öz qohumlarını köməyə çağırmaqdan başqa cür onlara mane ola bilməmişdir. Düşmənlərdən heç birinin yaralanmadığı, qanları tökülmədiyi halda onlar (bu döyüşdən) böyük qənimət və sərvətlə qayıtdılar. Əgər müsəlman kişi bu hadisəni eşidib qəm-qüssədən ölərsə ona eyib deyil. Mənə görə isə ölüm bundan daha layiqlidir. Nə qədər də heyrətli və təəccüblüdür! And olsun Allaha, onların (Müaviyə və tərəfdarlarının) özlərinin nahaq işlərinin ətrafında birləşməsi, sizin isə haqq işinizdə təfriqə və ixtilafa düşməniz ürəyi öldürür, qəm və hüznü özünə çəkir. Onların oxlarına tuş gəldiyiniz vaxt üzünüz qara, qəlbləriniz qəmli olsun (düşmən sizə doğru ox atır, siz isə qeyrətsizliyinizə, təfriqə və ixtilafınıza görə sinələrinizi onun hədəfinə çevirib sakit oturmusunuz). Onlar sizin malınızı yağmalayırlar, siz isə əlinizə heç nə almırsınız. Sizinlə döyüşürlər, sizsə döyüşmürsünüz. Allaha asi olurlar, siz isə razısınız. Yayda sizə onlarla döyüşə çıxmağı əmr etdikdə dediniz ki, indi hava istidir və istilər sınana qədər bizə möhlət ver. Qışda onlarla döyüşmənizi əmr etdikdə isə dediniz ki, bu günlər hava çox soyuqdur və soyuqlar çıxana qədər bizə möhlət ver. Siz isti və soyuqdan qaçmaq üçün bu qədər bəhanə gətirirsiniz, Allaha and olsun (döyüş meydanında), qılıncdan daha tez qaçacaqsınız. Ey kişilikdən nişanəsi olmayan namərdlər! Ey ağlı uşaq və bəy otağına təzə girmiş qadın ağlı kimi olanlar! Ey kaş mən sizləri nə görə, nə də tanıyaydım. And olsun Allaha, sizi tanımağın nəticəsi peşmanlıq, qəm və qüssədir. Allah sizləri məhv etsin ki, mənim ürəyimi qan etdiniz, sinəmi qəzəblə doldurub-daşırdınız. Aldığım hər nəfəsdə mənə qəm və hüzn yedirtdiniz. Mənə itaətsizlik, etinasızlıq edərək tədbirimi pozub, puç etdiniz, bunun nəticəsində də Qüreyş "Əbu Talibin oğlu igiddir, ancaq müharibə aparmaq qaydasını bilmir" dedilər. Allah atalarına rəhmət etsin! (Öz dedikləri sözü fikirləşmirdilər.) Onlardan hansı biri döyüşdə mənim qədər çalışqan və ciddi idi, yoxsa öndə getməkdə və ya müqavimətdə məndən artıq idilər? Hələ iyirmi yaşıma çatmamış döyüşə hazır idim və indi də ömrümdən altmış ildən çox keçmişdir. (Mənim döyüşlərdəki fikrim və tədbirim həmişə düz olmuşdur.) Ancaq fərmanına itaət olunmayanın, hökmünə əməl edilməyinin əlacı yoxdur."[1]

[1] Nəhcül Bəlağə, xütbə 27

* * *

Tarixçilərin qeyd etdiyinə əsasən Bu xütbənin ardınca Cəndəb ibn Əfifi Əzdi və qardaşı oğlu Əbdürrəhman ibn Abdullah Əmirəlmöminin Əli (əs)-ın yanına gələrək düşmənə qarşı cihad etməyə hazır olduqlarını bildirdilər. İmam Əli (əs) Haris ibn Uur Həmdaniyə insanları döyüşə hazırlaşmağa və Rəhbə məhəlləsində yığışmağa dəvət etməsini əmr etdi. Ertəsi gün həmin məkana üç yüz nəfərdən çox insan toplaşmamışdı. Vəziyyəti belə görən Əmirəlmöminin Əli (əs) buyurdu: "Əgər min nəfər olsaydı hansı bir qərar qəbul etmək olardı."

Sonra xütbə oxuyaraq Allahın Rəsulu (s)-in başına gələn hadisələri, O Həzrətin müşriklərdən və Yəhudilərdən olan yaxınları tərəfindən aldadılması və sonda Mədinə şəhərinin ənsarlarının köməkliyi ilə İslam düşmənlərini aradan götürdüyünü və Ərəblərin Həzrət Rəsulullah(s)-ın qarşısında necə təslim olmalarını Kufə əhlinə çatdırır və onlardan gileylənərək belə buyurur:

"İndi siz onlardan daha çoxsunuz və artıqsınız!"

Bu zaman uca boylu qarayanız bir kişi ayağa qalxaraq dedi: "Nə sən Muhəmmədsən, nə də biz sənin dediyin adamlarıq."

Əmirəlmöminin Əli (əs) buyurdu: "Yaxşı cavab vermək istəyirsənsə, yaxşı qulaq as!" O Həzrət sözlərini davam etdirərək buyurudu:

"Ananız yasınıza otursun, çünki siz yalnız mənim kədərimi artırırsınız. Məgər mən sizə özümün Muhəmməd (s) və sizlərin Ənsar olduğunu dedim? Mən sizin üçün misal çəkdim və bunula da sizi ruhlandırmaq istədim."

Bu zaman səs-küy çoxaldı və bir nəfər uca səslə dedi: "Malik Əştərin olmaması indi İraq əhalisi üçün daha aydın olur. Çünki, əgər indi o olsaydı bu qədər səs-küy və qarşıdurma meydana çıxmazdı və hər bir insan nə dediyini yaxşı bilərdi."

Əmirəlmöminin Əli (əs) yenə də narahat olaraq buyurdu:

"Sinəsi dağlı analarınız yasınıza otursun!Mənim sizin üzərinizdə haqqım malik Əştərin sizin üzərinizdə olan haqqından daha vacibdir. Məgər Malikin sizin üzərinizdə olan haqqı bir müsəlmanın başqa bir müsəlmanın üzərində olan haqqı qədər deyildirmi?"

Əmirəlmöminin Əli (əs) bu narahat edici xəbərləri eşidən kimi yenə də camaatı bir yeə toplayaraq onları İslamın və ümumiyyətlə bəşəriyyətin düşmənlərinə qarşı çıxmağa dəvət etdi. Amma yenə də heç kim Əmirəlmöminin Əli (əs)-ın səsinə səs vermədi və O Həzrət yenə də onları danlayaraq buyurdu:

İbn Əbul Hədid bu xütbəni açıqladıqdan sonra başqalarının cihada təşviqi və həvəsləndirmələri barədə söz açaraq yazır: "Başqalarının da bu məzmunda söz demələrinə baxmayaraq O Həzrətin sözlərinin oğurlanmış və başqa tərzdə deyilmiş formasıdır." Sonra Əmirəlmöminin Əli (əs)-ın buyurduqlarını başqalarının sözləri ilə müqayisə edərək yazır: "Allahu Təalanın kəlamı olan Qurani Kərimdən və Allahın Rəsulu (s)-in sözlərindən sonra Əmirəlmöminin Əli (əs)-ın sözlərində daha fəsih, daha aydın, daha mənalı və daha əzəmətli söz ola bilməz."

"Allaha and olsun ki, sizin yüz nəfərinizin əvəzinə mənə bir Şam əhli verilməsini istərdim. Vay olsun sizlərə! İndi mənimlə gəlin sonra əgər qaçmaq istəsəniz qaçarsınız. Allaha and olsun ki, Mən malik olduğum niyyətə və bəsiritə görə Allahımın görüşünə getmək istədiyimi sevirəm və bu mənim üçün sizinlə üz-üzə gəlməkdən, söhbət etməkdən daha yaxşıdır və əvəzolunmaz azadlıqdır!"

Başqa bir rəvayətə əsasən Əmirəlmöminin Əli (əs) bu sözləri buyurdu: "Mən sizləri qızılı dəyişdirən kimi dəyişmək istərdim. Mən malik olduğum bəsirətə görə onlarla (düşmənlə) görüşmək istərdim və Allah məni sizinlə sülhə gəlmək çətinliyindən və əzabından qurtarardı."

Əmirəlmöminin Əli (əs) onların bu sözlərə cavab vermədiyini görəndə özü ayağa qalxdı və qarətçilərin qarşısını almaq üçün tək başına Ğərreyn istiqamətində yola düşdü. Vəziyyəti belə görən Abdullah ibn Cəfər at gətirdi və O Həzrət atın belinə oturdu. Camaat da özlərini Əmirəlmöminin Əli (əs)-a çatdırdılar. İmam Əli (əs) qarətçilərlə döyüşməyə hazır olduqlarını Zəhhak ibn Qeysə çatdırdı, amma onu tapa bilmədiyi üçün yenidən Kufəyə qayıtdı.

Mədinədə

Busr ibn Ərtah Mədinəyə gəlməmişdən öncə bu şəhərin hakimi Əmirəlmöminin Əli (əs) tərəfindən təyin edilmiş Əbu Əyyub Ənsari idi. Busrun Mədinəyə çatması və yolda nə qədər cinayət törətməsi xəbəri Əbu Əyyub Ənsariyə çatanda Mədinə şəhərindən qaçdı. Busr şəhərə daxil oldu və minbərə çıxdı. Bacardığı qədər onları təhqir etdi və Allahın Rəsulu (s)-in Ənsarını belə təhqir etməkdən çəkinmədi. Busrun sözlərindən bir neçə cümləni sizin diqqətinizə çatdırıram:

"Ey Yəhudi dəstəsi, ey Zərxərid bəndələrinin övladları, ey Bəni Zəriq, Bəni Nəcar, Bəni Salim və Bəni Abduləşhəl! Allaha and olsun ki, sizin başınıza elə bəla açacam ki, möminlərin qəlbi və Osmanın ailəsinin ürəyi bununla şəfa tapacaq. Allaha and olsun sizin sizinlə elə davaranacam ki, bu hadisə sizdən öncə olan ümmətlərin başına gəlmiş hadisələr kimi tarıxdə qalacaq!"

Busr ibn Ərtah bir neçə gün Mədinədə qaldı və ürəyi istədiyi hər bir cinayəti azad şəkildə həyata keçirtdi. Şəhər sakinlərini Müaviyə ilə beyət etməyə məcbur etdi və sonda Əbu Hüreyrəni öz yerinə Mədinə şəhərinə başçı təyin edərək Məkkəyə tərəf yola düşdü.

Məkkə

Mədinədən Məkkəyə gedən yolda çoxlu insan qətlə yetirdi və çoxlarının mal-dövlətini qarət etdi. Onun Məkkəyə çatması xəbəri camaata çatanda bir çoxu qorxudan şəhərdən qaçdı. Qaçanlardan biri də Əmirəlmöminin Əli (əs) tərəfindən Məkkə şəhərinə hakim təyin edilmiş Qasm ibn Abbas idi. Busr şəhərə daxil oldu, onun yaxınına gələn insanların hamısı təhqir edərək öldürməklə hədələdi. Məkkəyə

daxil olduqdan sonra nitq söyləyərək Əmirəlmöminin Əli (əs)-ı məzəmmət etməyə və Müaviyəni tərifləməyə başladı. Sonra Məkkəliləri Müaviyə ilə beyətə məcbur etdi və istəyinə nail olduqdan sonra Taif şəhərinə tərəf yola düşdü.

Taif

Məkkəyə gedən zaman yolda törətdiyi cinayət ənənəsinə sadiq qalaraq rastlaşdığı bütün qəbilələri qarət etdi və Əmirəlmöminin Əli (əs) Şiəsi görən kimi onun qətlə yetirilməsi əmrini verirdi. Bəzilərinin sözlərinə əsasən Məkkədən Taifə gedən yolda Abdullah ibn Abbasın da övladlarını qətlə yetirdi[1].

Ərhəb

Oradan Ərhəb şəhərinə gəldi və orada Həmdan qəbiləsinin başçısı Əbu Kərbi qətlə yetirdi və irəliləyərək qarşısına çixan bütün abad yerlərdə qətl və qarət işlərini həyata keçirtdi.

Səna

Bu kədərli xəbər Əmirəlmöminin Əli (əs)-a çatdı və Allahdan özünə ölüm dilədiyi məşhur xütbəni oxudu və onları lənətlədi. Bu Nəhcül Bəlağədə qeyd olunmuş 25-ci xütbədir:

"Mənə xəbər çatıb ki, Bosr (Müaviyənin əmrilə böyük bir qoşunla) Yəmənə daxil olub. Allaha and olsun ki, onların öz batil yollarında birlik və həmrəyliklərilə sizin haqq yolunda təfriqə və dağınıqlığınıza görə tezliklə sizlərə hakim kəsilib hakimiyyətə sahib olcaqlarını güman edirəm. Ona görə ki, siz haqq yolunuzda İmam və rəhbərinizə itaətsizlik göstərirsiniz, onlar isə batil yolda olsalar belə öz rəhbərlərinə itaət edirlər. Onlar rəhbərlərinin əmanətini qoruyur, siz isə xəyanət edirsiniz (onların bey'əti davamlıdır, siz isə əhdinizi pozursunuz). Bir də şəhərlərindəki islah işlərinə (bir-birilə ülfət və dostluq edir, birliklərini saxlayırlar), sizin isə fəsadınıza görə (bir-birinizə kin, paxıllıq bəsləməyinizə, ikiüzlülüyünüzə və təfriqənizə görə. Bu bir qövmün məğlubiyyət səbəbidir).

(Beləliklə, sizi o qədər xəyanətkar sanıram ki,) əgər sizdən birinə taxta qədəhi belə tapşırsan, qorxuram ki, onun (dəvənin palanından asdıqları) tutacağını aparasınız. Pərvərdigara, mən onlardan (Kufə əhlindən) bezmişəm və qəlbim sıxılıb, onlar da məndən doyublar. Belə isə, onlardan daha yaxşısını mənə nəsib et, mənim əvəzimə onlara bir şər ver. Allahım, onların ürəklərini (əzab və qorxudan) duz suda əriyən kimi ərit. (Ey Kufə əhli,) agah olun ki, Allaha and olsun, mənim üçün sizlərin yerinə (öz qeyrət, şücaət və yoldaşlıqları ilə məşhur olan) Fəras ibn Qənm övladlarından min süvarinin olmasını istərdim."

[1] Başqa bir mənbəyə əsasən isə o iki nəfəri Yəməndə qətlə yetirdi.

Əmirəlmöminin Əli (əs)-ın bu xütbəsindən sonra O Həzrətin silahdaşlarından olan Cariyə ibn Qudamə və Vəhəb ibn Məsud ayağa qalxaraq Yəmənə getmək Busrun cinayətlərinin qarşısını almağa hazır olduqlarını bildirdilər. Əmirəlmöminin Əli (əs) Onları dörd min əsgər ilə (iki min nəfəri Kufədən və iki min nəfəri Bəsrədən) Yəmənə göndərdi. Onların Yəmənə gəlməsindən xəbərdar olan Busr Şama qaçdı və Müaviyənin yanında sığındı.

Əmirəlmöminin Əli (əs)-ın göndərdiyi elçisinə tapşırıqları

İndi isə diqqətinizə Əmirəlmöminin Əli (əs)-ın Cariyə ibn Qudaməni Yəmənə göndərdiyi zaman ona verdiyi tapşırıqları çatdırırıq.

Əbdürrəhman ibn Übeyd deyir: "Əmirəlmöminin Əli (əs) Cariyə ibn Qudamənin Yəmənə göndərəndən sonra məktub yazdı və onu bağlı halda mənə verərək Cariyəyə çatdırmağımı əmr etdi. Mən məktubu götürdüm və özümü Carəyəyə çatdırdım. Məktubu açanda içərisində bu sözlərin yazıldığını gördük:

"Allaha həmd və şükürdən sonra. Mən səni məmuriyyət göndərdim və sənə təqvalı olmağı tapşırıram. Çünki, Allahdan qorxmaq bütün işlərin kökü və əsasıdır. Sənə bir neçə məsələni deməyi unutdum və indi (həmin məsələləri) sənə açıqlayacağam. Allahın bərəkəti altında get və düşmənlə üz-üzə gəl. Allahın yaratdığı heç nəyi təhqir etmə, piyada qalsan və səfərini davam etdirə bilməsən belə zorla heç kimin dəvəsini və uzunqulağını əlindən alma, insanların sularını özünüz üçün götürməyin və icazələri olmadan heç kimin suyunu içməyin. Müsəlman kişi və yaxud qadını əsir tutmayın, İslam dininin pənahında olan qeyri-müsəlman kişi və qadına qarşı zülmkarlıq etməyin. Namazınızı vaxtında qılın, gecə və gündüz Allahı zikr et. Özündən məqamca aşağı olan insanlara rəhm edin və sürətlə yolunuzu davam etdirin. Düşmənə tez çatın, onu Yəməndən qovun və onları zəlilcəsinə öz yerlərinə qaytarın. Allahın salamı və rəhməti sizə olsun!"

* * *

Müəllif yazır: "Belə əzəmətli, ədalətli və hakimiyyətə layiq rəhbərin arxasınca getməyən xalq ədalətsizliklə dolu hakimiyyətə, zalım və qaniçən hakimə layiqdirlər. Allahu Təalanın buyurduqlarına əsaən bu İlahi ənənədir və bunda heç bir dəyişiklik ola bilməz. Belə ki, əgər hər hansı bir xalq və qövm haqqın onlara bəxş etdiyi nemətlərin danarlarsaböyük əzablara düçar olarlar. Allahu Təala Qurani Kərimdə buyurur:

ذَلِكَ بِمَا قَدَّمَتْ أَيْدِيكُمْ وَأَنَّ اللَّهَ لَيْسَ بِظَلَّامٍ لِلْعَبِيدِ* كَدَأْبِ ءَالِ فِرْعَوْنَ وَالَّذِينَ مِنْ قَبْلِهِمْ كَفَرُوا بِآيَاتِ اللَّهِ فَأَخَذَهُمُ اللَّهُ بِذُنُوبِهِمْ إِنَّ اللَّهَ قَوِيٌّ شَدِيدُ الْعِقَابِ * ذَلِكَ بِأَنَّ اللَّهَ لَمْ يَكُ مُغَيِّرًا نِعْمَةً أَنْعَمَهَا عَلَى قَوْمٍ حَتَّى يُغَيِّرُوا مَا بِأَنْفُسِهِمْ وَأَنَّ اللَّهَ سَمِيعٌ عَلِيمٌ

"Bu (əzab) sizin öz əllərinizlə qazandığınız (əllərinizin törətdiyi) günahlara görədir. Yoxsa Allah bəndələrinə əsla zülm edən deyildir! * Eynilə Firon nəslinin və onlardan əvvəlkilərin hərəkətləri kimi. Onlar Allahın ayələrini yalan hesab etdilər, Allah da onları günahlarına görə yox etdi. Həqiqətən, Allah yenilməz qüvvət sahibidir, cəzası da çox şiddətlidir! * (Kafirlərə verilən) bu əzab ona görədir ki, bir tayfa özünə bəxş edilən neməti (naşükürlük üzündən küfrə) dəyişməyincə, Allah da ona əta etdiyi neməti dəyişən (pisliyə çevirən) deyildir. Həqiqətən, Allah (hər şeyi) eşidəndir, biləndir! (Həmin tayfalar Allahın nemətlərinə şükür etmək əvəzinə Ona asi olduqlarına, itaəti küfrlə əvəz etdiklərinə, peyğəmbərlərə qarşı düşmən münasibət bəslədiklərinə görə Allah da onlara verdiyi nemətini qəzəbə, etdiyi yaxşılığı pisliyə çevirib hamısını əzaba düçar etdi)[1]."

Əmirəlmöminin Əli (əs) özü də bunu bildirirdi və elə bu səbəbdən də belə buyururdu:

"Ey camaat, mən sizi Haqqa dəvət etdim, amma siz qəbul etmədiniz. Mən sizi tənbeh etdim, amma siz məni yordunuz. Bilin və agah olun ki, məndən sonra sizin elə bir hakimləriniz olacaq ki, buna razı və qane olmayacaqlar və sizi dəmir qırmanclarla və dəmirlə (qılıncla) işkəncə edəcəklər. Amma mən sizi elə şeylərlə işkəncə etməyəcəm, çünki hər kim dünyada insanlara işkəncə edərsə, Allah da axirətdə onu işkəncə edər![2]"

Nəhcül Bəlağədə Əmirəlmöminin Əli (əs)-ın bu sözləri buyurduğu qeyd olunub: "Ey Allahım, bizim içərisində heç bir zülm olmayan ədalətli buyuruqlarımızı və nə din, nə də dünya məsələlərində heç bir fəsad yaratmayan sülhsevər sözlərimizi eşidərsə, amma onu qəbul etməzsə, sənin köməyindən boyun qaçırarsa, sənin dininə dirçəltmək yolunda bacarıqsızlıq nümayiş etdirərsə, biz səni onun üçün şahid tuturuq ey şahidlərin ən əzəmətlisi. Biz yerdə və göylərdə yaşayanların hamısı şahid tuturuq ki, bizi onun köməyinə möhtac etmiyəsən, onu öz günahları birlikdə tutaraq intiqam alasan...!"

Otuz min ölü və ...

İbn Əbul Hədid yazır: "Busr ibn Ərtahın bu yürüş zamanı otuz min insan qətlə yetirdi. Bir dəstə insanı yandırdı." Daha sonra Müaviyənin sarayında Busr ibn Ərtahla Abdullah ibn Abbas arasında olan danışığı qeyd edir və belə yazır:

"Əmirəlmöminin Əli (əs) Busr ibn Ərtaha lənət oxudu və belə buyurdu: "Allahım Busr öz dinini dünyasına satdı, sənin məhrəm bildiyin bütün pərdələri yırtdı. Onun üçün kafir insana itaət etmək sənə itaət etməkdən daha yaxşıdır. Allahım onun ağlını əlindən almayacağın vaxta qədər öldürmə, rəhmətini onun üzərindən gö-

[1] Ənfal surəsi, 51-52-53-cü ayələr.
[2] Nəhcül Bəlağənin şərhi, İbn Əbul Hədid, cild 1, səh 214

tür. Allahım, Busr, Əmr As və Müaviyəni öz rəhmətindən uzaqlaşdır, öz qəzəb və intiqamını onlara göndər və zalım insanlar üçün buyurduğun əzabı onlara əta et...”

İbn Əbul Hədid belə rəvayət edir ki, Əmirəlmöminin Əli (əs)-ın bu lənətindən az müddət sonra Busr ibn Ərtah ağlını itirdi və o həmişə bu sözü təkrarlayaraq deyirdi: “Mənə insan öldürmə üçün qılınc verin!” İnsanlar onun ağlını itirərək dəli olduğunu görəndə ona taxtadan qılınc düzəltdilər və qarşısına balış qoydular. Busr həmin qılıncla bir müddət balışa vururdu və sonra huşunu itirərək yıxılırdı. O bir müddət belə yaşadıqdan sonra öldü.

13 Əmirəlmöminin Əli (əs)-ın şəhadəti

Əmirəlmöminin Əli (əs)-ın bu camaatdan məyus və naümid olması, İslam düşmənlərini məhv etmək üçün onların köməyinə arxalanmamsı hamıya məlum idi. Müaviyənin, Xəvaricin və başqa düşmənlərin Hicaz, İraq və Yəmənin müxtəlif şəhərlərində qarətçilik etməsi barəsində hər gün O Həzrətə yeni məlumatlar çatırdı. Kufə əhlinin zəiflik və bacarıqsızlığı o qədər güclənmişdi ki, nə Əmirəlmöminin Əli (əs)-ın ruhpərvər buyuruqları və nə də sərkərdə və qəbilə başçılarının sözləri onları hərəkətə gətirə bilmirdi.

Belə zəifləmənin və bacarıqsılıq xəbər Kufədən kənarda olan hər bir kəsə çatmışdı. İş elə yerə çatdı ki, Əmirəlmöminin Əli (əs)-ın qardaşı Əqil O Həzrətə məktub yazdı və həmin məktubun bir hissəsi belədir:

“Mənə sənin davamçılarının və silahdaşlarının sənin əmrinə tabe olmamaları xəbəri çatmışdır. Əziz qardaşım mənəbu barədə öz nəzərini yaz! Əgər ölümə hazırlaşırsansa mən Əbu Talibin övladlarını və qardaşı övladlarını sənin yanına gətirim, həyatda və ölüm anında sənlə bir yerdə olaq. Allaha and olsun ki, mən səndən sonra yaşamaq istəmirəm...[1]”

Əmirəlmöminin Əli (əs)-ın bu məktubun cavabında göndərdiyi və hamı üçün öyüd dərsi olan nəsihətlə dolu məktubda bu sözlər qeyd olunmuşdu:

“Sən mənim nəzərimi istəmişdin. Bil ki, mənim nəzərim Allahla görüşəcəyim günə qədər Allahın haram buyurduqlarını halal bilən insanlarla cihad etməkdir. Nə insanların çox olması mənim böyüklüyümü artıracaq, nə də onların pərakəndə və dağınıq olmaları mənim qəlbimdə qorxu yaradacaqdır. Çünki, mən haqlayam və Allah da haqla olan insanlarladır. Allaha and olsun ki, mən haqlı ölümü pis qəbul etmirəm və haqla olan insanlar üçün bütün xeyir və yaxşılıq onların ölümündən sonradır...

[1] Biharul Ənvar, (Kompani çapı) səh 773, İbn Əbul Hədiddən götürülmüşdür.

Amma mənə özünün, övladlarının və qardaşlarının mənim yanıma gəlməsi təklifini verirsən. Bil ki, mənim buna ehtiyacım yoxdur və öz yerində qal...!"

Əmirəlmöminin Əli (əs) Allahdan ölümünü istəyir

Əmirəlmöminin Əli (əs)-ın bundan öncə qeyd etdiyimiz xütbələrində və buyuruqlarında o Həzrətin həyatdan və Kufənin vəfasız camaatından şikayət etməsini, Allahdan ölümünü istəməsini diqqətinizə çatdırmışdıq. Şeyx Müfid (rə) "Əl İrşad" kitabında Əmirəlmöminin Əli (əs)-ın Kufə camaatını məzəmmət etməsini və xütbəsinin sonunda əllərini göyə qaldıraraq bu duanı etməsi qeyd olunmuşdur:

"Allahım, mən bu insanların arasında yaşamaqdan yorulmuşam və bütün arzularımdan bezmişəm. Mənim ölümümü hazırla və mən də bunların əlindən rahat olum, bunlar da mənim əlimdən rahatlıq tapsınlar. Bunlar məndən sonra heç vaxt nicat tapmayacaqlar.[1]"

Elə həmin kitabda Əmirəlmöminin Əli (əs)-ın öz düşmənlərini ədalətə dəvət etməsi və ondan sonra bu sözləri vurğulaması qeyd olunmuşdur:

" Mən sizin əlinizdən yaxın zamanlarda və tezliklə rahatlıq tapacağıma ümidvaram, çünki artıq bu hadisənin səbəblərini görmüşəm![2]"

"Məni itirməmişdən qabaq məndən soruşun..."

Əmirəlmöminin Əli (əs) bu ölüm arzularından və qeybdən verdiyi xəbərlərdən sonra insanların onun sahilsiz elm dənizindən və fəzilətindən istifadə etmələrini, onu itirməmişdən öncə ondan suallar soruşmalarını istəyirdi. Elə bu səbəbdən də onlara bu fürsətdən istifadə etmələri üçün şərait yaradırdı və onların buna can atmasını istəyirdi. Əmirəlmöminin Əli (əs) Nəhcül Bəlağədə qeyd olunmuş xütbələrin birində belə buyurur:

"Həqiqətən də bizim işimiz olduqca çətindir və ona qəlbi Allah tərəfindən imanla imtahana çəkilmiş mömin bəndədən savayı heç kim tab gətirə bilməz. Bizim hədislərimizi isə əmanətdar sinələr (ürəklər) və möhkəm ağıllar qoruya bilər.

Ey camaat məni itirməmişdən öncə məndən soruşun. Çünki, mən göylərin yollarını yer üzərində olan yollardan daha yaxşı bilirəm. Bəni Üməyyə fitnəsi at belinə qalxaraq insanların dərrakəsini məhv etməmiş (məndən soruşun!)[3]"

Əmirəlmöminin Əli (əs) Nəhcül Bəlağədə qeyd olunmuş 93-cü xütbədə belə buyurur:

"Allaha həmd və şükr etdikdən, Həzrət Peyğəmbərə salamdan sonra, ey camaat, mən fitnə-fəsadın gözünü kor qoydum. Onun zülməti təlatümə çəkdikdən, çətinlikləri artdıqdan sonra məndən başqa heç kəsin bu fitnə-fəsadı (dəf etməyə)

[1] İrşad, cild 1, səh 273-281
[2] Həmin mənbə
[3] Nəhcül Bəlağə, xütbə 187

cürəti çatmırdı. Məni tapmayacağınız vaxt gəlməmiş (hər şeyi bildiyimə görə dini hökmləri və məsələləri) məndən soruşun. And olsun canım qüdrətinin əlində olana ki, bu zamandan qiyamət gününə qədər (baş verəcək) elə bir şeyi (bir xəbəri) məndən soruşmazsınız (ki, cavab verməyim) (hakimiyyətə gəlməklə insanların hidayətinə və ya azmasına səbəb olan) yüz nəfəri (bir qədər az və ya çoxunu) doğru yola yönəldənlər və yüz nəfəri azdıranlar barədə sorğu-sual etməzsiniz ki, sizə (dəvələri istədikləri yerə dartan sarbanlar kimi) həmin dəstənin dəvət edənləri, öndə gedənləri və qovanları (hakimləri), onların endikləri və yükləndikləri (toplaşma yerləri), onlardan ölənlər və öldürülənlər barədə xəbər verməyim (öncədən deməyim). Məni tapmasanız (aranızda olmasam), pis hadisələrlə, çətin işlərlə üzləşdikdə sual soruşduqlarınızın çoxu (çox məəttəl qaldıqlarından) başlarını yerə dikəcək (susacaq və bu pis hadisələrdən və çətin işlərdən çıxış yolunu tapmayacaqlar). Cavab verənlərdən çoxu da (cahilliklərinə və nadanlıqlarına görə, cavab verməyə) qorxacaq (aciz qalacaq). Bu o vaxt olacaq ki, sizin aranıza çoxlu müharibə, (onun fitnə-fəsadından) çətinlik düşəcək, (çarəsizlik və əlacsızlıqdan) dünya sizə dar gələcək, bəla günlərini (çətin vaxtları) uzun sanacaqsınız (hər bir saatı sizlərə bir gün qədər və daha uzun gələcək). Nəhayət, Allah-təala sizlərin içindən yaxşı əməl sahiblərinə qələbə nəsib edəcək. Fitnələr (camaata) üz tutduqda (batillə haqq, fəsadla doğru) səhv salınacaq, aradan getdikdə isə (fitnəkarlar məhv olacaq və camaat batildən, fəsaddan) hali olacaq. (Onda haqla doğrunu başa düşəcək, öz cahilliklərini və nadanlıqlarını etiraf edəcəklər, Çünki) fitnələr üz tutduqda (onların nadürüstlükləri) məlum olmaz, arxa çevirdikdə (aradan getdikdə) tanınarlar. (Nə qədər ki, fitnə-fəsad tüğyan edər, haqq gözə görünməz, onun alovu səngiyəndə haqq aşkara çıxar.) Fitnələr (hər yerdə) küləklər tək dolanarlar, bir şəhərə çatar və bir şəhərdən keçərlər. Agah olun, fikrimcə, sizin üçün fitnələrin ən təhlükəlisi (ən böyüyü və ən çətini) Bəni-Üməyyənin fitnəsidir. O, kor və qaranlıq bir fitnədir. (Onda doğru qurtuluş yolu itib, dinə və dünyaya ziyanı açıq-aşkar görünür.) Onların hakimiyyəti hər yanı bürüyəcək, bəla və çətinlikləri (pərhizkarlara və şiələrə) məxsus olacaq. Həmin fitnələrə gözüaçıq baxan hər kəs (Bəni-Üməyyənin çirkin işlərinin əleyhinə çıxsa) bəla və çətinlik ona üz tutacaq. Kim buna göz yumsa (onların çirkin işlərinə iradını bildirməyib əmr və qadağalarına boyun əysə), bəla ondan uzaq olacaq (rifahda və əmin-amanlıqda) qalacaq. Allaha and olsun, məndən sonra Bəni-Üməyyə sizlər üçün (sağarkən sağıcını) dişləyən, əli-ayağı ilə (başına) vuran, təpikləyən və süd sağmağa qoymayan, soncuq atan qoca dəvə kimi pis hakimlər olacaqlar. (Xülasə, yaxşılara əziyyət verib öldürəcək, müsəlmanların beytülmalından haqqı çatanlara heç nə verməyəcəklər.) Daima sizlərə hakim kəsiləcəklər ki, onlara xeyir verən və ziyan vurmayanlardan başqa bir kəs (yer üzündə) qalmasın. (Onlara itaət etsinlər və ya ən azı məqsədlərinin əleyhinə söz danışıb addım atmasınlar.) Onların bəlası və hakimliyi (sizin üstünüzdən) kəsilməyəcək. Belə ki,

sizlərdən birinin onlardan kömək istəməsi qulun sahibindən və tabe olanın tabe olduğu şəxsdən kömək istəməsi kimidir. (Onların əlaltılar satın almış qullarına bənzəyirsiniz ki, öz haqqınızı qoruya bilmirsiniz.)"

Əmirəlmöminin Əli (əs) bu sözlərdən sonra fitnəni necə məhv etmək yollarını açıqladı. Qeyd olunan xütbə ilə tam tanış olmaq üçün Nəhcül Bəlağəyə müraciət edə bilərsiniz.

* * *

İbn Əbul Hədid bu xütbənin və "Məni itirməmişdən öncə məndən soruşun" cümləsinin şərhində belə yazır: "İstiyab kitabının müəllifi yazır: "Hədis alimlərinin əksəriyyətinin qeyd etdiyinə əsasən Əli ibn Əbu Talib (əs)-dan savayı Əshablardan heç kim bu sözü vurğulamamışdır."

Bizim şeyximiz Əli ibn Cəəd və İbn Şəbrəməyə istinadən belə qeyd edir ki, Əli ibn Əbu Talib (əs)-dan savayı heç kim minbərdə "Məni itirməmişdən qabaq məndən soruşun" sözlərini söyləyə bilməz.

O, sözlərini davam etdirərək deyir: "Əmirəlmöminin Əli (əs)-ın bu iddiaları nə Allahlıq, nə də peyğəmbərlik iddiası idi. O Həzrətin xəbər verdiyi hər şey Allahın Rəsulu (s)-in buyurduqlarından idi. Əmirəlmöminin Əli (əs) həmişə belə buyurardı: "O Həzrət mənə xəbər vermişdir ki,..."

Biz bu xəbərlərin hamısını yoxlamışıq və onların həqiqətlə uzlaşmasını sınamışıq. Əldə etdiyimiz nəticələrdən Əmirəlmöminin Əli (əs)-ın buyurduqlarının həqiqətlə üst-üstə düşməsinin şahidi olmuşuq. Məsələn:

- Əmirəlmöminin Əli (əs)-ın başına zərbə vurulacağından və saqqalının öz qanına boyanacağından xəbər verməsi
- Övladı Hüseyn (əs)-ın şəhadətindən xəbər verməsi və Kərbələdan keçərkən bu qəmli hadisə barədə buyurması
- Onun hakimiyyətindən sonra Müaviyənin hakimiyyət başına gələcəyindən xəbər verməsi
- Həccac və Yusif ibn Əmrinunun hakimiyyət başına gələcəyindən xəbər verməsi
- Nəhrivandakı Xəvariclər və döyüşdə onlardan neçə nəfərin sağ qalacağı barəsində xəbər verməsi
- "Nakislər", "Qasitlər" və "Mariqlər"-lə döyüşəcəyindən xəbər verməsi
- Bəsrəlilərlə döyüşdə Kufədən kömək üçün qoşunun gələcəyi barədə xəbər verməsi
- Abdullah ibn Zübeyrdən xəbər verməsi
- Bəsrənin su içində qalması və Sahib Zəncin fitnəsi barədə xəbər verməsi
- Xorasanda qara bayraqların meydana çıxacağı barədə xəbər verməsi
- Onun övladlarının Mazəndəranda quracaqları hökumət barədə xəbər verməsi

- Zəkiyyətnin Mədinədəki qətlindən və qardaşının Baxəmradakı qətlindən xəbər verməsi
- Ələvilərin Qərbdə quracağı hökumətdən xəbər verməsi
- Ali Buyədən xəbər verməsi və O Həzrətin onların hakimiyyətdə olduğu illərdə malik olacaqları xüsusiyyətlər barədə söz açması. Muizzid Dövlə, İzzud Dövlə və Əzudud Dövlə barədə xəbər verməsi
- Abdullah ibn Abbasdan və xilafətin onlara keçəcəyindən xəbər verməsi

Bir çox başqa qeydbən verilimiş xəbərlər mövcuddur ki, onların hamısını qeyd etsək çox vaxt aparacaq.

* * *

Müəllif yazır: "Şeyx Müfid (rə) Əmirəlmöminin Əli (əs)-ın bu barədə buyurduqlarını camaatın O Həzrətlə beyət etdiyi ilk vaxtda olan tərzdə Əsbəğ ibn Nəbatəyə istinadən qeyd etmişdir. Belə ki, camaat O Həzrətlə beyət etmək üçün məscidə gələndə Əmirəlmöminin Əli (əs) Allahın Rəsulu (s)-in əmmaməsini başına qoydu, O Həzrətin libasını geyindi və minbərə çıxdı. Sonra iki əlinin barmaqlarını bir-birinə keçirərək qarnının altına qoyaraq buyurdu:

"Ey camaat məni itirməmişdən öncə məndən soruşun. Məndən soruşun, çünki birinci və sonuncu elm məndədir. Agah olun ki, Allaha and içirəm əgər (xilafət mütəkkəsinə söykənsəm) hakimiyyət yatağı mənim üçün açılarsa Tövrat əhli (Yəhudilər) arasında Tövratla, İncil Əhli (Xristiyanlar) arasında İncillə, Zəbur əhli arasında Zəburla və Quran əhli arasında Quranla hakimlik edəcəyəm. Belə ki, bu kitabların hər birisi dil açaraq deyəcəklər ki, "Ey Pərvərdigarəm, Əli sənin hakimliliyinə əsasən hakimlik edir. Allaha and olsun ki, mən Quran və onun təfsiri barəsində buna iddia edən hər kəsdən daha çox xəbərdaram. Əgər Quranda bir ayə belə olmasaydı sizi qiyamət gününə qədər baş verəcəyi hər şeydən xəbərdar edərdim." Əmirəlmöminin Əli (əs)sözlərini davam etdirərək buyurdu: "Məni itirməmişdən öncə məndən soruşun. Toxumu parcalayıb (cücərdən) və insanı xəlq edən Allaha and olsun ki, əgər Quranın bütün ayələrini bir-bir məndən soruşsanız mən onun nazil olması, ayənin nə barəsində göndərilməsi, nasix yaxud mənsux, ümumi ya xüsusi, möhkəm ya mütəşabih olması, Məkkədə yaxud Mədinədə nazil edilməsi barədə məlumatlandıraram. Mənim rəhbəri və başçısı olduğum, yaxud dəvət etdiyim dəstə yolunu aza bilməz və qiyamət günü nicat tapar.[1]

[1] Səqəfinin "Ğarat" kitabında belə qeyd olumuşdur ki, Əmirəlmöminin Əli (əs) minbərdə "məni itirməmişdən öncə məndən soruşun" sözünü dedikdən sonra bir kişi ayağa qalxaraq dedi: "Mənim saçımda və saqqalımda neçə dənə tük var?"

Əmirəlmöminin Əli (əs) buyurdu: "Allaha and olsun ki, Mənim Xəlilim mənə xəbər verdi ki, sənin başında olan hər bir tükdə bir mələk mövcuddur və o sənə lənət oxuyur. Sənin saqqalında olan hər bir tükdə isə bir şeytan mövcuddur və səni yoldan çıxardır. Sənin evində bir çəpiş var və həmin çəpiş Allahın Rəsulu (s)-in övladını öldürəcək."

Onun oğlu Sinan ibn Ənəs Nəxəi idi ki, həmin zamanlar hələ imələyirdi. (Biharul Ənvar, cild 8, səh 735)

Əmirəlmöminin Əli (əs)-ın şəhid olması

Nəhrivan döyüşünü diqqətinizə çatdıranda bildirmişdik ki, dörd min Xəvaric bir gün ərzində Əmirəlmöminin Əli (əs)-ın qoşunu tərəfindən qətlə yetirildilər və bu döyüşdən yalnız doqquz nəfər sağ çıxa bildi.

Bunlardan əlavə bəzi yerlərdə Xəvariclərlə eyni əqidəyə malik insanlar mövcud idi və onlar Əmirəlmöminin Əli (əs)-ı ikili hakimliliyi qəbul etməkdə təqsirləndirirdilər. Mütəmadi olaraq istər açıq, istər gizli şəkildə O Həzrəti incidirdilər, xoşagəlməz sözlər danışırdılar, mənasız iradlarını çatdırırdılar. Belə ki, hətta namaz vaxtı belə O Həzrəti rahat buraxmırdılar. Rəvayətlərdə belə qeyd olunmuşdur ki, münafiqlərdən biri olan İbn Kəvva namaz vaxtı Əmirəlmöminin Əli (əs)-ın arxasında dayanaraq uca səslə bu ayəni tilavət etməyə başladı:

وَلَقَدْ أُوحِيَ إِلَيْكَ وَإِلَى الَّذِينَ مِنْ قَبْلِكَ لَئِنْ أَشْرَكْتَ لَيَحْبَطَنَّ عَمَلُكَ وَلَتَكُونَنَّ مِنَ الْخَاسِرِينَ [1]

"(Ya Rəsulum!) Sənə və səndən əvvəlkilərə (keçmiş peyğəmbərlərə) belə vəhy olunmuşdur: "Əgər (Allaha) şərik qoşsan, bütün əməlin puça çıxacaq və mütləq ziyan çəkənlərdən olacaqsan!"

Əmirəlmöminin Əli (əs) dərhal onun cavabında bu ayəni tilavət etdi:

فَاصْبِرْ إِنَّ وَعْدَ اللَّهِ حَقٌّ وَلَا يَسْتَخِفَّنَّكَ الَّذِينَ لَا يُوقِنُونَ [2]

"(Ya Rəsulum!) Sən (çətinliklərə, əziyyətlərə) səbr et. Şübhəsiz ki, Allahın (sənə verdiyi zəfər) vədi haqdır. Qoy (axirətə) qəti inanmayanlar səni etinasızlığa sövq etməsinlər. (Səni yüngül hesab edib yerindən oynatmasınlar, səbirsizliyə, səbatsızlığa sövq edərək öz fikrindən və amalından döndərib risaləti təbliğ etməkdən daşındıra bilməsinlər!)"

Onlar hətta qadınları belə Əmirəlmöminin Əli (əs) minbərdə olanda ayağa qalxmağa və ədlətli və məzlum İmamlarına təhqir etməyə məcbur edirdilər.

* * *

Tarix kitablarında Bəni Naciyə qəbiləsindən olan Xəvaric Xərrit ibn Raşidin hekayəsi qeyd olunmuşdur. Həmin şəxs otuz nəfərlə Əmirəlmöminin Əli (əs)-ın yanına gələrək dedi: "Mən artıq sənin əmrinə tabe olmayacağam, arxanda namaz qılmayacağam və sabahdan səndən ayrılacağam." O, bu hadisədən sonra oz silahdaşları ilə birlikdə Kufəni tərk edib fitnəkarlıq törətməyə və ixtişaş yaratmağa, insanları O Həzrətə qarşı təhrik etməyə, Bəsrə, Əhvaz və digər şəhərlərə gedərək müsəlmanlarla döyüşməyə və nahaq qan axıtmağa başladı.

[1] Zumər surəsi, 65-ci ayə
[2] Rum surəsi, 60-ci ayə

Belə fitnəkar və ixtişaşçı xəvariclərdən biri də Əbdürrəhman İbn Mülcəm idi. O Xəvariclərin Nəhrivanda qətlə yetirilmələrindən sonra oradan sağ çıxmış insanlarla gizli və aydın şəkildə O Həzrətə və İmam (əs)-ın hökumətinə qarşı ixtişaşlar yaratmağa başladılar.

Şeyx Müfidə istinadən hadisənin davamı

Biz burada şəhadət hekayəsinin Şeyx Müfidin "İrşad" kitabında geniş şəkildə yazılmış hissəsini tərcümə edirik:

"Əmirəlmöminin Əli (əs)-ın qətlə yetirilməsi barədə bir çox tarixçilər, o cümlədən Əbu Muxnəf, İsmail ibn Raşid, Əbu Haşim Rəfai, Əbu Ömər, Səqəfi və başqaları belə qeyd edirlər ki, Məkkədə bir dəstə xəvaric bir yerə toplaşdı və hakimlər və başçılar barəsində söhbət etməyə başladılar. Onlar hakimlərin hamısına əməllərinə eyb tutdular, onların davranışlarının çirkin olduğunu bildirdilər və Nəhrivan əhlini itirdiklərinə görə təəssüfləndilər. Sonra onların bəziləri digərlərinə belə dedilər: "Yaxşı olar ki, biz özümüzü Allaha sataraq bu azğın hakimlərin yanına gedək, pusquda oturaq və gözlənilmədən onları qətlə yetirək və beləliklə də, insanları onların əlindən azadlığa çıxaraq və eyni zamanda Nəhrivanda şəhid olmuş qardaşlarımızın intiqamını alaq."

Bağladıqları bu əhdə uyğun olaraq onlar belə qərara gəldilər ki, Həcc mərasimləri başa çatdıqdan sonra bu işin arxasınca getsinlər. Əbdürrəhman ibn Mülcəm (Allah ona lənət eləsin) dedi: "Mən sizi Əlidən xilas edəcəyəm (Onun qətlə yetirilmə işini mənə həvalə edin)Burk ibn Abdullah Təmimi dedi: "Mən sizi Müaviyənin şərindən xilas edəcəəyəm". Əmr ibn Əbu Bəkr Dedi: "Mən sizi Əmr ibn Asın əlindən xilas edəcəyəm." O üç nəfər bu barədə əhd bağladılar. Bu işi həyata keçirmək üçün Ramazan ayının 19-cu gecəsini təyin etdilər və birbirindən aralandılar.

Kəndə qəbiləsində yaşayan İbn Mülcəm (Allah ona lənət eləsin) Kufəyə tərəf yola düşdü. Kufəyə çatanda yoldaşlarını gördü, amma mənfur planının yayılmasından qorxaraq məqsədi barədə onlara heç nə demədi. Bu arada Teym Rubab qəbiləsindən olan dostunun yanına getdi və onun yanında olarkən Əxzər Teyminin qızı Qutamla rastlaşdı. Əmirəlmöminin Əli (əs) onun atası və qardaşını Nəhrivan döyüşündə qətlə yetirmişdi. Qutam dövrünün ən gözəl qadınlarından biri idi.

İbn Mülcəmin gözü ona sataşanda onun gözəlliyinin əsiri oldu və Qutamın eşqi onun qəlbində özünə yer etdi. Elə həmin məclisdə ona evlənmək təklifi verdi. Qutam dedi: Mənim başlığım üçün nə edəcəksən? Dedi: Sən nə istəsən mən ödəyəcəm! Mənim mehriyəm üç min dirhəm pul, bir kəniz, bir nökər və Əli ibn Talibi qətlə yetirməkdən ibarətdir. İbn Mülcəm dedi: "Sənin üçün hər şeyə taparam, amma Əli ibn Talibi necə öldürə bilərəm? Qutam dedi: Onun üçün tələ qur (çünki başqa cür bu mümkün deyil. O işlə məşğul olanda ona hücum et) Əgər onu

öldürsən mənim qəlbimə şəfa vermiş, mənimlə eyş-işrətdən şad olacaqsan. Əgər özün ölmüş olsan O dünya üçün qazandığın savab sənin üçün dünyadan daha yaxşı olacaq.

İbn Mülcəm dedi: "Allaha and olsun ki, mənim bu şəhərə gəlməkdə, insanlardan uzaq gizli yaşamaqda məqsədim sənin bu arzunu yerinə yetirmək və Əli ibn Talibi qətlə yetirməkdən ibarətdir. Bil ki, sənin istədiyin şeyi yerinə yetirəcəyəm. Qytam dedi: "Mən də bu yolda sənə kömək edəcəyəm və sənə yardımçı olmaq üçün adamlar tapacağam!"

Elə bu səbəbdən də, Teym Rubab qəbiləsindən olan Virdan ibn Məcalidə məktub göndərdi və hadisəni ona danışdı və İbn Mülcəmə kömək etməsini istədi. Virdan bu təklifi qəbul etdi. İbn Mülcəm özü isə Əşcə qəbiləsindən və xəvariclərlə eyni əqidəyə malik olan Şəbib ibn Bucrənin yanına gəldi və ona dedi: "Ey Şəbib! Dünya və axirətin şərafətini qazanmaq istəyirsən?" Şəbib dedi: "Necə?" Cavab verdi: "Mənə Əli ibn Əbu Talibi qətlə yetirməkdə yardımçı ol."

Şəbib dedi: "Ey Mülcəmin oğlu, Anan yasına otursun!" çox qorxulu və çətin işin arxasındasan. Bu arzunu necə həyata keçirəcəksən?"İbn Mülcəm dedi: "Kufənin böyük məscidində pusqu quracağam və sübh namazı üçün məscidə gələndə gözlənilmədən ona hücum edəcəm. Əgər onu öldürə bilsəm öz qəlblərimizə şəfa vermiş və yaxınlarımızın qisasını almış olacağam!" Bu barədə bir az danışdıqdan sonra Şəbib qəbul etdi və ikisi yola düşərək Kufə Məscidinə gəldilər. Həmin məsciddə bir neçə günlük ibadət üçün balaca çadır qurmuş Qutamın yanına gəldilər və ona dedilər: "Biz hər ikimiz bu insanı öldürmək məqsədilə eyni qərara gəlmişik." Qutam dedi: Bu işi həyata keçirmək istəyəndə buraya, mənim yanıma gəlin." Onlar Qutamın yanından getdilər və bir neçə gündən sonra yenidən onun yanına qayıtdılar. Onlar başqa bir nəfəri də (Virdan ibn Məcalidi) özlərilə gətirdilər. Bu hadisə Hicri-Qəməri tarixilə 40-cı ilin Ramazan ayının 19-da çərşənə günü baş verdi. Qutam bi neçə tikə ipək parça gətizdirdi və bu parçalarla onların sinələrini möhkəm bağladı. Onlar qılınclarını bellərinə bağlayaraq yola düşdülər. Onlar Əmirəlmöminin Əli (əs)-ın namaz üçün məscidə daxil olduğu qapının qarşısında oturdular. Onlar bu hadisədən qabaq (öncə münafiq daha sonralar xəvariclərdən olan) Əşəs ibn Qeysi də Əmirəlmöminin Əli (əs)-ı qətlə yetirəcəkləri barədə xəbərdar etdilər. O da onlarla bir yerdə olmağı qəbul etdi və bu hiyləyə uyğun olaraq Əşəs ibn Qeys də həmin gecədə onlara qoşuldu.

(Əmirəlmöminin Əli (əs)-ın yaxın silahdaşlarından və şiyələrin ən tanınımış nümayəndələrindən olan) Həcər ibn Ədi (rə) həmin gecə məsciddə idi. Birdən Əşəs ibn Qeysin İbn Mülcəmə bu sözləri deməsini eşitdi: "İşini görməyə tələs, artıq səhər açılır! Həcər ibn Ədi Əşəsin bu sözündən onun mənfur niyyətini başa düşdü və ona dedi: "Elə bildin ki, onu öldürə biləcəksən? (Allaha çox şükürlər olsun ki,) öz arzuna çata bilmədin. Bunu deyən kimi məsciddən çıxdı, özünü

Əmirəlmöminin Əli (əs)-ın yanına çatdırmaq və O Həzrəti bu hadisədən xəbərdar etmək istədi. Amma, Əmirəlmöminin Əli (əs) başqa bir yolla məscidə gəldi və İbn Mülcəm irəli qaçaraq O Həzrəti qılıncla vurdu. Həcər qayıdanda Əmirəlmöminin Əli (əs)-ın öldürüldüyü xəbərini eşitdi.

Abdullah ibn Muhəmməd Əzdi deyir: "Mən həmin gecə Ramazan ayının əvvəlindən sonunadək namazlarını Kufə məscidində qılan insanlara bir yerdə idim. Əli sübh namazı üçün məscidə daxil oldu və buyurdu: "Namaz, Namaz!" O Həzrətin sözləri hələ sona yetməmişdi ki, qılınc parıltısını gördüm və kiminsə bu sözü deməsini eşitdim: Ey Əli Hökm Allahındır, sənin və sənin davamçılarının deyil!" (Bu xəvariclərin şüarı idi ki Siffeyn döyüşü zamanı diqqətinizə çatdırmışdıq) Əmirəlmöminin Əli (əs)-ın bu sözləri buyurduğunu eşitdim: "Bu şəxs əlinizdən qaçmasın!" O Həzrətin qılıncla zərbələnməsini gördüm. (İlk olaraq) Şəbib ibn Bucrə qılıncla zərbə vurmaq istədi, amma onun zərbəsi boşa çıxdı və məscidin tavanına dəydi. Bir nəfər onu tutdu və yerə yıxdı, sinəsi üstündə oturaraq qılıncını əlindən alaraq onu qətlə yetirmək istədi. İnsanların ona tərəf qaçdığını gördü və onların tələsgən qərar çıxararaq sözünə qulaq asmamalarından (və səhvən onu qətlə yetirmələrindən qorxaraq) Şəbibin sinəsindən durdu və qılıncı bir tərəfə tulladı, Şəbib isə ayağa qalxıb qaçdı. O evinə gəldi və arxasınca əmisi oğlu evə daxil oldu və Şəbibin sinəsindən ipək parça açmasını gördü. Ona dedi: "Bu nədir? Bəlkə Əmirəlmöminini sən öldürmüsən?" Şəbib "Yox" demək istədi, amma "Hə" dedi. Şəbibin əmisioğlu çölə çıxdı və qılıncını götürərək geri qayıtdı, onu qılıncla zərbə vuraraq öldürdü.

İbn Mülcəm qaçmaq istəyəndə Həmdan qəbiləsindən olan bir nəfər qaçaraq ona çatdı və əlindəki parçanı onun başına ataraq yerə yıxdı, əlindəki qılıncını aldı və Əmirəlmöminin Əli (əs)-ın yanına gətirdi. Üçüncü şəxs (Virdan ibn Məcalid) isə qaçaraq insanların arasında gözdən itdi. İbn Mülcəmi Əmirəlmöminin Əli (əs)-ın yanına gətirəndə Həzrət ona baxaraq dedi: "Bir nəfərə bir nəfər! Əgər mən ölsəm onu da öldürün, amma əgər sağ qalsam onunla nə edəcəyimi düşünəcəm."

İbn Mülcəm lənətullah dedi: "Allaha and olsun ki, mən bu qılınci min dirhəmə almışam və min dirhəm də verib zəhər vurdurmuşam.

Um Kulsum onun üzərinə fəryad çəkərək dedi: "Ey Allahın düşməni! Möminlərin Əmirini öldürdün?" Dedi: "Yalnız sənin atanı öldürmüşəm.(Yəni əmirəlmöminini yox" Um Kulsum buyurdu: "Ey Allahın düşməni ümidvaram onun üçün heç bir qorxu yaranmasın (yəni sağalsın). İbn Mülcəm dedi: "Onda bu göz yaşların mənim üçündür? Allaha and olsun ki, ona elə bir zərbə vurmuşamki, əgər onun dünyadakı bütün insanlar arasında bölüşdürsələr hamısı həlak olar!"

Sonra onu Əmirəlmöminin Əli (əs)-ın yanından çıxartdılar. Camaat yırtıcılar kimi onun ətini qopardırdılar və deyirdilər: "Ey Allahın düşməni, sən nə etdin? Muhəmməd (S)-in ümmətini məhv etdin və insanların ən yaxşısını qətlə yetir-

din!" O sakit dayanmışdı və heç kimə söz demirdi. Onu zindana apardılar. Camaat Əmirəlmöminin Əli (əs)-ın yanına gələrək dedilər: "Ey Möminlərin Əmiri, ümməti və İslamı məhv etmiş bu şəxslə necə davranmaq barədə bizə məsləhət ver." Əmirəlmöminin Əli (əs) onlara belə buyurdu: "Əgər sağ qalsam özüm onunla necə davranacağımı bilirəm, amma həlak olsam onunla peyğəmbəri qətlə yetirmiş şəxslə davrandığınız kimi davranın, yəni öldürün və sonra cəsədini odda yandırın."

Əmirəlmöminin Əli (əs) dünyadan köçəndən və övladları O Həzrətin dəfn işini tamamladıqdan sonra İmam Nəsən (əs) İbn Mülcəmi gətirmələrini əmr etdi. Onu gətirən kimi O Həzrət ayağa qalxaraq dedi: "Ey Allahın düşməni, möminlərin Əmirini öldürdün və dində çaxnaşma yaratdın". İmam Həsən (əs) onun boynunun vurulması əmrini verdi. Əsvəd Nəxəinin qızı Um Heysəm onun mənfur bədəninin ona verilməsini və yandırılmasının ona tapşırılmasını istədi. İmam Həsən (əs) də bu işi ona tapşırdı və Um Heysəm onun bədənini yandırdı.

İbn Mülcəmlə Müaviyə ilə Əmr Ası qətlə yetirməkdə əhd bağlamış iki nəfərdən biri Şama getdi və (məsciddə pusqu quraraq Maüviyənin namaza başlamasını gözlədi) Müaviyə rükuya gedəndə ona zərbə vurdu, amma zərbə onun buduna dəydi. Çoxlu müalicədən sonra Müaviyə sağaldı, ona zərbə vurmuş şəxsi isə elə yerindəcə qətlə yetirdilər.

Üçüncü nəfər isə Misirə getdi. Həmin gecə Əmr As üçün iş çıxdı və camaat namazını qılmaq üçün yerinə Xaricə ibn Əbu Həbibə adlı başqa bir nəfəri göndərdi. Həmin şəxs də onun Əmr As olduğunu zənn edərək ona qılıncla zərbə vurdu. Onu Əmr Asın yanına aparadılar və Əmr As da onu qətlə yetirdi. Xaricə isə səhərisi gün öldü.

Qeyd etdiyimiz bu rəvayət Şeyx Müfidin (rə)"İrşad" əsərindən götürülmüşdür.

Bir neçə qeyd:

1. Mufidin (r) nəql etdiyi rəvayətdə imam Əlinin (ə) zərbətləndiyi yerin hara olması barədə bir şey qeyd edilməyib və məsələ ümumi şəkildə bəyan edilib. Lakin çoxsaylı digər rəvayətlərdə deyilir ki, o həzrət məscidin mehrabında və namaz halında zərbətlənib. Hətta o həzrət haqqında belə bir məşhur cümlə də var ki:

"O, ibadət mehrabında ədalətinin çoxluğundan qətlə yetirilib."

Şeyxin "Əmali" əsərində imam Səccaddan (ə) belə nəql edilmişdir:

"İbn Mülcəm o həzrətə bir zərbə vurdu. Həmin zərbə İmamın başına o həzrət səcdədə olan zaman vuruldu..."[1]

Məclisinin (r) "Bihar"da nəql etdiyi digər bir rəvayətdə deyilir ki, Əmirəlmöminin (ə) həmin gecə məscidə gəldi və yatmış insanları oyatmağa başladı. Ca-

[1] Əmali, Şeyx, s. 232

maatı bir-bir qaldıraraq gəlib İbn Mülcəmə çatdı və onunla söhbət etdi. Sonra onu boşlayıb mehraba getdi və namaza durdu. İbn Mülcəm o həzrətin bərabərinə gəlib İmamın namazın birinci rükətini qılmasını, rüku və səcdəyə getməsini gözlədi. İmam (ə) səcdədə olanda o bədbəxt məlun qılıncını o həzrətin başına endirdi...[1]

Əhli-sünnə mənbələrindəki rəvayətlərdə – Mühibbiddin Təbərinin "Zəxairul-üqba" əsərində – də Leys ibn Sədin belə deməsi nəql edilmişdir ki:

"Əbdürrəhman ibn Mülcəm Əlini (ə) namaz halında vurdu."[2]

Gələcək səhifələrdə İbn Mülcəmin bədbəxtliyi barəsindəki hekayətlərdə bu məsələni təsdiqləyən digər bir hədis də nəql edəcəyik.

2. Zərbətlənən zaman o həzrətdən nəql edilmiş və Mufidin (r) rəvayətində mövcud olmayan cümlə budur:

"And olsun Kəbənin Rəbbinə ki, qurtuldum."

Bu rəvayəti əhli-sünnə alimlərindən İbn Əsir Cəzəri "Usdul-ğabə" əsərində, həmçinin Dinəvəri "əl-İmamə vəs-siyasə"də, Qunduzi "Yənabiul-məvəddət"də nəql etmişdir.[3]

Şiə alimlərindən olmuş mərhum İbn Şəhr Aşub da Muhəmməd ibn Abdullah Əzdidən belə deməsini nəql etmişdir ki: "Həmin gecə zərbətlənən zaman Əmirəl-möminin belə deməsini eşitdim ki: "And olsun Kəbənin Rəbbinə ki, qurtuldum."

* * *

Bu, ilahi şəxsiyyətlərə məxsus sonluqdur. Ölüm anı onlar üçün ən şirin andır və onlar öz qurtuluşlarını həmin anın gəlib çatmasında görür, həmişə həmin anın gəlib çatmasını arzulayır, özlərinin həqiqi asayiş və rahatlıqlarını ölümdən sonrakı həyatda görürlər.

Biz müxtəlif dövrlərin namərd və cinayətkar insanlarının ölüm zamanı olan nigaranlıq və təşvişlərini də görmüş və kitablardan oxumuşuq. Onun bir nümunəsini əvvəlki səhifələrdə Əmr ibn Asın dilindən eşitdiniz.

"Bu onların öz əlləri ilə qabaqcadan göndərdikləri işlərə görədir, yoxsa Allah əsla bəndələrə zülm edən deyildir!"

3. Mufidin (r) və digərlərinin nəql etdikləri rəvayətlərdən məlum olduğu kimi bu mənfur sui-qəsddə, namərdcəsinə həyata keçirilən bu terrorun icrasında bundan öncə nifaq və ikiüzlülüyü barəsində sizə hekayətlər nəql etdiyimiz Əşəs ibn Qeys də iştirak edib. O, qatil və sui-qəsdin digər təşkilatçıları ilə birlikdə bu terror planının hazırlanması və icra edilməsi üzərində işləmişdir. Bu barədə onlar hamısı birlikdə qarşılıqlı razılığa gəliblər.

---

[1] Biharul-ənvar, c. 42, s. 281

[2] Zəxairul-üqba, s. 114

[3] Ehqaqul-həqq, c. 8, s. 795

Əşəs ibn Qeysin o həzrətin qətlə yetirilməsi planının hazırlanmasında iştirakı barəsində "Məqatilut-talibin" kitabında da bir hekayət nəql edilmiş və onun Əmirəl-möminindən (ə) ayrılmasının səbəbləri barəsində müxtəlif dəlil və səbəblər qeyd edilmişdir ki, bura onların nəql edilməsi yeri deyil. Biz bundan öncə sizə onun münafiqcəsinə olan əməllərini və İslama zidd davranışlarını nəql etmişik və daha Əbürfərəcin sözlərinin nəql edilməsinə ehtiyac yoxdur.

O həzrətin (ə) qatili ən bədbəxt insan olub

Öncə qeyd edilən rəvayətlərin bir neçə yerində o həzrətin qatilinin ən bədbəxt insan olması qeyd edilirdi. Əhli-sünnənin kitablarında da həzrət Peyğəmbərdən (s) və Əmirəl-möminindən (ə) bu barədə bir sıra rəvayətlər nəql edilmişdir. O cümlədən, İbn Həcər Əsqəlani Əmirəl-möminin (ə) özündən nəql edir ki, o həzrətdən "möminlər içərisində elələri də vardır ki, Allahla bağlamış olduqları əhdi doğrultdular. Onlardan bəzisi öz nəzrlərinə əməl etdilər, bəzisi isə gözləməkdədirlər" ayəsinin təfsiri barəsində sual soruşurlar və o həzrət (ə) buyurur: "Allahım, bu ayənin əhlini bağışla! Bu ayə mənimlə əmim Həmzə və əmim oğlu Übeydə ibn Haris barəsində nazil olmuşdur. Übeydə Bədr müharibəsində, əmim Həmzə isə Ühüd müharibəsində şəhid oldu. Mən də ümmətin ən bədbəxtinin intizarındayam ki, saqqalımı başımın qanı ilə boyasın. Bunu mənə həbibim Peyğəmbər buyurub və xəbər verib."[1]

İbn Cauzinin "Təzkirətul-xəvass" əsərində belə deməsi nəql edilir ki: Əhməd özünün "Fəzail" əsərində deyir: "Peyğəmbər (s) Əliyə belə buyurmuşdur: "Ey Əli, heç bilirsən bütün keçmiş və gələcək insanlar içərisində ən bədbəxt adam kimdir?"

Əli (ə) deyir: "Allah və Onun Peyğəmbəri daha yaxşı bilir!"

Peyğəmbər (s) buyurur:

"Bunu buna – yəni onun saqqalını başının qanına – boyayan!"[2]

Ərbili "Kəşful-qümmə" əsərində Xarəzminin "Mənaqib" kitabından nəql edir ki, Əbüləsvəd Duəli Əmirəl-möminin (ə) xəstə yatanda ona dəyməyə gedir və o həzrətə deyir: "Ey Əmirəl-möminin! Biz sizin üçün bu xəstəlikdən qorxuruq!"

Əli (ə) buyurur:

"Lakin and olsun Allaha ki, mən qorxuram. Çünki mən doğruçu olan və dediklərinin doğruluğu təsdiqlənmiş Peyğəmbərdən (s) mənə belə buyurmasını eşitmişəm ki: "Sənin burana bir zərbə vurarlar – öz alınının iki tərəfinə işarə etdi – və onun qanı axar, gəlib saqqalını boyayar. Salehin dəvəsini öldürən Səmud

[1] əs-Səvaiqul-mühriqə, s. 80. Bu hədisin bənzərini İbn Səbbağ Maliki "Fusulul-muhimmə" əsərində (s. 112), Qunduzi "Yənibiul-məvəddət"də (s. 291), həmçinin başqaları öz əsərlərində nəql ediblər. (Ehqaqul-həqq, c. 8, s. 123)

[2] Təzkirətul-xəvass, s. 100

camaatının ən bədbəxti olduğu kimi həmin zərbənin sahibi də bu ümmətin ən bədbəxtidir.”

Əmirəl-möminin (ə) özündən də bu barədə çoxlu rəvayətlər nəql edilmişdir. Həmin rəvayətlərdə o həzrətin belə buyurması nəql edilir ki:

“Ümmətin ən bədbəxtinə nə mane olur?”[1]

Yaxud buyurub:

“Sizin ən bədbəxtinizə bunu buna boyamağa nə mane olur?”[2]

Mübərrəd özünün “Kamil” əsərində yazır: “Nəql edirlər ki, Əli (ə) həmin gün sübh məscidə gəldi və camaatı namaza qaldırdı. Oturub söhbət edən bir dəstənin yanından keçdi. İmam (ə) salam verdi, onlar da salamın cavabını aldılar. Sonra İmam (ə) əli saqqalında olan halda buyurdu: “Güman edirəm ümmətin bunu buna boyayacaq – əli ilə başına və saqqalına işarə etdi – ən bədbəxti sizin aranızdadır.”

Əgər bu məzmunda nəql edilmiş hədisləri toplasalar əllidən çox hədis olar. Onlar müxtəlif kitablarda, xüsusilə Məclisinin (r) “Biharul-ənvar”, Qazi Nurullah Şuştərinin – Allah onun məqamını ucaltsın! – “Ehqaqul-həqq” kitabında[3] şiə və sünni ravilər vasitəsi ilə nəql edilib. Bu hədislərlə ətraflı tanış olmaq istəyənlər həmin kitablara müraciət edə bilərlər.

* * *

Bu fəsilin sonunda Şeyx Səduqun (r) “Uyunu əxbar ər-Rza” kitabında, həmçinin “Əmali”də öz sənədi ilə səkkizinci imam Əli ibn Musa Rzadan (ə) nəql etdiyi bu hədisi də oxuyun. İmam Rza (ə) Əmirəl-möminindən (ə) belə buyurmasını nəql edir: “Peyğəmbər (s) Ramazan ayının fəziləti barəsində xütbə oxudu.

Əli (ə) deyir: “Mən ayağa qılxıb dedim:

“Ey Allahın Rəsulu, bu ayın əməllərinin ən yaxşısı hansıdır?”

Peyğəmbər (s) buyurdu:

“Ey Əbülhəsən! Bu ayın əməllərinin ən yaxşısı Allah-təalanın haramlarından tam çəkinməkdir.”

Əli (ə) deyir: “Peyğəmbər (s) bu sözü dedi və sonra ağladı. Mən o həzrətin (s) ağlamasının səbəbini soruşdum. Peyğəmbər (s) buyurdu: “Ey Əli, mənim ağlamağımın səbəbi bu ayda sənə qarşı edilən hörmətsizlikdir. Sanki səni namaz halında görürəm və keçmiş və gələcəkdə olanların ən bədbəxti – Səmudun dəvəsini öldürənin qardaşı qalxar və sənin başına elə bir zərbə vurar ki, saqqalın ondan (qana) boyanar.”

---

[1] Məcmuətus-sadisə “Əsmaul-muğtalin”, Əbu Cəfər Bağdadi, s. 161

[2] Kamilut-təvarix, İbn Əsir, c. 3, s. 195; əl-Fəxri ibn Təqtəqi, s. 82. Həmçinin digər mənbələr. (Ehqaqul-həqq, c. 8, s. 124-125)

[3] Biharul-ənvar (yeni çap), c. 42, s. 190-199; Ehqaqul-həqq, c. 8, s. 109-132

Əmirəl-möminin (ə) deyir: "Mən dedim: "Bu iş baş verəndə mənim dinim salamat olacaq?"

Peyğəmbər (s) buyurdu: "(Bəli, bu iş) sənin dininin salamat olduğu zamanda (baş verəcək)."

Sonra buyurdu: "Ey Əli, səni öldürən məni öldürüb, sənə kin bəsləyən mənə kin bəsləyib, səni söyən məni söyüb. Çünki sən mənim kimisən. Sənin ruhun mənim ruhum, sənin xilqətin mənim xilqətimdir. Allah-təala sənin lə məni birlikdə yaradıb, seçib. Məni peyğəmbərliyə seçib, səni imamlığa. Buna görə də kim sənin imamlığını inkar etsə, mənim peyğəmbərliyimi inkar etmişdir.

Ey Əli, sən mənim vəsim, iki övladımın atası və qızımın əri, həm həyatımda, həm də ölümümdən sonra ümmətim arasındakı canişinimsən. Sənin göstərişin mənim göstərişim, sənin qadağan mənim qadağamdır. And olsun məni peyğəmbərliyə göndərənə və məni insanların ən yaxşısı edənə ki, sən Allahın yaratdıqlarına dəlili, Onun sirrinin əmanətdarı və bəndələri üzərində xəlifəsisən."

* * *

Əhli-sünnə alimlərindən olan Məhəmməd ibn Təlhə Şafiinin "Mətalibus-suul", eləcə də Əllamə Kəşfinin "Mənaqib Mürtəzəviyyə" kitabından nəql etdiyimiz bu hədisi də oxuyun:

"Əli (ə) Xəvariclə – "mariqin" ilə vuruşb qurtardıqdan və Kufəyə qayıtdıqdan sonra Ramazan ayında məscidə getdi və iki rükət namaz qıldı. Sonra minbərə çıxıb gözəl bir xütbə oxudu. Daha sonra üzünü oğlu Həsənə döndərib buyurdu: "Ey Əbu Muhəmməd, bu aydan neçə gün keçib?"

Həsən (ə) dedi: "On üç gün, ey Əmirəl-möminin!"

Sonra üzünü Hüseynə (ə) çevirib buyurdu: "Ey Əbu Abdullah, içində olduğumuz bu Ramazan ayından neçə gün qalıb?"

Hüseyn (ə) buyurdu: "On yeddi gün ey Əmirəl-möminin!"

İmam (ə) öz əlini ağarmış saqqalına qoyub buyurdu: "Allahu əkbər! And olsun Allaha, bu ümmətin ən bədbəxti göndəriləndə bu saqqalı qana boyayacaq."[1]

On doqquzuncu gecə necə keçdi?

Həm şiə, həm də əhli-sünnə[2] alimləri tərəfindən nəql edilmiş rəvayətlərdə deyilir ki, Əmirəl-möminin (ə) şəhid olduğu Ramazan ayında bir-iki tikə ilə iftar edər və buyurardı: "İstəyirəm Allahın əmri gələndə qarnım boş olsun." Həmin rəvayətlərdən biri də İbn Əsir Cəzrinin "Kamil" və Şeyx Mufidin (r) "İrşad" kitabında Osman ibn Müğeyrədən nəql etdiyi bu rəvayətdir ki, Osman ibn Müğeyrə deyir: "Ramazan ayı olanda Əmirəl-möminin (ə) bir axşam Həsənin (ə) yanın-

[1] Mətalibus-suul, s. 47, Mənaqib Mürtəzəviyyə, s. 490

[2] Ehqaqul-həqq, c. 8, s. 135-138; İrşad, Mufid (r), c. 1, s. 12

da iftar edirdi, bir axşam Hüseynin, bir axşam da Abdullah ibn Abbasın və üç tikədən artıq yemək yemirdi. Həmin axşamların birində o həzrətdən az yeməsinin səbəbini soruşdular. Buyurdu: "Allahın əmri (və ölüm) mənim sorağıma gələcək (istəyirəm həmin vaxt) qarnım boş və ac olsun. Bir-iki gecədən artıq qalmayıb." Həmin gecənin sonunda o həzrəti zərbətlədilər.

Bir neçə hədisdə də Abdullah ibn Abbasın yerinə Abdullah ibn Cəfər nəql edib ki, bu, həqiqətə daha çox oxşayır. Çünki Abdullah ibn Cəfər o həzrətin kürəkəni idi və Kufədə yaşayırdı. Lakin Abdullah ibn Abbas Bəsrənin valisi idi və onun həmin gecələrdə Kufədə olması və Əmirəl-möminin (ə) qonaq getməsi üçün öz evinin olması məlum deyil.

Ola bilər bu da Bəni-Abbasın hədislərə müdaxiləsinin nümunələrindəndir və onlar bununla onun üçün fəzilət yaratmaq istəyiblər. Daha doğrusunu Allah bilir.

Həmçinin Mufidin (r) "İrşad" əsərində yazılıb ki, Abdullah ibn Musa bir vasitə ilə Həsən Bəsridən nəql edir ki, Əmirəl-möminin (ə) şəhid olan gecə (bütün gecəni) oyaq oldu və həmişəki adətinin əksinə olaraq həmin axşam gecə namazı üçün məscidə getmədi. Qızı Ümmü Gülsüm ona dedi: "(Bu axşam) sizin yuxunuzu nə pozub?" İmam (ə) buyurdu: "Əgər bu gecə səhəri açsam, öldürüləcəyəm." (Nəhayət) o həzrətin (ə) azançısı gəldi və azanı (sübh namazının azanını) verdi. İmam (ə) (məscidə tərəf) bir az yol gedib qayıtdı. Ümmü Gülsüm ona dedi: "Göstəriş verin camaatla namazı Cödə (İmamın (ə) bacısı oğlu) qılsın." İmam buyurdu: "Bəli, deyin camatla namazı (bu gün) Cödə qılsın." Daha sonra buyurdu: "Ölümdən qaçmaq mümkün deyil." Və özü məscidə getdi. O kişi (yəni İbn Mülcəm) bütün gecəni oyaq qalıb o həzrəti gözləmişdi. Səhər mehi əsəndə onu yuxu tutmuşdu. Əmirəl-möminin (ə) (məscidə daxil oldu) və ayağı ilə onu tərpədərək buyurdu: "Namaz!" O, ayağa qalxdı və sonra İmama zərbət vurdu.

Digər bir hədisdə deyilir ki, Əmirəl-möminin (ə) həmin gecəni tam oyaq olmuşdu. Tez-tez çölə çıxar, göyə baxar və belə buyurardı: "And olsun Allaha nə mən yalan demişəm, nə də mənə yalan deyiblər! Bu, mənə vəd edilən gecədir." O, bunları deyər sonra yatağına qayıdardı. Dan yeri söküləndə kəmərini möhkəm bağlayaraq çölə çıxdı və (bu iki şeiri) oxudu:

اشدد حیاز یمك للموت فان الموت لا قیکا

و لا تجزع من الموت اذا حل بواد یکا

Yəni: Kəmərini ölüm üçün möhkəm bağla (və ona hazır ol). Çünki ölüm sənin görüşünə gələcək. Ölüm sənin yanına gələndə ah-zar edib fəryad qoparma.[1]

[1] İbn Şəhr Aşubun "Mənaqib" əsərində yazılıb ki, İmam (ə) evdən çıxmaq istəyəndə evin qapısının qarmağı onun kəmərbəndinə ilişib və o həzrət (ə) kəmərbəndini möhkəm bağlayaraq bu şeiri və ondan sonra başqa bir şeiri oxuyub.

Əhli-sünnə alimlərindən olan Əllamə Qunduzi "Yənabiul-məvəddət" əsərində Hüseyn ibn Kəsirdən, o da atasından nəql edir ki: "Əmirəl-möminin (ə) zərbətləndiyi və şəhid olduğu gecə tez-tez otaqdan çölə çıxar, göyə baxar və durmadan belə deyərdi:

"And olsun Allaha, nə mən yalan demişəm, nə də mənə yalan deyiblər. Həqiqətən bu gecə mənə vəd edilən gecədir."

And olsun Allaha, hidayətin sütunları dağıldı!

Mərhum Məclisinin "Biharul-ənvar"da nəql etdiyi rəvayətdə deyilir ki, Əbdürrəhman ibn Mülcəm Əmirəl-möminin (ə) mübarək başına o zərbəni vuranda o həzrət (ə) mehraba düşdü, yerdən torpaq götürüb qılıncın yerinə qoydu və bu ayəni oxudu:

"Sizi torpaqdan yaratdıq, torpağa qaytaracaq və bir daha torpaqdan çıxaracağıq."

Bu vaxt məscidin qapıları bir-birinə dəydi və yer titrədi. Cəbrail yerlə göy arasında uca səslə belə fəryad qopardı:

"And olsun Allaha, hidayət sütunları dağıldı! And olsun Allaha göyün ulduzları, and olsun Allaha təqva nişanələri söndü! And olsun Allaha, haqqın möhkəm kəndiri boşaldı, Muhəmməd Mustafanın əmisi oğlu öldürüldü! (Peyğəmbərin) seçilmiş vəsisi öldürüldü! Əli Mürtəza öldürüldü! And olsun Allaha, vəsilərin ağası öldürüldü! Onu bədbəxtlərin bədbəxti öldürdü."[1]

Kufənin təbibi nə dedi?

Əbülfərəc "Məqatilut-talibin" əsərində Əmr ibn Təmim və Əmr ibn Əbu Bikardan nəql edir ki, Əmirəl-möminin (ə) zərbətlənməsindən sonra Kufənin təbiblərini o həzrətin yanına gətirdilər. Onların arasında yaranın müalicəsi və cərrahlıqda Əsir ibn Əmrdən bacarıqlısı yox idi. O, yaraların müalicəsində mütəxəssis idi. O, Əbu Bəkrin zamanında "Eynut-təmr"də Xalid ibn Vəlid tərəfindən əsir götürülmüş və Kufədə məskunlaşmış qırx gəncdən biri idi.

Bu təbib, yəni Əsir ibn Əmr o həzrətin (ə) başının yarasını görən kimi göstəriş verdi ki, altı qoyunun ağ ciyərini çıxarıb gətirsinlər. O, ağ ciyərlərdən bir damar çıxarıb onları həmin yaraya qoydu. Bir az keçəndən sonra onları yaradan çıxardı. O, İmamın (ə) beyininin ağ parçalarını həmin damarlarda görən kimi üzünü o həzrətə çevirib dedi: "Ey Əmirəl-möminin, nə vəsiyyətin varsa et! Allahın düşməninin qılıncının zərbəsi beyinə kimi işləyib və müalicənin faydası yoxdur." Həmin vaxt Əmirəl-möminin (ə) kağız-qələm və mürəkkəb istədi və vəsiyyət etməyə başladı.

[1] Biharul-ənvar, c. 42, s. 282

Əmirəl-möminin (ə) vəsiyyətnaməsi

İmam Əlinin (ə) vəsiyyətnaməsini hədis kitablarında qısa və geniş formalarda müxtəlif şəkillərdə nəql ediblər. Onlardan birini də Əbülfərəc nəql edib. Mərhum Küleyni də "Kafi"də Əbülfərəcin nəql etdiyi vəsiyyətnamənin bənzərini nəql edib.[1] Nəhcül-bəlağədə də (47-ci məktubda) bu vəsiyyətnamə qısa şəkildə nəql edilmişdir. Onun müxtəsər forması "Kəşful-qümmə"də nəql edilmişdir. Bu barədə digər rəvayətlər də mövcuddur və Məclisi (r) "Biharul-ənvar"da[2] onların hamısını nəql edib. Biz başqalarına nisbətdə daha geniş olan rəvayəti – Əbülfərəcin rəvayətini – nəql edirik:

Bismillahir Rəhmanir Rəhim.

Bu, Əmirəl-möminin Əli ibn Əbu Talibin vəsiyyətnaməsidir: O, tək olan Allahdan başqa bir məbudun olmamasına, Onun şərikinin yoxluğuna şəhadət verir. Həmçinin şəhadət verir ki, Muhəmməd (s) Onun bəndəsi və eliçisidir. Allah onu hidayət və haqq din ilə göndərib ki, müşriklərin xoşuna gəlməsə belə bütün dinlərə qalib etsin. Allahın salam və salavatı olsun ona! Həqiqətən mənim namaz və ibadətim, həyat və ölümüm aləmlərin Rəbbi olan və şəriki olmayan Allah üçündür. Mənə bu, əmr edilmişdir və mən ilk müsəlmanam."[3]

Ey Həsən, sənə, bütün övladlarıma və bu vəsiyyətnamənin çatacağı hər bir kəsə təqvalı olmağı və Rəbbiniz olan Allahdan qorxmağı tövsiyə edirəm. Gərək yalnız müsəlman olaraq öləsiniz. Allahın kəndirindən yapışın və dağılışmayın. Çünki mən Peyğəmbərin (s) belə buyurmasını eşitmişəm ki: "İnsanların arasını düzəltmək bütün namaz və oruclardan yaxşıdır." İnsanlar arasında fəsad törətmək dini məhv edir. Uca və əzəmətli Allahdan başqa güc və qüdrət sahibi yoxdur! Öz yaxınlarınıza və qohumlarınıza diqqət edin və onlara birləşin, qohumluq tellərini bərqərar edin ki, Allah sizin hesabınızı asanlaşdırsın.

Yetimlər barəsində Allahdan qorxun, Allahdan qorxun! Daşürəkliliklə onların ağızları üçün növbə təyin etməyin (gah ac, gah tox saxlamayın)!

Qonşularınız barəsində Allahdan qorxun, Allahdan qorxun! Peyğəmbər (s) onları tapşırar, həmişə onlar barəsində elə tövsiyələr edərdi ki, biz o həzrətin qonşulara irsdən pay ayıracağını güman etmişdik.

Quran barəsində Allahdan qorxun, Allahdan qorxun! Məbada kimsə ona əməl etməkdə sizdən qabağa düşsün!

Namaz barəsində Allahdan qorxun, Allahdan qorxun! Çünki namaz sizin dininizin sütunudur.

---

[1] Kafi, c. 7, s. 51-52

[2] Biharül-ənvar, c. 42, s. 199-301

[3] Bu hissə Ənam surəsinin 162-163-cü ayələrindən iqtibas edilmişdir.

Rəbbinizin evi (Kəbə evi) barəsində Allahdan qorxun, Allahdan qorxun! Məbada nə qədər ki, sağsınız həmin ev sizdən boş qalsın! Əgər ora tərk edilsə, sizə möhlət verilməz və əzaba düçar olarsınız və əgər boş qalsa Allahın əzabı sizə yaşamağa imkan verməz.

Ramazan orucu barəsində Allahdan qorxun, Allahdan qorxun! Çünki o, sizin üçün cəhənnəm odu qarşısında sipər kimidir.

Allah yolunda öz mal, can və dilinizlə cihad etmək barəsində Allahdan qorxun, Allahdan qorxun!

Öz mallarınızın zəkatını vermək barəsində Allahdan qorxun, Allahdan qorxun! Zəkat Allahın qəzəbini yatırır.

Peyğəmbərinizin ümməti barəsində Allahdan qorxun, Allahdan qorxun! Məbada sizin aranızda zülm və haqsızlıq baş versin!

Peyğəmbərinizin səhabələri barəsində Allahdan qorxun, Allahdan qorxun! Çünki Peyğəmbər (s) onların barəsində tapşırıq verib.

Kasıb və yoxsullar barəsində Allahdan qorxun, Allahdan qorxun və onları öz yaşayışınıza şərik edin, öz yemək və geyimlərinizdən onlara da verin. Əliniz altında olanlar – qul və kənizlər barəsində Allahdan qorxun, Allahdan qorxun! Çünki Peyğəmbərin (s) son tapşırıq və vəsiyyəti bu olub ki: "Mən sizə əliniz altında olan iki aciz dəstəni tapşırıram."[1]

İmam (ə) daha sonra buyurub: "Namaz, namaz! Allah barəsində insanların məzəmmətindən qorxmayın. Kim sizə zülm etsə və ya sizin barənizdə pis niyyətdə olsa, Allah onun şərrinin qarşısını almağa kifayət edər. Camaatla Allahın sizə tövsiyə etdiyi kimi gözəl tərzdə danışın və "əmr be məruf" və "nəhy əz münkər"i tərk etməyin. Əks təqdirdə işlər əlinizdən çıxar və sonra nə qədər dua etsəniz, Allahdan şərri dəf etməsini istəsəniz qəbul olmaz.

İnsanlarla ünsiyyət zamanı təvazökar olun və bir-birinizə bəxşiş və yaxşılıq edin. Ayrılıq və parçalanmadan, bir-birinizə arxa çevirməkdən çəkinin. Yaxşı işlərdə bir-birinizə kömək olun, günah və zülmə yardım etməyin. Çünki Allahın işkəncə və əzabı çox ağırdır.

Allah siz Əhli-beyti qorusun və Öz Peyğəmbərinin sizin barənizdəki haqqını hifz etsin! İndi sizinlə vidalaşır, sizi Allaha tapşırır və sizə Onun salam və mərhəmətini diləyirəm."

"Kafi" kitabında nəql edilmiş vəsiyyətnamənin sonunda qeyd edilir ki, İmam (ə) vəsiyyətini edib qurtardıqdan sonra müqəddəs ruhu bədənindən çıxıb ruhlar aləminə qovuşana kimi durmadan "la ilahə illəllah" deyirdi.

[1] İbn Əbilhədid "Nəhcül-bəlağə"nin şərhində deyir ki, bu iki dəstədən məqsəd danışan heyvan (yəni insan) və dilsiz heyvan (yəni dördayaqlılar)dır.

* * *

"Nəhcül-bəlağə"də nəql edilir ki, İmam (ə) vəsiyyətinin sonunda öz övladlarına xitab edərək belə buyurmuşdur:

"Ey Əbdülmüttəlib övladları! Məbada sizi "Əmirəl-möminin öldürüldü" bəhanəsi ilə müsəlmanların qanına bulaşan (onları öldürən) görüm! Bilin! Mənim əvəzimdə yalnız mənim qatilim öldürülməlidir. Baxın, əgər mən onun zərbəsi ilə dünyadan getsəm, ona bir zərbə vurun, onu işkəncə ilə öldürməyin. Mən Peyğəmbərin (s) belə buyurmasını eşitmişəm ki: "Hətta quduz iti işkəncə ilə öldürməkdən çəkinin!"

Öz qatili barəsindəki tapşırığı

İbn Şəhr Aşub "Mənaqib"də, Hümeyri cüzi fərqlə "Qürbul-əsnad"da imam Baqirdən (ə) nəql edir ki, Əmirəl-möminin (ə) etdiyi vəsiyyətin ardınca öz mənfur qatili barəsində tapşırıq verərək belə buyurmuşdur:

"Ona yeyib-içmək verin və öz əsirinizlə yaxşı davranın. Əgər mən sağalsam, onun ixtiyarı mənim öz əlimdədir, istəsəm bağışlayaram, istəsəm qisas alaram. Əgər ölsəm, onu öldürərsiniz..."[1]

İmamın (ə) duası qəbul oldu

Vərram ibn Əbu Fəras "Tənbihul-xəvatir" kitabında İsmail ibn Abdullah Səl'i adlı şəxsdən Əmirəl-möminin (ə) zərbətləndiyi gecə baş vermiş bir hekayəti nəql etmişdir. Həmin hekayətin xülasəsi belədir: Mən bir gecə bəzi işlər görmək üçün çölə çıxmışdım. Dənizin[2] kənarında bir kişi gördüm. O, yanğılı ürək və həzin səslə başını səcdəyə qoyub Allah dərgahına münacat edərək belə deyirdi:

"Ey gözəl yoldaş, ey peyğəmbərlərin xəlifəsi, ey mehribanların mehribanı! Ey başlanğıc və heyranedici şeylər yaradan bənzərsiz! Ey həmişə agah əbədi və ölməyən diri! Sən hər gün iş başındasan! Sən Muhəmmədin xəlifəsi, köməkçisi və fəzilətlisisən. Səndən Muhəmmədin vəsisinə, xəlifəsinə və ondan sonra ədaləti bərqərar edənə kömək etməyini istəyirəm. Ya öz yardımınla ona iltifat et, ya da öz lütf və mərhəmətinlə onu götürüb bu dünyadan apar."

O, bu sözləri deyəndən sonra qalxıb bir az oturdu və sonra durub ayağını suyun üstünə qoyaraq getdi. Mən arxadan onu çağırdım ki: "Allah rəhm eləsin sənə, bir dayan mənimlə danış."

---

[1] Biharul-ənvar, c. 42, s. 239

[2] Ola bilsin bu hədisdə "dəniz"dən məqsəd Fərat çayıdır ki, onun barəsində məcazi mənada "dəniz" kəlməsi işlədilib. Ola da bilər məqsəd Nəcəf Əşrəfin cənub qərbində olmuş və indi Cədvəl adı ilə məşhur olan kiçik göl olsun. Tarixi və coğrafi mənbələrə əsasən o, əvvəllər göl olub və hətta Fars körfəzinə birləşirmiş. Ola da bilər məqsəd Kufədən aralıda olan dəniz olub. Həmin şəxs hədisin davamında da deyildiyi kimi bu hekayəti nəql etdikdən sonra Kufəyə gəlib.

O, mənə fikir vermədi, bircə bunu dedi: "Bələdçi sənin arxan tərəfdədir, öz dinin barəsindəki işi ondan soruş."

Soruşdum: "Kimdi o bələdçi?"

Dedi: "O, Muhəmməddən (s) sonra onun vəsisidir."

Ravi deyir: "Mən oradan Kufəyə tərəf hərəkət etdim və gün batana yaxın Kufəyə çatdım. Hirənin yaxınlığında dayandım. Axşam düşəndə gördüm ki, bir kişi gəldi və yerin bir az hündür hissəsinə çatıb orada dayandı. Ayaqlarını düzəldib Allahla uzun bir münacat etdi. O cümlədən bu sözləri dedi:

"Allahım, mən bu camaatın arasında Sənin Peyğəmbərinin və seçilmiş bəndənin mənə buyurduğu kimi davrandım. Lakin bunlar mənə zülm etdilər. Münafiqləri buyurduğun kimi qətlə yetirdim, amma onlar məni nadanlıqda günahlandırdılar. Həqiqətən mən onları yormuşam, onlar da məni yorublar. Mənim onlardan xoşum gəlmir, onların da məndən xoşları gəlmir. Mən (İbn Mülcəm) Muradidən başqa bir şeyin intizarını çəkmirəm. Allahım, onun bədbəxtliyini tezləşdir və mənim vücudumu səadətə qovuşdur. Allahım, Sənin Peyğəmbərin mənə vəd edib ki, nə vaxt Səndən istəsəm mənim ölümümü yetirərsən. Allahım, mən indi bu barədə Sənə üz tuturam."

Ravi deyir: "Onun sözü sona çatdı və o, yola düşüb getdi. Mən də onun arxasınca getdim və gördüm ki, bir evə girdi. Mən bildim ki, o Əli ibn Əbu Talibdir (ə). Çox keçmədi ki, azan verildi və Əmirəl-möminin (ə) evdən çıxdı. Mən də o həzrətin arxasınca yola düşdüm və məscidə daxil olduq. İbn Mülcəm məlun qılınc ilə o həzrətə hücum etdi və həmin böyük faciə baş verdi.

Bu vəsiyyət də maraqlı və ibrətamizdir

Şeyxin (r) "Əmali" əsərində o həzrətdən bir neçə cümlə vəsiyyət də nəql edilib ki, çox maraqlı və ibrətamizdir. Həmin rəvayətdə deyilir ki, Əmirəl-möminin (ə) ölüm anı yaxınlaşanda, o həzrət (ə) özünün böyük və kiçik oğlanlarını bir yerə topladı və onlara vəsiyyət etdi. O həzrət (ə) vəsiyyətinin sonunda belə buyurdu:

"Oğullarım! Camaatla elə davranın ki, əgər yanlarında olmasanız, sizi görməyi arzulasınlar və əgər ölsəniz sizin yoxluğunuza ağlasınlar. Oğullarım! Həqiqətən ürəklər bir yerə toplaşmış qoşun kimidir ki, məhəbbət və mehribanlıqla bir-birinə yaxınlaşıb sirlərini bölüşərlər. Kin və düşmənçilik də elədir. Buna görə də əvvəldən sizə heç bir xeyiri dəymədən birini sevəndə, ona ümid bəsləyin. Həmçinin birinə sizə heç bir pisliyi dəymədən kin bəsləyəndə ondan çəkinin."[1]

[1] Əmali, İbn Şeyx, s 27

Daha bir neçə vəsiyyət

Əmirəl-mömininin (ə) vəsiyyətləri o qədər maraqlı və ibrətamiz, onların hər biri elə təravətli və özünəməxsus xüsusiyyətə malikdir ki, müəllif nə qədər qənaət etmək, hər çələngdən bir gül seçmək istəsə də, yenə onların bəzisini kənara qoyduğuna görə təəssüflənir. Çünki onların hər birində o həzrətin digər kəlamlarında olmayan yeni söz, ibrətamiz dərs vardır.

Şeyxin (r) "Əmali", həmçinin Mufidin "Əmali" kitabında da iki vəsiyyətnamə var ki, mən əvvəlki vəsiyyətnamələrlə kifayətlənərək onları nəql etmək istəmirdim. Amma heyfim gəldi və buna görə də onların sadə müxtəsər tərcüməsini nəql edirəm.

1. İmam Həsən (ə) nəql edir ki, atamın vəfatı yaxınlaşanda, o, vəsiyyət edərək belə buyurdu:

"Bu, Peyğəmbərin (s) qardaşı, əmisi oğlu, səhabəsi Əli ibn Əbu Talibin etdiyi vəsiyyətdir. Mənim ilk vəsiyyətim budur ki, mən tək Allahdan başqa bir tanrının olmadığına və Muhəmmədin (s) Onun elçisi və seçilmiş bəndəsi olmasına şəhadət verirəm. Allah onu Öz elmi ilə seçdi və Özünün yaxşı bəndələri üçün bəyəndi. Həqiqətən Allah qəbirlərdə olanları dirildəcək, insanların əməlləri barədə sorğusual edəcək və O, qəlblərdə olanlardan xəbərdardır.

Sonra mən sənə – sən vəsi olmaq üçün kifayətsən – Peyğəmbərin mənə vəsiyyət etdiyini vəsiyyət edirəm. O, mənə vəsiyyət etdi ki, bu zaman evdə otur, öz halına ağla və sənin ən böyük dərdin dünya olmasın.

Oğul, sənə namazını vaxtında qılmağı, zəkatı öz yerində və öz əhlinə verməyi, şübhəli məqamlarda susmağı, sevinc və qəzəb zamanı mötədilliyi, qonşuya yaxşılıq etməyi, qonağa nəvaziş göstərməyi, çətinlik və bəla içində olanlara rəhm etməyi, qohumlarla əlaqə saxlamağı, yoxsullarla dostluq və yoldaşlıq etməyi və təvazökarlığı tövsiyə edirəm. O, ən üstün ibadətdir. Arzularını qısalt!

Ölümü yada sal ki, sən onun girovusan, bəlanın qabağında xəstəliyin tuşundasan.

Sənə həm gizli, həm də xəlvət işində Allahdan qorxmağı tapşırıram. Səni həm sözdə, həm də əməldə tələsməkdən çəkindirirəm. Axirət işi sənə üz tutan zaman ona başla. Qarşına dünya işi çıxanda isə ona duruxa-duruxa və yavaş-yavaş başla ki, onda öz inkişafına çatasan (və düzgün yolu seçib müəyyənləşdirə biləsən). İttiham edilə biləcəyin yerlərdən, sui-zənnə məruz qalacığın məclislərdən çəkin. Çünki pis yoldaş öz yoldaşını aldadar.

Oğul, Allahın məmuru ol, söyüş və pis sözlərin qarşısını al. Yaxşı işləri əmr et və pis işlərdən çəkindir. Qardaşlarla Allah yolunda qardaşlıq et və yaxşı insanı yaxşılığına görə sev, fasiqlə öz dinin barəsində (zahirdə) keçin, qəlbində ona kin bəslə, iş və əməldə ondan uzaqlaş ki, onun kimi olmayasan.

Camaatın yolunda oturmaqdan çəkin, söhbətdə ağıl və elmi olmayanla mübahisədən uzaq dur. Oğul, yaşayışında mötədil ol. Həmçinin ibadətdə orta yolu tut. Bu barədə həmişə gücün çatacaq yolu seç. Sükut et ki, salamat olasan. Özün üçün əvvəlcədən bir şey göndər ki, ondan bəhrələnəsən. Xeyir işi öyrən ki, biləsən. Bütün halarda Allahı yadda saxla, ailədə kiçiyə rəhm et, böyüklərə ehtiram göstər. Heç bir yeməyi ondan sədəqə verməmiş yemə!

Oruc tut! Çünki o, bədənin zəkatı və oruc tutan şəxs üçün (cəhənnəm odu müqabilində) sipərdir. Öz nəfsinlə mübarizə apar və yoldaşından çəkin və düşmənindən uzaq ol.

Zikr və Allahı yada salan məclislərdə iştirak et və çox dua et. Mən sənə nəsihət etməkdə səhlənkarlıq etmədim. Bu, mənimlə sənin ayrılığındır.

2. Həmçinin öz sənədi ilə Əsbəğ ibn Nəbatədən nəql edir ki, Əmirəl-möminini (ə) zərbətlədikdən sonra mən o həzrətin səhabələrindən bir neçə nəfər ilə o həzrətin qapısına getdim. Biz qapının ağzında oturduq. Birdən evdən ağlamaq səsi ucaldı, biz də ağladıq. Bu vaxt imam Həsən ibn Əli (ə) evdən çıxıb dedi:

"Əmirəl-möminin (ə) buyurur ki, evinizə gedin!"

Camaat bu sözü eşidib getdi. Lakin mən qaldım. Bu vaxt daha çox ağlamaq səsi gəldi və mən də ağladım. İmam Həsən (ə) çölə çıxıb buyurdu: "Məgər mən sizə demədim ki, evinizə gedin?" Mən dedim: "Ey Allahın Peyğəmbərinin oğlu, Əmirəl-möminini görməyincə ürəyim getməyə razı olmur, ayaqlarım getmir."

Bu sözü deyib ağladım.

İmam Həsən (ə) evə getdi və çox çəkmədi ki, çölə çıxıb mənə dedi: "İçəri gəl." Mən içəri daxil oldum və Əmirəl-möminin (ə) yanına getdim. Gördüm ki, o həzrətin (ə) başına sarı əmmamə bağlayıblar. O həzrətin üzünün rəngi də elə saralmışdı ki, and olsun Allaha, bilmədim əmmamənin rəngi daha sarıdır yoxsa o həzrətin üzünün rəngi?

Mən bu vəziyyəti görüb özümü o həzrətin üstünə atdım və onu öpdüm. Həmin vaxt Əmirəl-möminin (ə) mənə belə buyurdu: "Ey Əsbəğ, ağlama, and olsun Allaha, cənnətdir!"

Mən dedim: "Sənə fəda olum, and olsun Allaha, mən də bilirəm ki, sizin yeriniz cənnətdir. Mən sizi itirməyə görə ağlayıram. Sənə qurban, mənə Peyğəmbərdən (s) eşitdiyin bir hədis danış. Çünki mən belə görürəm ki, bundan sonra sizdən daha hədis eşidə bilməyəcəyəm."

Buyurdu: "Bəli, ey Əsbəğ! Bir gün Peyğəmbər (s) məni çağırıb buyurdu: "Ey Əli, məscidə get, minbərə çıx, camaatı çağır, Allaha həmd-səna et və onlara belə de:

"Mən sizə Peyğəmbərin tapşırığını gətirmişəm. O, buyurdu ki: "Bilin! Allahın, Allah dərgahına yaxın mələklərin, Onun peyğəmbərlərinin və mənim lənətim olsun o şəxsə ki, öz nəsəbini atasından qeyrisinə bağlayır, yaxud öz mövla və başçısından qeyrisini iddia edir, yaxud muzdluya muzdunda haqsızlıq edir!"

Mən də məscidə gedib o həzrətin tapşırığını çatdırdım. Ömər ibn Xəttabdan başqa heç kəs bir söz demədi. Ömər dedi:

"Ey Əbülhəsən, anlaşılmaz xəbər gətirdin, amma onun izahını demədin." Mən ona dedim: "Sənin bu sözünü Peyğəmbərə deyərəm." Mən qayıtdım və onun sözünü o həzrətə (s) dedim. O həzrət (s) buyurdu: "Bəli, məscidə qayıt, minbərə çıx, Allaha həmd-səna elə və camaata belə de: "Camaat, biz nə deyiriksə, onun yozum və təfsiri də bizim yanımızdadır...

Camaat, bilin, mən sizin atanızam; bilin, mən sizin mövla və başçınızam; bilin ki, mənəm sizin muzdlunuz!"[1]

İmamın (ə) şəhadəti, şəhid olduğu tarix və dəfn edildiyi yerin aşkar olması

Əmirəl-möminin (ə) hicrətin qırxıncı ilinin Ramazan ayının iyirmi biri cümə axşamı günü dan yeri sökülməmişdən qabaq vəfat edib (şəhid olub). O həzrət (ə) qılınc zərbəsi nəticəsində dünyasını dəyişib. İbn Mülcəm Muradi – Allahın lənəti olsun ona! – o həzrəti Kufə məscidində zərbətləyib və bu acı hadisə Ramazan ayının on doqquzunda o həzrət (ə) namaz qılmaq üçün evindən çıxıb (məscidə gələndə) və camaatı sübh namazına qaldıranda baş verib. İbn Mülcəm gecədən o həzrəti gözləyirmiş. İmam (ə) özünü yuxululuğa vurub camaatın arasında uzanmış İbn Mülcəmin yanından keçəndə İbn Mülcəm qəflətən hücum edərək zəhərli qılınc ilə o həzrətin başından vurub.[2]

(Bu zərbədən sonra) İmam (ə) Ramazanın on doqquzuncu gününü, iyirminci gününü və gecəsini, həmçinin iyirmi birinci gecəsini - gecənin ilk üçdə birinə kimi - sağ qalıb və sonra dünyasını dəyişib. O həzrət (ə) bu hadisədən qabaq ondan xəbərdar olub və bunu camaata xəbər verib.

İmamın (ə) qusl və kəfənini o həzrətin öz vəsiyyətinə əsasən oğlu Həsənlə Hüseyn (ə) yerinə yetirib. O həzrətin cənazəsini (qüsl və kəfəndən) sonra Kufənin Nəcəfinə tərəf aparıb orada dəfn ediblər və qəbrinin yerini gizlədiblər.

Bu iş o həzrətin vəsiyyətinə əsasən edilib. Çünki o, özündən sonra Bəni-Üməyyənin hakimiyyətə gələcəyini və onların özünə qarşı olan düşmənçiliklərini, onların işlərinin sonunu bilirdi. İmam (ə) bilirdi ki, onlar malik olduqları pis niyyətləri (və kinli qəlbləri) ilə bacardıqca pislik edəcəklər (və hətta o həzrətin qəbr və cənazəsindən əl çəkməyəcəklər).

---

[1] "Biharul-ənvar", c. 42, s. 204-205. Məclisi (r) deyir: "Hədisdəki "mən"dən məqsəd Əmirəl-möminin (ə) özüdür. O həzrətin (ə) "muzdlu" olmasından məqsəd bu ilahi şəxsiyyətlərin ilahi göstərişlərin çatdırılmasındakı öhdəlikləridir, necə ki, bu ayədə buyurur: "De: "Sizdən bunun (ilahi tapşırıqların çatdırılmasının) müqabilində qohumlarım barəsində məhəbbətdən başqa bir muzd istəmirəm." (Şura surəsi, ayə 23)

[2] Bundan öncə qeyd etdik ki, digər rəvayətlərə əsasən bu qəmli hadisə məscidin mehrabında namaz vaxtı baş verib.

Buna görə də o həzrətin qəbri İmam Sadiqin (ə) zamanına kimi gizli qalıb. (Bəni-Üməyyənin məhvindən) sonra Bəni-Abbasın zamanında imam Əlinin (ə) qəbrinin yerini İmam Sadiq (ə) göstərib. Mənsur Dəvaniqi (Kufənin yaxınlığındakı) Hirə şəhərində dayanıbmış və İmam Sadiq (ə) onun görüşünə gedir və yolüstü o həzrətin (ə) müqəddəs qəbrini ziyarət edir. Şiələr həmin yeri tanıyır və imam Əlinin (ə) qəbrinin orada olmasını bilirlər.

Dünyadan köçəndə o həzrətin (ə) altmış üç yaşı olub."[1]

O həzrətin (ə) dəfn yeri və dəfnin necəliyi

1. Əmirəl-möminin (ə) qəbrinin yeri və torpağa tapşırılmasının necəliyi barəsində nəql edilmiş rəvyətlərdən biri də İbad ibn Yəqub Rəvacininin Həyyan ibn Əli Ənzidən nəql etdiyi rəvayətdir. O deyir: "Əlinin (ə) qullarından biri mənə nəql etdi ki, Əmirəl-möminin (ə) ölüm anı çatanda o həzrət Həsənlə Hüseynə (ə) dedi: "Mən dünyadan köçəndən sonra məni tabutda qoyub evdən çıxarın. Siz tabutun arxa tərəfindən yapışın. Çünki onun qabaq tərəfini götürəcəklər. Onun qabağının götürülməsi zəhmətini başqaları çəkəcək. Sonra mənim cənazəmi Qəriyyeynə (hal-hazırda o həzrətin (ə) pak qəbrinin yerləşdiyi yerin adıdır. Bəziləri isə deyirlər ki, o, Nəcəfdə olmuş iki tikilinin adı olub) aparın. Orada ağ parlaq bir daş görəcəksiniz. Oranı qazın. Orada bir lövhə görəcəksiniz. Məni orada dəfn edin."

Deyir: "O həzrət (ə) dünyadan köçəndən sonra onun cənazəsini götürüb evdən çıxdıq (və buyurduğu kimi) biz tabutun arxa tərəfindən yapışmışdıq. Tabutun qabaq tərəfi götürülmüşdü və biz ağacın yerə sürtülməsi kimi yavaş səs eşidirdik. Nəhayət Qəriyyeynə çatdıq. Orada parlayan ağ bir daş gördük. Oranı qazdıq. Orada bir lövhə gördük. Onun üzərinə belə yazılmışdı: "Bura Nuhun Əli ibn Əbu Talib üçün saxladığı yerdir." Sonra biz o həzrəti orada dəfn edib qayıtdıq.

Biz Allahın Əmirəl-möminə qarşı bu ehtiramından şad idik. Şiələrin bir dəstəsi o həzrətin (ə) cənazə namazına çatmamışdı. Biz qayıdandan sonra gördüklərimizi və Allahın Əmirəl-möminə (ə) olan ehtiramını onlara danışdıq. Onlar dedilər: "Biz də sizin o həzrət (ə) barəsində gördüklərinizi öz gözlərimizlə görmək istəyirik." Biz onlara dedik: "O həzrətin (ə) özünün vəsiyyət və tapşırığına əsasən qəbrin yeri gizlədilib. (Onlar bizim sözümüzə qulaq asmadılar və) həmin tərəfə getdilər və qayıdıb dedilər: "Biz oranı qazdıq və heç nə tapmadıq."

2. Muhəmməd ibn İmarə atasından, o da Cabir ibn Yezid Caufidən belə deməsini nəql edir: "həzrət Baqirdən (ə) soruşdum: "Əmirəl-möminin (ə) harada dəfn edilib?" Buyurdu: "Dan yeri sökülməmişdən qabaq Qəriyyeyndə dəfn edilib. O həzrətin övladları Həsən, Hüseyn və Muhəmməd (Hənəfiyyə) və (qardaşı oğlu) Abdullah ibn Cəfər (bu dörd nəfər) qəbrə daxil olub (və cənazəni qəbrə qoyub).

[1] İrşad, Mufid (r), c. 1, s. 8-9

3. Yəqub ibn Yezid (öz sənədi ilə) nəql edir ki, Hüseyn ibn Əliyə (ə) dedilər: "Siz Əmirəl-möminini harada dəfn etdiniz?" Buyurdu: "Onu gecə ilə götürüb Əşəs məscidi tərəfdən apardıq və gedib Qəriyyeynin kənarında Kufənin arxasına çatdıq və orada dəfn etdik."[1]

İmamın (ə) qəbrinin Harunun zamanında üzə çıxması

Muhəmməd ibn Zəkəriyya (öz sənədi ilə) Abdullah ibn Hazimdən belə deməsini nəql edir: "Bir gün Harun ər-Rəşid ilə öv etmək üçün Kufədən kənara çıxdıq və gedib Qəriyyeyn və Səviyyəyə (Kufənin arxasında yer adıdır. Əbu Musa Əşərinin qəbri oradadır) çatdıq. Orada ahular var idi. Ov iti və ov qartallarını onlara tərəf göndərdik. Onlar ahuları ovlamaq üçün çox çalışdılar (amma onları ovlaya bilmədilər). Ahular qaçıb orada olan təpənin üstünə çıxdılar və ora sığındılar. (Bir də gördük ki,) qartallar həmin təpənin kənarında yerə endilər və itlər geri döndülər. Harun bu hadisədən çox təəccübləndi. Sonra ahular təpədən düşdülər. Qartallar onlara tərəf uçdular və itlər onlara tərəf qaçdılar. (Bunu görən) ahular yenidən həmin təpənin üstünə çıxdılar. Qartal və itlər (onları buraxıb öz yerlərinə) qayıtdılar. Bu hadisə üç dəfə təkrar oldu.

Harun ər-Rəşid dedi: "Tez gedin (bu ətrafda) kimi tapsanız mənim yanıma gətirin. (Çünki belə məlum olur ki, bura müqəddəs yerdir və orada sirlər yatır.)" (Deyir: Biz orada gəzməyə başladıq.) Bəni Əsəd qəbiləsindən bir qoca kişi gördük. Onu Harun ər-Rəşidin yanına gətirdik. Harun ona dedi: "Mənə danış görüm bu təpə nədir?" Qoca dedi: "Əgər mənə toxunmasan danışaram." Harun dedi: "Allahın əhd-peymanı səninlədir (Allahla əhd bağlayıram ki,) səni yerindən çıxarmayacağam və səni incitməyəcəyəm."

Qoca dedi: "Atam öz atalarından belə demələrini nəql edirdi ki, bu təpədə Əli ibn Əbu Talibin (ə) qəbri yerləşir və Allah-təala oranı toxunulmaz, möhtərəm məkan edib. Ora sığınan hər bir şey amanda olar." Sonra Harun ər-Rəşid miniyindən düşdü və su istəyib dəstəmaz aldı. Həmin təpənin yanında namaz qıldı, özünü oranın torpağına sürtdü, ağladı və sonra qayıtdıq.

(Bu hədisin ravilərindən biri) Muhəmməd ibn Aişə deyir: "Mən bu hekayəti (Abdullah ibn Hazimdən eşitdim, amma) qəbul edə bilmədim. Qəlbim onu qəbul edə bilmirdi. Nəhayət bir neçə gün keçdi və mən həcc ziyarəti üçün Məkkəyə getdim. Orada Yasir – Harunun yəhər ustası ilə görüşdüm. O həmişə təvaf edib qurtardıqdan sonra gələr və bizimlə oturardı. (Bir gün Yasir ordan-burdan) danışmağa başladı və nəhayət dedi: "Bir gecə Harun ilə birlikdə Məkkədən qayıdırdıq. Kufəyə çatmışdıq. Harun mənə dedi: "Ey Yasir, İsa ibn Cəfərə (Bəni-Abbasın nümayəndələrindən birinin adıdır) de ki, miniyinə minsin (və getməyə hazırlaş-

[1] İrşad, Mufid (r), c. 1, s. 22-23

sın). Onlar hər ikisi miniklərinə mindilər və mən də onlarla birlikdə miniyə mindim. (Yola düşdük və) gəlib Qəriyyeynə (Əmirəl-möminiининin (ə) qəbrinin olduğu yerə) çatdıq. İsa ibn Cəfər düşüb yatdı. Lakin Harun ər-Rəşid təpənin üstünə çıxdı, namaz qıldı. Qıldığı hər iki rükət namazda dua edir, ağlayır, özünü təpənin torpağına sürtür və belə deyirdi: "Əmioğlu, and olsun Allaha, mən sənin İslamdakı fəzilət və üstünlüyünü, öncüllüyünü bilirəm. And olsun Allaha, mən elə sənin (həmin parlaq keçmişin və çoxsaylı səylərinin) bərəkətindən bu məqama çatmış, xilafət taxtında oturmuşam. Sən dediyim kimisən. Lakin sənin övladların məni incidir, mənə qarşı çıxırlar." (Bu sözləri deyir) sonra qalxıb yenidən namaz qılır, həmin sözləri bir də təkrar edir, dua oxuyur, ağlayırdı. Beləcə səhər açıldı.

Sonra mənə dedi: "Ey Yasir, İsanı yuxudan oyat." Mən onu yuxudan oyatdım. Harun ona dedi: "Ey İsa, qalx və əmin oğlunun qəbrinin yanında namaz qıl." İsa dedi: "Bu mənim hansı əmimin oğludur?" Harun dedi: "Bu, Əli ibn Əbu Talibin qəbridir." Sonra İsa dəstəmaz alıb namaz qılmağa başladı. Onların hər ikisi səhər açılana kimi namaz qıldılar. Mən dedim: "Ya əmirəl-möminin, səhərdir." Sonra miniyimizə minib Kufəyə qayıtdıq."[1]

Səduq "Əmali"də o həzrətin şəhid olması barədə belə deyir:

Əbu Həmzə Sumali, Həbib ibn Əmrdən belə deməsini nəql edir: "Əmirəl-möminin (ə) şəhid olmamışdan qabaq o həzrətin yanına getdim. O həzrətin yarasını açdılar. Mən dedim: "Ya Əmirəl-möminin, yaranız elə də ağır deyil."

Buyurdu: "Ey Həbib, mən bu saatlarda sizin yanınızdan gedəcəyəm." Mən bu sözü eşidib ağladım. İmamın (ə) orada oturmuş qızı Ümmü Gülsüm də ağladı.

İmam (ə) ona dedi: "Qızım, niyə ağlayırsan?"

Mən dedim: "Bu saatlarda sizi itirəcəyimizə görə."

İmam (ə) buyurdu: "Qızım, ağlama! And olsun Allaha əgər mən görənləri sən də görsən, ağlamazsan."

Mən dedim: "Ya Əmirəl-möminin, nə görürsünüz?"

Buyurdu: "Ey Həbib, göyün mələklərinin, Allahın peyğəmbərlərinin birbirinin ardınca gəlməsini görürəm. Bu da qardaşım Muhəmməddir (s), yanımda oturub və buyurur ki, bizim yanımıza gəl, qarşıda sahibi olacağın şey indi olduğundan daha yaxşıdır."

Həbib ibn Əmr deyir: "Mən hələ o həzrətin yanından getməmişdim ki, o, dünyasını dəyişdi."

[1] İrşad, Mufid (r), c. 1, s. 24-25

İmam Həsənin (ə) Əmirəl-mömininin (ə) şəhid olduğu gün oxuduğu xütbə

Yuxarıdakı hədisin davamında deyilir:

"Səhərisi gün imam Həsən (ə) xütbə oxudu və həmin xütbədə Allaha həmd-sənadan sonra belə buyurdu:

"Camaat, bu gecə Quran nazil olub. Bu gecə İsa ibn Məryəmi göyə aparıblar. Bu gecə Yuşə ibn Nun öldürülüb. Bu gecə atam Əmirəl-möminin bu dünyadan köçdü. And olsun Allaha, cənnətə getməkdə atamı vəsilərin nə ondan əvvəl olanlarından biri ötüb, nə də ondan sonra gələnlər. Peyğəmbər (s) onu hansı döyüş məmuriyyətinə göndərirdisə, Cəbrail onun sağ tərəfində, Mikail sol tərəfində vuruşurdu. O, özündən sonra qızıl-gümüş qoymadı. Yalnız beytül-maldan olan payından artıq qalmış yeddi yüz dirhəmi var idi ki, onu da ailəsi üçün qulluqçu almaq üçün toplayırdı."[1]

"Fərhətul-qəra" kitabında İmam (ə) üçün qazılmış müxtəlif qəbirlər barəsində belə yazılıb:

Öz sənədi ilə Əmirəl-möminindən (ə) nəql edir ki, o həzrət (ə) imam Həsənə (ə) onun üçün dörd cür qəbir qazılmasını vəsiyyət etmişdir:

1. Kufə məscidində
2. Qəriyyədə (indiki yerdə)
3. Cödə ibn Hübeyrənin evində
4. Rəhbədə (Kufənin məhəllələrinin birində)

Bunu ona görə belə edirdilər ki, düşmənləri o həzrətin (ə) qəbrinin yerini bilməsin.[2]

İmamın (ə) dəfn mərasimində iştirak edənlər

"Fərhətul-qəra" kitabında öz sənədi ilə Muhəmməd ibn Saib Kəlbidən nəql edir ki, həmin gecə dəfn mərasimində imam Həsənlə imam Hüseyn (ə), Muhəmməd ibn Hənəfiyyə, Abdullah ibn Cəfər və və həzrətin ailəsindən olan daha bir neçə nəfər iştirak edib.

14 Əmirəl-mömininin (ə) övladları

Şeyx Mufidin (r) sözlərinə əsasən Əmirəl-mömininin (ə) iyirmi yeddi övladı olub. İbn Şəhr Aşub deyir: "O həzrətin övladlarının sayı iyirmi beş olub. Bəziləri onların sayını otuz beşə kimi artırıblar."

[1] Əmali, Səduq, s. 192

[2] Fərhətul-qəra, s. 22-23

İmamın (ə) övladlarının anası o həzrətin (ə) ailə qurduğu müxtəlif xanımlar olub. Sıra ilə o həzrətin (ə) övladları belə olub.

1-5: İmam Həsən (ə), İmam Hüseyn (ə), Zeynəb, Ümmü Gülsüm, Möhsin. Bunlar həzrət Fatimədən (ə) olublar.

6: Muhəmməd ibn Hənəfiyyə. Onun anası Cəfər ibn Qeysin qızı Xaulə olub.

7-10: Əbülfəzl Abbas (ə), Cəfər, Osman, Abdullah. Bunların anası Həzam ibn Xalid Kəlabiyyənin qızı Fatimə Ümmülbənin olub və imamın (ə) bu övladlarının hamısı Kərbəlada şəhid olub.

11: Yəhya ibn Əli. Onun anası Əsma bint Ümeys olub. "Mənaqib" kitabında yazılıb ki, Yəhya Əmirəl-möminin (ə) sağlığında dünyasını dəyişib. "Ədəd" kitabında qeyd edilib ki, İmamın (ə) Əsmadan iki oğlu olub. Onlardan birinin adı Yəhya, digərinin adı isə Aun olub.

12-13: Muhəmməd Əsgər və Abdullah. Bunların anası Məsud Darəmiyyənin qızı Leyla olub. Şeyx Mufidin (r) nəql ediyi rəvayətə əsasən bu iki cənab da Kərbəlada, böyük qardaşlarının qarşısında şəhid olublar. Lakin "Nahiyyə müqəddəsə" ziyarətnaməsində Abdullahın adı çəkilmir. Təff hadisəsi şəhidlərinin sırasında beş nəfərin adı qeyd edilmişdir.

14-15: Ömər Ətrəf və Rüqəyyə. Bunların anası Rəbiənin qızı Həbibə olub. Bu iki uşaq əkiz olub.

Yazılanlara əsasən Ömər Ətrəf Əmirəl-möminin (ə) övladlarının ən kiçiyi olub. O, Əmirəl-möminin (ə) son övladı olub və səksən beş yaşında dünyasını dəyişib.

16-17: Ümmülhəsən və Rəmlə. Bunların anası Ürvə ibn Məsud Səqəfinin qızı Ümmü Səid olub.

18-28: Nəfisə, Zeynəb Suğra, Rüqəyyə Suğra, Ümmü Hani, Ümmü Kiram, Cəmanə, Əmamə, Ümmü Sələmə, Məymunə, Xədicə, Fatimə. Bunlar İmamın (ə) digər xanımlarından olmuş övladlarıdır.

Rəvayətlərdə nəql edilir ki, imam Əlinin (ə) Fatimə adlı qızına Allah-təala uzun ömür əta edib və o, həzrət Sadiqin (ə) zamanına kimi yaşayıb.[1]

Əmirəl-möminin (ə) nəsli o həzrətin beş övladından, yəni imam Həsən, imam Hüseyn, Muhəmməd Hənəfiyyə, Əbülfəzl Abbas və Ömər Ətrəfdən artıb. O həzrətin (ə) digər oğlanlarının övladı qalmayıb.

Biz Allahın istəyi ilə bu kitabdan sonra imam Həsən (ə) və imam Hüseyn (ə) barəsində ayrı-ayrı cildlərdə danışacağıq. Bundan öncə də "Həzrət Fatimənin (s) həyatı" kitabında həzrət Zeynəb və Ümmü Gülsüm barəsində danışmışıq. Burada da o həzrətin digər övladları, xüsusilə cənab Əbülfəzl Abbas və Muhəmməd Hənəfiyyə barəsində bəzi məqamlara toxunacağıq.

[1] Biharul-ənvar, c. 42, s. 106

Həzrət Əbülfəzl Abbas (ə)

"Fərsanul-həyca" və digər kitablarda yazılanlara əsasən həzrət Əbülfəzl (ə) hicrətin iyirmi altıncı ilində Şəban ayının dördündə Mədinədə dünyaya gəlib. Şəhid olanda onun otuz dörd yaşı olub.

Deyirlər ki, o həzrətin anası Kəlab qəbiləsindən olan Həzam ibn Xalidin qızı Fatimə olub və Ümmülbənin kimi məşhurlaşıb. Lakin "Qamus ər-rical" kitabının müəllifi yazır: "Alimlərin rəvayətlərindən belə məlum olur ki, Ümmülbənin bu möhtərəm xanımın künyəsi deyil əsl adı olub." Daha doğrusunu Allah bilir.

"Ümdətut-talib" kitabında nəql edilir ki, Əmirəl-möminin (ə) ərəb millətinin əsl-nəsəb elmindən xəbərdar olan qardaşı Əqilə buyurub:

"Ataları şücaətli olmuş bir qadın axtar tap, onunla evlənim və mənə şücaətli və qorxmaz oğul doğsun."

Əqil o həzrətə (ə) deyir: "Ümmülbənin Kəlabiyyə ilə evlən. Mən ərəblərin arasında onun ata-babalarından şücaətli birini tanımıram."

O həzrətin ləqəbləri Əbülfəzl, Əbülqürbə olub. Əbülfəzl gözəl simaya malik olduğu üçün "Qəməre Bəni-Haşim" (Bəni-Haşimin ayı) kimi məşhurlaşıb.

Əbülfərəc "Məqatilut-talibin" əsərində həzrət Əbülfəzi belə təsvir edilir:

"Abbas ibn Əli gözəl simalı bir şəxs idi. Ata minəndə mübarək ayaqları yerə kimi uzanırdı. Ona "Bəni Haşimin ayı" deyirdilər. Aşura günü Hüseynin (ə) qoşunun bayrağı onun əlində olub."

Əbülfəzlin (ə) fəzilətlərindən bir neçə nümunə

Ürəkyandırıcı və qəmli Kərbəla hadisəsini mütaliə edən və ya eşidən hər bir şəxs həzrət Əbülfəzlin məqamının əzəmətini, onun fədakarlıq, şücaət, qəhrəmanlıq və mərdliyini yaxşı bilir.

Tasua günü günortadan sonra Übeydullah tərəfindən həzrət Əbülfəzlə amannamə (toxunulmazlıq məktubu) gətirəndə o həzrət belə buyurub:

"Bizim sizin amanınıza ehtiyacımız yoxdur. Allahın amanı Süməyənin oğlunun amanından daha yaxşıdır!"

O, həmin amannaməni gətirmiş Şümrə belə deyir:

"Allah sənə və sənin gətirdiyin amannaməyə lənət etsin! Bizə aman verirsiniz, amma Peyğəmbər balasına aman vermirsiniz?!"[1]

İmam Hüseyn (ə) öz yoldaşlarına "...mən sizin hamınıza getmək icazəsi verirəm. Siz hamınız getməkdə azadsınız və mənim sizin boynunuzda beyətim yoxdur..." buyuranda həzrət Əbülfəzl (ə) danışmağa başlayaraq deyir:

[1] Digər bir rəvayətdə həzrət Abbasın belə buyurması nəql edilir: "Ölәsən səni! Nə pis amannamə gətirmisən bizə, ey Allahın düşməni! Bizə əmr edirsən ki, öz qardaş və ağamız Hüseyni (ə) buraxıb lənətliyin oğlu lənətliyin itaətinə daxil olaq?!" (Müntəxəbut-təvarix, s. 258)

"Bu işi nə üçün görək? Səndən sonra sağ qalmaq üçün?! Əsla! Allah bizə o günü göstərməsin!..."

O, Aşura günü misilsiz şücaət və qəhrəmanlıqla düşmənin Fəratın yolunu dəmir sədd kimi kəsmiş neçə minlik qoşununu yarır və özünü çayın ortasına çatdırır. Olduqca çox susuz olmasına baxmayaraq qardaşı ilə həmrəylik xatirinə su içmir və ovucuna doldurub dodaqlarına kimi qaldırdığı suyu yenidən çaya boşaldır və çaydan susuz dodaqlarla çıxır...

Bəlkə də onun bütün fəzilətlərini imam Hüseynin (ə) Tasua günü axşamüstü ona dediyi bir cümlədə xülasə etmək olar. Çünki həmin qısa bir cümlə bütün fəzilət və kamillikləri əhatə edir. Həmin cümləni Şeyx Mufid (r) və başqaları öz kitablarında nəql ediblər. Yazırlar ki, Tasua günü günortadan sonra Übeydullahın döyüş əmri Sədin oğluna çatanda, o, müharibəyə başlamaq üçün Kufə qoşununu imam Hüseynin (ə) çadırına tərəf hərəkət etdirir...

Həmin vaxt imam Hüseyn (ə) qardaşı Abbasa buyurur:

"Canım sənə qurban, qardaş, ata min, onların yanına get və onlara de ki, sizə nə olub, nə istəyirsiniz? Onların bu tərəfə gəlmələrinin səbəbini soruş..."

Bunun ardınca həzrət Əbülfəzlin iyirmi süvari ilə Sədin oğlunun yanına gəlməsini və onların söhbətlərini nəql edirlər. Biz Allahın istəyi ilə öz yerində həmin hadisəni ətraflı bəyan edəcəyik.

İmam Hüseynin (ə) həzrət Əbülfəzl şəhid olan zaman onun başı üstündə buyurduğu və bundan başqa heç yerdə demədiyi o məşhur söz, həzrət Abbasın məqam və əzəmətinin böyüklüyünü göstərir. İmam (ə) buyurdu:

"İndi belim sındı, çarəm azaldı."

Həzrət Əbülfəzl (ə) imam Səccadın (ə) dili ilə

Şeyx Səduq (r) "Xisal" kitabında öz sənədi ilə imam Səccadın (ə) belə buyurmasını nəql edib:

"Allah Abbas ibn Əliyə (ə) rəhmət eləsin! Fədakarlıq etdi və bəla ilə sınandı. Öz canını qardaşının yolunda o yerə kimi fəda etdi ki, iki qolu kəsildi. Allah bunun yerinə ona Cəfər ibn Əbu Talibə əta etdiyi kimi iki qanad verib və o, cənnətdə mələklərlə birgə uçur... Həqiqətən Abbasın Allah-təalanın yanında elə yüksək məqamı var ki, Qiyamət günü bütün şəhidlər ona qibtə edəcəklər."

İmam Sadiq (ə) həzrət Əbülfəzlin (ə) ziyarətnaməsində belə buyurur:

Bəlkə də həzrət Əbülfəzl barəsində ən yaxşı fəzilətləri İbn Qauliveyhin İmam Sadiqdən (ə) nəql etdiyi ziyarətnamadə eşidəcəksiniz. İmam (ə) buyurur: "Bu uca fədakarlıq və şəhadət nümunəsinin məqbərəsinin qapısında dayananda belə de:

"Allahın, Allah dərgahına yaxın mələkləri, peyğəmbərlərin, saleh və ləyaqətli bəndələrin, bütün şəhidlərin, doğruçuların salamı – səhər açılanda və axşam olanda pak salamlar – olsun sənə ey Əmirəl-möminin oğlu!..."

Beləcə rəvayət edir və gəlir çatır bu yerə ki, o həzrətin ziyarətində belə de:

"Salam olsun sənə ey Allahın, Peyğəmbərin, Əmirəl-möminin, Həsən və Hüseynin saleh, ləyaqətli, itaətəkar qulu... Şəhadət verirəm və Allahı şahid gətirirəm ki, sən Bədr əhlinin və Allah yolunda cihad edənlərin – Allah düşmənləri ilə cihadda xeyirxahlıq edən və Allah övliyalarına kömək etməkdə heç bir səhlənkarlıq etməyən və öz dostlarını möhkəm müdafiə edən kəslərin yolunu getmisən.

Allah səni mükafatlandırsın, sənə ən üstün, ən çox, ən kamil və ən yetərli mükafatı versin, öz beyətlərinə sadiq qalan, Onun dəvətini qəbul edən və əmr sahiblərinə tabe olan kəslərin birinə verdiyi ən zəngin mükafatı!

Şəhadət verirəm ki, sən xeyirxahlıq etməkdə səhlənkarlıq etməmisən, son həddə çalışmısan. Buna görə də Allah səni şəhidlərlə məhşərə gətirsin və sənin ruhunu xoşbəxtlərin ruhu ilə birgə etsin, öz cənnətlərində sənə ən geniş, ən üstün mənzilləri əta etsin, sənin adını yüksək məqam sahiblərinin içində ucaltsın, səni peyğəmbərlərlə, doğruçularla, şəhidlərlə, ləyaqətlilərlə məhşərə gətirsin! Onlar necə də gözəl yoldaşlardır...

Şəhadət verirəm ki, sən süstlük etməmisən və əlindən gələni etmisən, düşmənin qabağından geri çəkilməmisən. Həqiqətən bu yola kamil bəsirət və gözüaçıqlıqla qədəm qoyub getmisən və salehlərə, ləyaqətlilərə tabe olub peyğəmbərlərin və Rəbbinin elçilərinin arxasınca getmisən..."

İmam Sadiq (ə) ziyarətin sonunda və namazdan sonra həzrət Əbülfəzl (ə) barəsində bu duanı oxumağı öyrədir:

"Şəhadət verirəm ki, həqiqətən sən Allah, Peyğəmbər və qardaşın üçün xeyirxahlıq etmisən. Sən necə də gözəl kömək edən qardaş idin...! Necə də gözəl səbirli, (Allah yolunda) cihad edən, himayə edən, yardımçı və qardaşın üçün müdafiəçi idin! Allahın əmrini qəbul etdin, başqalarının meyl göstərmədikləri şeyə – böyük mükafat və gözəl ilahi sənaya meyl göstərdin..."

* * *

Əgər kimsə bizim sitat gətirdiyimiz bu bir neçə cümlə ziyarətnaməyə diqət etsə, həzrət Əbülfəzlin əzəmət və böyüklüyünü, məqamının ucalığını dərk edər və bizim əlavə izah verməyimizə ehtiyac qalmaz.

Həzrət Əbülfəzl (ə) "Nahiye müqəddəsə" ziyarətnaməsində

Həzrət Əbülfəzlin (ə) qardaşına yardımı "Nahiyə müqəddəsə" ziyarətnaməsində də qeyd edilmişdir. Buyurur:

"Salam olsun Əbülfəzlə, Əmirəl-möminin oğluna! Öz canı ilə qardaşına yardım edənə, keçmişindən gələcəyinə azuqə götürənə, özünü qardaşına fəda edənə, öz canını qardaşına sipər edənə, onun yolunda lazımınca səy göstərənə..."

Həzrət Əbülfəzl (ə) müasir qələm əhlindən birinin dili ilə

Müasir ərəb yazıçısı Baqir Şərif Qüreyşi "Həyatul-imam Hüseyn ibn Əli (ə)" kitabında yazır: "Nə keçmiş, nə də indiki insanlıq tarixində Əbülfəzlin öz əziz qardaşı imam Hüseynə (ə) münasibətdəki qardaşlığı kimi sədaqətli və vəfalı qardaşlıq nümunəsi tapmaq mümkün deyil. həqiqəqətn o, bütün insani dəyərləri və alicənablıq nümunələrini əhatə etmişdir.

Bu misilsiz qardaşlığın ən bariz nümunəsini o həzrətin fədakarlığında görmək olar. Çünki həzrət Əbülfəzl öz qardaşı barəsində ən böyük fədakarlığı göstərmiş, öz canını ona fəda etmiş, ən çətin bəlalar, ilahi sınaqlar və hadisələr zamanı o həzrətə yardım etmişdir. Bu böyük yardımı imam Zeynülabidin (ə) çox dolğun şəkildə bəyan edərək belə buyurmuşdur:

"Allah Abbas ibn Əliyə (ə) rəhmət eləsin! Fədakarlıq etdi və bəla ilə sınandı."

Bu riyasız və səmimi qardaşlıq bütün insanları heyrətə salmış, bütün zamanlarda misala çevrilmişdir. O həzrətin nəvələrindən biri, yəni Fəzl ibn Muhəmməd[1] bu barədə belə deyir:

"Müsibətinə ağlamağa ən layiq kəs odur..."

Bu yazıçı şair Kümeytdən digər şeirlər nəql etdikdən sonra deyir:

"Həqiqətən Əbülfəzl yüksək təqva və dinə malik idi və nur onun gözəl simasında elə bərq vururdu ki, ona "Bəni-Haşimin ayı" ləqəbi vermişdilər. O, mübarizə baxımından da İslamın adlı-sanlı pəhləvanlarından olub. Əbülfəzl (ə) hətta böyük cüssəli ata minəndə də mübarək ayaqları yerə çatırdı...

Şücaət, pəhləvanlarla döyüşmək ona alicənab atasından miras qalmışdı...

İmam Hüseyn (ə) Kərbəla hadisəsində öz qoşununun başçılığını ona həvalə etmiş, döyüş bayrağını ona tapşırmışdı. O da həmin bayrağı lazımınca qorudu, onu müdafiə etdi və çox ağır döyüşlər apardı. Əbülfəzl (ə) qardaşının tənhalığını, o həzrətin ailə üzvlərinin öz canlarını Allah yolunda qurban verib şəhid olmalarını görəndə qardaşının yanına gəlib öz nurani yolunu davam etdirmək üçün icazə istədi. Lakin imam Hüseyn (ə) ona icazə verməyib dərdli səslə belə buyurdu:

"Sən mənim bayraqdarımsan!"

Həqiqətən də nə qədər ki, Əbülfəzl sağ idi, imam Hüseyn (ə) özündə başqa bir güc hiss edirdi. Əbülfəzl imam Hüseynin (ə) kənarında onu müdafiə edən bir qoşun kimi idi... Lakin Əbülfəzl bu barədə çox israr edərək buyurdu:

[1] O, Fəzl ibn Muhəmməd ibn Həsən ibn Übeydullah ibn Abbasdır.

“Həqiqətən bu münafiqlərdən ürəyim sıxılır və onlardan intiqam almaq istəyirəm.”

Bəli, Əbülfəzlin ürəyi sıxılırdı və o, udluz kimi parlayan qardaşlarının, qardaşı oğullarının, əmisi oğlanlarının tikə-tikə doğranmalarını, Kərbəla torpağının üstünə düşmələrini görəndə onların görüşünə getməyə şövqlənir, onların qanının intiqamını almaq hissi onun canını yandırırdı. O, imam Hüseyndən (ə) susuzluqdan yarımcan olub yerə uzanmış məsum körpələrə su gətirməyə getmək üçün icazə aldı və sonra insanlığını itirmiş düşmən qoşununun qarşısına gəlib İbn Sədə xitab edərək buyurdu:

“Ey Sədin oğlu! Hüseyn (ə) Peyğəmbərin qızının oğludur. Siz onun səhabə və ailəsini qətlə yetirdiniz, onun ailə-uşaqları susuzdurlar. Gəlin onları sirab edin. Susuzluq onların ürəklərini yandırıb...”

Əbülfəzlin atəşin və canları yandıran sözləri insanlıqdan uzaq o dəstəni fikirə qərq etdi və onların bəzisi ağladı. Nəhayət o alçaq və xəbis kəs, yəni Şimr ibn Zilcövşən yaxınlaşaraq dedi:

“Ey Əbu Turabın oğlu! Əgər bütün yer üzünü su bürüsə və onun hamısı bizim ixtiyarımızda olsa belə, Yezidə beyət edənə kimi onun bir damcısını da sizə verməyəcəyik...”

Bu nalayiq sözü eşidən Əbülfəzl qardaşının yanına qayıtdı və o bədbəxt dəstənin azğınlıq və həddini aşmasını o həzrətə danışdı. Bu vaxt o, imam Hüseynin (ə) məsum körpələrinin çadırda “su, su” deyə fəryad qoparmalarını eşitdi.

Bu dəhşətli və ürək ağrıdan mənzərəni – dodaqları qurumuş, rəngləri qaçmış və susuzluqdan yarımcan olmuş körpələri görən Əbülfəzlin ürəyi yandı və o, dərhal öz iti atına minərək su tuluqlarını çiyininə atdı, Fərat çayı istiqamətinə hərəkət edərək misilsiz şücaət göstərib düşmənin Fərat çayının ətrafına çəkdiyi insan səddini yardı, Xeybəri fəth edən atasının şücaətlərini onların yadına saldı...

Beləcə Fərata daxil oldu və susuzluq onun ürəyini yandırırdı...

Əlini suya salıb ovucunu doldurdu və onu içmək istəyəndə qardaşının, qadınların və uşaqların susuzluqlarını yadına saldı və buna görə də suyu içməyib çaya boşaltdı.

Həqiqətən insanlıq bütün zamanlarda və bütün cəhətlərdə fəzilət və İslam dünyasında tərbiyə almış bu böyük ruhun qarşısında baş əyir... Bu böyük ruh bütün insan nəsillərinə alicənablıq dərsi verib və onun ən uca nümunəsini göstərib.

Doğrudan da zaman və məkan sərhədlərini aşmış və hamını arxada qoymuş bu bənzərsiz fədakarlıq Əbülfəzlin kamilliklərinin ən üstün göstəricilərindəndir. Onun qardaşına hədsiz məhəbbət və bağlılığı onun qardaşından qabaq su içməsinə mane oldu.

Hansı fədakarlıq bundan üstün ola bilər?! Hansı fədakarlıq bundan saf və xalis ola bilər ki, o, öz canını qardaşının canına birləşdirib, öz ruhunu qardaşının ruhuna calaq vurub və özü ilə qardaşının vücudu arasında ayrılıq və ikilik hiss etmir.

Bəli, Bəni-Haşim nəslinin bu fəxri su tuluğunu doldurub çadırlara tərəf yollandı. Su tuluğu onun üçün həyatdan da qiymətli idi. O, bu yolda düşmənlə möhkəm vuruşdu və insan cildinə girmiş o yırtıcılar onu mühasirəyə aldılar ki, Əhli-beytə su çatdıra bilməsin...

Şücaət meşəsinin aslanı olan Əbülfəzl qılıncını qınından çıxardı və onlara rəzalətli ölümü daddırdı. O, düşmənin başını biçir, bir hərəkətlə onları yerə sərirdi.

Əbülfəzl həmin vaxt misilsiz şücaət və qəhrəmanlıq göstərdi. O, ölümdən nəinki çəkinmirdi, əksinə yer üzündə ictimai ədalət öncülü olan qardaşını və haqqı, həqiqəti müdafiə etmək üçün təbəssümlə onun pişvazına gedirdi. O, bu şərəfə də nail olmuşdu ki, Peyğəmbərin (s) susuz Əhli-beytini sirab etmək üçün su tuluğuna malik idi...

Batil qoşun Əbülfəzlin bu misilsiz şücaətini görüb məğlub olur, bu mənzərənin onlarda yaratdığı qorxu və vahimə meydandan qaçmalarına səbəb olurdu. Çünki Əbülfəzl təvəssüredilməz bir şücaət göstərirdi. Onlar bildilər ki, Əbülfəzlin qarşısında müqavimət göstərə bilməyəcəklər və onunla təkbətək döyüşmək mümkün olmayacaq...

Bu vaxt o alçaq, rəzil və qorxaq, yəni Zeyd ibn Rəqad Cühəni xurma ağaclarının birinin arxasında gizləndi və namərdcəsinə arxadan o həzrətin sağ qolunu kəsdi. Əbülfəzl sağ əlinin kəsilməsinə əhəmiyət verməyərək irəliləyirdi.

Əbülfəzl (ə) oradan çox uzaqlaşmamışdı ki, digər bir rəzil, yəni Həkim ibn Tüfeyl Tai pusquda duraraq o həzrətin sol qolunu da kəsdi. Bəzi mənbələrdə yazırlar ki, Əbülfəzl (ə) həmin vaxt su tuluğunun bağını dişləri ilə tutdu və suyu susuz Əhli-beytə çatdırmağa çalışdı. Onun bədənindən çoxlu qan axır, kəskin ağrılar hiss edirdi. Digər tərəfdən də susuzluq ona qalib gəlirdi...

Bu, insanlıq tarixində bir insanın çata bildiyi ən yüksək vəfadarlıq, məhəbbət və sevgi dərəcəsidir...

O, öz insani hədəfinə çatmaq istiqamətində çalışırdı ki, birdən su tuluğuna nəhs bir ox dəydi və su yerə töküldü. Əbülfəzli – bu qüvvətli şücaət sahibini qəmkədər bürüdü... Çünki onun üçün suyun yerə tökülməsi bədəninə dəymiş qılınclardan, nizələrdən daha ağır və ağrılı idi... Bu vaxt digər bir murdar irəli çıxaraq gürz ilə onun başından vurdu və o həzrət atdan yerə yıxıldı. Əbülfəzl həmin vaxt qardaşına öz salamlarını göndərərək qardaşı ilə son vidasını edib buyurdu:

"Salam olsun sənə, ey Əba Abdullah!"

Bu ürəkağrıdan xəbər imam Hüseynə (ə) çatdı və onun mübarək qəlbini ağrıtdı. O, qəm-qüssə dolu qəlblə, beli əyilmiş halda meydana tərəf hərəkət etdi və öz iti atı ilə düşmənin sırasını yararaq özünü ruhu bədənindən çıxmaqda olan Əbülfəzlə çatdırdı. Özünü qardaşının mübarək bədəninin üstünə ataraq onu iylədi, göz yaşlarını təmizləyib parçalanmış ciyər yanğısını sözlərlə ifadə edən şəxs kimi belə buyurdu:

“İndi belim sındı, çarəm azaldı.”

İmam (ə) Əbülfəzlin (ə) doğranmış bədəninə baxır və onun o sədaqətli qardaşlığını, misilsiz vəfa və bənzərsiz şücaətini yadına salırdı... Bütün arzularını bada getmiş görür və o böyük kədər yükü altında təkcə qardaşına qovuşacağı, ondan sonra bir neçə andan çox yaşamayacağı ümidi ilə təskinlik tapırdı. Həmin bir neçə an imam Hüseyn (ə) üçün neçə il kimi keçirdi və o, Əbülfəzldən qabaq ölməsini arzulayırdı.

İmam (ə) qardaşı Əbülfəzlin cənazəsinin yanından qalxıb çadırlara tərəf getdi və həmin vaxt Səkinə atasının pişvazına çıxaraq dedi:

“Əmim haradadır?”

Göz yaşları və qəm-qüssəyə qərq olmuş imam Hüseyn (ə) ona əmisinin şəhid olması xəbərini verdi. Bu qəmli xəbər Peyğəmbər (s) qızı Zeynəbi-Kübraya çatanda, o, özündən getdi və əlini pərişan qəlbinin üstünə qoyaraq “vay qardaş, vay Abbas, vay səndən sonrakı vəziyyətimizə!” deyib fəryad qopardı.

İmam (ə) da müsibətə düçar olmuş bacısı ilə birlikdə qardaşına növhə oxudu və nalə edərək belə buyurdu:

“Vay səndən sonrakı vəziyyətimizə, ey Əbülfəzl!”

Bəli, imam Hüseyn (ə) qardaşı Əbülfəzldən sonrakı tənhalıq və kimsəsizliyini dərk edirdi. Çünki o, bütün qardaşlıq vəzifələrinə əməl etmiş və bu barədə heç nəyi əsirgəməmiş bir qardaşını itirmişdi.

Sonsuz sayda salam olsun sənə və sənin gözəl və ibrətamiz davranışına ey Əbülfəzl! Öz uca mənzilinə getdin və qarşında olan böyük yolu mərdliklə qət etdin həqiqətən sən Allah dərgahında ən böyük, ən nurlu və ən fədakar şəhidlərdənsən!

Həzrət Əbülfəzlin (ə) övladları

Ümumilikdə tarixi mənbələrdən belə məlum olur ki, həzrət Əbülfəzlin (ə) Übeydullah və Fəzl adında iki oğlu olub. Onların anası Abdullah ibn Abbas ibn Əbdülmüttəlibin qızı Lübabə olub.

Fəzlin uşağı olmadığı üçün həzrət Əbülfəzlin nəsli yalnız Übeydullah tərəfdən artıb. Öz zəmanəsinin alimlərindən olmuş Übeydullah ibn Abbasın da iki oğlu olub və onlardan birinin adı Abdullah, digərinin adı isə Həsən olub. Onlardan da Abdullahnı övladı olmayıb və o həzrətin nəsli təkcə Həsən ibn Übeydullah tərəfdən artıb.

Həsən ibn Übeydullah ibn Abbasın övladları arasından çoxlu alim və mühəddislər çıxıb və onların adları tarixdə qeyd edilmişdir.

Onlardan biri Abbas ibn Həsən ibn Übeydullah ibn Abbas ibn Əmirəlmöminindir (ə) ki, Xətib Bağdadinin sözlərinə əsasən o, Harunun zamanında Bağdada gəlib və Harun ona ehtiram göstərib. Harundan sonra Məmun da ona hörmət

edib. Xətib Bağdadi yazır: "O, alim və fəsahətli şair olub. Ələvilərin nəzərincə o, Əbu Talibin övladları arasında ən məharətli şair olub."

"Ümdətut-talib" kitabında yazıblar ki, Abbas ibn Həsən ibn Übyedullah atasının böyük oğlu və möhtərəm seyyidlərdən olub. Buxari deyib ki, mən Haşim övladlarının içində ondan fəsahətlisini görməmişəm.

"Müntəxəbut-təvarix" kitabının müəllifinin sözlərinə əsasən Həsən ibn Übeydullahın övladlarından biri də Cəfər ibn Fəzl ibn Həsən ibn Übeydullahdır ki, onun ləqəbi "Qərib" olub. Onun qəbri Şiraz şəhərindədir və Seyid Hacı Qərib kimi məşhurdur.

Onlardan biri də Übeydullah ibn Əli ibn İbrahim ibn Həsən ibn Übeydullahdır ki, Zübeyr ibn Bikarın sözlərinə əsasən alim və çox səxavətli bir şəxs olub. O, öz zəmanəsində dünyanı gəzib və Əhli-beyt fiqhi barədə bir kitab toplayaraq adını "Cəfəriyyə" qoyub. O, sonda Misirə səfər edib və 312-ci ildə orada vəfat edib.

Onlardan biri də İbrahim ibn Muhəmməd ibn Abdullah ibn Həsən ibn Übeydullahdır. "Müntəxəbut-təvarix"in yazdığına əsasən o, Qəzvində öldürülüb və qəbri həmin şəhərdədir.

Həmin nəslin digər bir nümayəndəsi də Həmzə ibn Qasim ibn Əli ibn Həmzə ibn Həsən ibn Übeydullahdır. Onun da qəbri Hillə şəhərinin yaxınlığındadır.

Muhəmməd ibn Hənəfiyyə

Əmirəl-möminin (ə) digər bir övladı şücaət və alicənablıqda məşhur olan Muhəmməd ibn Hənəfiyyədir. Muhəmməd ibn Hənəfiyyənin Cəməl və Siffeyn müharibəsindəki şücaətləri tarix kitablarında qeyd edilmişdir və onlardan bəzilərini biz də aidiyyatı olan fəsillərdə nəql etmişik.

Muhəmməd ibn Hənəfiyyənin anasın Xaulənin hekayəti

Muhəmməd ibn Hənəfiyyənin anasın Əyas ibn Cəfərin qızı Xaulədir və onun əsl-kökü gedib Bəkr ibn Vailə çatır. Buxari, İbn Əbilhədid və başqaları onun nəsəbini nəql ediblər. Xaulə bəlağətli, fəzilət və kamal sahibi olan bir qadın olub. Onun Əmirəl-möminin (ə) evinə necə gəlməsi və o həzrətin onunla necə evlənməsi barədə müxtəlif fərqli fikirlər mövcuddur. İbn Əbilhədid yazır:

"Bəzilərinin nəzərincə Əbu Bəkrin zamanında Xalid ibn Vəlidin Rəddə əhlinin qiyamını yatırmaq üçün göndərildiyi məmuriyyətdə Xauləni əsir götürərək Mədinəyə gətirirlər və Əbu Bəkr onu Əliyə (ə) düşən payın yerinə verib.[1]

[1] Rəddə əhlinin hekayətini əhli-sünnə alimləri və tarixçilərinin bəziləri qısa, bəziləri isə müfəssəl qeyd ediblər. Xalid ibn Vəlid bu məmuriyyət zamanı cinayət törədədək Bəni Yərbu qəbiləsinin kişilərini qəbilə başçısı Malik ibn Nüveyrə ilə bir yerdə qətlə yetirib və elə həmin gecə Malikin gözəl qadın olan həyat yoldaşı ilə yaxınlıq edib. Deyilənlərə əsasən Xaulə də onların arasında olub. Tarixi dəlillərə əsasən Rəddə əhli müsəlman və namaz qılan insanlar olublar, sadəcə Əbu Bəkrin xilafətinə etiraz edirlərmiş.

Digər bir dəstə, o cümlədən Əbülhəsən Əli ibn Muhəmməd ibn Seyf Mədaini deyir:

"Xaulə, Peyğəmbər (s) zamanında əsir düşmüş qadınlardandır. Bu hadisə Peyğəmbər (s) Əmirəl-möminini (ə) dindən çıxmış Bəni-Zəbiyyə qəbiləsini yatırtmaq üçün göndərdiyi məmuriyyətin arxasınca baş vermişdi. Əli (ə) Bəni-Hənəfiyyə qəbiləsindən olan, lakin Bəni-Zəbiyyə qəbiləsinin Bəni-Hənəfiyyə qəbiləsindən qarət edib özləri ilə əsir kimi apardığı Xauləni orada tapıb və Mədinəyə gətirib. Döyüş qənimətləri bölüşdürülən zaman Xaulə Əlinin (ə) payına düşüb və Peyğəmbər (s) Əliyə (ə) buyurub: "Əgər bu qadın sənin üçün bir oğul doğsa, ona mənim adımı və mənim künyəmi qoyarsan." Həzrət Fatimə (ə) dünyasını dəyişdikdən sonra Xaulənin oğlu olub və Əli (ə) onun adını Muhəmməd qoyub və ona Əbülqasim künyəsi verib.

Tədqiqatçıların digər bir dəstəsi – bizim nəzərimizcə də bunların sözü həqiqətə daha yaxındır – deyirlər ki, Əbu Bəkrin xilafəti zamanında Bəni-Əsəd qəbiləsi Bəni-Hənəfiyyə qəbiləsini qarət edib Xauləni əsir götürmüşdü. Onlar Xauləni Mədinəyə gətirib Əliyə (ə) satırlar. Bu xəbər Xaulənin qohumlarına çatır və onlar Mədinəyə Əlinin (ə) yanına gəlib həmin qadının məsələsini və özlərinin onunla qohumluq münasibətlərini Əmirəl-möminin (ə) danışırlar. Əli (ə) da onu azad edir və sonra ona mehriyyə təyin edərək onunla rəsmi şəkildə evlənir. Əhməd ibn Yəhya Bəlazəri özünün "Tarixul-əşraf" kitabında bu nəzəri seçmişdir."

Bunlar İbn Əbilhədidin sözləri idi.

* * *

Müəllif deyir: Buna bənzər söz, yəni üçüncü nəzərin bənzəri Ravəndinin "Xəraic" və İbn Babəveyhin "Rauzə" kitabında imam Baqirdən (ə) və Cabir ibn Abdullah Ənsaridən də nəql edilmişdir. O, geniş bir rəvayətdir və Şeyx Hürr Amili onu "İsbatul-şüdat" kitabında nəql etmişdir. Həmin rəvayətin xülasəsi budur ki, həmin qadını Mədinəyə gətirəndə Təlhə ilə Xalid onu öz paylarına daxil etmək istəyirlər. Lakin Xaulə qəbul etməyərək deyir:

"Mənə o adam sahib ola bilər ki, mənim keçmişimdən, dünyaya gəlməyimdən, anamın sözlərindən və mənim xatirələrimdən xəbər versin." Orada baş verən söhbətlərdən sonra Əmirəl-möminin (ə) Əbu Bəkrin də iştirak etdiyi məclisə gələrək həmin qadının istədiklərini xəbər verir və beləliklə Xaulə o həzrətin (ə) payına düşür. Əmirəl-möminin (ə) onu Əsma bint Ümeysə tapşırır və Əsmadan ona yaxşı baxmasını istəyir. Xaulə qardaşı Mədinəyə gələnə kimi Əsmanın yanında

Onlar Əbu Bəkri Peyğəmbər xəlifəsi saymayaraq Əlini (ə) xəlifə hesab edirmiş. Ömər orada törətdiyi cinayətə görə Xaliddən qisas almaq və onu daşqalaq etmək istəyib. Lakin Əbu Bəkr vasitəçilik edərək Malikin qanbahasını ödəyir, onların əsirlərini qaytarır və deyir: "Xalid burada səhv edib, amma Allahın qılınclarından sayılan Xalidi qınına salmaq olmaz…" Tarixi mənbələrdə həmin hadisə zamanı digər cinayətlərin də törədilməsi nəql edilmişdir. Onları İbn Əbilhədid, İbn Əsir Cəzəri, Təbəri və başqaları öz kitablarında nəql ediblər.

qalır. Yuxarıda qeyd etdiyimiz kimi sonradan Əmirəl-möminin (ə) ona mehriyyə təyin edərək onunla evlənir və onu bir azad qadın kimi özünə həyat yoldaşı edir.

Seyid Mürtəza "Şafi" kitabında yazır: "Xaulə Hənəfiyyə əslində əsir olmayıb. Əmirəl-möminin (ə) onu əsir kimi götürməyib. Çünki həmin qadın İslamı qəbul etməklə öz sahibi olub və azad edilib. Əmirəl-möminin (ə) onu əsir götürmüş adamın əlindən alıb və onunla azad bir qadın kimi evlənib. Bizim alimlərin də arasında "zalım hökümətlərin əsirləri ilə haqq hökumətlərin əsirləri kimi davranmaq olar" deyənlər var...[1]

Müəllif deyir: Seyid Mürtəzanın (r) bu sözü Xaulə Hənəfiyyəni Xalid ibn Vəlid və Əbu Bəkrin əsiri sayıb "Əmirəl-möminin (ə) onların dinə zidd əməllərini bu iş ilə necə təsdiqləyib?" deyə soruşanlara cavabdır.

İbn Əbilhədiddən nəql etdiyimiz digər iki nəzərə əsasən isə daha bu sual-cavaba yer yoxdur.

Ümumilikdə deyilənlərdən aydın oldu ki, hər halda Xaulə Hənəfiyyə Əmirəl-möminin (ə) evinə pul ilə alınan kəniz kimi deyil azad bir qadın olaraq rəsmi şəkildə və mehriyyə təyin edilərək gəlib.

Muhəmməd ibn Hənəfiyyənin özünə gəldikdə isə:

Muhəmməd ibn Hənəfiyyənin özü, onun imam Zeynülabidinin (ə) imamlığı barəsindəki əqidəsi, Keysaniyyənin onun haqqındakı nəzərləri haqda müxtəlif nəzərlər irəli sürülmüşdür. Biz qısa şəkildə onları sizə nəql edəcəyik. Əvvəlcə mərhum Məclisinin (r) Əllamə Hillidən nəql etdiyi kəlama nəzər salın. O deyir:

"Seyid Mühənna Əllamə Hilliyə bir məktub yazıb və həmin məktubda bir sıra məsələləri qeyd edərək onlara cavab verməsini istəyib. Onun yazdıqlarından biri də bu olub ki: "Sizin Muhəmməd ibn Hənəfiyyə barəsindəki əqidəniz nədir? O, Zeynülabidinin (ə) imamətinə etiqad bəsləyib? Digər bir məsələ də budur ki, o, nə üçün imam Hüseynə (ə) kömək etməkdən boyun qaçırıb?"

Əllamə Hilli (r) onun cavabında belə yazıb: "İmamət məsələlərində sübuta yetib ki, imanın sütunları tovhid, ədl, nübuvvət və imamətdən ibarətdir. Muhəmməd ibn Hənəfiyyə, Abdullah ibn Cəfər və onlar kimilərinin məqamları o qədər böyük və ucadır ki, onların həqiqətə zidd əqidəyə malik olmaları və imandan çıxmaları mümkün deyil. Onların imam Hüseynə (ə) yardım etməkdən boyun qaçırmalarına gəldikdə isə qeyd etmək lazımdır ki, tarixi məlumatlara əsasən həmin vaxt Muhəmməd ibn Hənəfiyyə xəstə olub. Həmçinin bu ehtimal da var ki, onlar həmin səfərdə imam Hüseynin (ə) işinin sonunun necə olacağını bilməyiblər və həmin səfərin o həzrətin şəhid olması ilə nəticələnəcəyindən xəbərsiz olublar...[2]

[1] əş-Şafi, s. 215

[2] Sonrakı səhifələrdə nəql edəcəyimiz rəvayətdə görəcəksiniz ki, imam Hüseyn (ə) özü ona Mədinədə qalmaq icazəsi verib.

Muhəmməd ibn Hənəfiyyənin tərifi barəsində də bir sıra rəvayətlər nəql edilmişdir:

1. Mərhum Mamqani və Əllamə Şuştəri öz kitablarında Kişşidən, o da öz sənədi ilə imam Rzadan (ə) belə buyurmasını nəql edir ki:

"Muhəmmədlər Allah-təalaya qarşı itaətsizlik edilməsinin qarşısını alırlar."

Ravi deyir: "Mən o həzrətdən (ə) soruşdum ki: "Muhəmmədlər kimdir?"

Buyurdu:

"Muhəmməd ibn Cəfər, Muhəmməd ibn Əbu Bəkr və Muhəmməd ibn Əbu Hüzeyfə və Muhəmməd ibn Hənəfiyyə..."

Müəllif deyir: Muhəmməd ibn Cəfərdən məqsəd Muhəmməd ibn Cəfər ibn Əbu Talibdir ki, ona Muhəmməd ibn Təyyar da deyirdilər. O, Həbəşistanda dünyaya gəlib. Muhəmməd ibn Əbu Hüzeyfədən məqsəd Muhəmməd ibn Ütbə ibn Rəbiə, Müaviyənin dayısı oğludur ki, onun atası müşriklərin başçılarından olub və Bədr müharibəsində müsəlmanlar tərəfindən öldürülüb...

2. İmam Həsəndən (ə) nəql edirlər ki, o həzrət (ə) şəhid olan zaman Qənbərə belə buyurub: "Qardaşım Muhəmməd ibn Hənəfiyyəni mənim yanıma çağır." Muhəmməd imam Həsənin (ə) yanına gəlir. İmam həsən (ə) onunla bəzi sözlər danışır, o cümlədən ona belə buyurur:

"Allah şeytanı sənə hakim etməyib və sənin üçün həsəddən qorxmuram."[1]

3. Ərbilinin "Kəşful-qümmə" kitabında Xarəzminin "Mənaqib" əsərinə istinad edərək Əmirəl-möminindən (ə) nəql etdiyi vəsiyyətnamədə deyilir ki, o həzrət (ə) imam Həsən və imam Hüseyni (ə) çağıraraq onlara belə buyurmuşdur:

"Sizə ilahi təqvanı və dünya sizi axtarsa da sizin dünyanı axtarmamağınızı tövsiyə edirəm..."

Biz vəsiyyətnaməni kitabın əvvəlki fəsillərində nəql etmişik. Həmin vəsiyyətnamədə deyilir ki, Əmirəl-möminin (ə) sonra üzünü Muhəmməd ibn Hənəfiyyəyə çevirərək belə buyurub:

"Ey Muhəmməd, qardaşlarına etdiyim vəsiyyəti yadında saxladın?" Muhəmməd deyir: "Bəli." İmam (ə) buyurur: "Elə isə bil ki, həmin şeyləri sənə də vəsiyyət edirəm. Həmçinin sənə qardaşlarının hörmətini saxlamağı vəsiyyət edirəm. Çünki onların sənin boynunda böyük haqları var. Buna görə də onların nəzərini öyrənmədən bir iş görmə." Daha sonra Həsənlə Hüseynə (ə) buyurur: "Sizə də onu tapşırıram. Çünki o, sizin qardaşınız, atanızın oğludur və siz yaxşı bilirsiniz ki, atanız onu həmişə çox istəyib..."[2]

Bu rəvayətlərin müqabilində bəzi rəvayətlər də var ki, onların zahiri Muhəmməd ibn Hənəfiyyənin məzəmmət edilməsinə dəlalət edir. Həmin rəvayətlərin

[1] Fürsanul-həyca, c. 2, s. 181

[2] Biharul-ənvar, c. 42, s. 245

biri də onun imam Səccad (ə) ilə imamət barəsində hökm çıxarılmasını istəməsi və Həcərül-əsvədin Əli ibn Hüseynin (ə) imamlığına şahidlik etməsi barəsindəki hekayətdir ki, mərhum Məclisi (r) onu Ravəndinin "Xəraic" kitabına , həmçinin "Mən la yəhzuruhul-fəqih" və digər kitablara istinad edərək nəql etmişdir. Həmin hekayətin xülasəsi belədir: Əbu Xalid Kabuli[1] nəql edir ki, imam Hüseyn (ə) şəhid olandan və imam Səccad (ə) Mədinəyə qayıtdıqdan sonra biz Məkkədə idik. Muhəmməd ibn Hənəfiyyə məni çağırıb dedi: "Əli ibn Hüseyninin yanına get və ona de ki, qardaşlarım Həsən və Hüseyndən sonra Əmirəl-möminin böyük övladı mənəm və onların canişini olmağa mən sizdən daha haqlıyam. Buna görə də yaxşı olar ki, imamlığı mənə həvalə edəsən. Əgər istəyirsənsə də bir hakim seç, biz öz iddialarımızı onun yanında həll edək."

Əbu Xalid deyir: "Mən Əli ibn Hüseynin (ə) yanına getdim və Muhəmmədin sözlərini ona çatdırdım. O həzrət (ə) buyurdu: "Onun yanına qayıt və de ki, ey əmi, Allahdan qorx və Allahın sənin üçün təyin etmədiyi şeyi iddia etmə! Əgər haqqı qəbul etmək istəmirsənsə, mənimlə sənin aranda hakim Həcərül-əsvəd (qara daş) olsun. Əgər Həcərül-əsvəd ona cavab versə, imam odur."

Əbu Xalid deyir: "Mən bu cavabı Muhəmmədə çatdırdım. O da Həcərül-əsvədin yanında hökm çıxarılması təklifi ilə razılaşdı." Əbu Xalid deyir: "Onların hər ikisi Həcərül-əsvədin yanına getdilər. Mən də onların yanında idim. Əli ibn Hüseyn (ə) üzünü Muhəmmədə tutub dedi: "Əmi can, sən yaşda məndən böyüksən, qabağa keç və Həcərül-əsvəddən sənin xeyirinə şahidlik etməsini istə."

Muhəmməd qabağa keçib iki rükət namaz qıldı və dua oxudu, sonra Həcərül-əsvəddən əgər imamət onun haqqıdırsa onun üçün şahidlik etməsini istədi. Lakin Həcərül-əsvəd şahidlik etmədi. Sonra Əli ibn Hüseyn (ə) ayağa qalxdı və iki rükət namaz qılıb dedi:

"Ey Allahın Öz bəndələrindən Onun evinin ziyarətinə gələn zəvvarlar üçün şahid təyin etdiyi daş! Əgər sən mənim imamət məqamının sahibi olduğumu, Allahın bütün bəndələrin itaət etməsini vacib buyurduğu imamın mən olmağımı bilirsənsə, şahidlik elə, əmim də bilsin ki, imamətdə onun heç bir haqqı yoxdur."

Bu vaxt Allah-təala həmin daşı dilə gətirdi və o, aydın ərəb dilində belə dedi:

---

[1] Kişşinin nəql etdiyi rəvayətə əsasən Əbu Xalid Kabulinin özü əvvəldə imam Hüseyndən (ə) sonra Muhəmməd ibn Hənəfiyyənin imam olmasına etiqad bəsləyənlərdən olub. Bir gün o, Muhəmmədin yanına gələrək deyib: "Səni and verirəm Peyğəmbərin (s) və Əmirəl-möminin (ə) hörmətinə, Allahın insanlara itaətini vacib buyurduğu o imam və rəhbər sənsən?"
Muhəmməd onun cavabında deyir: "Sən məni böyük şeyə and verdin. Bil, həm mənim, həm sənin, həm də bütün müsəlmanların imamı Əli ibn Hüseyndir." Bundan sonra Əbu Xalid imam Səccadın (ə) yanına gəlib o həzrətin qulluqçusu olur. O, uzun illər imam Səccada (ə) qulluqçuluq edib. Əbu Xalid imam Səccaddan (ə) rəvayət də nəql etmişdir. O, imam Səccadın (ə) etibarlı səhabələrindən olub.

"Ey Muhəmməd ibn Əli, imamlığı Əli ibn Hüseynə tapşır. Çünki itaəti həm sənə, həm də Allahın bütün bəndələrinə vacib olan imam nə sən deyilsən, nə də (ondan) başqa heç kəs!"

Bu vaxt Muhəmməd ibn Hənəfiyyə Əli ibn Hüseyni (ə) öpüb dedi: "İmamlıq sənə məxsusdur."

Müəllif deyir: Ravəndi bu rəvayətin ardınca deyir: "Deyirlər ki, Muhəmməd ibn Hənəfiyyə bu işi camaatda olan tərəddüdü aradan qaldırmaq üçün edib. Yoxsa ki, əslində o özü imam Səccadın (ə) imam olmasına etiqad bəsləyirmiş."

Qazi Nurullahın "Məcalisul-möminin" kitabında belə deməsi nəql edilir ki, bu mühakimə hadisəsi Keysaniyyənin zehnində olan mövcud tərəddüdü aradan qaldırmaq üçün formal mühakimə olub."

Səduqun "İkmalud-din" kitabında İmam Sadiqin (ə) belə buyurması nəql edilir ki: "Muhəmməd ibn Hənəfiyyə dünyadan Əli ibn Hüseynin (ə) imamlığını qəbul edərək köçüb."

Alimlərin Muhəmməd ibn Hənəfiyyə barəsindəki sözləri

1. İbn Nəmanın "Risaleyi şərh" kitabında belə deməsi nəql edilir ki: "Muhəmməd ibn Hənəfiyyə imam Zeynülabidindən (ə) böyük idi. Amma onun imam olmasına etiqad bəsləyir, onu özündən qabağa salır və onun icazəsi olmadan bir iş görmür, onun razılığı olmadan bir söz danışmırdı. Bunun dəlili Əhvazın alimi Əbu Bəhirdən nəql edilən hekayətdir. Əbu Bəhir Muhəmməd ibn Hənəfiyyənin imam olmasına qail olub. O deyir: "Mən illərin birində həccə getdim və öz imamım Muhəmməd ibn Hənəfiyyə ilə görüşdüm. Bir gün bir gənc onun yanından keçəndə Muhəmməd ayağa qalxaraq ona salam verdi, onun gözlərinin arasında öpdü və ona "ağa" deyərək xitab etdi. Həmin gənc gedəndən sonra Muhəmməd öz yerinə qayıtdı.

Əbu Bəhir çox təəccüb edərək ondan soruşur: "Bu gənc kim idi ki, sən onu öz ağan adlandırdın, halbuki biz sizi itaəti vacib olan imam sayırıq?"

Muhəmməd deyir: "Bəli, and olsun Allaha, bu gənc mənim imamımdır. O, Əli ibn Hüseyndir. Mən onunla imamət barəsində mübahisə etdim. O məni Həcərül-əsvədin yanına apardı..." O, Həcərül-əsvəd hadisəsini yuxarıda qeyd edilən kimi nəql edir ...

Əbu Bəhir deyir: "Həmin gündən sonra mən Muhəmməd ibn Hənəfiyyənin imamlığına etiqad bəsləməkdən və Keysaniyyə məzhəbindən əl çəkdim və həzrət Əli ibn Hüseynin (ə) imamlığına etiqad bəslədim."[1]

O, bundan sonra Əbu Xalid Kabulinin hekayətinə bənzər digər bir hekayət də nəql edib.

[1] Biharul-ənvar, c. 45, s. 346-348

2. Digər bir nəzər Əllamə Hillinin (r) Mühənnaya yazdığı cavabdır ki, biz ötən səhifələrdə onu nəql etdik.

3. Xoyinin (r) "Nəhcül-bəlağə"yə yazdığı şərhdə belə deməsi nəql edilmişdir: "Əli (ə) Muhəmmədi müharibənin ağır yerlərinə atır, onun vasitəsi ilə Həsənlə Hüseyni çətinliklərdən xilas edirdi. Muhəmmədə deyirlər ki, "nə üçün atan səni ölümün ağzına atır, amma Həsənlə Hüseyni müharibəyə göndərmir?" Muhəmməd belə cavab verir: "Onlar onun gözü, mən isə onun sağ əliyəm. O, əli ilə gözlərini qoruyur." Muhəmmədin bu cavabı onun böyüklüyünə, məqamının yüksəkliyinə və batinin saflığına dəlalət edir..."[1]

4. Şeyx Cəfər Nəqdi də "Minənur-Rəhman" kitabında Muhəmməd ibn Hənəfiyyə barəsində Ravəndi, Qazi Nurullah, İbn Nəma və başqalarının sözləri kimi ifadələr işlətmişdir.

5. həmin sözlərin bənzəri "Ümdətut-talib" kitabından da nəql edilmişdir. Orada deyilir: "Muhəmməd ibn Hənəfiyyə elm, təqva, ibadət və şücaətdə öz zamanının seçilmiş şəxslərindən olub. Əhli-sünnə alimlərindən Əbu Nəim "Hilyətül-övliya" kitabında, həmçinin Əsqəlani "Təqrib" və "Təhzibut-təhzib"də, Əbşəhi "Müstətrəf"də, eləcə də başqaları öz əsərlərində Muhəmməd ibn Hənəfiyyəni tərifləmiş və onun barəsində şiə alimlərindən nəql edilən sözlər kimi ifadələr işlətmişlər. O, Həsən və Hüseyndən sonra Əli ibn Əbu Talibin övladlarının ən üstünü olmuşdur.

* * *

Müəllif deyir: Siffeyn müharibəsi hadisələrindən danışanda Muhəmməd ibn Hənəfiyyənin şücaəti barəsində bir hekayət nəql etdik. Həmin hekayətdən Əmirəlmömininin (ə) Muhəmmədə və həmçinin Muhəmmədin atasına və qardaşlarına məhəbbətinin çoxluğunu dərk etmək mümkündür. Biz indi həmin hissəni Abbas ibn Bəkarın nəqlinə əsaslanaraq daha geniş izahla təqdim edəcəyik:

Abbas ibn Bəkar öz sənədi ilə İbn Abbasdan belə deməsini nəql edir: "Siffeyn müharibəsi günlərinin birində Əli (ə) öz oğlu Muhəmmədi çağıraraq ona belə buyurdu: "Düşmən qoşununun sağ tərəfinə hücum et!" Muhəmməd bir dəstə ilə Şam qoşununun sağ tərəfinə hücum etdi və özündən göstərdiyi şücaət ilə düşmən qoşununun sağ tərəfini dağıtdı. Sonra yaralı halda geri döndü və atasından su istədi.

Əmirəl-möminin (ə) onun yanına getdi və ona bir az su içirdi. Suyun bir miqdarını da onun zirehi ilə bədəninin arasına tökdü." Hədisin ravisi, yəni İbn Abbas deyir: "Mən zirehin halqalarının arasından qan damcılarının axdığını gördüm. Sonra Əmirəl-möminin (ə) ona bir az möhlət verdi və daha sonra buyurdu: "Qoşunun sol tərəfinə hücum et!"

[1] Nəhcül-bəlağənin şərhi, Xoyi, c. 1, s. 335

Muhəmməd öz yoldaşları ilə birinci dəfə olduğu kimi düşmən qoşununun sol tərəfinə hücum etdi və onları dağıdaraq yaralı halda atasının yanına qayıdaraq su istədi.

Əmirəl-möminin (ə) qalxıb onunla birinci dəfə olduğu kimi davrandı (ona bir az su verdi və suyun bir miqdarını da onun zirehinin içinə tökdü). Sonra ona dedi: "Düşmən qoşununun ortasına hücum et!" Muhəmməd düşmən qoşununun ortasına hücum etdi və çoxsaylı yara almış halda geri döndü. Muhəmməd ağlayırdı. Əli (ə) qalxıb onun iki gözünün arasında öpərək dedi:

"Atan sənə qurban, and olsun Allaha, sən məni sevindirdin. Bəs nə üçün ağlayırsan? Bu, sevinc göz yaşıdır yoxsa dözümsüzlük?"

Muhəmməd dedi: "Niyə ağlamayım, siz məni üç dəfə ölümün içinə göndərdiniz, Allah məni qorudu və siz hər dəfə qayıdanda mənə möhlət verməyib yenidən döyüşə göndərdiniz, amma bu iki qardaşımı – Həsənlə Hüseyni döyüşə göndərmirsiniz."

İmam (ə) Muhəmmədin başından öpüb buyurdu:

"Oğul, sən mənim övladımsan, bunlar isə Peyğəmbərin (s) oğullarıdırlar. Məgər mən onları qorumalı deyiləm?"

Muhəmməd dedi:

"Elədir ata, Allah məni sənə və o ikisinə fəda etsin!"[1]

Lakin bütün bunlara baxmayaraq...

Lakin bütün bunlara baxmayaraq Muhəmməd ibn Hənəfiyyənin məzəmməti barəsində bəzi rəvayətlər də nəql edilmişdir. Buna misal olaraq Məclisinin (r) bəzi qədim kitablardan nəql etdiyi rəvayəti göstərmək olar. Həmin rəvayətdə deyilir ki, imam Hüseyn (ə) şəhid olduqdan sonra Yezid ibn Müaviyə Muhəmmədə məktub yazıb. Muhəmməd də onun yanına gedib və Yezid onu qarşılayaraq və çoxlu hədiyyələr verib...[2] Bu barədə ətraflı məlumat almaq istəyənlər həmin mənbəyə müraciət edə bilərlər.

Lakin Əllamə Şuştərinin "Qamusur-rical"da qeyd etdiyi kimi düz-əməlli sənədi olmayan bu cür rəvayətlərin uydurma və saxta olması ehtimalı çoxdur. Onun imamət iddiası etməsinə və mühakimənin Həcərül-əsvədin yanına aparılması məsələsinə gəldikdə isə bu, Muhəmmədin məzəmmətinə səbəb olmaz və Qazi Nurullahdan nəql etdiyimiz kimi bu hadisə formal da ola bilər. Onun barəsindəki tərif və sitayişləri heç bir narahatlıq və nigaranlıq olmadan qəbul etmək olar. İşlərin həqiqətini Allah bilir.

[1] Biharul-ənvar, c. 45, s. 348-349
[2] Biharul-ənvar, c. 45, s. 325-328

Muhəmmədin imam Hüseynlə (ə) söhbəti və imam Hüseynin (ə) ona vəsiyyəti

Muhəmməd üçün yaxşı mədh sayıla bilən rəvayətlərdən biri də onun imam Hüseyn (ə) Məkkədən çıxan zaman o həzrətlə olan söhbəti və imam Hüseynin (ə) ona etdiyi vəsiyyətdir. Bu rəvayət həm onun imam Hüseynə (ə), həm də imam Hüseynin (ə) ona böyük sevgi və məhəbbətini göstərir. "Biharul-ənvar"da yazılanlara əsasən məsələ belə olub ki: Muhəmməd ibn Hənəfiyyə imam Hüseynin (ə) İraqa getmək qərarını eşidəndən sonra o həzrətin yanına gedərək deyir:

"Qardaş, sən mənə yaradılmışların ən əzizi və sevimlisisən. And olsun Allaha, mən nəsihətimi (səndən əsirgəyib) heç kəs üçün saxlamamışam və insanlar içərisində ona ən layiqli şəxs sənsən. (Buna görə də gərək zehnimə gələnləri sənə deyim.) Çünki sən mənim vücudumun şirəsi, canım, ruhum, gözüm və ailəmin böyüyüsən. Sən mənim itaət etməyim vacib olan kəssən. Çünki Allah-təala səni məndən şərəfli edib və səni cənnət əhlinin ağa və böyüklərindən edib."

O, sonra imam Hüseynə (ə) belə nəsihət verir:

"Yezid ibn Müaviyə ilə beyət etməkdən çəkin və imkan daxilində şəhərlərdən uzaq ol. Sonra camaatın yanına öz elçilərini göndər və onları özünə tərəf dəvət et. Beləliklə əgər camaat boyun əyib sənin beyət etsə, bu nemətə görə Allaha şükr et. Amma əgər onlar səndən qeyrisinin ətrafına toplaşsalar, Allah bu yolla sənin din və ağılını azaltmaz, sənin mürüvvət və üstünlüyünü aradan aparmaz (yəni əgər sənin dəvətini qəbul etməsələr, sənə bir ziyan vurmayacaqlar). Mən sənin bu şəhərlərdən birinə getməyindən və camaatın sənin barəndə iki dəstə olmasından – bir dəstənin sənin tərəfdarın, digər bir dəstənin isə sənə müxalif olmasından və onların arasında müharibə baş verməsindən və həmin vaxt nizələrin ilk hədəfinin sən olmağından qorxuram. Onda ümmətin həm özü, həm də ata-ana baxımından ən yaxşısının qanı hədərə gedərək hamının qanından dəyərsiz olar və onun əhli-beyti hamıdan xar olar." Hüseyn (ə) ona deyir: "Qardaş, bəs hara gedim?" Muhəmməd deyir: "Məkkəyə get. Əgər orada rahat və xatircəm olsan və ora sənin üçün etibarlı ev olsa, orada qal. Əgər orada qala bilməsən qumluqlara və dağların qüllələrinə sığın, bir şəhərdən başqa bir şəhərə get gör camaatın işinin sonu nə olur? Əslində bir işə üz tutan zaman sənin öz düşüncə və nəzərin hamınınkından gözəl və yaxşı olur." Hüseyn (ə) buyurur: "Qardaş, həqiqətən xeyirxahlıq və ürəyiyananlıq etdin. Sənin nəzərinin tutarlı və uğurlu olacağına ümid bəsləyirəm.

Sən nəsihət verməkdə heç nəyi əsirgəmədin və düzgün nəzəri yada saldın. Mən Məkkəyə tərəf gedirəm. Mən, qardaşlarım, qardaşım uşaqları və tərəfdarlarım yola düşməyə hazırlaşmışıq. Sənin Mədinədə qalıb camaatın işi barəsində mənə məlumat verməyinin bir eyibi yoxdur."

İmam Hüseynin (ə) bu cümləsi "nə üçün Muhəmməd Hənəfiyyə imam Hüseynlə (ə) birlikdə İraqa getmədi?" sualına cavab ola bilər.

Bu söhbətdən sonra imam Hüseyn (ə) qələm və kağız istədi və Muhəmmədə aşağıdakı vəsiyyətnaməni yazdı:

"Bismillahir Rəhmanir Rəhim. Bu, Həsən ibn Əli ibn Əbu Talibin öz qardaşı Muhəmməd ibn Hənəfiyyəyə vəsiyyətidir. Həqiqətən Hüseyn Allahın təkliyinə, Ondan başqa ibadətə layiq bir varlığın olmamasına, Onun şərikinin olmamasına şəhadət verir. Həmçinin şəhadət verir ki, Muhəmməd Onun qulu və elçisidir və Haqqın tərəfindən haqqı gətirib, Cənnət və Cəhənnəm haqdır, hesab günü gələcək, bunda heç bir şübhə yoxdur və Allah qəbirlərdə olanları dirildəcək.

Mənim bu hərəkatım nə dikbaşlıq və həddini aşmağa görədir, nə nəfsi istəklərə və şeytani maraqlara görə, nə də ondan məqsəd fəsad törətmək və ya birinə qarşı haqsızlıq etməkdir. Məni bu hərəkata sövq edən yeganə şey cəddimin ümmətinin işlərini islah etmək, fəsadın qarşısın almaq, əmr be məruf və nəhy əz münkər etmək, babam Peyğəmbərin və atam Əlinin yolunu davam etdirməkdir.

Buna görə də kim mənim dəvətimi qəbul etsə və məndən haqqı qəbul etsə, lap yaxşı, kim də qəbul etməsə, Allah mənimlə həmin dəstə arasında haqq əsasında hökm çıxarana kimi səbr edəcəyəm. O, hökm çıxaranların ən yaxşısıdır..."

Burada səbr etməkdən məqsəd bəzilərinin güman etdiyi yanlış mənada, yəni "əlimi əlimin üstünə qoyub gözləyəcəm ki, Yezid istədiyini eləsin" mənasında deyil. Ondan məqsəd səbrin imamın məqamına layiq düzgün mənasıdır, "səbr imanın əsası və Allaha ibadətin əsasıdır" mənasındadır. Yəni bu yolu təkbaşına olsa belə sona çatdıracağam ki, Allah mənimlə bunların arasında haqq hökm çıxarsın. Allah hökm çıxarmaqda bütün hakimlərdən elmli və bacarıqlıdır.

Muhəmməd ibn Hənəfiyyənin şücaəti

Tarix alimləri Muhəmməd ibn Hənəfiyyənin şücaəti barəsində çox sözlər danışıb, müxtəlif hekayətlər nəql ediblər. Biz də Cəməl və Siffeyn müharibəsinin əhvalatlarından danışanda onun misilsiz şücaətinin bəzi məqamlarını nəql etdik. İbn Sədin "Təbəqat" əsərində Siffeyn müharibəsi barəsində belə nəql edilir ki:

"Muhəmməd ibn Hənəfiyyə müharibə bayrağını öz çiyinlərində daşıyırdı. Həmin müharibədə Muhəmməd ibn Hənəfiyyədən ağılları heyran qoyan mərdlik, şücaət, qorxmazlıq, qoçaqlıq üzə çıxdı və onun adının tarix kitablarında parlamasına səbəb oldu..."[1]

Xarəzminin "Mənaqib" kitabından nəql edirlər ki, Muhəmməd ibn Hənəfiyyə Siffeyn müharibəsində bir saatın içində Müaviyənin qoşununun şücaətli qəhrəmanlarından yeddi nəfəri cəhənnəmə vasil edib. Bu hadisə Müaviyənin

[1] Təbəqat, c. 5, s. 68

qulu Kərib Əmirəl-möminin (ə) tərəfindən öldürüləndən sonra baş verib. Əmirəl-möminin (ə) Muhəmmədi ora qoyaraq buyurub: "Kim onun intiqamını almağa gəlsə, öldür!" Muhəmməd ibn Hənəfiyyə orada dayanıb və Şam qoşunundan yeddi nəfər onun intiqamını almağa gəlib. Muhəmməd onları bir-birinin ardınca məhv edib və bundan sonra daha heç kəs gəlməyib.[1]

"Müstətrəf" kitabında nəql edirlər ki, Əmirəl-möminin (ə) bir zireh almışdı. O, zirehi əyninə geyinəndə gördü ki, zireh onun əyninə uzundur. Muhəmməd dedi: "Onun uzun olan hissəsinə nişan qoyun mən onu kəsib qısaldım." Əmirəl-möminin (ə) həmin hissəyə nişan qoydu və Muhəmməd uzun olan hissəni öz əli ilə qopardı. Abdullah ibn Zübeyr bu hadisəni danışanda bədəni titrəyərdi.[2]

Mübərrədin "Kamil" kitabından belə nəql edirlər ki, Bizans imperatoru Müaviyənin yanına İslam pəhləvanları ilə yarışmaq üçün iki pəhləvan göndərir. Onlardan biri möhkəm cüssəli və hündür boylu, digəri isə çox güclü və qoluqüvvətli olur. Müaviyə Əmr ibn Asa deyir: "Bu hündürboylu pəhləvana rəqibimiz var və o, Qeys ibn Səd ibn Übadədir. O birinin rəqibi barəsində isə sənin düşüncənə ehtiyacımız var. Kim onunla gücünü sınaya və ona qalib gələ bilər?" Əmr dedi: "Zehnimdə iki nəfər var, amma sən onların hər ikisi ilə düşmənsən. Onlardan biri Muhəmməd ibn Hənəfiyyədir, o biri də Abdullah ibn Zübeyr." Müaviyə deyir: "Hal-hazırda onların hansı bizə yaxındadırsa, onu çağır." Əmr ibn As bu mühüm işin öhdəsindən gəlmək üçün Muhəmməd ibn Hənəfiyyəni çığırır. Müaviyə ümumi məclisdə oturur. Dövlətin böyük məqam sahibləri, həmçinin qəbilə başçıları da həmin məclisdə iştirak edirlər. Birinci pəhləvan meydana gəlir və Məhəmməd ilə qarşılaşır. Muhəmməd ona deyir: "Ya otur və əlini mənə ver səni yerdə qaldırım, ya da mən oturum sən mənim əlimdən yapış və məni qaldır, hansımızın güclü olması məlum olsun. Hansını istəyirsən, sən otursan ya mən oturum?" Bizanslı pəhləvan deyir: "Sən otur!" Muhəmməd oturur və əlini bizanslı pəhləvana verir. Lakin həmin pəhləvan nə qədər çalışsa da Muhəmmədi yerindən tərpədə bilmir və zəifliyini boynuna alır. Sonra Muhəmməd ayağa qalxır və bizanslı pəhləvan oturur və əlini İslam pəhləvanı Muhəmmədə verir. Muhəmməd iti bir hərəkətlə onu yerindən qaldırıb göydə saxlayır, sonra yerə atır. Məclis iştirakçıları onun gücünə "afərin!" deyilər. Müaviyə də çox sevinir.

Sonra bizanslı hündürboy pəhləvan meydana gəlir. Məclisdə iştirak edən Qeys ibn Səd bir kənara çəkilib alt paltarını çıxarıb bizanslı pəhləvana verir ki, geyinsin. Qeysin alt paltarı bizanslı pəhləvanın yuxarıdan sinəsini keçir, aşağıdan ayaqlarının üstünə düşür. Bizanslı pəhləvan utanıb kənara çəkilir və öz yerində oturur. Ənsarın

[1] Mənaqib, Xarəzmi, c. 1, s. 147
[2] Fürsanül-həyca, c. 2, s. 165

böyükləri Qeysin belə bir rəsmi məclisdə alt paltarını çıxarmasından narahat olur və onu məzəmmət edirlər. Qeys onlara şeirlə cavab verərək üzrxahlıq edir."[1]

Ümumilikdə alim və tarixçilərin hamısı Muhəmməd ibn Hənəfiyyənin adını öz kitablarında qeyd ediblər. Onlar onu şücaətli və qüvvətli bir şəxs kimi təsvir edərək bu barədə müxtəlif hekayətlər nəql ediblər ki, biz bu qədər ilə kifayətlənirik.

Keysaniyyə məzhəbi

Şəhristani özünün "Miləl və Nihəl" əsərində kitabın əvvəlində Əmirəl-möminindən (ə) sonrakı imamət barəsində danışarkən deyir: "İmamətin əvvəlki imamın və ya Peyğəmbərin (s) aşkar göstərişi ilə təsbit edilməsini deyənlər Əlidən sonra ixtilafa düçar olublar. Bəziləri deyirlər ki, Əli (ə) özündən sonra Muhəmməd Hənəfiyyəni canişin təyin edib. Bu nəzərə qail olanlara "Keysaniyyə" deyirlər. Onlar da Muhəmməd ibn Hənəfiyyədən sonra ixtilafa düçar olublar. Onların bəzisi Muhəmmədin ölmədiyini, sağ olduğunu, gələcəyini və dünyanı ədalətlə dolduracağını deyir.

Onların digər bir dəstəsinin əqidəsinə görə isə o, dünyadan köçüb və imaməti özündən sonra oğlu Əbu Haşimə keçirib...Bunlar da neçə dəstədirlər. Bəzilərinin nəzərincə imamət Əbu Haşimin övladlarında qalıb və onlar vəsiyyətlə bir-birindən sonra imamdırlar. Digər bir dəstənin nəzərinə görə isə imamət Əbu Haşimdən başqasına keçib. Həmin o başqa şəxsin kimliyi barəsində də fikir ayrılığı mövcuddur.

Bəziləri deyirlər ki, imamət Əbu Haşimdən Bəyan ibn Səm'an Nəhdiyə[2] keçib.

Digər bir dəstə imamətin Əbu Haşimdən Əli ibn Abdullah ibn Abbasa (Abbasi xəlifələrinin babasına) keçməsinə qaildir.

Başqa bir dəstə isə imamətin Abdullah ibn Haris Kəndiyə keçməsini deyir.[3]

Bəziləri də imamətin Əbu Haşimdən Abdullah ibn Müaviyə ibn Abdullah ibn Cəfər ibn Əbu Talibə keçməsinə etiqad bəsləyir.[4]

Şəhristani "Miləl və nihəl" kitabının digər bir yerində yazır: "Keysaniyyə Əmirəl-möminin azad edilmiş qulu, bəzi nəzərlərə görə isə Muhəmməd ibn Hənəfiyyənin şagirdi olan Keysanın[5] tərəfdarlarından ibarət bir məzhəbdir və on-

[1] Fürsanül-həyca, c. 2, s. 165

[2] Bəyan Nəhdi hicrətin yüzüncü ilində İraqda peyda olub və peyğəmbərlik iddiası edib, Əmirəl-möminin (ə), Muhəmməd ibn Hənəfiyyənin və onun oğlu Əbu Haşimin allahlığına qail olub. Xalid Qəsri onu qətlə yetirib və onun babasını odda yandırıb.

[3] O, allahlığın Muhəmməd və Əbu Haşimdən ona keçməsinə qail olub. Buna görə də allahlıq iddiası edib və həmin Xalid Qəsri tərəfindən öldürülüb.

[4] O, Bəni-Haşimin səxavətli və şair gənclərindən olub. O, özü üçün imamət iddiası edib və bir dəstə adam da ona qoşulub. O, 131-ci ildə Bəni-Üməyyənin zindanında dünyasını dəyişib.

[5] Bəziləri Keysanı Muxtar ibn Əbu Übeydə Səqəfinin ləqəbi sayır və ona bu ləqəbin zirəngliyinə görə Muhəmməd tərəfindən verilməsini deyirlər. Bəzilərinin isə deyirlər ki, bu ləqəbi ona uşaqlığında Əmirəl-möminin (ə) verib. Bəziləri isə onu Əlinin (ə) azad edilmiş qulunun ləqəbi sayırlar.

lar Keysana çox etiqad bəsləyirlər. Onların nəzərincə Keysan bütün elmləri bilir və bütün sirləri – təvil, batin, səma və ruhlar elmini imam Həsən və imam Hüseyndən (ə) öyrənib. Bu məzhəb ardıcıllarının etiqadına görə dinin mənası bir kişiyə itaətdir. Onlar hətta namaz, oruc, zəkat, həcc və sairə zəruri şəriət hökmlərini də kişilər mənasına yozurlar. Onların arasında metempsixoz, təcəssüm və bu kimi digər əqidələr də yaranmışdır.

Muxtariyyə də onlardandır. Onlar Muxtar ibn Əbu Übeydə Səqəfinin səhabələridirlər. Muxtar Muhəmməd tərəfindən qiyam etməsi iddiasını irəli sürüb və bəzi elmlər biruzə verərək onları Muhəmmədə isnad edib. Lakin Muhəmməd ibn Hənəfiyyə bundan xəbər tutan kimi Muxtardan uzaq olmasını elan edib...

Camaatın Muxtarın başına yığılmasının və onun Kufə hökumətini ələ ala bilməsinin iki səbəbi var idi. Onlardan biri Muxtarın öz sözlərini Muhəmməd ibn Hənəfiyyəyə isnad etməsi, özünü onun imamətinin carçılarından sayması idi, ikincisi isə Muxtarın imam Hüseyninin (ə) intiqamını almaq iddiası ilə qiyam etməsi və gecə-gündüz o həzrətə (ə) zülm edənləri və onu qətlə yetirənləri öldürməklə məşğul olması...

Şəhristani daha sonra Muxtarın metempsixoza və bu kimi etiqadlarını qeyd edir və deyir: "Muxtarın özünü Muhəmməd ibn Hənəfiyyəyə isnad etməsinin səbəbi camaatın Muhəmməd barəsindəki etiqadı, qəlblərin onun məhəbbəti ilə dolu olması idi. Muhəmməd geniş elm, bəsirət, düşüncə və nəzər sahibi idi. Əmirəlmöminin (ə) ona gələcək iş və hadisələrdən xəbər vermişdi. O, məşhurlaşmaqdan çəkinərək təkliyə çəkilmişdi. Deyirlər ki, imamət elmi onun yanında əmanət qoyulub və o, həmin elmi öz əhlinə çatdırıb. O, imaməti öz yerində bərqərar etdikdən sonra dünyasını dəyişib..."[1]

Seyid Həmiri də Muhəmmədin ölməyib sağ olmasına və Rəzəvi dağında yaşamasına etiqad bəsləyib. Onun nəzərincə Muhəmmədin yanında şir və pələng var və onlar onu qoruyurlar. Həmçinin iki çeşmə var ki, onların birindən su, digərindən isə bal çıxır və Muhəmməd onlardan istifadə edir. Həmçinin o, qeyb dövrü qurtarandan sonra gələcək və dünyanı haqq-ədalətlə dolduracaq...[2]

Müəllif deyir: Şəhristani sonra öz kitabında Muhəmməd ibn Hənəfiyyə barəsində olan digər etiqadları da geniş qeyd edərək yazır: "Deyirlər ki, o dünyadan köçüb və imamət onun oğlu Əbu Haşimə, ondan da başqalarına keçib..."[3] O, onların məşhurlaşdıqları Haşimiyyə, Harisiyyə, Bəyaniyyə, Rəzamiyyə kimi

[1] Muxtar barəsində çox söz deyilib. Onu həm mədh, həm də ya məzəmmət edən rəvayətlər çoxdur. Biz Allahın istəyi ilə imam Hüseynin (ə) həyatı barəsindəki kitabda bu barədə ətraflı danışacağıq.

[2] Sonrakı söhbətlərdə deyəcəyik ki, rəvayətlərə əsasən Seyyid həmiri bundan sonra İmam Sadiqlə (ə) görüşündə həmin əqidədən dönüb və o həzrətin imamətinə etiqad bəsləyib, hətta bu barədə bəzi şeirlər də yazıb.

[3] əl-Miləlu vən-nihəl, c. 1, s. 236-249

adları da qeyd edir və sonda deyir: "Hakimiyyəti Abbasilərin əlinə keçirən Əbu Müslim Xorasani də Keysaniyyədən olub..."

Seyyid Həmiri barəsində...

Şəhristaninin Seyyid Həmiri barəsində dediklərini nəzərə alaraq burada onun qısa tərcümeyi-halını və onun barəsində bəzi izahları verməyi lazım bilirik.

Seyyid Həmirinin adı İsmail ibn Muhəmməddir. O, Əhli-beyt (ə) şairlərindən olmuşdur. İbn Şəhr Aşubdan nəql edilənlərə əsasən o, əvvəl Xəvaricdən olub, sonra Keysaniyyə məzhəbinə keçib və sonda İmamiyyə məzhəbinə etiqad bəsləyib...

Onun Əmirəl-möminin (ə) və Əhli-beyt İmamları (ə) barəsində dediyi çoxsaylı qəsidələr, xüsusilə onun "Li-ummi Əmr" adlı qəsidəsi məşhurdur. Hətta bəzi rəvayətlərə əsasən bir vaxtlar həmin qəsidənin əzbərlənməsi şiələrə əmr edilmişdir. Mərhum Əllamə Əmini mübarək "əl-Qədir" kitabında (c. 2, s. 223), həmçinin Məclisi (r) "Biharul-ənvar"da (c. 47, s. 329) həmin qəsidəni nəql edib.

Onun şeir və qəsidələri o qədər çoxdur ki, "Təbəqatuş-şüəra"da İbn Mütəzzin belə deməsi nəql edilir: "Bir hammalın çətinliklə bir yük aparmasını görürlər. Ondan həmin yükün nə olmasını soruşurlar. Cavab verir ki, Seyyidin "Mimiyyatı"dır.[1] Yəni Seyyidin son hərfi "m" olan qəsidələridir.

"Əğani" kitabında Əbülfərəc, Əmm Mosulinin belə deməsini nəql edir ki: "Seyyid Həmirinin təkcə Bəni-Haşim barəsində dediyi qəsidələri bir yerə topladım iki min üç yüz qəsidə oldu. Öz-özlüyümdə elə bilirdim ki, onların hamısını toplamışam. Nəhayət bir gün bir kişi gəlib mənim yanımda oturdu və ondan mənə əlimdə olmayan üç qəsidə dedi. Mən təəccüb etdim və bildim ki, onun şeirləri hədsiz dərəcədə çoxdur və onların hamısını toplamaq mümkün deyil."[2]

Mədainidən nəql edirlər ki, bir gün Seyyid Həmiri Mədinənin məhəllələrinin birində dayanaraq belə deyib: "Kim gəlib mənə Əlinin (ə) barəsində şeir yazmadığım bir fəzilətini desə bu atı, onun yəhərini, xurcunu və onun içində olanların hamısını ona verəcəyəm."

Camaat gəlib o həzrətin fəzilətlərini saymağa başlayır və Seyyid də onlara həmin fəzilət barədə söylədiyi şeirləri oxuyur. Nəhayət birdən bir kişi ona belə bir hədis nəql edir ki: Bir gün Əmirəl-möminin (ə) namaz qılmaq üçün dəstəmaz almaq istəyir və buna görə də çarığını ayağından çıxarır. Bu vaxt bir zəhərli ilan gəlib o həzrətin (ə) çarığının içinə girir. Əli (ə) çarığını geyinmək istəyəndə göydən sürətlə bir qarğa gəlib həmin çarığı dimdiyinə alıb havaya qaldırır və havada tərpədərək yerə atır. Birdən həmin ilan çarığın içindən çıxır...

[1] Qamusur-rical, c. 2, s. 69 və 71
[2] Qamusur-rical, c. 2, s. 69 və 71

Seyyid Həmiri bu hədisi eşidir və vəd etdiyi şeyləri həmin kişiyə verir və bu barədə də bir qəsidə yazır.

Bütün bunlara baxmayaraq deyirlər ki, o, arada içki içirmiş. Ölümü çatanda onun üzündə bir qara ləkə yaranır və tədricən artaraq bütün surətini bürüyür, dili tutulur, pis hala düşür. Bu, onun yanında olan Əhli-beyt (ə) dostlarının təsirlənməsinə, düşmənlərin isə sevincinə səbəb olur... Lakin bu mənzərə çox çəkmir və birdən onun üzündə bir ağ nöqtə yaranır, tədricən böyüyür və nəhayət bütün üzü ağarır, dili açılır, üzü gülür və o, "Əlinin (ə) öz aşiqlərini nicat verməyəcəyini güman edənlər yalan deyirlər" misrası ilə başlayan bir neçə beyt şeir də deyir.

O, bu beytləri deyəndən sonra kəlmeyi-şəhadəti deyərək dünyadan gedir...[1]

Digər bir rəvayətdə İmam Sadiqin (ə) belə buyurması nəql edilir ki, Seyyid ölümündən qabaq şərab içməkdən tövbə edib və o həzrətdən onun üçün dua etməsini istəyib.[2]

Hər halda Şeyx Səduq (r) öz sənədi ilə Həyyan Siracdan belə deməsini nəql edir ki: "Seyyid Həmiridən belə deməsini eşitdim ki: "Mən ifrat əqidəsində idim və Muhəmməd ibn Əli ibn Hənəfiyyənin qeybə çəkilməsinə etiqad bəsləyirdim. Bir müddət bu əqidədə oldum və nəhayət Allah-təala İmam Sadiqin (ə) bərəkəti ilə mənim boynuma haqq qoydu və onun vasitəsi ilə doğru yola hidayət oldum..."

O, sonra İmam Sadiqdən (ə) qeyb barəsində sual soruşub və sonda bu barədəki məşhur şeirini yazıb.

İbn Şəhr Aşubun "Mənaqib" kitabında Seyyid Həmirinin İmam Sadiqin (ə) imamlığına etiqad bəsləməsi və həmin şeiri barəsində digər bir hekayət nəql edilmişdir. Nəql edirlər ki, Muhəmməd Hənəfiyyə İmam Sadiqin (ə) möcüzəsi ilə dirilib və o həzrətin (ə) imamətini təsdiqləyib. Bundan sonra Seyyid də o həzrətin imamətini qəbul edib və həmin şeiri yazıb.[3]

Kişşinin "Rical" kitabındakı rəvayətlərin birində deyilir ki, Seyyid Həmiri ölənə kimi Muhəmməd Hənəfiyyənin imamlığınıa etiqad bəsləyib. Kufədə onun ölüm anı çatanda öncə qeyd etdiyimiz kimi şərab içdiyinə görə onun üzü qaralıb, dili tutulub və yoldaşlarından biri Əbu Cəfər Mənsurla görüşmək üçün Kufəyə gəlmiş İmam Sadiqin (ə) yanına gedərək Seyyidin məsələsini o həzrətə danışıb. İmam Sadiq (ə) durub Seyyid Həmirinin evinə gəlib və onun yatağının kənarında oturaraq Seyyid Həmirinin dilinin açılmasına səbəb olan bir dua oxuyuraq buyurub:

"Ey Seyyid, haqqı de ki, Allah düçar olduğun bu çətinliyi aradan qaldırsın və səni öz övliyalarına vəd etdiyi Cənnətə daxil etsin."

---

[1] Biharul-ənvar, c. 47, s. 312-313

[2] Mənaqib, İbn Şəhr Aşub, c. 4, s. 246

[3] Mənaqib, İbn Şəhr Aşub, c. 4, s. 245-246

Bu vaxt Seyyid Həmiri o həzrətin (ə) imamətini qəbul edib və "bismillah və Allahu əkbər ilə cəfəri oldum" misrası ilə başlayan şeirini deyib. İmam Sadiqin (ə) hüzurunda Seyyidin halı yaxşılaşıb və o, durub oturub.[1]

Muhəmməd ibn Hənəfiyyənin doğum və vəfat tarixi

Bəziləri Muhəmməd ibn Hənəfiyyənin Əbu Bəkrin xilafəti zamanı dünyaya gəlməsini deyirlər. Lakin bəzilərinin nəzərincə o, hicrətin iyirmi birinci ilində, bəzilərinin nəzərincə isə hicrətin on beşinci ilində dünyaya gəlib. Onun Cəməl və Siffeyn müharibələrində bundan öncə qeyd etdiyimiz rəşadət və şücaətlərini nəzərə alanda sonuncu və ya birinci nəzər həqiqətə daha yaxın görünür.

Onun vəfatını bəziləri hicrətin səksəninci ilində qeyd ediblər. Bu nəzər Cəzərinin "Kamil" əsərindən nəql edilmişdir.[2] Bəziləri isə onun hicrətin 84-cü ilində vəfat etməsini deyiblər. Bu nəzər Səduqun (r) "İkmal" kitabında qeyd edilmişdir.

O, Mədinədə vəfat edib və Bəqi qəbristanlığında dəfn edilib.

Naubəxtinin "Firəq" kitabında nəql edilir ki, Muhəmməd hicrətin 81-ci ilində 65 yaşında vəfat edib. O, 24 il atası ilə yaşayıb və atasından sonra 41 il sağ qalıb. Onun on dörd oğlu və on qızı olub. Onun ən böyük övladı bundan öncə barəsində danışılan Əbu Haşim olub.

Əmirəl-möminin (ə) digər övladları

Ətrəf kimi məşhur olan Ömər ibn Əli

Bundan öncə qeyd etdik ki, Əmirəl-möminin (ə) övladlarının biri də Ömər Ətrəf olub. O, Əmirəl-möminin övladlarının ən kiçiyi olub və səksən beş yaşında[3] dünyasını dəyişib və Yənbədə dəfn edilib. Rəvayətlərdə onun Əbdülməlik Mərvanın zamanına kimi yaşaması nəql edilmişdir.

Bəzi tarixi mənbələrdə Ömər ibn Əlinin qardaşı imam Hüseyn (ə) ilə Kərbəlaya gedib orada şəhid olması barədə yazılanlar həqiqətə oxşamır. Ola bilər Əmirəl-möminin (ə) Ömər adında başqa bir övladı da olub və Kərbəlada o şəhid olub. Çünki qeyd etdiyimiz kimi Ömər Ətrəf Əbdülməlikin zamanına kimi yaşayıb və bəzi tarixi mənbələrdə onun Abdullah ibn Zübeyr və ondan sonra Həccac ilə beyət etməsi qeyd edilmişdir. İbn Şəhr Aşubun "Mənaqib" əsərindəki rəvayətlərin birində deyilir ki, o, imam Zeynülabidin (ə) ilə Peyğəmbərin (s) və Əmirəl-möminin (ə) sədəqə olaraq qoyub getdiyi şeylər barəsində mübahisə edib və

[1] Rical, Kişşi, s. 135

[2] Müntəxəbut-təvarix, s. 383

[3] "Qamusur-rical" kitabında onun 75, bəzi mənbələrdə isə 73 il yaşaması qeyd edilmişdir. Bizim yuxarıda qeyd etdiyimiz nəzər Sibt ibn Cauzinin "Təzkirə"də nəql etdiyinə uyğundur və "Müntəxəbut-təvarix" də oradan nəql edib.

şikayət üçün Əbdülməlikin yanına gedib, amma Əbdülməlik onlara nəzarəti imam Zeynülabidinə həvalə edib.

Bundan sonra Ömər Ətrəfin Muhəmməd adlı oğlu imam Zeynülabidinin (ə) yanına gedib və üzrxahlıq üçün o həzrətin əl-ayağını öpüb. İmam Zeynülabidin (ə) ona belə deyib: "Atanın bizdən ayrılması bizim səndən ayrılmağımıza səbəb olmur və mən qızım Xədicəni sənlə evləndirirəm."[1]

* * *

Şükr olsun Allaha ki, bu zəif bəndəyə öz imkan və bacarığı çərçivəsində övliyaların başçısı, təqvalıların fəxri həzrət Əmirəl-möminin Əli ibn Əbu Talibin (ə) həyatını qələmə almağı nəsib etdi. Bu əsəri böyük və məsum rəhbərə, o məzlum imama hədiyyə edir və bunun o həzrətin Allahın izni ilə Qiyamət günü bu üzüqara bəndəyə şəfaət etməsinə səbəb olacağına ümid edirəm.

Seyyid Haşim Rəsuli Məhəllati
27 Zilqədə 1404

[1] Mənaqibu ali Əbi Talib, c. 4, s. 172-173

MÜNDƏRİCAT

I FƏSİL
ƏMİRƏL-MÖMİNİN ƏLİ İBN ƏBUTALİBİN (Ə) ƏSİL-NƏSƏBİ

Əmirəl-möminin Əli ibn Əbutalibin (ə) valideynləri ... 3
Fatimə bint Əsədin imanı ... 5
Əbutaliblə Fatimə bint Əsədin izdivacı ... 5
Fatimə bint Əsədin Həzrət Peyğəmbərin (s) barəsində söylədikləri ... 6
Fatimə bint Əsədin vəfatı ... 6
Əbutaliblə Fatimə bint Əsədin övladları ... 8

II FƏSİL
ƏMİRƏL-MÖMİNİN ƏLİ İBN ƏBUTALİBİN(Ə) DÜNYAYA GƏLMƏSİ

Doğum tarixi ... 9
Əbutalibin Əlinin (ə) dünyaya gələcəyi barədə xəbər verməsi ... 9
Əlinin (ə) Kəbədə anadan olması ... 10
Əliyə (ə) ad qoyulması ... 11
Peyğəmbərlə(s) Əli(ə) eyni nurdan yaradılmışdır ... 14
Peyğəmbərlə (s) Əli (ə) eyni şəcərəyə mənsubdur ... 14

III FƏSİL
DÜNYAYA GƏLİŞİNDƏN HİCRƏTƏDƏK

Əli (ə) Peyğəmbər qucağında ... 16
Peyğəmbərin (s) Əliyə (ə) olan münasibəti ... 17
Əli Peyğəmbərə (s) ilk iman gətirən kişi olmuşdur ... 19
Əli ibn Əbutalib (ə) iman gətirərkən neçə yaşında olmuşdur? ... 23
Əli (ə) Peyğəmbərlə (s) çiyin-çiyinə ... 24
Yəvmud-dar hədisi ... 26
Leylətul-məbit
(Hicrət gecəsi Əlinin (ə) Peyğəmbərin (s) yatağında yatması) ... 28
Əli (ə) Fatimeyi-Zəhra (s.ə), Fatimə bint Əsəd və
Fatimə bint Zübeyr ibn Əvamla birlikdə Mədinə yolunda ... 31
Əlinin (ə) daha bir şücaəti ... 32
Peyğəmbərin (s) Mədinə yaxınlığındakı Qoba məntəqəsində Əlini (ə) gözləməsi ... 33
Əlinin (ə) daha bir fəziləti ... 33

IV FƏSİL
HİCRƏTDƏN PEYĞƏMBƏRİN (S) VƏFATINADƏK

Mədinə məscidinin inşa edilməsi və Əlinin (ə) daha bir fəziləti ... 34
Peyğəmbərlə (s) Əlinin (ə) qardaş olması ... 35
Əli ibn Əbutalib (ə) Bədr döyüşündə ... 36

Əli (ə) olmasaydı, Fatimə (s.ə) üçün layiqli ər tapılmazdı 39
Hicrətin üçüncü ili və Əlinin (ə) Ühüd döyüşündəki qəhrəmanlığı 41
Əli ibn Əbutalib (ə) Bəni-Nəzir döyüşündə 45
Xəndək döyüşü və Əli ibn Əbutalibin (ə) insanların və cinlərin ibadətindən üstün zərbəsi 47
Hüdeybiyyə sülhü və Əlinin (ə) daha bir neçə fəziləti 49
Başmaqyamayan 51
Əli ibn Əbutalibin (ə) Xeybər döyüşündəki fəzilətləri 52
Zatus-səlasil döyüşü 54
Məkkənin fəthi
Əli ibn Əbutalibin (ə) bir neçə fəziləti
Əli ibn Əbutalibin (ə) Əbu Süfyan üçün tökdüyü tədbir 56
Əbu Süfyanın Mədinəyə gəlişi 56
2. Hatib ibn Əbu Bəltəənin göndərdiyi məktubun aşkar edilməsi 58
3. Bütlərin sındırılması 60
Əli ibn Əbutalib (ə) Hüneyn döyüşündə 61
Əli ibn Əbutalibin (ə) Hüneyn döyüşündəki fəzilətləri 62
Peyğəmbərin (s) gələcəkdən xəbər verməsi və Əlinin (ə) daha bir fəziləti 65
Təbuk döyüşü və Mənzilət hədisi 67
Mübahilə əhvalatı və Əlinin (ə) daha bir fəziləti 68
Bəraət ayələrini müşriklərə çatdırmaq Əlinin (ə) fəzilətlərindən biri kimi 71
Peyğəmbərin (s) Əlini (ə) öz qurbanlığına şərik etməsi 73
Peyğəmbərin(s) vida həccindən qayıtması və Qədir-xum əhvalatı 74
Peyğəmbərin (s) son günləri və Əli ibn Əbutalibin (ə) məqamı 77

V FƏSİL
ƏLİ İBN ƏBUTALİB (Ə) İMAMƏT DÖVRÜNDƏ

Nə üçün imamı seçmək hüququ insanların ixtiyarına buraxılmamışdır? 81
Səqifə əhvalatı 85
Qurani-Kərimin bir yerə toplanılması 99
Əli ibn Əbutalib (ə) camaatı doğru yola yönəldir 91
1. Əbubəkrin xəlifəliyi dövründə 91
2. Ömərin xəlifəliyi dövründə 94
3. Osmanın xəlifəliyi dövründə 101
Osman ibn Əffanın xəlifə seçilməsi 103
Münaşidə xütbəsi 105
Osmana qarşı etiraz dalğası 109
Osmana qarşı etirazların artması 110
Misirli qiyamçıların Mədinəyə qayıdışı və Osmanın evinin yenidən mühasirəyə alınması 112
Əli ibn Əbutalibin(ə) Osman üçün su aparması 113
Osmanın digər şəhərlərin əhalisinə müraciəti 113
Osmanın qətlə yetirilməsi 114

VI FƏSİL
ƏMİRƏL-MÖMİNİN ƏLİ İBN ƏBUTALİBİN (Ə) XƏLİFƏLİK DÖVRÜ

Camaatın Əmirəl-möminin Əli ibn Əbutalibə (ə) beyət etməsi ... 117
Əmirəl-möminin Əli ibn Əbutalibin (ə) xəlifə seçilməsinin tarixi ... 119
Əmirəl-möminin Əli ibn Əbutalibə (ə) qarşı etirazların başlanması ... 121
Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) Təlhə və Zübeyrlə dialoqu ... 122
Müaviyənin Zübeyrə məktub göndərməsi ... 123
Ədalətli hökumətin ilk dörd ayına ötəri baxış ... 124
1. Əvvəlki valilərin işdən kənarlaşdırılması ... 124
2. Haqsız olaraq götürülmüş əmlakın yenidən beytül-mala qaytarılması ... 125
3. Əmirəl-möminin Əli ibn Əbutalibin (ə)beytül-mal bölgüsündəki siyasəti ... 126
4. Bərabərlik və azadlıq ... 127
5. Valilərin işinə olduqca diqqət yetirmək ... 128
6. İşdə qətiyyət ... 129
Bu da həmin əhdnamənin bir hissəsi və sonudur ... 141
Aişə, Təlhə və Zübeyrin Bəsrəyə getməsi ... 141
Həvəb itlərinin Aişəyə hürməsi ... 142
Əmirəl-möminin Əlinin(ə) Səhl ibn Hüneyfi Mədinədə
öz yerinə qoyub düşmən istiqamətinə hərəkət etməsi ... 143
Əmirəl-möminin Rəbəzə və Zi-qara yetişməsi,
Kufə valisi Əbu Musa Əşəriyə və Kufə camaatına məktub göndərməsi ... 144
Ədiyy ibn Hatəmin Əmirəl-möminin Əliyə(ə) qoşulması ... 144
Əlinin(ə) qeybdən xəbər verməsi və Üveys Qəraninin gəlişi ... 145
Əmirəl-möminin Əli ibn Əbutalibin(ə) Bəsrə valisi Osman ibn Hüneyfə məktubu ... 146
7 Cəməl döyüşü ... 148
İki qoşunun Bəsrə yaxınlığında üz-üzə gəlməsi ... 148
İki qoşunun sıralanması ... 150
Kim Quranı götürməyə hazırdır... ... 151
Döyüşə hazırlıq ... 152
Əli (əs) gələcəkdən xəbər verir ... 152
Zübeyr İbn Cərmuz adlg bir şəxs tərəfindən qətlə yetirilir ... 154
Müharibənin başlaması və İmamın əmri ... 155
Təlhə İbn Abdullahın Mərvan İbn Həkəmin oxuna tuş gələrək ölməsi ... 155
Həzrət Əli (əs)-ın Cəməl döyüşündə göstərdiyitayı bərabəri olmayan igidliklərdən nümunələr ... 156
Cəməl döyüşünün qəhrəmanları ... 158
Müharibə neçə gün çəkdi və nə vaxt bitdi. ... 161
Qoşununun məğlubiyyətindən sonra Aişənin taleyi ... 164
Cəməl müharibəsinin tələfatı və mənfi nəticələri ... 166
1) Allahın Rəsulunun (s.ə.a.s)-in Həzrət Əli (əs)-a
əhdi pozanlarla döyüşmək barəsində buyurduqları ... 167
Bu da Allahın Rəsulunun qeybdən verdiyi xəbərlərdəndir... ... 168
2) Əli (əs)-la müharibə Allahın Rəsulu (s.ə.a.s)-lə müharibə deməkdir ... 170
8 Cəməl müharibəsindən sonra Siffeyn müharibəsinin başlandığı zamana qədər ... 172
Əmirəlmöminin Əli (əs)-ın döyüşdən sonra Bəsrə əhli ilə söhbəti və onları məzəmmət etməsi ... 172

Gələcəkdən verilmiş xəbərindən 172
Bir maraqlı hədis 173
Beytülmalın bölüşürülməsi 173
Əmirəlmöminin Əli (ə.s)-ın Bəsrə sakinləri üçün ünvanladığı nitq və
Kufə sakinlərinə ünvanladığı məktub 174
İmam Əli (əs)-ın Kufə tərəfə yola düşməsi 176
Əmirəlmöminin Əli (ə.s)-ın valilərə məktub göndərməsi 177
Əmirəlmöminin Əli (ə.s)-ın Müaviyəyə məktubu 177
Müaviyənin Əmr ibn Asa məktub göndərməsi vəondan kömək istəməsi 178
Əmr Asın Müaviyənin yanına getməsi 178
Cərir ibn Abdullahın taleyi 179
Əmirəlmöminin Əli (ə.s)-ın Müaviyəyə məktubu 179
Müaviyənin Hicazın bir neçə tanınmış şəxsiyyətinə məktub göndərməsi 180
Əmirəlmöminin Əli (ə.s) öz valilərinə məktub yazır 182
Əmirəlmöminin Əli (ə.s)-la Müaviyə arasında yazılmış məktublar barəsində 184
Əmirəlmöminin Əli (ə.s)-ın xalqı Müaviyə ilə müharibəyə dəvət etməsi və
onlardan nəzərlərini soruşması 189
Münafiqlərin və əqidəsizlərin əhdlərini pozmağa başlamaları və
Əmirəlmöminin Əli (ə.s)-ın cavabı 191
Əmirəlmöminin Əli (əs)-ın Müaviyə ilə müharibəyə getdiyi zaman söylədiyi xütbə 195
9 Siffeyn döyüşünün başlaması 198
Qoşunun Nəxilə istiqamətinə hərəkəti əmri 198
Əmirəlmöminin Əli (əs) Mədaindən keçdiyi və Kəsradan (İran şahından)
qalan xarabalıqları gördüyü zaman buyurduqları 199
Əmirəlmöminin Əli (əs)-ın Kərbəlaya çatması və İmam Hüseyn (əs)-ın
şəhadəti barəsində O Həzrətə xəbər verilməsi 200
Qoşunun susaması, bunun üçün göstərilən möcüzə və rahibin hekayəsi 201
Məqəl ibn Qeysin məmuriyyəti və Əmirəlmöminin Əli (əs)-ın Rəqqəyə getməsi 204
Əmirəlmöminin Əli (əs)-ın Müaviyəyə məktubu 204
Haqq və batil qoşununun üz-üzə gəlməsi 206
Malik Əştər özünü düşmən qoşununun ön hissəsinə çatdırmaq əmrini alır 206
Əmirəlmöminin Əli (əs)-ın Siffeynə gəlməsi və Müaviyənin qoşunun suya gedən yolu bağlaması 208
Əmirəlmöminin Əli (əs) üzərinə düşən vəzifəni yerinə yetirmək üçün
yenə də müharibəyə başlamır və sonda öz silahdaşlarının etirazı ilə üzləşir 210
"Quran qarilərinin" müharibənin baş verməməsi üçün iki qoşun arasında vasitəçilik etməsi 211
Müaviyə yeni hiylə hazırlayır 212
Məhərrəm ayının çatması və müvəqqəti atəşkəs 213
Atəşkəsin başa çatması və müharibənin yenidən başlaması. 214
Əmirəlmöminin Əli (əs)-ın buyurduqları, Əmmar Yasirin Müaviyə barədə
sözləri və küfr etməsi 215
Müaviyənin qoşunundan bir dəstə döyüşçünün İraq qoşununa qoşulması 216
İki qoşunun geniş hücuma hazırlaşması və Əmirəlmöminin Əli (əs)-ın xütbəsi 217
Gecə-gündüz davam edən hücum, İmamın xütbəsi və O Həzrətin sədaqətli silahdaşları 218
Bu Səəd ibn Qeysin nitqindən bir hissədir 219

Hücum başlayır və böyük insanlar qanlarına qəltan olurlar 220
Əmirəlmöminin Əli (əs)-ın qoşunundan olan bir döyüşçünün Müaviyənin çadırına çatması..... 222
Bu çox maraqlı hadisədir 223
Müaviyənin nökərinin Əmirəlmöminin Əli (əs) tərəfindən qətlə yetirilməsi
və O Həzrətin Müaviyəni döyüşə çağırması 223
Əmmar ibn Yasirin şəhadəti 224
Əmmarın bu dünyadan apardığı son azuqə süd şərbəti oldu 226
Əmmarın şəhid olması 227
Əmirəlmöminin Əli (əs)-ın silahdaşlarından olan digər şəhidlər..... 229
Əbul Heysəm və Malik ibn Tihan 229
Xəzimə ibn Sabit "Zuşəhadəteyn" 230
Haşim ibn Ətibə "Mirqal" 230
Bir maraqlı hekayə 232
Əmirəlmöminin Əli (əs) Haşim ibn Ətibənin cənazəsi yanında 233
Abdullah ibn Bədil 233
Üveys Qərəni 235
Müharibənin son günləri, "Leylətul hərir" və Siffeyn müharəbəsinin icmalı..... 236
Dəhşətli faciə yaradan hiylə tarixin gedişatını dəyişdi 240
Quranlar nizə başına taxılır 240
Əşəs ibn Qeysin xəyanəti 241
İraq qoşununda ixtilaf və... 243
İmam (əs)-ın ruh yandıran ahı və məzlumcasına nalə çəkməsi
Dünən Əmirəlmöminin idim və bu gün məmur 243
Həqiqi müsəlmanlar və möminlər, Malik Əştər, Əmr ibn Həməq və başqaları 245
Malik Əştər 245
Əmr et Malik qayıtsın, yoxsa səni öldürəcəyik! 247
Əmr ibn Həməq..... 249
Kərdus ibn Hani Bəkri 249
Süleyman ibn Surəd Xəzai..... 250
Həzin ibn Mənzər..... 250
Münafiq Əşəs ibn Qeys faciəni yaradan şəxsə çevrilir 251
10 Hakimiyyət oyunu 252
Razılıq sənədinin başlanğıcı Əmirəlmöminin Əli (əs)-a Xədibiyyə
sülhünü və Allahın Rəsulu(s)-in qeybdən verdiyi xəbərini xatırlatdı 252
Əmirəlmöminin Əli (əs)-ın nəzərindən Əmr Asın və Müaviyənin İslamı 252
Əmirəlmöminin sülh sazişinin tənzimi işlərini onların özlərinə tapşırır 253
Abdullah ibn Abbası da qəbul etmədilər..... 254
Sülh sazişinin mətni 255
Peşiman oldular, amma xeyri olmadı..... 255
Əsirlərin taleyi 257
Əmirəlmöminin Əli (əs)-ın Siffeyindən geri dönməsi və "Dumətul Cəndələ" getməsi 257
İkili hakimiyyət vaxtı çatdı və Əbu Musanın yoldaşları onu xəbərdar etdilər 258
Kədərli hadisənin davamı və Samirinin Əmr As tərəfindən aldadılması. 260

İbn Əbul Hədidin Müaviyənin və onun Əmirəlmöminin Əli (əs)-a
qarşı çıxan digər silahdaşları barədə sözləri 263
Siffeyn döyüşüunun mənfi təsiri və insan itgisi 263
11 Mariqlər, dindən çıxmışlar və Nəhrəvan döyüşü 264
Allahın Rəsulu (s) Xəvaricin dinsizliyindən və onların qaranlıq gələcəyindən xəbər verir .. 264
İbn Əbul Hədidin sözləri 266
Xəvariclərin işə başlaması 268
Yenə də Əşəs ibn Qeysin fitnəli və münafiq işlərindən söz açaq. 269
Xəvariclərin qısa müddət ərzində törətdiyi cinayətlər. 270
Əmirəlmöminin Əli (əs)-ın xəvariclərlə müharibə məqsədilə yola düşməsi
və münəccimin hekayəsi 272
Əmirəlmöminin Əli (əs)-ın Xəvariclərlə müharibəyə gedən zaman etdiyi dua 273
Əmirəlmöminin Əli (əs) Xəvariclərin gələcəyindən xəbər verir 274
Əbu Əyub Ənsarinin "Sülh" bayrağı. 275
Döyüşün başlaması 276
Qeybən bir xəbər və Qeyb elmi barədə müxtəsər söhbət 276
Yalnız doqquz nəfər sağ qaldı 279
Döyüşün sonu və Əmirəlmöminin Əli (əs)-ın Hərqusun taleyi barədə soruşması 279
**12 Siffeyn və Nəhrivan döyüşlərindən Əmirəlmöminin Əli (əs)-ın
şəhadətinə qədər olan müddətdə Müaviyənin törətdiyi əməllər 280**
Nakislər, Qasitlər və Mariqlərlə aparılan döyüşlər Əmirəlmöminin Əli (əs)-ın gücünü zəiflətdi . 280
Əmirəlmöminin Əli (əs)-ın Kufəyə qayıtması 282
Müaviyə Misiri almaq fikrinə düşür 283
Misir hökumətinin o zaman malik olduğu vəziyyət 284
Müaviyə Misirin hakimi olan Qeys ibn Səədi onunla əməkdaşlığa dəvət edir 285
Muhəmməd ibn Əbu Bəkrin Misirdə hakimlik etməsi 287
Muhəmməd ibn Əbu Bəkrin işinin davamı 289
Əmirəlmöminin Əli (əs) Muhəmməd ibn Əbu Bəkrin işinə düzən
vermək üçün Malik Əştəri Misirə göndərir 290
Müaviyə Malik Əştərin qətli üçün plan cızır. 291
Əmirəlmöminin Əli (əs)-ın Malik Əştərin ölümündən təəssüflənməsi 291
Muhəmməd ibn Əbu Bəkrin vəzifəsindən uzaqlaşdırılması barəsində narahatlığı 293
Müaviyə Misir məsələsi barədə məşvərətetmək üçün dostlarını bir yerə toplayır 294
Müaviyə Əmr Ası mücəhhəz qoşun ilə Misiri işğal etməyə göndərir 295
Muhəmməd ibn Əbu Bəkrin şəhid olması 295
Muhəmməd ibn Əbu Bəkrin fəziləti barəsində bir neçə hədis 296
Kufə və oranın vəfasız və mənəviyyatsız camaatı barədə 297
Əmr ibn Asın sonu və ölümü 298
Müaviyə Misiri işğal etdikdən sonra İbn Həzrəmini Bəsrəyə göndərir 299
İxtişaşçılar Əmirəlmöminin Əli (əs)-ın göndərdiyi elçini də qətlə yetirdilər 300
Süfyan ibn Ouf bu məqsədlə Ənbər və Hiyt şəhərlərinə göndərilir 302
Cinayət və qarət xəbərləri Əmirəlmöminin Əli (əs)-ı çox kədərləndirir 303
Mədinədə 306
Məkkə 306

Taif 307
Ərhəb 307
Səna 307
Əmirəlmöminin Əli (əs)-ın göndərdiyi elçisinə tapşırıqları 308
Otuz min ölü və 309
13 Əmirəlmöminin Əli (əs)-ın şəhadəti 310
Əmirəlmöminin Əli (əs) Allahdan ölümünü istəyir 311
"Məni itirməmişdən qabaq məndən soruşun..." 311
Əmirəlmöminin Əli (əs)-ın şəhid olması 315
Şeyx Müfidə istinadən hadisənin davamı 316
O həzrətin (ə) qatili ən bədbəxt insan olub 321
On doqquzuncu gecə necə keçdi? 323
And olsun Allaha, hidayətin sütunları dağıldı! 325
Kufənin təbibi nə dedi? 325
Əmirəl-möminin (ə) vəsiyyətnaməsi 326
Öz qatili barəsindəki tapşırığı 328
İmamın (ə) duası qəbul oldu 328
Bu vəsiyyət də maraqlı və ibrətamizdir 329
Daha bir neçə vəsiyyət 330
İmamın (ə) şəhadəti, şəhid olduğu tarix və dəfn edildiyi yerin aşkar olması 332
O həzrətin (ə) dəfn yeri və dəfnin necəliyi 333
İmamın (ə) qəbrinin Harunun zamanında üzə çıxması 334
Səduq "Əmali"də o həzrətin şəhid olması barədə belə deyir: 335
İmam Həsənin (ə) Əmirəl-möminininin (ə)şəhid olduğu gün oxuduğu xütbə 336
İmamın (ə) dəfn mərasimində iştirak edənlər 336
14 Əmirəl-möminin (ə) övladları 336
Həzrət Əbülfəzl Abbas (ə) 338
Əbülfəzlin (ə) fəzilətlərindən bir neçə nümunə 338
Həzrət Əbülfəzl (ə) imam Səccadın (ə) dili ilə 339
Həzrət Əbülfəzl (ə) "Nahiye müqəddəsə" ziyarətnaməsində 340
Həzrət Əbülfəzl (ə) müasir qələm əhlindən birinin dili ilə 341
Həzrət Əbülfəzlin (ə) övladları 344
Muhəmməd ibn Hənəfiyyə 345
Muhəmməd ibn Hənəfiyyənin anasın Xaulənin hekayəti 345
Alimlərin Muhəmməd ibn Hənəfiyyə barəsindəki sözləri 350
Lakin bütün bunlara baxmayaraq 352
Muhəmmədin imam Hüseynlə (ə) söhbəti və imam Hüseynin (ə) ona vəsiyyəti 353
Muhəmməd ibn Hənəfiyyənin şücaəti 354
Keysaniyyə məzhəbi 356
Seyyid Həmiri barəsində 358
Muhəmməd ibn Hənəfiyyənin doğum və vəfat tarixi 360
Əmirəl-möminin (ə) digər övladları Ətrəf kimi məşhur olan Ömər ibn Əli 360